OQTAY MƏMMƏDLİ
MÜRSƏL İSMAYILOV
FAZİL İSMAYILOV

# MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ

Dərs vəsaiti

Bakı - 2008

*Bazar iqtisadiyyatına keçid uzun prosesdir... yalnız bu prosesi ardıcıl surətdə həyata keçirərək Azərbaycanın iqtisadiyyatını daha da inkişaf etdirə və xalqımızın rifah halını daha da yaxşılaşdıra bilərik... Eyni zamanda bu, nəzəriyyə ilə bağlıdır, dünya təcrübəsi ilə bağlıdır. Dünya təcrübəsini Siz – bizim mütəxəssislər, alimlər, bu sahənin müvafiq işçiləri toplamalısınız. Nəzəriyyəni – yeni nəzəriyyə icad etməyə ehtiyac yoxdur – ümumiləşdirmək, ...iqtisadiyyatımıza uyğunlaşdırmaq sizin vəzifənizdir... iqtisadçılar gərək apardığımız islahatların hər birinin həm həyata keçirilmə prosesini, həm də nəticələrini təhlil etsinlər.*

***Heydər Əliyev***

338c
M51
261241

**Elmi redaktor:**

**Muradov Şahbaz Musa oğlu** – Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**Rəy verənlər:**

**Qarayev İslam Şamil oğlu** - Azərbaycan Dövlət İqtisad Universiteti Qiymət kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü.

**Məmmədov Füzuli Əziz oğlu** – Azərbaycan Texnologiya Universiteti İnzibati İdarəetmə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, Gürcüstan Biznes Elmləri Akademiyasının həqiqi üzvü.

**Oqtay Məmmədli, Mürsəl İsmayılov, Fazil İsmayılov**
**MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ.**
**Ali məktəblər üçün dərs vəsaiti.** Bakı, 2008, «MBM», 560 səh.

Dərs vəsaitində bazar iqtisadiyyatı və ona keçid dövründə milli iqtisadiyyatın tənzimlənməsinə dair müxtəlif baxışlar, dövlət tərəfindən tənzimləmə sisteminin təşəkkül tapması, onun inkişafı və çatışmamazlıqları, qarışıq iqtisadiyyat şəraitində cəmiyyətin iqtisadi və sosial həyatının konkret sahələrində dövlətin funksiyalarının təkamülü, formaları, metodları və vasitələri planlı sistemdən bazar iqtisadiyyatına keçid zamanı balans, proqram-məqsədli və normativ metodların və müasir dövrdə dövlətin rolunun güclənməsi ilə əlaqədar yeni meyllər nəzərdən keçirilir.

Dərs vəsaiti iqtisadiyyat və idarəetmə ixtisaslarında təhsil alan tələbələr, magistrlər, aspirantlar, habelə elmi işçilər, ali məktəb müəllimləri və milli iqtisadiyyatın tənzimlənməsi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

4303000000
M ------------------- Qrifli nəşr
N – 098 – 2008

ISBN 9952-29-032-2

© O.Məmmədli, M.İsmayılov, F.İsmayılov
Bakı, 2008, «MBM»

## MÜNDƏRİCAT

Müəlliflər haqqında qısa məlumat ........ 12
Ön söz ........ 16

I BÖLMƏ
MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARI

I FƏSİL. İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN OBYEKTİV ƏSASLARI ........ 23
1.1. İqtisadi və sosial proseslərin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi ........ 23
1.2. Qarışıq iqtisadiyyat şəraitində dövlətin iqtisadi funksiyaları ........ 30
1.3.Dövlət tənzimləməsinin obyektləri və subyektləri ........ 33
NƏTİCƏ ........ 36

II FƏSİL. İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN FORMA VƏ METODLARI ........ 39
2.1. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin formaları ........ 39
2.2. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin metodları ........ 45
2.3. İqtisadi inkişafın proqnozlaşdırılması metodları ........ 50
2.4. Dövlət tərəfindən tənzimləmənin səmərəliliyinə təsir edən amillər ........ 55
NƏTİCƏ ........ 61

III FƏSİL. QARIŞIQ İQTİSADİYYAT ŞƏRAİTİNDƏ DÖVLƏT MÜLKİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ ........ 63
3.1. Azərbaycan Respublikası iqtisadiyyatında dövlət mülkiyyətinin yeri ........ 63
3.2. Dövlət mülkiyyətinin səmərəliliyinin meyarları və idarə edilməsi ........ 69
NƏTİCƏ ........ 75

## II BÖLMƏ

## MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN FORMALARI


**IV FƏSİL. DÖVLƏTİN BÜDCƏ-VERGİ SİYASƏTİ** ............. 78

4.1. Büdcənin mahiyyəti və iqtisadiyyatın tənzimlənməsində rolu ............. 78

4.2. Dövlətin vergi sistemi. Vergilərin növləri ............. 84

4.3. Dövlət borcu, onun formaları və tənzimlənməsi ............. 91

4.4. Vergitutmanın prinsipləri, mexanizmi, tənzimlənməsi və beynəlxalq apsektləri ............. 94

4.5. Azərbaycan Respublikasının vergi sistemi ............. 98

**NƏTİCƏ** ............. 103

**V FƏSİL. DÖVLƏTİN PUL – KREDİT SİYASƏTİ** ............. 106

5.1. Pul-kredit siyasətinin nəzəri əsasları ............. 106

5.2. Pul-kredit siyasətinin məqsədi və səmərəliliyi ............. 112

5.3. Mərkəzi bankın iqtisadiyyatda pul üzrə təklifə təsiretmə mexanizmi ............. 119

5.4. Müasir dövrdə Azərbaycan dövlətinin pul-kredit siyasətinin mahiyyəti və əsas istiqamətləri ............. 125

**NƏTİCƏ** ............. 130

**VI FƏSİL. DÖVLƏTİN ANTİİNHİSAR SİYASƏTİ** ............. 133

6.1. Rəqabət və inhisar anlayışlarının iqtisadi məzmunu və formaları ............. 133

6.2. Rəqabət və inhisarın tənzimlənməsi metodları ............. 138

6.3. Azərbaycan Respublikasında rəqabət mühitinin hüquqi əsaslarının yaradılması ............. 143

6.4. Təbii inhisarların tənzimlənməsi ............. 151

**NƏTİCƏ** ............. 155

**VII FƏSİL. DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ** ............. 157

7.1. İnvestisiya prosesinin əsas anlayışları və onların qısa səciyyəsi ............. 157

7.2. İnvestisiyaların dövlət tərəfindən tənzimlənməsi......... 163
7.3. İnvestisiyaların dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri ........................................ 168
7.4. Azərbaycan Respublikasında mövcud investisiya mühiti və onun təkmilləşdirilməsi istiqamətləri .......... 175
NƏTİCƏ.............................................................................. 180

VIII FƏSİL. DÖVLƏTİN AQRAR SİYASƏTİ......................183
8.1. Cəmiyyətin sosial-iqtisadi həyatında aqrar bölmənin rolu, onun inkişaf etdirilməsinin məqsəd və vəzifələri ...................................................... 183
8.2. Aqrar-sənaye kompleksi və onun inkişaf strategiyası.. 186
8.3.Aqrar-sənaye kompleksində dövlət tənzimləməsinin istiqamətləri, metodları və mexanizmləri........ 190
NƏTİCƏ ............................................................................ 198

IX FƏSİL. KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN DÖVLƏT TƏRƏFİNDƏN MÜDAFİƏ OLUNMASI SİSTEMİ..............................................................................200
9.1. Kiçik və orta sahibkarlığın dövlət tərəfindən müdafiə olunmasının zəruriliyi.................................. 200
9.2. Kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi sistemi.............................................. 205
9.3. Kiçik və orta biznesin dövlət tərəfindən tənzimlənməsinin forma və metodları................................ 211
NƏTİCƏ ............................................................................ 218

X FƏSİL. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ.............220
10.1. Ətraf mühitin mühafizəsi sahəsində tənzimləmənin zəruriliyi ...................................................... 220
10.2. Ətraf mühitin mühafizəsi sahəsində dövlət tənzimləməsinin məqsədi, vəzifələri və səmərəliliyi........ 224
10.3. Ətraf mühitin mühafizəsi sahəsində dövlətin tənzimləmə vasitələri ................................................ 226
NƏTİCƏ ............................................................................ 234

**XI FƏSİL. REGİONLARIN İNKİŞAF ETDİRİLMƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ** .... 236
11.1. Regional siyasətin mahiyyəti və məqsədi .................. 236
11.2. Regional inkişafın dövlət tərəfindən tənzimlənməsi metodları .................. 243
NƏTİCƏ .................. 249

**XII FƏSİL. MAKROİQTİSADİ TƏNZİMLƏMƏ VƏ MİLLİ HESABDARLIQ SİSTEMİ** .................. 251
12.1. Milli hesabdarlıq sisteminin meydana gəlməsi və formalaşması .................. 251
12.2. Milli hesabdarlıq sisteminin mahiyyəti və metodoloji əsasları .................. 254
12.3. Azərbaycan Respublikasında Milli hesabdarlıq sisteminə və beynəlxalq maliyyə hesabatları standartlarına keçilməsinin zəruriliyi .................. 264
12.4. Maliyyə hesabatları üzərində nəzarətin həyata keçirilməsi .................. 268
NƏTİCƏ .................. 273

**III BÖLMƏ**
**BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ DÖVLƏTİN SOSİAL SİYASƏTİ**

**XIII FƏSİL. DÖVLƏTİN SOSİAL FUNKSİYALARI** .......... 275
13.1. Bazar iqtisadiyyatının sosial modelləri .................. 275
13.2. Dövlətin sosial funksiyaları .................. 282
NƏTİCƏ .................. 290

**XIV FƏSİL. ƏMƏK BAZARININ VƏ ƏHALİNİN MƏŞĞULLUĞUNUN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ** .................. 292
14.1. Əmək bazarının mahiyyəti və tənzimlənməsi mexanizmi .................. 292
14.2. Əmək bazarının təsnifləşdirilməsi və modelləri ......... 296
14.3. Məşğulluq anlayışı, onun mahiyyəti, iqtisadi funkisyaları və prinsipləri .................. 303

14.4. Əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi metodları ........................ 308
14.5. Məşğulluğun və əmək bazarının tənzimlənməsinin əsas istiqamətləri ............................................ 311
NƏTİCƏ ......................................................................... 317

XV FƏSİL. ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ ............. 320
15.1. Əhalinin həyat səviyyəsini ifadə edən göstəricilər ...... 320
15.2. Əhalinin pul gəlirlərinin səviyyəsi və strukturu .......... 324
15.3. Əhalinin pul gəlirlərindən istifadə olunması və istehlak xərclərinin quruluşu ........................................ 330
15.4. Əhalinin pul gəlirləri və xərcləri balansı. İstehlakın strukturunun proqnozlaşdırılması ......................... 334
15.5. Əhalinin həyat səviyyəsinin tənzimlənməsinin əsas istiqamətləri və mexanizmi ....................................... 338
NƏTİCƏ ......................................................................... 343

XVI FƏSİL. ELMİ-TƏDQİQATLARIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ .......................... 346
16.1. Milli iqtisadiyyatda elmi-tədqiqatların rolu ............... 346
16.2. Elmi-tədqiqat və təcrübə konstruktor işlərinin təsərrüfat mexanizmi və onun xüsusiyyətləri ............. 347
16.3. Elmi sahənin dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri ................................................... 350
NƏTİCƏ ......................................................................... 358

IV BÖLMƏ
MİLLİ İQTİSADİYYATIN DİNAMİKASI VƏ STRUKTURUNUN TƏNZİMLƏNMƏSİ. RESURS POTENSİALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

XVII FƏSİL. İSTEHSALIN DİNAMİKASI VƏ SƏMƏRƏLİLİYİNİN ƏSASLANDIRILMASI ............. 361
17.1. İqtisadi dinamika göstəriciləri .................................. 361
17.2. İqtisadi artıma təsir edən amillərin təsnifləşdirilməsi. 364

17.3. Dinamikanın proqnozlaşdırılması metodları............370
17.4. İstehsalın səmərəliliyini ifadə edən əsas göstəricilər... 376
17.5. İqtisadiyyatın sabitləşdirilməsi və iqtisadi artımın təmin edilməsi............................................378
NƏTİCƏ ..........................................................381

**XVIII FƏSİL. İQTİSADİYYATIN SAHƏ STRUKTURUNUN ƏSASLANDIRILMASI METODLARI......................383**
18.1. İqtisadiyyatın strukturu anlayışının mahiyyəti və növləri ........................................ 383
18.2. Sahələrarası balans, onun mahiyyəti və təkmilləşdirilməsi sahəsində görülən işlər...........................387
18.3. Sahələrarası balansın təyinatı, təhlil və proqnozlaşdırmada ondan istifadə edilməsi imkanları...............389
18.4. Sahələrarası balansın işlənib hazırlanması metodikası..................................................392
NƏTİCƏ .......................................................... 399

**XIX FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATINDA STRUKTUR DƏYİŞİKLİKLƏRİNİN APARILMASI İMKANLARI VƏ REALLAŞDIRILMASI MEXANİZMİ.......401**

19.1. Azərbaycan iqtisadiyyatının müstəqillikdən əvvəlki dövrdə formalaşmış strukturunun yenidən qurulmasının obyektiv zəruriliyi.........................................401
19.2. Azərbaycan iqtisadiyyatının mövcud strukturu, onun təhlili və qiymətləndirilməsi..........................405
19.3. Dövlət əmalıkının özəlləşdirilməsi – iqtisadiyyatın başlıca strukturformalaşdırıcı amilidir .......................413
19.4. İqtisadiyyatda mütərəqqi struktur dəyişiklikləri aparılmasında dövlət siyasətinin əsas istiqamətləri və səmərəliliyi..........................................421
19.5. Qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan dövlətinin struktur siyasətinin prioritetlərindən biridir..........................................329
NƏTİCƏ .......................................................... 436

**XX FƏSİL. ÖLKƏNİN RESURS POTENSİALI VƏ ONDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ** ........ 439
20.1. Resurs potensialının strukturu ........ 439
20.2. Resursları təsnifləşdirmə əlamətləri və əlaqələrin tipləri ........ 444
20.3. Azərbaycan Respublikasının resurs potensialı ........ 447
20.4. Resurs potensialından istifadənin səmərəliliyi ........ 451
20.5. Enerjiyə qənaət edilməsinin əsas istiqamətləri ........ 454
20.6. Ekologiya və resurs potensialından istifadə ........ 457
**NƏTİCƏ** ........ 461

**XIX FƏSİL. YANACAQ VƏ ENERGETİKA KOMPLEKSİNİN TƏNZİMLƏNMƏSİ** ........ 463
21.1. Yanacaq-energetika kompleksinin tərkibi və onun inkişaf etdirilməsi vəzifələri ........ 463
21.2. Ölkənin energetika sahəsində strategiyası və tənzimləmə ilə əlaqədar dövlət orqanlarının funksiyaları ........ 465
21.3. Dünya enerji balansı və Azərbaycanın yanacaq-energetika sahəsində imkanları ........ 469
21.4. Enerjiyə qənaət edilməsi və təbii sərvətlərdən istifadənin dövlət tərəfindən tənzimlənməsi ........ 476
**NƏTİCƏ** ........ 479

## V BÖLMƏ
## XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

**XXII FƏSİL. XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN TƏNZİMLƏNMƏSİ VƏ ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ** ........ 481
22.1. Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin zəruriliyi ........ 481
22.2. Xarici iqtisadi əlaqələrin tənzimlənməsi mexanizmi ........ 486
22.3. Xarici iqtisadi fəaliyyətin stimullaşdırılması ........ 494

22.4. Dünya təsərrüfatının qloballaşdığı müasir şəraitdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi ............ 498
NƏTİCƏ ............ 504

**XXIII FƏSİL. XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN FORMALAŞMASI VƏ İNKİŞAF ETMƏSİNDƏ DÖVLƏTİN ROLU** ............ 506
23.1. Müasir dövrdə dünya təsərrüfat əlaqələri mühitinin dəyişməsi və əsas inkişaf meylləri ............ 506
23.2. Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası prosesinin dövlət tərəfindən tənzimlənməsi ............ 513
23.3. Xarici investisiyaların dövlət tərəfindən tənzimlənməsinin məqsədi, zəruriliyi və əsas istiqamətləri ............ 522
23.4. Xarici investisiyaların dövlət tərəfindən tənzimlənməsi mexanizmi ............ 528
NƏTİCƏ ............ 533

**XXIV FƏSİL. MÜASİR DÖVRDƏ CƏMİYYƏTİN İQTİSADİ VƏ SOSİAL HƏYATINDA DÖVLƏTİN ROLUNUN DƏYİŞMƏSİ** ............ 536
24.1. Dövlətlə iqtisadiyyat arasındakı qarşılıqlı münasibətlərdə yeni meyllər ............ 536
24.2. İqtisadi inkişafın milli modelləri ............ 540
24.3. Milli iqtisadiyyatın açıq olmasının əhəmiyyəti və onu ifadə edən göstəricilər ............ 547
NƏTİCƏ ............ 551

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ............ 553

## MÜƏLLİFLƏR HAQQINDA QISA SÖZ



Gəncə Dövlət Universiteti İdarəetmə kafedrasının dosenti, iqtisad elmləri namizədi **Oqtay Qulam oğlu Məmmədli** Gəncə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə Səmədağa Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Kənd Təsərrüfatı Akademiyası) Statistika fənnindən dərs deməklə başlamış, çox gənc yaşlarında dissertasiya müdafiə edərək alimlik dərəcəsi almış və bundan sonra taleyini H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universiteti) bağlamışdır. 1977-1981-ci illərdə İnstitut Həmkarlar İttifaqı Komitəsinin sədri, 1981-1990-cı illərdə Siyasi iqtisad kafedrasının müdiri, 1988-1989 və 1989-1990-cı illər üçün instituta tələbə qəbulu komissiyasının məsul katibi olmuşdur.

O.Q.Məmmədli uzun müddətdir ki, həm özü iqtisad elminin sirlərinə yiyələnir, həm də onun tədrisi ilə məşğul olur. Bu dövrdə yüksək elmi biliyi, tədris intizamı, işgüzarlığı, tapşırılan iş üçün yüksək məsuliyyəti, intellektual səviyyəsi, doğma dilinə bağlılığı və onu mükəmməl bilməsi, davranış və nitq mədəniyyəti ilə tələbələrinin, professor-müəllim heyətinin və şəhər ictimaiyyətinin gözündə yüksək zirvəyə qalxmışdır.

O.Q.Məmmədli çoxsaylı elmi əsərlərin müəllifidir. «Kənd təsərrüfatında elmi-texniki tərəqqi» (Bakı, 1978-ci il), «Əmək məhsuldarlığının yüksəldilməsi yolları» (Müştərək, Bakı, 1987-ci il) adlı kitabçalar, «Ümummilli məhsul və milli gəlir» (Gəncə, 1997-ci il), «Orta kəmiyyətlər və variasiya göstəriciləri» (Gəncə, 2001-ci il), «Statistikanın predmeti və metodu» (Gəncə, 2002-ci il), «Statistik müşahidə» (Gəncə, 2002-ci il), «Statistik məlumatların yekunlaşdırılması və qruplaşdırılması» (Gəncə, 2002-ci il), «Statistika cədvəlləri» (Gəncə, 2002-ci il) adlı tədris vəsaitləri,

«İqtisadi nəzəriyyənin predmeti və metodu» (Gəncə, 1993-cü il, 6 ç.v.), «İqtisadi nəzəriyyənin əsasları» (Müştərək, Gəncə, 1993-cü il, ikinci hissə, 11 ç.v.), «İqtisadi nəzəriyyənin əsasları» (Müştərək, Gəncə, 1995-ci il, üçüncü hissə, 10 ç.v.), «İqtisadi təlimlər tarixi» (Bakı, 1999-cu il, 12,25 ç.v., Gəncə, 2002-ci il, 13,6 ç.v.), «Marketinqin əsasları» (Gəncə, 2000-ci il, 11,0 ç.v.), «İqtisadi nəzəriyyə» (Müştərək, Gəncə, 2002-ci il, 13,8 ç.v.), «İqtisadi nəzəriyyə» (Gəncə, 2004-cü il, 34,5 ç.v.), «Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi» (Müştərək, Bakı, 2006-cı il, 27 ç.v.), «İqtisadi nəzəriyyə» (müştərək, Bakı, 2008-ci il, 50 ç.v.) adlı iri həcmli dərs vəsaitləri, 70-ə yaxın jurnal, 150-dən çox qəzet məqaləsi onun qələminə məxsusdur.

O.Q.Məmmədli Ali təhsil sahəsində qazandığı nailiyyətlərə görə 1982-ci ildə keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin «Ali məktəb əlaçısı» döş nişanına, dəfələrlə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəkkürünə, zəhmətkeşlər arasında iqtisadi biliklərin təbliği sahəsindəki fəaliyyətinə görə isə «Bilik» cəmiyyətinin fəxri fərmanlarına layiq görülmüşdür.

O.Q.Məmmədli Gəncə Dövlət Universitetində çalışır, indi də bilmədiklərini öyrənir, bildiklərini öyrədir, «bilirəm» deməyi xoşlamır, çünki bilir ki, nə qədər çox öyrənirsə yenə də az bilir, məsləki düzgün, əqidəsi xalqına xidmət etmək - tələbələrdə iqtisadi təfəkkürün formalaşması və onların azərbaycançılıq ruhunda tərbiyə olunması sahəsində səmərəli fəaliyyət göstərmək, şəhərin ictimai həyatında fəal iştirak etmək üçün əlindən gələni əsirgəmir.

O.Q.Məmmədli elmi kadrlarin hazirlanmasinda da bilik və bacariğini əsirgəmir. Belə ki, bu dərs vəsaitinin həmmüəllifi F.İ.İsmayilovun «Müasir dövrdə Azərbaycan iqtisadiyyatının tarazli inkişaf etdirilməsində dövlətin rolu» mövzusunda namizədlik dissertasiyasi onun rəhbərliyi altinda yerinə yetirilmişdir.



**Mürsəl İsmayıl oğlu İsmayılov**

1962-ci ildə anadan olmuşdur. 1979-cu ildə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universiteti) daxil olmuş, 1983-cü ildə isə həmin institutu bitirmişdir.

Əmək fəaliyyətinə 1983-cü ildə müəllimlik peşəsi ilə başlamış və 1985-ci ildən 1992-ci ilə qədər orta məktəbdə direktor vəzifəsində işləmişdir. Atasına hörmət əlaməti olaraq «mühasiblik» peşəsini də mükəmməl öyrənərək 1993-cü ildən büdcə təşkilatı və istehsalatın müxtəlif sahələrində baş mühasib, 2000-ci ildən 2005-ci llədək Gəncə şəhər Kəpəz Bələdiyyəsində «Büdcə, Maliyyə və Mühasibatlıq» şöbəsinin müdiri, 2007-ci ildən 2008-ci ilədək 1 Saylı Regional Nəqliyyat MMC-nin rəisi olmuş, hazırda isə «Yeni Azərbaycan» qəzetində çalışır.

İqtisad elminə olan marağı onu iqtisadi biliklərə daha mükəmməl yiyələnməyə və elmi səviyyəsini artırmağa sövq etmişdir. 2007-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

M.İ.İsmayılov müxtəlif miqyaslı elmi - metodik konfranslarda iştirak edir və müasir dövrün ən aktual iqtisadi problemlərinə həsr edilmiş «Biznesin qiymətləndirilməsi məsələləri», «Əmlak bazarı və qiymətləndirmə», «Sənaye müəssisələrinin qiymətləndirilməsinin beynəlxalq təcrübəsi», «Özəlləşdirilən strateji obyektlərin qiymətləndirilməsinin təkmilləşdirilməsi istiqamətləri», «Əmlakın qiymətləndirilməsi üzrə qiymətləndiricilərin hazırlanmasını zəruriləşdirən amillər» və sair mövzularda məqalələrin, «Bazar iqtisadiyyatına keçid şəraitində özəlləşdirilən əmlakın qiymətləndirilməsi» (Bakı, 2006-cı il, 14 ç.v.) adlı monoqrafiyanın müəllifidir.



Gəncə Dövlət Universitetinin müəllimi **Fazil İsmayıl oğlu İsmayılov** 1966-cı ildə anadan olmuşdur. 1987-ci ildə həqiqi hərbi xidmətini başa vurduqdan sonra H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universiteti) qəbul olunmuş, 1992-ci ildə isə həmin institutu bitirmişdir.

Əmək fəaliyyətinə 1992-ci ildən ən çox sevdiyi müəllimlik peşəsi ilə başlamış və 1995-ci ilə qədər orta məktəbdə direktor müavini vəzifəsində işləmişdir. Eyni zamanda atasının sənətinə də hörmətlə yanaşaraq iqtisadçı olmağa da maraq göstərmişdir.

1995-ci ildən istehsalatın müxtəlif sahələrində mühasib, baş mühasib, baş iqtisadçı vəzifələrində işləmiş, 2005-ci ildən Gəncə Dövlət Universitetində çalışır.

2007-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

F.İ.İsmayılov müasir dövrün ən aktual iqtisadi problemlərinə həsr edilmiş «Sosial inkişafın milli problemləri», «Yeni Texnologiyaların iqtisadi sahədə dövlətin roluna təsiri», «Azərbaycan iqtisadiyyatının yenidən qurulmasında dövlətimizin əsas iqtisadi funksiyaları», «Dövlətin iqtisadiyyatı tənzimləmə metodları», «Dövlətin bizneslə qarşılıqlı münasibətlərinin əsas formaları», «Dövlətin pul-kredit siyasətinin mahiyyəti və əsas istiqamətləri», «Dövlətin investisiya siyasətinin təkmilləşdirilməsi» və sair məqalələrin, «Azərbaycanda iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsinin bəzi məsələləri» (Gəncə, 2004-cü il, 12,93 ç.v.) adlı monoqrafiyanın, «Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi» (müştərək, Bakı, 2006-cı il, 27 ç.v.), «İqtisadi nəzəriyyə» (müştərək, Bakı, 2008-ci il, 50 ç.v.) adlı iri həcmli dərs vəsaitlərinin müəllifidir.

# ÖN SÖZ

Cəmiyyətdə baş verən sosial-iqtisadi proseslər müxtəlif səviyyələrdə tənzimlənir, istiqamətləndirilir və idarə olunur. İdarəetmə sistemində isə iqtisadi münasibətlərin yetkinlik dərəcəsindən asılı olaraq müxtəlif forma və metodlardan istifadə edilir. Və onların hər biri iqtisadiyyatın idarə olunmasına ya bilavasitə, yaxud da dolayı yolla təsir göstərir. Sosial-iqtisadi hadisə və proseslərin əlaqələndirilməsi və onların optimallaşdırılması sahəsində fəaliyyət göstərən **idarəedicilər sistemində isə dövlət xüsusi yer tutur və çox mühüm vəzifələri yerinə yetirir.** Başqa sözlə, dövlət istər bazar münasibətləri, istərsə də ona keçid şəraitində iqtisadiyyatın tənzimlənməsi, cəmiyyətdə baş verən ziddiyyətlərin aradan qaldırılması, köhnə iqtisadi sistemə xas olan strukturların tədriclə yeni iqtisadi sistemə xas olan strukturlarla əvəz olunması və zəruri hüquqi bazanın yaradılmasını və deməli, nəticə etibarilə yeni iqtisadi sistemin normal fəaliyyət göstərməsini təmin edir. Bütün bunlar belə bir nəticə çıxarmağa imkan verir ki, dövlətlə iqtisadiyyat arasında qarşılıqlı əlaqənin, daha doğrusu, onlar arasında ən əlverişli nisbətin yaradılması və öyrənilməsi müasir dövrdə iqtisad elmi qarşısında duran ən mühüm və aktual problemlərdəndir. Dünya iqtisad elmində cəmiyyətin iqtisadi və sosial inkişafında dövlətin yeri və rolu, onun bizneslə qarşılıqlı münasibətlərinin tədqiqinə həsr edilmiş ədəbiyyatın böyük bir hissəsinin öyrənilməsi göstərir ki, bu problemə yanaşmada müxtəliflik olsa da, heç kim müasir bazar iqtisadiyyatının dövlətin müdaxiləsi olmadan tənzimlənəcəyi və inkişaf edə biləcəyini əsaslandırmağa cəhd göstərmir. **Mütəxəssislərin fikrincə, iqtisadi və sosial proseslərin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi onun özünün təbiətindən irəli gəlir**. Dövlət, demək olar ki, bütün ölkələrdə həm iqtisadi, həm də sosial inkişafa əhəmiyyətli dərəcədə təsir göstərir.

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi ilə əlaqədar mübahisə doğuran əsas məsələ yalnız iqtisadi və sosial proseslərə dövlətin müdaxilə etməsinin «ölçüsü»ndədir. Başqa sözlə, **burada söhbət «dövlət cəmiyyət həyatına müdaxilə etməlidirmi?» sualından yox, «dövlət cəmiyyət həyatına necə və**

**hansı miqyasda müdaxilə etməlidir?» sualından gedir.** Yeni və ən yeni dövrün təcrübəsi inandırıcı surətdə göstərir ki, müasir milli, xüsusilə də hüquqi dövlətlər bu və ya digər formada bütün cəmiyyətin mənafeyi və iradəsini ifadə edir. Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin təcrübəsi də bunu deməyə əsas verir. Belə ki, bu ölkələrdə iqtisadi və sosial sahələrdə dərin keyfiyyət dəyişikliklərinin getdiyi müasir şəraitdə dövlətin tənzimləmə və nəzarətetmə funksiyalarının yenidən nəzərdən keçirilməsi və onun miqyasının genişləndirilməsi meyilləri müşahidə olunur. Bu meyillər elmi-texniki innovasiyalar axınının sürətlənməsi nəticəsində sosial yönümlü iqtisadiyyatın reallıqları ilə əlaqədardır.

Beləliklə, dünya təcrübəsi göstərir ki, dövlət və biznes bir-birini tamamlayır və onların arasında ən əlverişli nisbətin yaradılması ilə əlaqədar iqtisadçıların «axtarışları» davam edir. Çünki bazar təsərrüfatı inkişaf etdikcə, elə iqtisadi və sosial problemlər meydana çıxır ki, onların xüsusi mülkiyyətin bazasında, öz-özünə, yəni bazar mexanizmləri vasitəsilə həll edilməsi mümkün olmur. Bundan başqa, elə bir iqtisadi sistem tapmaq mümkün deyildir ki, orada büdcə-vergi, pul-kredit, antiinhisar və sosial siyasət yeridilməsin, xarici və daxili investorların, kiçik, orta və iri sahibkarlığın, əmək bazarının, elmi tədqiqatların, ətraf mühitin mühafizəsinin, xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi həyata keçirilməsin. Bütün bunlara görədir ki, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə dövlətin iqtisadi rolunun öyrənilməsi iqtisadi təhsilin ayrılmaz tərkib hissəsidir.

Ona görə də müəlliflər cəmiyyətin iqtisadi və sosial həyatında dövlətin çox böyük rol oynadığını nəzərə alaraq iqtisadiyyat və idarəetmə ixtisaslarında təhsil alan tələbələr üçün **«Milli iqtisadiyyatın tənzimlənməsi»** adlı dərs vəsaiti yazmağı qarşılarına məqsəd qoymuşlar. Müəllifləri bu nəcib və olduqca məsuliyyətli işə sövq edən səbəblərdən biri məhz budur.

Məlum olduğu kimi, müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizdə sağlam bazar iqtisadiyyatının yaradılması sahəsində çox böyük işlər görülmüş və görülməkdədir. Bununla əlaqədar

olaraq Azərbaycan dövləti hazırda yeni cəmiyyət quruculuğunda fəal iştirak edən gənc mütəxəssislərdə iqtisadi təfəkkürün formalaşmasına xüsusi diqqət yetirir. Lakin qeyd etmək lazımdır ki, ölkəmizdə indiyədək bu sahədə Azərbaycan dilində nəşr olunan dərslik və dərs vəsaitləri ya azlıq edir, ya köhnəlmiş, ya da milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi ilə əlaqədar qarşıya qoyulan məqsəd və vəzifələrlə həmahəng səslənmir. Dərs vəsaitinin yazılmasını zəruri edən səbəblərdən biri də budur.

**Dərs vəsaitini yazmaqda əsas məqsəd** bazar iqtisadiyyatı şəraitində mikro və makro səviyyədə cəmiyyətin iqtisadi və sosial həyatının fəal iştirakçısı olan dövlət haqqında cəmiyyət üzvlərində təsəvvür formalaşdırmaqdan, dövlətin iqtisadi və sosial proseslərə təsir göstərməsinin formaları, metodları və mexanizmlərində baş verən dəyişikliklərin təhlili və proqnozlaşdırılması sahəsində oxucuların bilik əldə etmələrinə şərait yaratmaqdan; dövlətin rolunu, dövlət tərəfindən tənzimləmənin mahiyyəti və mexanizmlərini, onun yeni formalarının inkişafını sürətləndirən və ya ona əngəl törədən, yaxud da yeniləşdirilməsinə bu və ya digər dərəcədə təsir edən amilləri aydınlaşdırmaqdan; maraqlı dairələri və şəxsləri dövlətin iqtisadi siyasətinin mahiyyəti və metodları, habelə onun həyata keçirilməsi prinsipləri ilə ətraflı tanış etməkdən və s. ibarətdir.

**«Milli iqtisadiyyatın tənzimlənməsi»** fənni yalnız iqtisadiyyat və idarəetmə ixtisaslarında tədris olunduğuna görə, dərs vəsaiti də həmin ixtisaslarda təhsil alan tələbələr, habelə magistrlər üçün yazılmış və aşağıdakı beş bölmədən ibarətdir:

**1) Milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin nəzəri əsasları; 2) Milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin formaları; 3) Bazar iqtisadiyyatı şəraitində dövlətin sosial siyasəti; 4) Milli iqtisadiyyatın dinamikası və struktrunun tənzimlənməsi. Resurs potensialından istifadənin səmərəliliyi; 5) Xarici iqtisadi əlaqələrin dövlət tərəfindən tənzimlənməsi.**

Hər hansı bir elmi dərindən öyrənmək üçün əvvəlcə onun predmetinə aid olan ən ümumi anlayışları mənimsəmək lazımdır. Burada hər şeydən əvvəl cəmiyyətin iqtisadi və sosial həya-

tında dövlətin yeri və oynadığı rol nəzərdə tutulur. Bununla əlaqədar olaraq **birinci bölmədə** iqtisadi və sosial proseslərin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi, qarışıq iqtisadiyyat şəraitində dövlətin iqtisadi funksiyaları, dövlət tənzimləməsinin obyektləri və subyektləri, bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin əsas forma və metodları, iqtisadi inkişafın proqnozlaşdırılması üsulları, Azərbaycan Respublikasında dövlət mülkiyyətinin miqyası və quruluşu, onun səmərəliliyi meyarları və idarə edilməsi nəzərdən keçirilir.

**İkinci bölmədə** büdcənin mahiyyəti və iqtisadiyyatın tənzimlənməsində rolu, dövlətin vergi sistemi və vergilərin növləri, dövlət borcu, onun formaları və tənzimlənməsi, vergitutmanın prinsipləri, mexanizmi və təkmilləşdirilməsi, Azərbaycan Respublikasının vergi sistemi; pul-kredit siyasətinin nəzəri əsasları, məqsədi və səmərəliliyi, Mərkəzi bankın iqtisadiyyatda pul üzrə təklifə təsiretmə mexanizmi, müasir dövrdə Azərbaycan dövlətinin pul-kredit siyasətinin mahiyyəti və əsas prinsipləri; rəqabət və inhisar anlayışları, onların iqtisadi məzmunu, formaları və tənzimlənməsi metodları, ölkəmizdə rəqabət mühitinin hüquqi əsaslarının yaradılması, təbii inhisarlar, onların fəaliyyətinin tənzimlənməsi; investisiya prosesinin əsas anlayışları, onların dövlət tərəfindən tənzimlənməsi və istiqamətləri, ölkəmizdə mövcud investisiya mühiti və onun təkmilləşdirilməsinin zəruriliyi; cəmiyyətin sosial-iqtisadi həyatında aqrar bölmənin rolu, onun xüsusiyyətləri, inkişaf etdirilməsinin məqsəd və vəzifələri, Aqrar-Sənaye Kompleksinin (ASK) mahiyyəti və inkişaf strategiyası, ASK-da dövlət tənzim-ləməsinin istiqamətləri, metodları və mexanizmləri; kiçik və orta sahibkarlığın cəmiyyətdə orta təbəqənin formalaşmasında rolu, onların müdafiə olunmasının zəruriliyi və tənzimlənməsi sistemi, forma və metodları; ətraf mühitin mühafizəsi sahəsində tənzimləmənin zəruriliyi, məqsədi, vəzifələri, səmərəliliyi, vasitələri, regional siyasətin mahiyyəti və məqsədi, regional inkişafın tənzimlənməsi metodları; milli hesabdarlıq sisteminin meydana gəlməsi, formalaşması, mahiyyəti və metodoloji əsasları, ölkəmizdə milli hesabdarlıq sisteminə və beynəlxalq maliyyə hesabatları

standartlarına keçilməsinin zəruriliyi, onlar üzərində nəzarətin həyata keçirilməsi məsələləri təhlil olunur.

**Üçüncü bölmədə** bazar iqtisadiyyatının sosial modelləri, dövlətin sosial sahədə vəzifələri; əmək bazarının mahiyyəti, təsnifləşdirilməsi, tənzimlənməsi mexanizmi və modelləri, məşğulluq anlayışı, onun mahiyyəti, iqtisadi funksiyaları və prinsipləri, əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi metodları və onun əsas istiqamətləri; əhalinin həyat səviyyəsini ifadə edən göstəricilər, pul gəlirlərinin səviyyəsi və strukturu, ondan istifadə olunması və istehlak xərclərinin quruluşu, pul gəlirləri və xərcləri balansı, istehlakın strukturunun proqnozlaşdırılması, həyat səviyyəsinin tənzimlənməsinin əsas istiqamətləri və mexanizmi; milli iqtisadiyyatda elmi-tədqiqatların rolu, elmi-tədqiqat və təcrübə konstruktor işlərinin (ETTKİ) təsərrüfat mexanizmi və onun xüsusiyyətləri, elmi sahənin dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri və digər məsələlər şərh olunur.

**Dördüncü bölmədə** iqtisadi dinamika göstəriciləri və onların proqnozlaşdırılması, iqtisadi artıma təsir edən amillərin təsnifləşdirilməsi, istehsalın səmərəliliyini ifadə edən göstəricilər; istehsalın strukturu anlayışının mahiyyəti, əsaslandırılmasına yanaşılması formaları, sahələrarası balansın təyinatı, işlənib hazırlanması metodikası, təkmilləşdirilməsi sahəsində görülən işlər, təhlil zamanı və proqnozlaşdırmada ondan istifadə edilməsi imkanları; müstəqilliyimizi bərpa etdikdən sonra respublikamızın iqtisadiyyatının yenidən qurulmasının zəruriliyi, 1991-2006-cı illərdə Azərbaycan Respublikasının iqtisadiyyatında aparılan struktur dəyişiklikləri və qazanılmış nailiyyətlər, bu sahədə özəlləşdirmənin rolu, müasir dövrdə Azərbaycan dövlətinin struktur siyasətinin əsas istiqamətləri və səmərəliliyi; resurs potensialının mahiyyəti, strukturu, təsnifləşdirilməsi əlamətləri və əlaqələrin tipləri; Azərbaycan Respublikasının resurs potensialı və ondan istifadənin səmərəliliyi, enerjiyə qənaət edilməsinin əsas istiqamətləri, resurs potensialından istifadənin ekologiya ilə qarşılıqlı əlaqəsi; yanacaq-energetika kompleksinin tərkibi və onun inkişaf etdirilməsi vəzifələri, ölkənin energetika sahəsində strategi-

yası və tənzimləmə ilə əlaqədar dövlət orqanlarının funksiyaları, dünya enerji balansı və Azərbaycanın yanacaq-energetika sahəsində imkanları, enerjiyə qənaət edilməsi və təbii sərvətlərdən istifadənin dövlət tərəfindən tənzimlənməsi şərh olunur;

**Beşinci bölmədə** xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin məqsədi, mexanizmi və stimullaşdırılması, XX əsrin axırları və XXI əsrin əvvəllərində dünya təsərrüfat əlaqələri mühitində özünü göstərən əsas inkişaf meyilləri, dünya təsərrüfatının qloballaşdığı müasir şəraitdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi, xarici investisiyaların tənzimlənməsinin zəruriliyi, məqsədi və təkmilləşdirilməsinin əsas istiqamətləri; müasir dövrdə dövlətin rolunun dəyişməsi meyli, iqtisadi inkişafın milli modelləri, milli iqtisadiyyatın açıq olmasının əhəmiyyəti, meyarları, göstəriciləri və digər məsələlər nəzərdən keçirilir.

**Təbiidir ki, dərs vəsaitində onun predmetinə aid olan bütün məsələləri tələb olunan səviyyədə və hərtərəfli nəzərdən keçirmək mümkün deyildir.** Buna dərs vəsaitinin həcmi də imkan vermir. Odur ki, müəlliflər bəzi mövzularda şərh olunan məsələləri Azərbaycan iqtisadiyyatında baş verən sosial-iqtisadi proseslərlə ya yetərincə əlaqələndirə bilməmiş, ya da bunu məqsədəuyğun hesab etməmişlər. Bu, həm də onunla əlaqədardır ki: 1) ölkəmizdə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi mexanizminin dünya standartlarına uyğunlaşdırılması istiqamətində daim təkmilləşdirmələr aparılır; 2) dərs vəsaitində söhbət iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin ümumi əsaslarından gedir; 3) sağlam iqtisadi təfəkkürə və biliyə malik olan hər bir oxucu bu və ya digər problemi öyrənərkən onu cəmiyyətdə baş verən mövcud iqtisadi və sosial hadisələrlə əlaqələndirməyi bacarmalıdır; 4) müəlliflər dərs vəsaitində sadəcə olaraq faktları şərh etməklə kifayətlənməmiş, həm də onların aydınlaşdırılmasına yanaşma qaydalarını izah etməyə çalışmışlar.

Dərs vəsaiti yazılarkən yaxın və uzaq xarici ölkələrdə bu sahədə nəşr olunmuş çoxsaylı ədəbiyyat mənbələrindən istifadə edilmişdir. Yeri gəlmişkən, **dərs vəsaitini yazarkən istifadə etdiyimiz ədəbiyyat müəlliflərinə, habelə onun yazılması, çapa hazır-**

**lanması və nəşr olunmasına şərait yaradan və kömək göstərən bütün şəxslərə dərin təşəkkürümüzü bildiririk.**

Dərs vəsaiti təkcə idarəedicilər üçün deyil, müasir bazar təsərrüfatının sirlərinə yiyələnməyə çalışan, onun fəaliyyət mexanizminin nədən ibarət olması haqqında aydın təsəvvürə malik olmaq istəyənlərin hamısı üçün dəyərli mənbədir. Oxucular dərs vəsaitində nəzərdən keçirilən məsələləri dərindən öyrənməklə milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi mexanizmi ilə əlaqədar biliklərə yiyələnə, onun, yəni dövlətin həll etdiyi və həll etməli olduğu problemlərlə yaxından tanış ola, yeritdiyi iqtisadi siyasətdən baş çıxara və beləliklə də iqtisadi nəzəriyyə sahəsində qazandıqları bilikləri daha da zənginləşdirə bilərlər.

**Dərs vəsaiti, şübhəsiz ki, ideal, nöqsansız və çatışmazlıqlardan xali deyildir.** Lakin ölkəmizdə bu sahədə indiyədək nəşr olunmuş dərslik və dərs vəsaitlərindən keyfiyyətcə fərqlənir. Belə ki, müəlliflər mümkün qədər köhnəlikdən, sitatçılıqdan, həddindən çox konkret statistik rəqəmlərə istinad etməkdən uzaq olmağa çalışmış, yalnız yeri gəldikcə bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin təcrübəsindən və ölkəmizin iqtisadiyyatını səciyyələndirən məlumatlardan nümunələr gətirmiş, ümumiləşdirmələr aparmaqla hər fəslin axırında qısa nəticə çıxarmışlar ki, bu da mövzunun daha yaxşı mənimsənilməsinə müsbət təsir göstərə bilər.

**Dərs vəsaiti haqqında rəy və təkliflərinizi bu ünvana göndərməyiniz xahiş olunur:** Gəncə şəhəri, Əhməd Cəmil küçəsi 1, Gəncə Dövlət Universitetinin II tədris binası, İdarəetmə kafedrası.

# I BÖLMƏ

# MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARI

## I FƏSİL

## İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN OBYEKTİV ƏSASLARI

### 1.1 İqtisadi və sosial proseslərin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi

İqtisadiyyatda bazar münasibətlərinin formalaşması sosial-iqtisadi proseslərin dövlətin tabeliyindən çıxarılmasını nəzərdə tutur. Lakin bu o, demək deyildir ki, dövlət mikro və makroiqtisadi səviyyədə bu proseslərin tənzimlənməsindən tamamilə kənarlaşdırılmalıdır. Hətta klassik liberalizmin tanınmış nümayəndələri də azad rəqabəti və sərbəst bazarı, həmçinin obrazlı ifadə ilə desək, «gecə gözətçisi» kimi təsvir etdikləri dövlət haqqında kansepsiyanı işləyib hazırlayarkən onun (yəni dövlətin) iqtisadi sistemin həyat fəaliyyətinin və səmərəliliyinin təmin olunmasına yönəldilən bir sıra funksiyaları yerinə yetirməyə borclu olduğunu etiraf etməyə məcbur olmuşlar. Məsələn, bazar iqtisadiyyatı nəzəriyyəsinin banilərindən olan A.Smit hesab edirdi ki, hökmdarın və ya dövlətin vəzifəsi bütövlükdə cəmiyyət üçün son dərəcə faydalı olan, lakin öz vəsaiti ilə bir nəfərin, yaxud da qrupun, xərcini ödəyə bilmədiyi ictimai müəssisələri yaratmaq və həyata keçirməkdən ibarətdir. Odur ki, onların xüsusi şəxslər və ya az sayda xüsusi şəxslərdən ibarət olan qrup tərəfindən yaradılması və saxlanılmasını gözləmək olmaz[1]

---

[1] A.Smit. Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqatlar (rus dilində),T.2., M-L., 1935 s 258-259

Buradan aydın olur ki, azad bazar heç də öz-özünə tənzimlənən və ya öz-özünə təshih olunan sistem deyildir. Başqa sözlə, azad prinsipinə və heç nə ilə məhdudlaşdırılmayan rəqabətə əsaslanan bazar, cəmiyyət qarşısında duran bütün problemləri həll etmək iqtidarında deyildir. Və buna görə də dövlətin cəmiyyətdə gedən iqtisadi və sosial proseslərə müdaxiləsi zəruridir.

**Dövlətlə biznesin qarşılıqlı fəaliyyəti baxımından kapitalizm bir-birindən az və ya çox dərəcədə fərqlənən iki mərhələdən keçmişdir.** Birinci mərhələdə burjua sahibkarlığını formalaşdırmağın əsas vəzifəsi özünün mənafeyini reallaşdırmaq üçün feodal dövlətinin istifadə etdiyi qeyri-iqtisadi məcburetmə formalarını aradan qaldırmaqdan ibarət olmuşdur. Bunlar öz ifadəsini azad rəqabət və sahibkarlıq prinsiplərinə əsaslanan kapitalizm mərhələsində tapmışdır. Bu dövr formalaşdığı vaxtdan təqribənX1X əsrin ikinci yarısınadək davam etmişdir. Kapitalizmin inkişafının birinci mərhələsində iqtisadiyyat sahəsində dövlətin üzərinə düşən vəzifələr, onun XX əsrdə və hazırda yerinə yetirdiyi vəzifələrlə müqayisədə bir qədər zəif görünsə də, o, heç zaman iqtisadi və sosial proseslərin tənzimlənməsindən kənarda qalmamışdır. Başqa sözlə, o dövrdə də dövlət ölkənin iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsində çox böyük rol oynamışdır.

**XIX əsrin sonu, XX əsrin əvvəllərində kapitalist iqtisadiyyatı öz inkişafının korporativ mərhələsinə daxil olmuşdur.** Bu dövrün fərqləndirici cəhətlərindən biri iqtisadi və sosial sahələrdə dövlətin tənzimləyici və nəzarətedici rolunun əhəmiyyətli dərəcədə genişlənməsidir.

Bu, bir sıra səbəblərlə, xüsusilə də istehsalın təmərküzləşməsi və mərkəzləşməsinin güclənməsi, iqtisadi əlaqələrin mürəkkəbləşməsi və sosial problemlərin kəskinləşməsi ilə əlaqədardır.

**XIX əsrin əvvəllərindən dövlətin iqtisadi funksiyalarının tədriclə genişlənməsi üç mərhələdən keçmişdir. Birinci mərhələnin** başlanması birinci dünya müharibəsi ilə əlaqədardır. Bu mərhələ 1929-1933-cü illərdəki Böyük durğunluq dövrünədək davam etmişdir. Bu dövrdə, dövlət, iqtisadiyyatda dövlət bölməsi yaratmaqla inhisarçılığa meyli məhdudlaşdırmağa çalışmış və iqti-

sadi proseslərin tənzimlənməsinə fəal müdaxilə etməyə başlamışdır. Lakin bu müdaxilə əsas etibarilə hərbi istehsal sahələri ilə məhdudlaşmışdır. Yerdə qalan sahələrdə isə təsərrüfatçılığın xüsusi kapitalist formaları hökmran mövqeyə malik olmuşdur.

1929-1933-cü illərdəki dünya iqtisadi böhranı dövlətin funksiyalarının genişlənməsində **ikinci mərhələnin** başlanğıcını qoymuşdur. Bu mərhələ ikinci dünya müharibəsinədək davam etmişdir. Bu dövrdə cəmiyyətin tarixində bazar təsərrüfatının idarə olunmasında dövlətin daim və fəal iştirakı sistemi meydana gəlmiş, iqtisadiyyatın tənzimlənməsində istifadə olunan formalar inkişaf etmiş, planlaşdırmanın ünsürləri özünü göstərmişdir. Bu cür siyasət öz ifadəsini dövlət mülkiyyətinin və dövlət büdcəsinin həcminin artmasında tapmışdır. Belə bir şəraitdə büdcə vəsaitindən təkcə dövlət aparatının saxlanması üçün deyil,həm də dövlət və xüsusi fəaliyyətin maliyyələşdirilməsi üçün istifadə olunmağa başlanmışdır. Dövlət makroiqtisadi tarazlığın tənzimlənməsi üçün büdcə-vergi siyasəti ilə yanaşı, həm də kapital qoyuluşlarının stimullaşdırılması və sosial problemlərin həllinə yönəldilən pul-kredit siyasətindən də fəal istifadə etmişdir.

**Dövlətin funksiyalarının genişlənməsində üçüncü mərhələ** ikinci dünya müharibəsindən sonra başlamış və əllinci illərin ortalarına qədər davam etmişdir. Bu mərhələ, əvvəlki mərhələdən onunla fərqlənmişdir ki, həmin vaxtadək yeridilən siyasətə iqtisadi artım sürətinin stimullaşdırılması ilə əlaqədar tədbirlər sistemi əlavə edilmişdir. Bu dövrdə dövlət, sənayenin ən mühüm sahələrinin inkişaf etdirilməsində, istehsal və sosial infrastrukturun yaradılmasında daha fəal iştirak etməyə başlamışdır.Bu mərhələdə «kapitalizmin qızıl əsri» adlandırılan növbəti mərhələnin başlanması üçün zəruri maddi zəmin yaradılmışdır.

XX əsrin 50-70-ci illərində yeridilən dövlət siyasəti aşağıdakı ilkin şərtlərə əsaslanmışdır:

1) İqtisadiyyat xüsusi kapitalist deyil, qarışıq olmalıdır. Dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyi bazarın «nöqsanlı» olması, daha dəqiq desək, onun resursları səmərəli bölüşdürmək iqtidarında olmaması ilə şərtlənir. Bu nöqsanlara ictimai nemətlərin və təbii inhisarların, xarici təsirin mövcud-

luğu, bazar haqqında informasiyaların kifayət qədər tam olmaması və s. aiddir;

2) Bazar öz-özünə sabit makroiqtisadi nəticələrə gətirib çıxarmaq iqtidarında olmadığına görə məqsədyönlü makroiqtisadi siyasət yeridilməsi zəruridir;

3) Bazar, öz-özlüyündə gəlirlərin bərabər bölüşdürülməsinə gətirib çıxarmır. Ona görə də dövlət, bir tərəfdən gəlirlərin bölüşdürülməsini tənzimləməli, digər tərəfdən isə hər hansı bir səbəbdən gəlir mənbəyindən məhrum olan şəxsləri müdafiə etməlidir. Dövlət, həm də təhsil və səhiyyə infrastrukturlarının inkişaf etdirilməsi qayğısına qalmalıdır.

Bu dövrdə dövlətin başlıca məqsədi tam məşğulluğu, qiymətlərin sabitliyini və tədiyə balansının tarazlığını təmin etməkdən ibarət olmuşdur. Bu dövrdə dövlət nəinki iqtisadi, həm də sosial münasibətlərin tənzimlənməsinə daha geniş müdaxilə etmiş, Qərbi Avropanın bir çox ölkələrində ümumi rifah dövləti ideologiyası (Welfare State - rifah dövləti) formalaşmışdır.

Keçən əsrin 50-60-cı illərində yeridilən dövlət siyasətinə təhsil, səhiyyə, mənzil tikintisi üzrə dövlət sistemi yaradılması, habelə sosial təminat, əmək haqqının minimum məbləğini tənzimləmək yolu ilə əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi üçün proqramlar daxil edilmişdir. Bir qədər sonralar bu proqramlara demoqrafiya və ekologiya, milli mədəniyyətin müdafiəsi və sairələrlə əlaqədar proqramlar əlavə edilmişdir.

**İkinci dünya müharibəsindən sonra bir çox siyasi partiyaların proqram sənədlərində**, habelə **Qərbi Avropanın üç ölkəsinin konstitusiyasında** – 1949-cu ildə AFR-in Əsas Qanununda, 1958-ci ildə Fransanın, 1978-ci ildə isə İspaniyanın Konstitusiyalarında - «sosial dövlət» anlayışı öz əksini tapmışdır.

Keçən əsrin 50-60-cı illərində inkişaf etmiş ölkələrin çoxunda **sosial dövlətin** mümkünlüyü industral cəmiyyətdən postindustral cəmiyyətə keçid dövründə yalnız maddi istehsal sahələrində deyil, həm də birinci növbədə müasir istehsalda şəxsi (insan) amilin rolunun dəyişməsi ilə əlaqədardır. «Sosial dövlət» həm də ona görə mümkün olmuşdur ki, XX əsrin ortalarında cəmiyyətdə müxtəlif sosial qruplar arasında bir növ tarazlıq yaranmışdır ki,

bu da onlara bu yolla öz mənafelərini müdafiə etmək imkanı vermişdir.

Ümumi rifah dövləti və «sosial dövlət» ideologiyasına uyğun olaraq belə hesab edilirdi ki, artıq sənayecə inkişaf etmiş ölkələrdə ümumi rifah təmin olunmuş və yeridilən sosial siyasət cəmiyyəti sabitləşdirməyə imkan vermiş, ziddiyyətlər aradan qaldırılmışdır. Və deməli, inkişaf etmiş ölkələrin ardınca yerdə qalan ölkələr də bu yolu keçməlidir.

Lakin 1974-1975-ci illərdə növbəti dünya iqtisadi böhranının baş verməsi ilə əlaqədar olaraq bu mərhələ başa çatmış, dövlətin rolu haqqında yeni ideyalar meydana gəlmiş və bununla da hazırda davam edən yeni mərhələ başlanmışdır.

**Müasir mərhələnin başlıca xüsusiyyəti «sosial dövlət» siyasətindən «səmərəli dövlət» siyasətinə keçilməsidir.** «səmərəli dövlət» siyasəti öz ifadəsini aşağıdakı iki əsas müddəada tapmışdır:

Biirncisi, dövlət, dövlət büdcəsinin kəsirli olmasına səbəb olan yersiz xərcləri azaltmaq məqsədilə yerinə yetirdiyi vəzifələrin dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırmalıdır;

İkincisi, pensiya təminatı, tibbi sığortalama, işsizliyə görə müavinətlər və digər sosial ödənişlər yalnız dövlət büdcəsi vəsaiti hesabına ödənilməməlidir. Bu xərclər bütün subyektlər arasında bərabər bölünməlidir.

Beləliklə, dövlət iqtisadi artımı təmin etməklə kifayətlənməməli, həm də bazar iqtisadiyyatının tərəfdaşı, köməkçisi olmalıdır. XX əsrin 80-90-cı illərində inkişaf etmiş kapitalist ölkələrinin əksəriyyətinin apardıqları siyasətin əsas məzmunu məhz bundan ibarət olmuşdur.

Dövlətin rolunun bu istiqamətə yönəldilməsinin səbəbləri içərisində SSRİ-də və Şərqi Avropa ölkələrində inzibati-amirlik sisteminin dağılmasını, ümumi rifah dövlətinin maliyyə siyasətinin iflasını, dövlət büdcəsi kəsirinin ilbəil artmasını, habelə son dövrlərdə Cənub-Şərqi Asiya ölkələrində baş verən və bütün dünya üçün nümunə hesab olunan «iqtisadi möcüzəni» xüsusi qeyd etmək lazımdır.

Qərb alimlərinin əksəriyyəti belə hesab edir ki, SSRİ-də və Şərqi Avropa ölkələrində inzibati-amirlik sisteminin iflası dövlə-

tin sosial problemlərin həllinə həddindən çox vəsait ayırması, iqtisadi səmərəliliyin azalmasına, iqtisadiyyatda durğunluq hallarının inkişafına gətirib çıxarmağın bariz nümunəsidir. İnkişaf etmiş ölkələrdə isə sosial ödənişlərin həddindən çox artırılması sosial işçi ştatlarının, qeyri-məhsuldar xərclərin artmasına gətirib çıxarmışdır ki, bu da öz növbəsində dövlət büdcəsi kəsirinin çoxalmasına səbəb olmuşdur.

Qərb ölkələrində Cənub-Şərqi Asiya ölkələrindəki «iqtisadi möcüzə»dən çox danışılır. Məlum olduğu kimi, keçən əsrin 70-80-ci illərində bu ölkələrdə dövlət fəal sosial siyasət yeritməmişdir. Lakin buna baxmayaraq bu ölkələr çox qısa bir müddətdə heyrətamiz müsbət iqtisadi göstəricilərə nail olmuşlar.

Müasir dövrdə mütəxəsislər Cənub-Şərqi Asiya ölkələrinin təcrübəsini əsas götürərək belə hesab edirlər ki, dövlət sosial sferanın inkişaf etdirilməsi üçün məsuliyyəti öz üzərinə götürməməlidir. O, sosial xərcləri ixtisar etməli və bunun nəticəsində sərbəstləşən vəsaiti iqtisadi fəallığın stimullaşdırılmasına yönəltməlidir. Başqa sözlə, dövlət siyasətinin əsas məqsədi iqtisadi artımın təmin edilməsi olmalıdır. Çünki iqtisadi artıma nail olunduqda sosial problemlər haqqında fikirləşmək və onları həll etmək olar.

Dövlətin iqtisadi rolunun təkamülü hər şeydən əvvəl maddi istehsalda baş verən dəyişikliklərlə izah olunur. Bunların içərisində isə istehsalın həcminin artması və iqtisadi əlaqələrin mürəkkəbləşməsi ilə yanaşı, müasir istehsalın inkişafında şəxsi amilin rolunun güclənməsi də çox mühüm rol oynamışdır. Bu dəyişikliklər makroiqtisadi tarazlığın təmin edilməsinə və sosial vəzifələrin həll olunmasına dövlətin müdaxiləsini tələb edirdi.

Maddi istehsaldakı dəyişikliklər, iqtisadi əlaqələrin mürəkkəbləşməsi, dövlətin iqtisadiyyata müdaxiləsi kimi səbəb-nəticə əlaqələri həqiqətən onun iqtisadi funksiyalarının təkamülünün yuxarıda nəzərdən keçirilən bütün mərhələlərində özünü biruzə vermişdir.

XX əsrin 80-90-cı illərində iqtisadi əlaqələrin sadələşdiyini təsəvvür etmək düzgün olmazdı. Əksinə, qarşılıqlı iqtisadi əlaqələr hazırda 30-40 il bundan əvvəlkinə nisbətən daha da mürəkkəb-

ləşmişdir. Belə ki, dövlətin fəal pul-kredit, büdcə-vergi və investisiya siyasəti olmadan ictimai istehsalın sabitliyinin təmin edilməsi qeyri mümkündür. Müasir istehsala yalnız dar ixtisasa malik olan işçilər lazım deyildir. Bununla yanaşı, müasir istehsalda çalışan işçi həm də daim dəyişən şəraitdən sərbəst surətdə baş çıxarmağı, müstəqil qərarlar qəbul etməyi bacarmalı, geniş dünyagörüşünə malik olmalıdır. Bununla birlikdə, həm də iqtisadiyyata dövlətin müdaxiləsinin azaldılması ilə əlaqədar çağırışlar edilir.

Lakin qeyd etmək lazımdır ki, iqtisadi və sosial proseslərə dövlətin müdaxiləsinin azaldılması və onun yerinə yetirdiyi funksiyaların bir qisminin digər iqtisadi subyektlərə verilməsinə cəhd göstərilməsinin maddi istehsal sistemində baş verən dəyişikliklərlə əlaqələndirilməsi düzgün deyildir. Əksinə, bu dəyişikliklər iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin daha da gücləndirilməsinin zəruri olduğunu deməyə əsas verir.

Dərin iqtisadi, sosial və siyasi dəyişikliklər dövründə dövlətin rolu xüsusilə böyükdür. Bu sözlər hazırda möhtəşəm quruculuq işlərinin getdiyi ölkəmizə də aiddir. **Azərbaycan cəmiyyətində inzibati-amirlik sistemindən qalmış idarəetmə qaydalarının tədriclə aradan qaldırıldığı**, bütün sahələrdə yeniləşmə prosesinin getdiyi, dünyanın üzünə açıq olan iqtisadiyyat yaradıldığı müasir dövrdə dövlətimiz əzəmətli, geniş miqyaslı və əhatəli vəzifələri və məsul işləri yerinə yetirir. Bu sahədə ayrı-ayrı ölkələrin təcrübəsinin, onun müsbət və mənfi cəhətlərinin öyrənilməsi məqsədəuyğun olardı. Belə olduqda ölkə öz iqtisadiyyatını malik olduğu imkanlara uyğun inkişaf etdirir, dünya birliyində layiqli yer tutur, xalqın həyat səviyyəsinin yüksəldilməsi sahəsində böyük nailiyyətlər qazanır.

Beləliklə, bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, cəmiyyətdə gedən iqtisadi və sosial proseslərə dövlətin müdaxiləsi zəruridir və bunun heç bir sübuta ehtiyacı yoxdur.

## 1.2. Qarışıq iqtisadiyyat şəraitində dövlətin əsas iqtisadi funksiyaları

Planlı, qarışıq və keçid iqtisadiyyatında olan ölkələrdə dövlətin iqtisadi proseslərə müdaxiləsinin hüdudu, onun forma və metodları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Direktiv planlar, indikativ (tövsiyə xarakteri daşıyan) planlaşdırma, proqnozlaşdırma və proqramlaşdırma mövcud iqtisadi sistemdə obyektiv surətdə formalaşmış tələblərə cavab verməlidir.

İqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun genişlənməsi bir sıra obyektiv səbəblərlə əlaqədardır. Dünya təcrübəsi göstərir ki, inkişafın mürəkkəb dövrlərində, xüsusilə də cəmiyyətdə və iqtisadiyyatda sosial-iqtisadi və texnoloji dəyişikliklərin getdiyi vaxtlarda dövlətin təşkilatçılıq fəaliyyətinin artırılması zəruridir.

Keçid dövründə olan ölkələrdə iqtisadiyyatın tənzimlənməsində dövlət xüsusilə böyük rol oynayır. Belə ki, keçid dövrünün davametmə müddəti xeyli dərəcədə məhz bu dövrdə dövlətin necə fəaliyyət göstərməsindən asılıdır.

Bazar münasibətlərinin formalaşdırılması və tənzimlənməsi, habelə resursların yenidən bölüşdürülməsi dövlətin müdaxiləsi olmadan qeyri-mümkündür. Çünki bazar münasibətlərinin formalaşdırılması köhnə strukturların ləğv edilməsi və yeni strukturların yaradılması ilə eyni vaxtda həyata keçirilir. Bunun nəticəsində bir tərəfdən iqtisadiyyatda çoxukladlılıq meydana gəldiyinə görə rəqabət üçün şərait yaranır və tələb, təsərrüfatçılığın həlledici amilinə çevrilir. Digər tərəfdən isə bu dövrdə cəmiyyətdə elə bir şərait formalaşır ki, onların həll edilməsi dövlətin müdaxiləsi olmadan mümkün deyildir.

**Dünyada mövcud olan iqtisadi sistemlərin hamısı demək olar ki, qarışıq sistemlərdir** və bir sıra vəzifələr bazar sistemi ilə dövlət arasında bölünmüşdür. Lakin buna baxmayaraq dünyanın ayrı-ayrı iqtisadi sistemləri iqtisadiyyatın idarə olunmasına və bazarın oynadığı rola görə bir-birindən fərqlənir. Bunu belə bir statistik məlumatdan görmək olar ki, hazırda milli məhsulun 80%-ə

qədəri bazar sisteminin, 20%-i isə dövlətin payına düşür. Bununla yanaşı, dövlət istehsalı maliyyələşdirməklə bərabər, iqtisadiyyatın xüsusi bölməsində yaradılan gəlirləri yenidən bölmək məqsədilə bir sıra sosial sığorta və sosial təminat proqramlarını da həyata keçirir. Statistika göstərir ki, vergilər, habelə əmtəə və xidmətlərin satın alınmasına, sosial proqramların həyata keçirilməsinə yönəldilən xərclərin ümumi məbləği milli gəlirin təqribən 1/3 hissəsini təşkil edir. Nəhayət ətraf mühitin mühafizəsi, sağlamlığın qorunması, istehlakçıların təhlükəli məhsullardan müdafiəsi ilə əlaqədar olan çoxsaylı tədbirlər, habelə müəyyən sahələrdə qiymətlərin formalaşması təcrübəsinə nəzarətin təmin edilməsi və s. əslində dövləti iqtisadi fəaliyyətin bütün sahələrində «görünməyə» sövq edir.

Ümumiyyətlə dövlət vətəndaş cəmiyyətinin siyasi və sosial-iqtisadi prinsiplərini həyata keçirir. O, makroiqtisadi bazar proseslərinin formalaşmasında fəal iştirak edir. Bunlara uyğun olaraq **qarışıq iqtisadiyyat şəraitində dövlətin əsas funksiyalarına aşağıdakılar aiddir:**

- İqtisadi qərarların qəbul edilməsi üçün hüquqi bazanın yaradılması. Dövlət, dövlətə məxsus olan və xüsusi müəssisələrin fəaliyyətini tənzimləyən qanunları işləyib hazırlayır və qəbul edir, vətəndaşların hüquq və vəzifələrini müəyyənləşdirir;
- İqtisadiyyatın sabitləşdirilməsi. Dövlət istehsalın azalması meylinin qarşısının alınması, inflyasiyanın azaldılması və işsizliyin səviyyəsinin aşağı salınması, milli valyutanın sabitliyinin təmin olunması üçün büdcə-vergi və pul-kredit siyasətindən istifadə edir;
- Bazar mexanizmi imkan vermədiyi hallarda makroiqtisadi və struktur tarazlığın qorunub saxlanması;
- İnkişaf strategiyasının işlənib hazırlanması, əlverişli investisiya və sahibkarlıq, habelə milli strategiyanın məqsədi və reallaşdırılması vasitələri də daxil olmaqla iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinin təmin olunmasında çox mühüm rol oynayan sosial mühitin formalaşdırılması;
- Resursların düzgün bölüşdürülməsi; dövlət, xüsusi müəssisələrdə istehsal olunmayan əmtəə və xidmətlərin istehsalını təşkil

edir; kənd təsərrüfatının, rabitənin, nəqliyyatın inkişaf etdirilməsi üçün şərait yaradır; ölkənin müdafiəsi və elmin inkişafı ilə əlaqədar xərcləri müəyyən edir, təhsilin səviyyəsinin inkişaf proqramlarını formalaşdırır və həyata keçirir;

- Əhalinin sosial müdafiəsi və sosial təminatı. Dövlət əmək haqqının, yaşa və əlilliyə görə pensiyaların, işsizliyə görə müavinətlərin, aztəminatlı ailələrə müxtəlif növ yardımların minumum məbləğini müəyyən edir və ona təminat verir;
- Xarici aləmdə milli biznesin qorunub saxlanması. Dövlət, qloballaşma şəraitində ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yüksəltmək məqsədilə milli biznesin fəaliyyətini əlaqələndirir;
- Ölkənin iqtisadi təhlükəsizliyinin təmin ebilməsi. Dövlət ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün konkret tədbirlər görür, hər cür təhlükəli və qeyri-sabitlik amillərinin aradan qaldırılması ilə mübarizə aparır;
- Ölkənin müdafiə qabiliyyətinin lazımi səviyyədə saxlanması.

Dövlətin ümumi funksiyaları ilə yanaşı, iqtisadiyyatın konkret sahələri və ölkənin regionlarının tənzimlənməsi ilə əlaqədar funksiyaları da vardır.

Dövlətin tənzimləmə funksiyaları onun həyata keçirdiyi sosial-iqtisadi siyasətin məqsədləri ilə müəyyən edilir. Hər bir inkişaf dövrünün - qısa, orta və uzun müddətli dövrlər–xüsusiyyətləri nəzərə alınmaqla konkret məqsəd müəyyən olunur.

**Azərbaycan dövlətinin uzunmüddətli sosial-iqtisadi siyasətinin məqsədi əhalinin həyat səviyyəsini** tədriclə yüksəltməkdən, sosial bərabərsizliyi azaltmaqdan, ölkənin müstəqilliyini və mədəni dəyərlərini qoruyub saxlamaqdan, dünya birliyində onun özünün layiqli yerini tutması üçün tədbirlər görməkdən ibarətdir.

Siyasətin məqsədi dövlətin fəaliyyətinin əsasında duran vəzifələrə, iqtisadi subyektlərin və ictimai təşkilatların mənafelərinə, hər bir adamın gündəlik arzularına uyğun gəlməlidir.

Cəmiyyətimizdə Azərbaycan xalqının ənənələrinə və müasir dövrün tələblərinə cavab verən sərbəstlik, məsuliyyət, inam kimi dəyərlər sistemi yeniləşdirilməli, dövlətlə vətəndaşlar, bizneslə

vətəndaşlar, hakimiyyətlə biznes arasında etibarlı və qarşılıqlı münasibətlər formalaşdırılmalıdır.

Bunlara uyğun olaraq ölkənin sosial-iqtisadi inkişafının tənzimlənməsinin təmin edilməsi üçün dövlətin funksiyalarının prioritetləri müəyyənləşdirilməlidir.

## 1.3. Dövlət tənzimləməsinin obyektləri və subyektləri

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənən obyektlərinə sahələr, regionlar, iqtisadi və sosial proseslər və s. daxildir. Başqa sözlə, dövlət tərəfindən tənzimlənən obyektlər dedikdə milli iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsi üçün dövlətin tənzimləyici fəaliyyətinin hansı məqsədlərə istiqamətləndirilməsi nəzərdə tutulur. Bunlara isə aşağıdakılar aiddir: iqtisadiyatın sahə, regional, təkrar istehsal və sosial strukturu; iqtisadi silsilə; məşğulluq; əhalinin həyat səviyyəsi; təhsil və kadrların hazırlanması; pul tədavülü; ETTKİ və investisiyalar; tədiyə balansı; sosial sahə və əmək münasibətləri; əhalinin sosial müdafiəsi; ətraf mühitin mühafizəsi; qiymətlərin tənzimlənməsi, antiinflyasiya prosesləri; iqtisadiyyatın dövlət bölməsi; malliyyə ehtiyatları və büdcələrarası münasibətlər; dövlət əmlakının özəlləşdirilməsi, inhisarçılığın aradan qaldırılması; iqtisadiyyatın müxtəlif sahələrində mülkiyyətin formaları; xarici iqtisadi fəaliyyət və s və i. a.

**Ölkəmizdə bazar münasibətlərinə keçid şəraitində qarşıda duran ən mühüm vəzifə** səmərəli fəaliyyət göstərən bacarıqlı mülkiyyətçilərin formalaşdırılmasından ibarətdir. Bu, indi də prioritet sahə olaraq qalır. Bu isə o deməkdir ki, mülkiyyətin strukturu, özəlləşdirmə, inhisarçılığın aradan qaldırılması tənzimləmə obyektləri kimi daim dövlətin diqqət mərkəzində olmalıdır.

Dövlət tənzimləməsinin subyektlərinə qanunverici, icraedici hakimiyyət, habelə məhkəmə orqanları daxildir. Bu, ölkəmizdə Milli Məclisdən, hökumətdən, (Nazirlər Kabineti), Azərbaycan Respublikasının Prezidentindən, Konstitusiya məhkəməsindən, habelə regional hakimiyyət orqanlarından ibarətdir.

Qarışıq iqtisadiyyat şəraitində dövlət tərəfindən tənzimlənən obyektlərdə baş verən dəyişikliklər yeni subyektlərin meydana gəlməsi ilə müşayiət olunur. XX əsrin 60-cı illərinədək qarışıq iqtisadiyyat şəraitində tənzimləmənin əsas subyekti milli dövlətlər olmuşlar.

Sənayecə inkişaf etmiş qabaqcıl ölkələrin informasiya cəmiyyətinə keçdikləri müasir dövrdə milli dövlətlərdən asılı olmayan transmilli korporasiyalar dövlət tənzimləməsində çox mühüm rol oynamağa başlamışlar. Belə ki, transmilli korporasiyalar dünya sənaye məhsullarının təqribən 50%-ə, xarici ticarətin 63%-ə, yeni texnikaya verilən patent, texnologiya və nou-haunun 4/5 hissəsinə nəzarət edirlər. Dünya taxıl, qəhvə, qarğıdalı, meşə materialları, tütün bazarlarının 90%-i, mis və alüminium filizi bazarlarının 85%-i, çay və qalay bazarının 80, banan bazarının 75%-i, təbii kauçuk və xam neftin 75%-i transmilli korporasiyaların nəzarəti altındadır.

Dünyada iqtisadi hakimyyətin çox böyük hissəsini öz əllərində cəmləşdirən təqribən 500 transmilli korporasiya vardır. İri transmilli korporasiyaların gücünü (ümumi daxili məhsul göstəricisi) hər hansı bir orta dövlətin səviyyəsi ilə müqayisə etmək olar. Bu, onlara başqa ölkələrə öz iradələrini diktə etməyə imkan verir. Məsələn, ABŞ-ın «General motors» korporasiyasının satdığı məhsulların dəyəri İsvec, Avstriya və İsveçrənin birlikdə istehsal etdikləri ümumi daxili məhsuldan çoxdur. Məsələyə tənzimləmə nöqteyi-nəzərindən yanaşıldıqda, qeyd etmək lazımdır ki, korporasiyaların daxilində qiymətlər bazar tərəfindən deyil, onların strategiyalarına uyğun olaraq özləri tərəfindən müəyyən olunduğuna görə bu, azad bazar qanunlarına tam uyğun gəlmir.

Transmilli korporasiyaların «xüsusi çəkisi»ni nəzərə aldıqda məlum olur ki, dünya iqtisadiyatının 50%-i sərbəst bazar şəraitində, 50%-i isə planlı sistemdə «fəaliyyət» göstərir. Bu sahədə iqtisadi sistemlərin konvergensiyasına[1] keçid nəzərdə tutulmuşdur. Burada məqsəd plan və bazar münasibətlərini əlaqələndir-

---

[1] Konvergensiya - latınca «konverqere» sözündən götürülmüşdür və «yaxınlaşma», «eyniləşmə» mənasını verir.

məkdən ibarətdir. Transmilli kapital dövlətin daxili bazarın tənzimlənməsi sahəsində səylərini heçə endirə və istədiyi vaxt hər hansı bir dövlətin maliyyə bazarlarını «zəbt» edə bilər. Bu isə belə bir fikir söyləməyə imkan verir ki, dövlət iri transmilli korporasiyaların işinə geniş miqyaslı müdaxilə etmək iqtidarında deyildir. Beynəlxalq Valyuta Fondu (BVF), Dünya bankı, Dünya ticarət təşkilatı və sairələr də tənzimləmə subyektləridir.

Bu təşkilatlar kredit verərkən qarşıya müəyyən şərtlər qoyur və dövlət, istər iqtisadi, istərsə də siyasi sahədə onlarla hesablaşmağa məcbur olur.

Dövlət tənzimləməsinin beynəlxalq təsisatları rolunda çıxış edən bir qrup ölkə milli iqtisadiyyatların tənzimlənməsinin ümumi məqsədi ilə kifayətlənmir, həm də tənzimləmənin ümumi mexanizmindən istifadə edirlər. Məsələn, Avropa İttifaqına daxil olan ölkələrin böyük əksəriyyətində vahid valyuta kimi avrodan istifadə olunmaqla, bəzi sahələrdə vahid vergi dərəcələri tətbiq edilir.

Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi bəzi **ölkələrin iqtisadi gücü bir sıra amillərlə müəyyən olunur.** Məsələn, keçən əsrin 90-cı illərində bir barel neftin qiyməti 8-9 dollara bərabər olmuşdur. Bu dövrdə inkişaf etməkdə olan ölkələrdə bütün əmtəəlik xammalların qiymətləri kəskin surətdə aşağı düşmüş, inkişaf etmiş ölkələrdə isə elmtutumlu əmtəələrin qiymətləri 1,5 dəfə yüksəlmişdir. Odur ki, ABŞ 8 il (1992-2000-ci illər) ərzində öz iqtisadiyyatının inflyasiyasız inkişafına demək olar ki, dünyanın digər ölkələrinin təbii ehtiyatlarından «pulsuz» istifadə etməsi sayəsində nail olmuşdur. Digər inkişaf etmiş ölkələrdə də bu yoldan istifadə edilmişdir. **Dolların hamı tərəfindən ümumi tədiyyə vasitəsi kimi qəbul olunması, ona etibar edilməsi bütün dünyada ABŞ üçün çox böyük üstünlüklər yaradır.** Dolların emissiyasına nəzarət etmək imkanı ABŞ-ın iqtisadi gücünün əsaslarından biridir. Bunun nəticəsidir ki, ABŞ ən yüksək «iqtisadi azadlıq indeksi»nə malikdir və bazarda gedən proseslərə ən az müdaxilə edən ölkələr sırasına başçılıq edir. Ölkəmizdə bazar münasibətlərinə keçidlə əlaqədar olaraq beynəlxalq maliyyə qurumlarının iqtisadiyyatın idarə olunmasında işti-

rak etmələri üçün hər cür şərait yaradılmışdır və bu sahədə əməkdaşlıq müvəffəqiyyətlə davam edir.

Dövlətin tənzimləmə fəaliyyətinin səmərəliliyini iki cəhətdən qiymətləndirmək olar. Bunlardan biri onun milli mənafelərin ifadəçisi və sosial-iqtisadi proseslərin tənzimləyicisi, digəri isə bazarın ən böyük mülkiyyətçisi və subyekti kimi çıxış etməsidir. Bunların hər birində müxtəlif qiymətləndirmə meyarlarından istifadə olunur. Bu meyarlara nəticə etibarilə əhalinin rifahının yüksəlməsinə imkan verən məhsuldar qüvvələrin inkişafı, fikrimizi bir qədər də konkretləşdirsək istehsalda tənəzzülün baş verməsi (iqtisadi artımın olmaması), iqtisadiyyatın və sosial proseslərin idarə olunmasının nəzarətdən çıxması aiddir. Səmərəlilik meyarlarına həmçinin istehsalın səmərəliliyinin yüksəlməsi (əmək məhsuldarlığının yüksəlməsi, ehtiyatlara qənaət edilməsi və i.a.) aid edilir. Son dövrlərdə iqtisadi təhlükəsizliyin, xüsusilə də onun təmin olunması ilə əlaqədar dövlətin öz vəzifələrini yerinə yetirməsinin vacibliyinin artması da buraya aid edilir.

Bunları nəzərə almaqla, dövlət tərəfindən tənzimləmənin səmərəliliyini aşağıdakı əsas meyarlardən istifadə etməklə qiymətləndirmək olar:

-proqnozlaşdırılan göstəricilərlə faktiki göstəricilərin müqayisə edilməsi;

-beynəlxalq müqayisədən istifadə olunması;

-ölkənin iqtisadi təhlükəsizliyinə qiymət vermək üçün faktiki və optimal həddin müqayisə edilməsi.

## NƏTİCƏ

iqtisadiyyatda bazar münasibətlərinin formalaşması iqtisadi və sosial proseslərin dövlətin tabeliyindən çıxarılmasını nəzərdə tutsa da bu, o demək deyildir ki, dövlət mikro və makroiqtisadi səviyyədə bu proseslərin tənzimlənməsindən kənarda qalmalıdır. Müasir dövrdə dövlətin tənzimləmə proseslərinə mudaxiləsi heç kimdə şübhə doğurmur. İqtisadçılar arasında mubahisə doğuran məsələ bu müdaxilənin «ölçüsündə»dir;

müxtəlif dövrlərdə cəmiyyətin iqtisadi və sosial həyatında dövlətin rolu eyni olmamışdır. Bu, cəmiyyətdə məhsuldar qüvvələrin və iqtisadi münasibətlərin dəyişməsi ilə əlaqədardır;

XX əsrin 50-70-cı illərində yeridilən dövlət siyasəti iqtisadiyyatın qarışıq olması prinsipinə əsaslanmış, dövlət təkcə iqtisadi münasibətlərin deyil, həm də sosial münasibətlərin tənzimlənməsinə daha geniş müdaxilə etmiş, Qərbi Avropanın bir çox ölkələrində ümumi rifah dövləti (Welfare state – rifah dövləti) ideologiyası formalaşmışdır;

«müasir dövrün başlıca xüsusiyyəti» sosial dövlət siyasətindən «səmərəli dövlət» siyasətinə keçilməsidir. Bu öz ifadəsini onda tapır ki, dövlət iqtisadi artımı təmin etməklə kifayətlənmir, həm də bazar iqtisadiyyatının tərəfdaşı, köməkçisi rolunda çıxış edir. Odur ki, keçən əsrin 80-90-cı illərində bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin əksəriyyətinin apardıqları siyasətin əsas məzmunu məhz bundan ibarət olmuşdur;

dövlətin iqtisadi rolunun təkamülü hər şeydən əvvəl istehsalda baş verən dəyişikliklərlə əlaqədardır. Burada həm istehsalın həcminin artması və iqtisadi əlaqələrin mürəkkəbləşməsi, həm də müasir istehsalın inkişafında şəxsi amilin rolunun güclənməsi mühüm rol oynamışdır;

keçid dövründə olan ölkələrdə iqtisadiyyatın tənzimlənməsində dövlət xüsusilə böyük rol oynayır. Çünki keçid dövrünün davam etdiyi müddət xeyli dərəcədə məhz bu dövrdə dövlətin necə fəaliyyət göstərməsindən asılıdır.

dünyada mövcud olan iqtisadi sistemlərin demək olar ki, hamısı qarışıq sistemdir və bir sıra vəzifələr bazar sistemi ilə dövlət arasında bölünmüşdür;

qarışıq iqtisadiyyat şəraitində dövlət aşağıdakı vəzifələri yerinə yetirir: iqtisadi qərarların yerinə yetirilməsi üçün hüquqi bazanın yaradılması; iqtisadiyyatın sabitləşdirilməsi; makroiqtisadi və sturuktur tarazlığın qorunub saxlanması; inkişaf strategiyasının işlənib hazırlanması, investisiya və sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin formalaşdırılması; resursların

düzgün bölüşdürülməsi; əhalinin sosial müdafiəsi və sosial təminatının təşkili; xarici aləmdə milli biznesin qorunub saxlanılması; ölkənin iqtisadi təhlükəsizliyinin və müdafiə qabiliyyətinin təmin edilməsi;

iqtisadiyyatın dövlət tərəfindən tənzimlənən obyeklərinə sahələr, regionlar, iqtisadi və sosial proseslər, dövlət tənzimləməsinin subyektlərinə isə qanunverici, icraedici hakimiyyət, habelə məhkəmə orqanları aiddir;

dövlətin tənzimləmə fəaliyyətini iki cəhətdən qiymətləndirmək olar. Bunlardan biri onun milli mənafelərin ifadəçisi, digəri isə bazarın ən böyük mülkiyyətçisi və subyekti olmasıdır. Dövlət tərəfindən tənzimləmənin səmərəliliyi meyarları isə aşağıdakılardır: a) proqnozlaşdırılan göstəricilərin faktiki göstəricilərlə müqayisə edilməsi; b) beynəlxalq müqayisədən istifadə olunması; c) ölkənin iqtisadi təhlükəsizliyinə qiymət vermək üçün faktiki və optimal həddin müqaisə edilməsi və s.

# II FƏSİL

# İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN FORMA VƏ METODLARI

## 2.1. İtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin formaları

**Ölkəmizdə yeni iqtisadi sistemin yaradılması prosesində dövlət tərəfindən tənzimləmənin bir sıra formalarından istifadə olunur.** Planlı iqtisadiyyat şəraitində direktiv planlaşdırmadan istifadə olunduğu halda, bazar iqtisadiyyatına keçid dövründə tənzimləmənin aşağıdakı formalarından istifadə edilir: 1) dövlət sifarişi; 2) indikativ (tövsiyə xarakterli) planlaşdırma; 3) strateji planlaşdırma; 4)proqramlaşdırma; 5) proqnozlaşdırma və i.a.

Dövlət tərəfindən tənzimləmənin əsas formalarından olan direktiv planlaşdırmadan keçmiş SSRİ-də və digər sosialist ölkələrində uzun müddət istifadə edilmişdir.

Direktiv planlaşdırmada ölkənin iqtisadi və sosial inkişaf planı qanun qüvvəsinə malik olur və xalq təsərrüfatının bütün pillələri-müəssisələr, sahələr, regionlar üçün məcburidir. SSRİ-də direktiv planlaşdırma dövründə dövlətin iqtisadiyyata müdaxiləsinin ən yüksək həddinə nail olunmuşdu.

**Direktiv planlaşdırma iqtisadi fəaliyyət azadlığını və qərarların qəbul olunmasında təşəbbüskarlığı məhdudlaşdırırdı.** Bu zaman dövlət əsas etibarilə maddi ehtiyatların bölüşdürülməsi, habelə istehsal və istehlakın inzibati yolla idarə edilməsi vəzifələrini yerinə yetirirdi. Çünki müəssisələr dövlətə məxsusdur və istehsal dövlət planları əsasında həyata keçirilirdi. Başqa sözlə, hər bir müəssisə üçün tapşırıq mərkəzi plan orqanları tərəfindən myəyyən olunurdu. Həm də hər bir müəssisə üçün nə qədər istehsal ehtiyatı ayrıldığı konkretləşdirilirdi ki, o, dövlət tapşırıqlarını yerinə yetirə bilsin. İstehsal planına uyğun olaraq təsərrüfat əlaqələrinin müəyyən edilməsi üçün əsas olan məhsulların bölüşdürülməsi planı da işlənib hazırlanırdı. O zaman hər bir

malgöndərənin özünün istehlakçısı var idi, onlar bir-birilərini yaxşı tanıyırdılar.

Planlaşdırma texniki normativlərin və maddi balansların köməyilə aparıldığına görə dəyər, maliyyə balansları yalnız əlavələr kimi işlənib hazırlanırdı. Belə planlaşdırma mürəkkəbləşən iqtisadiyyatın obyektiv tələblərinə cavab vermirdi.

Planlaşdırmanın əsas forması beşillik planların işlənib hazırlanmasından ibarət olmuşdur ki, bunlar da illik planlara bölünmüşdür. Kontrol rəqəmləri və beşillik planların direktiv sənədlərini də planlaşdırmanın bu formasına aid etmək olar. İqtisadiyyatın inkişaf etdirilməsinin məqsədi və əsas istiqamətləri kontrol rəqəmlərlə müəyyən edilirdi. Xalq təsərrüfatının inkişaf etdirilməsinə dair dövlət planı haqqında qanun SSRİ Ali Soveti tərəfindən təsdiq olunurdu.

Dövlət sifarişi bazar münasibətlərinə keçidin başlanğıcında qlobal direktiv planlaşdırmadan məhdud planlaşdırmaya keçilməsi deməkdir.

Tənzimləmənin dövlət sifarişi formasından keçən əsrin 20-ci illərində xariçi ölkələrdə və keçmiş SSRİ-də geniş istifadə olunmuşdur. Lakin dövlət sifarişinin nöqsan çəhəti vardır. Belə ki, onun yerinə yetirilməsi heç də həmişə satışla və maliyyə resursları ilə təmin olunmur və buna görə də istehsalçı müəssisə üçün faydalı deyildi. Qərb ölkələrində firmalar dövlət sifarişi uğrunda öz aralarında rəqabət aparır, sovet müəssisələri isə bütün ciddi-cəhdlə bu prosesdən kənarda qalmağa səy göstərirdilər.

Dövlət sifarişləri ABŞ-da daha geniş yayılmışdır. Təsərrüfatçılığın bu forması sənayenin yeni-yeni sahələrinin (elektron, aerokosmik, atom və. i.a.) meydana gəlməsi ilə əlaqədardır.

**Bazar iqtisadiyyatı şəraitində toplanmış təcrübə dövlət sifarişinin formalaşması və reallaşdırılmasının aşağıdakı prinsiplərini müəyyən etməyə imkan verir:**

1) Məhsulların (işlərin, xidmətlərin) sifarişçisi müəyyən maliyyə və digər zəruri resurslara, büdcə vəsaitinə malik olan, hüquqlarının bir hissəsini özünün səlahiyyətli icra orqanlarına verən, konkret smetaları, tədbirlər proqramlarını işləyib hazırlayan, dövlətdir;

2) Sifarişlərin tərkibi ümumdövlət tələbatlarının quruluşu, ölkənin içtimai-siyasi, elmi və iqtisadi həyatının müxtəlif sahələrində dövlətin yerinə yetirdiyi funksiyalarla əlaqədardır. Çünki bu vəzifələr obyektiv səbəblər üzündən bazarın öz-özünü tənzimləmə mexanizminin köməyilə həyata keçirilə bilmir.

3) Sifarişlərin həcmi ölkənin büdcə fondundakı vəsaitin kəmiyyəti ilə məhdudlaşır;

4) Sifarişlər müqavilə əsasında yerləşdirilir və yerinə yetirilir.

**Dövlət sifarişi** dövlət büdcəsinin xərc hissəsinin icra edilməsi və deməli, bazar iqtisadiyyatının tənzimlənməsi formasıdır.

Sifarişlər yerləşdirilənə qədər podratçı müəssisələrin seçilməsi üçün müsabiqə aparılır. Bu, büdcə resurslarından istifadənin səmərəliliyinin yüksəlməsinə təsir edir. Müsabiqənin qalibi podratçı müəssisə ilə müqavilə bağlayır. Müqavilədə məhsulların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi sahəsində tərəflərin hüquq və vəzifələri müəyyən edilir. Müqavilədə sifarişçi təşkilatla podratçı təşkilat arasındakı iqtisadi, hüquqi, təşkilati-texniki, inzibati-idarəetmə və sosial sahələrdə qarşılıqlı münasibətlər nəzərdə tutulur.

Müqavilədə müəyyən göstəricilər olmalıdır. Göstəricilərin sayı və tərkibi, onun dəyəri, hazırlanması müddəti, təyinatı (mülki və ya hərbi məqsədlər, ETTKİ, tikinti və i. a. üçün nəzərdə tutulması), istifadə olunmuş müsabiqə sisteminin xarakteri, maliyyələşdirmə formaları sifarişin spesifikasından asılıdır.

**Bazar münasibətləri şəraitində dövlət tərəfindən tənzimləmənin formalarından biri indikativ (tövsiyə xarakteri daşıyan) tənzimləmədir.** Direktiv planlaşdırmadan fərqli olaraq qərbin bir sıra ölkələrində (Fransa, Yaponiya və. s.) indikativ plandaşdırma geniş yayılmışdır.

Bu planlar ümumxalq mənafelərinə xidmət edən planların yerinə yetirilməsi üçün təsərrüfat subyektlərinin səylərinin səfərbərliyə alınmasına xidmət edir.

İndikativ planlaşdırma sosial-iqtisadi inkişaf göstəricilərinin işlənib hazırlanmasına əsaslanan, dövlət tərəfindən tənzimləməni bazar və qeyri-bazar özünütənzimləmə metodları ilə əlaqələndirən, iqtisadiyyatın dövlət və qeyri-dövlət subyektlərinin fəa-

liyyətlərinin idarə olunması və onların mənafelərinin əlaqələndirilməsini nəzərdə tutur. Azərbaycan Respublikasında milli iqtisadiyyat miqyasında indikativ planlaşdırmadan demək olar ki, istifadə edilmir.

Planda müəyyən olunan makroparametrlər xüsusi sahibkarlığa təsir göstərən iqtisadi mühitin formalaşmasına xidmət etməlidir. Ona görə də indikativ planlaşdırmanın xüsusiyyəti ondan ibarətdir ki, o xüsusi bölməyə əsas etibarilə stimullaşdırıcı, ya da məhdudlaşdırıcı tələb vasitəsilə təsir göstərir.

Sosial-iqtisadi inkişafın indiqatoru kimi iqtisadiyyatın dinamikası, strukturu və səmərəliliyi, maliyyənin, pul tədavülünün, əmtəə və qiymətli kağızlar bazarlarının vəziyyəti, qiymətlərin hərəkəti, məşğulluq və əhalinin həyat səviyyəsi və s. göstəricilərdən istifadə olunur.

Yaponiyada müharibədən sonrakı illərdə 12 beşillik və bir yeddiillik plan qəbul edilmişdir ki, onların adları qarşıya qoyulan məqsədi əks etdirir. Onlardan bəziləri 2.1. cədvəlində verilmişdir.

Dövlət tərəfindən tənzimləmənin formalarından biri kimi Fransada və digər ölkələrdə strateji planlaşdırmadan istifadə edilir. Fransanın və Avropa İttiffaqına daxil olan digər ölkələrin milli bazarlarının bir-birinə yaxınlaşması indikativ planlaşdırmadan strateji planlaşdırmaya keçilməsini zəruri etmişdir. Strateji planlaşdırma öz əksini ilk dəfə 1989-1992-ci illərdə Fransanın iqtisadi inkişafına dair onuncu planda tapmışdır.

**Strateji planlaşdırmanın** mahiyyəti ondan ibarətdir ki, dövlət, milli iqtisadiyyatın başlıca inkişaf prioritetlərinin seçilməsi və həyata keçirilməsində aparıcı rol oynamalıdır. Strateji planlaşdırma vasitəsilə cəmiyyətin inkişaf yolu müəyyən edilir, hansı bazarlarda fəaliyyət göstərməyin daha yaxşı olması, hansı texnologiyalardan istifadə olunması, bu zaman iqtisadiyyatın hansı bölməsinə və hansı ictimai strukturlara istinad olunması məsələləri həll edilir. Bunlara əsasən ölkənin inkişaf etdirilməsinin əsas istiqamətləri, milli valyutanın möhkəmləndirilməsi və məşğulluğun təmin olunması, əhalinin təhsili və sosial müdafiəsi, elmi

tədqiqatların aparılması, ərazilərin abadlaşdırılması və s. və i.a. müəyyənləşdirilir.

Proqramlaşdırma sosial-iqtisadi inkişaf proqramlarının işlənib hazırlanması və onlara nail olunması yollarının müəyyənləşdirilməsi deməkdir. **Ölkənin sosial-iqtisadi inkişaf proqramı adətən aşağıdakıları əhatə edir:**

- Ölkənin əvvəlki illər üzrə sosial-iqtisadi inkişafının yekunlarının təhlili və ölkə iqtisadiyyatının müasir vəziyyətinin xarakteristikası;

**Cədvəl 2.1**

**Yaponiya iqtisadiyyatının bəzi inkişaf planları[1]**

| Planın adı və əhatə etdiyi dövr | Qarşıya qoyulan məqsəd |
|---|---|
| İqtisadi özünütəminetmənin beşillik planı (1956-1960-cı illər) | İqtisadi müstəqilliyə nail olunması, tam məşğulluğun təmin edilməsi |
| Yeni izunmüddətli iqtisadi plan(1958-1962-ci illər) | İqtisadi artımı yüksək həddə çatdırmaq, həyat səviyyəsinin yüksəldilməsi, tam məşğulluğa nail olunması |
| Milli gəlirin iki dəfə artırılması planı (1961-1970-ci illər) | İqtisadi artımı yüksək həddə çatdırmaq, həyat səviyyəsinin yüksəldilməsi, tam məşğulluğa nail olunması |
| Orta müddətli iqtisadi plan (1964-1968-ci illər.) | Ölkənin inkişafındakı uyğunsuzluqların ləğv edilməsi |
| Rifah dövləti yaradılması üçün beşillik plan (1992-1996-cı illər) | Həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması |
| Struktur islahatlarına dair iqtisadi və sosial plan (1996-2000-ci illər) | Ölkənin iqtisadi və sosial strukturunda əsaslı islahatların həyata keçirilməsi |

[1] Mənbə: Индикативное планирование: теория и пути совершенствования. СПб., 2000, s.38-39.

- Orta müddətli perspektiv üçün ölkənin sosial-iqtisadi inkişaf proqramı konsepsiyası;
- Makroiqtisadi siyasət;
- Hərtərəfli (institusional) dəyişikliklərin aparılması;
- İnvestisiya və struktur siyasəti;
- Aqrar siyasət;
- Ekoloji siyasət;
- Sosial siyasət;
- Regional siyasət;
- Xarici iqtisadi siyasət.

**Proqnozlaşdırma ölkənin inkişaf etdirilməsinin başlıca problemləri və istiqamətlərinin aşkara çıxarılmasına xidmət edir.** Dövlət orqanları proqnoz hesablamalarının nəticələrindən sosial-iqtisadi siyasətin və prioritetlərin işlənib hazırlanması və əsaslandırılması üçün istifadə edirlər.

Proqnozlaşdırma dövlət tərəfindən tənzimləmənin formalarından biri olmaqla, proqramların, planların, əsas istiqamətlərin, sosial-iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasının başlanğıc mərhələsidir. İçtimai fəaliyyətin bütün növlərində inkişaf perspektivlərinin, hazırda qəbul olunan qərarların gələcəkdə nə kimi nəticələr verəcəyinin qabaqcadan müəyyənləşdirilməsinin çox böyük əhəmiyyəti vardır. Sosial-iqtisadi proseslərin idarə olunmasında bu xüsusilə vacibdir. Lakin bu çox çətin məsələdir. Çünki müasir dövrdə içtimai həyatın bütün formaları və onların qarşılıqlı fəaliyyəti olduqca mürəkkəbləşmişdir. Elm, texnika, sosial şərait, dünya təsərrüfatına daxil olan ölkələr arasındakı qarşılıqlı əlaqə və asılılıqlar güclənmişdir.

Qarşıda duran başlıca vəzifə çoxsaylı obyektiv və subyektiv (daxili və xarici) amillər arasındakı qarşılıqlı əlaqələri nəzərə almaqdan, ictimai inkişafın idarə edilməsinin ünsürlərindən biri olan proqnozlaşdırmanın elmi cəhətdən əsaslandırılması və düzgünlüyünə nail olunmasından ibarətdir.

Ölkənin sosial-iqtisadi inkişafına dair proqnozlar adətən aşağıdakı sahələr üzrə işlənib hazırlanır:

- xalq təsərrüfatı kompleksi üzrə(o cümlədən ərazi üzrə);
- iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə;

- regionlar (iqtisadi rayonlar) üzrə.

Proqnozlar, daxili və xarici, siyasi, iqtisadi, təbii və digər amillər nəzərə alınmaqla, bir neçə variantda hazırlanır. Onlara makroiqtisadi vəziyyəti, iqtisadiyyatın strukturunu, elmi-texniki və innovasiya inkişafını, xarici iqtisadi fəaliyyəti, istehsal və istehlakın dinamikasını, həyat səviyyəsini, ekoloji vəziyyəti, cəmiyyətin sosial quruluşunu, habelə təhsili, mədəniyyəti, səhiyyəni, əhalinin sosial təminatını ifadə edən kəmiyyət və keyfiyyət göstəriciləri daxil edilir.

Dövlət tərəfindən tənzimləmənin nəzərdən keçirilən əsas formaları cəmiyyətin inkişafı ilə əlaqədar olaraq zənginləşir, konkret şəraitə uyğun gələn yeni-yeni ünsürlərlə yeniləşdirilir.

## 2.2 İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi metodları

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi metodları iki qrupa bölünür: 1) müstəqim (inzibati) metodlar; 2) dolayı (iqtisadi) metodlar. Lakin qeyd etmək lazımdır ki, real həyatda tənzimləmənin inzibati və iqtisadi metodları hüdudlarının müəyyənləşdirilməsi əslində şərti xarakter daşıyır. Bu, onunla əlaqədardır ki, iqtisadi tənzimləmə prosesini müəyyən inzibati amillərdən istifadə etmədən tənzimləmək mümkün deyildir. Misal üçün dövlət, əhalidə olan pul vəsaitini əmanət qoyuluşuna cəlb etmək üçün əmanətə görə verilən faizin səviyyəsini qaldırmalıdır. Hər bir inzibati tənzimləmə metodu isə müəyyən iqtisadi mexanizmlər vasitəsilə həyata keçirilir. Məsələn, dövlət milli məhsulun strukturunun cəmiyyətin tələbatına uyğunlaşdırılmasına nail olmaq üçün müvafiq vergi və güzəştlər sistemi tətbiq etməli, qiymətlərin səviyyəsi üzərində nəzarəti həyata keçirməli, yaxud da ayrı-ayrı istehsalçılara xüsusi şərait yaratmalıdır. Bunlarla yanaşı, inzibati və iqtisadi metodlardan qarşılıqlı şəkildə istifadə olunması onların bir-birindən fərqləndirilməsini inkar etmir. Belə ki, məlum olduğu kimi, iqtisadi proseslərin tənzimlənməsində inzibati metodlardan gen-bol istifadə olunması azad

iqtisadi fəaliyyəti məhdudlaşdırır. Lakin tətbiq olunan tənzimləmə metodları iqtisadi cəhətdən əsaslandırıldıqda, bu, onların bazar iqtisadiyyatının fəaliyyətinə mənfi təsirini xeyli azaldır. Bazar münasibətlərinin hələ təşəkkül tapmadığı böhranlı iqtisadiyyat şəraitində isə milli reallıqlar nəzərə alınmadan iqtisadi proseslərin tənzimlənməsində iqtisadi metodlara üstünlük verilməsi böyük mənfi sosial-iqtisadi nəticələrə gətirib çıxara bilər.

Dövlət tərəfindən istifadə olunan tənzimləmə metodlarının təsnifləşdirilməsi olduqca mürəkkəb prosesdir. **İqtisadçılar tənzimləmə metodlarını adətən iki qrupa bölürlər: 1) ümumi metodlar; 2) xüsusi metodlar;**

**Ümumi metodlara** idrak metodlarının toplusu, sistemli metod, ümumi təkrar istehsal nəzəriyyələri və başqaları aiddir. Makroiqtisadiyyatın qarşısında duran əsas vəzifə bütövlükdə iqtisadi sistemin fəaliyyətini tədqiq etməkdən ibarətdir. Makroiqtisadi proseslərin tədqiq olunması, bu və ya digər sosial-iqtisadi proseslərdə hadisələrin inkişafının qabaqcadan proqnozlaşdırılması, kəmiyyət və keyfiyyət təhlil metodlarına kompleksli yanaşmalara əsaslanır.

Sosial-iqtisadi inkişaf proseslərinin dövlət tərəfindən tənzimlənməsində **xüsusi metodlardan** daha geniş istifadə olunur. Bunların içərisində ekstropolyasiya, iqtisadi qruplaşdırma, indeks, büdcə, balans, proqram-məqsədli və normativ metodlar xüsusi yer tutur.

**Ekstropolyasiya metodundan** əsas etibarilə ilkin proqnozların, əsas istiqamətlərin, proqramların, layihələrin işlənib hazırlanmasında istifadə olunur. Bu metodun tətbiq olunduğu müddət nə qədər qısa olarsa, onun dəqiqliyi də bir o qədər böyük olur.

Dövlət tərəfindən tənzimləmədə iqtisadi **qruplaşdırma metodundan** geniş istifadə edilir. Bu metod tərkibinə görə çox mürəkkəb olan məcmunun hər hansı bir əhəmiyyətli əlamət üzrə eynitipli qruplara bölünməsinə imkan verir. Təhlil bir çox hallarda bir və ya bir neçə əlamətin əlaqələndirilməsi üzrə formalaşan struktur, dinamik və struktur-dinamik qruplaşdırmaların köməyi ilə həyata keçirilir. Məsələn, əhalinin həyat səviyyəsinə xarakteristika vermək üçün əhali hər nəfərə düşən pul gəlirlərinə,

yaşayış minimumuna, hər 10000 nəfərə düşən xəstəxanalardakı çarpayıların sayına görə qruplaşdırılır.

**İndeks metodundan** bilavasitə cəmlənməsi mümkün olmayan ünsürlərdən ibarət olan məcmuya müqayisəli xarakteristika vermək üçün istifadə edilir. İndeks metodu mürəkkəb hadisələri əmələ gətirən ünsürlərin dəyişməsinə təsir edən amilləri aşkara çıxarmaq və onları qiymətləndirmək üçün tətbiq edilir.

**Büdcə metodu** (ev təsərrüfatları büdcələrinin seçmə yolu ilə tədqiq olunması) dedikdə əhalinin həyat səviyyəsinin öyrənilməsi ilə əlaqədar həyata keçirilən statistik müşahidə metodu nəzərdə tutulur. Bu müşahidə ölkənin statistika orqanları tərəfindən aparılır. Tədqiqatın materialları əhalinin maddi rifah halı, istehlakı, pul xərcləri, həyat şəraitinə görə bölgüsü haqqında mühakimə yürütməyə imkan verir. Bu materiallar müxtəlif tərkibli ailələrin istehlakı ilə əlaqədar olan xərclərin strukturu haqqında informasiya mənbəyidir, şəhər və kənd yerlərindəki ev təsərrüfatlarının istehlak tələbinin dəyişməsi dinamikasını müəyyən etməyə imkan verir.

Ev təsərrüfatları büdcələrinin tədqiq olunması nəticəsində əldə edilən materiallardan statistikada müxtəlif iqtisadi hesablamalarda (istehlak qiymətləri indekslərinin, milli gəlirin, əhalinin real gəlirlərinin hesablanmasında) istifadə edilir.

**Bazar iqtisadiyyatı şəraitində tarazlıq təmin olunmalıdır.** Başqa sözlə, resurslarla tələbat (maddi, əmək, maliyyə) arasında tarazlığın yaradılması ilk növbədə həll edilməli olan problemdir. Bazar iqtisadiyyatı şəraitində heç kim onun subyektlərini istehsal, mal göndərilməsi, istehlak limiti üzrə tapşırıqları məcburi surətdə yerinə yetirməyə təhrik etmir.

Müasir dövrdə, maddi, əmək ehtiyatları, maliyyə-dəyər və sahələrarası balanslardan daha çox istifadə olunur. Sahələrarası balansın məlumatlarından iqtisadiyyatın sahə strukturunun işlənib hazırlanması, ayrı-ayrı amillərin təsirinin, məsələn, iqtisadiyyatın enerji təchizatından, yaxud da qiymətlərin dəyişməsindən asılılığının aşkara çıxarılması üçün istifadə edilə bilər. Bazar münasibətləri şəraitində məhdud nomenklaturda maddi balansların işlənib hazırlanmasının da çox böyük əhəmiyyəti vardır.

Hər hansı bir konkret problemin həll edilməsi üçün başqa metodlardan istifadə edilməsi mümkün olmadıqda proqram-məqsədli metoddan istifadə olunur. Bu metodu tətbiq etmək üçün problemin seçilməsi əsaslandırılmalıdır. Proqram-məqsədli metod sözün geniş mənasında problemin həll edilməsinə kompleksli yanaşılmasının həyata keçirilməsi və dərinləşdirilməsi deməkdir.

**Normativ metoddan** həm ayrılıqda, həm də digər metodlarla birlikdə istifadə oluna bilər. Məsələn, proqram-məqsədli metodla birlikdə qarşıya qoyulan məqsəd üzrə kəmiyyət göstəriciləri və ona nail olunması üçün lazım olan ehtiyatlar müəyyən edilir. Normativ metoddan müxtəlif balanslar tərtib olunarkən tələbatın və mümkün olan ehtiyatların aşgara çıxarılması, dövriyyə vəsaitləri normativlərinin, amortizasiya ayırmaları normalarının müəyyən edilməsi üçün istifadə olunur.

**Bazar iqtisadiyyatı şəraitində müxtəlif normativlərdən də istifadə edilir.** Bunlara texniki-iqtisadi, sosial, ekoloji normativləri, maliyyə normaları və normativlərini misal göstərmək olar.

Texniki-iqtisadi normativlər bazar şəraitində fəaliyyət göstərən təsərrüfat subyektlərinə xammal, yanacaq, elektrik enerjisi və s. sərfini müəyyən etməyə imkan verir. Dövlət isə əvvəllərdə olduğu kimi bu normativlərin işlənib hazırlanması və tətbiq olunması əvəzinə iqtisadi inkişafın resurslara qənaətetmə imkanı verən proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi ilə məşğul olur.

İqtisadi normativlər bütövlükdə iqtisadiyyatın və ayrı-ayrı sosial-iqtisadi proseslərin inkişaf etdirilməsinin tənzimləyicisidir. Bunlara aşağıdakılar aiddir: 1) əmlaka, gəlirlərə, faydalı qazıntıların hasilatına, əmtəə və xidmətlərə görə alınan vergilər, gömrük rüsumları; 2) maliyyə normativləri-transferlər, büdcəyə ayırmalar, büdcədən-kənar fondlara ayırmalar və i.a; 3) bank normativləri-məcburi ehtiyatların yaradılması normativləri, faiz dərəcələri və i.a.

İqtiasdi normativlərin içərisində maliyyə normaları başlıca yer tutur. Bunlara təhsilin idarə olunmasını, maliyyə resurslarının bölgüsünü tənzimləyən kəmiyyətin ən aşağı, orta və ən

yüksək hədlərini əks etdirən göstəricilər aiddir. Maliyyə normativləri maliyyə resurslarından, məqsədli pul vəsaiti fondlarından səmərəli istifadə olunmasını tənzimləmək üçün tətbiq edilir. Bunlardan istifadə olunması istehsalla maliyyə göstəriciləri arasındakı əlaqələrə, büdcənin tarazlığının təmin edilməsinə imkan verir.

**Maliyyə normaları və normativləri təsdiq olunan və hesablama yolu əldə edilən norma və normativlərə bölünür.**

Təsdiq olunan norma və normativlər-vergi dərəcələri, mənfəətdən büdcəyə ayırmalar, büdcədənkənar fondlara ayırmalar (vahid sosial vergi), gəlir vergisinin dərəcələri və i.a. - qüvvədə olan qanunvericiliklə müəyyən edilir. Hesablama yolu ilə əldə edilən maliyyə normativlərinə, dövriyyə vəsaitləri normativləri misal ola bilər.

Təyinatından asılı olaraq vahid və fərqli maliyyə norma və normativləri bir-birindən fərqləndirilir. Məsələn, əsas fond növləri üzrə müəyyən olunan fərqli amortizasiya normaları sahə üzrə vahid normalardır.

Sosial normativlər yaşayış minimumu və istehlak büdcələri əsasında normativ metodla-minimum istetlak büdcəsi və səmərəli istehlak bədcəsi-işlənib hazırlanmalıdır. Hazırda rəsmi statistikada bir qayda olaraq yaşayış minimumu, hər nəfərə düşən orta gəlir və orta əmək haqqı göstəricilərindən istifadə olunur, bunlar bir-biri və digər sosial göstəricilərlə müqayisə edilir. Lakin bu kifayət deyildir. Çünki hazırda ölkəmizdə müəyyən olunmuş yaşayış minimumu BMT-nin tövsiyə etdiyi normalara uyğun gəlmir və deməli, iqtisadi və sosial cəhətdən əsaslandırıldığını demək olmaz. Müxtəlif əhali qruplarının pul gəlirlərinin real alıcılıq qabiliyyətinin qiymətləndirilməsi də belə bir nəticə çıxarmağa imkan verir ki, orta əmək haqqı da həyat səviyyəsinin indiqatoru vəzifəsini yerinə yetirmir.

Ekoloji normativlər dedikdə zəruri tullantıların atmosferə təsirinin, suyun çirklənməsinin qarşısını almaq üçün müəyyən olunan normativlər; torpaqdan və sudan istifadə normativləri və.s. nəzərdə tutulur.

Ekoloji normativlərdən təbiəti mühafizə tədbirlərinin səmərəliliyinin hesablanmasında, təbiəti mühafizə təyinatlı əsas fondların və obyektlərin yaradılmasında; məqsədli təbiəti mühafizə proqramları və təbiətin qorunmasına dair kompleks ərazi sxemlərinin işlənib hazırlanmasında istifadə edilir.

İqtisadiyyatın ətraf mühitə təsiri həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyədə nəzərdən keçirilir. Makroiqtisadi səviyyə üçün amerika iqtisadçıları V.Leontyev və D.Fordun «İqtisadiyyatın strukturunun ətraf mühitə təsirinin sahələrarası təhlili» əsəri əsas təşkil edir. Bu əsərin məqsədi çirklənmənin sahələrarası əlaqələr sisteminə daxil edilməsi və ekoloji əlaqələr nəzərə alınmaqla sahələrarası modelin düzəldilməsindən ibarətdir. Əsərdəki materiallar ekoloji amillər nəzərə alınmaqla iqtisadiyyatın modelləşdirilməsində yeni elmi istiqamətin inkişafına təkan vermişdir.

Nəzərdən keçirilən normativlərlə yanaşı, digər əlamətlər üzrə normativlərdən də istifadə olunur. Məsələn, resurs və ictimai istehsalın səmərəliliyi üzrə normativlər də vardır.

Resurs üzrə normativlərə maddi, maliyyə, əmək və təbii resurslar üzrə normativlər, məsələn, material tutumu, metal tutumu və i.a aiddir.

İctimai istehsalın səmərəliliyi normativlərinə əhalinin hər nəfərinə, xərcin hər manatına görə ümumi daxili məhsul istehsalı; rentabellik; fondverimi; ümumi daxili məhsul artımının əmək məhsuldarlığının yüksəldilməsi nəticəsində əldə edilən hissəsi (xüsusi çəkisi) daxildir.

## 2.3. İqtisadi inkişafın proqnozlaşdırılması metodları

Proqnozlaşdırma iqtisadi inkişafın mümkün olan variantları və parametrlərinin müəyyən edilməsinin başlanğıc mərhələsidir.

Proqnozlaşdırmada yuxarıda göstərilən metodlarla yanaşı, həm də digər metodlardan istifadə edilir.

Proqnozlaşdırma metodları dövrlərdən (qısa, orta və uzun müddətli), səviyyədən (makroiqtisadi, sahələr, regionlar və s.) və proqnozlaşdırma obyektindən asılı olaraq bir-birindən fərqlənir. Demoqrafik, elmi-texniki və təbii resurslar üzrə proqnozlaşdırmanın özlərinə məxsus xüsusiyyətləri vardır.

**Alimlərin fikrincə, proqnozlaşdırmanın 150-dən çox metodu mövcuddur. Lakin bunların 15-dən daha çoxu istifadə olunur.**

Proqnozlaşdırma metodikasının əsası aşağıdakılardan ibarətdir: 1) analitik tədqiqatın aparılması; 2) məlumat bazasının hazırlanması; 3) məlumat bazasının keyfiyyəti; 4) informasiyaların öyrənilməsi və birləşdirilməsinin bütöv tam halına gətirilməsi.

Mövcud şərait, perspektivdə onun dəyişməsinə təsir edən amillər və meyllər tam və düzgün nəzərə alındıqda proqnozlaşdırma daha keyfiyyətli və ümüdverici olur. Bunlarsız, proqnozlaşdırma ehtimal olaraq qalır.

Proqnozlaşdırma metodlarını onların formalaşma dərəcələrinə; ümumi fəaliyyət prinsiplərinə; proqnozlaşdırmanın istiqaməti və təyinatına; informasiyaların əldə edilməsi və işlənməsi üsullarına; proqnoz modellərinin parametrlərinin müəyyən edilməsi qaydaları və s. əlamətlərə görə təsnifləşdirmək olar. Məsələn, obyekt haqqında informasiyanın işlənməsi prinsipinə görə statistik eyniləşdirmə metodları bir-birindən fərqlənir.

**Statistik metoddan** proqnoz modellərinin müəyyən edilməsi məqsədilə hadisəyə kəmiyyət xarakteristikası vermək lazım gəldikdə istifadə olunur. Proqnozlaşdırma aparılarkən istifadə edilən ən mühüm və geniş yayılmış metod qruplaşdırmadır. Proqnozlaşdırmanın formalaşdırılması dərəcəsinə görə onun bütün metodları iki yerə bölünür:

1) ekspert (intuitiv) metod; 2) formalaşdırma metodu.

Proqnozlaşdırmanın ekspert metodundan əsas etibarilə aşagıdakı hallarda istifadə olunur:

proqnozlaşdırma obyektini riyazi cəhətdən formalaşdırmaq mümkün olmadıqda;

nəticə çıxarmaq üçün kifayət qədər statistik seçmə aparmaq mümkün olmadıqda;

proqnozlaşdırma obyekti həddindən çox mürəkkəb olduğuna görə çoxsaylı amillərin təsirinin nəzərə alınması mümkün olmadıqda;

təcili qərarlar qəbul edilməsi lazım gəldikdə və ekstremal şərait yarandıqda.

Proqnozlaşdırmada ekspert qiymətləndirmələri metodunun mahiyyəti ondan ibarətdir ki, mütəxəssisin və ya mütəxəssislər qrupunun peşə, elmi və praktik fikirlərinə əsaslanan rəyi proqnoz vermək üçün əsas götürülür. Bu metodun tətbiq olunmasına **«ekspertiza» deyilir.** Lakin proqnozlaşdırmanın bu metodunun tətbiq dairəsi məhduddur. Çünki ondan adətən problem haqqında kifayət qədər məlumat olmadıqda istifadə edilir. Elm və texnika, bir sıra sosial problemlərin, xüsusilə də içtimai rəyin öyrənilməsi məqsədilə aparılan sorğularda ekspert metodu haqqında böyük təcrübə toplanmışdır.

Ekspert qiymətləndirmələrinin təşkilindən asılı olaraq bu metodun özü də fərdi və kollektiv metodlara bölünür.

Fərdi ekspert qiymətləndirmələri metodunun bir neçə növü vardır. Bunlara müsahibə götürmək, analitik metod, seçmə tədqiqatları, anket paylanması, ssenari yazılması və s. misal ola bilər. Müsahibə götürülməsi metodu ekspertin mütəxəssislə bir başa əlaqə saxlaması, analitik metod isə məntiqi nəticələr çıxarılması yolu ilə həyata keçirilir.

**Seçmə tədqiqatları** metodu müxtəlif əhali qruplarının həyat səviyyəsi haqqında operativ və geniş informasiya əldə edilməsinə imkan verir. Bu tədqiqatın nəticələri müxtəlif sosial-iqtisadi proseslərin səciyyələndirilməsi, əhalinin gəlir səviyyəsinə görə qruplara ayrılması, regionların inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün olduqca vacibdir.

**Ekspert proqnozlaşdırılmasında** anket paylanması metodundan da geniş istifadə olunur. Anket suallarının tərtib olunması olduqça mürəkkəb bir işdir. Anket sualları və onlara verilən cavablar qapalı və ya açıq variantlarda ola bilər. Bu, öyrənilən obyekt haqqında məlumat əldə edilməsinə imkan verir.

**Ssenari yazılması** metodunda hazırda və gələcəkdə bir-biri ilə qarşılıqlı əlaqədə olan hadisələr ardıcıl olaraq təsvir edilir. Burada məqsəd hadisənin strateji inkişaf istiqamətlərini müəyyən etməkdir. Ssenari bir qayda olaraq strateji planlaşdırma üçün işlənib hazırlanır. Obyektiv proqnoz vermək üçün hadisənin inkişafına dair bir neçə ssenari işləyib hazırlamaq lazımdır. Bu metodun üstünlüyü ondadır ki, o, ekspertlərin fərdi qabiliyyətlərindən və azacıq da olsa psixoloji təzyiqdən istifadə edilməsinə imkan verir.

Kollektiv ekspert qiymətləndirmələri metodunun aşagıdakı növləri vardır: komissiya metodu, «ağılların hücumu» ideyasının kollektiv metodu və s.

Formalaşdırılmış əsas metodlara ekstropolyasiya və riyazi modelləşdirmə metodları aiddir.

Ekstropolyasiya metodu dedikdə indi və gələcəkdə iqtisadi inkişafın mövcud səviyyəsinin öyrənilməsi və onların gələcək üçün istiqamətləndirilməsi nəzərdə tutulur. Proqnozlaşdırmada ekstropolyasiya metodundan müvəqqəti sıraların öyrənilməsində istifadə olunur və gələcək üçün proqnozların verilməsində çox mühüm rol oynayır.

**İqtisadi-riyazi modelləşdirmə** tədbiri nümunəvi modellərin düzəldilməsi deməkdir. İqtisadi model sosial-iqtisadi prosesdə tədqiqat obyektinin şərti obrazını ifadə edir. Başqa sözlə, o, öyrənilən obyektin adekvatı olur. İqtisadi-riyazi modelləşdirmə real iqtisadi prosesi müəyyən etməyə imkan verir. Modelləşdirmə bir sıra amillər arasındakı qarşılıqlı əlaqələrin kəmiyyətini əks etdirməyə şərait yaradır.

Proqnozlaşdırmada tətbiq olunan iqtisadi-riyazi modellərin dəqiq təsnifləşdirilməsi çətin olsa da, aşagıdakı bir neçə qrupu qeyd etmək olar: 1) keçmiş dövrü səciyyələndirən statistik məlumatların işlənməsi ilə bağlı olan ekonometrik modellər; 2) iqtisadi-riyazi amil modelləri.

Bunlar bir və ya bir neçə amilin dəyişməsi əsasında hər hansı bir iqtisadi kəmiyyəti proqnozlaşdırmağa imkan verir. Bu zaman proqnozlaşdırmada təkamilli və çoxamilli modellərdən istifadə olunur.

Çoxamilli modelə konkret olaraq istehsalın səviyyəsini (asılı olan dəyişən kəmiyyət) ayrı-ayrı istehsal ehtiyatları sərfindən (asılı olmayan dəyişən kəmiyyət) asılılığını ifadə edən istehsal funksiyası modelini misal göstərmək olar. Çoxamilli model (istehsal funksiyası) müəssisələr, sahələr, milli iqtisadiyyat üzrə düzəldilə bilər.

İqtisadi-riyazi modelləşdirmənin inkişaf etmiş forması struktur modelləridir. Bunların içərisində əsas yeri sahələrarası balans tutur. İstehlakın strukturu modelini də buna misal göstərmək olar. Optimal modellər dedikdə isə optimallığın funksiyası və ya meyarı adlandırılan xüsusi növ model nəzərdə tutulur.

Optimallıq meyarı kimi tətbiq olunan qərarın iqtisadi səmərəliliyinin son həddini ifadə edən kəmiyyət nəzərdə tutulur. Məsələn, ən yüksək mənfəət və ya ən az əmək sərf edilməsi, ən qısa müddətdə qarşıya qoyulan məqsədə nail olunması və s-lər iqtisadi səmərəliliyin son həddi hesab oluna bilər.

**Məntiqi modelləşdirmə** metodlarından proqnozlaşdırılan obyektin inkişafına keyfiyyət xarakteristkası vermək üçün istifadə edilir. Bu zaman iqtisadi inkişafın ümumi qanunauyğunluqları əsas götürülür və başlıca məqsəd inkişafın ən mühüm uzunmüddətli problemlərinin ardıcıl olaraq yerinə yetirilməsinə nail olunması yollarının araşdırılmasından ibarət olur.

**Proqnozlaşdırmada iqtisadi obyektlərə genetik və normativ yanaşmalar da mükündür.**

Genetik yanaşma, haqqında proqnoz hazırlanan obyektin əvvəlki dövrlərdə inkişafının təhlilinə əsaslanılır, artımın sabit meyllərini əks etdirir və bu əsas üzərində obyektin gələcəyi haqqında nəticə çıxarılır. Genetik yanaşma iqtisadi-riyazi modelləşdirmə sisteminin ekonometrik tipi vasitəsilə reallaşdırılır. Model, obyekt haqqında keçmiş dövrə aid olan statistik məlumatların işlənməsi yolu ilə əldə edilən nəticələrə əsasən düzəldilir.

Normativ yanaşma proqnozlaşdırılan proseslərin, onların idarə olunmasının xarakteri, qarşıya qoyulmuş məqsəddən asılılığın digər aspektini əks etdirir. Məqsəd isə hər hansı bir normativ vəziyyət (məsələn məqsədə nail olunması səviyyəsi) əsasında

müəyyən edilir. Buna istehlakda yaşayış minumumundan səmərəli istehlak büdcəsinə keçilməsi misal ola bilər.

Genetik və normativ yanaşmalar bir-birini tamamlayır. Qarşıya mövcud qanunauyğunluqla bağlı olmayan məqsəd qoyulduqda, gələcəkdə ona nail olunması yollarını göstərmək mümkün olmur və deməli, proqnoz özünün elmi əsaslarını itirir. Odur ki, verilən proqnozlar elmi cəhətdən əsaslandırılmalıdır.

## 2.4. Dövlət tərəfindən tənzimləmənin səmərililiyinə təsir edən amillər

Dövlət tərəfindən tənzimləmənin səmərəliliyi şərtlərinin təhlilinə ümumi metodoloji yanaşmalar öz əksini ictimai seçim (Ç.Byukenen, Q.Tullok), səmərəli gözləmələr (R.Lukas), bürokratiya, siyasi-iqtisadi silsilə və başqa nəzəriyyələrdə tapmışdır.

Səmərəli iqtisadi siyasəti işləyib hazırlamaq üçün tənzimləmə ilə məşğul olan orqanın nəyə nail olmağa cəhd göstərməsi haqqında aydın təsəvvürə malik olmaq lazımdır. Dövlət tərəfindən tənzimləmənin çoxsaylı məqsədlərinin toplusuna dövlətin məqsədli funksiyası deyilir. Məqsədli funksiyanın müəyyən edilməsi siyasi strategiyanın işlənib hazırlanması ilə əlaqədar olmaqla, olduqca mürəkkəb və çoxcəhətli prosesdir. Başqa sözlə, sual oluna bilər ki, hökumət qarşıya qoyulan vəzifələrin eyni vaxtda yerinə yetirilməsinə səy göstərməlidir, yoxsa həmin vəzifələr əhəmiyyətinə və vacibliyinə görə sıralanmalı, növbə ilə həll edilməlidir? Bu suala birmənalı cavab vermək düzgün deyildir. Bununla əlaqədar olaraq Norveç iqtisadçısı, Nobel mükafatı laureatı R.Fruşin fikri diqqəti cəlb edir. O, qeyd edirdi ki, dövlətin məqsədli funksiyasının formalaşması müasir iqtisad elmində həlli o qədər də asan olmayan başlıca problemdir.

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sahəsində dünya təcrübəsi göstərir ki, onun məqsədli funksiyasının üstünlükvermə prinsipi, yəni birinci dərəcəli əhəmiyyətə malik olan vəzifələrin müəyyənləşdirilməsi prinsipi əsasında formalaşdırılması daha məqsədəuyğundur. Bu, keçid dövründə olan öl-

kələrin iqtisadiyyatının tənzimlənməsi üçün xüsusi ilə vacibdir. **Əvvala ona görə ki**, dövlətin məqsədli funksiyasına cari vəziyyət çox böyük təsir göstərir. Belə bir şəraitdə problemlər çox olur və buna görə də iqtisadi siyasət işlənib hazırlanarkən növbəlilik prinsipi əsas götürülməlidir.

**İkincisi**, bazar iqtisadiyyatı şəraitində, xüsusilə də bazar münasibətlərinin formalaşdığı dövrdə dövlətin tənzimləmə imkanları məhdud olur. İri miqyaslı bir neçə məqsədə eyni vaxtda və dərhal nail olmaq üçün dövlətin vəsaiti çatmaya və ya azlıq edə bilər. Odur ki, müasir iqtisadi siyasət nəzəriyyəsinin əsaslarını işləyib hazırlamış Hollandiya iqtisadçısı, Nobel mükafatı laureatı Y.Timbergen belə hesab edirdi ki, dövlətin qarşıya qoyduğu məqsədlərin sayı bunların həll edilməsi üçün onun malik olduğu ehtiyatlardan çox olmamalıdır. **İqtisad elmində buna İ.Timbergen bərabərsizliyi deyilir.**

Qeyd etmək lazımdır ki, ölkələrin çoxunda dövlət tərəfindən tənzimləmə ilə əlaqədar təcrübə toplandıqca tədriclə onun məqsədli funksiyasının miqyası məhdudlaşmışdır. XX əsrin 50-60-cı illərində iqtisadçıların tövsiyəsi ilə dövlətin məqsədli funksiyasına aşağıdakılar daxil edilmişdir: dövlət xərclərinin ümumi məbləği, real əmək haqqının dəyişməsi sürəti, məşğulluq səviyyəsi, tədiyyə balansının qalığı. Keçən əsrin 70-ci illərində isə dövlətin məqsədli funksiyası aşağıdakıları əhatə etmişdir: tam məşğulluğa nail olunması, qiymətlərin sabit saxlanması, tədiyyə balansının idarə olunmayan kəsirinin olmaması, sabit iqtisadi inkişaf səviyyəsinə nail olunması. Hazırda inkişaf etmiş bir çox ölkələrin hökumətləri qarşıya iki strateji məqsəd qoyulması və onların həll edilməsi ilə kifayətlənir. Bunlardan biri sabit iqtisadi artıma nail olunması, digəri isə idarə olunmayan inflyasiya ilə mübarizə aparılmasıdır.

**Üçüncüsü**, iqtisadi siyasətin məqsədlərinin məhdüdlaşdırılması və prioritetlərin sıralanması onunla əlaqədardır ki, dövlətin sərəncamında olan tənzimləmə vasitələrinin çoxu iqtisadiyyata ziddiyətli təsir göstərir. Məsələn, inflyasiya prosesinin sabitləşdirilməsinə yönəldilən dövlət tədbirləri əmək bazarında (xüsusilə də qısa müddətli dövrdə) vəziyyətin pisləşməsinə gətirib çıxarmasın deyə, iqtisadi vasitələrin seçilməsi və onların bir-biri ilə

əlaqələndirilməsi olduqça mürəkkəb və çətindir. Məlum olduğu kimi, inflyasiyanın ləngiməsinə təsir göstərən məhdud pul siyasəti faiz dərəcələrinin yüksəlməsinə, bu da öz növbəsində istehsalın artımının ləngiməsinə gətirib çıxarır. Əksinə, iş yerlərinin yaradılması və əhaliyə göstərilən yardımın artırılması üçün büdcədən daha çox vəsaitin ayrılması bir tərəfdən işçi qüvvəsi bazarında vəziyyəti yüngülləşdirirsə, digər tərəfdən inflyasiyanın artmasına səbəb olur. Belə bir şəraitdə hər hansı bir problemə, məsələn, inflyasiya probleminə üstünlük verilməsi, başqa sözlə, onun seçilməsi və həll edilməsi üçün lazım olan tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

Səmərəli iqtisadi siyasətin işlənib hazırlanması üçün müxtəlif vasitələrin məqsədə təsiretmə dərəcəsi, həm də onların tez bir zamanda müsbət nəticə verə biləcəyi haqqında təsəvvürə malik olmaq lazımdır. Dövlətin istifadə etdiyi tənzimləmə vasitələri bir qayda olaraq qarşıya qoyulan məqsədə bir-başa təsir etmir. İqtisadi sistem öz qanunları ilə fəaliyyət göstərir və inkişaf edir. Məsələn, qiymətlər tələb və təklifin dəyişməsindən, istehsal xərclərindən, rəqabət şəraitindən və bir çox digər amillərdən asılıdır ki, bunların içərisində də əsas rolu pul sistemi oynayır.

Hər bir iqtisadi prosesin həyata keçirilməsi müəyyən həcmdə vəsait və vaxt tələb edir. Bununla əlaqədar olaraq dövlət tərəfindən tənzimləmənin müxtəlif forma və metodlarından istifadə edilərkən **«ləngimənin səmərəsi»** meydana çıxır. Dövlət tənzimləməsinin pul-kredit və ya fiskal «alətləri» iqtisadiyyatın inkişafına dərhal deyil, müəyyən zaman kəsiyindən sonra təsir edir. Deməli, tənzimləmə təşkil olunarkən bu dövrün davametmə müddətinin qiymətləndirilməsi olduqca vacibdir. Dövlət tərəfindən bu və ya digər formada təsiretmənin nəinki ehtimal və arzuolunan nəticələrini, həm də onlara nail olunub-olunmayacağını qabaqcadan görmək lazımdır. Məsələn, inflyasiya əleyhinə proqram işlənib hazırlanması lazım gəldikdə hələ planlaşdırma mərhələsində yalnız pul-kredit siyasətinin necə «işləyəcəyi» haqqında deyil, həm də nə vaxt nəticə əldə olunacağı barədə təsəvvürə malik olmaq gərəkdir.

Daxili və xarici zaman kəsiyindən ibarət olan sistem haqqında da danışmaq lazımdır.

**Daxili zaman kəsiyi dedikdə,** iqtisadi problemin meydana çıxdığı vaxtla cavab tədbiri görüldüyü vaxt arasındakı müddət nəzərdə tutulur. Bu, onunla əlaqədardır ki, problemin araşdırılması, dövlət tərəfindən tənzimləmə ilə əlaqədar qərarların qəbul edilməsi və onun yerinin müəyyənləşdirilməsi üçün myəyyən vaxt tələb olunur.

Məqsədin dəyişdiyi vaxtla tənzimləmə vasitələrinin dəyişdiyi vaxt arasındakı dövrü də bu və ya digər tənzimləmə mexanizmindən istifadə edilməsi barədə qərarın qəbul olunması üçün lazım olan zaman kəsiyinə aid etmək olar. Məsələn, büdcə-vergi siyasəti uzunmüddətli daxili zaman kəsiyi ilə səciyyələnir. Büdcə xərclərinə və ya vergilərə yenidən baxmaq üçün qanunverici orqanların razılığı olmalı-parlamentdə uzun-uzadı müzakirələrdən sonra qanun qəbul edilməlidir. Məsələn, prezident Kennedi tərəfindən iqtisadi artımı stimullaşdırmaq üçün vergilərin aşağı salınmasına dair 1962-ci ildə irəli sürülən təklif yalnız 1964-cü ildə qəbul edilmişdir.

Konkret dövlət xidməti fəaliyyətinin reallaşdırılması üçün zəruri olan bu və ya digər qərarların həyata keçirilməsi ilə əlaqədar olaraq sərf olunan vaxtı da daxili zaman kəsiyinə aid etmək olar. Məsələn, pul üzrə təklifin artırılması qərara alınmışdırsa məcburi ehtiyat normalarının azaldılması, banklararası kreditin faiz dərəcələrinin aşağı salınması, qiymətli kağızlar bazarında dövlət istiqrazlarının satın alınmasının genişləndirilməsi üçün Mərkəzi banka müəyyən qədər vaxt lazımdır. Bu dövrün davam etdiyi müddət hər şeydən əvvəl, dövlət maşınının nə dərəcədə səmərəli işləməsindən, onun ayrı-ayrı strukturları arasında əlaqələrin necə qurulmasından asılıdır.

**Xarici zaman kəsiyi dedikdə**, qərarların qəbul olunduğu vaxtla həyata keçirilməsi vacib sayılan tədbirlərin nəticə verməyə başladığı vaxt arasındakı müddət nəzərdə tutulur. Bu, ona görə lazım olur ki, iqtisadi tənzimləmə vasitələri gəlirlərin, xərclərin və məşğulluğun dəyişməsinə dərhal təsir göstərmir.

Xarici zaman kəsiyinin kəmiyyəti dövlət tərəfindən tənzimləmənin məqsədi ilə onun həyata keçirilməsi vasitələrini birləşdirən mexanizmin strukturundan asılıdır. Məsələn, bu müddət, tələbin dinamikasına dolayısı ilə təsir edən pul-kredit siyasətinə nisbətən ümumi tələbə bilavasitə təsir göstərən büdcə siyasəti üçün qısa olur. Pul-kredit siyasətinin fəaliyyət mexanizminin əsasında faiz dərəcələrinin dəyişdirilməsi vasitəsilə investisiyalara təsir göstərilməsi durur. Lakin bir çox müəssisələr investisiyaları qabaqcadan planlaşdırırlar. Odur ki, pul kütləsinin dəyişməsi nəticəsində ÜDM-in həcmində real dəyişiklikləri müəyyən müddət keçdikdən sonra gözləmək olar.

Xarici zaman kəsiyi təsərrüfat sisteminin müxtəlif subyektləri arasındakı qarşılıqlı fəaliyyətin müddətinə ümumiləşdirici xarakteristika verir. Məsələn, dövlət tərəfindən geniş pul-kredit siyasəti yeridilməsinə baxmayaraq sahibkarların kapital qoyuluşunda ehtiyat etmələri nəticəsində baş verən vaxt itkisini necə ölçmək olar? Makroiqtisadi siyasəti işləyib hazırlayarkən qarşıya qoyulan məqsədi və ona nail olunması vasitələrini səciyyələndirən ümumi göstəricilərdən istifadə edilir. Lakin ən ümumi göstəricilər bəzi hallarda real vəziyyəti təhrif edə bilər. Məsələn, büdcə xərcləri eyni deyildir. Və hər bir dövlət xərcinin müddətinə görə müəyyən zaman kəsiyi vardır. Misal üçün Amerika iqtisadiyyatında elm və texnologiyaların maliyyələşdirilməsi üçün ayrılan büdcə vəsaiti milli gəliri 5-8 il bundan sonrakı qədər artırmaqla, ödənilir. Bu göstərici zaman kəsiyinin orta həcmini bir neçə dəfə artırır.

İqtisadi qərarların işlənib hazırlanması və həyata keçirilməsində vaxt amilinin qiymətləndirilməsi iqtisadi nəzəriyyənin ən mürəkkəb problemlərinə aiddir. Bununla birlikdə zaman kəsiyi strukturlarının hesablanması və nəzərə alınmasının praktik əhəmiyyətinin qiymətləndirilməsi çox çətindir. Hətta ən ümumi və təxmini əhəmiyyəti haqqında məlumata malik olan dövlət həm səmərənin kəmiyyəti, həm də təsiretmə dərəcəsinə görə onları təsnifləşdirmək imkanı əldə edir. Belə bir təsəvvür yaranır ki, hansı vasitələrdən daha tez, hansılardan isə perspektivdə müsbət nəticə gözləmək olar. Zaman kəsiyi haqqında məlumatların olması uzunmüddətli makroiqtisadi strategiyanın işlənib

hazırlanmasına, ümidverici vədlər verilməsinə və onların həyata keçirilməsinə nail olunmasına imkan verir.

Zaman kəsiyi strukturuna diqqət yetirdikdə keçid iqtisadiyyatı üçün səciyyəvi olan bəzi vaxtı çatmış makroiqtisadi qərarların qəbul olunmasında gecikmə hallarına yol verilməsinin səbəbləri aydın olur. Həm fundamental, həm də tətbiqi elmlərdə iqtisadi tədqiqatların keyfiyyətinin aşağı olması, yuxarı hakimiyyət strukturlarında qərarların təkbaşına qəbul edilməsi, köhnə ideoloji stereotiplərin hələ də qalması daxili və xarici zaman kəsiyinin uzanmasına səbəb olur.

**Makroiqtisadi siyasəti formalaşdırmaq üçün multiplikator faydalılığını da nəzərə almaq lazımdır.** Bu o deməktir ki, iqtisadiyyatın bir sahəsinə qoyulan pul digər sahələrə də sərmayə cəlb edir. Multiplikator faydalılığı tənzimləmə obyektinin bütün strukturları arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsir olduğunu nümayiş etdirir. Məsələn, bazarın təkmil olmaması, yaxud da iqtisadi siyasətdə düzgün olmayan qərarların qəbul edilməsi ilə əlaqədar meydana çıxan ayrı-ayrı uyğunsuzluqlar multiplikatorun təsiri ilə xeyli güclənə bilər. Bəzi hallarda isə hətta multiplikator faydalılığı sabitliyin pozulması amilinə çevrilə bilər.

Dünya iqtisad elminə iqtisadi siyasətin ən müxtəlif məqsəd və vasitələrini əhatə edən bütöv bir multiplikatorlar sistemi məlumdur. Qısa və uzun müddətli dövrlərdə dövlət tərəfindən tənzimləmənin multiplikator faydalılığı bir-birindən fərqləndirilir. İqtisadi siyasət vasitələri məqsədə nail olunduqdan sonra da, lakin əks istiqamətdə fəaliyyət göstərməkdə davam edir. Başqa sözlə, yaxın keçmişdə arzu olunan nəticələri verən tənzimləmə əks istiqamətdə fəaliyyət göstərir. Məsələn, uzunmüddətli dövrdə büdcə ekspansiyasının (genişlənmə, yayılma) köməyi ilə iqtisadi inkişafın stimullaşdırılması «mənfi inflyasiya faydası» verir və multiplikator faydalılığı vasitəsilə iqtisadi artıma əngəl törədir. **Odur ki, müəyyən bir nizamlayıcı işə salındıqdan sonra əldə edilən fayda bütün mənfi nəticələrdən çox olmalıdır.**

İqtisadi siyasətin müxtəlif vasitələrinin nəticələri eyni deyildir. Onların bəziləri qiymətlərin səviyyəsi və dinamikasının tənzimlənməsi (məsələn, pul-kredit siyasətində istifadə olunan vasitə-

lər) digərləri iqtisadi artımın stimullaşdırılması üçün istifadə olunmaq üçün yararlıdır. İnflyasiya sürətini nəzərdən keçirdikdə aydın olur ki, qiymətlərin səviyyəsi üzrə pul multiplikatoru[1] qiymətlərin səviyyəsi üzrə büdcə multiplikatorundan böyükdür.

İqtisadi artıma münasibətdə onlar yerlərini dəyişir. Başqa sözlə, milli gəlir üzrə büdcə multiplikatoru[2] milli gəlir üzrə pul multiplikatorundan böyük olur.

Qarşıya qoyulan məqsədə nail olunması üçün pul və büdcə tənzimləyicilərindən növbə ilə istifadə oluna bilər. Hər şey real iqtisadi vəziyyətdən asılıdır.

## NƏTİCƏ

bazar iqtisadiyyatı və ona keçid dövründə tənzimləmənin aşağıdakı formalarından istsfadə olunur. 1) dövlət sifarişi; 2) indikativ planlaşdırma; 3) strateji planlaşdırma; 4) proqramlaşdırma; 5) proqnozlaşdırma.

iqtisadiyatın dövlət tərəfindən tənzimlənməsi metodları iki qrupa bölünür; 1) müstəqim (inzibati) metodlar; 2) dolayı (iqtisadi) metodlar. Lakin real həyatda bu metodların hüdudlarının müəyyənləşdirilməsi əslində şərti xarakter daşıyır. Çünki iqtisadi tənzimləmə prosesində inzibati metodlardan istifadə olunur, hər bir inzibati tənzimləmə metodu isə müəyyən iqtisadi mexanizmlər vasitəsilə həyata keçirilir;

tənzimləmə metodlarını həm də ümumi və xüsusi metodlara bölmək olar. Ümumi metodlara idrak metodlarının toplusu, sistemli metod, ümumi təkrar istehsal nəzəriyyələri və başqaları, xüsusi metodlara isə ekstropolyasiya, iqtisadi qruplaşdırma, indeks, büdcə, balans, proqram-məqsədli və normativ metodlar aiddir.

proqnozlaşdırma iqtisadi inkişafın mümkün olan variantları və parametrlərinin müəyyən edilməsinin başlanğıc mərhələsi

---

[1] Qiymətlərin səviyyəsi üzrə multiplikator pul-kredit vasitələrindən istifadə olunduqda qiymətlərin səviyyəsində hansı dəyişikliklərin gözlənildiyini göstərir.

[2] Milli gəlir üzrə büdcə multiplikatoru fiskal siyasətin vasitələrindən istifadə olunduqda milli gəlirdə hansı dəyişikliklərin gözlənildiyini göstərir.

olduğuna görə onu həyata keçirmək üçün həm yuxarıda göstərilən metodlardan, həm də statistik eyniləşdirmə, ekspert, seçmə, ssenari yazılması və s. metodlardan geniş istifadə olunur;

proqnozlaşdırmada iqtisadi obyektlərə genetik və normativ yanaşmalar da mümkündür. Genetik yanaşma, haqqında proqnoz hazırlanan obyektin əvvəlki dövrlərdə inkişafının təhlilinə əsaslanılır, artımın sabit meyllərini əks etdirir və bu əsas üzərində obyektin gələcəyi haqqında nəticə çıxarılır. Normativ yanaşma proqnozlaşdırılan proseslərin onların idarə olunmasının xarakterini, qarşıya qoyulmuş məqsəddən asılılığın digər aspektini və s. əks etdirir.

bazar münasibətlərinin formalaşdığı dövrdə dövlətin tənzimləmə imkanları məhdud olur. İri miqyaslı bir neçə məqsədə eyni vaxtda və dərhal nail olmaq üçün dövlətin vəsaiti çatmaya və ya azlıq edə bilər. Odur ki, dövlətin qarşıya qoyduğu məqsədlərin sayı bunların həll edilməsi üçün onun malik olduğu ehtiyatlardan çox olmamalıdır. Bu dəlil Hollandiya iqtisadçısı, Nobel mükafatı laureatı Y.Timbergen tərəfindən irəli sürülmüşdür. Buna iqtisad elmində Y.Timbergen bərabərsizliyi deyilir.

daxili və xarici zaman kəsiyi bir-birindən fərqlənir. Daxili zaman kəsiyi dedikdə iqtisadi problemin meydana çıxdığı vaxtla cavab tədbiri görüldüyü vaxt arasındakı müddət nəzərdə tutulur. Xarici zaman kəsiyi dedikdə isə qərarların qəbul olunduğu vaxtla həyata keçirilməsi vacib sayılan tədbirlərin nəticə verməyə başladığı vaxt arasındakı müddət nəzərdə tutulur.

iqtisadi qərarların hazırlanması və həyata keçirilməsində vaxt amilinin qiymətləndirilməsi iqtisadi nəzəriyyənin ən mürəkkəb problemlərindəndir. Burada makroiqtisadi siyasəti formalaşdırmaq üçün multiplikator faydalılığını da nəzərə almaq lazımdır. Bu, o deməkdir ki, iqtisadiyyatın hər hansı bir sahəsinə qoyulan pul digər sahələrə də sərmayə cəlb edir.

qarşıya qoyulan məqsədə nail olunması üçün pul və büdcə tənzimləyicilərindən növbə ilə istifadə oluna bilər və olunmalıdır. Hər şey real iqtisadi vəziyyətdən asılıdır.

# III FƏSİL

# QARIŞIQ İQTİSADİYYAT ŞƏRAİTİNDƏ DÖVLƏT MÜLKİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ

## 3.1 Azərbaycan Respublikası iqtisadiyyatında dövlət mülkiyyətinin yeri

İqtisadiyyatın dövlət bölməsi dedikdə hər şeydən əvvəl tamamilə dövlət hakimiyyəti orqanlarının mülkiyyətində olan təsərrüfat obyektləri kompleksi nəzərdə tutulur. Buraya yerli dövlət hakimiyyəti orqanlarının mülkiyyətində olan təsərrüfat obyektləri də daxil edilir.

Dövlət bölməsinin bu cür müəyyən edilməsi onun hüdudlarını əslində dövlət mülkiyyəti səviyyəsində məhdudlaşdırır. Həqiqətdə isə dövlət mülkiyyəti dövlət bölməsinin əsas tərkib hissəsi olsa da, onun əhatə dairəsi daha genişdir. Deməli, **dövlət bölməsi və dövlət mülkiyyəti anlayışları bir-birindən fərqlənir və tənzimlənmə sistemində onlar müxtəlif rola malikdir.**

Dövlət bölməsinin başlıca rolu iqtisadiyyatın modelinə uyğun gələn konsepsiyada iqtisadi və sosial sahədə nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üçün pul vəsaitinin xeyli hissəsinin səfərbərliyə alınması və yenidən bölgüsünü həyata keçirməkdən ibarətdir.

Dövlət böyük həcmdə mülkiyyət sahibidir. Bunlara unitar müəssisə və təşkilatları, müxtəlif şirkətlərin səhmləri (o cümlədən nəzarət səhm zərfi), Azərbaycanda və onun hüdudlarından kənarda olan daşınmaz əmlak və s. misal ola bilər. Mülkiyyətdən səmərəli istifadə olunmalı, o, sosial-iqtisadi vəzifələri həll eimək üçün vəsait mənbəyi olmalıdır. Məsələn, İsveç, dövlət bölməsinin həcminə görə inkişaf etmiş kapitalist ölkələri içərisində birinci yeri tutur. Lakin İsveçdə dövlət mülkiyyətinin həcmi bir o qədər də çox deyildir.

Ümumi rifah prinsipini seçmiş İsveç, dövlət bölməsinin həcmini elə bir həddə qədər genişləndirmişdir ki, istər dövlət bölmə-

sinə yönəldilən, istərsə də transfer ödənişləri də daxil olmaqla dövlətin ümumi xərcləri ölkənin ümumi daxili məhsulunun 60%-nə bərabər olmuşdur[1].

Dövlət mülkiyyəti dedikdə bir qayda olaraq bütünlüklə və ya qismən mərkəzi və ya yerli dövlət hakimiyyəti orqanlarına məxsus olan təsərrüfat obyektləri kompleksi nəzərdə tutulur.

Dövlət mülkiyyətinin miqyası aşağıdakı göstəricilərin köməyi ilə qiymətləndirilir:

1) İstehsalın ümumi həcmində iqtisadiyyatın dövlət bölməsinin xüsusi çəkisi;

2) Sahələr üzrə dövlət bölməsində istehsal edilən məhsulların xüsusi çəkisi;

3) Əsas fondların tərkibində xüsusi çəki;

4) Əsas kapitala investisiya qoyuluşunun ümumi həcmində dövlət bölməsinin xüsusi çəkisi;

5) Dövlət müəssisələrində çalışan işçilərin sayı.

Dövlət mülkiyyətinin miqyasını ümumi daxili məhsulda dövlət xərclərinin xüsusi çəkisi və dövlət büdcəsi vasitəsilə yenidən bölüşdürülən ümumi daxili məhsulun xüsusi çəkisi göstəriciləri daha tam əks etdirir.

**Ölkəmizdə özəlləşdirmə sahəsində də bir çox işlər görülmüşdür.** Belə ki, indiyədək 1500-ə qədər dövlət müəssisəsi özəlləşdirilmiş, hələ 1997-ci il mart ayının 1-dən əhaliyə verilən özəlləşdirmə paylarının 50%-dən çoxu silinmişdir. 2005-ci ildə ölkədə istehsal olunan ümumi daxili məhsulun təqribən 1/4 hissəsi dövlət mülkiyyətində olan müəssisələrin payına düşmüşdür.

Dövlət müəssisələrinin böyük əksəriyyətinin sürətli və kütləvi özəlləşdirilməsinə baxmayaraq dövlət bölməsi milli iqtisadiyyatın baza sahələrində aparıcı rol oynamaqda davam edir. Bunlar birinci növbədə nəqliyyat və rabitəyə, yanacaq-energetika kompleksinə, qiymətli metallara, hərbi və kosmik texnikaya və digər sahələrə aiddir. Çünkü bu sahələr dövlət ehtiyaclarının ödənilməsi və milli təhlükəsizliyin təmin olunmasında çox mühüm rol oynayırlar. Dövlət yüksək likvidli material aktivlərinə malikdir

---

[1] Bax: Северная Европа. Проблемы истории. Вып.3.–М.,Наука,1999,с. 254.

və ən iri mülkiyətçidir. Ölkəmizdə mülkiyyətin təqribən 1/3 Azərbaycan dövlətinə məxsusdur.

**Dövlət mülkiyyətinin quruluşu belədir:** dövlət idarə və müəssisələri; nizamnamə kapitalında dövlətin payı olan səhmdar cəmiyyətləri və digər müəssisələr; daşınmaz əmlak.

Dövlət müəssisələrinin əlində təsərrüfatın aparılması hüququ, idarələrin əlində operativ idarəetmə hüququ olur. Dövlətin bu mülkiyyətdən istifadə olunması üzərində nəzarəti müxtəlif məqsədlər güdür. Başqa sözlə, bu məqsəd müəssisələrə münasibətdə ondan səmərəli və ya qeyri-səmərəli istifadə olunmasından, idarələrə münasibətdə isə həmin mülkiyyətdən öz təyinatı üzrə istifadə olunub-olunmamasından ibarətdir.

Dövlətin səhmdar cəmiyətlərinin nizamnamə kapitalında iştirakı dərəcəsindən asılı olaraq onlar aşağıdakı kimi bölüşdürülür.

Dövlət 1300-dən çox səhmdar cəmiyyətinin səhmdarı olmaqla, nizamnamə kapitalında onun payı 20%-ə qədərdir. Dövlət əmlakının özəlləşdirilməsindən indiyədək büdcəyə 600 mlrd. manatdan çox vəsait daxil olmuşdur. Ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsi davam edir və özəlləşdirmə paylarının istifadə müddəti 2008-ci il yanvarın 1-dək uzadılmışdır.

Dövlət həm də daşınmaz əmlakın mülkiyətçisidir. Daşınmaz əmlakın satışından və ya icarəyə verilməsindən hər il dövlət büdcəsinə böyük məbləğdə vəsait daxil olur. Ümumiyyətlə götürdükdə dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə 1995-ci ildə 436,5 mln manat, 1998-ci ildə 141730,8 mln manat, 1999-cu ildə 120852,8, 2000-ci ildə 38188,1, 2001-ci ildə 93621,0, 2002-ci ildə 100362,0, 2003-cü ildə 96583,7mln manat, o cümlədən torpaq sahələrinin özəlləşdirilməsindən 1998-ci ildə 3037,4mln manat, 1999-cu ildə 4677,9 mln manat, 2000-ci ildə 2638,9 mln manat, 2001-ci ildə 6806,6 mln manat, 2002-ci ildə 7790,0 mln manat, 2003- cü ildə isə 8447,1 mln manat vəsait daxil olmuşdur.

**Dövlətin mülkiyyətində böyük torpaq sahəsi vardır.** Daha doğrusu, Azərbaycan Respublikasının 8,7 mln. ha. ümumi torpaq fondunun 45%-i və ya 3,9 mln. hektarı dövlətin mülkiyyətindədir. Lakin bütün bunlara baxmayaraq dövlət bölməsinin

xüsusi çəkisi getdikcə azalmaqdadır. Bunu aşağıdakı statistik məlumatlardan da görmək olar. Təkcə bunu demək kifayətdir ki, 2004-cü ildə ölkədə istehsal olunan ümumi daxili məhsulun 26,7%-i dövlət bölməsinin payına düşmüşdür. Halbuki 1997-ci ildə bu göstərici 52,0% təşkil etmişdir.

Bazar iqtisadiyyatı şəraitində dövlət bölməsindən bir çox sosial-iqtisadi məqsədlərə nail olunmasında fəal istifadə edilir. Belə ki, konyuktura pisləşdikdə, durğunluq və böhran dövründə xüsusi kapital qoyuluşu azaldığı halda, dövlət bölməsinə investisiya qoyuluşu adətən ixtisar olunmur. Hökumət orqanları belə hallarda istehsalın azalmasına yol verməmək və işsizliyin qarşısının alınması üçün tədbir görür.

Dövlət bölməsinin tənzimləmə ilə əlaqədar iqtisadiyyata təsiri müxtəlifdir. Tənzimləmə funksiylarına aşağıdakılar aiddir:

1) Struktur siyasətinin təkmilləşdirilməsi;

2) Xüsusi kapitalın aşağı xüsusi çəkiyə malik olduğu sahələrdə və regionlarda yeni obyektlərin yaradılması və ya köhnə obyektlərin genişləndirilməsi və yenidən qurulması. Məsələn, dövlət bölməsi Elmi-Tədqiqat və Təcrübə Konstruktor işlərində, kadrların hazırlanması və yenidən hazırlanmasında çox böyük rol oynayır;

3) Dövlət bölməsinə qoyulan investisiyaların artması.

Dövlət bölməsinin iqtisadiyyata tənzimləyici təsiri nəzarət səhm zərfinin dövlətə məxsus olduğu qarışıq şirkətlərin siyasətinə təsir etmək vasitəsilə həyata keçirilir. Bundan istifadə edən dövlət orqanları investisiyaları tənzimləmək imkanına malik olur. Dövlət bölməsi Azərbaycan Respublikasının Milli Bankı vasitəsilə maliyyə bazarında tənzimləyici funksiya yerinə yetirir. Daha doğrusu faiz dərəcələrini müəyyən edir, qiymətli kağızlar bazarında əməliyyatları həyata keçirir, valyuta məzənnəsinə təsir edir və s. və i.a. Bunlar isə o deməkdir ki, dövlət bölməsi pul-kredit siyasəti vasitəsilə iqtisadi artıma fəal təsir göstərir.

Dövlət, vəsaitin xeyli hissəsini büdcəyə cəlb etməklə kommersiya bankları, xüsusi firma və şirkətlər üçün kreditor rolunda çıxış edir, bəzi hallarda isə özü borcluya çevrilir.

Dövlət bölməsinin maliyyə sahəsində tənzimləmə funksiyalarına sahibkarların əldə etdikləri mənfəətin bir hissəsinin vergi şəklində büdcəyə cəlb edilməsində, dövlət kapitalının iştirakı ilə yaradılan müəssisələrin ödədikləri vergilər və digər məcburi tədiyyələr hesabına büdcənin gəlir hissəsinin tamamlanması üçün vəsaitin cəlb edilməsi və s. aiddir. Bu vəzifələr aydındır. Maliyyə «aləti» kimi dövlət mülkiyyəti obyektlərinin özəlləşdirilməsində onun yeri və rolunun müəyyən olunmasına gəldikdə isə bu bir qədər mürəkkəb məsələdir. Özəlləşdirmə dövlət büdcəsinə əlavə vəsait gətirən əməliyyat kimi ayrılıqda götürülən hər hansı bir vəzifəni həll etmir, o, dövlət əmlakının idarə olunması üzrə vahid dövlət siyasətinə uyğun olaraq həyata keçirilir.

Dövlət bölməsi sosial siyasətin reallaşdırılmasının ən mühüm «alətləri»ndən biridir.

Dövlət alqı-satqı müqavilələrinin, kontraktların, sifarişlərin sərbəst surətdə bağlanması yolu ilə bazar münasibətlərində fəal iştirak etməklə, həm də bir mülkiyyətçi kimi bazara, qiymətlərə, tələb və təklif arasındakı nisbətə, resurslardan istifadə olunmasına təsir edir.

Dövlət, dövlət bölməsindəki müəssisələrə biznesin inkişaf etdirilməsi üçün ölkə ərazisində bərabər şərait yaradılmasına da təsir göstərir.

Dövlət bölməsinin tənzimləyici funksiyaları sistemyaratmaq funksiyaları ilə tamamlanır. **Azərbaycan Respublikası şəraitində dövlətin sistemyaratmaqla əlaqədar spesifik funksiyaları aşağıdakılardır:**

1) Mülkiyyətin çox böyük hissəsinin dövlətin tabeliyindən çıxarılması və özəlləşdirilməsi;

2) Sağlam rəqabət mühitinin formalaşdırılması;

3) Daxili bazarda iqtisadi subyektlər üçün yeni davranış qaydalarının müəyyən olunması və dünya bazarı ilə qarşılıqlı fəaliyyətin təmin edilməsi;

4) Bazar təsərrüfatı infrastrukturlarının formalaşdırılmasına təsir göstərilməsi.

Yeni iqtisadi sistemə keçilərkən, əhəmiyyətinə görə bu vəzifələrdən birincisi bazar təsərrüfatının formalaşdırılmasının əsas

amillərindən olan mülkiyyətin dövlətin tabeliyindən çıxarılması və özəlləşdirilməsidir. Mülkiyyətin dövlətsizləşdirilməsi ilk öncə cəmiyyət həyatının bütün sahələrində dövlət inhisarının aradan qaldırılması deməkdir. Bu, eyni zamanda dövlət mülkiyyətinin yenidən qurulması, onun qeyri-dövlət formalarına (fərdi, qrup, kollektiv, səhmdar cəmiyyəti və i.a.) çevrilməsi prosesi olan özəlləşdirmə, qiymətlərin liberallaşdırılması, dövlətin iqtisadi vahidləri birbaşa idarə etmək funksiyasının aradan qaldırılması və müvafiq səlahiyyətlərin müəssisələrə verilməsi, şaquli əlaqələrin üfüqi əlaqələrlə (bu mülkiyyətçi dəyişmədən də mümkündür) əvəz edilməsi və s. nəzərdə tutur.

Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, mülkiyyətin formasının dəyişdirilməsi xüsusi qanun və dövlət proqamı əsasında həyata keçirilir. Proqramda özəlləşdirmənin əhatə dairəsi, yəni özəlləşdiriləcək obyektlərin (əmlakın) siyahısı, onların texniki-iqtisadi göstəriciləri və ilkin qiymətləndirilməsi, mərhələləri, formaları, müddətləri; iqtisadiyyatın sahələri üzrə variantları; özəlləşdirmə payının müəyyən edilməsi, əldə olunan vəsaitdən istifadə qaydaları və s. nəzərdə tutulur. Ölkəmizdə iki dəfə – 1993-cü və 2000-ci illərdə dövlət əmlakının özəlləşdirilməsinə dair qanun və proqram qəbul edilmişdir. Birinci proqram 1995-1998-ci illəri, ikinci proqram isə 2000-ci ildən sonrakı dövrü əhatə edir.

**Azərbaycan Respublikasında mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi** təkcə xalis iqtisadi məsələ deyildir. O həm də geniş miqyaslı sosial-siyasi məqsəd daşıyan, köhnə sosial-iqtisadi münasibətlərin ləğv edilməsi və yenilərinin yaradılması prosesidir. Odur ki, ölkəmizdə xüsusi mülkiyyətin və xüsusi mülkiyyətçilər sinfinin formalaşmasına xüsusi diqqət yetirilir, bu məqsədlə konkret tədbirlər görülür.

Azərbaycan dövlətinin ilk addımlarından biri də iqtisadiyyatda inhisarçılığın aradan qaldırılması və sağlam rəqabət mühitinin formalaşdırılması haqqında tədbirlər görməkdən ibarət olmuşdur. Bu, öz ifadəsini 1995-ci il iyunun 2-də qəbul edilmiş, 5 oktyabr 2001-ci il tarixində aparılmış dəyişiklik və əlavələri özündə əks etdirən «Haqsız rəqabət haqqında» Azərbaycan

Respublikasının Qanununda tapmışdır. Qanunda haqsız rəqabətin qarşısının alınması və aradan qaldırılmasının təşkilatı-hüquqi əsasları müəyyən edilir, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradılır, bazar subyektlərinin haqsız rəqabət metodlarından istifadəyə görə məsuliyyəti nəzərdə tutulur. Daxili bazarda bütün iqtisadi subyektlər, o cümlədən xarici subyektlər üçün yeni davranış qaydalarının müəyyən olunması, bazar təsərrüfatı infrastrukturlarının yaradılması sahəsində də Azərbaycan dövləti tərəfindən çox işlər görülmüş və görülməkdədir.

## 3.2. Dövlət mülkiyyətinin səmərəliliyinin meyarları və idarə edilməsi

Dövlət mülkiyyətindən istifadənin iqtisadi səmərəliliyi problemi iqtisadiyyatın tipindən asılı olmayaraq bütün ölkələrdə mövcuddur.

Bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etmiş olduğu ölkələrdə dövlət mülkiyyətində rentabellik səviyyəsinin aşağı olması adi hal hesab edilir. Və dövlət mülkiyyətində rentabelliyin aşağı olmasının səbəbi hamıya aydındır. Əsas səbəblərin içərisində birini – dövlət mülkiyyətində olan müəssisələrin sahə strukturunu nəzərdən keçirək.

Dövlət mülkiyyətinin xeyli hissəsi qeyri-rentabelli infrastruktur obyektlərindən, digər hissəsi isə böyük məbləğdə investisiya tələb edən, kapitalın dövretmə sürəti aşağı olan dövlət xammal və energetika müəssisələrindən ibarətdir. Burada dövlət müəssisələrinin rentabelliyi, bir qayda olaraq xüsusi müəssisələrə nisbətən aşağıdır.

Bazar təsərrüfatı şəraitində dövlət bölməsi müəssisələrinin xüsusi firmaların istifadə etdikləri prinsiplərdən fərqlənən prinsiplərdən istifadə etmələri dövlət bölməsi tərəfindən ümumdövlət təyinatlı iqtisadi vəzifələrin yerinə yetirilməsinə, həmçinin xüsusi təsərrüfatlarda mənfəətliliyin yüksəlməsinə imkan verir.

İnhisar mənfəəti və ümumiyyətlə mənfəət infrastruktur, energetika bölmələrində, xammal istehsal olunan sahələrdə, ETTKİ-də kadrların hazırlanması və yenidən hazırlanması, ətraf mühitin mühafizəsi sahələrində dövlətin əsas məqsədi deyildir. Odur ki, dövlət bölməsi ucuz xidmətlər göstərməklə (xüsusilə də nəqliyyat, poçt-teleqraf sahələrində), yəni elektrik enerjisi və xammallar göndərməklə, özəl bölmədə istehsal xərclərinin azaldılmasına şərait yaradır.

**Azərbaycan Respublikasında bazar dəyişiklikləri prosesində dövlət mülkiyyətinin idarə edilməsi sistemi yenidən formalaşdırılır.** Ona görə də dövlət mülkiyyətinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsini nəzərdə tutan özəlləşdirmənin yeni strategiya və proqramının işlənib hazırlanması olduqca vacibdir. Çünki indiyədək mövcud olan idarəetmə sistemi səmərə vermir. Bu məqsədlə hazırlanması zəruri olan sənəddə aşağıdakı göstəricilərin nəzərdə tutulması məqsədəuyğundur: büdcəyə daxil olacaq mənfəət məbləği; dövlətin iştirak etdiyi səhmdar cəmiyyətlərinin büdcəyə ödəyəcəkləri dividend məbləği; öz kapitalının rentabelliyi; aktivlərin rentabelliyi; cari likvid əmsalı; cəlb edilmiş vəsaitlə özünün xüsusi vəsaiti arasında nisbət; dövriyyə vaxtı; əsas kapitalın köhnəlməsi əmsalı; əmək haqqı üzrə borc və b. Bunların həyata keçirilməsi üçün dövlət müəssisələrinin fəaliyyətinin idarə edilməsinə dair qanunvericilik sənədləri toplusu olmalıdır.

Mülkiyyətin idarə edilməsinin səmərəliliyinə ehtiyatlara maksimum dərəcədə qənaət edilməsi hesabına nail olunur. Dövlət orqanlarının fəaliyyətinə qiymət verərkən məhz bu meyardan istifadə edilir.

Dövlət mülkiyyətinin fəaliyyətinin səmərəliliyinə təsir göstərən amillər içərisində regional amili xüsusilə qeyd etmək lazımdır. Məsələn, unitar müəssisələrin sayı dövlətin onları idarə etməsi və onların fəaliyyəti üzərində nəzarəti həyata keçirməsi imkanlarına uyğun gəlmir. Mərkəz, dövlət unitar müəssisələrinin böyük əksəriyyətinin idarə olunmasını regionlara verməli və bununla da dövlət mülkiyyətinin idarə olunmasında operativliyi təmin etməlidir.

**Ümumiyyətlə, dövlət mülkiyyətinin səmərəliliyinin qiymətləndirilməsinə aşağıdakı iki yanaşma metodu vardır:**

1) Hər bir müəssisə üçün rentabellik meyarı;

2) Bütün xalq təsərrüfatı üçün səmərəlilik meyarı.

Birinci halda, müəssisə mənfəət, rentabellik, əsaslı xərclərin ödənilməsi müddəti haqqında bazar meyarlarını əldə rəhbər tutur.

İkinci halda bir sıra içtimai tələbatların ödənilməsi, zəruri içtimai nemətlərin yaradılması və istifadəsi əsas meyar hesab edilir. **Bu səmərəliliyə sosial səmərəlilik deyilir.** Dövlət bölməsinin fəaliyyətinin səmərəlilik meyarı həmçinin xüsusi sahibkarlığın xərclərinin aşağı salınması və onun rəqabət qabiliyyətinin yüksəldilməsinə verdiyi töhfə ola bilər.

Dövlət mülkiyyətinin idarə edilməsində qarşıya aşağıdakı məqsədlər qoyulur:

1) Dövlət əmlakının mülkiyyətçisi kimi onun səlahiyyətlərinin dəqiqləşdirilməsi;

2) Dövlət mülkiyyətinin idarə olunmasının səmərəliliyinin yüksəldilməsi əsasında büdcənin gəlirlərinin artırılması və iqtisadiyyatın dövlət bölməsində dövlət xərclərinin optimallaşdırılması;

3) İqtisadi artım üçün sabit ilkin şərtlərin təmin olunması məqsədilə mülkiyyətin strukturunun optimallaşdırılması;

4) İqtisadiyyatın real bölməsinə investisiyaları cəlb etmək məqsədilə dövlət aktivlərindən bir vasitə kimi istifadə olunması.

Həm də konsepsiya ölkədə investisiya mühitinin ilkin şərtlərinin keyfiyyətcə yaxşılaşdırılmasına xidmət etməlidir.

Dövlət bölməsinin idarə olunmasının iqtisadi səmərəliliyinin yüksəldilməsinin ən mühüm şərti inzibati islahatların aparılması, icraedici hakimiyyət sisteminin modernləşdirilməsi və s-dir. Pul vəsaiti dövlət orqanlarının saxlanmasına yox, dövlət vəzifələrinin yerinə yetirilməsinə sərf edilməlidir.

Dövlət mülkiyyətinin fəaliyyət göstərməsinə özəlləşdirmə çox böyük təsir etmişdir. Dövlət əmlakının özəlləşdirilməsində buraxılan nöqsanlar bir çox hallarda onlardan istifadənin səmərəli-

liyinin azalmasına səbəb olmuşdur. Bu, mülkiyyət münasibətlərinin qaydaya salınmasını zəruru edir.

Sabit bazar iqtisadiyyatı şəraitində ayrı-ayrı obyektlərin və sahələrin özəlləşdirilməsi və satın alınması dövlət tərəfindən iqtisadiyyatı tənzimləməyin bir vasitəsidir. Bu, dövlətin dəyişməkdə olan şəraitə uyğunlaşdırılması və möhkəmləndirilməsi məqsədini güdür.

**Dünyada gedən iqtisadi inkişaf təcrübəsi göstərir ki, özəlləşdirmə prosesləri vaxtaşırı olaraq milliləşdirmə prosesləri ilə əvəz olunur.** Başqa sözlə, vətəndaşların və hüqüqi şəxslərin mülkiyyətində olan əmlak dövlət mülkiyyətinə çevrilir. Məsələn, Fransada son 60 ildə üç dəfə geniş miqyaslı milliləşdirmə aparılmışdır. Belə bir tədbir dəfələrlə Böyük Britaniyada da həyata keçirilmişdir. Bu, birinci növbədə İngiltərə baklarına, elektroenergetikaya, qaz sənayesinə və s. aiddir.

Ölkəmizdə 1995-1998-ci illərdə və bundan sonrakı dövrdə aparılan özəlləşdirmədə bir sıra nöqsanlara yol verilmişdir. **Əvvələ qeyd etmək lazımdır ki,** özəlləşdirmə haqqında birinci proqram 1995-1998-ci illəri əhatə etdiyi halda, əhaliyə özəlləşdirmə paylarının verilməsinə 1997-ci il mart ayının 1-dən, dövlət əmlakının özəlləşdirilməsinə isə əslində 1998-ci ildən başlanmışdır. Deməli, birinci proqramda nəzərdə tutulan obyektlərin hamısını özəlləşdirməyə hazırlamaq mümkün olmamışdır. Digər tərəfdən, özəlləşdirmə paylarının istifadə müddəti bir neçə dəfə uzadılmışdır.

**İkincisi,** özəlləşdirmənin əsas məsələlərindən biri də müəssisələrin əmlakının qiymətləndirilməsidir. Əsas kapitalın tam ilk dəyəri ilə bazar dəyəri arasında kəskin fərqin əmələ gəldiyi şəraitdə bu xüsusilə vacibdir. Lakin birinci mərhələdə özəlləşdirməyə çıxarılan obyektlərin qiymətləndirilməsində bir sıra nöqsanlara yol verilmiş və maraqlı şəxslər və qruplar bundan sui-istifadə etmişlər;

**Üçüncüsü,** özəlləşdirmə aşkarlıq şəraitində aparılmalı, onların həyata keçirilməsi və nəticələri üzərində nəzarət qoyulmalı, əhali arasında onun məqsədi ilə əlaqədar geniş təbliğat işləri aparılmalıdır. Lakin qeyd etmək lazımdır ki, özəlləşdirmə prosesində

bəzi hallarda aşkarlıq təmin olunmamış və əhalinin böyük əksəriyyəti bu barədə demək olar ki, heç bir təsəvvürə malik olmadığına görə özəlləşdirmə paylarını satmağa üstünlük vermişlər;

**Dördüncüsü,** ilkin mərhələdə zərərlə işləyən müəssisələr özəlləşdirməyə hazırlandıqlarına görə onların əmlakı mənimsənilmiş və ya tərkibində kiçik müəssisələr yaradılaraq özlərininkiləşdirilmişdir.

**Bu nöqsanlar nəzərə alınmaqla,** 2000-ci ilin avqust ayında dövlət əmlakının özəlləşdirilməsinə dair ikinci qanun və proqram qəbul edilmişdir. Proqramda qarşıya iqtisadiyyatın mövcud strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında milli iqtisadiyyatda tarazlığın təmin edilməsi və səmərəliliyin yüksəldilməsi, xüsusi mülkiyyətçilər təbəqəsinin genişləndirilməsi, iqtisadiyyata investisiya cəlb edilməsi və s. vəzifələr qoyulmuşdur.

Dövlət əmlakının idarə olunmasında müəssisələrin müflisləşməsi haqqında məsələ ayrıca nəzərdən keçirilməlidir. Bu, bütün mülkiyyət formalarına aid olan müəssisələrə aiddir.

Müflisləşmə hər şeydən əvvəl iqtisadi problem olsa da o, hüquqi çərçivədə həll edilir. Ona görə də müflisləşmə haqqında məsələyə baxılarkən həmişə o, milli qanunvericilik nəzərə alınmaqla həll edilir.

Müəssisələrin rəhbərləri arasında belə bir təsəvvür yaranmışdır ki, müəssisə müflis elan olunduqdan sonra istehsal dayandırılır, maddi dəyərlilər satılır, işçilər işdən çıxarılır. Əslində isə «Müflisləşmə haqqında» qanun müflisləşən müəssisənin vəziyyətdən çıxması üçün bir sıra variantlar təklif edir. Bunlara aşağıdakılar daxildir: müşahidə, kənar idarəedicilər, istehsalın müsabiqəyə çıxarılması, maliyyə vəziyyətinin sağlamlaşdırılması və i.a.

Müşahidə müflisləşmənin səbəblərini aşkara çıxarmaq və müəssisəni düşdüyü vəziyyətdən xilas etmək üçün aparılır. Onun əsas məqsədi ondan ibarətdir ki, maliyyə vəziyyəti bir o qədər də yaxşı olmayan hüquqi şəxslər və ya vətəndaşlar üçün kreditorun riski az olsun.

Kənar (xarici) şəxs tərəfindən idarəetmənin mahiyyətinə gəldikdə bu o deməkdir ki, dövlət «xəstə» müəssisələri vəziyyətdən çıxartmaq imkanına malik olmadıqda, onu maraqlı tərəfə idarəetməyə verir. Bu vaxtdan:

1) müəssisənin idarə olunması səlahiyyətləri yeni idarəediciyə keçir;

2) kreditorların tələblərinin ödənilməsi müddəti uzadılır;

3) kreditorların tələblərinin təmin edilməsi ilə əlaqədar əvvəllər görülmüş tədbirlər gündəlikdən çıxarılır.

Müsabiqə istehsalatı ləğvetmə qaydalarına aiddir. Bu zaman aşağıdakı ardıcıllığa əməl olunmalıdır:

**Birinci növbədə** borclunun vətəndaşlar qarşısında onların həyatları və sağlamlıqları üçün götürdüyü öhdəlik təmin olunur;

**İkinci növbədə** əmək müqaviləsi ilə işləyən işçilərlə əmək haqqının ödənilməsi ilə əlaqədar hesablaşmalar aparılır;

**Üçüncü növbədə** borclunun girov qoyulmuş əmlakının təmin olunması ilə bağlı kreditorların üzərinə düşən öhdəliklər təmin olunur;

**Dördüncü növbədə** kreditorların büdcəyə və büdcədənkənar fondlara olan icbari tədiyyələrinin ödənilməsi ilə əlaqədar tələbləri yerinə yetirilir;

**Beşinci növbədə** digər kreditorlarla olan hesablaşmalar aparılır.

**Azərbaycan Respublikasında məqsədli və saxta müflisləşməyə də rast gəlinir.**

Məqsədli (bilərəkdən) müflisləşmə müəssisənin rəhbəri və ya sahibkarı tərəfindən onun tədiyyə qabiliyyətinin olmadığı bəhanə gətirilərək qəsdən, düşünülmüş şəkildə buna şərait yaradılması; onun özünün şəxsi mənafeləri və ya başqa məqsədlər üçün müəssisəyə iqtisadi zərbə vurulması və s-lə səciyyələnir. Qəsdən edilmiş müflisləşmə faktları aşkara çıxarıldıqda bu, cinayət hesab olunur və qanunla həll edilir.

Saxta müflisləşmədən isə kreditorları çaş-baş salmaq, borcun ödənilməsi müddətinin uzadılmasına nail olmaq, müəssisənin maliyyə vəziyyətinin ağır olması haqqında onlarda yalançı tə-

səvvür yaratmaq üçün istifadə edilir. Belə hərəkətlər də cinayət hesab olunur və qanunla tənzimlənir.

Müəssisənin maliyyə vəziyyətinin sağlamlaşdırılması müflisləşmənin tənzimlənməsinin əsas və son məqsədi hesab olunur. Ona müəssisənin aktivlərinin ağıllı idarə olunması, əmək məhsuldarlığının yüksəldilməsi, məşğulluğun qorunub saxlanması və s. daxildir.

**Bütün inkişaf etmiş ölkələrdə:**

1) Ali dövlət hakimiyyəti səviyyəsində xüsusi orqanlar mövcuddur. Onlar ölkənin sosial – iqtisadi, elmi - texniki tərəqqi proqramlarının işlənib hazırlanması və yerinə yetirilməsi üzrə tədbirlərin həyata keçirilməsini təmin edirlər. ABŞ-da Prezidentin yanında və konqresdə xüsusi iqtisadi xidmət və təşkilat, Fransada planlaşdırma üzrə komissarlıq, Yaponiyada iqtisadi planlaşdırma üzrə idarə belə təsisatlardır;

2) Hüquqi baza işlənib hazırlanır. Bu, dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsini təmin etməyə imkan verir;

3) Bu dövlət orqanları üçün ali təhsilli ixtisaslı kadrların hazırlanması sistemi yaradılmış və fəaliyyət göstərir. Bunlara ABŞ-da Harvard Universitetini, İngiltərədə Ali İnzibati məktəbi misal göstərmək olar.

Beləliklə, dövlət tərəfindən tənzimləmənin səmərəliliyinin müəyyən olunması üçün müxtəlif meyarlardan və vasitələrdən istifadə edilir və bu, nisbi mənada onun fəaliyyətindəki müsbət və mənfi hallar barədə fikir söyləməyə imkan verir.

## NƏTİCƏ

qarışıq iqtisadiyyat şəraitində dövlət bölməsi də fəaliyyət göstərir. İqtisadiyyatın dövlət bölməsinə tamamilə dövlət və yerli hakimiyyət orqanlarının mülkiyyətində olan təsərrüfat obyektləri daxildir;

dövlət bölməsi ilə dövlət mülkiyyəti bir-birindən fərqlənir. Dövlət mülkiyyəti dövlət bölməsinin həlledici ünsürü olsa da,

ondan geniş anlayışdır. Dövlət bölməsinin əsas vəzifəsi iqtisadiyyatın müəyyən modelinə uyğun gələn konsepsiyada sosial məqsədlər üçün pul vəsaitinin xeyli hissəsini səfərbərliyə almaqdan və yenidən bölüşdürməkdən ibarətdir. Dövlət böyük həcmdə mülkiyyətin – unitar idarə və müəssisələrin, müxtəlif şirkətlərin (o cümlədən nəzarət səhm zərfi də daxil olmaqla) səhmlərinin, ölkə daxilində və onun hüdudlarından kənarda daşınmaz əmlakın sahibidir;

dövlət mülkiyyətinin miqyasını qiymətləndirərkən istehsalın və əsas kapitala investisiya qoyuluşunun ümumi həcmində, əsas fondların, (əsas kapitalın) tərkibində, sahələr üzrə dövlət bölməsində istehsal olunan məhsulların xüsusi çəkisi, dövlət müəssisələrində çalışan işçilərin sayı göstəricilərindən istifadə olunur;

bazar iqtisadiyyatı şəraitində dövlət bölməsindən bir çox sosial-iqtisadi məqsədlərə nail olunmasında istifadə edilir. Bu, birinci növbədə iqtisadiyyatın tənzimlənməsi ilə əlaqədar təsiretmə funksiyasına aiddir.

tənzimləmə funksiyasına isə struktur siyasətinin təkmilləşdirilməsi, xüsusi kapitalın payının aşağı olduğu sahə və regionlarda yeni obyektlərin yaradılması və ya köhnə obyektlərin genişləndirilməsi və yenidən qurulması, dövlət bölməsinə qoyulan investisiyaların artması və s. misal ola bilər;

bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, mülkiyyətin formasının dəyişdirilməsi xüsusi qanun və dövlət proqramı əsasında həyata keçirilir. Proqramda özəlləşdirmənin əhatə dairəsi, yəni özəlləşdiriləcək əmlakın siyahısı, onların texniki-iqtisadi göstəriciləri və ilkin qiymətləndirilməsi, mərhələləri, formaları, müddətləri, iqtisadiyyatın sahələri üzrə variantları, özəlləşdirmə payının müəyyən edilməsi, əldə edilən vəsaitdən istifadə olunması və s. nəzərdə tutulur.

dövlət mülkiyyətindən istifadənin iqtisadi səmərəliliyi problemi iqtisadiyyatın tipindən asılı olmayaraq bütün ölkələrdə mövcuddur. Hətta, bazar iqtisadiyyatının yüksək səviyyədə inki-

şaf etdiyi ölkələrdə dövlət mülkiyyəti üzrə rentabellik səviyyəsinin aşağı olması adi hal hesab edilir. Lakin buna baxmayaraq dövlətə məxsus olan müəssisələrdə rentabelliyin yüksəldilməsi üçün tədbirlər görülür;

dövlət mülkiyyətinin səmərəliliyinin qiymətləndirilməsinə iki yanaşma metodu vardır. Bunlardan biri hər bir müəssisə üçün rentabellik meyarı, digəri isə bütün xalq təsərrüfatı üçün səmərəlilik meyarıdır;

dövlət bölməsinin idarə olunmasının iqtisadi səmərəliliyinin yüksəldilməsinin başlıca şərtləri inzibati islahatların aparılması, icraedici hakimiyyət sisteminin modernləşdirilməsi və s-dir. Pul vəsaiti dövlət orqanlarının saxlanmasına yox, dövlət vəzifələrinin yerinə yetirilməsinə sərf edilməlidir;

bütün inkişaf etmiş ölkələrdə ali dövlət hakimiyyəti səviyyəsində ölkənin sosial-iqtisadi, elmi-texniki tərəqqi proqramlarının işlənib hazırlanması və həyata keçirilməsinə nəzarət edən orqanlar, habelə bunlar üçün ali təhsilli mütəxəssislər hazırlanması sistemi yaradılmışdır.

## II BÖLMƏ

## MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN FORMALARI

## IV FƏSİL

## DÖVLƏTİN BÜDCƏ-VERGİ SİYASƏTİ

### 4.1 Büdcənin mahiyyəti və iqtisadiyyatın tənzimlənməsində rolu

Dövlət büdcəsi, maliyyə sisteminin mühüm tərkib hissəsi olmaqla, pul vəsaiti fondlarının əmələ gəlməsi, bölgüsü və yenidən bölgüsü ilə əlaqədar meydana çıxan iqtisadi münasibətlərin xüsusi forması, dövlətin illik maliyyə proqramıdır. Onun başlıca məqsədi maliyyə vəsaitinin köməyi ilə iqtisadiyyatı inkişaf etdirmək və cəmiyyət miqyasında sosial vəzifələri həll etməkdən ibarətdir. Büdcə, maliyyə-kredit mexanizmi və bölmələri üzrə ümumi daxili məhsulun (ÜDM) və milli gəlirin (MG) bölgüsü və yenidən bölgüsünü tənzimləyir. Bütün əsas maliyyə əməliyyatları – müxtəlif növ gəlir və xərclər, dövlət borcu və i.a. – öz əksini dövlət büdcəsində tapır. Büdcə qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq olunur.

**Büdcə tərtib olunarkən hələ XX əsrin əvvələrində inkişaf etmiş ölkələrdə işlənib hazırlanmış aşağıdakı prinsiplərdən istifadə olunur:**

1) Ölkədə vahid büdcə sistemi, maliyyə sənədləri və büdcə təsnifatı olmalı, dövlətin bütün gəlir və xərcləri öz əksini büdcədə tapmalıdır;

2) Büdcə real olmalı, başqa sözlə, dövlətin gəlir və xərclərini düzgün əks etdirməlidir;

3) Büdcə əhatəli olmalı, yəni onun hər bir maddəsində bütün gəlir və xərclər nəzərə alınmalıdır;

4) Büdcə sistemində aşkarlıq təmin edilməli, yəni onun əsas gəlir mənbələri və xərclərinin istiqamətləri haqqında əhalidə informasiya olmalıdır.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə bu prinsiplərə əməl olunmaması halları müşahidə edilir. Belə ki, vahid büdcə sistemi və onun əhatəli olması prinsiplərindən üz döndərilməsi bir çox sosial və büdcədənkənar fondların, maliyyə cəhətdən müstəqil dövlət təşkilatlarının (kredit, sosial, elmi-texniki və digər fondlar) yaranmasına səbəb olmuşdur. Lakin müasir dövrdə sahibsiz maliyyə fondlarının olmaması, habelə mərkəzi hökumətin və yerli hakimiyyət onqanlarının gəlir mənbələrinin dəqiq müəyyənləşdirilməsi inkişaf etmiş ölkələrin dövlət büdcələrini səciyyələndirən əsas cəhətlərdir.

**Büdcə gəlir və xərc maddələrindən ibarətdir.** Dövlət büdcəsinin ideal surətdə icra edilməsi gəlirlərin onun xərclərindən çox olması deməkdir. Xərclər gəlirlərdən çox olduqda isə büdcə kəsiri əmələ gəlir. Bazar münasibətlərinin inkişaf etdiyi ölkələrdə büdcə gəlirinin əsas hissəsi vergilər hesabına (75-85%), yerdə qalan hissəsi isə qeyri-vergi daxil olmaları (dövlət mülkiyyəti və dövlət ticarətindən daxilolmalar–5-8%), sosial sığorta, pensiya, məşğulluq fondlarına ödəmələr (10-12%) vasitəsilə formalaşır.

İnkişaf etmiş ölkələrdə büdcə vəsaitinin çox hissəsi silahlı qüvvələrin və dövlət aparatının saxlanmasına, təsərrüfat və sosial infrastrukturların (sosial təminat, səhiyyə, təhsil, elm) maliyyələşdirilməsinə, dövlət borcu üzrə faiz məbləğlərinin ödənilməsinə sərf olunur.

Dövlət büdcəsi xərclərinin strukturu tarixən konkret şəraitdən asılı olaraq müəyyən edilmişdir. Məsələn, Birinci və İkinci dünya müharibəsi illərində hərbi xərclər artırılmışdır. Sonralar isə dövlət xərclərinin artmasına iqtisadi və sosial amillər təsir etmişdir. İnkişaf etmiş ölkələrdə dövlət xərclərinin artmasının başlıca səbəbləri məhz bunlardır. Hazırda ÜDM-də dövlət xərclərinin xüsusi çəkisi ABŞ-da 36%-ə, Yaponyada 33%-ə, Almaniyada 46%-ə, İngiltərədə 43%-ə, Fransa və İtaliyada 50%-ə, Kanadada 44%-ə, İsveçdə isə 60%-ə bərabərdir.

Müasir şəraitdə inkişaf etmiş ölkələrdə dövlət xərclərinin quruluşu sosial proqramların xeyrinə dəyişmişdir. Belə ki, ABŞ-ın Federal büdcəsində hərbi xərclərin xüsusi çəkisi 28%-ə, sosial xərclərinki 47,3%-ə, təsərrüfat xərclərininki 6,7%-ə, dövlət borcu üzrə ödənilən faiz məbləğininki isə 13,7%-ə bərabərdir. Qarışıq iqtisadiyyata malik olan digər ölkələrdə büdcə xərclərinin 50%-dən çoxu sosial xərclərin payına düşür.

Təsərrüfatların maliyyələşdirilməsinə yönəldilən xərclər haqqında danışarkən qeyd etmək lazımdır ki, iqtisadyyatda dövlət bölməsinin miqyasına görə inkişaf etmiş ölkələr arasında əhəmiyyətli fərqlər vardır. Məsələn, dövlət bölməsinin xüsusi çəkisinin yüksək olduğu Avropa ölkələrində dövlət xərclərinin çox böyük hissəsi milliləşdirilmiş müəssisələrin saxlanmasına, onlara subsidiyaların verilməsinə və onların inkişaf etdirilməsinə yönəldilmiş, bütün investisiyaların tərkibində birbaşa investisiyaların xüsusi çəkisi 10-20% təşkil etmişdir. Milliləşdirilmiş müəssisələrin özəlləşdirilməsi təsərrüfatlara dövlət tərəfindən investisiya qoyuluşunun azalmasına (xüsusilə də özəl bölməyə subsidiyaların azalmasına) səbəb olmuşdur.

**Büdcə sistemi aşağıdakı üç əsas funksiyanı yerinə yetirir:** 1) Dövlət həqiqətən gəlir əldə etmək mənbələrinə malik olmadığı şəraitdə (dövlət mülkiyyətindən əldə edilən gəlir istisna olmaqla) özünün fəaliyyət göstərməsini təmin etmək üçün maliyyə bazasının yaradılması – fiskal funksiya; 2) İqtisadi siyasətin həyata keçirilməsi üçün dövlət tərəfindən vergilərdən (büdcə gəlirinin əsas mənbəyi) istifadə olunması – iqtisadi tənzimləmə funksiyası; 3) Dövlət büdcəsindən milli gəlirin yenidən bölüşdürülməsi üçün istifadə edilməsi – sosial funksiya.

Dövlət bu funksiyaları həyata keçirməklə sahibkarlığın stimullaşdırılmasına qayğını azaltmamalıdır. Odur ki, dövlətin büdcə siyasəti tənzimləmənin bazar və dövlət mexanizmlərinin qarşılıqlı əlaqəsi əsasında qurulmalıdır.

Dövlət tərəfindən büdcədən iqtisadiyyata təsir vasitəsi kimi istifadə olunması nəzəri konsepsiyalara əsaslanır. Bir çox onilliklər ərzində inkişaf etmiş ölkələrdə «bitərəf büdcə» konsepsiyası hökmran olmuşdur. Bu konsepsiya bazarda təbii hadisələrlə

əlaqədar olmayan dəyişikliklərin iqtisadiyyatın inkişafına uyğun gəlməsinə cavab verən büdcəni əsas götürür. Bitərəf büdcə konsepsiyası dövlətin bütün büdcə siyasətinin büdcənin tarazlığının təmin olunmasına yönəldilməsini və təkrar istehsal prosesinə bitərəf münasibət bəslənilməsini nəzərdə tutur. Belə hesab olunur ki, maliyyənin normal fəaliyyət göstərməsi iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsi deməkdir. Deməli, büdcə xalis maliyyə vəzifələrini yerinə yetirir.

Lakin büdcənin gəlir və xərclərinin müqayisə edilməsi ilə əlaqədar yeridilən sərt siyasətin aşağıdakı çatışmazlıqları da vardır. Bu siyasət: 1) iqtisadi əməliyyatların miqyasını, onların aparılması vaxtını (iri miqyaslı və uzun müddətli əməliyyatlar) məhdudlaşdırır; 2) iqtisadi əməliyyatların səmərəliliyini aşağı salır; 3) dövlət büdcəsinin onsuz da aşağı olan elastikliyini azaldır, iqtisadi vəziyyətin dəyişməsinə çevik reaksiya verilməsinə imkan vermir; 4) tənəzzül mərhələsində dövlət xərclərinin ixtisar olunması durğunluq ehtimalını artırır, yüksəliş fazasında isə iqtisadiyyatın «yanmasına» gətirib çıxarır.

Dövlət büdcəsindən istifadə olunması ilə əlaqədar Keyns «variantı» ilk dəfə olaraq maliyyə funksiyası ilə yanaşı, həm də məsələnin «iqtisadi» tərəfinin nəzərə alınmasını əsas götürür. Bu variantın əsasında «funksional maliyyə» konsepsiyası durur. Bu konsepsiyaya uyğun olaraq büdcə siyasətinin formalaşdırılması və reallaşdırılmasının həm maliyyə, həm də iqtisadi tərəfləri vardır və axırıncıya üstünlük verilir. Burada əsas yeri iqtisadiyyatın tarazlı inkişaf etdirilməsi tutur. Həm də makroiqtisadi sabitliyə nail olunması ya büdcənin müsbət qalığı, ya da büdcə kəsirinin artması ilə müşayiət oluna bilər. «Funksional maliyyə» konsepsiyasına uyğun olaraq uzunmüddətli dövrdə iqtisadi sabitlik məsələsini əsaslı surətdə həll etmədən büdcə kəsiri problemini həll etmək mümkün deyildir. Dövlətin büdcə siyasətinə iqtisadi yanaşmanın mahiyyəti məhz bundan ibarətdir.

Büdcə siyasəti ilə həll olunan vəzifələr çərçivəsində həm də onun səmərəliliyindən danışmaq olar. Büdcə siyasətində maliyyə problemlərinin həll edilməsi nəzərdə tutulmuşdursa, onda onun səmərəlilik göstəriciləri özündə dövlət maliyyəsinin vəziyyətini

əks etdirən büdcə kəsiri və dövlət borcundan ibarət olur. Büdcə siyasəti iqtisadi vəzifələrin – makroiqtisadi tarazlığın həll edilməsinə yönəldikdə isə ÜDM və xüsusi investisiyaların məcmusu, işsizliyin və inflyasiyanın səviyyəsi göstəricilərindən istifadə edilir.

Bunlara keçən əsrin 80-ci illərində ABŞ adminstrasiyası tərəfindən aparılan büdcə siyasətinin nəticələri misal ola bilər. Bu siyasətin başlıca nailiyyətləri – xüsusilə də uzunmüddətli dövrdə – ondan ibarət olmuşdur ki, iqtisadi artıma təsir göstərən investisiya fəallığı yüksəlmiş; əhalinin real gəlirləri artmış (keçən əsrin 80-ci illərinin ikinci yarısında, 15%), ölkənin rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxarmış iqtisadiyyat texniki və idarəetmə cəhətdən əsaslı şəkildə yenidən qurulmuş; ümumi daxili investisiyaların 50%-ə qədərini maliyyələşdirən xarici kapital axını artmışdır.

Əlbəttə, o dövrdə ABŞ iqtisadiyyatı üçün xoşagəlməz hallar da olmuşdur. Bunlar öz ifadəsini cəmiyyətin sosial təbəqələşməsində, maliyyə çətinliklərində, xüsusilə də büdcə kəsirinin xeyli artmasında tapmışdır.[1] Lakin Amerika iqtisadçısı A.Lafferin qeyd etdiyi kimi **«büdcə kəsiri öz-özlüyündə problem deyildir. O, cəmiyyətdə baş verənlərin barometridir»**.[2] Müəyyən şəraitdə büdcə kəsiri iqtisadi vəziyyətin pisləşməsində «katalizator»a çevrilə bilər. Odur ki, büdcə kəsirinin necə maliyyələşdirilməsi haqqında düşünmək lazımdır. Bunun üçün iki üsuldan istifadə etmək olar. Bunlardan birincisi, dövlət qiymətli kağızlarının buraxılması və onun əhaliyə, ikincisi isə istiqrazların xüsusi banklara satılmasıdır. Birinci halda dövlət əhalidən borc alır və bu da əlavə tələb yaratmaqla istehsalın stimullaşdırılmasına səbəb olur. İkinci halda isə dövlət tərəfindən xüsusi bazarda satılan istiqrazları Mərkəzi bank satın alır. Bununlada dövlət xərclərinin artırılması üçün əlavə stimul yaranır. Deməli, dövlətin bank sistemindən aldığı borc dövlət borcunun bir hissəsidir.

---

[1] Keçən əsrin 80-ci illərinin ortalarında ABŞ-da büdcə kəsiri 220 mlrd. dollar olmuşdur.

[2] Е.Ф.Самофалова, Е.Н.Кузьбожев, Ю.В.Вертокова. Государственного регулирование рыночной экономики М, 2005, с-18

Beləliklə, səmərəli büdcə siyasəti büdcə kəsirinin və dövlət borcunun tənzimlənməsini nəzərdə tutur.

**Dövlətin büdcə siyasəti ilə əlaqədar bir neçə konsepsiya vardır.** Birinci konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, büdcə hər il tarazlaşdırılmalıdır. Milli iqtisadiyyatın sabit inkişaf etdirilməsini təmin edən büdcə maliyyə siyasətinin məqsədini ifadə edən və hər il tarazlaşdırılan büdcə hesab edilir. Lakin bu problemi bir qədər dərindən və hərtərəfli nəzərdən keçirdikdə aydın olur ki, belə büdcə dövlətin fiskal siyasətinin səmərəliliyini ya tamamilə aradan qaldırır, yaxud da onu azaldır. Bunu yaxşı başa düşmək üçün aşağıdakı vəziyyəti nəzərdən keçirək. Tutaq ki, iqtisadiyyatda uzunmüddətli işsizlik hökm sürür və əhalinin gəlirləri gündən-günə azalır. Aydın məsələdir ki, bu zaman vergilər hesabına büdcəyə daxilolmalar azalır. Hökumət büdcəni tarazlaşdırmaq üçün ya vergi dərəcələrini qaldırmalı, ya dövlət xərclərini ixtisar etməli, yaxud da onları bir-biri ilə əlaqələndirməlidir. Lakin bunlar ümumi tələbin daha da azalmasına səbəb ola bilər. Büdcənin hər il tarazlaşdırılmasına cəhd göstərilməsi ilə əlaqədar ikinci misalı nəzərdən keçirək. İnflyasiya şəraitində pul gəlirlərinin artırılması vergilər hesabına daxilolmaların çoxalmasına səbəb olur. Odur ki, dövlət ya vergi dərəcələrini aşağı salmalı, ya dövlət xərclərini artırmalı, yaxud da bu iki tədbiri bir-biri ilə əlaqələndirməlidir. Bunların nəticəsində isə inflyasiya güclənir.

Dövlətin büdcə siyasəti ilə əlaqədar ikinci konsepsiyanın mahiyyəti ondan ibarətdir ki. büdcə hər il yox, iqtisadi tsiklin gedişində tarazlaşdırılmalıdır. Bu konsepsiyanın məntiqi cəhətdən əsaslandırılması olduqca sadədir. Belə ki, istehsalın azalmasının qarşısını almaq üçün hökumət vergiləri azaldır və dövlət xərclərini artırır, yəni şüurlu surətdə müvəqqəti olaraq büdcə kəsirinin artmasına şərait yaradır. İstehsalda yüksəlişə nail olunduqda vergilər artırılır, dövlət xərcləri isə ixtisar olunur. Büdcədə əmələ gələn müsbət qalıqdan, istehsal azaldığı dövrdə meydana çıxan kəsirin «örtülməsi» üçün istifadə edilir. Dövlət bu cür siyasət yeritməklə iqtisadi tsiklin müxtəlif mərhələlərində büdcəni tarazlaşdırır.

Bu konsepsiyanı reallaşdırdıqda meydana çıxan başlıca problem ondan ibarətdir ki, iqtisadi silsilədə azalma və yüksəliş, müddətlərinə görə eyni olmur. Məsələn, istehsalın uzunmüddətli azalma meyli qısamüddətli yüksəliş dövrü ilə əvəz oluna bilər. İstehsal azaldığı dövrdə əmələ gələn büdcə kəsiri və dövlət borcu yüksəliş dövründə əldə edilən çox da böyük olmayan müsbət qalıqla örtülür. Bu isə o deməkdir ki, büdcədə vaxtaşırı kəsir əmələ gəlir.

## 4.2. Dövlətin vergi sistemi. Vergilərin növləri

Vergi çox qədim zamanlarda, demək olar ki, dövlətlə eyni vaxtda meydana gəlmiş və büdcə gəlirlərinin əsas mənbəyidir. Vergi dövlətin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə, habelə məqsədli dövlət fondlarına köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir. Ölkədə mövcud olan vergi, rüsum və tədiyyələrin toplusu isə vergi sistemini əmələ gətirir.

Dövlət, vergi sistemindən iqtisadiyyata təsir göstərmək üçün istifadə edir. **Vergilər fiskal, sosial, tənzimləmə və stimullaşdırma vəzifələrini yerinə yetirir.**

Vergilərin fiskal funksiyası o deməkdir ki, onların köməyi ilə dövlətin fəaliyyət göstərməsi üçün şərait yaradan pul vəsaiti fondları yaradılır. Son onilliklərdə vergilərin sosial, tənzimləmə və stimullaşdırma vəzifələri də xeyli inkişaf etmişdir.

Vergilər cəmiyyətin sosial həyatında çox mühüm rol oynayır. Parlamentlərin iclaslarında, partiyaların yığıncaqlarında vergilər barədə daim müzakirələr aparılır, onların aşağı salınması ilə əlaqədar vədlər verilir. Vətəndaşların əksəriyyətində belə bir təsəvvür yaranmışdır ki, guya onlar əhalinin digər təbəqələrinə nisbətən daha çox vergi verir və dövlət onların rifahının yüksəldilməsi üçün bir o qədər çox vəsait ayırmır.

Vergilərin tənzimləmə vəzifəsi özünü vergitutma sisteminin müəyyən edilməsi və dəyişdilirməsində, vergi dərəcələrinin dəyişdirilməsi və fərqləndirilməsində, dövlət tərəfindən işlənib hazırlanmış iqtisadi proqramlara uyğun olaraq mənfəətin və kapitalın bir hissəsinin vergidən azad edilməsi üçün güzəştlərin nəzərdə tutulması və s-də göstərir.

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, hökumət tərəfindən seçilmiş vergitutma sistemi çox mühüm tənzimləmə funksiyasını yerinə yetirir. Məsələn, vaxtı ilə mövcud olmuş dövriyyə vergisinin əlavə dəyər vergisi ilə əvəz olunması kapitalın mərkəzləşməsi prosesində vasitəçi rolunu oynamışdır.

Vergilərin azaldılması xalis mənfəətin və kapital qoyuluşunun, tələbin və məşğulluğun artmasına, stimullaşmanın güclənməsinə və təsərrüfat fəallığının canlanmasına səbəb olur. Bundan başqa, dövlət mənfəətdən tutulan vergi dərəcələrini dəyişdirməklə kapital qoyuluşu üçün əlavə stimul yarada və ya onu azalda, dolayı vergi dərəcələrini dəyişdirməklə qiymətlərin səviyyəsinə təsir göstərə bilər.

Dövlət xarici ticarətdə himayədarlıq siyasətini seçməklə və gömrük vergisini tənzimləməklə bir sıra problemlərin həll olunmasına təsir göstərir. Belə ki, gömrük vergisinin artırılması əvvəlcə idxal olunan, sonra isə milli iqtisdiyyatda istehsal edilən məhsulların qiymətlərinin bahalaşmasına, xarici ticarət dövriyyəsinin isə azalmasına gətirib çıxarır. Gömrük vergisinin azaldılması və ya ləğv edilməsi isə daxili bazarda rəqabətin kəskinləşməsinə və qiymətlərin bahalaşmasının qarşısının alınmasına, xarici ticarətin isə fəallaşmasına səbəb olur.

Vergi sisteminin əsas ünsürləri vergilərin növləri və onların, daha dəqiq desək, vergi dərəcələri və vergi bazasının hesablanması prinsipləridir. Vergi dərəcəsi gəlirlərin vergi növü vasitəsilə büdcəyə ödənilməsi formasıdır. Vergi dərəcələri adətən əldə edilən gəlirə görə faizlə müəyyən edilir. Vergi dərəcələri dövlət tərəfindən hər bir gəlir növü üzrə ayrılıqda uzun müddət üçün müəyyənləşdirilir. Vergi dərəcələri dövlətin iqtisadi siyasətində qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun gəlmədikdə yenidən nəzərdən keçirilə və dəyişdirilə, azaldıla, yaxud da aratırıla bilər.

Ümumiyyətlə, dövlət elə vergi dərəcələri müəyyən edilməsi üçün maraqlıdır ki, bu həm bazar iqtisadiyyatının inkişaf etdirilməsini, həm də büdcəyə daha çox vəsait daxil olmasını təmin etmiş olsun.

**Vergi dərəcələrinin müəyyən edilməsinin müxtəlif metodları vardır.** Gəlirin həcmindən asılı olmayaraq vergi dərəcələri sabit qalırsa, bu proporsional vergitutma adlanır. Gəlirin həcminin artması ilə əlaqədar olaraq vergi dərəcələri də yüksəlirsə, buna mütərəqqi vergitutma deyilir. Gəlir artdıqca vergi dərəcəsinin aşağı salınması isə reqressiv (tərəqqiyə zidd) vergitutması üçün səciyyəvidir.

Vergi sisteminin başqa bir ünsürü vergi bazasıdır. Vergitutmanın bazası dedikdə, vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyət ifadəsi nəzərdə tutulur. Vergi bazası qanunvercilikIə müəyyən edilən vergidən çıxılmalardan asılı olaraq dəyişə bilər. Bu o deməkdir ki, gəlirlər hissələrə bölünür, əvvəlcə vergi tutulmayan məbləğ müəyyən olunur, onun hər sonrakı artan hissəsindən daha yüksək normalarla vergi tutulur.

Vergitutma obyektinin konkretləşdirilməsinə də xüsusi diqqət yetirilir. Belə ki, şirkətlərin bölüşdürülməyən (təsərrüfat fəaliyyətinin genişləndirilməsi üçün onların sərəncamında qalan) və bölüşdürülən (səhm sahiblərinə dividend verilməsi üçün nəzərdə tutulan) mənfəətdən tutulan vergilərə fərq qoyulur.

İstehsalın artım sürəti, məşğulluq, tələb, milli iqtisadiyyatda istehsal olunan məhsulların rəqabət qabiliyyəti və s. əsas kapitalın təzələnməsindən, xalq təsərrüfatının sahə və regional strukturu, ETTKİ-nin sürəti və istiqamətləri isə investisiyaların quruluşundan asılıdır. Odur ki, son onilliklərdə investisiyaya olan tələbatın təmin edilməsinin əsas forması kimi daxili özünümaliyyələşdirməyə üstünlük verilmişdir. İndi demək olar ki, sərmayə qoyuluşunda daxili özünümaliyyələşdirmənin xüsusi çəkisi 60-90% arasında tərəddüd edir. Buna düzgün vergi siyasəti yeridilməsi nəticəsində nail olunmuşdur.

Ümumiyyətlə, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə vergi sistemi vergitutmaların mütərrəqi xarakteri; ölkədə iqtisadi konyukturadan asılı olaraq vergitutma

dərəcələrinin tez-tez dəyişdirilməsi; müxtəlif vergi güzəştləri və imtiyazlarının mövcudluğu; vergiyə cəlb olunmayan məbləğin müəyyən edilməsi və s. səciyyələnir. Bu, vergi sisteminin çevikliyini, müxtəlif əlamətlərə görə onun fərqləndirilməsini təmin edir. Vergi sisteminin iqtisadiyyata təsirinin başlıca aləti vergi güzəştləridir. Vergi güşətləri öz ifadəsini hər şeydən əvvəl bəzi müəssisələrdə əsas etibarilə fəaliyyəti elmi-texniki tərəqqi ilə əlaqədar olan müəssisələr üçün müəyyən olunan imtiyazlarda tapır. Başqa sözlə, güzəştlər obyektin dəyərinin vergiyə cəlb olunmayan hissəsinin müəyyən edilməsi, vergi obyekti ünsürlərindən bəzilərinin vergitutmadan azad edilməsi (məsələn, ETTKİ ilə əlaqədar olan xərclər vergitutma obyektinə daxil edilməyə bilər), ayrı-ayrı şəxslərin və ya vergi ödəyicilərinin (məsələn, müharibə veteranları və onlara bərabər tutulan şəxslərin) vergidən azad edilməsi, vergi dərəcələrinin aşağı salınması, vergi bazasının azaldılması, vergi məbləğinin azaldılması və onun ödənilməsi üçün müddət verilməsi və s. formalarda ola bilər. ABŞ-da 100-dən çox, Böyük Britaniyada isə 80-ə yaxın vergi güzəşti mövcuddur.

Vergi dərəcələri ilə manipulyasiya edilməsi inkişaf etmiş ölkələrin vergi siyasətinin məcburi ünsürüdür. Məsələn, keçən əsrin 80-ci illərində bu ölkələrin çoxunda vergi dərəcələri xeyli aşağı salınmışdır. Belə ki, ABŞ-da 1987-ci ilin iyul ayından korporasiyaların mənfəətindən alınan vergi dərəcəsi 46%-dən 34%-ə, 1989-1990-cı illərdə isə mənfəət vergisi Yaponiyada 42%-dən 37,5%-ə, Böyük Britaniyada 1984-1987-ci illərdə 52%-dən 35%-ə endirilmişdir. 1989-cu ildə Fransada kapital qoyuluşunun stimullaşdırılması üçün mənfəətin bölüşdürülən və bölüşdürülməyən hissələrinə görə fərqli vergi dərəcələri tətbiq olunmağa başlanmışdır. Bəzi ölkələrdə fövqəladə hallarda müəssisələrin əldə etdikləri əlavə mənfəətə görə əlavə vergi alınması təcrübəsi mövcuddur.

Dövlətin vergilərlə əlaqədar həyata keçirdiyi müxtəlif tədbirlər ziddiyyətli nəticələrə gətirib çıxarır. Bu tədbirlər bir tərəfdən inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin struktur dəyişiklikləri və iqtisadi artımı stimullaşdırır, digər tərəfdən isə dövlət

büdcəsinə böyük məbləğdə vəsait daxil olmur. Məsələn, 1987-1991-ci illərdə ABŞ-da korporasiyalara edilən vergi güzəştlərinə görə federal büdcəyə 110 mlrd. dollar az vəsait daxil olmuşdur ki, bu da inflyasiyanın güclənməsinə səbəb olan sabit büdcə kəsirinin əmələ gəlməsinə əhəmiyyətli təsir etmişdir.

Bundan başqa, yüksək vergi dərəcələri və mütərəqqi vergitutma sistemi investisiya və yığımın səviyyəsinə və deməli, iqtisadi sistemin səmərəliliyinə mənfi təsir göstərir. Ona görə də keçən əsrin 80-ci illəri bütün inkişaf etmiş ölkələrdə vergitutma sisteminin yenidən qurulması ilə səciyyələnir. Bu yenidənqurmanın əsas məzmunu gəlirdən mütərəqqi vergitutma vasitəsilə milli gəlirin yenidən bölgüsü dərəcəsini ixtisar etməkdən və müəssisələrin investisiya fəallıqlarını stimullaşdırmaq üçün mənfəət vergisini azaltmaqdan ibarət olmuşdur. ABŞ-da 1984 və 1986-cı illərdə aparılan islahatlar nəticəsində gəlir vergisinin dərəcəsi 15-dən 3-ə endirilmiş və beləliklə, aşağı (15%), orta (28%) və yüksək (33%) vergi dərəcələri müəyyən olunmuş, habelə bir sıra vergi güzəştləri və subsidiyalar ləğv edilmişdir.

**Vergilər iki yerə bölünür:** 1) müstəqim (birbaşa) vergilər; 2) dolayı vergilər. Onlar bir-birindən vergitutma obyektinə, hesablanması və toplanması mexanizminə, onların büdcənin gəlir hissəsinin formalaşmasında oynadığı rola görə fərqlənirlər.

Müstəqim vergilərə vətəndaşların gəlirlərindən və onlara məxsus olan əmlakdan, korporasiyaların (firmaların) mənfəətindən tutulan, habelə sosial vergilər (məsələn, sosial sığorta ayırmaları), torpaq vergisi və s. aiddir. Bunlar konkret fiziki və hüquqi şəxslərdən tutulduğuna görə müstəqim (birbaşa) vergilər adlanır. Dolayı vergilər isə əmtəə və xidmətlərin qiymətinə daxil edilir. Həmin əmtəə və xidmətlərin istehlakçıları tərəfindən ödənilir. Bu vergilərə aksizləri, əlavə dəyər vergisini (ƏDV), daşınmaz əmlak və qiymətli kağızlarla aparılan sövdələşmələrə görə alınan vergiləri, gömrük vergi və rüsumlarını və s. misal göstərmək olar.

Aksiz[1] əmtəələrin satış və göstərilən bəzi xidmət növlərinin tarif qiymətlərinə əlavə şəklində müəyyən edilir. Bu verginin ödəyiciləri istehlakçılardır. Yəni, kim aksiz vergisi qoyulan məhsulları istehlak edirsə, onlar vergi ödəyiciləri rolunda çıxış edirlər. Başqa sözlə, qiymətində aksiz vergisi olan şərab və ya tütün məmulatlarından istifadə etməyən şəxs aksiz vergisinin ödəyicisi deyildir.

Aksiz sözün dar mənasında məhdud miqdarda əmtəələrin, bir qayda olaraq kütləvi istehlak mallarının qiymətlərinə əlavə edilir. Geniş mənada isə dolayı verginin iki növünü – satış vergisi və əlavə dəyər vergisini özündə birləşdirir. Hazırda geniş mənada başa düşülən aksiz, inkişaf etmiş ölkələrdə bütün vergi gəlirlərinin təqribən 1/4-ni təşkil edir.

**Aksizlər cəlb olunma üsuluna görə iki yerə bölünür: 1) fərdi (seçmə) aksizlər; 2) universal aksizlər.**

Kapitalizmin inkişafının erkən çağlarında fərdi aksizlər geniş yayılmışdı. Bu, əsas etibarilə duz, şəkər, kibrit, tütün, spirtli içkilərin qiymətlərinə əlavə olunmuşdur. Sonralar seçmə aksizin şamil edildiyi əmtəələrin siyahısı genişləndirilmiş və avtomobillərin, soyuducuların, ətriyyat mallarının qiymətlərinə də daxil edilmişdir. Son dövrlərdə bu vergi benzin, ağ neft, qaz, habelə telefon xidmətləri, nəqliyyatda yük daşınması, avto.və dəmir yolu biletlərinin qiymətlərinə də əlavə edilir. Hazırda Almaniyada 20, Yaponiyada isə 600-dən çox seçmə aksiz növündən istifadə edilir.

İkinci dünya müharibəsindən sonra inkişaf etmiş ölkələrin çoxunda seçmə aksizə universal aksiz və ya dövriyyə vergisi – müəssisələrin ümumi gəlirindən faizlə alınan vergi əlavə edilmişdir. Hazırda dövriyyə vergisi demək olar ki, yalnız iki ölkədə – ABŞ və Kanadada tətbiq edilir. Dövriyyə vergisi nəticə etibarilə pərakəndə satış qiymətlərinin vasitəsilə istehlakçılar tərəfindən ödənilir. XX əsrin 60-cı illərində isə Qərbi Avropa ölkələrində dövriyyə vergisinin əvəzinə universal aksizin yeni növü – əlavə dəyər vergisi (ƏDV) tətbiq olunur. ƏDV-nin dövriyyə vergisin-

[1] Aksiz – latınca "accidere" sözündən götürülmüşdür və kəsmək deməkdir.

dən fərqi ondadır ki, o əmtəələrin bütün dəyərindən deyil, istehsal və satışdan ibarət olan ümumi zəncirin hər sonrakı mərhələsində «yaranan» əlavə dəyərdən alınır. Başqa sözlə, vergi şirkətlərin öz məhsullarını reallaşdırdıqdan sonra əldə etdikləri pul və göstərdikləri xidmətlərə görə daxil olan məbləğlə, mal satanlardan satın alınmış xammal, yarımfabrikat və xidmətlərə görə sərf olunan xərclər arasındakı fərq kimi hesablanan əlavə dəyərə görə müəyyən edilir. ƏDV təcrübədə aşağıdakı kimi hesablanır: müəyyən edilmiş norma ilə satılmış məhsulların bütün dəyərinə görə vergi məbləği hesablanır, sonra bundan həmin məhsulların istehsalına sərf olunan xammal, yanacaq, yarımfabrikat və xidmətlərin dəyərinə görə hesablanan vergi çıxılır.

ƏDV bir qayda olaraq ayda bir dəfə ödənilir və vergi dərəcəsi 8-20% arasında tərəddüd edir. Almaniya və Böyük Britaniyada sənayenin bütün sahələri və xidmət növləri üçün vergi dərəcələri eynidir. ƏDV əsas etibarilə pərakəndə satış qiymətlərinin tərkibində istehlakçılar tərəfindən ödənilir.

ƏDV-dən müəssisələrin xarici iqtisadi fəaliyyətlərini tənzimləmək üçün səmərəli istifadə edilir. Bir sıra ölkələrdə xaricə mal ixrac edən müəssisələri stimullaşdırmaq üçün onların ixrac etdikləri məhsulların qiymətlərinə daxil edilmiş ƏDV sonradan özlərinə qaytarılır.

Digər vergi növləri də (əmlak, yol, mədən, yerli) vardır. Əmlak vergisinin obyekti fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətində olan binalar, avtonəqliyyat, su və hava nəqliyyatı vasitələri, yol vergisinin obyekti ölkənin ərazisinə daxil olan xarici ölkələrin avtonəqliyyat vasitələri, mədən vergisinin obyekti isə yerin təkindən çıxarılan faydalı qazıntılardır.

Yerli vergilər (bələdiyyə vergiləri) müvafiq qanunla müəyyən edilən bələdiyyələrin qərarlarına əsasən tətbiq olunan və onların ərazisində ödənilən vergilərdir. Bələdiyyələr öz ərazilərində yerli vergitutma üzrə güzəştlər edə və müəyyən hədlərdə vergi dərəcələrini dəyişdirə bilərlər.

Müəyyən olunmuş qaydalara görə bəzi vergilər mərkəzi, bəziləri isə yerli büdcəyə daxil olur. Məsələn, aksizlər tamamilə yerli büdcəyə daxil olur, korporasiyaların (firmaların) mənfəətindən

tutulan vergilər isə mərkəzi və yerli büdcə arasında müəyyən nisbətdə bölünür. Lazım olduqda yerli büdcə mərkəzi büdcədən subsidiya alır.

Müstəqim vergiləri istehlakçılardan tutmaq mümkün deyildir. Onlardan yalnız torpaq vergisini və digər daşınmaz əmlakdan alınan vergiləri tutmaq çətinlik törətmir. Ona görə ki, bu vergilər icarə haqqı və mənzil kirayəsinə, kənd təsərrüfatı məhsullarının qiymətlərinə daxil edilir.

Dolayı vergiləri isə əmtəə və xidmətlərin elastikliyi göstəricilərindən asılı olaraq son istehlakçılardan tutmaq mümkündür. Belə ki, tələbin elastikliyi aşağı olduqda verginin çox hissəsini istehlakçılardan «çıxarmaq» mümkün olur. Tələbin elastikliyi yüksək olduqda, dolayı vergilərin artırılması istehlakın, təklifin elastikliyi yüksək olduqda isə bu xalis mənfəətin azalmasına səbəb olur. Bu da öz növbəsində sərmayə qoyuluşunun ixtisar olunmasına, kapitalın digər fəaliyyət sahələrinə axıb getməsinə şərait yaradır. Vergilərlə bağlı bütün məsələlər dövlət qanunvericiliyi əsasında tənzimlənir.

## 4.3. Dövlət borcu, onun formaları və tənzimlənməsi

Dövlət büdcəsinin ideal surətdə icra edilməsi gəlirlərin xərclərdən çox olması deməkdir. Xərclər gəlirlərdən çox olduqda isə büdcə kəsiri əmələ gəlir. Büdcə kəsiri dövlət borcu hesabına aradan qaldırılır. Lakin bu büdcə kəsirinin aradan qaldırılmasının yeganə yolu deyildir. İnkişaf etmiş ölkələrin çoxunda qızıl pul tədavülündən kağız pul tədavülünə keçildiyi dövrdən büdcə kəsirinin əlavə pul emissiyası vasitəsilə aradan qaldırılması sahəsində müsbət təcrübə toplanmışdır. Lakin emissiyanın sonrakı nəticələri hamıya məlumdur. Belə ki, onun təsiri ilə nəzarət edilməsi mümkün olmayan inflyasiya artır, uzunmüddətli investisiyalar üçün stimul azalır, əhalinin əmanətləri qiymətdən düşür, daha çox büdcə kəsiri əmələ gəlir.

Dövlət borcu emissiyaya nisbətən az təhlükəlidir. Lakin o da ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Əvvəla, hökumət müəyyən şəraitdə dövlət qiymətli kağızlarını yerləşdirmək məcburiyyətində qalır və bununla da xüsusi maliyyə təsisatlarının fəaliyyəti pozulur. İkincisi, hökumət hətta dövlət qiymətli kağızlarını satın almaq üçün fiziki və hüquqi şəxslərdə kifayət qədər stimul yaratsa belə, ssuda bazarında olan sərbəst pul vəsaitlərini səfərbərliyə almaqla, xüsusi firmaların kredit götürmək imkanlarını məhdudlaşdırır.

Hökumət orqanlarının borcları yığılır və nəticədə dövlət borcunu əmələ gətirir. Ayrı-ayrı ölkələrdə dövlət borcu müxtəlif sürətlə artır. Dövlət borcunun ÜDM-dən 2,5 dəfə çox olması iqtisadiyyatın, xüsusilə də pul tədavülünün sabitliyi üçün olduqca təhlükəlidir.

**Dövlət borcunun aşağıdakı növləri vardır:** 1) daxili borc; 2) xarici borc; 3) qısa müddətli (birilədək) borc; 4) orta müddətli (bir ildən beş ilədək) borc; 5) uzunmüddətli (beş ildən yuxarı) borc. Bunların içərisində ən ağırı qısa müddətli borcdur. Ona görə ki, bu borcun çox qısamüddətdə həm özünü, həmdə «faiz məbləği»ni ödəmək lazımdır. Bəzi ölkələrdə Maliyyə Nazirliyinin nəzdində dövlət borcu üzrə xüsusi idarə yaradılır. Bu idarə əsas etibarilə köhnə borcların ödənilməsi və yeni vəsait mənbələrinin axtarılması ilə məşğul olur.

**Xarici borc xüsusi diqqət tələb edir.** Çünki bu borc üzrə tədiyələr ölkənin xarici iqtisadi fəaliyyətindən daxil olan gəlirlərin təqribən 20-30%-ni təşkil edirsə, deməli xaricdən yeni borcun alınması çətinləşir. Başqa sözlə, ya borc vermək istəmirlər, yaxud da girov tələb etməklə, onu yüksək faizlə verirlər.

Borclu ölkələr adətən ümidsiz borclular siyahısına düşmək istəmirlər. Çünki bu, xarici maliyyə ehtiyatlarının ölkəyə gəlməsinə mane olur. Belə bir vəziyyətə düşməmək üçün aşağıdakı yollardan istifadə edilə bilər.

**Birincisi**, ölkə borcunu özünün qızıl-valyuta ehtiyatları hesabına ödəyir. Lakin borc almaqda adətkarda olan ölkələr üçün bu yol demək olar ki, mümkün deyildir. Ona görə ki, onların

qızıl-valyuta ehtiyatları ya heç olmur, yaxud da olduqca məhdud miqdarda olur;

**İkincisi**, kreditorların razılığı ilə xarici borcun vaxtı uzadılır. Bu məqsədlə kreditorlar xüsusi klublar yaradırlar. Bu klublar özlərinin beynəlxalq maliyyə öhdəliklərini yerinə yetirmək iqtidarında olmayan ölkələrlə bir növ «həmrəylik» siyasətini işləyib hazırlayırlar. Bunlara London və Paris klublarını misal göstərmək olar. London klubu kreditor bankları, Paris klubu isə kreditor ölkələri özündə birləşdirir. Hər iki klub dəfələrlə borclu ölkələrin xahişi ilə borcun ödənilməsi müddətinin uzadılmasına, bəzi hallarda isə hətta bağışlanmasına nail olmuşdur;

**Üçüncüsü**, xarici borc uzunmüddətli xarici investisiyaya çevrilmək yolu ilə azaldılır. Xarici kreditorlara borcun müqabilində borclu ölkədə daşınmaz əmlakın, qiymətli kağızların satın alınması və kapitalda iştirak etmək təklif olunur. Xarici borcun investisiyaya çevrilməsinin variantlarından biri kreditor ölkələrin təsərrüfat subyektlərinin borclu ölkələrin dövlət mülkiyyətinin özəlləşdirilməsində iştirak etmələridir. Lakin bu yolu seçərkən ehtiyatlı olmaq lazımdır. Çünki bu, borclu ölkələrin milli iqtisadiyyatlarında xarici kapitalın xüsusi çəkisinin artımına şərait yaradır;

**Dördüncüsü**, ağır vəziyyətə düşən borclu ölkə beynəlxalq banklara müraciət edir. Bu banklar isə onlara güzəştli, lakin sərt şərtlərlə kredit verirlər.

XX əsrdə xarici borcun tənzimlənməsinin digər yollarından da istifadə edilmişdir. Belə ki, həm birinci, həm də ikinci dünya müharibəsindən sonra Böyük Britaniya və Fransa xarici borclarının bir hissəsini özlərinin xarici aktivləri ilə ödəmişlər. İnkişaf etməkdə olan bəzi ölkələr kreditorları «yumşaltmaq» üçün onlara özlərinin dəniz zonalarından, qitə şelfindən istifadə etmək, ərazilərində hərbi bazalar, süni peyklərin hərəkətini izləmək üçün stansiyalar tikmək hüququ verirlər.

**Dövlət borcunun tənzimlənməsinin aşağıdakı metodlarından da istifadə olunur:** uzunmüddətli qiymətli kağızlar emissiyası bankının krediti, dövlət borcunun maliyyələşdirilməsi zamanı isə uzunmüddətli qiymətli kağızlar qısa müddətli qiymətli kağızlar-

la əvəz olunur. Dövlət borcunun real yükünü inflyasiyanın səviyyəsinin yüksəldilməsi yolu ilə də azaltmaq olar. Lakin bu dövlətə olan inamın itməsinə gətirib çıxara bilər. Dövlət borcunun tənzimlənməsinin ən mühüm vasitələrindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsidir. Çünki bu yolla büdcə kəsirinin tarazlaşdırılmasına, gəlirlərin xərclərdən çox olmasının təmin edilməsinə və deməli, dövlət borcunun azaldılmasına nail olunması mümkündür.

Son dövrlərdə inkişaf etmiş ölkələrin təcrübəsində dövlət borcunun tənzimlənməsinin ümumi metodlarından geniş istifadə olunur. Bunlar öz ifadəsini onların Konstitusiyalarında, Mərkəzi banklar və bank sistemi haqqında, ayrı-ayrı xüsusi qanunlarda və s. sənədlərdə dövlət borcunun tənzimlənməsi barədə ayrıca maddə və müddəaların nəzərdə tutulmasında və s. tapır.

## 4.4. Vergitutmanın prinsipləri, mexanizmi, tənzimlənməsi və beynəlxalq aspektləri

**Vergitutmanın əsas prinsipləri bunlardır:** 1) vergitutmanın ümumi, bərabər, ədalətli olması təmin edilməli, vergi iqtisadi cəhətdən əsaslandırılmalıdır; 2) vergi dərəcələri, vergi ödəyicilərinin imkanı, yəni gəlirləri nəzərə alınmaqla müəyyən edilməlidir. Başqa sözlə, gəlirlər müxtəlif olduğuna görə vergi dərəcələri də müxtəlif olmalıdır; 3) gəlirlər vergitutmaya bir dəfə cəlb edilməlidir; 4) vergilər hökmən ödənilməlidir. Bu məqsədlə vergi sistemi elə hazırlanmalıdır ki, vergilərin ödənilməsinin labüdlüyü, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödənilməli olması barədə vergi ödəyicilərində tam təsəvvür olsun, heç bir şübhə yeri qalmasın; 5) vergi sistemi və onun ödənilməsi qaydası ödəyicilər üçün olduqca sadə və aydın, yığılması isə vergi orqanları üçün iqtisadi cəhətdən əlverişli olmalıdır; 6) vergilər onun ödəyiciləri arasında mövcud olan siyasi, ideoloji, etnik və digər xüsusiyyətlər əsas götürülməklə müəyyən olunmamalı və ayrı-seçkiliyə yol verilməməlidir; 7) vergi sistemi çevik və dəyişən ictimai siyasi tələbata asanlıqla uyğunlaşdırıla bilən olmalıdır; 8) vergi sistemi

istehsal olunan ÜDM-in yenidən bölgüsünü təmin etməli və dövlət tərəfindən həyata keçirilən iqtisadi proqramlaşdırmanın ən səmərəli aləti olmalıdır.

Vergitutmanın idarə edilməsi ilə əlaqədar təşkilati-hüquqi norma və metodların toplusu vergi mexanizmini əmələ gətirir. Dövlət, ölkədə mövcud olan vergi qanunvericiliyi vasitəsilə vergi mexanizminə hüquqi forma verir.

Vergi ödəyicisi və aşağıdakı vergitutma ünsürləri müəyyən olunduqda vergi də müəyyən olunmuş hesab edilir: vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, verginin hesablanması qaydası, verginin ödənilməsi qaydası və müddəti.

**Vergitutmanın aşağıdakı formaları vardır:** 1) bilavasitə mənbədən (gəlir və ya mənfəət əldə edilənədək) vergitutma; 2) bəyannamə üzrə (gəlir və mənfəət əldə edildikdən sonra) vergitutma. Bunlara uyğun olaraq vergitutma obyekti gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar və s. ola bilər.

Vergitutma bazası dedikdə vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyət ifadəsi başa düşülür. Bu və ya digər vergi növünün ödənilməsi üçün vergi bazasının əsas götürülən hissəsi vergi dərəcəsi (vergitutma norması) adlanır. Ən yüksək, orta və ən aşağı vergi dərəcələri bir-birindən fərqlənir.

Vergiləri əmək haqqından tutmaq daha asandır. Ona görə ki, vergi əmək haqqı hesablanarkən tutulur və ondan yayınmaq mümkün deyildir. Bütün sosial vergilər haqqında da eyni sözləri demək olar. Aksizlərin və ƏDV-nin toplanmasında da heç bir çətinlik olmur. Gömrük xidməti yaxşı təşkil olunduqda da bu sahədə heç bir çətinlik yaranmır.

Ən böyük çətinlik özünü korporasiyalardan vergilərin alınmasında göstərir. Ona görə ki, korporasiyalar istehsal xərclərini süni surətdə artırmaq, müxtəlif növ güzəştlər, mükafatlar, dövlət orqanları tərəfindən icazə verilən ayrı-ayrı fondlara ayırmalar və s. hesabına özlərinin vergiyə cəlb olunan mənfəət məbləğlərini azaltmağa çalışırlar. Vergi tutulan zaman daşınmaz əmlakın (məsələn, torpağın) dəyərinin müəyyən olunmasında da müəyyən problemlər meydana çıxır. Bunlar sahibkarlıq fəaliyyətindən, rantyedən, habelə azad peşə sahiblərinin (həkimlər, və-

killər və s.) əldə etdikləri gəlirlərdən vergilərin alınmasında da özünü göstərir.

Vergilərin tənzimlənməsinin də çox böyük əhəmiyyəti vardır. Vergilərin tənzimlənməsi dedikdə, hüquqi və fiziki şəxslərin vergilərin azaldılması ilə əlaqədar olaraq qüvvədə olan qanunvericilik çərçivəsində öz hüquqlarından istifadə etmələri nəzərdə tutulur. Bunun əsasını qanunla icazə verilən bütün güzəşt və imkanlardan tam istifadə olunması təşkil edir.

Vergilərin tənzimlənməsi ilə vergidən boyun qaçırılmasını eyniləşdirmək olmaz. Vergidən boyun qaçırmaq o deməkdir ki, ayrı-ayrı şəxslər və ya şirkətlər vergi güzəştlərindən qeyri-qanuni istifadə etməyə, vergini qəsdən ödəməməyə cəhd göstərirlər.

**Müasir dövrdə vergilərin tənzimlənməsində aşağıdakı istiqamətlər özünü göstərir:**

1) Hüquqi şəxslərin vergitutmanın ən optimal təşkilatı-hüquqi formalarını seçmələri. Bütün ölkələrdə qeyri-məhdud məsuliyyətli şirkətlər məhdud məsuliyyətli şirkətlərə nisbətən az vergi ödəyirlər. Bundan başqa, bəzi ölkələrdə hər hansı bir firmanın digər firmaların kapitalında iştirakına görə əldə etdiyi dividendə vergi güzəştləri şamil edilir ki, bu da firmaların formal olaraq birləşmələri və maliyyə qrupları yaratmaları üçün stimul hazırlayır;

2) Vergitutmanın səviyyəsi baxımından firmaların yerləşdirilməsi, yaxud da qeydiyyatdan keçirilməsi üçün yerin seçilməsi. Ölkələrin çoxunda əyalətlər, ştatlar, vilayətlər üçün daimi vergi güzəştləri mövcuddur. Dövlət bu güzəştlərdən iqtisadiyyatın tənzimlənməsi aləti kimi istifadə edir. Güzəştlər regionlar arasındakı uyğunsuzluqların aradan qaldırılması üçün tətbiq edilir. Bütün dünyada müxtəlif növ Sərbəst İqtisadi Zonalar fəaliyyət göstərməkdə və inkişaf etməkdədir. Dünya təcrübəsində SİZ həm yüksək inkişaf səviyyəsinə malik olmuş (ABŞ, Almaniya, Hollandiya, Böyük Britaniya), həm də inkişaf etməkdə olan ölkələrdə (ÇXR, Braziliya, Bolqarıstan, Rumuniya) yaradılır. Bunun inkişaf etdirilməsi və geniş miqyas almasının başlıca səbəblərindən biri də həmin ərazilərdə xarici və yerli firmalar üçün vergi güzəştlərinin müəyyən edilməsidir.

3) Firmaların istehsal, kommersiya və maliyyə fəaliyyətləri ilə əlaqədar qüvvədə olan vergi güzəştlərinin təhlili və onlardan istifadə edilməsi. Bununla əlaqədar olaraq şirkətlərin maliyyə mütəxəssisləri vergilərin stimullaşdırılması sahəsində baş verən dəyişiklikləri çox yaxşı bilməli və onları daim izləməlidir. Ona görə ki, əsas kapitalın amortizasiyasının hesablanmasında çox sürətli dəyişikliklər baş verir, amortizasiya normaları, «gizli» ehtiyatların reallaşdırılması və texnologiyalardan istifadə üçün mükafatlandırma, gənclərin istehsalat təlimi qaydaları sürətlə dəyişir.

4) Mənfəətdən və sərbəst kapitaldan ən əlverişli şərtlərlə istifadə edilməsi, investisiya siyasətinin seçilməsi. Bu, əlavə vergi güzəştləri əldə edilməsi, hətta bəzi hallarda əvvəllərdə ödənilmiş vergilərin bir hissəsinin geri qaytarılmasını təmin edə bilər.

**Vergilərin tənzimlənməsi istiqamətləri dəyişməz deyildir.** Konkret şəraitdən asılı olaraq onların tənzimlənməsində mütərəqqi dəyişikliklər edilə bilər və edilir.

Məlum olduğu kimi, vergi sisteminin seçilməsi və dəyişdirilməsi, vergi dərəcələri və güzəştlərinin müəyyən edilməsi ayrı-ayrı ölkələrin qanunverici və icraedici orqanlarının səlahiyyətlərinə daxildir. Lakin müxtəlif ölkələrin hökumət orqanları vergi siyasəti sahəsində öz aralarında fəal əməkdaşlıq edirlər. Bu, ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin intensivləşməsi, iqtisadi inteqrasiyanın inkişaf etməsi, dünya bazarlarında bərabər rəqabət şəraitinin yaradılması və s. əlaqədardır.

**Ümumdünya Ticarət Təşkilatı (ÜTT) məhsul ixracının stimullaşdırılması üçün vergi güzəştlərini məhdudlaşdırır.** Belə ki, ÜTT-nin üzvü olan ölkələr ixrac üçün istehsal olunan məhsulları müstəqim (birbaşa) vergilərdən azad edə bilməzlər. Odur ki, onlar ixrac edilən məhsullar üçün subsidiyalar ayırmaq məqsədilə başqa alternativlər axtarıb tapmalıdırlar. Bəzi ölkələrdə vergi güzəştləri məhsulların ixrac üçün istehsal olunub-olunmamasından asılı olmayaraq bütün istehsalçılara şamil edilir. Məsələn, Böyük Britaniyada inflyasiya baş verdikdə dəyən zərəri azaltmaq və ixrac olunan məhsulların rəqabət qabiliyyətini artırmaq məqsədilə yaradılan maddi dövriyyə vəsaitləri etiyatla-

rına qiymət verərkən bütün istehsalçılara xüsusi güzəştlər nəzərdə tutulur.

İnkişaf etmiş ölkələrin hamısında demək olar ki, onların ərazisidə əldə edilən bütün gəlirlərdən vergi tutulur. Bəzi ölkələrdə – məsələn, ABŞ, Kanada, Yaponiya, Böyük Britaniya, Rusiya və i.a. – onların xaricdə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərinin əldə etdikləri gəlirlər də vergiyə cəlb edilir. Bu isə o deməkdir ki, fiziki və hüquqi şəxslərin əldə etdikləri gəlirlər ikiqat vergiyə cəlb oluna bilər.

Müasir dövrdə müxtəlif inteqrasiya qruplaşmalarına daxil olan ölkələrdə vergi sistemlərinin bir-birinə yaxınlaşması meyli özünü göstərir. Bunu Avropa İttifaqına daxil olan ölkələrdə daha aydın görmək olar. Belə ki, bu təşkilata daxil olan ölkələrdə perspektivdə ümumi vergi dərəcələrinin müəyyən edilməsi, ikiqat vergitutmənın aradan qaldırılması və s. nəzərdə tutulmuşdur. Bundan başqa, artıq indi bu ölkələr əlavə dəyər vergisinin vahid dərəcəsi (15%) və vahid minimum aksiz rüsumu haqqında razılıq əldə etmişlər. Bu ölkələrdə buraxılan istiqrazlar üçün milli vergilər bir-birinə yaxınlaşmış (1-2% təşkil edir) və qiymətli kağızlar üzrə rüsumlar ləğv edilmişdir.

## 4.5. Azərbaycan Respublikasının vergi sistemi

**Hazırda Azərbaycan Respublikasında mövcud olan vergi sistemi 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra formalaşmışdır.** Ölkəmizin vergi sistemi ilk dövrlərdə yüksək inflyasiya və iqtisadiyyatda dərin struktur dəyişiklikləri aparıldığı şəraitdə, özünün dövlət büdcəsinə zəruri maliyyə resurslarının daxil olmasını təmin edən fiskal funksiyanı yerinə yetirmişdir. Lakin bazar münasibətlərinə keçid və onun müvafiq strukturlarının yaradılması gedişində vergi sisteminə xas olan çatışmazlıqların mövcudluğu və onun iqtisadiyyatımızda gedən dəyişikliklərə uyğun gəlməməsi özünü qabarıq şəkildə göstərmişdir. Odur ki, iqtisadi islahatların aparıldığı bütün illər ərzində vergi qanunvericiliyinə hər il, bəzi hallarda isə hətta hər ay çoxsaylı dəyişiklik-

lər edilmişdir. Lakin bu dəyişikliklər ölkəmizdəki mövcud vergi sisteminin keçid iqtisadiyyatının reallıqlarına uyğunlaşdırılması problemini həll etməyə imkan verməmişdir. Çünki ayrı-ayrı xüsusi məsələlərin həll edilməsinə yönəldilən bu düzəlişlər təbiidir ki, bötüvlükdə vergi sisteminin mükəmməlliyini təmin edə bilməzdi. Vergi sistemindəki çatışmazlıqlar ölkənin iqtisadi inkişafına da mənfi təsir etmişdir. Ona görə də iqtisadi artımın təmin olunması, sahibkarlıq fəallığının inkişaf etdirilməsi, xəlvəti iqtisadiyyatın məhdudlaşdırılması ölkəyə daha çox xarici investisiyaların cəlb edilməsi üçün vergi sistemində kompleksli islahatlar aparılmalı idi və aparıldı. Bütün bunlar sonralar vergi sisteminin təkmilləşdirilməsinə və onun beynəlxalq standartlara yaxınlaşdırılmasına imkan vermişdir.

**Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən ölkədə aşağıdakı vergilər müəyyən edilmişdir:** 1) dövlət vergiləri; 2) Muxtar Respublika vergiləri; 3) yerli vergilər (bələdiyyə vergiləri).

Dövlət vergiləri ölkəmizin bütün ərazisində ödənilir və aşağıdakı növləri vardır:

- fiziki şəxslərdən alınan gəlir vergisi;
- hüquqi şəxslərin mənfəətindən alınan mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);
- əlavə dəyər vergisi;
- aksizlər;
- hüquqi şəxslərdən alınan əmlak vergisi;
- hüquqi şəxslərdən alınan torpaq vergisi;
- yol vergisi;
- mədən vergisi;
- sadələşdirilmiş vergi.

Muxtar Respublika vergilərinə Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən olunan və onun ərazisində ödənilən vergilər daxildir. Bu vergilərə bütün başqa dövlət vergiləri də (yol vergisindən başqa) aiddir.

Yerli vergilərə (bələdiyyə vergilərinə) bələdiyyələrin qərarı ilə tətbiq edilən və onun ərazisində ödənilən aşağıdakı vergi növləri daxildir:

- fiziki şəxslərdən alınan torpaq vergisi;
- fiziki şəxslərdən alınan əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilardan alınan mənfəət vergisi.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunverciliyində təsbit edilmiş hədlər daxilində müəyyən olunur. Vergi qanunverciliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək üçün, həmçinin vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Ölkəmizdə fiziki şəxslərdən gəlir vergisinin tutulması qaydası aşağıdakı kimidir: 2006-cı il yanvarın 1-dən aylıq gəlir 33 manat olduqda həmin məbləğdən vergi tutulmur, gəlirin 33 manatdan 1000 manatadək olan hissəsindən 14%, 1000 manatdan artıq hissəsindən isə 35% vergi tutulur.

Hüquqi şəxs statusunda olan müəssisə və təşkilatlar əldə etdikləri mənfəətdən 22% dərəcəsi ilə mənfəət vergisi ödəyirlər.

**Əmlak vergisinin** obyekti xüsusi mülkiyyətdə olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələri, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələridir. Adları çəkilən vergi obyektlərinin dəyəri şərti maliyyə vahidinin 5000 mislinədək olduqda vergi tutulmur, 5000 mislindən çox olan məbləğdən 0,1 % vergi tutulur. Su və hava nəqliyyatı vasitələrinə görə isə: su nəqliyyatı vasitəsinin mühərrikinin bir kub santimetri üçün şərti maliyyə vahidinin 1%-i, hava nəqliyyatı vasitəsinin mühərrikinin bir kub santimetri üçün şərti maliyyə vahidinin 1%-i, mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün – onların bazar qiymətinin 1%-i qədər əmlak vergisi ödənilir.

**Torpaq vergisi** torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq

sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır. Burada vergitutma obyekti fiziki şəxslər və Azərbaycan Respublikasının ərazisindəki müəssisələrin mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri hesab olunur. Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə bir şərti bal üçün şərti maliyyə vahidinin 5 %-i qədərdir. Bu sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə Bakı şəhəri üçün 5,5%, Gəncə və Sumqayıt şəhərləri üçün 4,5 %, digər şəhərlər üçün (rayon tabeliyində olan şəhərlər istisna olmaqla) 2,5%, rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər üçün (Bakı və Sumqayıt şəhərlərinin qəsəbə və kəndləri istisna olmaqla) 1% müəyyən edilmişdir. Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə müvafiq olaraq 0,45; 0,40; 0,20; 0,10% müəyyən edilmişdir.

**Yol vergisinin ödəyiciləri** Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri, habelə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslərdir. Burada vergitutma obyekti Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin, habelə Azərbaycan Respublikasının ərazisində yaşayan şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələridir.

Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtomobil nəqliyyat vasitələrindən – minik avtomobilləri üçün – 15 ABŞ dolları, avtobuslar üçün oturacaq yerlərinin sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq 15 ABŞ dolları ilə 1750 ABŞ dolları arasında yol vergisi alınır və i.a. Azərbaycan Respublikasının Vergi Məcəlləsində ehtimal olunan bütün variantlarda, bunlar ətraflı şərh olunur.

Azərbaycan Respublikasının ərazisində (o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda) faydalı qazıntıların çıxarılmasına görə mədən vergisi müəyyən

edilmişdir. Onun ödəyiciləri yerin təkindən faydalı qazıntını çıxaran fiziki şəxslər və müəssisələrdir. Vergi yerin təkindən çıxarılan faydalı qazıntıların topdansatış qiymətinə daxil edilir və vergi dərəcələri aşağıdakı kimidir: xam neft – 26%, təbii qaz – 20%, bütün növlərdən olan metallar 3%. Azərbaycan Respublikasının Vergi Məcəlləsində yerin təkindən çıxarılan faydalı qazıntıların növündən asılı olaraq hər kub metr üçün də mədən vergisi müəyyən edilmişdir.

**Azərbaycan Respublikasında tətbiq olunan vergilərdən biri də sadələşdirilmiş vergidir.** ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və əvvəlki üç aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi şərti maliyyə vahidinin 22500 mislindən az olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdir.

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yükdaşımaları (o cümlədən taksi ilə) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir. Lakin bəzi şəxslərin (aksizli mallar istehsal edən şəxslər, kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardlar, qeyri-dövlət pensiya fondları və i.a.) sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ yoxdur. Burada vergitutma obyekti hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmidir.

Sadələşdirilmiş vergi dərəcəsi Bakı şəhəri üzrə 4%, Naxçıvan MR-də, digər şəhər və rayonlarda isə 2% müəyyən edilmişdir.

Müstəqillik dövründə formalaşmış Azərbaycan Respublikası vergi sisteminin qısa səciyyəsi belədir. Lakin ölkəmizin vergi sisteminin formalaşmasının çox da böyük olmayan tarixi onun təkmilləşdirilməsi istiqamətində bir sıra yadda qalan əlamətlərlə səciyyələnir. Belə ki, ötən müddət ərzində ölkəmizdə bazar münasibətlərinin formalaşdırılması gedişində iqtisadiyyatımızda

əmələ gələn dəyişikliklərə uyğun olaraq vergi sisteminin təkmilləşdirilməsi sahəsində də bir sıra önəmli işlər görülmüşdür.

Dünya təcrübəsində vergi yükünün dəyişdirilməsi, vergitutmanın hər hansı bir forma və vasitəsinin digəri ilə əvəz edilməsi, vergi güzəştlərinin tətbiqi və ya ləğv olunması kimi üsullardan istifadə edilir. Ölkəmizin vergi sistemində son dövrlərdə aparılan islahatların əsas məqsədi yeni mülkiyyət münasibətləri şəraitində ölkə iqtisadiyyatının bütün sahələrinin potensial imkanlarından istifadənin səmərəliliyini daha da artırmaqdan, onların dinamik inkişafını təmin etməkdən, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə xüsusi qayğı göstərməkdən ibarətdir. Fiziki şəxslərdən tutulan gəlir vergisinin dərəcələrəində də müəyyən dəyişikliklər edilmişdir. Belə ki, vergi məcəlləsi qəbul edildikdə bu, 0, 12, 20, 25, 30, 35% faiz dərəcələri ilə tutulurdusa, sonrakı düzəlişlərdə bu dərəcələrin sayı azaldılmışdır. Başqa sözlə, 2003-cü ildən 0, 12, 25, 35% dərəcələri, 2004-cü ildən isə 0, 14, 35% dərəcələri ilə vergi hesablanır.

## NƏTİCƏ

dövlət büdcəsi dövlətin illik maliyyə proqramıdır. Onun əsas məqsədi maliyyə vəsaitinin köməyilə iqtisadiyyatı inkişaf etdirmək və cəmiyyət miqyasında sosial vəzifələri həll etməkdən ibarətdir. Büdcə, həmçinin maliyyə-kredit mexanizmi və bölmələri üzrə ÜDM-in və MG-in bölgüsü və yenidən bölgüsünü tənzimləyir;

büdcə hazırlanarkən aşağıdakı prinsiplərdən istifadə olunur: ölkədə vahid büdcə sistemi fəaliyyət göstərməli, büdcə real və əhatəli olmalı, büdcə sistemində aşkarlıq təmin edilməlidir;

büdcə sistemi fiskal, iqtisadi, tənzimləmə və sosial funksiyaları yerinə yetirir. Fiskal funksiya dedikdə, maliyyə bazasının yaradılması, iqtisadi funksiya dedikdə, iqtisadi siyasətin həyata keçirilməsi üçün vergilərdən istifadə olunması, sosial funksiya dedikdə isə büdcədən milli gəlirin yenidən bölüşdürülməsi üçün istifadə edilməsi nəzərdə tutulur;

dövlətin büdcə siyasəti ilə əlaqədar müxtəlif konsepsiyaları vardır. Bu konsepsiyalardan birində büdcənin hər il, digərində isə iqtisadi silsilənin gedişində tarazlaşdırılmasının məqsədəuyğunluğu əsaslandırılır;

vergilər demək olar ki, dövlətlə eyni vaxtda meydana gəlmişdir və büdcə gəlirlərinin əsas mənbəyi hesab olunur. Vergilər fiskal, sosial, tənzimləmə və stimullaşdırma vəzifələrini yerinə yetirir;

vergi ödəyicisi, vergitutma obyekti, vergitutma bazası, vergi növü, vergi dərəcəsi, verginin hesablanmasının qaydası, verginin ödənilməsinin qaydası və müddəti müəyyən olunanda vergi də müəyyən olunmuş hesab edilir;

vergilərin 2 növü vardır: 1) müstəqim vergilər, 2) dolayı vergilər. Müstəqim vergilərə vətəndaşların gəlirlərindən və onlara məxsus əmlakdan, korporasiyaların (firmaların) mənfəətindən tutulan, habelə sosial vergilər; dolayı vergilərə isə aksizlər, əlavə dəyər vergisi, gömrük vergisi və rüsumları və s. misal ola bilər;

dövlət büdcəsinin ideal surətdə yerinə yetirilməsi gəlirlərin xərclərdən çox olması deməkdir. Xərclər gəlirlərdən çox olduqda isə büdcə kəsiri əmələ gəlir. Bu kəsir dövlət borcu hesabına aradan qaldırılır. Lakin bu, büdcə kəsirinin aradan qaldırılmasının yollarından biridir. Deməli, digər yollardan, məsələn, dövriyyəyə əlavə pul kütləsi buraxılmasından da istifadə olunur. Lakin bu, çox təhlükəli yoldur;

dövlət borcunun aşağıdakı növləri vardır: daxili borc, xarici borc, qısamüddətli (bir ilədək) borc, orta müddətli (bir ildən beş ilədək) borc, uzunmüddətli (beş ildən yuxarı) borc. Bəzi ölkələrdə Maliyyə Nazirliyinin nəzdində dövlət borcu üzrə xüsusi idarə yaradılır;

vergitutma xüsusi prinsiplərə əsaslanır, tənzimləmə mexanizminə malikdir, müxtəlif formaları vardır və dövlət tərəfindən tənzimlənir. Müasir dövrdə vergilərin tənzimlənməsində aşağıdakı istiqamətlər özünü göstərir: 1) hüquqi şəxslərin vergitutmanın ən əlverişli təşkilati-hüquqi formalarını seçmələri; 2) firmaların yerləşdirilməsi və ya qeydiyyatdan keçirilməsi üçün ye-

rin seçilməsi; 3) qüvvədə olan vergi güzəştlərinin təhlili və onlardan istifadə edilməsi; 4) mənfəətdən və sərbəst kapitaldan istifadə edilməsi, investisiya siyasətinin seçilməsi;

Azərbaycan Respublikasının öz vergi sistemi vardır. Bu, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra formalaşmışdır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən ölkəmizdə aşağıdakı vergilər müəyyən edilmişdir: 1) dövlət vergiləri, 2) Muxtar Respublika vergiləri, 3) yerli (bələdiyyə) vergilər. Bunların da hər birinin özünün müxtəlif növləri vardır.

# V FƏSİL

# DÖVLƏTİN PUL-KREDİT SİYASƏTİ

## 5.1. Pul-kredit siyasətinin nəzəri əsasları

Pul-kredit siyasəti dövlətin iqtisadiyyata dolayı yolla təsir göstərməsinin formalarından biridir. Lakin bazar iqtisadiyyatının pul-kredit sisteminin köməyilə tənzimlənməsinə XX əsrin 30-cu illərindən, yəni Avropanın aparıcı dövlətlərini, habelə Şimali Amerika ölkələrini dağıdıcı böhran bürüyəndən sonra istifadə olunmağa başlanmışdır.

**Pul-kredit siyasətinin mərkəzində pul haqqında** nəzəriyyələr durur. Bunlar həm pulun özünün, həm də dövlətin yeritdiyi pul-kredit siyasətinin iqtisadiyyata təsirini əks etdirir. Lakin problemin aydınlaşdırılmasına iki yanaşma metodu diqqəti daha çox cəlb edir. Bunlardan biri klassik (neoklassik) məktəb, digəri isə monetarizmdir.

XIX əsrin son qərinəsi və XX əsrin əvvəllərində klassik (neoklassik) iqtisadi məktəbin nümayəndələri öz-özünə tənzimlənən və öz-özünü inkişaf etdirən bazar iqtisadiyyatının səmərə verdiyini əsas götürərək, dövlətin iqtisadi proseslərə geniş miqyaslı müdaxiləsinin əleyhinə çıxmış və pulu məhsul buraxılışı, gəlirlər, investisiyalar və s. bu kimi real kəmiyyətlərin nominal ifadəçisi hesab etmişlər. Onların fikrincə, istehsalın real həcmi cəmiyyətdə mövcud olan və yalnız uzunmüddətli dövrdə dəyişən əsas istehsal amilləri – əmək ehtiyatları, istehsal gücləri, təbii resurslarla müəyyən edilir. Bu məktəbin nümayəndələrinin bir çoxu belə hesab edirdilər ki, istehsalın həcmi və pulun dövretmə sürəti təbii səviyyəyə yaxınlaşmağa meyl edir və onlar pulun, habelə pul siyasətinin təsirindən asılı deyildir. Çünki tədavüldə olan pulun miqdarının dəyişməsi yalnız daxili qiymətlərin səviyyəsinə təsir etmək iqtidarındadır.

Miqdar pul nəzəriyyəsinin tərəfdarı olan və onun modernləşdirilməsinə böyük töhfələr vermiş, riyazi məktəbin tanınmış

nümayəndəsi İ.Fişerin (1867-1947-ci illər)[1] mövqeyində duran neoklassiklər sübut etmişlər ki, pulun nominal miqdarının proporsional dəyişməsi yalnız qiymətlərin mütləq səviyyəsinin proporsional dəyişməsinə səbəb olur. Odur ki, onlar pul siyasətinin səmərəsiz olması haqında nəticə çıxarır və hökuməti tarazlaşdırılmış büdcə barədə düşünməyə, onun kəsirli olmasının qarşısını almağa, tarazlı tədiyyə balansına nail olmağa çağırırdılar.

1929-1933-cü illərdəki dünya iqtisadi böhranı zamanı neoklassik nəzəriyyələrin əsas müddəalarının, xüsusilə də bazar iqtisadiyyatı şəraitində uzunmüddətli böhranların və məcburi işsizliyin olmaması haqqında müddəaların doğru olmadığı təsdiqləndikdən sonra ABŞ-da, Böyük Britaniyada və inkişaf etmiş digər ölkələrdə dövlət tərəfindən tənzimləmə tədbirlərindən istifadə olunmağa başlanmışdır.

**Bazar iqtisadiyyatına dövlətin geniş miqyaslı** müdaxiləsinin nəzəri əsasları tanınmış ingilis iqtisadçısı C.M.Keynsin «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» əsərində (1936-cı il) verilmişdir. O, bu əsərində sözün həqiqi mənasında makroiqtisadiyyatda əsl inqilab etməklə, iqtisadçıların və hökumətin diqqətini işgüzar silsilələrə və iqtisadi siyasətə cəlb etmişdir.

Bu yeni iqtisadi nəzəriyyə ona əsaslanır ki, öz-özünə tarazlaşmaya cəhd göstərən müasir bazar iqtisadiyyatı faktiki məhsul buraxılışının mümkün olduğundan çox-çox az istehsal olunduğu, işçi qüvvəsinin çox böyük hissəsinin işsiz qaldığı, lakin ümumi tələblə ümumi təklifin tarazlaşdığı vəziyyətə düşə bilər.

Klassiklərdən fərqli olaraq Keyns belə hesab edirdi ki, məhsul buraxılışı azaldığı və daimi işsizlik olduğu bir şəraitdə iqtisadiyyat uzun müddət «palçığa batıb qala bilər». Çünki bunlar tez bir zamanda tam məşğulluğun bərpası və istehsal güclərindən tam istifadə olunmasının təmin edilməsinə imkan

---

[1] İqtisadi nəzəriyyədə İ.Fişer tərəfindən irəli sürülən mübadilənin aşağıdakı riyazi bərabərliyi məlumdur: $M \cdot V = P \cdot Q$. Burada: M-tədavüldə olan pulun miqdarını, V-pulun dövretmə sürətini, P-qiymətlərin səviyyəsini, Q-istehsalın real həcmini göstərir. MV-iqtisadiyyatda pul üzrə təklifi, PQ-pula olan tələbi səciyyələndirir.

verən çevik qiymət və əmək haqqı mexanizminin olmaması nəticəsində baş verir.

Keyns natamam məşğulluq şəraitində ölkə iqtisadiyyatının tarazlığın «tələsinə» düşməsinin səbəbini ümumi tələbin kifayət etməməsində görür və hesab edirdi ki, hökumət iqtisadi fəallığa pul-kredit və büdcə-vergi metodlarından istifadə etməklə təsir göstərə bilər.

Keynsin ümumi tələb nəzəriyyəsində investisiya tələbinə xüsusi diqqət yetirilir. Çünki, multiplikator səmərəliliyinin nəticəsində investisiyalarda baş verən tərəddüdetmələr istehsalda və məşğulluqda böyük dəyişikliklərə gətirib çıxarır. Bundan başqa Keyns iqtisadiyyatda investisiyaların səviyyəsini müəyyən edən başlıca amillər içərisində faiz dərəcəsini xüsusi qeyd edirdi. Onun fikrincə faiz dərəcəsi artırıldıqda digər şərtlər sabit qalmaqla, planlaşdırılan investisiyaların səviyyəsi və deməli, həm istehsalın həcmi, həm də məşğulluq aşağı düşür.

Beləliklə, **funksional asılılıq zəncirini aşağıdakı kimi təsvir etmək olar:** pul kütləsinin artması faiz dərəcəsinin aşağı düşməsinə, bu isə öz növbəsində investisiyaların və buna uyğun olaraq gəlirlərin və məşğulluğun artmasına gətirib çıxarır. Keyns faiz dərəcəsinin investisiya siyasətinə təsirini pul tədavülünün bütövlükdə iqtisadiyyata təsir etməsinə şərait yaradan vasitə hesab edirdi. Məhz buna görədir ki, pul üzrə tələb və təklifin qarşılıqlı fəaliyyəti nəticəsində faiz dərəcəsinin müəyyən olunduğu pul bazarının təhlili Keyns nəzəriyyəsinin başlıca tərkib hissəsidir. Deməli, dövlət, pul-kredit siyasətinin metodlarından istifadə etməklə, faiz dərəcəsinə, onun vasitəsilə investisiyaların səviyyəsinə, məşğulluğun qorunub saxlanmasına və iqtisadi artımın təmin olunmasına təsir göstərə bilər.

Lakin C.Keyns və onun ardıcılları aşağıdakı səbəblərə görə büdcə-vergi siyasətinə üstünlük verirdilər:

1) İqtisadiyyat elə vəziyyətə düşür ki, pul üzrə təklifin artması milli gəlirin dəyişməsinə gətirib çıxarmır. İqtisadiyyat elmində buna **«likvid tələsi»**[1] deyilir və bu ingilis iqtisadçısı

---

[1] Likvid-asanlıqla pula dəyişdirilməsi mümkün olan şeylər deməkdir.

C.Xiks tərəfindən hərtərəfli təhlil olunmuşdur. «Likvid tələsi» o deməkdir ki, faiz dərəcəsi çox aşağı səviyyədədir və o, yalnız artmağa doğru dəyişə bilər. Aydın məsələdir ki, bu zaman pul sahibləri onu investisiyaya qoymağa cəhd göstərmirlər. Elə bir vəziyyət yaranır ki, hətta çox aşağı faiz dərəcəsi investisiyaları stimulaşdırmır və gəlirlərin artmasına təsir göstərmir. Pul əllərdə toplanır və iqtisadiyyata qoyulmur. Faiz dərəcəsi dəyişmədiyi üçün investisiyalar və gəlir sabit qalır, bazar mexanizmi canlanmaya təsir etmir. Keynsçilər bu vəziyyətdən çıxış yolunu xüsusi investisiyaların hərəkətverici qüvvəsi hesab etdikləri büdcə-vergi siyasətindən istifadə etməkdə görürdülər;

2) Keyns və keynsçilər pulun dövretmə sürətinə qiymət verərkən ona əsaslanırdılar ki, bu (yəni pulun dövretmə sürəti) hətta çox qısa vaxtda (məsələn, iqtisadi silsilənin daxilində) dəyişir və deməli, onun müəyyən edilməsi mümkün deyildir. Odur ki, onların fikrincə pulun istehsalın həcminin, məşğulluğun və onun özünün dinamikasının müəyyən edilməsində başlıca amil hesab olunması düzgün deyildir;

Keyns və onun ardıcılları belə hesab edirdilər ki, bazar iqtisadiyyatı şəraitində qiymətlər çevik deyildir. Odur ki, o, bütün iqtisadi göstəriciləri əmək haqqının dəyişməz kəmiyyəti ilə ifadə edir.

Keyns hökumətin fiskal və pul-kredit siyasətinin iqtisadiyyatın vəziyyətinə təsiri kanallarını tədqiq etmək və nəzəri ilkin şərtlərə əsaslanmaqla belə bir nəticəyə gəlmişdir ki, durğunluq şəraitində iqtisadiyyatın tənzimlənməsi və stimullaşdırılmasına monetar yanaşma metodları özünü doğrultmur. Və bununla da o, vergi sisteminin və dövlət xərclərinin strukturunun dəyişdirilməsini iqtisadiyyatın sabitləşdirilməsinin daha səmərəli metodu olduğu qənaətinə gəlmişdir. Keynsin gəldiyi bu nəticə onun ardıcıllarını «pulun əhəmiyyəti yoxdur» tezisini irəli sürməyə təhrik etmişdir. Bununla yanaşı, erkən keynsçilər həm də «likvid tələsi»nə əsaslanaraq monetar siyasəti səmərəsiz hesab edirdilər.

Keynsçilər sonralar pul-kredit siyasətinin də faydalı olduğunu deyirdilər. Başqa sözlə, onlar qarışıq monetar-fiskal siyasətinə

üstünlük verir və hesab edirdilər ki, sərt fiskal və «yüngül» monetar siyasət yeridilməsi daha sərfəlidir. Həm də bu zaman büdcə-vergi tənzimləməsini yaddan çıxarmaq olmaz. Pul-kredit siyasəti yeridilməsi faiz dərəcələrinin aşağı səviyyədə saxlanması və investisiyaların stimullaşdırılması üçün lazımdır. Pul üzrə təklifin artması faiz dərəcələrinin yüksəlməsinə əks təsir göstərməklə, xüsusi investisiyanın sıxışdırılmasının qarşısını almağa imkan verə bilər.

İkinci dünya müharibəsindən sonra 60-cı illərin axırları və 70-ci illərin əvvəllərinədək Qərbin aparıcı ölkələrində, keçən 100 il ərzində sosial-iqtisadi inkişaf proseslərində ən əlverişli dövr olmuşdur.

Lakin XX əsrin 70-ci illərində Keyns məktəbində böhran baş vermiş və bunun nəticəsində iqtisadi nəzəriyyədə neoklassik istiqamət, o cümlədən onun müasir forması olan monetarizm[1] üstünlük qazanmışdır.

**Monetaristlərlə Keynsçilər arasında iqtisadiyyatda pulun oynadığı rol və ümumiyyətlə, bazar təsərrüfatının fəaliyyəti ilə əlaqədar kəskin fikir ayrılıqları vardır.**

Monetaristlər belə hesab edirlər ki, bazar iqtisadiyyatı sabit sistemdir və bazar mexanizmi iqtisadi tarazlığı müstəqil surətdə bərpa etmək iqtidarındadır. Ona görə də monetaristlər dövlətin iqtisadiyyata fəal müdaxiləsinin əleyhinə çıxır. Ümumiyyətlə azad rəqabətin, xüsusilə də pul tədavülü dairəsində rəqabətin müdafiəsində dururlar. Onlar pulu istehsalın inkişaf etdirilməsində həlledici amil hesab edirlər. Onların fikrincə, pul-kredit dairəsinin dövlət tərəfindən həddindən çox tənzimlənməsi iqtisadi böhranlar üçün şərait yarada bilər.

Müasir monetarizmin tanınmış nümayəndəsi Nobel mükafatı laureatı M.Fridmendir. o, uzun müddətli monetar siyasətlə tarazlaşdırılmış «pul qaydaları» ideyasını irəli sürmüşdür. Bunun mahiyyəti ondan ibarətdir ki, dövlət tədavüldə olan pul kütləsinin müəyyən hədd daxilində daim artmasını müdafiə etməlidir.

---

[1] Monetarizm tədavüldə olan pulun miqdarının dəyişməsinin qiymətlərin, gəlirlərin və məşğulluğun dəyişməsini müəyyən etməsi fikrinə tərəfdar çıxan iqtisadi məktəbdir.

Onun fikrincə bu artımın kəmiyyətini aşağıdakı bərabərliklə müəyyən etmək olar:

$$M = P + Y$$

Burada: M-pulun orta illik artımını (uzun müddət üçün, %-lə), Y-Ümummilli məhsulun orta illik artımını (uzun müddət üçün, %-lə), P-gözlənilən inflaysiyanın orta illik artımını (gözlənilən inflyasiyanın orta illik artım sürəti hesablandıqda inflyasiyanın ümumi səviyyəsindən dövlətin, həmkarlar ittifaqının fəaliyyəti ilə əlaqədar olan inflyasiya çıxılır) göstərir.

M.Fridmenin monetar qaydaları tədavüldə olan pul kütləsinin artımına ciddi nəzarət olunmasını (illik 3-5% olmaqla) nəzərdə tutur. Məhz pul kütləsinin belə artımı iqtisadiyyatda işgüzar fəallığı artırır. Onun fikrincə tədavüldə olan pul kütləsi il ərzində 3-5%-dən çox artmamalıdır. Çünki bu normadan çox artdıqda inflyasiya baş verir, bu həddən az olduqda isə ümummilli məhsulun artım sürəti aşağı düşür.

M.Fridmenin «pul qaydaları» keçən əsrin 70-ci illərinin axırlarında ABŞ və Böyük Britaniyanın (reyqanomika və tetçerizm) pul-kredit siyasətinin əsasını təşkil etmişdir.

**Monetaristlər pulun dövretmə sürətini müəyyən edən amillər içərisində inflyasiyanın gözlənilən səviyyəsini və faiz dərəcələrini xüsusi qeyd edirlər.** Onlar, həmçinin pul kütləsinin, nominal və real ÜMM-in artım sürətinin dəyişməsi arasındakı qarşılıqlı əlaqələri aşkara çıxarmış və göstərmişlər ki, pul kütləsinin artım sürətinin dəyişməsi qiymətlərə nisbətən istehsalın real həcminə daha tez təsir edir. Məsələn, bir işgüzar silsilənin hüdudları daxilində tədavüldə olan pul kütləsinin artım sürəti müəyyən ləngimələrdən, adətən bir neçə aydan sonra nominal ÜMM-in artım sürətində dəyişikliyə səbəb olur. Əvvəlcə nominal ÜMM-dəki dəyişikliklərin xeyli hissəsi real ÜMM-də, başqa sözlə, iqtisadi sistemdə istehsal olunan əmtəə və xidmətlərin real miqdarındakı dəyişikliklərdə əks olunur. Sonra isə pul kütləsinin artım sürəti iqtisadi artımın orta illik sürətindən irəlidə getdikdə nominal ÜMM-də dəyişikliklərə nisbətən qiymətlərin mütləq

səviyyəsi daha sürətlə artır. Beləliklə, pul kütləsinin artması ilə əlaqədar olaraq nominal ÜMM-in artmasının sürətlənməsi yalnız ilk mərhələdə istehsalın real həcminin artmasına səbəb olur. Bundan sonra istehsalın real artım sürətinin ləngiməsi ona gətirib çıxarır ki, qiymətlərin yüksəlməsi iqtisadiyyata daha çox təsir göstərir.

Monetaristlər Keyns konsepsiyasının yanlış və daxili ziddiyyətlərə malik olduğunu deyirdilər. Odur ki, onların fikrincə tənzimləmənin əsas obyekti faiz dərəcəsi deyil, pulun artım sürəti olmalıdır. Pul kütləsinin artım sürəti elə olmalıdır ki, bu, bir tərəfdən real ÜMM-in artmasını təmin etsin, digər tərəfdən isə iqtisadiyyatda inflyasiya proseslərinə gətirib çıxarmasın.

Keçən əsrin 70-80-ci illərində monetarist ideyalardan istifadə olunması inflyasiya ilə mübarizə üçün daha səmərəli tədbirlərin işlənib hazırlanmasına imkan vermişdir. Bununla yanaşı, inflyasiya prosesinin sabitləşməsi, maliyyə təsisatlarının dəyişməsi və 80-ci illərdə iqtisadi artımın yeni keyfiyyətinə keçilməsi əvvəlki onillikdəki inflyasiya dövründə işlənib hazırlanmış pul siyasəti sahəsində monetar ideyaların aktuallığını xeyli zəiflətmişdir. Lakin buna baxmayaraq qeyd etmək lazımdır ki, monetaristlərin elmi nailiyyətləri sayəsində iqtisadçılar «pulun əhəmiyyəti yoxdur» tezisi ilə birdəfəlik vidalşmalı oldular.

Müasir pul nəzəriyyələri özlərində keynsçilik, monetraizm, neoklassik «təklif iqtisadiyyatı» nəzəriyyələrinin ünsürlərinin və s. daxil olduğu ümumi modelləri birləşdirir. Ümumiyyətlə, bunların əsasında iqtisad elmində «neoklassik sintez» adı almış istiqamət formalaşmışdır.

## 5.2. Pul-kredit siyasətinin məqsədi və səmərəliliyi

Pul-kredit siyasəti dövlətin iqtisadi proseslərə təsir göstərməsinin əsas vasitələrindən biridir. Pul tədavülü və kredit sahəsində razılaşdırılmış tədbirlər sistemi olan bu siyasət əsas makroiqtisadi göstəricilərin tənzimlənməsinə yönəldilmişdir.

Pul-kredit siyasətinin son məqsədi qiymətlərin sabitliyinin, tam məşğulluğun, istehsalın real həcminin artmasının, sabit tədiyyə balansının təmin olunmasından ibarətdir. Bu məqsədlərə nail olunması çox böyük və qlobal vəzifədir. Cari pul-kredit siaysəti daha konkret məqsədlərə əsaslanır. Bununla əlaqədar olaraq pul sistemində bir il və daha uzun müddət üçün aralıq məqsədlər müəyyənləşdirilir. Bu məqsədlərə pul kütləsi, faiz dərəcələri və valyuta dəyişmə məzənnələri aiddir. Nəhayət, Mərkəzi bankın gündəlik fəaliyyəti faktiki məqsədlərə nail olunmasına yönəldilmişdir. Bank pul-kredit siyasətinin xarakterini müəyyən edir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün həyata keçirilən sərt monetar siyasət pul kütləsinin müəyyən səviyyədə saxlanmasını nəzərdə tutur.

Ölkədə iqtisadi sabitliyin təmin olunmasına yönəldilmiş siyasəti həyata keçirən hökumət və Mərkəzi bank müəyyən dövr üzrə pul-kredit siyasətinin əsas istiqamətlərini işləyib hazırlayır, aralıq məqsədləri formalaşdırır, taktiki məqsədlərin yerinə yetirilməsi üzrə tədbir görürlər.

Keyns konsepsiyasında ya işsizlik, ya da inflyasiya ilə mübarizə əsas məqsəd hesab edilir. İşsizlik ona görə baş verir ki, investisiya tələbi azaldığı üçün ümumi tələbin azalması nəticəsində istehsalda tənəzzül baş verir. Odur ki, pul-kredit siyasəti büdcə-vergi tənzimləməsi ilə əlaqədar tədbirlərlə yanaşı, yüksək faiz dərəcələri vasitəsilə investisiyaların stimullaşdırılmasını nəzərdə tutur. Belə bir şəraitdə Mərkəzi bank aralıq məqsəd kimi iqtisadiyyatda pul üzrə tələbin artmasını ön plana çəkir. Mərkəzi bank bu məqsədə nail olmaq üçün məcburi ehtiyat normalarını və faiz dərəcələrini aşağı salır, kommersiya banklarından və xüsusi şəxslərdən güzəştli şərtlərlə dövlət qiymətli kağızlarını satın alır. Kommersiya bankları isə əlavə resurs qazanmaqla, onu kredit bazarına çıxarır.

Borc kapitalı üzrə təklifin artması, digər şərtlər dəyişməz qalmaqla, onun qiymətinin aşağı düşməsinə səbəb olur, borc vəsaitini istehsalçı üçün daha cəlbedici edir. Beləliklə, faiz dərəcələrinin aşağı salınması investisiyalar üçün əlverişli şərait yaradır, istehsalın genişlənməsi isə işsizliyin azalmasına səbəb olur. Bu

ideya Keyns tərəfindən irəli sürülmüşdür və pul-kredit siyasətində **«ucuz pullar»** siyasəti adını almışdır.

İnflyasiya ilə mübarizə, əsasında az miqdarda pul dayanan **«bahalı pullar»** siyasətinin yeridilməsini tələb edir. Bu məqsədlə Mərkəzi bank məcburi ehtiyat normalarını və faiz dərəcələrini artırır, əməliyyatların gedişində dövlət qiymətli kağızlarını açıq bazara çıxarır və satır. Pul üzrə təklifin ixtisar olunması faiz dərəcələrinin artmasına və müvafiq olaraq maliyyə resurslarının bahalanmasına səbəb olur. Ümumiyyətlə, «bahalı pullar» siyasəti yeni layihələrin kreditləşdirilməsinin məhdudlaşdırılmasına, investisiya fəallığının və istehsalın artım sürətinin aşağı salınmasına yönəldilmişdir.

Keynsçilər inflyasiyanı yalnız tam məşğulluq və istehsalın tam həcminə nail olunduğu şəraitdə nəzərdən keçirir və onu iqtisadiyyatın mümkün olan imkanları ilə müqayisədə ümumi tələbin həddən çox olması ilə əlaqələndirirlər. Çünki yüksək iqtisadi konyuktura şəraitində ümumi tələbin çox olması qiymətlərin bahalaşmasına səbəb olur. Beləliklə, digər şərtlər sabit qalmaqla pul-kredit siyasəti ilə əlaqədar həyata keçirilən tədbirlər işgüzar fəallığı azaltmalı, istehsal fəaliyyətini ixtisar etməlidir ki, bu da öz növbəsində inflyasiyanın artım sürətinin aşağı düşməsinə gətirib çıxarır.

Ümumiyyətlə isə bu və ya digər formada özünü göstərən iqtisadi qeyri-sabitlik real istehsalın təbii səviyyəsi ilə ümumi tələb arasındakı tarazlığın pozulmasının nəticəsidir. Əsas vəzifənin – sabit qiymətlər və tam məşğulluq şəraitində iqtisadi artıma nail olunması vəzifəsinin yerinə yetirilməsinə yönəldilən pul-kredit siyasəti elə bir konkret aralıq məqsədlərin seçilməsini tələb edir ki, onlar ümumi tələbin real ÜMM-in artım sürətinə uyğunluğunu təshih etməyə imkan versin.

Pul-kredit siyasəti iqtisadi sistemin «dəqiq köklənməsi» konsepsiyasına möhkəm daxil olmuşdur. Bu, Mərkəzi bankın dəyişən iqtisadi şəraitdə aktiv fəaliyyət göstərməsini nəzərdə tutur. Lakin monetaristlər iqtisadiyyatın «dəqiq köklənməsi»ni təmin etməyə yönəldilən sərbəst pul-kredit siyasətinin əleyhinə çıxırdı-

lar. Məsələn, M.Fridmen hesab edirdi ki, pul Mərkəzi banka özü bildiyi kimi manipulyasiya etmək üçün lazımdır.

Klassik monetarizm ona əsaslanır ki, monetar siyasətin ən münasib yeganə aralıq məqsədi pul kütləsinin sabit artım sürətinə nail olunması ola bilər. Bu sürət real ÜMM-in təbii səviyyəsinin artım sürətinə uyğun gəlməlidir.

Lakin monetar siyasətin səmərəli aralıq məqsədləri haqqında məsələ hələ də mübahisəli olaraq qalır. Müxtəlif ölkələrin hökumətləri və Mərkəzi bankları belə bir cəhətə əsaslanırlar ki, pul-kredit siyasətinin mümkün olan aralıq məqsədlərinin heç birini ideal hesab etmək olmaz, iqtisadi sistemin bütöv bir sıra parametrlərini nəzarətə götürmək lazımdır. Bunlar pul kütləsi göstəriciləri, verilən kreditlərin şərtləri və həcmi, valyuta məzənnələri, qiymət indekslərinin dinamikası və s-dir.

Bir neçə onilliklər ərzində müxtəlif ölkələrdə həyata keçirilən pul-kredit siyasəti sahəsində toplanmış təcrübəyə əsasən onun müsbət və mənfi cəhətlərini aşkara çıxarmaq, səmərəliliyinə təsir edən amilləri müəyyənləşdirmək olar. Mərkəzi bankın apardığı pul-kredit siyasəti bir tərəfdən, iqtisadiyyatın tənzimlənməsinin ümumi çərçivələri daxilində hökumətlə razılaşdırılmış və özünün çevikliyi ilə fərqlənir. Həm də bazar strukturlarının inkişaf etmiş olduğu bütün ölkələrdə Mərkəzi banklar müstəqildirlər və dəyişən iqtisadi şəraitdən asılı olaraq pul-kredit siyasətində dəyişikliklər edilməsi haqqında operativ qərarlar qəbul edə bilirlər. Pul-kredit siyasətinin həyata keçirilməsində Mərkəzi banklar müstəqil olduqların görə bu, hökumətin qısa müddətli siyasi məqsədləri makroiqtisadi tənzimləmənin əsas strateji xətti ilə ziddiyyət təşkil etdikdə siyasətçilərin təzyiqlərinə cavab verməyə imkan yaradır.[1] Bütün bunlar iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində pul-kredit siyasətini cəlbedici edir.

Digər tərəfdən, aşağıdakı səbəblər üzündən pul-kredit siyasətinin aparılmasında ciddi məhdudiyyətlər əmələ gəlir ki, bunlar da cəmiyyətdə iqtisadi vəziyyətin pisləşməsinə gətirib çıxarır:

---

[1] Belə hallara bir qayda olaraq seçkilər ərəfəsində və dövlət büdcəsinin kəsiri artdıqda öz reytinqini yüksəltməyə cəhd göstərən siyasətçilər əl atırlar.

1) Tənzimləmənin dolayı metodlarının xüsusiyyətləri. Bu, onunla əlaqədardır ki, dövlət orqanları tərəfindən həyata keçirilən eyni tədbirlər bəzi bazarlarda müsbət, digərlərində isə mənfi nəticələr verə bilər. Məsələn, «baha pullar» siyasəti maliyyə bazarlarında sabitliyi təmin etməklə, inflyasiyanın sürətini aşağı salır. O, eyni zamanda kreditlərin azalmasına, investisiya şəraitinin pisləşməsinə, iqtisadi artım sürətinin aşağı düşməsinə və işsizliyin güclənməsinə səbəb olur. Bununla əlaqədar olaraq pul-kredit siyasəti yeridilərkən onun mümkün olan mənfi nəticələrini qabaqcadan görmək və qabaqlayıcı tədbirlər müəyyənləşdirmək lazımdır.

Lakin burada müəyyən çətinliklər meydana çıxır. Hətta, iqtisadçılar iqtisadi inkişafa dair ən dəqiq proqnoz verməyə qadir olsalar belə, tədavüldə olan pul kütləsində dəyişikliklər baş verdikdə müvəqqəti zaman kəsiyi və ya müvəqqəti ləngimələr əmələ gəlir. Bu dövrdə baş verən hadisələr iqtisadi proseslərin gedişini poza bilər. Bu zaman pul-kredit siyasətində müəyyən dəyişikliklər aparılması zəruriliyi meydana çıxır ki, bu da onun uzun və qısa müddətli məqsədləri arasında ziddiyyətə gətirib çıxara bilər. **Belə hadisələrə müvəqqəti uyğunsuzluqlar problemi deyilir**. Gözlənilən səmərə nəzəriyyəsinin baniləri olan neoklassiklərin fikrincə bu cür uyğunsuzluqların mövcudluğu monetar hakimiyyətin iqtisadi sabitliyin təmin olunmasına yönəldilən bütün səylərini heçə çıxara bilər.

**Gözlənilən səmərə nəzəriyyəsinə** görə iqtisadi müvəkkillər özlərinin təcrübələrinə əsaslanmaqla və mövcud informasiyalardan istifadə etməklə iqtisadi prosesləri proqnozlaşdırmaq və optimal qərarlar qəbul etmək qabiliyyətinə malikdirlər. Bu nəzəriyyənin praktik əhəmiyyəti ondadır ki, pul-kredit siyasəti antisilsilə konyuktura siyasəti xarakteri daşımamalıdır. Çünki bu, iqtisadi müvəkkillər tərəfindən qərarların qəbul olunmasında qeyri-sabitliyə və qabaqcadan müəyyən edilməsi mümkün olmayan nəticələrə gətirib çıxarır. Gözlənilən səmərə konsepsiyasının tərəfdarları hökumətin və iqtisadi müvəkkillərin fəaliyyət göstərmələrinə dair sabit qaydaların yaradılması uğrunda mübarizə aparırlar.

2) Pul-kredit siyasətinin səmərəliliyinə aralıq və taktiki məqsədlərin düzgün seçilməsi də çox böyük təsir göstərir. Burada söhbət, hər şeydən əvvəl, işin texniki tərəfindən gedir. Məlum olduğu kimi, pul kütləsini likvidin azalması prinsipi ilə müəyyən edilmiş müxtəlif pul parametrləri ($M_1$, $M_2$, $M_3$ və i.a.) kimi təsvir etmək olar. Məsələn, Mərkəzi bank aralıq məqsəd kimi pul kütləsinin artım sürətini seçərkən, həm də pul parametrlərini seçməlidir ki, taktiki məqsədləri müəyyənləşdirə bilsin. Pul-kredit dairəsində gedən proseslər nəzərə alınmadan seçim edilmişdirsə, daha dəqiq desək, seçim düzgün aparılmamışdırsa, göstərilən səylər nəinki arzu olunan nəticəni verməyəcəkdir, həm də iqtisadi nəzəriyyənin özünün «nüfuzuna» xələl gətirəcəkdir.

3) Pul-kredit siyasəti aparılarkən və onun məqsədləri seçilərkən iqtisadiyyatda pul kütləsi həcminin dəyişməsi mexanizminin özünün təbitindən irəli gələn əlavə səmərə nəzərə alınmalıdır. Mərkəzi bank pul üzrə təklifə tam nəzarət edə bilməz. Ona görə ki, bu prosesdə onunla yanaşı kommersiya bankları və qeyri-bank sektoru da iştirak edir. Belə ki, kommersiya banklarının ehtiyatları yalnız Mərkəzi bank tərəfindən müəyyən edilən məcburi ehtiyatlardan ibarət deyildir. Həm də kommersiya bankları özlərinin müəyyən etdikləri artıq ehtiyatlara malikdirlər. Onların artıq ehtiyatları nə qədər çox olarsa, bir o qədər az kredit verirlər. Deməli, Mərkəzi bank kommersiya bankları tərəfindən verilən kreditlərin məbləğini düzgün nəzərə ala bilmir. Artıq ehtiyatların çoxalması isə ehtiyat normalarının artmasına və pul multiplikatorunun aşağı düşməsinə səbəb olur.

Nəqd və qeyri-nəqd pullar arasındakı nisbət həm də əhalidən asılıdır. Bu nisbətin dəyişməsi kredit emissiyasının və deməli, pul üzrə təklifin miqyasını müəyyən edən pul multiplikatorunun kəmiyyətinə təsir göstərir. Bütün bunlara əsasən demək olar ki, kommersiya bankları və əhalinin düşünülməmiş davranışları nəticəsində Mərkəzi bank məqsədlərinə nail olmaya bilər.

Məsələn, tutaq ki, Mərkəzi bank pul üzrə təklifin artırılmasını qərara alır və bu məqsədlə açıq bazarda qiymətli kağızların satın alınması ilə əlaqədar əməliyyatlar aparmaqla pul bazasını artırır. Aydın məsələdir ki, pul üzrə təklifin artması faiz dərəcə-

sinin aşağı düşməsinə səbəb olacaqdır. Bundan sonra isə vəziyyət dəyişən şəraitdə kommersiya bankları və əhalinin necə hərəkət etmələrindən asılı olacaqdır. Banklar kredit vermək əvəzinə özlərinin artıq ehtiyatlarını çoxaltmağa, əhali isə özünə məxsus olan vəsaiti depozitdən çıxarıb nəqd qaydada saxlamağa üstünlük verdikləri təqdirdə pul multiplikatoru azalır, bu da öz növbəsində Mərkəzi bankın həyata keçirdiyi tədbirlərin səmərəliliyinin aşağı düşməsinə səbəb olur.

**Beləliklə, bütövlükdə pul-kredit siyasətinin səmərəliliyi «ötürücü mexanizmin» bütün vəsilələrində görülən işlərin keyfiyyətindən asılıdır.**

Ötürücü mexanizm dedikdə, bütün bazar iqtisadiyyatı subyektlərinin planda nəzərdə tutduqları xərclərin səviyyəsinə pul-kredit siyasəti vasitəsi ilə təsir göstərilməsi prosesi nəzərdə tutulur. Monetar siyasətin ötürücü mexanizmi olduqca mürəkkəbdir.

Yuxarıda göstərildiyi kimi, Keyns modelində aşağıdakı dörd əsas cəhət nəzərə alınır: Mərkəzi bankın yeritdiyi müvafiq siyasət nəticəsində iqtisadiyyatda pul üzrə real təklifin kəmiyyətinin dəyişməsi; pul bazarında faiz dərəcəsinin dəyişməsi; ümumi xərclərin, bitrinci növbədə investisiya xərclərinin dəyişməsinə münasibət; məhsul buraxılışının dəyişməsi.

Bir qədər sonrakı dövrün tədqiqatçıları pul-kredit siyasəti mexanizminin son nəticəyə əhəmiyyətli dərəcədə təsir göstərən əlavə xüsusiyyətlərini aşkara çıxarmışlar. Təcrübə göstərir ki, faiz dərəcələrinin dəyişməsi yalnız firmaların planda nəzərdə tutduqları investisiyalara deyil, həm də ev təsərrüfatlarının xərclərinə təsir edir (məsələn, milli hesabdarlıqda uzun müddət istifadə olunan əmtəələrin kreditlə satın alınması istehlak xərclərinə aid edilir). Qiymətli kağızlar bazarında da dəyişikiklər baş verir. Bu bazarlarda qiymətli kağızların məzənnəsi digər şərtlər sabit qalmaqla, faiz dərəcəsinin səviyyəsindən asılıdır. Ona görə də yeni investisiya layihələrinin maliyyələşdirilməsinin alternativ üsulları olduğu üçün pul-kredit siyasətinin ötürücü mexanizminə faiz dərəcəsi ilə yanaşı, səhmlərin qiymətləri də daxil edilir.

Dövlət, maliyyə və pul-kredit mexanizmlərindən istifadə etməklə, investisiyaların tənzimlənməsi vasitəsilə ictimai istehsalın sürəti və proporsiyalarına təsir göstərir. Məsələn, dövlət, kredit hesabına həyata keçirilən xüsusi investisiyaları stimullaşdırmaq üçün borc faizinin bir hissəsini özünün xüsusi vəsaiti hesabına «ödəyir».

İnvestisiya sferasında dövlətin bütün fəaliyyəti son nəticədə iqtisadi artımın təmin olunmasına yönəldilməlidir.

**Dövlətin investisiya siyasətinin həyata keçirilməsi onun bütün iştirakçılarının – Azərbaycan hökumətinin,** Milli Məclisin, bölgələrin, müəssisələrin, investisiya və maliyyə təşkilatlarının, ictimai təşkilatların birgə və qarşılıqlı şəkildə fəaliyyət göstərmələrini tələb edir.

Dövlətin investisiya siyasəti hakimiyyət strukturları tərəfindən həyata keçirilir, möhkəm elmi baza üzərində müəyyən nailiyyətlərin qazanılması məqsədinə tabe edilir və müəyyən müddətə nəzərdə tutulur. O, konkret sosial-iqtisadi şəraitdə dövlətin mənafeyinə uyğun olaraq təkrar istehsala yönəldilən maliyyə vəsaitinin olmasını nəzərdə tutur. Dövlətin mənafeyi isə bütün cəmiyyətin mənafeyi deməkdir. Siyasi təsisat olan dövlət, cəmiyyətin adından çıxış edir, investisiya proseslərinin tənzimlənməsində və prioritet sahələrin müəyyənləşdirilməsində qanunvericilik çərçivəsində öz iradəsini reallaşdırmaq qabiliyyətinə malikdir. Dövlət, idarəetmənin **birinci**, investisiya fondları, banklar, korporasiyalar, konsernlər, səhmdar cəmiyyətləri və investisiya prosesinin digər iştirakçıları isə **ikinci** subyekti olmalıdır. Burada ikincilik aydın məsələdir ki, fəaliyyətin miqaysına, səmərəliliyinə deyil, onun əsas istiqamətinə aiddir.

## 7.2. İnvestisiyaların dövlət tərəfindən tənzimlənməsi

Azərbaycan Respublikası Sovet İttifaqının tərkibində olarkən, investisiya prosesləri mərkəzləşdirilmiş qaydada, direktiv planlaşdırma yolu ilə idarə edilmişdir. Sovet İttifaqı dağıldıqdan

və həmin məkanda müstəqil dövlətlər meydana gəldikdən, o cümlədən Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra aparılan islahatlar investisiyaların idarə olunmasında bu qaydanın dəyişdirilməsinə, planlaşdırma sisteminin yenidən qurulmasına, bazar münasibətləri əsasında planlaşdırmaya keçilməsinə gətirib çıxarmışdır. Lakin dövlət investisiyaların idarə olunmasının vergi dərəcələri, kreditlər, büdcədən verilən dotasiyalar və dövlət borcu hesabına dolayı yolla tənzimlənməsi ilə yanaşı, idarəetmənin birbaşa metodlarından da istifadə etməyə borcludur.

**Dövlət, investisiya siyasətini nazirlik və idarələr vasitəsilə həyata keçirir,** hökumət proqramları əsasında büdcə vəsaiti hesabına investisiyalaşdırmanın xüsusi qaydasını müəyyən edir. Məqsədli proqramların və onların büdcədən maliyyələşdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyi əsasında müəyyən olunur.

**Hazırda Azərbaycan Respublikasında** investisiya fəaliyyətini bir sıra nazirlik, idarə və dövlət təşkilatları – İqtisadi İnkişaf Nazirliyi, sahə nazirlikləri və müəssisələri - idarə edirlər. Bu strukturlar investisiya layihələrinin həyata keçirilməsində iştirak edir və müəyyən həcmdə investisiya almaq üçün sənədləri hazırlayır. Qaytarılmamaq şərtilə büdcədən maliyyələşdirmə özünün xüsusi maliyyələşdirmə mənbələri olmayan sosial yönümlü obyektlər üçün səciyyəvidir.

Büdcə vəsaiti hesabına birbaşa dövlət investisiyaları sosial kompleksin (təhsil, səhiyyə, mədəniyyət, sosial müdafiə, kütləvi informasiya vasitələri) inkişaf etdirilməsinə, aztəminatlı ailələrin mənzillə təmin və müdafiə sənayesinin konversiya olunmasına, müsabiqə əsasında layihələrin maliyyələşdirilməsinə, zərərlə işləyən istehsalatların sağlamlaşdırılmasına və s. məqsədlərə yönəldilir.

Ayrı-ayrı ölkələrin təcrübəsində diqqəti cəlb edən cəhətlərdən biri investorların dövlət tərəfindən müdafiə edilməsinin vasitəsi kimi **«inkişaf büdcəsindən»** istifadə olunmasıdır. İnkişaf büdcəsində dövlət tərəfindən investisiya məqsədləri üçün ayrılan vəsaitin yalnız bir hissəsi cəmləşmişdir. Dövlət tərəfindən sosial öhdəliklərin – sosial əhəmiyyətli və baha başa gələn infrastruktur

obyektlərinin tikintisi, texniki cəhətdən mürəkkəb sistemə (atom elektrik stansiyaları, aeronaviqasiya və i.a.) yerinə yetirilməsi üçün zəruri olan maliyyə resursları adi qaydada cari büdcə vasitəsilə təmin edilir.

**İnkişaf büdcəsinin yaranması aşağıdakı müddəalara əsaslanır:**

- investisiya layihələrinin maliyyələşdirilməsi üçün cəlb edilmiş vəsaitlərdən istifadə olunması. Bunun səmərəliliyi həmin vəsaitin qaytarılmasına zəmanət verir;
- inkişaf büdcəsinin icra olunmasının maliyyələşdirilməsinin cari büdcədən ayrılması;
- maliyyələşdirmənin fasiləsizliyinə təminat verilməsi;
- inkişaf büdcəsinin həyata keçirilməsi mexanizminin yaradılması.

İnkişaf büdcəsi vəsaitinin səmərəliliyi maliyyələşdirilən layihələrin müsabiqə yolu ilə seçilməsi və vəsait qoyuluşunun etibarlılığı vasitəsilə təmin olunur. İnkişaf büdcəsinin reallaşdırılması layihə maliyyələşdirmələri prinsipi əsasında həyata keçirilir.

İnkişaf büdcəsi dövlətin investisiya proqramlarının maliyyələşdirilməsi üçün daxili və xarici resursların cəlb edilməsi prinsipi əsasında qurulmuş maliyyə sistemidir. O, kredit resurslarının müntəzəm olaraq bərpa edilməsinə əsasən qurulan, daimi fəaliyyət göstərən iqtisadi sistemdir.

İnkişaf büdcəsinin həcmi investisiyalara olan tələbata əsasən Azərbaycan Respublikasının hökuməti tərəfindən müəyyən edilir. Bu, hər il Azərbaycan Respublikasının Milli Məclisində təsdiq olunur.

**İnvestisiyanın mənbələrindən biri də əsas kapitalın amortizasiyasıdır.** Bu, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə əsas yerlərdən birini tutur. Həyata keçirilən ümumi qoyuluşun 60-70%-i onun payına düşür.

**Əsas kapitalın amortizasiyası onun fiziki və mənəvi aşınması prosesidir.** O, aşınmış və köhnəlmiş əsas kapital ünsürlərinin – maşın və avadanlıqların, cihazlar, nəqliyyat vasitələri, bina və tikililərin və i.a. - yeniləri ilə əvəz olunmasını nəzərdə tutur. Amortizasiya investisiyaların sabit mənbəyidir. Lakin kapital qoyuluşunun mənbəyi kimi onun imkanları qiymətlərin sabitliy-

indən asılıdır. Beləliklə, amortizasiya fondunda toplanan və xidmətemə müddəti başa çatana qədər əsas kapitalın satın alınmasına yönəldilən vəsait istehsal üçün əlavə kapital deməkdir. Amortizasiya ayırmalarının geniş təkrar istehsalın maliyyələşdirilməsi mənbəyinə çevrilməsində elmi-texniki tərəqqi mühüm rol oynayır. Odur ki, müəssisələrlə yanaşı, dövlət də amortizasiya ayırmalarına böyük maraq göstərir. Çünki amortizasiya ayırmalarının həddən az olması milli iqtisadiyyat miqyasında kapital qoyuluşunun geniş, hətta bəzi hallarda sadə təkrar istehsalın həyata keçirilməsi, məşğulluğun və tələbin təmin olunması üçün kifayət etmir. Amortizasiya ayırmalarının həddən çox olması isə investisiyaların artmasına və əsas kapitalın təzələnməsinə səbəb olsa da, vergi qoyulması üçün nəzərdə tutulan mənfəət məbləğinin azalmasına gətirib çıxarır. Bu da büdcəyə vergilər hesabına daxilolmaların azalması ilə nəticələnir. Bütün bunlar belə bir nəticə çıxarmağa imkan verir ki, **dövlət məqsədyönlü amortizasiya siyasəti yeritməlidir.**

Amortizasiya siyasəti əsas kapitalın təkrar istehsalı prosesinin dövlət tərəfindən tənzimlənməsinin qüvvədə olan vasitəsidir. Planlı iqtisadiyyatda əsas fondların amortizasiyasının bir konsepsiyası və amortizasiya hesablanan bir obyekti – əsas istehsal fondları - mövcud olmuşdur.

Bazar iqtisadiyyatı üçün amortizasiyanın hesablanmasının bir neçə obyekti və iki konsepsiyası – iqtisadi və vergi - səciyyəvidir. Amortizasiyanın vergi konsepsiyası – əsas kapitalın dəyərinin iqtisadi cəhətdən əsaslandırılmış yüksək normalara nisbətən aşağı vergi normaları ilə silinməsi deməkdir. Vergi tutulması üçün amortizasiyanın hesablanması dövlət tərəfindən aparılan vergi siyasətinə uyğun olaraq müəssisələrlə büdcə arasındakı münasibətləri tənzimləyir.

**Ölkəmizdə amortizasiya sistemi aşağıdakı istiqamətlərdə yeniləşdirilmişdir:**

İqtisadiyyatda islahatların aparılması nəticəsində əsas fondlar kəskin surətdə qiymətdən düşmüş, amortizasiya məbləği azalmışdır. Belə bir şəraitdə birinci istiqamət əsas fondların yenidən qiymətləndirilməsi və amortizasiyanın indeksləşdirilməsi olmuş-

dur. Bu inflyasiya amilinin «bitərəfləşdirilməsi»nə və kapital qoyuluşunun tərkibində - istehsal xərclərində amortizasiyanın payının yüksəlməsinə imkan vermişdir.

**İkinci başlıca istiqamət əsas fondların sürətli amortizasiyasının genişlənməsidir**. Bunun mənası ondan ibarətdir ki, müəssisələr amortizasiya ayırmalarını aşağıdakı metodlardan birinin köməyi ilə müəyyən edə bilərlər: a) tezləşdirilən xətti və ya mütənasib amortizasiya ayırmaları; b) «Silinən» obyektin ilk dəyərindən çox olan əlavə amortizasiya ayırmaları; c) xüsusi amortizasiya ayırmaları. Dövlət təsərrüfat fəaliyyətini canlandırmaq məqsədilə amortizasiya normalarını artırmağa müvəqqəti icazə verir; d) ilkin amortizasiya ayırmaları. Bu o deməkdir ki, amortizasiya ayırmaları avadanlıq fəaliyyətə başlayana qədər həyata keçirilir. e) amortizasiyanın azalan qalıqdan hesablanması. Bu zaman amortizasiya ayırmaları əsas kapitalın ilk dəyərindən deyil, qalıq dəyərindən hesablanır.

Tezləşdirilən xətti və ya mütənasib amortizasiya ayırmaları maliyyə nazirliyinin icazəsi ilə fiziki və mənəvi köhnəlmənin həqiqi müddəti uzadılmaqla, mənəvi köhnəlmə nəzərə alınmadan hesablanır.

Bunlarla yanaşı, amortizasiya ayırmalarının hesablanmasının başqa variantları da vardır. Bunlar amortizasiyanın bərabər, bərabərsürətli və sürətli hesablanması metodlarıdır.

Amortizasiya ayırmalarının müəyyən edilməsinin bərabər metodu əsas kapitalın bərabər fiziki və mənəvi köhnəlməsinə yönəldilmişdir. Bunun əsas kapitalın fiziki aşınmasına münasibətdə qəbul edilməsi mümkündür. Lakin mənəvi aşınma ilə əlaqədar bu sözləri demək olmaz. Çünki elm, texnika, istehsal texnologiyası qeyri-bərabər inkişaf edir. Əsas kapitalın mənəvi köhnəlməsi əksəriyyət hallarda bərabər sürətlə getmir. Lakin amortizasiya ayırmaları normalarında bu, belə nəzərdə tutulur. Ona görə də, amortizasiya normaları elə müəyyən olunmalıdır ki, əsas kapitalın mənəvi köhnəlməsi sürətlə getdiyi halda, bu, sahibkara əsas kapitalı başqası ilə əvəz etmək imkanı versin. Bu problemi əsas kapitaldan sürətli metodlarla amortizasiya ayırmaları hesablamaqla həll etmək olar. Bu zaman deyək ki, ilk üç ildə əsas kapita-

lın ilk dəyərinin 2/3 hissəsinin məhsulların istehsal xərclərinə daxil edilməsinə imkan verən yüksək normalardan istifadə olunur. Bundan sonra yerdə qalan məbləğ eyni (sabit) amortizasiya normaları ilə sonrakı xidmət illərində «silinir».

Hazırda qeyri-bərabər amortizasiya ayırmaları da inkişaf edir. Bu zaman avadanlıqların dəyərinin böyük bir hissəsi ilk illərdə istehsal xərclərinə daxil edilir. Məsələn, avadanlığın dəyərinin birinci il 50%-i, ikinci il 30%-i, üçüncü il isə 20%-i istehsal xərclərinə daxil edilə bilər. Bu, inflyasiya şəraitində müəssisəyə qoyduğu xərci tez bir zamanda «çıxarmaq» və onu avadanlıq parkının daha da yeniləşdirilməsinə yönəltmək imkanı verir. Müəssisələr amortizasiya ayırmalarından müstəqil istifadə edir, onu elmi-texniki tərəqqiyə, istehsalın inkişaf etdirilməsinə, əsas kapitalın təkrar istehsalı və təkmilləşdirilməsinə yönəldirlər.

İnvestisiyanın daxili mənbələri ilə yanaşı, xarici mənbələri də vardır. Ölkəmizin iqtisadiyyatının bazar münasibətləri əsasında yenidən qurulmasında xarici investisiyalar böyük rol oynayır.

## 7.3. İnvestisiyaların dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri

Uzunmüddətli investisiyalar olmadan iqtisadiyyatın bazar münasibətləri əsasında inkişaf etdirilməsi mümkün deyildir. Bunun həyata keçirilməsi isə öz növbəsində həm dövlət orqanları ilə investorlar, həm də dövlətlə iqtisadi münasibətlərin digər iştirakçıları və təsərrüfat subyektləri arasındakı qarşılıqlı əlaqələrin prinsipləri və mexanizmini tənzimləyən hüquqi bazanın yaradılmasından asılıdır.

Lakin investisiyaların formalarının (dövlət və xüsusi), mənbələrinin (büdcə vəsaiti və xüsusi investorların vəsaiti), mənşəyinin (daxili və xarici), qarşıya qoyulan məqsəd və vəzifələrin müxtəlifliyi qanunvericilik mexanizminin hazırlanmasını mürəkkəbləşdirir. İnvestisiya proseslərinin tənzimlənməsii ilə əlaqədar hüquqi norma və aktların müxtəlif və çoxsaylı olması da bunlarla izah edilir.

**İnvestisiya fəaliyyəti** ilə əlaqədar hüquqi bazanın yaradılması onun canlandırılmasının ən mühüm amillərindən biridir. İnvestisiya sferasında təsərrüfatçılıq edən subyektlərin fəaliyyəti ilə əlaqədar hüquqi baza dövlət tərəfindən yaradılır. Belə ki, dövlət ölkədə investisiya fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını işləyib hazırlayır və qəbul edir. Dövlət, mülkiyyət hüququ və mülkiyyətin formalarını, investisiya fəaliyyəti ilə məşğul olmağın qaydalarını, müqavilələrin bağlanması və yerinə yetirilməsi şərtlərini müəyyən edir, investorların hüquqlarının müdafiəsinə təminat verir və i.a. Dövlət, yalnız investisiya fəaliyyətinin şərtlərini müəyyənləşdirməklə kifayətlənmir, həm də məhkəmə sistemi vasitəsilə investorların hüquqlarının müdafiəçisi rolunda çıxış edir. Təsərrüfat subyektlərindən biri müqavilənin şərtlərini pozduqda, hüquqları pozulan subyekt mənafelərinin müdafiəsi üçün dövlətə müraciət etmək imkanına malikdir. İnvestisiya fəaliyyətinin müdafiəsi dövlətin təkcə hüququ deyil, həm də borcudur. Odur ki, qanunlara əməl olunmasına nəzarət etmək üçün sui-istifadə hallarına qarşı mübarizə aparan, investorların hüquqlarının müdafiəsini təmin edən, qanunları pozanlara qarşı müvafiq tədbirlər görən xüsusi orqanlar yaradılır.

**İnkişaf etmiş bazar təsərrüfatında** investisiya fəaliyyətinin hüquqi əsasları bir-birini tamamlayan və daxilən bir-birinə zidd olmayan qanunlardan ibarətdir. Qanuvericilikdə mülkiyyət hüququ və müqavilələrə əməl olunması şərtləri özünün dəqiq əksini tapmalı, formalaşmaqda olan təsisatların fəaliyyətini tənzimləməli, investorların hüquqlarının müdafiəsi ilə əlaqədar məsələləri əhatə etməlidir.

Qanunvericilik sisteminin sabit olması xüsusilə vacibdir. Qanunvericilikdə tez-tez dəyişikliklərin edilməsi investorlarda inamsızlıq yaradır. İnvestisiya proseslərinin hüquqi bazasının təmin olunması qüvvədə olan qanunların tətbiqi və onda qismən dəqiqləşdirmə və təshihetmələrin aparılması üzərində nəzarətin həyata keçirilməsi yolu ilə reallaşdırılır. Lakin investisiya fəaliyyəti haqqında hüquqi normaları nəzərdən keçirib təshih edərkən necə deyərlər, «yüz dəfə ölçüb, bir dəfə biçmək», başqa söz-

lə, bu dəyişikliklərin nə ilə nəticələnəcəyi barədə qabaqcadan düşünmək lazımdır.

**Azərbaycan Respublikasının bazarlarında** istər daxili, istərsə də xarici investorlar üçün eyni hüquq və vəzifələri özündə əks etdirən hüquqi baza yaradılmışdır. Bunlar öz əksini Azərbaycan Respublikasının «İnvestisiya fəaliyyəti haqqında» **13 yanvar 1995-ci il,** «Xarici investisiyaların qorunması haqqında» **15 yanvar 1992-ci** il tarixli qanunlarında tapmışdır.

İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi bir-birilə qarşılıqlı əlaqədə olan vergi, kredit, büdcə siyasəti ilə əlaqədar kompleks tədbirlərə və dövlət orqanları tərəfindən investisiya proseslərinin dəqiq təşkili və idarə olunmasına əsaslanır.

Azərbaycan Respublikasında investisiya fəaliyyətinin hüquqi əsaslarının yaradılmasına iqtisadi islahatların aparıldığı illərdə, əslində, sıfırdan başlanmış və qarşıya həm daxili, həm də xarici investorlarla dövlət arasındakı münasibətlərin qaydaları və mexanizminin sivil sisteminin formalaşdırılması vəzifəsi qoyulmuşdur.

**Azərbaycan iqtisadiyyatına məqsədyönlü və iri miqyaslı investisiyaların cəlb edilməsinin ən mühüm şərtləri aşağıdakılardır:** 1) uzunmüddətli milli mənafelərə cavab verən dövlət investisiya siyasətinin işlənib hazırlanması; 2) investisiya siyasətinin formalaşdırılması, əlaqələndirilməsi və təmin olunması ilə bağlı aydın və dəqiq səlahiyyətlərə və vəzifələrə malik olan məhdud sayda dövlət orqanlarının mövcudluğu; 3) Azərbaycanın investisiya bazarında sabit və uzunmüddətli dövr üçün tənzimləmə qaydalarını təmin edən və bir-birinə zidd olmayan qanunvericiliyin mövcudluğu.

İnvestisiya fəaliyyətində çox şey investorların arzu və istəklərindən asılıdır. Lakin bu o demək deyildir ki, onlar istədiklərini edirlər. İnvestorlar üçün azadlıq: 1) onlar üçün bərabər imkanların yaradılması; 2) investisiya bazarında rəqabət, investisiya resurslarının səmərəli bölgüsü və istifadə olunması deməkdir. Başqa sözlə, bu, hər bir investora özünün imkanına və mənafeyinə uyğun olaraq investisiya fəaliyyətinə başlamaq hüququnun verilməsi deməkdir. Lakin iqtisadi sərbəstlik heç də investisiya fəa-

liyyəti üzrə hüquqi, sosial və digər məhdudiyyətlərin olmadığını nəzərdə tutmur.

İqtisadi fəaliyyətin digər sahələrində olduğu kimi, investisiya sferasında da investorların «şıltaqlığı» mənfi nəticələrə gətirib çıxarmasın deyə, müəyyən ictimai qaydalara riayət emək lazımdır. Bu, bütövlükdə iqtisadiyyatın sabitləşdirilməsi və artımına təsir göstərə bilən investisiya fəaliyyətinin məntiqi ardıcıllıqla həyata keçirilən sistemə çevrilməsinə imkan vermiş olardı. Bu qaydalar iqtisadi inkişaf prosesində meydana çıxır və dəyişir, hamı tərəfindən qəbul olunan təcrübə hesab edilir, yaxud da dövlət tərəfindən inzibati qaydada müəyyənləşdirilir.

İnvestisiya sferasında fəaliyyət göstərməyin ən mühüm şərtlərindən biri də bu qaydaları başa düşmək və onları hökmən yerinə yetirməkdən ibarətdir. Bütün bu qaydalara sözsüz əməl olunan sahələr ən sabit investisiya sferası hesab edilir. **Bu qaydalar investisiya institutları, onların toplusu isə institusional mühit adlanır.**

Müasir investisiya prosesində «institut» anlayışı olduqca mühüm yer tutur. Bəzi hallarda «institut» anlayışına iqtisadi təşkilatlar və idarələr də, məsələn, hökumət, parlament, Mərkəzi bank, nazirlik, xidmət və komissiyalar daxil edilir. Müəyyən mənada buna haqq qazandırmaq olar, çünki bütün qanunlar, sərəncamlar, fərmanlar, təlimatlar, normativ aktlar, əmrlər və i.a. investorların nəzərinə bunların vasitəsilə çatdırılır.

**Lakin «institut» anlayışı daha genişdir.** İnstitut – həm də investorların bir-biri ilə qarşılıqlı əlaqə və investisiya fəaliyyətinin həyata keçirilməsi qaydaları deməkdir. Bu qaydaların toplusu investisiya mühitini əmələ gətirir. Ona görə də institusional mühit dedikdə, əslində müvafiq investisiya institutlarının toplusu nəzərdə tutulur. İnvestisiya institutları sistemi öz məzmununa görə «investisiya fəaliyyətinin çərçivə şəraitinə» yaxındır.

İnvestisiya institutları investisiya sferasında investorların davranışlarını müəyyən edir, məhdudlaşdırır və buna görə də onları bir çox hallarda **«oyun qaydaları»** da adlandırırlar. Lakin bu qaydalar kənardan müəyyən olunduğuna görə investorlar onu heç vaxt dəyişdirə bilməzlər.

İnvestisiya institutları çoxdur. Bunlardan başlıcası müqavilədir. Müqavilə, iştirakçılarının hüquq və vəzifələrinin, habelə onların dəyişdirilməsinin nəzərdə tutulduğu iki və ya çoxtərəfli razılaşmaların əks olunduğu sövdələşmə institutudur. Sövdələşmə müəyyən təəhhüd götürən fiziki və hüquqi şəxslərin davranışlarını tənzimləyir.

**İnvestisiya institutunun başqa növü mülkiyyət hüququdur.** İnvestisiya dairəsində bu və ya digər investisiya əmtəələrinə olan münasibətdə investorların davranışı mülkiyyət münasibətləri ilə müəyyən olunur.

**Müasir institusional mühit üçün iki xüsusiyyət səciyyəvidir.** Bunlardan biri investorların informasiyalar haqqında qeyri-bərabər məlumat almaq imkanlarının olmasıdır. Bunun nəticəsində investor investisiya mühiti haqqında natamam və düzgün olmayan informasiyalara əsasən qərar qəbul edir. İnvestorların öz aralarındakı və investorlarla xarici mühit arasındakı informasiya mübadiləsini sadələşdirmək üçün investisiya fəaliyyəti haqqında sabit qaydaların olması lazımdır. İnvestisiya institutları, başqa sözlə, qaydalar və normalar məhz bu məqsədlə yaradılır. Bu qaydaların öyrənilməsi və onlara əməl olunması cəmiyyətin iqtisadi həyatında investorlar arasında qarşılıqlı fəaliyyəti yüngülləşdirir.

**İnvestisiya sferasının ikinci səciyyəvi xüsusiyyəti** – investisiya proseslərində investorlar arasındakı əlaqələrin zəif olmasıdır. Yaxın keçmişə qədər investorlar bir-biriləri ilə şəxsən tanış olduqları halda, hazırda onlar bir-birindən çox uzaq məsafələrdə fəaliyyət göstərir, nəinki bir-birilərini tanımır, həm də şəxsi əlaqə qurmağa cəhd göstərmirlər. Odur ki, müqavilələrə əməl olunması problemi yeni qaydada həll edilir. Başqa sözlə, investisiya müqavilələrinin tərəflərdən biri, yaxud da hər ikisinin pozmasına qarşı mübarizə aparmaq lazım gəlir. Əgər, əvvəllərdə müqavilənin yerinə yetirilməsi xüsusi inzibati-ərazi vahidləri orqanları tərəfindən, habelə şəxsi münasibətlər və ənənələrlə təmin olunurdusa, hazırda bunun üçün yaxşı işlənib hazırlanmış və böyük ərazilər üçün vahid qanunlar və mexanizmlər sisteminin yaradılması tələb olunur.

Yüksək səviyyədə inkişaf etmiş bazar iqtisadiyyatı şəraitində çoxəsrlik təkamül nəticəsində formalaşmış investisiya fəaliyyətinin institusional mühiti olduqca mürəkkəbdir. Onun yaxşı cəhəti də elə bundadır. Belə bir mühitdə investorlar bir-biriləri ilə yaxşı əlaqə saxlayır, qanunvericilik investisiya fəaliyyətinin bütün sahələrini hərtərəfli tənzimləyir. İnvestisiya fəaliyyətinin müxtəlif sahələrində ixtisaslaşmış investisiya təşkilatları da müxtəlif sahələri əhatə edir. Belə şəraitdə investorlar özlərini yaxşı hiss edir və sərbəst hərəkət edirlər.

İqtisadiyyatda müəyyən dəyişikliklərin olması investisiya sferasında da qayda və normaların dəyişdirilməsinə səbəb olur. İnstitusional mühitin dəyişməsi ilə əlaqədar məsələlərin həll edilməsində dövlətin rolu çox böyükdür. O, bir tərəfdən investisiya fəaliyyətinin subyektidir, digər tərəfdən isə investisiya fəaliyyətinin başqa subyektlərinin hüquqlarını müdafiə etməyə cavabdehdir.

İnvestisiya institutlarının səmərəli sisteminin formalaşması çox mürəkkəb bir prosesdir. Onların fəaliyyəti investorların normal işləmələri üçün əlverişli şərait yaradılmasına yönəldilmişdir. Lakin banklar, fond bazarları və institusional mühitin digər ünsürləri iqtisadiyyatın real bölməsinin inkişafına, investisiya fəallığının canlanmasına əngəl törədə bilər.

**İnvestisiya fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar** görülən tədbirlər sistemində dövlətin investisiya strategiyasının işlənib hazırlanması və dövlət tərəfindən tənzimləmə vasitələrinin onun həyata keçirilməsinə «köklənməsi» prioritet əhəmiyyətə malikdir. Əsaslı surətdə və dəqiq işlənib hazırlanmış uzunmüddətli investisiyaların inkişaf strategiyası olmayan dövlət yalnız cari məsələləri həll etməyə, uzunmüddətli vəzifələri qısamüddətli vəzifələrlə əvəz etməyə məcburdur.

Uzunmüddətli sosial-iqtisadi inkişafın məqsədləri həmişə qısamüddətli məqsədlərlə uyğun gəlmir. Bu uyğungəlməmələr dərin və uzunmüddətli dəyişikliklər aparıldığı dövr üçün xüsusilə səciyyəvidir. Ölkəinin sosial-iqtisadi inkişafında əsaslı dönüş yaradılmasına nail olmaq üçün özündə investisiyaların əhəmiyyətli artımını, iqtisadiyyatın real bölməsində işgüzar fəallığın stimul-

laşdırılmasını, bu məqsədlə sosial parametrlərə ciddi əməl olunmaqla büdcə-vergi, pul-kredit vasitələrindən fəal istifadə olunmasını əks etdirən uzunmüddətli investisiya strategiyasının yaradılması lazımdır. Bütün bunlar yalnız dövlət hakimiyyətinin tənzimləyici funksiyalarının xeyli gücləndirilməsi əsasında mümkündür.

Orta və uzunmüddətli investisiya strategiyası ölkəmizin milli-iqtisadi mənafelərinin həyata keçirilməsinə, iqtisadiyyatımızın yenidən qurulması, onun səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması əsasında xalqın həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir. O, özündə mövcud milli investisiya resurslarının səfərbərliyə alınması ilə əlaqədar kompleks tədbirləri, xarici kapitalın ölkə iqtisadiyyatına cəlb olunması və səmərəli bölüşdürülməsini əks etdirir. Dövlətin büdcə, vergi, kredit, valyuta, pul siyasətinin bütün «alətləri» bu tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

**Ölkəmizin orta və uzunmüddətli investisiya strategiyasında dünya iqtisadiyyatında gedən qloballaşma prosesləri mümkün qədər nəzərə alınmalıdır.** Çünki qloballaşma digər müsbət cəhətləri ilə yanaşı, həm də iqtisadiyyatın innovasiya bölməsinin rolunun artmasına, ənənəvi sahələrdə kapitalın dəyərinin azalmasına (xüsusilə də təbii xammal sahələrində) gətirib çıxarır. Odur ki, belə bir şəraitdə milli investisiya strategiyası iqtisadiyyatın innovasiya bölməsinin və məhsulları innovasiya bölməsi, elm, təhsil, mədəniyyət üçün sosial nemət və xammal hesab olunan sahələrin inkişaf etdirilməsinə yönəldilmişdir.

Azərbaycanın orta və uzunmüddətli investisiya strategiyası innovasiya bölməsinin əsas gəlir mənbəyinə çevrilməsinə xidmət etməlidir. Yalnız bu zəmin üzərində, Azərbaycan, dünya gəlirlərinin bərabər əsaslarla bölünməsində iştirak edə bilər.

Hazırda Qərbi Avropada və Şimali Amerikada onlara böyük məbləğdə əlavə mənfəət əldə etmək imkanı verən güclü innovasiya bölməsi yaradılmışdır. Bu sahədən bəhrələnmək üçün ölkəmiz elmi cəhətdən əsaslandırılmış investisiya siyasəti yeritməlidir. Bu strategiyanın əsasını ölkədə yaradılmış əlverişli investisiya mühiti təşkil edir.

## 7.4. Azərbaycan Respublikasında mövcud investisiya mühiti və onun təkmilləşdirilməsi istiqamətləri

**İnvestisiya mühiti (bəzi hallarda sahibkarlıq mühiti) dedikdə kapitalın tətbiq olunduğu ölkədəki mövcud şərait nəzərdə tutulur. Bu şəraitə siyasi, iqtisadi, maliyyə, sosial, təşkilati-inzibati və digər amillər təsir edir.**

Ölkənin və ya regionun investisiya potensialını müəyyən edərkən aşağıdakı makroiqtisadi, sosial-demoqrafik və digər amillər nəzərə alınır:

- əsas növ təbii resursların ehtiyatı ilə səciyyələnən resurs-xammal bazası;
- təhsil səviyyəsi də daxil olmaqla əmək ehtiyatları;
- təsərrüfatın ayrı-ayrı əsas sahələrində əldə edilmiş nəticələrlə müəyyən olunan istehsal potensialı;
- ETTKİ-nin inkişaf səviyyəsini və onların maliyyələşdirilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqini ifadə edən innovasiyalar;
- yolların, nəqliyyatın, kommunikasiyaların, rabitənin və investisiya prosesi üçün zəruri olan digər ümumi şəraitin vəziyyəti ilə müəyyən olunan infrastruktur;
- büdcə gəlirləri, müəssisələrin mənfəət əldə etmələri və əhalinin gəlirləri haqqında təsəvvür verən maliyyə;
- əhalinin alıcılıq qabiliyyəti.

**Bunlar ölkənin** və ya regionun investisiya potensialı haqqında kifayət qədər obyektiv **təsəvvür verir.** Dövlət, bu potensialdan ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi və xalqın həyat şəraitinin yaxşılaşdırılması üçün istifadə olunmasına şərait yaratmalıdır.

**Xaricə kapital ixracı** investorlardan risk tələb edir. İnvestisiya riski iqtisadi şəraitin təsadüfən dəyişməsi, yaxud da əlverişsiz vəziyyətin yaranması nəticəsində investorun müəyyən itkilərə məruz qalması deməkdir. Hətta, risk bəzi hallarda investor tərəfindən qoyulmuş kapitalın itirilməsi ilə nəticələnə bilər. Odur ki,

riskin qiymətləndirilməsi investorların hamısı, xüsusilə də xaricdə kapital qoyuluşunu həyata keçirənlər üçün olduqca vacibdir. Çünki xarici investor tanış olmadığı bir mühitə düşür. Ona görə də o, bu yeni mühitin müsbət və mənfi cəhətlərindən xəbərdar olmalıdır. Bu məqsədlə müxtəlif mənbələrdən informasiya almaq, onu təhlil etmək və qiymətləndirmək lazımdır. Burada məqsəd, xaricdə firma yaratmaq istəyən investora ilkin mərhələdə «harada» (kapital qoyuluşu üçün ölkə seçilərkən), «necə» (bazara daxil olmaq üsulu müəyyən olunarkən) və «nə vaxt» (layihədə nəzərdə tutulan müddətdən asılı olaraq) suallarına cavab axtarmaqda kömək göstərməkdir. Xaricdə fəaliyyət göstərən firmalara münasibət isə başqa cür olmalıdır. Çünki onlar demək olar ki, fəaliyyət göstərdikləri ölkələrin, necə deyərlər, «ab-havasına» öyrənmişlər və onları digər məsələlər - bazarda fəaliyyətin genişləndirilməsinin məqsədəuyğun olub-olmaması, hansı məhsulların satışının təşkili və s. maraqlandırır.

**Riskləri aşağıdakı kimi təsnifləşdirmək olar:** 1) bəzi sosial risklər də daxil olmaqla siyasi risklər; 2) maliyyə riskləri. Bu, ölkəyə və onun hüquqi şəxslərinə verilən borc kapitalının ödənilə bilməsi imkanları ilə müəyyən edilir; 3) əməliyyatlar üzrə risklər. Bunlara aşağıdakıları aid etmək olar: a) xarici ticarət fəaliyyəti ilə əlaqədar risklər (xarici ticarət riski); b) istehsal fəaliyyəti ilə əlaqədar risklər (istehsal riski).

Bu risklərin azaldılması investisiya mühitinin yaxşılaşdırılmasının əsas istiqamətlərindən biridir. İnvestisiya mühitinə kapital qoyuluşu ilə əlaqədar dövlət tərəfindən yeridilən siyasət, ölkəinin beynəlxalq müqavilələrdə iştirakı və onlara əməl edilməsi ənənələri, dövlət idarəetmə funksiyalarının sabitliyi, dövlətin iqtisadi fəaliyyətə müdaxilə etməsi dərəcəsi və metodları, dövlət aparatının səmərəliliyi, qəbul olunmuş qərarların operativliyi, iqtisadi siyasətin həyata keçirilməsində ardıcıllığın gözlənilməsi və s. təsir edir.

**Bəs, Azərbaycanda investisiya mühitinin formalaşdırılması sahəsində nə kimi işlər görülmüşdür və hazırki vəziyyəti necə qiymətləndirmək olar?**

**Azərbaycan böyük investisiya imkanlarına malikdir.** O, özünün əlverişli mövqeyi sayəsində Avropanın inkişaf etmiş ölkələri ilə Asiyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri arasında ticarət-iqtisadi və mədəni əlaqələrin həyata keçirilməsində mühüm rol oynayır. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqedə yerləşməklə yanaşı, həm də zəngin təbii ehtiyatlara və böyük iqtisadi potensiala malikdir. Bunlarla yanaşı, Azərbaycanın təbii-iqlim şəraiti də çox əlverişlidir. İqlimin mülayimliyi, günəş enerjisinin bolluğu, dünyadakı on bir iqlim tipindən doqquzunun Azərbaycanda olması kənd təsərrüfatının demək olar ki, bütün sahələrinin inkişaf etdirilməsinə, xüsusilə də çox istilik sevən qiymətli bitkilərin əkilib-becərilməsinə və eyni torpaq sahəsindən bir ildə iki dəfə məhsul götürülməsinə imkan verir. Bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, ölkəmiz olduqca böyük investisiya imkanlarına malikdir. Lakin bunlar yalnız imkandır. Bu imkanların reallaşdırılması və iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya olunması isə bütün tələblərə cavab verə bilən sağlam investisiya mühitinin yaradılması əsasında mümkündür.

**Lakin Azərbaycan özünün dövlət müstəqilliyini bərpa** etdikdən sonra ölkədə gedən proseslər onu uçurum kənarına gətirmişdi. Ölkədə sosial-iqtisadi, siyasi, hərbi böhran, xaos, anarxiya, hərcmərclik hökm sürürdü, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmişdi, iqtisadiyyat demək olar ki, dağıdılmışdı. Bütün bunlara əsasən demək olar ki, o dövrdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı, **Azərbaycan riskli bir ölkə sayılırdı, siyasi və iqtisadi sabitlik hələ bərqərar edilməmişdi.**

Ölkəmizin iqtisadiyyatına investisiya qoyuluşuna əngəl törədən amillərdən biri də müstəqilliyimizin ilk illərində bir tərəfdən beynəlxalq aləmdə Azərbaycan haqqında kifayət qədər informasiyanın olmaması, digər tərəfdən isə mövcud olan informasiyaların Azərbaycandakı reallıqları kifayət qədər tam, olduğu kimi və düzgün əks etdirməməsi ilə əlaqədar meydana çıxan çətinliklərdən ibarət olmuşdur. **Ona görə də** qarşıda duran əsas vəzifə **Azərbaycanın çox etibarlı, sabit, xarici investorlar üçün əlverişli**

**bir ölkə olduğunu sübut etməkdən ibarət idi.** Bu məqsədlə düzgün daxili və xarici siyasət yeridilməli, iqtisadiyyat açıq elan olunmalı, xarici investorların ölkə iqtisadiyyatına kapital qoymaları üçün hər cür şərait yaradılmalı və onlara təminat verilməli idi. Yalnız bu yolla Azərbaycanın beynəlxalq aləmdə reytinqini qaldırmaq, xarici kapital üçün əlverişli ərazi olduğunu sübut etmək olardı.

Odur ki, çox qısa müddətdə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində ölkəmizdə xarici investorların normal fəaliyyət göstərmələrinə imkan verən əlverişli mühit yaradılmış, daxili iqtisadi vəziyyətin və xarici iqtisadi fəallığın sağlamlaşdırılması və perspektivdə onların dayaqlarının daha da möhkəmləndirilməsi sahəsində bir çox işlər görülmüş və görülməkdədir. Bunlar öz ifadəsini ölkəmizdə siyasi və iqtisadi sabitliyin bərqərar olmasında, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində görülən məqsədyönlü işlərdə, vətəndaş cəmiyyətinin yaradılması yolunda həyata keçirilən tədbirlərdə, islahatların və bazar iqtisadiyyatına uyğun dəyişikliklərin aparılmasında, xarici investisiyalar və azad sahibkarlıq üçün şəraitin yaradılması və onların mənafelərinin qorunmasında, xüsusi mülkiyyətə geniş meydan verilməsində və s. təmin olunmasında tapmışdır. Bütün bunlar əyani surətdə göstərir ki, ölkəmiz bazar iqtisadiyyatına uyğun dəyişikliklər yolu ilə, dünya iqtisadiyyatına inteqrasiya olunmaq yolu ilə gedir.

**Beləliklə, nəzərdən keçirilənləri** ümumiləşdirərək belə bir nəticə çıxarmaq olar ki, ölkəmizdə xarici investisiya qoyuluşu üçün sağlam mühit formalaşdırılmış, iqtisadiyyatımıza xarici kapitalın cəlb edilməsi, onun fəaliyyətinin genişləndirilməsi və tənzimlənməsi üçün lazım olan bütün hüquqi, iqtisadi, siyasi və təşkilati baza yaradılmışdır. Başqa sözlə, investorlar əmindirlər ki, Azərbaycan iqtisadiyyatına qoyulan hər bir manat, hər bir dollar lazımi səviyyədə qorunur, ölkəmizin qanunvericiliyi buna təminat verir. Bütün bunların nəticəsidir ki, Azərbaycan iqtisadiyyatına 1994-cü ildə «Əsrin müqaviləsi» bağlandıqdan sonra xarici kapital axını xeyli sürətlənmişdir. Təkcə bunu demək kifayətdir ki, indiyədək ölkəmizin iqtisadiyyatına 20 mlrd. dollar-

dan çox investisiya qoyulmuşdur. Bununla yanaşı, ölkəmizin iqtisadiyyatına xarici investisiya axınının yaxın gələcəkdə çox sürətlə artacağı gözlənilir.

Məlum olduğu kimi, xarici investisiya siyasəti Azərbaycan dövlətinin ümumi investisiya siyasətinin çox mühüm tərkib hissəsi olmaqla, sağlam milli iqtisadiyyatın yaradılması, onun hərtərəfli və sabit inkişaf etdirilməsi və sahələr arasında tarazlığın təmin olunmasında xüsusi rol oynayır. Odur ki, bu siyasət elmi cəhətdən əsaslandırılmış xüsusi proqram əsasında həyata keçirilməli, ölkə iqtisadiyyatının hərtərəfli inkişaf etdirilməsi üçün strateji əhəmiyətə malik olan sahələrə xüsusi diqqət yetirilməlidir. İqtisadiyyatımızın inkişaf etdirilməsində sahibkarlığa münasibətdə ayrı-seçkiliyə yol verilməməlidir. Əgər belə olarsa, bu, milli kapitalın bir hissəsinin xarici ölkələrə axıb getməsi ilə nəticələnə bilər. Bu isə öz növbəsində istər-istəməz xarici sahibkarlığın ölkəmizin əsas sosial fəal təbəqəsinə çevrilməsinə gətirib çıxarar. Odur ki, xarici investisiya siyasətində bu məsələyə xüsusi diqqət yetirilməsi vacibdir.

Beləliklə, xarici kapitalın ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi, sahələr arasında tarazlığın təmin olunması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında iştirakı və müsbət rol oynaması haqqında fikirlər danılmazdır. **Lakin bununla birlikdə** respublikamızda bu istiqamətdə aparılan siyasətin təkmilləşdirilməsinə ehtiyac vardır.

**Ölkəmizin xarici investisiya** siyasətinin təkmilləşdirilməsinin aşağıdakı istiqamətlərdə aparılması məqsədə-uyğundur:

- xarici kapitalın ölkə iqtisadiyyatını əhatəetmə dairəsi genişləndirilməli, yəni o neft sektoru ilə yanaşı, digər sahələri və ölkənin bütün bölgələrini əhatə etməlidir;
- inkişaf etmiş ölkələrlə elmi-texniki əməkdaşlıq daha da genişləndirilməli, süni əngəlləmələr aradan qaldırılmalı, daxili bazarın qorunmasında iqtisadi vasitələrə üstünlük verilməlidir;
- ölkəmizə xarici investisiyaların cəlb edilməsi xüsusi proqram əsasında həyata keçirilməlidir;
- xarici investisiyaların qorunması və onların səmərəliliyinin artırılması məqsədilə xüsusi güzəştlər nəzərdə tutulmalıdır;

- ölkəmizin ayrı-ayrı ərazi və bölgələrində mövcud olan təbii-iqtisadi potensialdan səmərəli istifadə edilməsində, xidmət sahələrinin inkişaf etdirilməsi və məhsulların ən sərfəli şəkildə ixrac olunmasında azad iqtisadi zonaların mühüm rol oynadığını nəzərə alaraq, repsublikamızın müxtəlif ərazilərində, hər şeydən əvvəl Gəncə və Sumqayıt şəhərlərinin yerləşdiyi, habelə Bakı ətrafı ərazilərdə Azad İqtisadi Zonaların yaradılması qayğısına qalmaq çox vacibdir. Çünki bu şəhərlər Azərbaycanın iri sənaye mərkəzləridir, burada maşınqayırma və avtomobilqayırma, toxuculuq, xalçaçılıq, kimya, neft kimyası məhsulları, qazma boruları, alüminium oksidi və alüminium istehsal edən müəssisələr, digər yüngül və yeyinti sənayesi müəssisələri yerləşir. Xarici investorlar üçün isə bu iş çox perspektivlidir;

- xarici kapitalın infrastruktur sahələrinin inkişaf etdirilməsinə yönəldilməsi dövlətin investisiya siyasətinin əsas istiqamətlərindən birinə çevrilməlidir.

Şübhəsiz ki, cəlb olunan investisiyaların istiqamətində və ərazi üzrə səmərəli yerləşdirilməsində mütərəqqi struktur dəyişiklikləri aparılması ölkəmizdə tarazlı iqtisadiyyat yaradılmasında çox mühüm rol oynayacaqdır.

## NƏTİCƏ

iqtisadiyyatın inkişaf etdirilməsində investisiyaların rolu inkarolunmazdır. İnvestisiya prosesinə daxil olan ünsürlər isə bunlardır: investisiyaların obyekti, subyekti, onların arasındakı əlaqələr və investisiya mühiti:

investisiya fəaliyyətinin növləri aşağıdakılardır: 1) özəl investisiya fəaliyyəti; 2) dövlət investisiya fəaliyyəti; 3) xarici investisiya fəaliyyəti; 4) birgə investisiya fəaliyyəti; 5) innovasiya fəaliyyəti.

dövlət, investisiya fəaliyyətində birbaşa iştirak etməklə yanaşı, həm də bu prosesi tənzimləyir. İnvestisiya proseslərinin dövlət tərəfindən tənzimlənməsi dedikdə, investisiya fəallığının və bu əsas üzərində iqtisadi artımın stimullaşdırılması üçün sə-

lahiyyətli dövlət strukturlarının həyata keçirdikləri qanunverici, icraedici və nəzarətedici tədbirlər sistemi nəzərdə tutulur;

dövlət, investisiya siyasətini nazirlik və idarələr vasitəsilə həyata keçirir, hökumət proqramları əsasında büdcə vəsaiti hesabına investisiyalaşdırmanın xüsusi qaydasını müəyyən edir;

ayrı-ayrı ölkələrin təcrübəsində diqqəti cəlb edən cəhətlərdən biri investorların dövlət tərəfindən müdafiə edilməsinin vasitəsi kimi «inkişaf büdcəsindən» istifadə olunmasıdır;

investisiyaların mənbələrindən biri də əsas kapitalın (əsas fondların) amortizasiyasıdır. Həm də bu, investisiyaların sabit mənbəyidir;

ölkəmizdə bazar münasibətlərinə keçidlə əlaqədar amortizasiya sistemində də yeniliklər edilmişdir. İndi amortizasiya ayırmaları aşağıdakı metodlarla hesablana bilər: 1) tezləşdirilən xətti və ya mütənasib amortizasiya ayırmaları; 2) «silinən» obyektin ilk dəyərindən çox olan əlavə amortizasiya ayırmaları; 3) xüsusi amortizasiya ayırmaları; 4) ilkin amortizasiya ayırmaları; 5) amortizasiyanın azalan qalıqdan hesablanması;

Azərbaycan iqtisadiyyatına məqsədyönlü və iri miqyaslı investisiyaların cəlb edilməsinin ən mühüm şərtləri aşağıdakılardır: 1) uzunmüddətli milli mənafelərə cavab verən dövlət investisiya siyasətinin işlənib hazırlanması; 2) investisiya siyasətinin formalaşdırılması, əlaqələndirilməsi və təmin olunması ilə bağlı aydın və dəqiq səlahiyyətlərə və vəzifələrə malik olan məhdud sayda dövlət orqanlarının mövcudluğu; 3) Azərbaycanın investisiya bazarında sabit və uzunmüddətli dövr üçün tənzimləmə qaydalarını təmin edən və bir-birinə zidd olmayan qanunvericiliyin mövcudluğu;

investisiya mühiti dedikdə, kapitalın tətbiq olunduğu ölkədəki mövcud şərait nəzərdə tutulur. Bu şəraitə siyasi, iqtisadi, maliyyə, sosial, təşkilati-inzibati və digər amillər təsir edir;

xaricə kapital ixracı investorlardan risk tələb edir. Riskləri aşağıdakı kimi təsnifləşdirmək olar: 1) bəzi sosial risklər də daxil olmaqla siyasi risklər; 2) maliyyə riskləri; 3) əməliyyatlar üzrə risklər.

tarixən çox qısa müddətdə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində ölkəmizdə xarici investorların normal fəaliyyət göstərmələrinə imkan verən əlverişli mühit yaradılmış və bu, ölkəmizə investisiya axınını sürətləndirmişdir. Lakin investisiya axınının sürətini daha da artırmaq üçün respublikamızda bu istiqamətdə aparılan siyasətin təkmilləşdirilməsinə ehtiyac vardır.

# VIII FƏSİL

# DÖVLƏTİN AQRAR SİYASƏTİ

## 8.1. Cəmiyyətin sosial-iqtisadi həyatında aqrar bölmənin rolu, onun inkişaf etdirilməsinin məqsəd və vəzifələri

Aqrar bölmə hər bir ölkənin milli iqtisadiyyatının ən mühüm sahələrindən biridir. Odur ki, ayrı-ayrı ölkələrin iqtisadi inkişaf səviyyələrinə qiymət verərkən kənd təsərrüfatını səciyyələndirən göstəricilərdən də istifadə olunur.

Müasir dövrdə ölkəmizin iqtisadiyyatında neft sektoru aparıcı rol oynasa da, aqrar bölmə çox böyük həyati əhəmiyyətə malik olan bir sahə kimi qalmaqdadır. Bu, onunla əlaqədardır ki, aqrar bölmə ölkədə iqtisadi və sosial vəziyyətə, əhalinin ərzaq məhsulları və kənd təsərrüfatı xammallarından hazırlanan istehlak mallarına, sənayenin bir sıra sahələrinin isə xammala olan tələbatının ödənilməsində, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında və deməli, cəmiyyətin sosial-iqtisadi həyatında əhəmiyyətli rol oynayır. Ona görə də hər bir ölkə, xüsusilə də inkişaf etməkdə və keçid iqtisadiyyatında olan ölkələr özlərinin təbii-iqlim potensialına uyğun gələn və ərzaq təhlükəsizliklərini təmin edə bilən aqrar bölməyə malik olmağa çalışır.

**Aqrar bölmənin inkişaf etdirilməsi uzunmüddətli proqnoz və proqramların işlənib hazırlanmasını tələb edir.** Başqa sözlə, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, onun bu sahədə asılılığının azaldılması və ya tamamilə aradan qaldırılması xüsusi konsepsiya və proqramlar əsasında həyata keçirilir. Ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olması üçün böyük hazırlıq işlərinin görüldüyü indiki şəraitdə bu, xüsusilə zəruridir.

İqtisadiyyatımızın aqrar bölməsində təsərrüfat formalarının müxtəlifliyi, məhsulların bölüşdürülməsinin bazar prinsiplərinə keçilməsi, sərbəst maddi-texniki resurslar bazarının formalaşdırılması, kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyəsi və on-

dan istifadə olunması haqqında qanunvericilik bazasının hazırlanması, qəbul edilməsi və zaman keçdikcə dəyişən şəraitə uyğun olaraq təkmilləşdirilməsi şübhəsiz ki, bu sahədə bütün işlərin yenidən qurulmasına, istehsalın səmərəliliyinin yüksəlməsinə və ölkəmizin ərzaq təzlükəsizliyinin təmin olunmasına özünün müsbət təsirini göstərəcəkdir.

**Ölkəmizin iqtisadi və sosial həyatında aqrar bölmənin oynadığı rolu statistik rəqəmlərdən aydın görmək olar.** Belə ki, hazırda ölkəmizdə yaradılan ÜDM-in 6,9%-i kənd təsərrüfatının payına düşür, məşğul əhalinin 40%-ə qədəri bu bölmədə çalışır, kənd əhalisinin ümumi gəlirlərinin 1/5 hissəsi kənd təsərrüfatı məhsullarının, mal-qara, yem və s. satışından əldə edilən gəlirlər hesabına formalaşır.

Milli iqtisadiyyatın çox mühüm sahəsi olan kənd təsərrüfatı bir-biri ilə qarşılıqlı əlaqə və asılılıq şəraitində fəaliyyət göstərən iki böyük sahədən – bitkiçilik və heyvandarlıq – ibarətdir. Onun son məqsədi cəmiyyətin bitkiçilik və heyvandarlıq məhsullarına və xammallarına olan tələbatını ödəməkdən, ixrac üçün yüksək keyfiyyətli məhsullar istehsal etməkdən və beləliklə də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına şərait yaratmaqdan ibarətdir.

**Aqrar bölmə mürəkkəb biotexnoloji sistemdir**. Burada ən mühüm təbii istehsal vasitələrindən – torpaq, su və s. – istifadə olunur. Təbii-iqlim və meteoroloji şərait təsərrüfat fəaliyyətinin nəticələrinə, istehsalın riskli xarakter daşımasına çox böyük təsir göstərir. Kənd təsərrüfatı böyük kapital və enerji tutumlu sahə olduğuna görə investorların və sahibkarların diqqətini bir o qədər də özünə cəlb etmir. Bütün bu deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında gedən sosial-iqtisadi proseslərin labüd olaraq dövlət tərəfindən tənzimlənməsi zəruriliyi meydana çıxır.

**Kənd təsərrüfatı həm də mürəkkəb sosial-iqtisadi sistemdir.** Çünki burada müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarına mənsub olan və özlərinin çoxcəhətli tələbatları və mənafeləri ilə fərqlənən müəssisələr, bazar subyektləri fəaliyyət göstərir. Odur ki, bu sahədəki bütün subyektlərin vahid tam halında, məq-

sədyönlü və səmərəli fəaliyyət göstərməsi, onların hüquq bərabərliklərinin təmin olunması dövrün ən vacib məsələsidir.

Dövlətin aqrar siyasəti ölkənin sabit inkişaf edən və rəqabət qabiliyyətli, ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd və şəhər əhalisinin həyat səviyyəsi və sosial infrastrukturunun yaxşılaşmasına imkan verən kənd təsərrüfatının yaradılmasına yönəldilməlidir.

Təbii-iqtisadi şəraitin müxtəlifliyi ilə əlaqədar olaraq ayrı-ayrı regionlara münasibətdə və istehsalın səmərəli yerləşdirilməsində sosial-iqtisadi siyasətin formalaşmasına da fərqli yanaşmaq lazımdır. Hazırda, ölkəmizdə bir tərəfdən bazar münasibətlərinin, digər tərəfdən isə sahə və ərazi məqsədli proqramların həyata keçirilməsi əsasında onların tənzimlənməsi mexanizmlərinin təsiri ilə kənd təsərrüfatı sahələrinin yerləşdirilməsi və ixtisaslaşdırılmasında çox böyük dəyişikliklər baş verir.

Uzunmüddətli perspektivdə kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində qarşıda duran ümdə vəzifə bütün əhali qruplarını onlar üçün münasib və arzuedilən məhsullarla təmin etməkdən, habelə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması tələblərinə cavab verə bilən sabit və iqtisadi cəhətdən özünü doğruldan kənd təsərrüfatının formalaşdırılmasından ibarətdir.

**Bu məqsədə aşağıdakı tədbirlərin həyata keçirilməsi yolu ilə nail olmaq mümkündür:**

- bazar prinsipləri ilə dövlət tərəfindən tənzimləmənin əlaqələndirilməsinə əsaslanan kənd təsərrüfatı üzrə səmərəli fəaliyyət mexanizminin yaradılması;
- kənd təsərrüfatı istehsalının səmərəliliyi və onun rəqabət qabiliyyətinin yüksəldilməsində elmin və elmi-texniki tərəqqinin rolunun gücləndirilməsi;
- ölkənin kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarında əmtəə istehsalçıları üçün əlverişli şərait yaradan və himayədarlığa əsaslanan xarici iqtisadi siyasət yeridilməsi;
- aqrar bölmənin istehsal potensialından istifadənin səmərəsinin yüksəldilməsinə, inteqrasiya və kooperasiya proseslərinin inkişaf etdirilməsinə yönəldilən torpaqla bağlı lazımi işlərin görülməsi;

- kənd əhalisinin gəlirlərinin artırılmasına və kənddə sosial infrastrukturun inkişaf etdirilməsinə yönəldilən sosial siyasətdə köklü dəyişikliklərin edilməsi.

**Beləliklə, kəndin sosial inkişafına yeni prizmadan yanaşmaq lazımdır.** Başqa sözlə, kəndə yalnız fəaliyyət göstərilən böyük ərazi kimi deyil, əhalinin böyük bir hissəsinin yaşadığı və öz əməklərini sərf etdikləri bir mühit kimi baxmaq lazımdır. Elə şərait yaratmaq lazımdır ki, kənddə yaşayan əhali təkcə torpaqla bağlı olmasın, digər fəaliyyət növləri ilə də məşğul ola bilsin, şəhər əhalisi ilə eyni həyat şəraitinə malik olsun. Əgər belə olarsa, onda kənddən şəhərə axın olmaz, əksinə, inkişaf etmiş ölkələrdəki kimi adamlar şəhərdən kəndə qayıdar, özləri üçün münasib həyat şəraiti yaradar, şəhərlər «yükdən» azad olar, iqtisadiyyat hərtərəfli inkişaf edər, bütün bunlar həm də kənddə sahibkarlığın inkişaf etdirilməsinə, fermer təsərrüfatları üçün daha əlverişli şərait yaradılmasına, ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına imkan verər.

**Kənd təsərrüfatının inkişaf etdirilməsi onunla bağlı olan aşağıdakı sahələrin inkişaf səviyyəsindən asılıdır:**

1) kənd təsərrüfatını, yeyinti və ət-süd sənayesini, tədarük sistemini istehsal vasitələri (investisiya əmtəələri) ilə təmin edən sənaye sahələrinin toplusu;

2) kənd təsərrüfatı xammallarının tədarükünü, yüklənməsi-boşaldılması və daşınmasını, saxlanması və emalını təmin edən sahə və istehsalatların toplusu.

Adları çəkilən sahələrlə kənd təsərrüfatı birlikdə Aqrar Sənaye Kompleksini (ASK) əmələ gətirir.

ASK-nın bütün sahələrində isə təkrar istehsal prosesinə istehsal infrastrukturu sahələri xidmət edir.

## 8.2. Aqrar-sənaye kompleksi və onun inkişaf strategiyası

ASK-nın formalaşması və böyük nailiyyətlər qazanmasında inkişaf etmiş ölkələrin təcrübəsi diqqətəlayiqdir. Bu ölkələrdə

sahələrarası kooperasiyanın inkişafı ona gətirib çıxarmışdır ki, ASK çərçivəsində istehsal olunan məhsulların dəyərində kənd təsərrüfatına xidmət edən sənaye sahələri və istehsalatların xüsusi çəkisi fasiləsiz olaraq yüksəlir. Qərb ölkələrinin aqrobizneslərinin xüsusiyyəti onların əsas etibarilə ərzaq istehsalına istiqamət götürmələridir. Bəzi ölkələrdə kənd təsərrüfatı texnikasının bir çox baza növləri (traktorlar, kombaynlar) idxal olunur, həmin ölkələrin özləri isə texnikanın digər növlərini ixrac edə bilirlər. Şimali Amerika və Qərbi Avropa ölkələri keçən əsrin 80-ci illərində bir çox kənd təsərrüfatı məhsulları – taxıl, şəkər, yağ və ət ilə özlərini təmin etmək sahəsində yüksək nəticələrə nail olmuşlar. Bütövlükdə, inkişaf etmiş ölkələr dünyada istehsal olunan yağlı və dənli bitkilərin 1/3 hissəsini, ətin demək olar ki, 40%-ni öz əllərində cəmləşdirmişlər. Bu nailiyyətlərin qazanılmasında kənd təsərrüfatında təsərrüfatçılığın müxtəlif formalarının, birinci növbədə fermer təsərrüfatlarının və qanunvericilik bazasının yaradılması mühüm rol oynamışdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar bölmədə təsərrüfatçılığın əsas forması fermer təsərrüfatlarıdır. Ona görə də ölkəmizdə ASK-da təsərrüfatçılığın çoxnövlülüyünə, onların normal fəaliyyət göstərmələri üçün hüquqi bazanın yaradılmasına və qabaqcıl təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Kənd təsərrüfatında aparılan islahatların nəticəsində təsərrüfatçılığın müxtəlif formaları əmələ gəlmişdir ki, bunların içərisində də əsas yeri kəndli (fermer) təsərrüfatları tutur. 2004-cü il yanvarın 1-nə olan məlumata görə ölkəmizdə 2607 kəndli (fermer) təsərrüfatları fəaliyyət göstərir.

**Ölkəmizdə ASK-nın inkişaf strategiyasının işlənib hazırlanması üçün çox mühüm sənədlər** Azərbaycan Respublikasının «Torpaq məcəlləsi», «Kəndli (fermer) təsərrüfatı haqqında», «Aqrar islahatın əsasları haqqında», «Torpaq vergisi haqqında» qanunlarıdır. Bu qanunlar torpaq münasibətlərini, torpaq üzərində mülkiyyəti və ondan istifadə üçün hüquqi bazanın yaradılmasını özlərində əks etdirirlər. Və torpaqda aparılan səmərəli təsərrüfatçılıq modellərinin formalaşdırılması bu qanunlarda nəzərdə tutulan müddəaların necə yerinə yetirilməsindən asılıdır.

Fermer təsərrüfatları müəyyən şəraitdə iqtisadi cəhətdən faydalıdır. Lakin qeyd etmək lazımdır ki, xırda fermer təsərrüfatları qabaqcıl texnika və ən yeni texnologiyalardan istifadə etmək iqtidarında deyillər. İri kənd təsərrüfatı istehsalı isə bütün istehsal amillərindən daha səmərəli istifadə etmək imkanına malikdir. Odur ki, inkişaf etmiş ölkələrdə aqrar bölmədə fermer təsərrüfatları arasında kooperasiya və inteqrasiya prosesləri baş verir, müəssisələr tədriclə fərdi təsərrüfat olmaqdan çıxır, tərəfdaşlıq təsərrüfatlarına və ya aqrokooperasiyaya çevrilirlər. Fermer təsərrüfatları məişət, istehlak, kredit ittifaqlarında, elektrikləşdirmə assosiasiyalarında, texnikadan birgə istifadə olunması və onun təmiri, hətta torpağın birgə becərilməsi üzrə kooperativlərdə birləşirlər. Kooperativ şirkətləri çərçivəsində fermer təsərrüfatları intensiv texnologiyaya yiyələnir və öz məhsullarının emalı ilə məşğul olan müəssisələrlə inteqrasiyaya girirlər. Keçən əsrin 90-cı illərində ABŞ-da bütün fermerlərin 2%-dən azını təşkil edən iri fermerlərin bazarlara göndərdikləri məhsullar ölkədə istehsal olunan bütün əmtəəlik məhsulun 42%-ni təşkil etmişdir. Ölkəmizin kənd təsərrüfatında son 10-15 il ərzində əsas diqqət (elə indinin özündə də) iri təsərrüfatların deyil, xırda əmtəə istehsalı bölməsinin inkişaf etdirilməsinə yönəldilmiş, islahatların gedişində buraxılan bir sıra nöqsanlar ASK-nın fəaliyyətinin nəticələrinə mənfi təsir etmişdir. Bu proseslər kənd təsərrüfatı ilə emaledici müəssisələr arasındakı əlaqələrin pozulması və investisiya fəaliyyətinin pisləşməsi ilə müşayiət olunmuşdur. Bunun nəticəsində isə mümkün olan qədər kənd təsərrüfatı məhsulları və xammalları istehsal edilməmişdir.

**Azərbaycanda vaxtilə müxtəlif növ gübrələr** (kalium, fosfor və s.) istehsal olunurdu. Keçid prosesləri ilə əlaqədar ölkədə baş verən ümumi tənəzzül nəticəsində gübrə istehsalı da dayandırılmış, gübrə satın alınması işi isə yaxşı təşkil olunmamışdı. Bunun nəticəsində son dövrlərədək sahələrə verilən mineral və üzvi gübrələrin miqdarı xeyli azalmışdı. Kənd təsərrüfatı texnikasının azlıq etməsi isə məhsul itkisinə səbəb olurdu. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılmış və hazırda fəaliyyət göstərən «Aqrolizinq» şirkəti bu problemlərin həlli üçün

məqsədyönlü iş aparır, konkret tədbirlər görüb həyata keçirir. Bu sahədə nəzərə çarpan nöqsanların aradan qaldırılmasında Azərbaycan Respublikasında 2002-2006-cı illərdə aqrar bölmənin inkişaf etdirilməsinə dair proqramda, habelə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda (2004-2008-ci illər) nəzərdə tutulan müddəaların yerinə yetirilməsi çox mühüm rol oynayacaqdır.

**Dünya təcrübəsi göstərir ki,** kənd təsərrüfatı texnikasını satın almaq üçün kiçik torpaq mülkiyyətçilərinin vəsaiti azlıq edir, onlar bunu kredit hesabına satın almağa cəhd göstərdikdə isə çox ağır yük altına girmiş olurlar. Bəzi hallarda isə kiçik torpaq sahiblərinə xidmət göstərən subyektlər inhisarçı mövqeyinə yiyələnməklə, həmin təsərrüfatları çıxılmaz vəziyyətə salmağa cəhd göstərirlər. Bunlara ilk növbədə göstərilən xitmətlərin qiymətlərinin əsassız olaraq yüksək müəyyən olunması, texnoloji əməliyyatların optimal müddətdə və lazımi keyfiyyətdə yerinə yetirilməməsi aiddir. Ona görə də inkişaf etmiş ölkələrdə belə hallarda dövlət, kiçik torpaq sahiblərinin «köməyinə çatır».

Bütün bu xoşagəlməz hallar təbiidir ki, bizdə də baş verir və dövlət onun qarşısının alınması üçün müvafiq tədbirlər görür. **Ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi** və onu ifadə edən göstəricilərin malik olduğu təbii- iqlim şəraitinin yaratdığı imkanlara uyğunluğunun təmin olunması sahəsində həlledici nailiyyətlərin qazanılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- ASK daxilində iqtisadi münasibətlərin təkmilləşdirilməsi, başqa sözlə, üfiqi və şaquli inteqrasiya strukturlarının yaradılması;
- kənd təsərrüfatının təkcə iqtisadiyyatın sahələrindən biri kimi deyil, həm də cəmiyyətin sosial-iqtisadi həyatının əsas sahəsi və bununla əlaqədar olaraq dövlət siyasətinin başlıca obyekti kimi nəzərdən keçirilməsi;
- dövlət tərəfindən tənzimləmənin kənd təsərrüfatının və ərzaq bazarlarının səmərəli fəaliyyət göstərməsinin zəruri «aləti» olduğunun qəbul edilməsi. Çünki kənd təsərrüfatında istehsalın nəticələri xeyli dərəcədə bundan asılıdır. Bundan başqa yerli is-

tehsalçıların himayə olunması sahəsində bazar mexanizmləri dövlət siyasəti ilə tamamlanmalıdır;

- kəndlilərin mənafeyinin müdafiəsində duran və icra hakimiyyəti ilə tərəfdaşlıq edən sahə assosiasiya və ittifaqlarına xüsusi əhəmiyyət verilməsi. Bu məqsədlə ölkələrin əksəriyyətində aqrar siyasət üzrə xüsusi şura yaradılır və o, düzgün iqtisadi siyasət yeridilməsi üçün məsuliyyət daşıyır.

Ölkənin ərzağa və xammala olan tələbatının ödənilməsində ASK-nın rolu daim artır. Odur ki, dövlətin aqrar siyasəti kənd təsərrüfatında nəzərə çarpan nöqsanların aradan qaldırılmasına, ixrac əhəmiyyətli sahələrin daha sürətlə inkişaf etdirilməsinə, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəldilməlidir.

## 8.3. Aqrar-sənaye kompleksində dövlət tənzimləməsinin istiqamətləri, metodları və mexanizmləri

Qərb ölkələrində iqtisadiyyatın mühün sahələrindən biri olan kənd təsərrüfatı dövlət tərəfindən müdafiə olunur. İstehsalın bu sahəsində azad bazarın formalaşmasının əsas prinsipi – tələblə təklif arasındakı nisbət – dövlət tərəfindən tənzimləmə ilə tamamlanır.

Dövlət tərəfindən hər il ən mühüm kənd təsərrüfatı məhsullarının qiymətləri müəyyən edilir və lazım gəldikdə yenidən nəzərdən keçirilir. Bununla da istehsalçılar qiymətlərin kəskin surətdə aşağı düşməsindən müdafiə olunur, bir o qədər də zərər çəkmirlər. Digər tərəfdən, daxili bazar ucuz idxal məhsullarından qorunur. Ona görə də Avropa ittifaqına daxil olan ölkələrdə qida məhsullarının qiymətləri dünya bazarlarındakı qiymətlərə nisbətən xeyli yüksəkdir.

Aqrar siyasətlə əlaqədar olan xərclər dövlət büdcəsindən ödənilir və inkişaf etmiş ölkələrdə bazar iqtisadiyyatı şəraitində ASK-nın tənzimlənməsi çoxcəhətli xarakter daşımaqla, bütün kənd təsərrüfatı istehsalçıları dövlət tərəfindən müdafiə olunur.

Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalına çəkilən xərclərin Almaniyada, Kanadada, ABŞ-da və Fransada 42-52%-i, Skandinaviya ölkələrində isə 60-80%-i dövlətin payına düşür.

**Avropa İttifaqına üzv olan ölkələrdə kənd təsərrüfatı məhsullarının dövlət tədarükü fəaliyyət göstərir**, ərzaq məhsullarının ixracı və idxalı tənzimlənir, əsas kənd təsərrüfatı məhsulları istehsalına kvota müəyyənləşdirilir, ərzaq bazarlarının sabitləşməsini təmin edən qiymətlərdən istifadə olunur, məhsulların emalı və reallaşdırılması sisteminin yenidən qurulması ilə əlaqədar həyata keçirilən tədbirlər üçün subsidiyalar ayrılır, infrastrukturun yaradılmasına, kənd yerlərinin abadlaşdırılması və ətraf mühitin mühafizəsinə kömək göstərilir. Avropa İttifaqına daxil olan ölkələrdə büdcədən ayrılan subsidiyalar fermer təsərrüfatları gəlirlərinin 50%-dən çoxunu təşkil edir.

Bütün bunlar, habelə bu sahədə mövcud olan iqtisadi ədəbiyyatla tanışlıq və aparılan şəxsi müşahidələr ölkəmizdə dövlətin aqrar bölmədə tənzimləyici funksiyalarının aşağıdakı istiqamətlərdə həyata keçirilməsinin məqsədəuyğunluğunu deməyə əsas verir:

1) tənzimləmənin qanunvericilik bazasının və hüquqi təminatının zaman keçdikcə qabaqcıl təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi. Doğrudur, bu sahədə ölkəmizdə bir sıra işlər görülmüş və qanunvericilik bazası yaradılmışdır. Buna **Azərbaycan Respublikasının «Torpaq məcəlləsi», «Kəndli (fermer) təsərrüfatı haqqında», «Aqrar islahatın əsasları haqqında», «Torpaq vergisi haqqında»** Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi sənədləri misal ola bilər. Lakin bunların təkmilləşdirilməsinə ehtiyac vardır;

2) bütün aqrar bazarlarda rəqabət mühitinin daha da təkmilləşdirilməsi, haqsız rəqabətə, ölkə ərazisində kənd təsərrüfatı məhsullarının sərbəst hərəkətinə mane olan inhisarçılığa qarşı ardıcıl və qətiyyətlə mübarizə aparılması. Bu, ASK-da son gəlirin, onun hər bir həlqəsində sərf olunan xərclərə mütənasib bölüşdürülməsinə imkan verə bilər. Bundan başqa qiymətlərdəki ədalətsizliyin ləğv edilməsi üçün energetika kompleksi, nəqliyyat

və rabitə müəssisələri fəaliyyətinin tənzimlənməsində dövlətin rolunun gücləndirilməsinin hüquqi əsasları olmalıdır;

3) ASK-da sabitliyin təmin olunması, əmtəə istehsalçılarının bazar mühitinə uyğunlaşmaları üçün hər cür şəraitin yaradılması. Bununla əlaqədar olaraq dövlət tənzimləməsinin əsas vəzifəsi kənd təsərrüfatı məhsulları və xammallarına olan tələbin sabitliyinin qorunub saxlanmasından ibarətdir. Dövlət, ASK məhsullarının qiymətlərinin tənzimlənməsi və dövlət sifarişi vasitəsilə ayrı-ayrı əhali qrupları gəlirlərinin formalaşmasına təsir etməklə həm də əhalinin tədiyə qabiliyyətinin dəyişməsinə təsir göstərmiş olur;

4) Məqsədyönlü himayədarlıq siyasətinin yeridilməsi, gömrük tarifləri, idxal olunan ərzaq məhsullarına qoyulan vergilərin və digər tədbirlərin köməyi ilə ərzaq təhlükəsizliyinin təmin edilməsi;

5) Xarici investorlar üçün daha əlverişli mühitin təmin olunması, ASK çərçivəsində birgə müəssisələrin yaradılması, qabaqcıl texnika və texnologiyaların idxalı zamanı xarici kreditorlar üçün dövlət təminatının verilməsi;

6) ASK-nın ən ümdə problemləri üzrə elmin inkişaf istiqamətlərinin maliyyələşdirilməsi, dünya standartlarına cavab verən yeni texnologiyaların yaradılması sahəsində investisiya layihələrinin maliyyələşdirilməsində iştirakın təmin olunması.

Bazar iqtisadiyyatını səciyyələndirən əsas ünsürlərdən biri qiymətlərdir. Lakin qeyd etmək lazımdır ki, hazırda kənd təsərrüfatı məhsullarının dövlət alış qiymətləri onların istehsal xərclərini ya ödəmir, ya da güc-bəla ilə ödəyir. Deməli, bu sahədə qiymətlərin tənzimlənməsinə ehtiyac vardır. Bunun başlıca səbəbi kimi istehsalçılar enerji daşıyıcılarının, texnikanın qiymətlərinin, nəqliyyat tariflərinin, zərərvericilərə qarşı mübarizə vasitələrinin, gübrələrin qiymətlərinin, xidmət haqqının yüksək olmasını göstərirlər. Odur ki, bu sahədə ölçülüb-biçilmiş qiymət siyasəti yeridilməsi, kənd təsərrüfatına subsidiyaların verilməsi məqsəduyğundur.

**Kənd təsərrüfatında** fəaliyyət göstərən iqtisadi vahidlərin inhisarçı davranışlarına qarşı **antiinhisar siyasəti** yeridilməsinin də çox böyük əhəmiyyəti vardır. Antiinhisar siyasəti təsərrüfatçılıq edən subyektlərin inhisarçı davranışları ilə mübarizə aparılması deməkdir. Müəssisələrin kiçik olması bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mövcud texnoloji komplekslərə zərbə vurur. Çünki müəssisələrin sayının artırılması rəqabətin təmin olunması demək deyildir. Əksinə, əməliyyatlarda vasitəçilik edən firmaların sayının çox olması inflyasiyanın əsas səbəblərindən biridir. Ona görə ki, vasitəçilərin sayı artdıqca qiymətlər də yüksəlir. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmizdə aqrar bazar sağlam prinsiplər əsasında yaradılsa, məhsul istehsalının, birinci növbədə ixrac üçün məhsul istehsalının artırılması imkanları da çoxalmış olar.

Avropa İttifaqına daxil olan ölkələrdə məqsədli proqramların həyata keçirilməsi və ASK-nın müdafiə olunması ilə əlaqədar digər tədbirlərə sərf edilən xərclər dövlət büdcəsində 30% təşkil edir. Bu isə dövlətin ASK-nın inkişaf etdirilməsinə xüsusi diqqət yetirdiyini, büdcədən xeyli vəsait ayırdığını göstərir.

**ASK-nın inkişaf etdirilməsi ilə əlaqədar ən mühüm məsələlərdən biri də düzgün vergi və kredit siyasətinin yeridilməsidir.** ASK-ya daxil olan müəssisələrdən vergilər Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən alınır və onlara müəyyən güzəştlər edilir. Məsələn, artıq ikinci beşillikdir ki, kəndli (fermer) təsərrüfatlarından bircə vergi – yalnız torpaq vergisi alınır.

Kənd təsərrüfatında istehsal prosesləri mövsümi xarakter daşıdığına görə dövriyyə vəsaitləri, birinci növbədə bitməmiş istehsalla bağlı onun güzəştli kreditləşdirməyə ehtiyacı vardır. Obyektivlik naminə qeyd etmək lazımdır ki, kənd təsərrüfatı yüksək rentabelli sahə olmadığına görə onun uzunmüddətli kreditləşdirilməsində də müəyyən güzəştlər nəzərdə tutulmalıdır.

**Dünya təcrübəsində isə kənd təsərrüfatının kreditləşdirilməsinin təşkilinə bir neçə yanaşma vardır.** Kənd təsərrüfatının güzəştli şərtlərlə kreditləşdirilməsi kooperativ kənd təsərrüfatı bankları, dövlət bankları, dövlətin nəzarəti altında ixtisaslaşdırılmış bank-

lar tərəfindən həyata keçirilir. Bazarda adekvat olan maliyyə-kredit sisteminə isə qiymətlərə görə dotasiya və kompensasiyaların verilməsi, güzəştli şərtlərlə ayrılan pul krediti, kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi üçün büdcədən verilən subsidiyalar daxildir.

**Dövlətin aqrar siyasəti ilə bağlı ən mühüm məsələlərdən biri də** ASK-nın inkişaf etdirilməsi ilə əlaqədar proqnozların hazırlanması və onların elmi cəhətdən əsaslandırılmasıdır. **Bu məqsədlə aşağıdakı metodlardan istifadə olunur:**

1) proqram-məqsədli metod;
2) balans metodu;
3) normativ metod.

Ölkəmizdə keçmiş SSRİ dönəmində toplanmış çoxillik təcrübə və xarici ölkələrdə ASK-da proqram-məqsədli planlaşdırmanın müasir təcrübəsinə əsasən belə bir tənzimləmə mexanizmi işlənib hazırlanmışdır. ABŞ-da aqrar-sənaye kompleksi çərçivəsində Federal büdcədən maliyyələşdirilən məqsədli proqramlar və aqrar bölmənin müdafiə olunması üçün hər il on milyard dollarlarla (tədarük qiymətlərinin subsidiyalaşdırılması və dövriyyə vəsaitlərinin kreditləşdirilməsi üçün ayrılan vəsait istisna olmaqla) vəsait ayrılır.

**ASK sahələrinin inkişaf etdirilməsində mütənasibliyi təmin etmək üçün balans metodundan istifadə olunur.** Bu metodun köməyilə istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi ilə kənd təsərrüfatının maddi-texniki təchizat səviyyəsi, emal olunan kənd təsərrüfatı məhsullarının həcmi ilə emaledici sənayenin gücü, habelə onunla ASK-nın inkişaf etdirilməsinə kapital qoyuluşu arasındakı tarazlıq təmin edilir.

**ASK-nın balans sisteminə aşağıdakılar daxildir:** əsas kənd təsərrüfatı məhsullarının istehsalı və istifadəsinin maddi balansları (taxıl balansı, ət balansı və i.a.), istehsal gücləri balansları, ASK-nın sahələrarası balansı və s. ASK-ya uyğun işlənib hazırlanmış dinamik modellərin köməyilə onun sahələri arasındakı əlaqələr və onların tarazlı inkişafı təmin olunur. Bunlara əsasən həmçi-

nin ASK-nın kapital qoyuluşuna, əmək ehtiyatları və maddi resurslara olan tələbatını müəyyən etmək olar.

**Taxıl, xüsusilə də ərzaqlıq taxıl** ərzaq təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynadığına görə taxıl balansını bir qədər ətraflı nəzərdən keçirmək lazımdır. Çünki ölkəmizin ərzaq təminatı məsələsində taxıla olan tələbatın ödənilməsi xüsusi yer tutur. Bu, digər amillərlə yanaşı, həm də Azərbaycan xalqının milli adət-ənənəsi, çörəyə olan münasibəti ilə əlaqədardır. Etiraf etmək lazımdır ki, Azərbaycan Respublikasının taxıl istehsalını artırmaq və ona olan tələbatı ödəmək üçün hər cür şəraiti olduğu halda, hələlik bu sahədə işlərin tələb olunan səviyyədə getdiyini demək olmaz. Belə ki, ölkəmizin hər il təqribən 3 mln. ton ərzaqlıq taxıla ehtiyacı olduğu halda, 2,0-2,3 mln. ton çivarında məhsul istehsal olunur.

Ölkənin ərzaqlıq taxıla olan tələbatını müəyyən edərkən onun əhalinin digər yeyinti məhsulları ilə təmin olunma səviyyəsi ilə birbaşa bağlı olduğunu nəzərə almaq lazımdır.

**Taxıl balansı kənd təsərrüfatı ili (cari ildə iyulun 1-dən gələn il iyulun 1-dək olan müddət) üzrə, başqa sözlə, «məhsuldan-məhsula» dövrünü əhatə edən müddət üzrə işlənib hazırlanır.** Taxıla olan tələbatın müəyyən edilməsinə müxtəlif yanaşmalar vardır. İnkişaf etmiş ölkələrdə adambaşına taxıl istehsalı norması 700 kq-dək müəyyən olunmuşdur. Keçmiş SSRİ-də adambaşına taxıl istehsalı norması 820-850 kq müəyyən olunmuşdu və onun 1 tona çatdırılması nəzərdə tutulmuşdu. Ümumi taxıl yığımı (daxili resurslar) aşağıdakı məqsədlər üçün istifadə olunur:

1) toxumluq taxıl;

2) un, yarma, pivə, spirt, nişasta və i.a. istehsal etmək üçün lazım olan taxıl;

3) yemlik taxıl.

Bazar iqtisadiyyatı şəraitində tərtib olunan taxıl balansı hesablama xarakteri daşıyır və o, taxıl istehsalı, habelə ona olan tələbat haqqında təsəvvür verir və bunun əsasında dövlətin taxıl siyasətinin istiqamətləri müəyyən olunur. Taxıl balansının sxemi aşağıdakı kimidir:

**Taxıl balansının sxemi (mln. ton)**

| Ehtiyatlar | İstifadəolunma |
|---|---|
| İlin əvvəlinə olan ehtiyat<br>ümumi yığım<br>idxal<br>Dövlətin toxunulmaz taxıl ehtiyatı | Kənd təsərrüfatı istehsalında<br>o cümlədən:<br>toxum<br>yem<br>ərzaq kimi istehlakolunma<br>sənayedə emalolunma<br>itkilər<br>ixrac<br>ilin axırına olan ehtiyat<br>dövlətin toxunulmaz ehtiyatına əlavələr |

Balansın «ehtiyatlar» hissəsində ölkədə istehsal olunan taxıldan bütün daxilolmalar və idxal üzrə- istehsalçılarda olan taxıl qalığı nəzərdə tutulur. Balansın «istifadəolunma» hissəsində ərzaq istehsalı, habelə toxum və yem məqsədi ilə bütün istehlakçıların istifadə etdikləri taxıl öz əksini tapır.

**Taxıl balansının ən az əlavə xərclərlə «əlavə məhsul hesabına» artırılması mənbələri mövcuddur** ki, bunlar da ərzaqlıq taxılın keyfiyyətinin yüksəldilməsindən, onun sənaye üsulu ilə emalının təkmilləşdirilməsindən, taxıl itkisinin azaldılmasından, səpin materialının və dənli bitkilərin sortunun yaxşılaşdırılmasından, qarışıq yem istehsalı müəssisələrində yemlik taxılın emalında ən yeni texnologiyalardan istifadə etmək yolu ilə qənaət əldə olunmasından və s. ibarətdir.

**Taxıldan istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi üçün ən böyük ehtiyat mənbəyi ondan yem məqsədi ilə istifadə olunması maddəsindədir**. Bu, onunla əlaqədardır ki, taxıldan mal-qaranın yemləndirilməsi üçün birbaşa yem kimi istifadə olunmasına nisbətən ona müəyyən əlavələr qatmaqla yem kimi istifadə olunması daha sərfəlidir. Bundan başqa, mal-qaranın məhsuldarlığının yüksəldilməsi yolu ilə heyvandarlığın səmərəliliyinin artırılması da olduqca vacibdir. Toxumçuluq işinin əhəmiyyətli dərəcədə

yaxşılaşdırılması məhsuldarlığın yüksəlməsinə imkan verər ki, bu da toxum məqsədi üçün istifadə olunan taxıla qənaət edilməsi deməkdir.

**Taxıl ehtiyatlarının artırılmasının əsas mənbələrindən biri də itkinin azaldılmasıdır.** İtki dedikdə, taxılın qurudulması, yığılması, təsərrüfatlarda, tədarük təşkilatlarında saxlanması, emalı və daşınması zamanı onun fiziki çəkisinin azalması nəzərdə tutulur. Taxıl itkisi, onun keyfiyyətinin pisləşməsi məhsul yığımında istifadə olunan texniki vasitələrin, onun saxlanması və emalının maddi-texniki bazasının qeyri-təkmil və nöqsanlı olması ilə əlaqədardır. Texniki və yem məqsədləri üçün nəzərdə tutulan taxıldan səmərəli istifadə edilməsi, çörəkbişirmədə ən yeni texnologiyaların tətbiqi, heyvandarlıq məhsulları vahidinə yem sərfinin azaldılması taxıl idxalının əhəmiyyətli dərəcədə ixtisar olunmasına imkan vermiş olar.

Uzunmüddətli perspektivdə ASK məhsullarının həcmi əhalinin elmi cəhətdən əsaslandırılmış normalarla yüksək keyfiyyətli məhsullara olan tələbatının ödənilməsi və onun çeşidinin genişləndirilməsi vəzifələri ilə müəyyən edilir.

**ASK məhsulları istehsalının ümumi həcmi müəyyən olunarkən, onu əsaslandırmaq üçün aşağıdakı proqnoz məlumatlarından istifadə olunur:**

1) əhalinin sayı, onun demoqrafik strukturu;

2) istehlak fondunun natural formada strukturu, qida məhsulları istehlakının elmi cəhətdən əsaslandırılmış və qeyri-ərzaq məhsulları istehlakının səmərəli normaları;

3) əhalinin gəlirlərinin və istehlak malları qiymətlərinin dəyişməsindən asılı olaraq istehlakın strukturunun dəyişməsi;

4) dünya qiymətlərinin dəyişməsi ilə əlaqədar proqnozlar nəzərə alınmaqla sənaye və kənd təsərrüfatı məhsullarının ixracı və idxalı.

Kənd təsərrüfatı məhsullarına olan tələbatın həcmi və strukturunu müəyyən etmək üçün adambaşına qida və qeyri-ərzaq məhsulları istehlakının tövsiyə olunan səmərəli normalarından istifadə edilir. Kənd təsərrüfatı istehsalının planlaşdırılmasında

toxum, yem, gübrə və s. maddi ehtiyatlar sərfi normalarından da istifadə olunur.

## NƏTİCƏ

aqrar bölmə hər bir ölkənin milli iqtisadiyyatının ən mühüm sahələrindən biri olmaqla, cəmiyyətdə iqtisadi və sosial vəziyyətə, əhalinin ərzaq məhsulları və kənd təsərrüfatı xammallarından hazırlanan istehlak mallarına, sənayenin bir çox sahələrinin isə xammala olan tələbatının ödənilməsində və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır;

aqrar bölmə bir tərəfdən mürəkkəb biososioloji, digər tərəfdən isə sosial-iqtisadi sistemdir. Belə ki, iqtisadiyyatın bu sahəsində ən mühüm təbii investisiya əmtəələri (istehsal vasitələri) olan torpaqdan, sudan və s-dən istifadə olunur, təbii-iqlim və meteoroloji şərait istehsalın riskli xarakter daşımasına, təsərrüfat fəaliyyətinin nəticələrinə təsir edir, digər tərəfdən isə burada müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarına mənsub olan və özlərinin çoxcəhətli tələbatları və mənafeləri ilə fərqlənən iqtisadi vahidlər fəaliyyət göstərir;

kəndin sosial inkişafına yeni prizmadan yanaşmaq lazımdır. Çünki kənd keçən əsrin ortalarındakı kənd, yalnız əhalinin fəaliyyət göstərdiyi ərazi deyildir, o həm də əhalinin böyük bir hissəsinin məskunlaşdığı və öz əməklərini tətbiq etdikləri bir məkandır. Elə etmək lazımdır ki, kənd və şəhər əhalisinin həyat şəraiti arasındakı fərq aradan qaldırılsın və onlar bir-birilə eyniyyət təşkil etsin. Bu, bir çox problemlərin həllində çox mühüm rol oynaya bilər;

kənd təsərrüfatını, yeyinti və ət-süd sənayesini, tədarük sistemini investisiya əmtəələri (maşın və avadanlıqlar, dəzgah və cihazlar və i.a.) ilə təmin edən sənaye sahələri; kənd təsərrüfatı xammallarının tədarükü, yüklənməsi, boşaldılması və daşınması, saxlanması və emal olunmasını həyata keçirən sahə və istehsalatlar, habelə kənd təsərrüfatının özü – bütün bunlar üçü bir yerdə Aqrar Sənaye Kompleksini (ASK) əmələ gətirir;

ASK-nın formalaşması və böyük uğurlar qazanmasında inkişaf etmiş ölkələrin təcrübəsi diqqətəlayiqdir. Bu sistemdə fermer təsərrüfatları xüsusi yer tutur. Odur ki, ölkəmizdə kəndli (fermer) təsərrüfatlarının inkişaf etdirilməsi və onlara qayğı göstərilməsi sahəsində həmin ölkələrin təcrübəsindən istifadə edilməsi məqsədəuyğundur;

ölkəmizin ərzaq məhsullarına və xammallara olan tələbatının ödənilməsində ASK-nın rolu daim artır. Ona görə də dövlətin aqrar siyasəti kənd təsərrüfatında nəzərə çarpan nöqsanların aradan qaldırılmasına, bazar subyektlərinin fəaliyyətini tənzimləyən hüquqi bazanın təkmilləşdirilməsinə, ixrac yönümlü sahələrin üstün inkişaf etdirilməsinə və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində aparılan işlərin məqsədyönlü məcraya salınmasına yönəldilməlidir;

qərbin inkişaf etmiş ölkələrində kənd təsərrüfatı dövlət tərəfindən xüsusi qayğı ilə əhatə olunmuşdur. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalına sərf olunan xərclərin Almaniyada, Kanadada, ABŞ-da və Fransada 42-52%-i, Skandinaviya ölkələrində isə 60-80%-i dövlətin payına düşür;

Avropa İttifaqına daxil olan ölkələrdə ASK-nın müdafiə olunması və inkişaf etdirilməsi ilə əlaqədar məqsədli proqramlar həyata keçirilir, güzəştli kreditləşdirmə, subsidiyaların verilməsi sistemindən geniş istifadə olunur;

ASK-nın normal fəaliyyət göstərməsində təsərrüfat subyektlərinin inhisarçı davranışlarına qarşı antiinhisar siyasəti yeridilməsinin çox böyük əhəmiyyəti vardır;

ASK-nın inkişaf etdirilməsi ilə əlaqədar proqnozların hazırlanması və onların elmi cəhətdən əsaslandırılması üçün proqram-məqsədli, balans və normativ metodlarından istifadə edilir;

ASK sahələrinin inkişaf etdirilməsində mütənasibliyi təmin etmək üçün balans metodundan istifadə olunur. ASK-nın balans sisteminə əsas kənd təsərrüfatı məhsullarının istehsalı və istifadəsinin maddi balansları (taxıl balansı, ət balansı və s.), istehsal gücləri balansları, ASK-nın sahələrarası balansı və s. daxildir.

# IX FƏSİL

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN DÖVLƏT TƏRƏFİNDƏN MÜDAFİƏ OLUNMASI SİSTEMİ

## 9.1. Kiçik və orta sahibkarlığın dövlət tərəfindən müdafiə olunmasının zəruriliyi

Çoxsahəli və mürəkkəb iqtisadi proseslərlə səciyyələnən kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi iqtisadiyyatın çox vacib bu bölməsinin fəaliyyət göstərməsi və sosial-iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün əlverişli şərait yaradılmasına yönəldilmişdir. Bununla əlaqədar olaraq əvvəlcə kiçik və orta sahibkarlığın inkişaf meyllərini, sonra isə bu sahədə dövlətin tənzimləmə sistemini nəzərdən keçirmək lazımdır.

Sahibkarlıq istehsalın xüsusi innovasiya formasıdır. O, müəyyən tarixi və sosial-iqtisadi şəraitdə həlledici üstünlüyə malik olur və bütün ictimai təkrar istehsalın dinamik inkişafını təmin edir. Biznesin xüsusi növü olan sahibkarlığın məqsədi ümumiyyətlə mənfəət deyil, əlavə mənfəət, başqa sözlə, sahibkar gəliri əldə etməkdir.

Azərbaycan Respublikasında yeni iqtsadi sistemə keçid istehsal-kommersiya fəaliyyətinin miqyasına görə sahibkarlığın müxtəlif subyektləri (kiçik, orta, iri, (korporativ) müəssisələr) arasında optimal nisbətin yaradılmasını zəruri edir.

**Kiçik və orta sahibkarlığın müəyyən edilməsi ilə bağlı kəmiyyət, keyfiyyət və qarışıq (iqtisadi) yanaşmalar bir-birindən fərqlənir.**

Kiçik müəssisələri müəyyən etmək üçün əsas etibarilə kəmiyyət göstəriciləri kimi işçilərin sayı, satışın həcmi, aktivlərin balans dəyəri meyarlarından istifadə olunur. Lakin qeyd etmək lazımdır ki, kiçik sahibkarlığın müəyyən olunmasında bunlar, habelə dövriyyə kapitalının kəmiyyəti, satış bazarlarında sahib olduğu pay kifayət qədər sanballı göstəricilər hesab oluna bil-

məz. Çünki bunlara əsasən haqqında söhbət gedən hadisəyə tam xarakteristika vermək mümkün deyildir.

**Sahibkarlığın «ölçüsünün» müəyyən edilməsinə** keyfiyyət meyarlarına əsasən yanaşmada aşağıdakılardan istiafdə edilir: istehsal olunan məhsulun (texnologiyalar, xidmətlər, nou-hau) az bir hissəsi; məhdud ehtiyatlar və istehsal gücləri; təsərrüfat fəaliyyətinin risk və innovasiya, peşəkar və çevik idarəetmə, tam iqtisadi məsuliyyət əsasında təşkili. Bu yanaşma qaydasında kiçik müəssisə dedikdə, sözün geniş mənasında onun daim inkişaf edən, dəyişikliklərə tez bir zamanda uyğunlaşa bilən, innovasiyalardan istifadə etmək imkanına malik olan subyekt nəzərdə tutulur.

İqtisadi yanaşma firmaya satılan əmtəələrin qiymətləri və həcminə əhəmiyyətli dərəcədə təsir etmək imkanı verməyən və çox da böyük olmayan satış bazarı; hüquqi sərbəstlik (mülkiyyətçi öz biznesinə özü nəzarət edir), biznesin idarə edilməsi və qərarların qəbul olunması prosesində mülkiyyətçinin özünün iştirak etdiyini nəzərdə tutan idarəetmə kimi meyarlara əsaslanır.

Müxtəlif məqsəd və vəzifələrə uyğun olaraq bu yanaşmaların hər hansı birindən istifadə olunur. İqtisadi ədəbiyyatda və təcrübədə kiçik sahibkarlıq əsas etibarilə kəmiyyət meyarlarına əsasən müəyyən edilir.

**İqtisadi ədəbiyyatda müəssisələrin həcmi adətən üç əsas əlamətlə müəyyən olunur:** 1) işçilərin sayı; 2) istehsal olunan məhsulun dəyəri; 3) əsas kapitalın (əsas istehsal fondlarının) dəyəri. Azərbaycan Respublikasının müvafiq qanunlarında və digər normativ-hüquqi sənədlərində keyfiyyət əlamətləri, məsələn, mülkiyyətin növündə müəyyən məhdudiyyətlərin qoyulması ilə tamamlanır. Kiçik sahibkarlığın subyektlərinə isə istehsal və kommersiya fəaliyyəti ilə məşğul olan və nizamnamə kapitalı müəyyən edilmiş normalara uyğun gələn təşkilatlar aiddir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kiçik sahibkarlıq çoxsaylı xırda mülkiyyətçilər təbəqəsindən ibarətdir. Bunlar xeyli dərəcədə ölkənin sosial-iqtisadi və siyasi inkişaf səviyyəsini müəyyən edir. **Ölkənin daxili bazarının demək olar ki, bütün sahələrini əhatə edən və ona yüksək dərəcədə uyğunlaşan kiçik sa-**

**hibkarlıq iqtisadiyyatın sabit inkişafını təmin edir, ölkədə siyasi mühitin sabitliyinə təsir göstərir.** Kiçik sahibkarlıq işgüzar həyatın ən çevik formasıdır. Orta və iri biznes üçün lazım olan ideyaların əsas hissəsi məhz iqtisadiyyatın bu bölməsində yaradılır və deməli, iri istehsal kiçik sahibkarlığın imkanları ilə tamamlanır. Əmtəə və xidmətlərin həm istehsalçısı, həm də istehlakçısı olan kiçik müəssisələr bazarın dəyişən konyukturasına çox həssas və vaxtında reaksiya vermək imkanına malikdir.

Digər tərəfdən, kiçik sahibkarlıq öz fəaliyyətində xeyli dərəcədə daxili iqtisadi konyukturadan asılıdır. Odur ki, müvafiq tənzimləmə yolu ilə iri və kiçik müəssisələrin obyektiv imkanlarındakı fərqlərin «bərabərləşdirilməsi»nin zəruriliyi meydana çıxır. Kiçik müəssisələr bazarlar uğrunda öz ölkəsində olan müəssisələr və xarici kapitalla rəqabət mübarizəsi aparmaq məcburiyyətindədir. Bu, kiçik müəssisələrin dövlət tərəfindən müdafiə olunmasını zəruri edir. Başqa sözlə, dövlət ölkədə sabitliyin təminatçısı olan kiçik sahibkarlığı müdafiə etməkdə maraqlıdır.

**Bazar iqtisadiyyatına keçid şəraitində cəmiyyətin yeniləşməsində oynadığı rola görə kiçik sahibkarlığın xüsusi müdafiəyə ehtiyacı vardır.** Ölkəmizdə bazar münasibətlərinin formalaşdığı müasir dövrdə kiçik sahibkarlıq bölməsinin yaradılması və inkişaf etdirilməsi cəmiyyətin sosial və iqtisadi yeniləşməsində çox mühüm rol oynaya bilər. Dövlət kiçik sahibkarlığı müdafiə etməklə orta sinfin formalaşması üçün imkan əldə etmiş olur. Bundan başqa, kiçik biznesin fəaliyyət dairəsinin geniş olması büdcə vəsaitinin tamamlanmasının səmərəli formasıdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, iqtisadiyyatın yenidən qurulmasının labüdlüyü obyektiv olaraq ona doğru aparır ki, ölkə vətəndaşlarının çox böyük hissəsi sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Belə şəraitdə dövlətin kiçik sahibkarlığı ağıllı və məqsədyönlü surətdə müdafiə etməsi labüddür. **Çünki bunlar yeni iş yerlərinin yaradılmasına, işsizlik səviyyəsinin aşağı düşməsinə, sosial gərginliyin aradan qaldırılmasına səbəb olur.**

Bütün bunlar nəzərə alınmaqla, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə çox böyük diqqət yetirilir. Bu

məqsədlə iki dəfə - 1997-2000-ci və 2002-2005-ci illəri əhatə edən **«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı» qəbul edilmişdir.** Hər iki proqramda nəzərdə tutulan vəzifələr demək olar ki, yerinə yetirilmişdir. Bununla da ölkəmizdə kiçik və orta sahibkarlığın hüquqi bazası inkişaf etdirilmiş, sahibkarlığın tənzimlənməsi sahəsində əhəmiyyətli irəliləyişlər olmuşdur. Kiçik və orta sahibkarlığa təhsil, informasiya və məsləhət xidmətləri göstərən strukturlar genişlənmiş və onların fəaliyyəti güclənmişdir. Kiçik və orta sahibkarlığa maliyyə köməyi mexanizmlərinin formalaşması, sahibkarlar üçün vergi yükünün azaldılması, vergi sisteminin stimullaşdırıcı rolunun gücləndirilməsi istiqamətində zəruri addımlar atılmışdır. Sahibkarların hüquqlarının, qanuni mənafelərinin qorunması mexanizmlərinin formalaşması sahəsində məqsədli tədbirlər görülmüşdür. Sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısını almaq və əsassız yoxlamaları aradan qaldırmaq məqsədilə **«nəzarət kitabçası»**nın tətbiqinə başlanmışdır. Kiçik və orta sahibkarlığın regional infrastrukturlarının fəaliyyəti genişlənmişdir. Sahibkarların ictimai və peşə biliklərinin formalaşması istiqamətində əhəmiyyətli nəticələr qazanılmışdır.

Dövlət əmlakının özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın inkişafı sahəsində həyata keçirilən dövlət köməyi tədbirləri nəticəsində özəl bölmə ölkə iqtisadiyyatında payına görə hakim mövqeyə yiyələnmişdir. Belə ki, 2005-ci ilin yekunlarına görə ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 76%-ə bərabər olmuşdur.

**Bununla yanaşı, ölkəmizdə formalaşmış siyasi və makroiqtisadi sabitliyin yaratdığı imkanlardan kiçik və orta sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədləri üçün tam istifadə olunmamışdır.** Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı mövcud imkanlardan azdır. Özəl bölmənin ölkə iqtisadiyyatında xüsusi çəkisi yüksəlsə də, bu bölmədə hələlik strateji cəhətdən mümkün olan, strukturformalaşdırıcı potensiala malik müəssisələr zəif inkişaf edir. Kiçik və orta sahibkarlıq bölməsinin ölkənin ixrac potensialının gücləndirilməsinə və strukturunun təkmilləşdirilməsinə təsiri məhduddur. Sahibkarlığın regional inki-

şafının hazırki səviyyəsi ölkəmizin mövcud potensialına uyğun gəlmir. Belə ki, indi kiçik və orta müəssisələrin böyük əksəriyyəti (75%-ə qədəri) Bakı şəhəri və onun ətrafında cəmləşmişdir. Daxili istehsalçılar arasında əlaqələr zəif inkişaf edir, kiçik və orta müəssisələrlə iri müəssisələrin kooperasiyası və inteqrasiyası zəruri səviyyəyə çatmamışdır.

Kiçik və orta sahibkarlığın inkişafının sürətləndirilməsi, bu bölmənin səmərəli bazar iqtisadiyyatı sisteminin formalaşmasında və beynəlxalq iqtisadi mühitə uyğunlaşmasında, ölkənin iqtisadi və sosial problemlərinin həllində rolunun gücləndirilməsi Azərbaycan dövlətinin iqtisadi siyasətinin öncül istiqamətlərindən birini təşkil edir. Bu məqsədlə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə dövlət köməyi tədbirlərinin çərçivəsi genişləndirilir və onların ünvanlılığı gücləndirilir. Bununla əlaqədar kiçik sahibkarlığa Dövlət Köməyi haqqında 4 iyun 1998-ci il tarixdə Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanunda nəzərdə tutulduğu kimi kiçik sahibkarlığa dövlət maliyyə yardımı məqsədli proqramlar çərçivəsində güzəştli kreditlər, subsidiyalar, kompensasiyalar, qrantlar, kreditlərə təminat verilməsi, lizinqin təşkili, sahibkarlara köməklik göstərən maliyyə-kredit qurumlarına stimullaşdırıcı tədbirlərin tətbiqi formasında həyata keçirilir.

Qanuna görə dövlət kiçik sahibkarlıq subyektləri üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması, informasiyaların verilməsinə, kiçik sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətlərinə kömək göstərir.

**Bundan başqa ölkəmizdə kiçik sahibkarlığın inkişaf etdirilməsinə kömək milli fondu yaradılmışdır.** Bununla əlaqədar sənədlərə Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının sahibkarlığa kömək milli fondu haqqında əsasnamə», «Azərbaycan Respublikasının sahibkarlığa kömək milli fondunun vəsaitinin istifadəsi qaydaları» daxildir. Bu sənədlərdə Azərbaycan Respublikasında sahibkarlığın inkişafına maliyyə təminatı yaratmaq üçün tədbirlər görülməsi, sahibkarlığın inkişafına yönəldilmiş proqramların maliyyələşdirilməsi; sahibkarlığın, sağlam

rəqabətin və əmtəə bazarının inkişafının, yeni iş yerlərinin yaradılmasının təmin edilməsi; regional proqramların və investisiya layihələrinin işlənib hazırlanmasında fəal iştirakın həyata keçirilməsi nəzərdə tutulmuşdur. Fond sahibkarlıq subyektlərinə zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanmasında, bazar konyukturasının öyrənilməsində metodik kömək göstərir, idarəetmə kadrlarının hazırlanmasına, xarici iqtisadi fəaliyyətin formalaşmasına kömək edir.

Fondun vəsaiti aşağıda göstərilən istiqamətlər üzrə layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir: 1) ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məqsədli proqramlar çərçivəsində özəl bölmənin dəstəklənməsi; 2) idxalı əvəz edən məhsulların istehsalı; 3) ixrac qabiliyyətli məhsulların istehsalı; 4) innovasiya yönümlü layihələr; 5) qədim xalq sənətinin inkişafı; 6) xammal və dövriyyə vəsaitlərinin satın alınması; 7) turizm infrastrukturunun inkişaf etdirilməsi; 8) kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi.

## 9.2. Kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi sistemi

Kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi dedikdə, onların səmərəli fəaliyyət göstərmələri və sabit inkişaf etdirilməsi üçün iqtisadi, hüquqi və təşkilati mühitin yaradılması nəzərdə tutulur. Bu sistemə respublika, region və yerli səviyyədə müxtəlif qanunverici, icraedici və məhkəmə hakimiyyəti strukturları daxildir.

**Kiçik və orta sahibkarlığa münasibətdə dövlətin qarşısında aşağıdakı vəzifələr durur:**

1) İqtisadiyyatda rəqabət mühitinin qorunub saxlanması və inkişaf etdirilməsi. Yeni kiçik və orta firmaların meydana gəlməsi üçün dövlət tərəfindən əlverişli şərait yaradıldıqca rəqabət, iqtisadiyyatın bütün seqmentlərinə bir o qədər sürətlə yayılmış olur;

2) Öz biznesi üçün məsuliyyəti üzərinə götürən hər bir təşəbbüskar şəxsin bu sahədə fəaliyyətinin bərabarşanslı olması;

3) Məşğulluq probleminin həllinə təsir göstərilməsi. Dinamik inkişaf edən kiçik və orta biznesdə əlavə iş yerlərinin yaradılması sosial sabitliyin, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin əsasıdır;

4) İnnovasiyaların müdafiə olunması. Dövlətin belə bir siyasət yeritməkdə məqsədi kiçik və orta sahibkarlığın fəaliyyət göstərdiyi şəraitə – ETTKİ-ə qoyulan investisiyalar üzrə imtiyazları təmin edə bilən, onların tətbiqini yüngülləşdirən, yenilikçi kiçik biznesin üstün inkişafını təmin edən elmi-texniki siyasətin həyata keçirilməsi və s. təsir göstərir.

**Bu ümumi məqsədlərlə yanaşı kiçik və orta sahibkarlığın xüsusiyyətləri ilə müəyyən olunan bir sıra xüsusi məqsədlər də vardır ki, bunlar da aşağıdakılardan ibarətdir:**

- kiçik və orta sahibkarlığın fəaliyyət göstərməsi üçün ümumi əlverişli şəraitin yaradılması. Bunlara kiçik və orta sahibkarların hüquqlarının müəyyən edilməsi, qeydiyyatdan keçirilməsi, lisenziya verilməsi, vergiyə cəlb olunması, hakimiyyət orqanları tərəfindən rəqabətdə onlara qarşı ayrı-seçkiliyə yol verilməməsi, resurslardan bərabərhüquqlu subyekt kimi istifadə etmək imkanlarının təmin olunması; xüsusi infrastrukturun yaradılması və qorunub saxlanması (kadrların hazırlanması, hüquqi xidmət göstərilməsi və s. və i. a.)
- yeni fəaliyyətə başlayan kiçik və orta müəssisələrin müdafiə olunması;
- regionlarda və sahələrdə aşağı inkişaf səviyyəsi ilə fərqlənən, yaxud da üzərinə ağır sosial yük düşən kiçik və orta biznesin müdafiə edilməsi;
- kiçik və orta biznesin bazarda çətinliklə satın aldığı resursların onlar tərəfindən əldə edilməsinə şərait yaradılması (məsələn, kredit verilməsi, sahələrin icarəyə götürülməsi və i.a).

Nəhayət, keçid iqtisadiyyatı şəraitində də kiçik və orta biznesin dövlət tərəfindən müdafiə olunmasına ehtiyac vardır. Bu, hər şeydən əvvəl, iqtisadiyyatda baş verən struktur böhranları ilə əlqədardır. **Bunlara aşağıdakılar aiddir:**

1) kredit-maliyyə sisteminin, informasiya və əmtəələrin irəlilədilməsi infrastrukturlarının pis fəaliyyət göstərməsi ilə əlaqədar olaraq əmələ gələn əlavə xərclərin azaldılması;

2) kiçik və orta sahibkarlıqda xəlvəti dövriyyələrin xüsusi çəkisinin aşağı salınması;

3) iri və xırda biznes arasındakı kooperasiya əlaqələrinin stimullaşdırılması;

4) birtərəfli ixtisaslaşdırmanı aradan qaldırmaq məqsədilə müəyyən sahələrdə regional səviyyədə kiçik biznesin müdafiə edilməsi üçün əlavə tədbirlər görülməsi.

Bu məqsəd və vəzifələrin həyata keçirilməsi kiçik və orta sahibkarlığın tənzimlənməsində müəyyən prinsiplərə əməl olunmasını nəzərdə tutur. **Bu prinsiplərdən aşağıdakıları qeyd etmək olar:**

- kiçik və orta sahibkarlığın sistemli və hərtərəfli idarə edilməsi;
- himayədarlıq siyasətinin həyata keçirilməsi;
- respublika və regionlar səviyyəsində qarşılıqlı münasibətlərin seçilməsi və düzgün əlaqələndirilməsi;
- məqsəd və vəzifələrin mövcud olan reallıqlarla (çətinliklərlə) uyğunlaşdırılması.

**Kiçik və orta sahibkarlığın sistemli və hərtərəfli idarə edilməsi sahəsində dövlət siyasəti aşağıdakı yollarla təmin olunur:**

1) İnzibati və iqtisadi tənzimləmə metodlarının tətbiqi sahəsində «sərhədlərin» müəyyən edilməsi; bu, dövlət ehtiyatlarından istifadə edilməsinin və dövlət sifarişlərinin bölüşdürülməsinin müsabiqə mexanizminin yaradılması; dövlət tərəfindən tənzimlənən obyektlərin idarə olunmasını təmin edən inteqrasiya mexanizmlərinin formalaşdırılması və s. həyata keçirilməsini nəzərdə tutur.

2) Hakimiyyət orqanları arasında səlahiyyətlərin və hüquqların dəqiq bölüşdürülməsi əsasında idarəetmənin təşkilati strukturunun yaradılması;

3) Dövlət tənzimləməsinin informasiya təminatı və qarşılıqlı əlaqə sisteminin yaradılması. Bunun üçün vahid yoxlama və qəbul edilən qərarların nəticələrinin proqnozlaşdırılması; infor-

masiyaların toplanması, saxlanması, işlənməsi və ötürülməsi üçün maddi-texniki və kadrlarla təminolunma sisteminin yaradılması;

4) Kiçik və orta sahibkarlığın kadr təminatının yaxşılaşdırılması.

Himayədarlıq prinsipi bazar təsərrüfatçılığı ilə şərtlənir. Kiçik və orta sahibkarlıq bir çox hallarda dövlətin köməyi olmadan iri müəssisələrlə müstəqil surətdə müvəffəqiyyətlə rəqabət aparmaq iqtidarında olmur. **Ona görə himayədarlıq dövlət siyasətinin prioritetlərindən biri olmalıdır.**

Qarşılıqlı münasibətlərin seçilməsini ikili mənada müəyyən etmək olar: 1) iqtisadiyyatın müəyyən sahələrində və ya regionlarda fəaliyyət göstərən kiçik müəssisələrin müdafiə edilməsi (sahə, yaxud da regional prioritetlər); 2) müəyyən kiçik və orta sahibkarlar qrupunun (fəaliyyətə başlayan, innovasiya, qadın, gənclər və i.a.) müdafiə olunması. Sahə prioritetlərinin həyata keçirilməsinə yönəldilən kiçik sahibkarlığın müdafiəsi əvvəlcədən ölkə və region səviyyəsində müəyyən edilir. Fəaliyyətdəolma əlamətinə görə, ilk dəfə başlayan və innovasiya sahibkarlığı bazarın formalaşmasındakı çatışmazlıqların aradan qaldırılmasına səbəb olur və bütövlükdə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi üçün kiçik və orta sahibkarlıq bölməsinin inkişaf etdirilməsinə şərait yaradır.

Respublika və regionlar səviyyəsində qarşılıqlı münasibətlərin, dövlət siyasətinin həyata keçirilməsinin əlaqələndirilməsi müvafiq səviyyədə ən yüksək səmərəliliyə hansı vasitələrlə nail olunmasının nəzərə alınmasını tələb edir. Aydındır ki, kiçik və orta sahibkarlığın kredit-maliyyə və infrastruktur cəhətdən müdafiəsi regional və yerli səviyyələrdə təşkil olunmalıdır. Buradaca konkret layihələrlə iş aparmaq, ayrı-ayrı tədbirlərin həyata keçirilməsində iştirak edən maliyyə təsisatlarını seçmək lazımdır.

İdarəetmə subyektləri arasında (kiçik və orta sahibkarlıq) və müxtəlif səviyyələrdə (idarəedicilər sistemində) səlahiyyətlər elə bölünməlidir ki, bu proses yuxarıdan aşağıya doğru yox, əksinə aşağıdan yuxarıya doğru aparılsın. Başqa sözlə, idarəedicilərin

daha yüksək səviyyəsində vəzifələr o vaxt həll oluna bilər ki, onlar birinci növbədə aşağılar tərəfindən yerinə yetirilsin.

**Kiçik və orta sahibkarlığa münasibətdə dövlət siyasətinin ən mühüm prinsiplərindən biri də** qarşıya qoyulan məqsəd və vəzifələrin mövcud olan reallıqlarla (çətinliklərlə) uyğunlaşdırılmasıdır. Bunlara hər şeydən əvvəl, iqtisadiyyatın ümumi vəziyyəti, büdcədəki çatışmazlıqlar və s. aiddir. Ən ciddi məhdudlaşdırıcı rolunda infrastruktur və insan amili çıxış edir.

Kiçik və orta sahibkarlığın idarə və müdafiə olunması ilə Azərbaycan Respublikasının İqtisadi İnkişaf, Maliyyə, Təhsil, Ədliyyə, Sənaye və Energetika, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri məşğul olurlar.

Azərbaycan hökuməti kiçik və orta sahibkarlığın müdafiəsi sahəsində dövlət siyasətinin əlaqələndirilməsi ilə bağlı funksiyaları İqtisadi İnkişaf Nazirliyinə həvalə etmişdir. Bu nazirlik kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsi üçün lazımi tədbirlər görüb həyata keçirir, proqramlar işləyib hazırlayır. Buna 2002-2005-ci illərdə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı əyani misal ola bilər. Proqramda 1997-2000-ci illərdə kiçik biznesin inkişaf etdirilməsi sahəsində görülən işlər təhlil olunmuş, qazanılmış nailiyyətlərlə yanaşı, yol verilmiş nöqsanlar aşkara çıxarılmış və onların aradan qaldırılması yolları göstərilmişdir.

Proqramda onun məqsədi, qanunvericilik bazası, vəzifələri, maliyyə təminatı və gözlənilən nəticələr öz əksini tapmışdır.

Proqramın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın insan resursunun inkişafı, texniki və maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda onun inkişaf etdirilməsinə əlverişli şəraitin yaradılması əsasında kiçik və orta sahibkarlığın inkişafını təmin etməkdən ibarətdir.

Proqram hazırlanarkən Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəlləsi «Sahibkarlıq fəaliyyəti haqqında» və «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» Azərbaycan Res-

publikasının qanunları və digər qanunvericilik aktları əsas götürülmüşdür.

**Proqramda qarşıya qoyulan məqsədə nail olunması üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:**

- Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatının, lisenziyalaşdırılmasının, kiçik və orta müəssisələrin məhsullarının sertifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi;
- Müasir informasiya texnologiyalarının geniş tətbiqi əsasında kiçik və orta sahibkarlığın məlumat təminatının yaxşılaşdırılması;
- Gənclərin sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa hazırlanması sisteminin formalaşdırılması;
- Kiçik və orta müəssisələrin beynəlxalq işgüzar əlaqələrinin yaradılmasına və genişləndirilməsinə kömək göstərilməsi;
- Kiçik və orta sahibkarların rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalı üçün texniki, maddi və maliyyə köməyi mexanizmlərinin hazırlanması;
- Kiçik və orta sahibkarlığın istehsal yönümlü fəaliyyətinə maliyyə-kredit və investisiya köməyi mexanizmlərinin genişləndirilməsi;
- Sahibkarlığın regional inkişafının təmin edilməsi;
- Daxili istehsalçılar arasında kooperasiya əlaqələrinin inkişafının sürətləndirilməsi;
- Kiçik və orta sahibkarlıq bölməsində texnoloji inkişafın dəstəklənməsi;
- Sahibkarların hüquqlarının müdafiəsi sisteminin inkişaf etdirilməsi.

**Proqramın maliyyə təminatına gəldikdə aşağıdakıları qeyd etmək olar.** Başqa sözlə, proqramın maliyyələşdirilməsinin əsas mənbələri aşağıdakılardır:

- nəzərdə tutulmuş dövlət büdcə təsisatları üzrə ayırmalar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- əhalinin məşğulluğu üzrə dövlət vəsaiti;
- bələdiyyələrin vəsaitləri;
- beynəlxalq və xarici ölkə təşkilatlarının texniki və maliyyə köməyi;

- məqsədli layihələr;
- xarici investisiyalar;
- əhalidən könüllü daxil olan vəsaitlər.

**Bu proqram yerinə yetirildiyi təqdirdə aşağıdakı nəticələrin əldə olunacağı proqnozlaşdırılmışdır:**

1) Ölkə əhalisinin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi çərçivəsinin genişləndirilməsi;

2) Sahibkarlıq fəaliyyətinin struktur, regional və texnoloji baxımdan təkmilləşdirilməsi;

3) Ölkə iqtisadiyyatının strukturunun yenidən qurulmasında, rəqabət potensialının artırılmasında və iqtisadi qloballaşma şəraitinə uyğunlaşmasında kiçik və orta sahibkarlığın rolunun gücləndirilməsi;

4) Azərbaycan cəmiyyətinin sosial problemlərinin həllində kiçik və orta sahibkarların fəaliyyətinin yüksəldilməsi;

5) İstehsal dairəsində yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq strukturunun təkmilləşdirilməsi;

6) Ölkə daxilində kiçik və orta sahibkarlığın xüsusi çəkisinin artması;

7) İqtisadi fəaliyyətin regional strukturunun təkmilləşdirilməsi.

Proqramda nəzərdə tutulan bütün məsələlər demək olar ki, yerinə yetirilmiş və gözlənilən, proqnozlaşdırılan nəticələr əldə edilmişdir. Bunlar da öz növbəsində iqtisadiyyatda kiçik və orta sahibkarlığın rolunun artmasına, əlavə iş yerlərinin yaradılmasına və deməli, işsizliyin azaldılmasına, yoxsulluğun səviyyəsinin aşağı düşməsinə, sosial gərginliyin «yumşalmasına» səbəb olmuşdur.

## 9.3. Kiçik və orta biznesin dövlət tərəfindən tənzimlənməsinin forma və metodları

Müasir dövrdə kiçik biznesin müdafiəsi üçün istifadə olunan dövlət tənzimləməsinin hamı tərəfindən qəbul edilmiş forma və metodları vardır. Lakin hər bir ölkənin spesifik xüsusiyyət-

lərindən, konkret-tarixi amillərin (iqtisadi, hüquqi, siyasi, sosial-psixoloji, milli, mədəni və i.a) müxtəlifliyindən asılı olaraq bu metodların tərkibi və strukturu dəyişə bilər.

**Kiçik və orta sahibkarlığın müdafiəsi sistemində iki cəhəti bir-birindən fərqləndirmək lazımdır. Bunlardan biri təminetmə, digəri isə idarəetmədir.** Təminetmə kiçik və orta sahibkarlığa xidmət etməyə, maddi, pul, informasiya resurslarını, dövlət sifarişlərini onlara çatdırmağa yönəldilmişdir.

İdarəetmə ilə əlaqədar cəhətlər isə planlaşdırma, təşkilati-inzibati məsələlərin həlli və nəzarətlə əlaqədardır. Bu cəhət aparıcıdır, çünki o kiçik biznesə sabit, səmərəli və idarəedilmə xarakteri verir.

**Ümumiyyətlə, kiçik və orta sahibkarlığın dövlət tərəfindən müdafiə edilməsi mexanizminə aşadğıdakılar daxildir:** a) qanunvericilik və normativ-hüquqi bazanın yaradılması, inzibati maneələrin aradan qaldırılması; b) kiçik və orta sahibkarlığın kredit-maliyyə və investisiya sahələrində müdafiə olunması; c) kiçik və orta sahibkarlığın qanunazidd hallardan müdafiəsi və təhlükəsizliyinin təşkilində informasiya təminatının olması.

**Qanunvercilik sahəsində isə aşağıdakıları qeyd etmək olar:**

- hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin və kiçik sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının sadələşdirilməsi və müəyyən güzəştlərin tətbiq olunması;
- icazə verilən və razılaşdırılan inzibati qaydaların sayının azaldılması;
- kiçik biznesə münasibətdə razılıqvermə və nəzarətetmə funksiyaları həyata keçirilərkən komplekslilik prinsipindən istifadə olunması;
- yeni kiçik və orta müəssisələrin bazara daxil olması və fəaliyyətdə olanların inkişaf etdirilməsi üçün mövcud olan inzibati maneələrin aradan qaldırılması və məsuliyyət normalarının tətbiq edilməsi;
- «maraqsız» sahibkarlıq deyilən sahibkarlığın leqallaşdırılmasına təsir göstərən normativ sənədlərin qəbul olunması;

**Kiçik sahibkarlığın kredit-maliyyə və investisiya sahələrində müdafiəsinin aşağıdakı istiqamətlərini göstərmək olar:**

1) Kiçik sahibkarlıq subyektlərinin kreditləşdirilməsi və sığortalanmasını genişləndirmək üçün qarşılıqlı sığortalama və qarşılıqlı kreditləşdirmə cəmiyyətlərinin inkişaf etdirilməsi;

2) Kiçik və orta sahibkarlıq üçün inkişaf büdcəsi vəsaiti hesabına müsabiqə əsasında dövlət zəmanəti verilməsi, müsabiqənin aparılması qaydalarının sadələşdirilməsi;

3) Dövlət mülkiyyətinin güzəştli şərtlərlə uzunmüddətli icarəyə (lizinqə) götürülməsi üçün pul vəsaiti ayrılması;

4) Kiçik sahibkarlıqdan vergi alınmasının ən yüksək səviyyəsinin (tutaq ki, ümumi gəlirin 10%-dən çox olmamaqla) müəyyən edilməsi.

**Kiçik və orta sahibkarlığın müdafiə olunmasının ən mühüm istiqamtlərindən biri də onların informasiya təminatıdır.** Sahibkarlar informasiyadan riskdən qorunmaq, idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsi, inkişafın strategiyası və taktikasının seçilməsi, konkret sövdələşmələrin rəsmiyyətə salınması, kredit alınması, bazarlarda yer qazanılması və s. üçün istifadə edirlər. Kiçik və orta sahibkarlığın informasiya cəhətdən müdafiəsi kiçik biznes sahəsində müvafiq ictimai təşkilatların yaradılması və onların vasitəsilə təsir göstərilməsi ilə aparılır. Onlar müxtəlif regionlarda sahibkarlar arasında təcrübə mübadiləsi ilə əlaqədar qarşılıqlı fəaliyyəti təmin edir, qanunverici və icraedici hakimiyyət orqanlarında sahibkarların hüquqlarının müdafiəsinə kömək edir, biznes üzrə tərəfdaşların axtarılıb tapılmasına imkan verir.

**Kiçik və orta sahibkarlığın informasiya təminatı sahəsində tədbirlərə aşağıdakılar daxildir:**

- kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətlərinə dair səmərəli statistika uçotu sisteminin formalaşdırılması;
- müsabiqə şəraitində kiçik və orta sahibkarlara verilən qeyri-yaşayış binaları və digər əmlakın bələdiyyə reyestrinin aparılması;
- sahibkarların müdafiəsi üzrə regionlarda məsləhət bürolarının yaradılması;

- kiçik və orta sahibkarlığın vəziyyəti və inkişafı ilə əlaqədar monitorinq keçirilməsi və i.a.

**Son dövrlərdə ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində kiçik və orta sahibkarlığın müdafiəsi sahəsində yeridilən siyasətin «ağırlığı» regionlara keçmişdir.** Buna uyğun olaraq dövlət tənzimləməsi və yerli özünüidarə məsələlərini əlaqələndirməyə imkan verən sosial-iqtisadi və hüquqi baza yaradılmalı və təkmilləşdirilməlidir. Bu cür üçtərəfli mexanizm kiçik sahibkarlığın inkişafına təsir göstərən iqtisadi metodlardan, o cümlədən normativ - hüquqi baza, imtiyaz və subvensiyaların bölgüsü, investorlara müxtəlif təminatların verilməsi, bürokrat özbaşınalıqlarına son qoyulması və s. kimi metodlardan birlikdə istiafdə olunmasını nəzərdə tutur. Məsələn, regionlarda investisiya fəallığını gücləndirmək üçün kiçik sahibkarlara sənaye obyektlərinin tikintisi zamanı güzəştlər etmək, ssudalar üzrə imtiyazlar vermək, tikinti aparmaq üçün torpaq sahələri ayrılmasına kömək göstərmək və s. və i.a.

Müasir istehsalın səmərəliliyinin yüksəldilməsi üçün başlıca mənbə olan çevik ixtisaslaşma onun daxili strukturuna uyğun gələn xarici əlaqələr sisteminin yaradılmasını tələb edir. Çünki müəssisənin xarici əlaqələr sistemi onun sabitliyini təmin etməlidir. Müxtəlif növ resursların, hazır məhsulların və s. bölgüsü və istifadəsi üzrə bir çox firmaların fəaliyyətlərini əlaqələndirən sahibkarlıq şəbəkəsi belə bir strukturdur.

**Sahibkarlıq şəbəkəsinin müxtəlif növləri vardır.** Peşəkar şəbəkələr qeyri-formal əsasda oxşar problemlərlə məşğul olan mütəxəssisləri birləşdirir. Məsələn, yüksək qiymətli elmi işləmələrin aparılması sahəsində strateji müttəfiqlik və tərəfdaşlıq müəyyən olunur.

İstehsalın bir çox sahələrində sahibkarlıq şəbəkələrinin formalaşdırılması bazar təsərrüfatçılığı sisteminin qanunauyğun təkamül mərhələsidir və elmi-texniki tərəqqinin sürətlənməsi, yeni texnika və texnologiyaların meydana gəlməsi, iqtisadi mühitin inteqrasiyasının artması, sosial-psixoloji mühitdə dərin dəyişikliklərin getməsi və s. əlaqədardır.

Firmadaxili qarşılıqlı fəaliyyətin xüsusi forması olan sahibkarlıq şəbəkələri, konkret növündən asılı olmayaraq aşağıdakı bir sıra sabit əlamətlərə malikdir. Şəbəkə çərçivsəində formalaşmış spesifik qiymətlilər, təşkilati-idarəetmədə qarşılıqlı xüsusi fəaliyyət sistemlərinin qarşılıqlı fəaliyyətin digər sahələrinə nisbətən bir çox hallarda müəyyən üstünlüklərinin olması belə əlamətlərdir.

Qiymətlilər sistemi şəbəkələrin mövcudluğu və sabitliyi üçün zəruri şərt olan qarşılıqlı etimad mühitinin olması deməkdir. Bu, firmadaxili qarşılıqlı fəaliyyət qaydalarını yüngülləşdirir; öhdəliklər sisteminin, müdafiə mühitinin və i.a. formalaşmasına kömək edir.

Qarşılıqlı fəaliyyət prosesində rəhbər təbəqə şəbəkə modellərinin bütün struktur ünsürlərindən ayrılır. Liderliyə irəli sürülən şəxs konsensus əsasında, sanki yeganə yolla müəyyən edilir. Bu zaman məsuliyyət qeyri-bərabər olsa da bütün rəhbər strukturlar arasında bölünür. Şirkətləri vahid şəbəkədə birləşdirən yeganə cəhət informasiyalardan birlikdə istifadə edilməsidir.

Formalaşmasına demək olar ki, kortəbii başlanmış şəbəkələr hazırda təkrar istehsal prosesi iştirakçılarının səylərinin məqsədyönlü əlaqələndirilməsi alətinə çevrilməkdədir. Müəssisələr öz aralarında müxtəlif münasibətlərə girməklə qarşılıqlı surətdə fəaliyyət göstərirlər. Bunun nəticəsində kiçik sahibkarlığın sabitliyi möhkəmlənir və onun normal fəaliyyət göstərməsi üçün xarici mühit yaxşılaşır, informasiyaların, texnologiyaların, xammal, kadr və maliyyə resurslarının qarşılıqlı fayda verən hərəkəti baş verir.

Bu formaların təşəkkül tapmasında kiçik və orta sahibkarlığın müdafiəsi ilə əlaqədar dövlət tədbirləri mühüm rol oynayır. Bu, məqsədli kredit proqramlarından, xüsusi investisiya şirkətlərinin kiçik sahibkarlığa maliyyə yardımı göstərmələrindən, idarəetmə hazırlığı və məsləhət verilməsi ilə əlaqədar xüsusi proqramlardan və s. ibarət ola bilər.

**Ölkəmizdə kiçik biznesin gələcəyi real istehsalın inkişaf etdirilməsi imkanlarından,** kiçik və iri müəssisələr arasında sıx kooperasiya əlaqələrinin formalaşdırılmasından asılıdr. Təcrübə gös-

tərir ki, bazar iqtisadiyyatı şəraitində kiçik firmaların çox böyük hissəsi bu və ya digər dərəcədə iri müəssisələrin maraq dairəsində olurlar. Həm də kiçik firmaların vəziyyəti, gəlirləri, maliyyə və investisiya imkanları onların iri müəssisələrlə münasibətlərindən bilavasitə asılıdır. **Deməli, kiçik və iri müəssisələrin əməkdaşlığı bütün sahibkarlıq mühitinin inkişaf etdirilməsinin başlıca istiqamətidir**. Odur ki, kiçik müəssisələrin öz aralarında və iri müəssisələrlə kooperasiyasının stimullaşdırılması həm dövlət, həm də korporativ siyasətin çox mühüm tərkib hissəsi olmalıdır.

Məhdud maliyyə resursları şəraitində kiçik və orta sahibkarlığın sahibkarlıq şəbəkələrinə fəal qoşulmaları kiçik biznes üçün təminatlı satış bazarlarının yaranmasına, onların fəaliyyətinin səmərəliliyinin artmasına, sosial sabitliyin yaxşılaşmasına və iqtisadiyyatın həmin sahəsinin inkişafına təsir göstərir.

**Kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsinin tərkib hissələrindən biri də onların müdafiəsi ilə əlaqədar dövlət proqramlarının işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsidir.**

Ölkəmizin sosial-iqtisadi inkişafının müasir mərhələsi kiçik biznesin keyfiyyətcə yeni inkişaf dövrünə daxil olması üçün yeni ilkin şərtlərin yaranması prizmasından nəzərdən keçirilməlidir. Burada yalnız dövlətin kiçik və orta sahibkarlığın qanuni və maddi cəhətdən müdafiəsi deyil, həm də onun digər sahibkarlıq strukturları ilə inteqrasiyası diqqət mərkəzində saxlanılmalıdır. Hər şeydən əvvəl kiçik, orta və iri biznes arasında kooperasiya əlaqələrinin möhkəm olması çox zəruridir. Bu, eyni zamanda, həm də dövlət siyasətində nəzərdə tutulmalıdır. Bütün bunlar kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün əlverişli perspektivlər aça bilər.

**Azərbaycanda indikindən daha sürətli sosial-iqtisadi inkişafa nail olmaq** və iqtisadiyyatın sahələri arasında tarazlığın təmin edilməsi üçün kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə bundan sonra da xüsusi diqqət yetirilməsi lazımdır. Çünki Azərbaycanda daha sürətli sosial-iqtisadi inkişafa nail olunmasının indiki yolu ölkə iqtisadiyyatına, xüsusilə də qeyri-neft sektoruna investisiyaların cəlb edilməsindən, bütövlükdə sahibkar-

lıq fəaliyyətinin, o cümlədən kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsinin təmin olunmasından keçir.

İqtisadiyyata investisiya axınının çoxalmasına, sahibkarlıq fəaliyyətinin sürətli inkişafının təmin edilməsinə bu sahəyə öz təsirini göstərən müxtəlif məsələlərin kompleks şəkildə həll edilməsi yolu ilə nail olmaq mümkündür. Bunlara ölkə ərazisində lazımi infrastrukturun genişləndirilməsi, mövcud hüquqi bazanın təkmilləşdirilməsi, dövlət tərəfindən kiçik və orta sahibkarlığa yardım göstərilməsi və s. misal göstərmək olar.

**Kiçik və orta sahibkarlığa dövlət yardımı aşağıdakı istiqamətlərdə həyata keçirilir:**

1) İnfrastrukturun formalaşmasında dövlət orqanlarının fəaliyyəti daha da genişləndirilir;

2) Kiçik və orta sahibkarlığa kömək proqramları hazırlanır və həyata keçirilir;

3) Sahibkarlıq subyektlərinin maliyyə, maddi, elmi-texniki və informasiya resurslarını əldə etmələri üçün əlverişli şərait yaradılır;

4) Kiçik və orta sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətlərinə, o cümlədən xarici tərəfmüqabilləri ilə istehsal, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilir.

Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər sırasında **əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinin,** o cümlədən işsizlərin, qaçqın və köçkünlərin, əlillərin, şəhid ailələrinin, təqaüdçülərin, qadın və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi məsələləri də mühüm yer tutur. Bununla əlaqədar olaraq ölkəmizdə yaradılmış neft fondundan bir neçə dəfə vəsait ayrılmışdır ki, bu da nəzərdə tutulan işlərin yerinə yetirilməsində mühüm rol oynamışdır.

Azərbaycan dövləti istehsalla məşğul olan kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirir, onlara kredit verilməsi üçün ayrılan vəsaiti ildən-ilə artırır, informasiya təminatını daha da yaxşılaşdırır.

# NƏTİCƏ

- sahibkarlıq, istehsalın innovasiya forması, biznesin xüsusi növüdür;
- kiçik və orta sahibkarlığın müəyyən edilməsi ilə əlaqədar kəmiyyət, keyfiyyət və qarışıq (iqtisadi) yanaşmalar bir-birindən fərqlənir;
- iqtisadi ədəbiyyatda müəssisələrin həcmi üç əsas əlamətə görə müəyyən edilir: 1) işçilərin sayı; 2) istehsal olunan məhsulun dəyəri; 3) əsas kapitalın (əsas fondların) dəyəri;
- ölkənin daxili bazarının demək olar ki, bütün sahələrini əhatə edən kiçik sahibkarlıq iqtisadiyyatın sabit inkişafını təmin edir, ölkədə siyasi mühitin sabitliyinə təsir göstərir. Kiçik sahibkarlıq işgüzar həyatın ən çevik forması olmaqla, cəmiyyətdə orta sinfin formalaşmasında mühüm rol oynayır;
- cəmiyyətin yeniləşməsində oynadığı rola görə bazar iqtisadiyyatı və ona keçid şəraitində kiçik sahibkarlığın dövlət tərəfindən müdafiəsinə ciddi ehtiyacı vardır. Odur ki, Azərbaycan dövləti kiçik və orta sahibkarlığın müdafiə olunması və daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirir;
- kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi dedikdə, onların səmərəli fəaliyyət göstərmələri və sabit inkişaf etmələri üçün iqtisadi, hüquqi və təşkilati mühitin yaradılması nəzərdə tutulur;
- kiçik və orta sahibkarlığa münasibətdə dövlətin qarşısında ən ümumi və xüsusi vəzifələr durur. Bunların həyata keçirilməsi isə müəyyən prinsiplərə əməl olunmasını nəzərdə tutur;
- kiçik və orta sahibkarlığın idarə və müdafiə olunması ilə Azərbaycan Respublikasının İqtisadi İnkişaf, Maliyyə, Təhsil, Ədliyyə, Sənaye və Energetika, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri, Azad Sahibkarlar Konfederasiyası, bir sıra qeyri-hökumət təşkilatları məşğul olurlar;
- müasir dövrdə kiçik biznesin müdafiəsində istifadə olunan dövlət tənzimləməsinin hamı tərəfindən qəbul edilmiş forma və metodları vardır. Lakin ölkələrin spesifik xüsusiyyətlərindən,

konkret tarixi amillərin müxtəlifliyindən asılı olaraq bu metodların tərkibi və strukturu dəyişə bilər;

- son dövrlərdə ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində kiçik və orta sahibkarlığın müdafiəsi sahəsində yeridilən siyasətin «ağırlığı» regionlara keçmişdir. Bu, Azərbaycan dövlətinin regionların inkişafına xüsusi diqqət yetirməsi ilə əlaqədardır;

- Azərbaycanda indikindən daha sürətli sosial-iqtisadi inkişafa nail olmaq və iqtisadiyyatın sahələri arasında tarazlığın təmin edilməsi üçün kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsinə xüsusi qayğı göstərmək və diqqət yetirmək lazımdır. Çünki Azərbaycanda daha sürətli sosial-iqtisadi inkişafa nail olunmasının indiki yolu ölkə iqtisadiyyatına, xüsusilə də qeyri-neft sektoruna investisiyaların cəlb edilməsindən, bütövlükdə sahibkarlıq fəaliyyətinin, o cümlədən kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsinin təmin olunmasından keçir.

# X FƏSİL

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

## 10.1. Ətraf mühitin mühafizəsi sahəsində tənzimləmənin zəruriliyi

Ətraf mühitin mühafizəsi sahəsində dövlət tərəfindən tənzimləmənin zəruriliyi ekoloji problemlərin kəskinləşməsi ilə əlaqədardır.

XX əsrin 50-ci illərinin əvvəllərindən başlayaraq istehsalın miqyasının artması ilə hava və sü hövzəsinin kütləvi surətdə çirklənməsi[1] prosesi gedir. Hava təbəqəsində kükürd 4 oksid, azot 4 oksid, karbon 4 oksid və başqa üzvi birləşmələr toplanır. Hava təbəqəsinin çirklənməsi və "turş yağışların" yağması nəticəsində inkişaf etmiş ölkələrdə 30 milyon hektardan çox meşəliyə ziyan dəymişdir. Hazırda çox böyük ərazidə külli miqdarda tullantı yığılıb qalır, hər il 6 milyon hektar torpaq sahəsi səhraya çevrilir, 300 min kv. kilometrdən çox (təqribən İtaliya kimi bir dövlətin ərazisi qədər) meşəlik qırılır. Bunlar isə ayrı-ayrı ölkələrdə ekoloji mühiti korlayır, dünya miqyasında təbii şəraitnin pisləşməsinə səbəb olur. Bütün bunlar qabaqcadan müəyyənləşdirilməsi mümkün olmayan nəticələrə gətirib çıxara bilər və deməli, insanın özünün bir varlıq kimi mövcudluğu üçün təhlükə deməkdir.

**İnsanlar müxtəlif ölkələrdə yaşasalar və müxtəlif dillərdə danışsalar da, bir-birlərindən dini etiqadlarına, ənənələrinə, müasir dünyada mənafelərinə, tarixi keçmişlərinə, milliyyətlərinə və s. əlamətlərinə görə fərqlənsələr də, onların hamısının bir fəzası və bir kainatı vardır.** Deməli, bu və ya digər ölkədə ekoloji tarazlığın pozulmasının təzahürləri və nəticələri ümumi xarakter daşıyır, bütün kainatın həyatın mövcud olduğu sahəsinə (biosfera),

---

[1] Ətraf mühit dedikdə hava, torpaq, su hövzəsi nəzərdə tutulur. "Çirklənmə" anlayışı müxtəlif növ çirklənmələri, səs-küyü, şüalanmanı və s. əhatə edir.

hava təbəqəsinə (atmosfer), yer üzündəki sulara (hidrosfera) və yer qabığına (litosfera) təsir göstərir.

Getdikcə daha çox qlobal xarakter alan ekoloji problemlərin həll edilməsinin zəruriliyini artıq indi, demək olar ki, dünyanın bütün ölkələrində yaxşı dərk edirlər. Odur ki, XX əsrin 60-70-ci illərində inkişaf etmiş ölkələrdə ətraf mühitin mühafizəsi sahəsində tənzimləmələrin «axtarışı»na başlanmışdır. Belə ki, demək olar inkişaf etmiş ölkələrin hamısında milli miqyasda təbiəti mühafizə siyasətinə rəhbərliyi həyata keçirən mərkəzi orqanlar meydana gəlmiş və fəaliyyət göstərməyə başlamışlar. Bununla əlaqədar olaraq bu sahədə qanunvericilik bazasının yaradılması da geniş miqyas almışdır. İnkişaf etmiş ölkələrdə qanunlar və normativ-hüquqi aktlar, tənzimləmə normaları, təbiətdən istifadə qaydalarına dair metodiki tövsiyələr və s. qəbul edilmişdir. Bu sənədlərdə təbiətdən istifadənin tənzimlənməsində dövlətin rolu təsbit olunmuş, təbiətdən istifadə edənlərin hüquq və vəzifələri müəyyən edilmişdir.

Ətraf mühitin mühafizəsi probleminə diqqətin artmasını həm də belə bir faktdan aydın görmək olar ki, **Avropa Birliyi 1987-ci ili «ətraf mühitin mühafizəsinin avropa ili» elan etmişdir.** 1992-ci ildə Rio-de-Janeyroda dünyanın 179 dövlətinin iştirakı ilə BMT tərəfindən inkişaf və ətraf mühitin mühafizəsi üzrə konfrans keçirilmişdir. Konfransda əsasında sabit inkişaf konsepsiyası (Sustainable development) duran sənədlər qəbul edilmişdir. Sabit inkişaf konsepsiyasına uyğun olaraq dünya birliyinin artan tələbatı ilə sabit sosial-inkişaf çərçivəsində biosferanın bu tələbatı ödəmək imkanının olmaması arasındakı mövcud ziddiyyətlərin aradan qaldırılması, təbii-ekoloji sistemin tədriclə ətraf mühitin sabitliyinə təminat verən həddə çatdırılmasını tələb edir. Buna bütün bəşəriyyətin birgə səyi ilə nail olmaq mümkündür. Lakin məqsədə çatmaq üçün hər bir ölkə ayrılıqda bu problemə öz töhfəsini verməlidir.

Bütün bunlar ətraf mühitin birgə səylə mühafizə olunması sahəsində elmi, texniki, istehsal və s. vəzifələrin həyata keçirilməsinə dair beynəlxalq miqyasda tədbirlər görülməsini zəruri edir. Mübaliğəsiz demək olar ki, bunların içərisində birinci yeri

ekologiyanın qorunmasının iqtisadi aspektləri tutur. Hava və su hövzələrinin təmizliyinin standartlara uyğun surətdə qorunub saxlanması ilə əlaqədar tədbirlər, bütün növlərdən olan təmizləyici qurğuların inşa olunması, müasir texnoloji proseslərin təhlükəsizliyi və bütövlükdə təbiəti mühafizə fəaliyyətinin təmin olunmasını tələb edir. Lakin ekspertlərin hesablamalarına görə dünyada ətraf mühitin mühafizəsi ilə əlaqədar olaraq sərf edilən xərclərin ümumi məbləği ekoloji vəziyyətin əvvəlcə sabitləşdirilməsi, sonra isə yaxşılaşdırılması üçün zəruri olan xərclərdən təqribən 2,5 dəfə azdır.

**Bu məqsədlə aşağıdakı işlərin görülməsi vacibdir**: 1) hər bir ölkə müvafiq elmi-tədqiqatlar və «ekoloji büdcəyə» dair beynəlxalq razılaşmalar əsasında bəşəri ekoloji problemlərin həllinə öz töhfəsini verməli, birinci növbədə ehtiyatlara qənaət etmək imkanı verən və tullantısız texnologiyalardan istifadə etməli, əhalinin təsərrüfat fəaliyyəti üzərində ekoloji nəzarəti gücləndirməlidir; 2) insanla təbiət arasındakı qarşılıqlı əlaqənin «münaqişəli» xarakteri onda təzahür edir ki, onun malik olduğu ehtiyatlar iqtisadi və demoqrafik artım üçün nəinki imkan yaradır, həm də ilkin şərait hazırlayır. İndi artımın iqtisadi hüdudları real həqiqətə çevrilmişdir. Çünki bu artım artıq təkrar istehsalı mümkün olmayan (neft, qaz, dəmir filizi və i.a.) xammal və enerji ehtiyatlarından daha çox istifadə edilməsi hesabına təmin oluna bilməz. Bu isə təbii ehtiyatlardan istifadə edilməsinə yeni, mütərəqqi metodla yanaşılmasını tələb edir; 3) bəşəriyyətin qarşısında yeni texnoloji mədəniyyət formalaşdırmaq vəzifəsi durur ki, bu da öz mahiyyətinə görə ekologiyanın qorunmasına xidmət etməlidir. Burada tullantısız texnologiyanın köməyi ilə istehsalla təbiət arasındakı «antaqonizmi» yumşaltmaq, sonra isə ləğv etmək və təbii ehtiyatlardan səmərəli istifadə etmək mümkündür. Tullantının olması texnologiyanın təkmil olmamasının nəticəsidir.

**Beləliklə, təbii ehtiyatlar tükənməz deyildir**, onların miqdarı məhduddur, müəyyən hədd daxilindədir. Lakin son illərdə cəmiyyətin təbiətə təzyiqi o dərəcədə artmışdır ki, təbii olaraq ətraf mühitin qorunub saxlanmasına xüsusi qayğı ilə yanaşılmasının zəruriliyi meydana çıxmışdır. Bütün bunlar göstərir ki, təbii eh-

tiyatlardan qənaətlə və səmərəli istifadə edilməsi müasir dövrün ən mühüm iqtisadi problemlərindən biridir. Akademik V.İ.Vernadskinin sözləri ilə desək, bəşəriyyət elə bir yeni dövrə daxil olmuşdur ki, indi təbii ehtiyatlara biganə yanaşmaq olmaz. Ona görə də yeni texnika yaradılarkən işçinin və ətraf mühitin qarşılıqlı əlaqəsinin zəruriliyi, tətbiq olunan texniki-iqtisadi tədbirlərin cari dövrdə və perspektivdə ekoloji nəticələri, elmi-texniki yeniliklərin səmərəliliyi müəyyən edilərkən təbiəti mühafizə üzrə tədbirlərə çəkilən xərclər nəzərə alınmalıdır.

Deməli, ətraf mühitin mühafizəsi sahəsində dövlət tərəfindən tənzimləmənin zəruriliyi həm də onunla əlaqədardır ki, bu problemin yalnız xalis bazar mexinizmləri əsasında həll edilməsi mümkün deyildir. Bazar sistemi pulla qiymətləndirilən resurslardan istifadə olunduqda və onlar bölüşdürüldükdə səmərə verir. Aşağı qiymətlə, yaxud da pulsuz verilən resurslardan istifadə olunduqda isə bazarın çatışmazlıqları özünü göstərir. Təbii ehtiyatlar məhz bu qəbildəndir.

**Təbii ehtiyatlardan istifadə olunarkən «xarici səmərə» deyilən bir səmərə əmələ gəlir.** Bu, ətraf mühitə dəymiş ziyanın aradan qaldırılması və onun qarşısının alınması ilə əlaqədar olan xərclərdir. Bu xərcləri pulla ifadə etmək çətindir. Bunlar istehsalın subyektləri tərəfindən nəzərə alınmır və (və ya) onlardan asılı deyildir. Onlar bir qayda olaraq cəmiyyət, bəzi hallarda hətta gələcək nəsillər üçün xərclər sırasına daxil edilir. Məsələn, bəzi əmtəələrin istehsalı və istehlakı zamanı əmələ gələn tullantılar emal olunarkən, yaxud da onlardan istifadə edilərkən çəkilən xərclər müəssisələrin gəlirləri və xərcləri hesablanarkən heç də həmişə nəzərə alınmır. Bunun nəticəsində əmtəələr aşağı qiymətlərlə təklif olunur. Xarici səmərə ilə təhrif olunan qiymət əmələgəlmə istehsalın və istehlakın idarə edilməsində xətalara gətirib çıxarır. Buna uyğun olaraq təsərrüfatçılıq edən ayrı-ayrı subyektlərin gəlirləri ilə xərcləri arasındakı kənarlaşmanın (fərqin) və bütövlükdə cəmiyyətə dəyən zərərin (xərcin) aradan qaldırılmasının zəruriliyi meydana çıxır.

Beləliklə, ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində bazar mexanizminin «iflası» bu proseslərin dövlət tərəfindən tənzimlənməsini zəruri edir.

## 10.2. Ətraf mühitin mühafizəsi sahəsində dövlət tənzimləməsinin məqsədi, vəzifələri və səmərəliliyi

Sovet kommunist imperiyasının yeritdiyi ekoloji müstəmləkəçilik siyasətinin nəticəsində ölkəmizin bir çox regionlarında, məsələn, Bakı, Gəncə, Sumqayıt şəhərlərində, pambıqçılıq və tütünçülük rayonlarının demək olar ki, hamısında ətraf mühitin kəskin surətdə pisləşməsi, havanın, suyun, torpağın çirklənməsi prosesi getmiş və ekoloji tarazlıq pozulmuşdu. Bunların başlıca səbəbləri həmin dövrdə insan orqanizmi üçün zərərli olan, ətraf mühiti çirkləndirən istehsal sahələrinin hakim millətin mənafelərinə uyğun olaraq ittifaqın başqa ərazilərində, o cümlədən Azərbaycanda yerləşdirilməsi, ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün heç bir tutarlı tədbirin görülməməsi olmuşdur.

Ona görə də müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizin qarşısında duran ən mühüm vəzifələrdən biri də elmi cəhətdən əsaslandırılmış ekoloji siyasət yeridilməsindən ibarət olmuşdur. Burada başlıca məqsəd əlverişli ətraf mühitin bərpası və qorunub saxlanması, təbii resurs potensialından indiki və gələcək insan nəsillərinin mənafelərinə uyğun şəkildə istifadə olunması ilə əlaqədar sosial-iqtisadi vəzifələrin tarazlı həllini təmin edən sabit inkişafa keçilməsindən ibarət olmuşdur.

Bütün bunlar onu deməyə əsas verir ki, sovet hakimiyyəti illərində pozulmuş ekoloji tarazlığın bərpa olunması və onun mühafizəsi Azərbaycan dövlətinin ən mühüm vəzifələrindən biri olmuşdur və biridir.

**Dövlətin ətraf mühitin mühafizəsi sahəsində tənzimləmə funksiyalarından aşağıdakıları qeyd etmək olar:**

1) institusional və struktur dəyişiklikləri çərçivəsində iqtisadi fəaliyyətin ekologiyalaşdırılması yolu ilə ətraf mühitin yaxşılaşdırılması;

2) təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadi tənzimləmə mexanizminin hüquqi əsaslarının yaradılması;

3) yeni təsərrüfatçılıq modellərinin formalaşdırılması və ekologiyanın idarə olunmasına yönəldilən metodların geniş tətbiqi üçün şəraitin yaradılması;

4) ölkənin yerli və regional iqtisadi sistemlərinin təsərrüfat tutumluğunun qiymətləndirilməsi, onlara təsiretmə vasitələrinin müəyyənləşədirilməsi;

5) beynəlxalq ekoloji tədbirlərdə fəal iştirakın təmin edilməsi;

6) ekoloji təhlükəsizlik ideyalarının səmərəli təbliğat sisteminin formalaşdırılması, müvafiq ekoloji-hüquqi təlim-tərbiyə sisteminin yaradılması (ekoloji təfəkkürün formalaşdırılması).

Ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində səmərəli dövlət tənzimləmə vasitələrinin tapılması, bununla bağlı tədbirlərin qiymətləndirilməsi meyarları ilə əlaqədardır.

**Hər şeydən əvvəl, tullantıların müəyyən olunmuş maksimum normalardan çox olmasına yol verilməməlidir. Bu, necə deyərlər, ekoloji səmərəliliyin meyarıdır.**

**İkincisi,** ən az xalq təsərrüfatı xərcləri ilə ekoloji məqsədə nail olunması texniki biliklərin mövcud səviyyəsində təmin oluna bilər. **Bu, statik mənada iqtisadi səmərəlilik meyarıdır.** Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq zərərin ödənilməsinə sərf olunan minimum xalq təsərrüfatı xərcləri isə daim azalır. **Bu dinamik mənada iqtisadi səmərəlilik adlanır.**

**Üçüncüsü**, tətbiq olunan dövlət tənzimləmə vasitələrinin sosial səmərəliliyi nəzərə alınmalıdır. Məsələn, təbiəti mühafizə tədbirlərinin stimullaşdırılması ilə əlaqədar görülən işlər istehsal xərclərinin xeyli artmasına səbəb ola bilər ki, bu da investisiyaların azalmasına, istehsalın ixtisar olunmasına, hətta bəzi hallarda müəssisələrin bağlanmasına gətirib çıxarar. Təbiəti mühafizə tədbirlərinin gücləndirilməsi yüksək işsizlik şəraitində məşğulluğun təmin olunması ilə ziddiyyət təşkil edə, digər tərəfdən isə ətraf mühitin mühafizəsi üzrə tədbirlər məşğulluğun səviyyəsinə müsbət təsir göstərə bilər. Bu, məsələn, təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi üzərində nəzarətetmə ilə əlaqədar istehsal və inzibati sferalarda yeni iş yerlərinin yaradılması yolu ilə

mümkündür. Həyata keçirilən tədbirlərin ümumi sosial səmərəliliyi belə qiymətləndirilir.

**Dördüncüsü,** ətraf mühitin mühafizəsinin gücləndirilməsi ilə əlaqədar tədbirlərin siyasi cəhətdən həyata keçirilməsinin mümkünlüyü nəzərə alınmalıdır. Beləliklə, təbiəti mühafizə siyasətində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün onun prioritetləri müəyyənləşdirilməli, planlaşdırılan tədbirlərin mümkün nəticələri nəzərə alınmalıdır.

Təbiəti mühafizə fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi sisteminin xüsusiyyəti ondan ibarətdir ki, tənzimləmə bir neçə səviyyədə – ümumdövlət, region və yerli – aparılır. Son dövrlərdə ölkəmizdə təbiətdən istifadə və ətraf mühitin mühafizəsi ilə əlaqədar bütün səviyyələrdə məqsədyönlü iş görülür. Və bu sahədə vahid dövlət siyasəti Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılır. Nazirlik əlaqələndirmə funksiyalarını yerinə yetirir, müvafiq normativ-hüquqi aktları işləyib hazırlayır, nəşr etdirir və onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir.

## 10.3. Ətraf mühitin mühafizəsi sahəsində dövlətin tənzimləmə vasitələri

Müasir dövrdə ətraf mühitin mühafizəsi sahəsidə inzibati və bazar mexanizmlərindən ibarət (qarışıq mexanizm) simbioz əmələ gəlmişdir. Hazırda dünyada bu sahədə 80-dən çox müxtəlif iqtisadi vasitələr vardır ki, bunların içərisində də ətraf mühitin monitorinqini, təbiətdən istifadə proseslərinin idarə olunmasını, təbiəti mühafizə fəaliyyətinin maliyyələşdirilməsi və stimullaşdırılmasını xüsusi qeyd etmək lazımdır.

Bunlar inkişaf etmiş ölkələrin əksəriyyətində ekoloji siyasətin aparılması və onun maliyyələşdirilməsinin əsasını təşkil edir və buna müxtəlif növ çirklənmələr üçün standartların müəyyən edilməsi yolu ilə nail olunur. Məsələn, avadanlıq vahidi hesabı ilə zərərli tullantıların yol verilən maksimum həcmi onların azaldılması normaları və s. müəyyən edilir. Bunların qanunveri-

cilikla mahdudlaşdırılması, dövlət tərəfindən normalaşdırmalar, nəzarət və sanksiyalar xüsusi nəzərə alınır. Təbiəti mühafizə üzrə qanunlar **«çirkləndirən ödəməlidir»** prinsipinə əsaslanır. Hazırda tənzimləmə normativləri ekoloji siyasətin təsərrüfat fəaliyyətinə, investisiya fəallığına, innovasiya proseslərinə əsas təsiretmə üsullarıdır.

**Azərbaycan Respublikasında tənzimləmə vasitələri və standartları,** habelə bu sahədə hüquq normalarını pozanlara qarşı sanksiyalar Azərbaycan Respublikasının müvafiq qanunları və normativ-hüquqi sənədləri ilə tənzimlənir.

Normativ tənzimləmənin üstünlüyü onun təcrübədə tətbiqinin operativliyində və ekoloji baxımdan səmərəliliyindədir. Bundan xüsusilə ağır vəziyyətlərdə, ekoloji sistemin fəaliyyətinin pozulmasının təcili surətdə qarşısının alınması zəruriyyəti meydana çıxdıqda istifadə olunur.

Lakin məcburetmə vasitələrində çox ciddi çatışmazlıqlar vardır. Bu, özünü əsas etibarilə onda göstərir ki, onlara ekoloji məqsədlərə böyük məbləğdə xərc çəkilməsi hesabına nail olunur. Normativ tənzimləmə bir qayda olaraq müxtəlif müəssisələrdə fərdi xərcləri nəzərə ala bilmir. Lakin istehsal olunan məhsullar, avadanlıqlar, texnologiyalar çox müxtəlif olduqlarına görə müəssisələr üçün rəqabət mübarizəsində bərabər şərait yaradılması və ümumi istehsal xərclərinin aşağı salınması üçün zəruri olan ətraf mühitin mühafizəsi ilə əlaqədar tədbirlərə çəkilən xərclərdəki müxtəlifliyin nəzərə alınması və fərqli normaların müəyyən edilməsi, əslində, mümkün deyildir. Bundan başqa, nəzarət etmək üçün çoxlu sayda əlavə işçi qüvvəsindən istifadə olunması lazım gələrdi. Normativ tənzimləmə, həmçinin ətraf mühitə zərərli tullantıların qarşısının səmərəli surətdə alınması üçün uzunmüddətli stimullaşdırmanı təmin edə bilmir. Müəssisələr ətraf mühitin çirklənməsi dərəcəsinin aşağı salınmasına gətirib çıxaran tədqiqatlardan və işləmələrdən səmərə əldə etmirlər.

**Dövlətin iqtisadi cəhətdən səmərəli ekoloji siyasəti makroiqtisadi tədbirlərlə sırf ekoloji sahəyə aid olan tədbirlərin çevik əlaqələndirilməsinə əsaslanır.** Makro-iqtisadi tədbirlər bütün iqtisadiyyatda, yaxud da onun ayrı-ayrı bölmələrində (məsələn, xalq

təsərrüfatı komplekslərində) həyata keçirilir. Onlar sırf ekoloji məqsədlər daşımaya bilər. Bu tədbirlərə struktur dəyişikliklərini, milli valyutanın məzənnəsinin dəyişməsini, dövlət büdcəsi kəsirinin azaldılmasını, kredit-maliyyə siyasətini, xarici ticarətin liberallaşdırılmasını, xüsusi bölmənin rolunun gücləndirilməsini, iqtisadiyyatın əsas sahələri və bölmələrində qiymət və vergi islahatlarının aparılmasını, xarici investisiyalar üçün şərait yaradılmasını və s. misal göstərmək olar. Bütün bu tədbirlər, mexanizmlər və islahatlar bu və ya digər formada ekoloji vəziyyətə təsir göstərir. Belə ki, kəskin rəqabət, kütləvi müflisləşmə, habelə sərt maliyyə siyasəti şəraitində müəssisələr arasında onların tipindən (dövlət, kooperativ, səhmdar, xüsusi) və fəaliyyət sferasından (sənaye, kənd təsərrüfatı və i.a.) asılı olmayaraq yaşamaq uğrunda mübarizədə onların ilk qurbanına təbiət çevrilir. Müəssisələr təbiəti mühafizə tədbirlərindən, ekoloji təmizliyə xidmət edən avdanlıqların satın alınmasından qaçırlar. Çünki ekoloji xərclər əsas məhsulların buraxılışını artırmır. İstehsalat tullantıları ya gizlədilir, ya da cərimə və müəyyən rüsumları ödəməmək üçün «dəfn olunur».

Makroiqtisadi səviyyədə dövlət tənzimləməsi ekoloji cəhətdən tarazlı xarakter daşımalıdır. Məsələn, iqtisadiyyatdakı struktur dəyişikliklərinin ekoloji yönümü təbiətdən istifadə ilə əlaqədar və hasilat sənayesi sahələrinin artımının sabitləşdirilməsindən ibarətdir. Burada söhbət, həm də əmək, maddi və maliyyə resurslarının onlarla bilavasitə əlaqədar olan sahə və fəaliyyət növlərinin xeyrinə yenidən bölgüsündən gedir. Bunlar ətraf mühitə təzyiqin azalmasına və təbii ehtiyatlara olan ümumi tələbatın ixtisar edilməsinə səbəb ola bilər.

**Dövlətin ətraf mühiti tənzimləmə mexanizmində «xüsusi vasitələr» ayrıca yer tutur.** Ətraf mühitin mühafizəsi və təbii ehtiyatların istismarı ilə əlaqədar ekoloji yönümlü xüsusi mexanizm və vasitələr sisteminin əsas ünsürləri aşağıdakılardır:

- dövlət tərəfindən təbiəti mühafizə xarakterli müxtəlif tədbirlərin həyata keçrilməsi (müvafiq ETTKİ-nin təşkili və maliyyələşdirilməsi, mütəxəssislərin hazırlanması, təmizləyici qur-

ğuların quraşdırılması, beynəlxalq proqramlar və təşkilatlar çərçivəsində öhdəliklərin yerinə yetirilməsi);

- inzibati-hüquqi tənzimləmə (hüquq pozuntularına qarşı inzibati və hüquqi qaydada tədbirlərin görülməsi, başqa sözlə, təbiəti mühafizə qanunlarını pozan müəssisələrin fəaliyyətlərinin dayandırılması; hüquq pozuntularına görə inzibati məsuliyyətə cəlb edilməsi və ətraf mühitə dəymiş zərərin ödənilməsi);

- xüsusi bölmənin dövlət tərəfindən iqtisadi cəhətdən stimullaşdırılması və onların təbiəti mühafizə fəaliyyətinin qorunub saxlanması (aşağı faiz dərəcələri ilə dolayı subsidiyalar və kreditlərin verilməsi, ekoloji təmiz texnikanın sürətli amortizasiyası, vergi güzəştləri, büdcə və büdcədənkənar ekoloji fondların yaradılması);

- təbiətdən istifadə edənlərdə ətraf mühitin mühafizəsi ilə əlaqədar həvəsləndirmə tədbirlərinin görülməsi (çirklənməyə görə ayırmalar, çirklənmə ilə əlaqədar hüquqların alqı-satqısı və i.a.);

- ekoloji proqramların işlənib hazırlanması və həyata keçirilməsi.

Bunlar ətraf mühitin mühafizəsinə və təbii ehtiyatlardan istifadənin yaxşılaşdırılmasına yönəldilən tədbirlərdir.

Beləliklə, ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində müasir tənzimləmə mexanizmi bazar münasibətləri əsasında fəaliyyət göstərir. Lakin bununla yanaşı, həm iqtisadi, həm də qeyri-iqtisadi xarakterli məcburetmə tədbirlərindən də istifadə olunur.

Təbiəti mühafizə fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsində istifadə edilən iqtisadi vasitələri bir qədər ətraflı nəzərdən keçirək.

Dövlət ayırmalar, vergilər və ya subsidiyalar vasitəsilə ətraf mühitin mühafizəsi ilə əlaqədar təkcə fərdi (xüsusi) istehsal xərclərinin deyil, həm də əmtəələrin istehsalı və istehlakı ilə əlaqədar xərclərin nəzərə alınmasının zəruriliyi haqqında təsərrüfat subyektlərində inam yarada bilər. Hər bir təsərrüfat subyekti ekoloji normalar çərçivəsində özü üçün belə bir dilemmanı həll etməlidir: ətraf mühiti çirkləndirməməli, yaxud da çirkləndir-

məyə görə pul ödəməli, başqa sözlə, ətraf mühiti çirkləndirməli, yoxsa subsidiya almalı? Suallarına cavab tapmalıdır.

**Bir sıra ölkələrdə atmosferin çirkləndirilməsi, çirkləndirməyə səbəb olan şeylərin su obyektlərinə atılması və tullantıların yerləşdirilməsinə görə ödəniş tədiyyələri tətbiq olunur.** Tədiyyə dərəcələri isə iki hissədən ibarət olur: 1) çirkləndirməyə səbəb olan şeylərin müəyyən olunmuş normativlərə uyğun gələn baza dərəcəsi; 2) baza dərəcəsinin beş mislinə bərabər olan limitdən artıq çirkləndirmə dərəcəsi. Regional xüsusiyyətləri nəzərə almaq məqsədilə ödəniş məbləği ekoloji vəziyyət əmasallarına əsasən təshih oluna bilər. Məsələn, Rusiya Federasiyasında bu 1-2 diapazonunda dəyişir.

Təbiəti mühafizə fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi sistemində subsidiyalar (pul yardımı) çox mühüm yer tutur. İnkişaf etmiş ölkələrdə ətraf mühitin mühafizəsi üzrə ETTKİ-nə, təmizləyici qurğuların tikintisi üçün yerli orqanlara subsidiyaların verilməsi təcrübəsindən geniş istifadə olunur.

**Geniş istifadə olunan və səmərəli hesab edilən vasitələrdən biri də vergilərdir.** Ekoloji vergilər (onlara bəzən yaşıl vergilər də deyilir) ən azı aşağıdakı iki vəzifəni yerinə yetirməlidir: 1) məhsulların dəyərinin xərclərə və ətraf mühitə dəyən ziyana görə daha adekvat olmasına təsir etməlidir; 2) ekoloji ziyanın bütün cəmiyyətdən deyil, məhz onu törədənlər tərəfindən ödənilməsinə, başqa sözlə, «çirkləndirən ödəməlidir» prinsipinin həyata keçirilməsinə təsir göstərməlidir.

«**Yaşıl vergilər**» ekoloji cəhətdən tarazlaşdırılmış istehsalatların və fəaliyyət növlərinin inkişaf etdirilməsi üçün stimullaşdırıcı rol oynaya bilər. Dövlət, burada vergilərin köməyilə qiymətlərə təsir etməklə prosesə təkan verir, yerdə qalan işləri isə – istehsalçı və istehlakçının davranışına, ekoloji cəhətdən təmizlik dərəcəsindən asılı olaraq məhsullara olan tələb və təklifə təsir göstərilməsi – bazar mexanizmi yerinə yetirməlidir.

Dünyada təbiəti mühafizə tədbirlərinin stimullaşdırılması üçün sınaqdan keçirilmiş və özünü doğrultmuş tədbirlərdən biri də əsas kapitalın sürətli amortizasiyası, yəni amortizasiya ayırmaları normalarının artırılmasıdır. Ekoloji cəhətdən təmiz texnikanın və

ya təmizləyici avadanlığın sürətli amortizasiyası vergiyə cəlb olunan məbləğin azalmasına və bununla da müəssisənin xalis mənfəətinin artmasına səbəb olur.

**Ödəniş tədiyyələri və subsidiyaların çatışmayan cəhətləri də vardır.** Belə ki, ödəniş tədiyələri dərəcələrinin həddindən çox aşağı müəyyən edilməsi, ətraf mühitin mühafizəsi sahəsində qarşıya qoyulmuş məqsədə nail olunmasına imkan vermir. Dərəcələr həddindən çox yüksək olduqda isə təbiəti mühafizə tədbirləri özünü doğrultmur. Deməli, ödəniş tədiyyələri və subsidiyalar «sürüşkən» olmalı, yəni şəraitin dəyişməsindən asılı olaraq çevik şəkildə dəyişdirilməli və şəraitə uyğunlaşdırılmalıdır. Həm də onlar dəyişdirilərkən texniki tərəqqinin səviyyəsi, ölkədəki iqtisadi vəziyyət, inflyasiya və s. amillər nəzərə alınmalıdır.

**Ətraf mühitin dövlət tərəfindən tənzimlənməsi sistemində «ətraf mühit bazarı konsepsiyası» xüsusi yer tutur.** Bu konsepsiyanın əsasında müxtəlif növ çirklənmənin alqı-satqı ideyası durur. Və hər bir müəssisə özü üçün iki vəzifədən birini – tullantıların qarşısının alınması ilə əlaqədar tədbirlərə vəsait sərf etməli, yoxsa ətraf mühitdən istifadəetmə hüququna sahib olmalı? – həll edir.

Bu sövdələşmələrdə zəruri ilkin şərt ətraf mühitin bütün komponentləri – torpaq, bitki və heyvanlar, su ehtiyatları, atmosfer - üzərində mülkiyyət hüququ hesab olunur. Həm də ətraf mühit üzərində olan mülkiyyət hüququnun ayrı-ayrı şəxslər tərəfindən başqasına verilməsinin texniki imkanları mövcud olmalıdır. Bu zaman ətraf mühitin çirklənməsi nəticəsində ziyan çəkən təsərrüfat subyekti bu ziyanın həcminə mütənasib olaraq kompensasiya alır.

Lakin belə bir şəraitin yaradılması olduqca mürəkkəbdir. Ona görə də tədqiqatçıların çoxu belə bir fikir irəli sürürlər ki, ətraf mühitin mülkiyyətçisi olan dövlət, xüsusi şəxslərə ondan istifadəetmə hüququnu sertifikat (lisenziya) formasında versə daha yaxşı olar. Sertifikatlar qiymətli kağızlar kimi xüsusi bazarlarda alınıb-satılır. Onların qiymətləri bazar qanunları əsaında tənzimlənir.

Bunlara baxmayaraq ətraf mühit bazarının formalaşmasında bir sıra çətinliklər meydana çıxır. Bunlar özünü onda göstərir ki,

sertifikatların fəaliyyət müddəti müəyyən edilməlidir. Çünki vaxt keçdikcə sertifikatların qiyməti dəyişə, onun satılması miqyası dövlət tərəfindən məhdudlaşdırıla bilər. Həm də sertifikatların böyük bir hissəsinin ayrı-ayrı müəssisələrdə cəmləşməsinə yol verilməməlidir. Bu, sahədə rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilər.

Bütün bunlar nəzərə alınmaqla bəzi ölkələrdə, məsələn, ABŞ-da normativlərin, ödəniş tədiyyələrinin və sertifikatların verilməsinin çevik sistemini özündə birləşdirən qarışıq sistemdən istifadə olunur. **Buna kompensasiya tənzimləməsi deyilir.**

Təbiəti mühafizə tədbirlərinin mərkəzləşdirilmiş qaydada maliyyələşdirilməsi ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində idarəetmə sisteminin başlıca ünsürüdür. Ekoloji təhlükəsizliyin təmin edilməsi xətti ilə kapital qoyuluşunun çox hissəsi dövlət vəsaiti hesabına həyata keçirilir. Ümumi daxili məhsulun 1-2%-i bu məqsədlərə sərf olunur.

Cari təbiəti mühafizə tədbirləri çirklənmə ilə əlaqədar ödəmələr əsasında məqsədli mənbələr, habelə ekoloji fondların vəsaiti hesabına maliyyələşdirilməlidir.

Baş verən qəza və faciələrlə əlaqədar **ətraf mühitin çirklənməsinin nəticələrinin ləğv edilməsi üçün maliyyə resursları problemi əsas problemlərdən biri olsa da,** hələ tələb olunan səviyyədə işlənib hazırlanmamışdır. Bu, maliyyələşdirmənin variantlarından biri olduğu üçün həm könüllü, həm də məcburi ekoloji sığortalamanı nəzərdən keçirmək olar. Bu, hər bir ölkə üçün olduqca vacib məsələdir. Çunki müasir dünyada qəza və faciələrin sayı artır və buna görə də ekoloji sığortaya böyük ehtiyac vardır.

**Ekoloji sığortanın məqsədi bunlardır:**

1) ətraf mühitin çirklənməsi nəticəsində sığorta edilənə və üçüncü şəxsə dəyən ziyanın ödənilməsi;

2) qəza əleyhinə aparılan işlərə çəkilən xərclərin azaldılmasının stimullaşdırılması;

3) sığorta fondlarındakı pul vəsaitindən istifadənin səmərəliliyinin yüksəldilməsi.

İnkişaf etmiş ölkələrdə təmizləyici avadanlıqların satın alınması üçün dövlət tərəfindən aşağı faiz dərəcələri ilə kredit veril-

məsi təcrübəsindən, təbiəti mühafizə məqsədləri üçün ipoteka kreditindən geniş istifadə olunur, vergi tutulmayan xüsusi istiqrazlar buraxılır.

**Təbiəti mühafizə tədbirləri üçün mümkün olan əlavə maliyyə vəsaiti mənbəyi xarici kapitalın cəlb edilməsi ola bilər.** Beynəlxalq fondlar və təşkilatlar təbiəti mühafizə məqsədləri üçün müəyyən şərtlərlə investisiya qoymağa həmişə hazırdırlar. Artıq bir neçə ildir ki, dünya bankının iqtisadi yardım proqramlarında Polşada, Rumıniyada, Çexiyada, Slovakiyada, Macarıstanda və başqa ölkələrdə ekologiyanın yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülür. Dünya təcrübəsində xarici borcun ətraf mühitin mühafizəsi ilə əlaqədar tədbirlərə vəsait ayrılması yolu ilə ödənilməsi qaydasından istifadə olunur. Məsələn, keçən əsrin 90-cı illərinin əvvəllərində Kanada sabit inkişaf proqramına uyğun olaraq Latın Amerikası ölkələrinin ona olan 145 mln dollar borcunun ləğv olunduğunu elan etmişdir. Bu əməliyyatlar milli mənafelər baxımından düşünülübdaşınılmış şəkildə nəzərdən keçirilməlidir.

Strateji əhəmiyyətə malik olan başlıca ekoloji məqsədlərin reallaşdırılması üçün xüsusi proqramların işlənib hazırlanması və həyata keçirilməsi də olduqca zəruridir. Belə proqramlar qarşıya qoyulan məqsəddən və onların reallaşdırılması imkanlarından asılı olaraq beynəlxalq səviyyədə hər bir ölkə və regionlar üzrə işlənib hazırlana bilər.

Bu proqramların həyata keçirilməsində dövlət həlledici rol oynayır.

**Müasir şəraitdə kəskinləşən ekoloji problemlərin ümumdünya xarakteri onların həll edilməsi üçün müxtəlif ölkələrin səylərinin birləşdirilməsini zəruri edir.** Ətraf mühitin mühafizəsi ilə əlaqədar beynəlxalq əməkdaşlıqda dövlətin iştirakı (iki və çoxtərəfli təşkilatların işlərində iştirak və i.a.) beynəlxalq miqyasda təbiətdən istifadəni tənzimləyən, nizama salan ümumi prinsipləri, mexanizmləri və vasitələri işləyib hazırlamağa imkan verir.

ətraf mühitin mühafizəsi sahəsində dövlət tənzimləməsinin zəruriliyi müxtəlif amillərin təsiri nəticəsində ekoloji problemlərin kəskinləşməsi ilə əlaqədardır;

insanlar müxtəlif ölkələrdə yaşasalar və müxtəlif dillərdə danışsalar da, bir-birilərindən ənənələrinə, müasir dünyada mənafelərinə, tarixi keçmişlərinə, milliyyətlərinə, dini etiqadlarına və s. əlamətlərinə görə fərqlənsələr də, onların hamısının bir fəzası və bir kainatı vardır. Bu isə o deməkdir ki, ekoloji problemlər ümumi xarakter daşıyır və hamının mənafeyinə toxunur;

bütün bunlar ekoloji problemlərin birgə səylə həll edilməsi və tənzimlənməsini zəruri edir. Başqa sözlə, bütün ölkələrdə, beynəlxalq təşkilatlarda bu problemin həlli ilə əlaqədar məsələlər müzakirə olunur, konkret proqramlar qəbul edilir və həyata keçirilir;

ətraf mühitin mühafizəsi sahəsində dövlət tərəfindən tənzimləmənin zəruriliyi həm də onunla əlaqədardır ki, bu problemin yalnız bazar mexanizmləri əsasında həll edilməsi mümkün deyildir;

müasir şəraitdə ətraf mühitin mühafizəsi sahəsində inzibati və bazar mexanizmlərindən ibarət qarışıq mexanizm əmələ gəlmişdir. Və hazırda dünyada bu sahədə 80-dən çox iqtisadi vasitə vardır. Bunlar ölkələrin apardıqları ekoloji siyasətin və onların maliyyələşdirilməsinin əsasını təşkil edir;

təbiəti mühafizə fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi sistemində subsidiyalar (pul yardımı) çox mühüm yer tutur. İnkişaf etmiş ölkələrdə bu üsuldan geniş istifadə olunur;

səmərəli hesab edilən və geniş istifadə olunan vasitələrdən biri də vergilərdir. Ekoloji vergilər (buna yaşıl vergilər də deyilir) ən azı aşağıdakı vəzifələri yerinə yetirir: birincisi, məhsulların dəyərinin xərclərə və ətraf mühitə dəyən ziyana görə daha adekvat olmasına təsir etməlidir; ikincisi, ekoloji ziyanın bütün cəmiyyət deyil, məhz onu törədənlər tərəfindən ödənilməsinə, baş-

qa sözlə, «çirkləndirən ödəməlidir» prinsipinin həyata keçirilməsinə təsir göstərməlidir;

təbiəti mühafizə tədbirləri üçün mümkün olan əlavə maliyyə vəsaiti mənbəyi xarici kapitalın cəlb edilməsidir. Artıq bir neçə ildir ki, dünya bankının iqtisadi yardımı proqramları əsasında Polşada, Rumıniyada, Çexiyada, Slovakiyada, Macarıstanda və başqa ölkələrdə ekologiyanın yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüş və görülməkdədir;

strateji əhəmiyyətə malik olan əsas ekoloji məqsədlərin reallaşdırılması üçün xüsusi proqramların işlənib hazırlanması və həyata keçirilməsi zəruridir. Bu proqramların reallaşdırılmasında dövlət həlledici rol oynayır;

müasir dövrdə kəskinləşən ekoloji problemlərin ümumdünya xarakteri onların həll edilməsi üçün müxtəlif ölkələrin səylərinin birləşdirilməsini tələb edir. Yalnız bu yolla bəşəriyyəti dağıdıcı fəlakətlərdən qorumaq olar;

Sovet hakimiyyəti illərində «məhsuldar qüvvələrin yerləşdirilməsinin Lenin prinsipləri» pərdəsi altında yeridilən ekoloji müstəmləkəçilik öz ifadəsini insan orqanizmi üçün zərərli olan, ətraf mühiti çirkləndirən istehsal sahələrinin hakim millətin mənafelərinə uyğun olaraq ölkənin başqa ərazilərində, o cümlədən də Azərbaycanda yerləşdirilməsində tapırdı. Bakı, Gəncə və Sumqayıt şəhərlərində havaya həddindən çox zəhərləyici qazlar buraxan və bununla da ətraf mühiti kəskin surətdə çirkləndirən müəssisələrin tikintisinə, ərazimizdə insan həyatı üçün təhlükəli olan və uşaqların anadangəlmə qüsurlarla doğulmasına rəvac verən kənd təsərrüfatı bitkilərinin əkilib-becərilməsinə üstünlük verilməsi, ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün isə heç bir tutarlı tədbirin görülməməsi buna əyani sübutdur. Ona görə də müəyyən çətinliklərə baxmayaraq Azərbaycan dövləti tərəfindən müstəqilliyimizin ilk illərindən ölkəmizdə ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa olunması və qorunmasına xüsusi qayğı göstərilir, dövlət büdcəsində bu məqsəd üçün vəsait nəzərdə tutulur, insanlarda ekoloji təfəkkürün formalaşdırılması istiqamətində konkret tədbirlər görülüb həyata keçirilir.

# XI FƏSİL

# REGİONLARIN İNKİŞAF ETDİRİLMƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

## 11.1. Regional siyasətin mahiyyəti və məqsədi

Çoxqatlı iqtisadiyyata keçid mərkəzlə regionlar arasında qarşılıqlı əlaqələrin meydana gəlməsinə səbəb olur. Bununla əlaqədar olaraq «region» anlayışını aydınlaşdırmaq lazımdır. Çünki bu anlayışın müəyyən olunmasına müxtəlif yanaşmalar mövcuddur. Bunlardan aşağıdakıları qeyd etmək olar:

1) Region dedikdə təsərrüfat vahidləri (müəssisələr, sahələr və i.a.) kompleksi, regional planlaşdırma dedikdə isə onların fəaliyyətinin optimallaşdırılması nəzərdə tutulur. Bu, öz ifadəsini region üzrə milli gəlirin ən yüksək həddə çatdırılması, istehsalın inkişaf etdirilməsi və yerləşdirilməsinin optimallaşdırılmasında tapır; 2) Region sosial obyekt kimi müəyyən olunur və regional planlaşdırmanın qarşısında bu ərazidə yaşayan əhalinin həyat şəraitinin optimal həddə çatdırılması vəzifəsi durur. 3) Region sosial-iqtisadi obyekt kimi nəzərdən keçirilir və regional planlaşdırmanın vəzifəsi sosial şəraitin optimallaşdırılmasından ibarət olur.

**Müasir elmi və tədris ədəbiyyatında «region» anlayışı müəyyən olunarkən ərazinin coğrafi şəraiti** (harada yerləşməsi, əhalisinin sayı və i,a.), istehsal-funksional xüsusiyyətləri (üstünlük təşkil edən fəaliyyət növləri), şəhərsalma problemləri (istehsal, yaşayış və xidmət obyektlərinin inşa olunmasının xarakteri), sosioloji amillər (ünsiyyət, davranış norması və s.) nəzərə alınır.

Göründüyü kimi, region həm coğrafi, həm də iqtisadi anlayış kimi nəzərdən keçirilir. Bəzi hallarda onu xarici aləmlə qarşılıqlı fəaliyyətdə olan sistem kimi müəyyən edirlər. Bu sistemin ünsürləri təbii ehtiyatlar və iqtisadiyyatın müxtəlif sahələrinin müəssisələri (təsərrüfat-iqtisadi ünsürlər), habelə sosial ünsürlərdir. Sosial ünsürlər dedikdə əhali nəzərdə tutulur. Bu

ünsürlər arasında sabit əlaqə və münasibətlər vardır. Çünki əhali bir tərəfdən məhsuldar qüvvədir, digər tərəfdən isə istehsalın nəticələrini istehlak edir. Təsərrüfat-iqtisadi və sosial ünsürlərin qarşılıqlı fəaliyyəti prosesində bu sistemin xüsusi bir növü (sosial-iqtisadi proseslər) meydana çıxır.

**Beləliklə, region özünün xüsusi strukturu, təbii-iqlim şəraiti, iqtisadi potensialı, yerinə yetirdiyi funksiyaları, xarici aləmlə əlaqələri, tarixi, mədəniyyəti, əhalisinin həyat şəraiti ilə səciyyələnən bütöv bir sistemdir.**

Milli iqtisadiyyatın tərkibində olan regional iqtisadiyyat onun xüsusi bir hissəsini təşkil edir. Onun özünün idarəetmə obyekti, nəzəriyyə və metodologiyası, habelə bir sıra başqa spesifik cəhətləri vardır.

**Müasir dövrdə regionların tənzimlənməsinin aşağıdakı iki istiqaməti mövcuddur:** 1) dövlət tərəfindən tənzimləmə; 2) yerli hakimiyyət orqanları tərəfindən tənzimləmə.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafının dövlət proqramında ölkəmizin ərazisi 10 iqtisadi rayona və ya regiona bölünmüşdür. Bu regionlar bir-birindən özlərinin iqtisadi inkişaf səviyyələrinə görə fərqlənir. Lakin bununla yanaşı elə ümumi məsələlər də vardır ki, dövlət onların həyata keçirilməsi üçün məsuliyyət daşıyır və bu məqsədlə regional siyasət yeridir. **Bu məqsədlərə aşağıdakılar daxildir:**

- **Ölkənin ərazi bütövlüyünün**, iqtisadi, sosial, konstitusiya-hüquqi məkanının vahidliyinin qorunub saxlanması, yaşayış yerlərindən asılı olmayaraq bütün sahələrdə vətəndaşların bərabərliyinin təmin edilməsi;
- Regionların tarazlı ekoloji-iqtisadi inkişafının təmin olunması, onların təbii sərvətlərindən səmərəli istifadə edilməsi prinsiplərinin işlənib hazırlanması və əsaslandırılması, əhalinin məskunlaşması və normal yaşaması üçün hər cür şəraitin yaradılması;

- Bütün etnik qrupların həyat fəaliyyətlərini təmin edə bilən sağlam mühitin yaradılması və zaman keçdikcə onun daha da yaxşılaşdırılması;

- Regionların iqtisadi, təbii-iqlim, təbii-resurs, infrastruktur və digər xüsusiyyətləri ilə müəyyən olunan həyat səviyyəsində kəskin fərqlərin yaranmasına imkan verilməməsi. Bununla əlaqədar yeridilən regional siyasət bölgələrin sosial-iqtisadi inkişafının bir-birinə yaxınlaşdırılmasına yönəldilməlidir;

- Regional inkişaf sahəsində ölkənin geostrateji və geosiyasi maraqlarının təmin olunması.

**Müasir şəraitdə ərazilərin sosial-iqtisadi inkişafına və məhsuldar qüvvələrin yerləşdirilməsinə təsir göstərən regional tənzimləmə ölkəmiz üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Bu, aşağıdakılarla əlaqədardır:**

- Azərbaycan çox əlverişli təbii-iqlim şəraitinə, təbii sərvətlərə və iqtisadi potensiala malikdir;

- Azərbaycan çoxmillətli ölkədir və regional siyasətdə bu amil nəzərə alınmalıdır;

- Təbii-iqlim, iqtisadi və əhalinin həyat səviyyəsinə görə ölkə ərazisində fərqlər mövcuddur;

- İnzibati–amirlik sistemindən bazar münasibətlərinə keçid ölkə ərazisində inkişaf səviyyələrində müxtəlifliyə səbəb olmuşdur.

**Regionların inkişaf etdirilməsi üçün strateji planlaşdırma** xüsusi əhəmiyyət kəsb edir. Bu, idarəetmə sənədi olmaqla onda aşağıdakı məsələlər nəzərdə tutulur: regionun inkişaf etdirilməsində qarşıya qoyulan məqsəd; bu məqsədə nail olunması yolları; seçilmiş istiqamət üzrə hərəkətin təşkili metodları; qarşıya qoyulmuş məqsədə nail olunması üçün zəruri olan resurslar; bu resurslardan istifadəetmə üsulları.

Strateji plan yuxarıdan verilən göstəriş deyildir. **Strateji planlaşdırma prosesinə** bütün maraqlı şəxslərin (sahibkarların, siyasətçilərin və əhalinin bütün təbəqələrinin) cəlb edilməsi məqsədəuyğundur. Konfranslarda, seminarlarda və işçi qruplarında ekspertlərin və regionda yaşayan əhalinin iştirakı ilə tərtib olunan planın prioritetləri və meyarları ilə əlaqədar təkliflər işlənib

hazırlana bilər. Bu məqsədlə xüsusi işçi qrupunun yaradılması məqsədəuyğundur.

Regionun sosial-iqtisadi inkişafına dair strateji plan bu ərazinin güclü və zəif cəhətlərini aşkara çıxarmağa, insanlara yaxşı həyat şəraiti və biznes fəaliyyəti üçün əlverişli mühitin yaradılması məqsədilə onun rəqabət sahəsində üstünlüklərini inkişaf etdirməyə imkan verir.

**Regionun iqtisadi inkişafının həlledici məsələləri aşağıdakılardır:**

1) Yüksək əmək haqqı ödənilən yeni iş yerlərinin və ihtehsal sahələrinin yaradılması:

2) Mövcud ihtehsal sahələrinin inkişaf etdirilməsi;

3) İstehsalın strukturunun yeniləşdirilməsi;

4) Regionda istehsal olunan məhsulların beynəlxalq bazara çıxarılması və reallaşdırılması metodlarının inkişaf etdirilməsi.

**Regionun strateji planını aşağıdakı mərhələlərə bölmək olar:**

- qarşıya qoyulan məqsəd müəyyən edilir;
- regionun inkişaf etdirilməsi təhlil olunur;
- regionun malik olduğu müsbət və mənfi cəhətlər aşkara çıxarılır;
- mövcud olan üstünlüklərdən istifadə edilməsi araşdırılır;
- inkişaf konsepsiyası və strategiyası işlənib hazırlanır;
- konkret fəaliyyət planı işlənib hazırlanır və həyata keçirilir;
- səmərəlilik təhlil olunur, məqsəd və ona nail olunması metodları yenidən nəzərdən keçirilir, müəyyən düzəlişlər, əlavələr edilir.

**Qarşıya qoyulan məqsədə aşağıdakılar daxildir:**

- biznes mühitinin yaxşılaşdırılması;
- işsizliyin azaldılması;
- ərazidə yaşayan əhalinin rifahının yüksəldilməsi.

Bunlarla yanaşı, qarşıya qoyulan məqsədi belə konkretləşdirmək olar: kənd təsərrüfatında və Aqrar-Sənaye kompleksinə daxil olan digər sahələrdə çalışan işçilərin xususi çəkisini 2,0 dəfə, ticarətdə məşğul olanların xüsusi çəkisini sənayedə məşğul olanların xüsusi çəkisinə çatdırmaqla 2,0 dəfə, kiçik müəssisələ-

rin sayını 50% artırmaq, regionda 10 yeni müəssisə yaratmaq, fəaliyyətdə olan 5 müəssisəni modernləşdirmək və s.

**Başlıca məqsədin içərisində aşağıdakıları da nəzərdə tutmaq olar:**

- gəlirlərin və məşğulluq səviyyəsinin yüksəldilməsi;
- resurslardan və büdcə vəsaitindən səmərəli istifadə etməklə ümumi həyat şəraitinin yaxşılaşdırılması;
- biznes üçün əlverişli mühitin yaradılması (süni əngəlləmələrin aradan qaldırılması, vergi güzəştləri nəzərdə tutulması, daşınmaz əmlak və işçi qüvvəsi bazarlarının inkişaf etdirilməsi);
- sosial mühitin yaxşılaşdırılması (regionda təhsil, mədəni və intellektual potensialın, infrastrukturun - su, işıq, istilik təchizatı, kanalizasiya və i.a. - inkişaf etdirilməsi, ətraf mühitin mühafizəsi və s.).

Bunların hər biri üzrə fəaliyyət proqramı, təxmini yerinə yetirilmə müddətləri, mexanizmləri, nəzarətetmə formaları və maliyyələşdirmə mənbələri müəyyən olunur.

Xarici və daxili amillərin təhlili regionun malik olduğu potensialdan səmərəli istifadə olunmasına imkan verən sahə və fəaliyyət növlərinin müəyyən edilməsinə şərait yaradır. Burada hər şeydən əvvəl regionun coğrafi mövqeyi və təbii-iqlim şəraiti, ölkədə makroiqtisadi vəziyyət, əmək ehtiyatları, əsas fondlar, daşınmaz əmlak, sahibkarlıq mühiti, infrastruktur və kommunal xidmətləri nəzərdə tutulur.

Regionda yaradılan iş yerləri və həyat şəraiti cəlbedici olduqda, o daha müvəffəqiyyətlə inkişaf edir.

**Regionun rəqabət imkanlarını təhlil edərkən aşağıdakılara xüsusi diqqət yetirmək lazımdır:** regionda istehsal edilən məhsulların ixrac imkanları; elm və təhsilin inkişafı; innovasiya fəallığı; informasiya və telekommunikasiya sənayesinin inkişafı; ölkə iqtisadiyyatının strukturunda regionun yeri; makroiqtisadi vəziyyət; hökumətin proqnozları; regionlararası əlaqələrdə regionun yeri; regionun inkişaf etdirilməsi üçün maliyyə mənbələri; inkişafın daxili amilləri: insan potensialı – əhalinin cins, yaş, milli tərkibi, miqrasiyası, artımına təsir edən amillər, təhsili, işçilərin peşə hazırlığı, işsizliyin səviyyəsi və dinamikası, gəlirləri,

əmək haqqının səviyyəsi, hər nəfərə düşən ÜDM, əmək məhsuldarlığı, gəlirlərdə fərqin olması, orta ömür müddəti və i.a.; təbii resurslar: - torpaqdan istifadə, faydalı qazıntıların mövcudluğu; iqtisadi resurslar: - yerli iqtisadiyyatın strukturu; sürətlə inkişaf edən istehsal sahələri; biznes üçün yaradılmış mühitin vəziyyəti; infrastruktur, nəqliyyat, rabitə, kiçik sahibkarlığın inkişaf səviyyəsi; mədəni resurslar: - tarix və tarixi dəyərlər; sosial dəyərlər, normalar, adət-ənənələr, həyat tərzi, xalqın mentaliteti və i.a.

Bütün bunları təhlil etməklə, regionun daxili üstünlükləri və çatışmazlıqlarını aşkara çıxarmaq, onun inkişaf istiqamətlərini müəyyən etmək olar.

Mövcud olan üstünlüklərdən istifadə edilməsi və yenilərinin yaradılması mərhələsində aşağıdakılara xüsusi diqqət yetirilir: regionun mövcud üstünlüklərindən (harada yerləşməsi, əsas bazarlara yaxın-uzaq olması, demoqrafik xüsusiyyətləri, infrastrukturun inkişaf səviyyəsi) istifadə edilməsi, əlavə gəlirin hansı sahələrdə və hansı amillərin hesabına yaradılması imkanları nəzərdən keçirilir, əvvəlki dövrlərdə regionun sosial-iqtisadi inkişafının həyata keçirilməsinin nəticələri müəyyənləşdirilir, regional inkişafın idarə edilməsi sahəsində qazanılmış nailiyyətlər və yol verilmiş nöqsanlar aşkara çıxarılır, daxili amillər, əsas və əlavə sahələr dəqiqləşdirilir.

Regionlarda bazar infrastrukturunun inkişafına yönəldilmiş səylər müasir dövrdə öz aktuallığı ilə diqqəti daha çox cəlb edir. **Regionun sosial-iqtisadi inikişafı** xeyli dərəcədə həmin ərazidə bank, sığorta, konsaltinq, investisiya və digər təsisatların geniş şəbəkəsinin yaradılmasından asılıdır. Müasir dünyada məhz maliyyə mühitinin inkişafı innovasiya ideyalarının tətbiqinə imkan verir.

**Regionların inkişaf etdirilməsinin ən mühüm amillərindən biri də** müasir kommunikasiya, kompüter şəbəkəsinin yaradılması, internetdən sərbəst surətdə istifadə edilməsidir. XX əsrin əvvəllərində regionların inkişaf etdirilməsi üçün dəmir yolu hansı əhəmiyyətə malik idisə, müasir dövrdə yuxarıda göstərilən amillər də eyni əhəmiyyət kəsb edir. Bütün bunlar isə kadrların ha-

zırlanması və yenidən hazırlanması sisteminin yenidən qurulmasını zəruri edir.

İnkişaf konsepsiyası və strategiyasının işlənib hazırlanması mərhələsində regionun inkişaf etdirilməsinin məqsədi, onun amilləri və mexanizmi, idarəetmə metodları haqqında son nəticə formalaşdırılır. Konsepsiyada regionun inkişafında prioritet sahələri, strategiyanın alternativ variantları, onların qiymətləndirilməsi, ən əlverişli variantın seçilməsi və s. nəzərdə tutulur.

Konkret fəaliyyət planının işlənib hazırlanması və strategiyasının həyata keçirilməsi mərhələsi regionun inkişafında xüsusi yer tutur. Formalaşdırılmış konsepsiya və strategiya əsasında konkret fəaliyyət planı işlənib hazırlanır. **Strateji inkişaf planında aşağıdakı müstəqil bölmələr də nəzərdə tutula bilər:**

a) regional mülkiyyətin, o cümlədən təbii ehtiyatlar və torpağın idarə edilməsi. Bu bölmədə adətən geoinformasiya sistemi, mənzil-kommunal sferasında enerjiyə qənaət etmək imkanı verən texnologiyalar, yaşayış evlərənin sığortası, mülkiyyət hüququ və s. nəzərdə tutulur.

b) regionun inkişaf etdirilməsi ilə əlaqədar əlavə maliyyələşdirmə mənbələrinin formalaşdırılması. Bu bölməyə büdcə və büdcədənkənar vəsaitin xərclənməsinin və müdiriyyətin işinin bütün istiqamətlərdə səmərəliliyinin yüksəldilməsi, regional fondların yaradılması, vergi bazasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi və s. daxil edilir.

c) kiçik sahibkarlığın müdafiəsi üzrə tədbirlər. Bu bölməyə birinci növbədə müsabiqə və payla iştirak əsasında layihələrin maliyyəşdirilməsi, lizinq şirkətlərinin, təminat fondunun regionda kiçik informasiya müəssisələrinin yaradılması, bazar infrastrukturunun inkişaf etdirilməsi, treninqlərin keçirilməsi və s. daxil edilir.

d) mənzil-kommunal təsərrüfatında islahatların aparılması, şəhər təsərrüfatında rəqabətin inkişaf etdirilməsi.

e) regionun inkişaf etdirilməsi ilə əlaqədar məqsədli idarəetmə yalnız fəaliyyət proqramına əsaslanmır, həm də regionun iqtisadi və sosial inkişafına dair monitorinqin aparılmısını, onun nəticələrinin qarşıya qoyulan məqsədlə müqayisə olunmasını və di-

gər tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Və qarşıya belə suallar qoyulur: strategiya resurslara, ətraf mühit haqqında məlumatlara uyğun gəlirmi. Regionun «ən ağrılı» problemlərinin həll edilməsinə imkan verirmi, regionun əhalisi strategiyanı müdafiə edirmi? və s. və i.a.

**Regionun sosial-iqtisadi inkişafının idarə edilməsi ilə əlaqədar işlərin genişləndirilməsi üçün iqtisadi inkişaf agentliyinin yaradılması məqsədəuyğundur.** Bu agentlik banklarla əlaqələrin möhkəmləndirilməsinə, potensial investorlarla əlaqələrin yaradılmasına təsir göstərə bilər.

Regionların iqtisadi inkişafının planlaşdırılması fasiləsiz prosesdir. Onun çərçivələri daxilində hər cür, o cümlədən taktiki qərarların qəbul edilməsi həyata keçirilir. Uzun müddətli iqtisadi inkişaf planının mövcudluğu bəzi məsələlərin yerinə yetirilməsinə imkan verir.

## 11.2. Regional inkişafın dövlət tərəfindən tənzimlənməsi metodları

Dövlət, regionların inkişafını əsas etibari ilə maliyyə vasitələrinin köməyi, habelə məqsədli proqramların işlənib hazırlanması yolu ilə tənzimləyir.

**Məlum olduğu kimi, bütün iqtisadi sistemlərdə insanlar arasında sosial bərabərsizlik mövcuddur. Lakin bu təkcə insanlara deyil, həm də regionlara aiddir.** Bu, özünü ilk öncə regionlar üzrə hər nəfərə düşən gəlirin müxtəlifliyində göstərir. Bunun aradan qaldırılmasına kömək etmək məqsədilə ayrı-ayrı ölkələrdə müxtəlif adlar altında (məsələn, kompensasiya fondu, sosial xərclərin birgə maliyyələşdirilməsi fondu, regional inkişaf fondu və s.) fondlar yaradılır. Proqramda hər fond üzrə ayrılıqda, maliyyə yardımının tipi, onun bölüşdürülməsi prinsipləri, verilməsi və istifadə olunması şərtləri müəyyən edilir. Bununla birlikdə regional hakimiyyət orqanları öz gəlirlərinin artırılması və qeyri-məhsuldar xərclərin ixtisar olunması üçün lazımi səy göstərməlidirlər.

**Dövlətin bazar iqtisadiyyatına bilavasitə təsir göstərməsinin ən səmərəli «aləti» məqsədli proqramlaşdırmadır. Bu, iqtisadi siyasətdə prioritet sahələrin müəyyən edilməsi deməkdir.** Həmin metod mərkəzi hakimiyyətin regionların problemlərinin həllinə fəal təsir göstərməsinə, həm cari, həm də strateji vəzifələrin, ilk növbədə regionların sosial-iqtisadi inkişaf səviyyələrinin bir-birinə yaxınlaşdırılmasının həll edilməsinə imkan verir.

Mülkiyyətin və təsərrüfatçılığın çoxnövlülüyü şəraitində regionların sosial-iqtisadi inkişafının dövlət tərəfindən tənzimlənməsinin ən səmərəli forması məqsədli proqramlaşdırma, onun «alətlər» indən biri isə məqsədli kompleks proqramların tərtib olunmasıdır. Bu, aşağıdakılarla əlaqədardır:

1) məqsədli proqramlar regionun sosial-iqtisadi inkişafının başlıca problemlərini həll etmək üçün ilkin mərhələdə işlənib hazırlanan sənəddir;

2) məqsədli proqramların əsas təyinatı regionun sosial-iqtisadi inkişafı ilə əlaqədar ən mühüm problemlərin həll edilməsi üçün bir-biri ilə qarşılıqlı əlaqədə olan tədbirlərin işlənib hazırlanması sistemidir.

Hər bir konkret şəraitdə məqsədli proqrama daxil etmək üçün problemin seçilməsi regionun xüsusiyyətləri nəzərə alınmaqla prioritet istiqamətlərin müəyyən edilməsindən asılıdır.

**Məqsəd dedikdə, iqtisadi sistemin arzu olunan vəziyyəti nəzərdə tutulur. Qarşıya məqsəd qoyulması isə məqsədəuyğunluq adlanır.** Məqsədəuyğunluq sosial-iqtisadi inkişaf üçün ən mühüm proses hesab olunur. Bunu həyata keçirərkən məqsədin düzgün seçilməməsi, həll edilməli olan problemin deyil, başqa bir problemin həll edilməsinə gətirib çıxarır. Bu, arzuolunmaz nəticələr verə bilər. Odur ki, bir proses kimi məqsədəuyğunluq haqqında aşağıdakı iki təsəvvür biri - birindən fərqlənir:

1) **mexaniki təsəvvür**. Burada mənfəət, rentabellik, bazar payı və s-in səviyyəsinə əsasən mühakimə yürüdülür.

2) **sosial təsəvvür**. Bu zaman məqsədəuyğunluq prosesini müəyyən etməyə imkan verən insanların vərdiş, rəy, münasibət və s. kimi əlamətləri əsas götürülür.

Məqsədəuyğunluq prosesi üç əsas mərhələdən keçir: 1) ətraf mühitin təhlili; 2) tədqiq olunan sistemin qiymətləndirilməsi imkanları; 3) məqsədin göstərilməsi.

Məqsədəuyğunluqda tədqiq olunan sistemin imkanlarının hökmən nəzərə alınması vacib sayılır. Əks təqdirdə məqsəd real olmur və arzu olaraq qalır. İdarəetmə subyekti məhz arzu olunan məqsədlə onun imkanlarını müqayisə etmək yolu ilə qarşıya real məqsəd qoyur.

Məqsədin formalaşdırılması məsələsi nəzərdən keçirilərkən iqtisadi proseslərin idarə edilməsi üçün informasiyaların vacibliyini yaddan çıxarmaq olmaz. Bu mənada xüsusi qeyd etmək lazımdır ki, idarəetmə vəzifələrinin həll edilməsi prosesində obyektiv və subyektivlik arasındakı nisbət olduqca böyük əhəmiyyətə malikdir. Obyektiv reallıq içtimaiyyətə informasiya sisteminin köməyi ilə çatdırılır.

**Ümumi halda məqsədəuyğunluğun aşağıdakı prinsiplərini göstərmək olar:**

- sosial-iqtisadi məqsədlər sistemi onun gələcək inkişafı haqqında fərziyyəyə əsaslansa da, mövcud vəziyyətlə şərtlənir;
- məqsədlər sisteminin formalaşması sahəsində nailiyyətlərin əldə edilməsi idarəetmə orqanının fəaliyyətindən asılıdır;
- sosial-iqtisadi vəziyyət haqqında tam və doğru məlumatların verilməsi regionun inkişaf etdirilməsinə dair düzgün strategiyanın işlənib hazırlanmasına təsir edir və qarşıya qoyulan məqsədin müvəffəqiyyətlə həyata keçirilməsində həlledici əhəmiyyətə malikdir.

**Regionun sosial-iqtisadi inkişafına dair kompleks proqram qarşıya qoyulan məqsədə nail olunması üçün vasitə, təsərrüfat fəaliyyətinin idarə edilməsi forması, cəmiyyətin ərazi üzrə təşkili üsuludur.** Proqramda prioritet istiqamətlərin düzgün seçilməsi bazar iqtisadiyyatı şəraitində regionların iqtisadi inkişaf imkanlarının həyata keçirilməsi üçün qüvvələrin və resursların səfərbərliyə alınmasına imkan verir. Burada bir cəhəti xüsusi qeyd etmək lazımdır. Bu, ondan ibarətdir ki, proqramda ayrı-ayrı regionların inkişaf etdirilməsi ilə əlaqədar nəzərdə tutulan strategiya öl-

kənin ümumi inkişaf strategiyası ilə üzvi surətdə əlaqələndirilməlidir.

Proqramda adətən regionların sosial-iqtisadi inkişafının miqyası, sürəti, proporsiyaları və əsas istiqamətləri, ərazi ilə əlaqədar problemlər müəyyən edilir, habelə istehsalın idarə olunmasının səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş tədbirlər sistemi, əhalinin həyat tərzinin təkmilləşdirilməsi və daha da yaxşılaşdırılması əsaslandırılır. Hər bir regionun inkişaf meylinin sabitliyi onun malik olduğu potensialdan, başqa sözlə, sosial-demoqrafik, təbii-resurs, maddi-texniki, texnoloji, informasiya və ekoloji potensialdan asılıdır. Bu imkanların miqyası nə qədər geniş olarsa, perspektiv üçün nəzərdə tutulan göstəricilər də bir o qədər etibarlı olur. Məsələn, kiçik bir şəhərdə iqtisadiyyatın strukturuna və onun inkişaf sürətinə təsir etmək üçün bir iri müəssisə tikilməsi kifayətdir. Regionların inkişafının prioritetləri müəyyən edilərkən xarici şəraiti və amilləri də nəzərə almaq lazımdır. Bunların içərisində xarici investisiyaların cəlb edilməsi imkanları, sosial-iqtisadi inkişafın dövlət strategiyası, regionun vəziyyəti və s. daha böyük əhəmiyyətə malikdir.

Bütün bu reallıqları nəzərə alan Azərbaycan dövləti regionların inkişaf etdirilməsi və bununla da onların arasındakı mövcud fərqlərin aradan qaldırılması və ölkə iqtisadiyyatında tarazlığın təmin olunmasına xüsusi diqqət yetirir. Bunu **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»** da aydın nümayiş etdirir. Proqramın qəbul edilməsini zəruri edən cəhətlər ondan ibarətdir ki, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra iqtisadiyyatımızın inkişaf etdirilməsi sahəsində bir sıra nailiyyətlər qazanılmasına baxmayaraq, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə də regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də həll edilməmiş problemlər qalmaqdadır. Ölkəmizin sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksər hissəsinin Bakı şəhəri və onun ətrafında yerləşməsi, regionlarda olan bir çox müəssisələrin, istehsal və xidmət obyektlərinin fəaliyyətlərinin zəifləməsi və ya tamamilə dayanması əhalinin ölkənin paytaxtına axınını sürətləndirmişdir. Bu amillər nəticə etibarilə region-

larda iqtisadiyyatın inkişafına mənfi təsir göstərmiş, onların inkişaf göstəriciləri arasında fərqin artmasına, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına səbəb olmuşdu.

Bütün bunlar Azərbaycan Respublikası regionlarının mövcud potensialından səmərəli istifadə olunmaqla, regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəlməsini və onlar arasında fərqin azaldılmasını tələb edirdi.

**2004-2008-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair** Dövlət Proqramında məhz iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla əlaqədar dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Bu proqramın əsas məqsədi ölkəmizin ayrı-ayrı bölgələrində mövcud potensialdan səmərəli istifadə edilməklə, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına ya istehsal müəssisələri yaradılması, yaxud da mövcud olanların fəaliyyətinin genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığı inkişaf etdirməklə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaqdan ibarətdir.

**Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:**

1) Mövcud müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal sahələri yaratmaq;

2) Yerli resurslardan istifadənin səmərəliliyini artırmaq;

3) Regionların inkişaf etdirilməsi üçün zəruri infrastrukturun yaradılması və inkişafını təmin etmək;

4) Aqrar bölmədə islahatların ikinci mərhələsini sürətləndirmək, bu məqsədlə regionlarda müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək;

5) İnvestorların regionlara cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;

6) Yeni iş yerlərinin yaradılmasını stimullaşdırmaq;

7) Əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq;

**Müasir dövrdə mövcud proqramlarda və onların işlənib hazırlanması metodikasında bir sıra təşkilati-metodiki çatışmazlıqlar özünü göstərir.** Bu öz ifadəsini onda tapır ki, prioritet sahələrin inkişaf etdirilməsi imkanları, proqramların seçilməsi və səmərəliliyi, sahələrarası uzlaşdırmalar, inteqrasiya əlaqələri kifayət qədər tutarlı dəlillərlə və nəzəri cəhətdən tam əsaslandırılmır, onların həyata keçirilməsi üzərində yerli səviyyədə zəif nəzarət olunur, ərazi üzrə proqramlarda regionların iqtisadiyyatlarının quruluşundakı uyğunsuzluqların (disproporsiyaların) aradan qaldırılmasına tələb olunan səviyyədə diqqət yetirilmir.

Nəzəri-metodoloji məsələlər və təcrübədə onlardan istifadə olunması ilə əlaqədar proqram – məqsədli metodlar nə qədər mükəmməl hesab olunsalar da, cəmiyyət dinamik inkişaf etdiyinə görə bu metodlara müasir dövrün tələbləri baxımından yeni yanaşmalar olmalı, onlar daim inkişaf etdirilməli, yeni-yeni ideyalarla zənginləşdirilməlidir. Məqsədli regional proqramların işlənib hazırlanması metodikasının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu, birinci növbədə regional problemlərin və məqsədli proqramların müəyyən olunması metodikasına aiddir.

Məlum olduğu kimi, ərazilərin inkişaf etdirilməsi vəzifələri dəyişir, maliyyə və digər resurslar isə məhduddur. Odur ki, eyni vaxtda bir neçə proqramın işlənib hazırlanması və bundan sonra seçim edilməsi məqsədəuyğundur. Bu məqsədlə proqrama daxil edilən problem ciddi və hərtərəfli öyrənilməli, vahid metodoloji mövqedən elmi cəhətdən əsaslandırılmalıdır.

**Problem seçilərkən aşağıdakı meyarlardan istifadə oluna bilər:**

1) milli iqtisadiyyat üçün regionun əhəmiyyəti, ən böyük struktur dəyişiklikləri, təsərrüfatlarda səmərəliliyin və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, ekoloji təhlükəsizliyin və təbiətdən səmərəli istifadənin təmin olunması ilə əlaqələri və s. və i.a.

2) regionun ölkə iqtisadiyyatında sahələrarası və çoxplanlı xarakteri, çoxsaylı icraçıların mövcudluğu və onların fəaliyyətinin əlaqələndirilməsi;

3) texniki, təşkilati və digər tədbirlərin mütərəqqiliyi, habelə gözlənilən nəticələr.

Beləliklə, regional siyasət bütövlükdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi və sahələr arasında tarazlığın təmin olunmasında çox mühüm rol oynayır və buna görə də bütün dövlətlər problemin bu cəhətinə xüsusi diqqət yetirirlər.

## NƏTİCƏ

- region anlayışı ilə əlaqədar müxtəlif fikirlər vardır. Mütəxəssislərdən bəzilərinin fikrincə region dedikdə, təsərrüfat vahidləri (müəssisələr, sahələr və i.a.) kompleksi nəzərdə tutulur. Bəziləri isə hesab edirlər ki, region sosial obyektdir;

iqtisadi ədəbiyyatda «region» anlayışı müəyyən olunarkən ərazinin coğrafi şəraiti, istehsal-funksional xüsusiyyətləri, şəhərsalma problemləri, sosial amillər və s. nəzərə alınır;

regionların tənzimlənməsinin aşağıdakı iki istiqaməti vardır: 1) dövlət tərəfindən tənzimləmə; 2) yerli hakimiyyət orqanları tərəfindən tənzimləmə;

regionun sosial-iqtisadi inkişafına dair strateji plan bu ərazinin güclü və zəif cəhətlərini aşkara çıxarmağa, insanlara yaxşı həyat şəraiti və biznes fəaliyyəti üçün əlverişli mühitin yaradılması məqsədilə onun rəqabət sahəsində üstünlüklərini inkişaf etdirməyə imkan verir. 2004-2008-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının dövlət proqramı məhz bu məqsədlərin həyata keçirilməsi üçün qəbul edilmişdir;

regionun rəqabət imkanlarını təhlil edərkən aşağıdakı şərtlər nəzərə alınmalıdır: regionun ölkə iqtisadiyyatında yerini müəyyən edən ixrac imkanları, elm və təhsilin inkişafı, infrastruktur sahələrinin mövcud vəziyyəti, inkişafın daxili amilləri – regionun insan potensialı, təbii və iqtisadi resursları və i.a. Bütün bunları təhlil etməklə, regionun daxili üstünlükləri və çatışmazlıqlarını aşkara çıxarmaq, onun inkişaf istiqamətlərini müəyyən etmək olar;

regionlarda bazar infrastrukturunun inkişaf etdirilməsinə yönəldilmiş səylər müasir dövrdə öz aktuallığı ilə diqqəti cəlb edir. Çünki regionun sosial-iqtisadi inkişafı xeyli dərəcədə həmin

ərazidə bank, sığorta, konsaltinq, investisiya və digər təsisatların geniş şəbəkəsinin yaradılmasından asılıdır;

regionların inkişaf etdirilməsinin ən mühüm amillərindən biri də müasir kommunikasiya, kompüter şəbəkəsinin yaradılması, internetdən sərbəst surətdə istifadə edilməsidir. Bu isə kadrların hazırlanması və yenidən hazırlanması sisteminin yenidən qurulmasını zəruri edir;

dövlət, regionların inkişafını əsas etibarilə maliyyə «vasitələrinin» köməyi, habelə məqsədli proqramların işlənib hazırlanması yolu ilə tənzimləyir, qarşıya müəyyən məqsədlər qoyur;

məqsəd dedikdə, iqtisadi sistemin arzu olunan vəziyyəti nəzərdə tutulur. Qarşıya məqsəd qoyulması isə məqsədəuyğunluq adlanır. Məqsədəuyğunluq sosial-iqtisadi inkişaf üçün ən mühüm proses hesab olunur. Odur ki, qarşıya qoyulan məqsəd düzgün seçilməlidir;

məqsədəuyğunluq müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplərə əməl olunmadıqda məqsədəuyğunluq arzu olaraq qalır. Həm də qarşıya qoyulan məqsədə nail olunması üçün konkret vəzifələr müəyyənləşdirilməli və yerinə yetirilməlidir;

qarşıya qoyulan problem seçilərkən milli iqtisadiyyat üçün regionun əhəmiyyəti, onun ölkə iqtisadiyyatında sahələrarası və çoxplanlı xarakteri, texniki, təşkilati və digər tədbirlərin mütərəqqiliyi, habelə gözlənilən nəticələr nəzərə alınmalıdır.

# XII FƏSİL

# MAKROİQTİSADİ TƏNZİMLƏMƏ VƏ MİLLİ HESABDARLIQ SİSTEMİ

## 12.1. Milli hesabdarlıq sisteminin meydana gəlməsi və formalaşması

İqtisadi ədəbiyyatda «milli hesablar sistemi» və «milli hesabdarlıq sistemi», yaxud da «milli hesablar» və «milli hesabdarlıq» anlayışları eyni mənanı verən sözlər kimi işlədilsələr də birincilərə daha çox rast gəlinir və onlara üstünlük verilir.

Milli hesabdarlıq sistemi (MHS) bazar iqtisadiyyatında sosial-iqtisadi prosesləri, təkrar istehsalı, onun nəticələrini səciyyələndirən və qarlışıqlı əlaqədə olan makroiqtisadi göstəricilər, qruplaşdırma və təsnifləşdirmə sistemidir. MHS həmçinin makroiqtisadi proseslər haqqında informasiyaların tənzimlənməsi sistemi olmaqla, həm də ölkə daxilində milli uçot deməkdir və buna görə də bu kontekstdə **«milli hesabdarlıq» termininin işlədilməsi daha məqsədəuyğundur.** Bu göstəricilər sisteminin nəzəri əsaslarını bazar iqtisadiyyatının fəaliyyət mexanizmini əks etdirən müasir konsepsiyalar və kateqoriyalar təşkil edir. Ona görə də **MHS-ni həm də bazar iqtisadiyyatının makrostatistik modeli adlandırırlar.**

MHS inkişaf etmiş bəzi ölkələrdə XX əsrin 30-cu illərinin axırlarında, rəsmi statistikada isə ikinci dünya müharibəsindən sonra (ABŞ, İngiltərə, Almaniya, Fransa, Skandinaviya ölkələri) meydana gəlmişdir. MHS-nin quruluşu makroiqtisadi hesablamalarda iki istiqamətin birləşmiş nəticəsindən ibarətdir. Bunlardan biri milli gəlirin, digəri isə tənzimlənən bazar iqtisadiyyatı mexanizmində iqtisadi silsilənin öyrənilməsi ilə əlaqədardır. Birinci istiqamət K.Klark, S.Kuznets, A.Marşall kimi iqtisadçıların, ikinci istiqamət isə XX əsrin dahi iqtisadçısı C.M.Keynsin adı ilə bağlıdır. **Bəzi iqtisadçılar Keynsi makroiqtisadi təhlil sahəsində milli hesabdarlığın «nəzəri atası» hesab edirlər.**

MHS-nin inkişaf etdirilməsində Keynsin şagirdi R.Stounun, C.Xiksin, P.Xillin, Nobel mükafatı laueratı Y.Timbergenin, R.Frişin, B.Leontyevin böyük xidmətləri olmuşdur.

Bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə MHS-dən siyasi və təsərrüfat işləri ilə əlaqədar qərarların qəbul edilməsi və nəticələrin təhlil olunmasında hökumət və ərazi hakimiyyət orqanları geniş istifadə edirlər. Dövlətin iqtisadi və sosial siyasətinin əsas müddəaları – iqtisadi artım, iqtisadiyyatın strukturu, əhalinin həyat səviyyəsi, inflyasiya, büdcə kəsiri və dövlət borcu problemləri, xarici iqtisadi əlaqələrin genişləndirilməsi və i.a. – öz əksini MHS-nin göstəricilərində tapır. Şirkətlər, xüsusilə də iri bizneslər özlərinin strategiya və taktikasını işləyib hazırlayarkən MHS-nin məlumatlarından istifadə edirlər.

MHS tədqiqat metodu və hesablamalar üçün informasiya bazası olduğuna görə elmi-tədqiqat təşkilatları, müxtəlif mərkəzlər, ali məktəblər, hökumət orqanları ondan analitik və metodoloji işlərdə, tövsiyələrin işlənib hazırlanması və bazar iqtisadiyyatı şəraitində gənclərin təhlil metodlarına yiyələnmələri ilə əlaqədar məsələlərin öyrənilməsində geniş istifadə edirlər.

MHS-nin məlumatlarına nəhayət ayrı-ayrı ölkələr arasında əməkdaşlığın həyata keçirilməsinə cavabdeh olan beynəlxalq təşkilatlar maraq göstərirlər. Çünki bu təşkilatlar həmin məlumatlardan istifadə etməklə, onların kreditləşdirilməsi, habelə xarici iqtisadi fəaliyyətlərinin əlaqələndirilməsinə nəzarət edirlər.

MHS-nin meydana gəlməsi və formalaşmasının əhəmiyyəti və zəruriliyi bunlarla müəyyən edilir. Bu cür tənzimləmənin zəruriliyi 1929-1933-cü illərdəki iqtisadi böhrandan sonra özünü daha qabarıq şəkildə biruzə vermişdir.

MHS-nin meydana gəlməsini stimullaşdıran digər hadisə ikinci dünya müharibəsi olmuşdur. İkinci dünya müharibəsi qurtardıqdan sonra daha çox inkşaf etmiş ölkələrin dövlət idarəetmə orqanları özlərinin həyata keçirdikləri iqtisadi siyasətdə prioritetlərin və istiqamətlərin müəyyənləşdirilməsi və iqtisadi artımın təmin olunması üçün sistemləşdirilmiş markoiqtisadi informasiyalara tələbat hiss etməyə başlamışlar.

Transmilli korporasiyaların fəaliyyəti ilə əlaqədar olaraq beynəlxalq mühasibat standartlarının yaradılması zəruriliyi meydana çıxmışdır. Çünki transmilli korporasiyalar mühasibat uçotu sistemlərinin fərqləndiyi ölkələrdə fəaliyyət göstərirlər.

İkinci dünya müharibəsindən sonra MHS-nin nəzəriyyə və metodologiyasının inkişaf etdirilməsində beynəlxalq iqtisadi təşkilatların (BMT, İİƏT və b.) çox böyük rolu olmuşdur. 1973-cü ildə mühasibat standartları üzrə beynəlxalq komissiya yaradılmışdır. Hazırda ona 71 ölkədən 97 mühasibat təşkilatı daxildir.

**Komitənin əsas məqsədləri aşağıdakılardır:**

1) maliyyə uçotunun ən mühüm standartlarının işlənib hazırlanması və dərc olunması;

2) onların yayılmasına təsir göstərilməsi;

3) ayrı-ayrı ölkələrdə mühasibat qanunvericiliyinin təkmilləşdirilməsinə kömək göstərilməsi.

1977-ci ildə məqsədi dünya birliyində beynəlxalq mühasibat standartlarının təkmilləşdirilməsi və yayılmasından ibarət olan mühasiblərin Beynəlxalq Federasiyası yaradılmışdır. 1982-ci ildə isə BMT yanında beynəlxalq uçot və hesabat standartları üzrə ekspertlərdən ibarət hökumətlərarası işçi qrupu təşkil olunmuşdur. Hazırda bu qurum mühasibat uçotu üzrə beynəlxalq standartları nəşr etdirən yeganə rəsmi təşkilatdır.

Beynəlxalq təşkilatlar bir tərəfdən, dünyanın müxtəlif ölkələrində MHS-nin tətbiq olunmasına təsir edir, digər tərəfdən isə ümumi daxili məhsul və MHS-nin başqa ən mühüm göstəricisi haqqında müqayisəli məlumatların toplanması və dərc olunmasını təmin edir.

**Mühasibat uçotunun inkişaf etdirilməsinə təsir göstərən ixtisaslaşdırılmış beynəlxalq təşkilatlardan aşağıdakıları qeyd etmək olar:**

- Mühasibat uçotunun standartlaşdırılması üzrə beynəlxalq komitə (International Accountinq Standarts Committee – IASC);

- Mühasiblərin beynəlxalq federasiyası (International Federation of Accountants – IFAC);

- Mühasib – ekspertlərin Avropa İttifaqı (Union Europienne des experts Comptables Economiques et Financiers – UEC);

- İİƏT – iqtisadi inkişaf və əməkdaşlıq təşkilatı (Organization for Economic Cooperation and Development – OECD);

- Asiya və Sakit okean regionları mühasiblərinin konfederasiyası;

- Mühasiblərin Amerika ölkələrarası assosiasiyası;

- Mühasibat uçotu üzrə Afrika şurası.

Beləliklə, MHS-nin fəaliyyəti hər şeydən əvvəl dövlət və dövlətlərarası tənzimləmə orqanlarına xidmət göstərilməsi ilə əlaqədardır. Onun əsas vəzifəsi makroiqtisadi səviyyədə bir-biri ilə qarşılıqlı fəaliyyətdə olan iqtisadi proseslərin müxtəlif aspektlərinin öyrənilməsini təmin etməkdən, ən mühüm göstəriciləri elə sistemləşdirmək və qaydaya salmaqdan ibarətdir ki, bunlar iqtisadi siyasətin formalaşması ilə əlaqədar məsələlər haqqında qərarlar qəbul edilməsini yüngülləşdirsin.

## 12.2. Milli hesabdarlıq sisteminin mahiyyəti və metodoloji əsasları

MHS müəssisə səviyyəsindən başlanan və makroiqtisadi səviyyədə başa çatan, bir-biri ilə qarşılıqlı əlaqədə olan və uzlaşdırılmış statistika göstəriciləri sistemi, bazar iqtisadiyyatına adekvat milli uçot deməkdir. Bu sistemə milli təsərrüfatda iqtisadi fəaliyyətin nəticələrini, iqtisadiyyatın strukturunu və ən mühüm qarşılıqlı əlaqələri səciyyələndirən hesablar və balans cədvəlləri toplusu daxildir.

**MHS istehsal amilləri haqqında müasir nəzəriyyələrə əsasən düzəldilmişdir.** Məlum olduğu kimi, əmtəələrin dəyərinin formalaşmasında əmək, torpaq və kapitalla yanaşı, texnologiyalar, idarəetmə və sahibkarlıq fəaliyyəti də iştirak edir. MHS-nin əsas anlayışlarının məzmunu və strukturunu, təsnifləşdirməni, statistikanın digər bölmələrinə yanaşılması və iqtisadi fəaliyyətin nəticələrinin təfsir olunmasını da məhz bunlar müəyyən edir.

MHS istehsalı, təhsili, gəlirin bölgüsü və istifadə olunmasını, investisiyaları, maliyyəni, habelə digər dövlətlərlə qarşılıqlı əlaqələri səciyyələndirir. Bütün təsərrüfat vahidləri, yəni əmtəə və xidmətlərin istehsalçıları, maliyyə təşkilatları, holdinqlər, sığorta şirkətləri, dövlət idarəetmə və ev təsərrüfatlarına xidmət göstərən xüsusi qeyri-kommersiya təşkilatları, istehlak və sahibkarlıq fəaliyyətləri ilə birlikdə ev təsərrüfatlarının özləri, qalan dünya ilə iqtisadi əlaqələr haqqında kəmiyyət göstəriciləri öz əksini MHS-də tapır. MHS yalnız maddi istehsalı deyil, həm də qeyri-maddi xidmətləri, maliyyə «axınını» əhatə edir.

**MHS-nin əsasında mühasibat uçotunun aşağıdakı prinsipləri durur:**

1) MHS mühasibat uçotunun ikili qeydiyyat prinsipinin əsasında qurulmuşdur. Bu, ardıcıl olaraq gəlirlərin, maliyyə resurslarının, vəsaitlərin hərəkətini izləməyə, habelə iqtisadi proseslərin düzgün qeyd olunmasına nəzarəti həyata keçirməyə imkan verir;

2) Onun əsasında mühasibat uçotu durur. Mühasibat uçotu sistemi məntiqi əsaslarla qurulmuş uçot vasitələrindən (mühasibat uçotunun ünsürlərindən) istifadə olunmaqla, mikro və makro səviyyələrdə taktiki və strateji vəzifələrin həllinə yönəldilmiş istehsal, təchizat və reallaşdırma proseslərini özündə əks etdirən tam bir kompleksdir.

**Mühasibat uçotunun təşəkkül tapması aşağıdakı mərhələlərdən keçmiş və bununla da onun indiki sistemi formalaşmışdır:**

1) Milli uçot sisteminin yaradılması ilə nəticələnən 1800-cü ilədək olan ticarət mərhələsi;

2) Müəssisələrin hesab planının yaradılması ilə nəticələnən 1900-cü ilədək olan sahibkarlıq mərhələsi;

3) 1950-ci ilədək olan təşkilati mərhələ. Bu mərhələdə maliyyə və idarəetmə sahələrində mühasibat uçotu yaradılmışdır;

4) 1950-1970-ci illəri əhatə edən və mühasiblərin avtomatlaşdırılmış iş yerlərinin, habelə marjinal mühasibatlığın tətbiqi ilə səciyyələnən optimallaşdırma mərhələsi;

5) 1975-ci ildən başlanan strateji mühasibatlığın və uçotun fəaliyyət seqmentlərinə bölündyü mərhələ.

1952-ci ildə BMT-nin himayəsi altında MHS-nin ilk variantı işlənib hazırlanmışdır. 1968-ci ildə isə bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə milli hesabdarlığın təcrübəsi nəzərə alınmaqla MHS-nin ikinci variantı çap olunmuş və hazırda dünyanın 150-dən çox ölkəsində ondan istifadə edilir. Bu varianta onun informasiya imkanlarını genişləndirən bir sıra göstəricilər, o cümlədən milli sərvət, kreditlərin hərəkəti və s. daxil edilmişdir.

Bundan başqa, sahələrarası balansların göstərici və cədvəllərinin qarşılıqlı surətdə əlaqələndirilməsi işlənib hazırlanmış və həyata keçirilmişdir.

**MHS aşağıdakı sahə və bölmələri əhatə edir:**

1) bütövlükdə iqtisadiyyat üzrə hesablar; 2) iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə hesablar; 3) iqtisadiyyatın ayrı-ayrı bölmələri üzrə hesablar; 4) ayrı-ayrı iqtisadi əməliyyatlar üzrə hesablar.

Makroiqtisadi informasiyalar hesabının iki tərəfi vardır: 1) ehtiyatlar; 2) onlardan istifadə olunması. Statistik məcmuələrdə bunlar sadəcə olaraq «ehtiyatlar» və «istifadə» sözləri ilə göstərilir. Bundan təsərrüfat subyektləri tərəfindən həyata keçirilən iqtisadi əməliyyatların qeydə alınmasında istifadə edilir.

Təsərrüfat subyektləri iqtisadiyyatın ayrı-ayrı bölmələri üzrə qruplaşdırılır. Onlar yerinə yetirdikləri vəzifələrin, yaxud da istehsal etdikləri məhsulların eynitipliliyinə (yekcinsliliyinə) görə bu və ya digər bölməyə aid edilir. **«Bölmə» anlayışı «sahə» anlayışından fərqlənir.** Məsələn, müəssisə (firma) müxtəlif sahələrə aid edilə bilər. Lakin statistik qruplaşdırmaya uyğun olaraq onların hamısı bir bölməyə aid edilir. Bununla əlaqədar olaraq daxili iqtisadiyyatın quruluşunda aşağıdakı bölmələr nəzərdə tutulur: 1) qeyri-maliyyə müəssisələri; 2) maliyyə təşkilatları; 3) hökumət idarələri; 4) ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatları; 5) ev təsərrüfatları.

Qeyri-maliyyə müəssisələri bölməsinə istehsal xərclərini ödəyə bilən qiymətlərlə satmaq üçün əmtəə istehsal edən və qeyri-maliyyə xidmətləri göstərən kooperativ, yaxud da onlara bənzər, lakin korporasiya statusu olmayan təsərrüfat subyektləri daxildir. Qeyri-maliyyə müəssisələrinə daxil olan təsərrüfat vahidləri

öz xərclərini hər şeydən əvvəl əmtəə və xidmətlərin satışından əldə edilən gəlir hesabına ödəyirlər.

**Maliyyə təşkilatları bölməsinə**, əsas vəzifələri maliyyə sahəsində vasitəçilikdən ibarət olan banklar, sığorta şirkətləri, investisiya fondları və digər maliyyə subyektləri daxildir. Maliyyə vasitəçilərinin əksəriyyəti öz xərclərini təklif etdikləri maliyyə ehtiyatları müqabilində aldıqları faiz məbləği ilə cəlb etdikləri vəsait müqabilində verdikləri (ödədikləri) faiz məbləği arasındakı fərq hesabına maliyyələşdirirlər.

**Hökumət idarələri bölməsi**, əsas vəzifələri gəlirlərin və sərvətin bölgüsünü həyata keçirməkdən, bütövlükdə cəmiyyətə və ayrı-ayrı qruplara, yaxud da fiziki şəxslərə qeyri-bazar xidməti göstərməkdən ibarət olan dövlət büdcə təsisatlarının vəsaiti hesabına formalaşır.

**Qeyri-kommersiya təşkilatları bölməsinə** əsas vəzifələri qeyri-bazar xidmətləri göstərməkdən ibarət olan ictimai, siyasi, həmkarlar ittifaqları və dini təşkilatlar daxildir. Bu təşkilatların xərcləri üzvlük haqları, ianələr, mülkiyyətdən əldə edilən gəlirlər hesabına maliyyələşdirilir.

**Ev təsərrüfatları bölməsinə** istehlak xarakterli fəaliyyət növü ilə məşğul olan ev təsərrüfatları; xırda, heç bir korporasiyaya daxil olmayan müəssisələr; xırda firmalar, çox da böyük olmayan mağazalar, qəlyanaltılar, emalatxanalar, habelə sərbəst peşə adamları daxildir. Bu bölməyə daxil olan təsərrüfat vahidləri öz xərclərini əmək haqqı, mülkiyyətdən əldə edilən gəlirlər, yenidənbölgü vasitəsilə daxilolmalar, habelə korporasiyalara daxil olmayan, lakin bu bölməyə aid edilən müəssisələrin məhsulların satışından əldə etdikləri gəlir hesabına maliyyələşdirirlər.

Xarici ölkələrlə aparılan iqtisadi əlaqələri və maliyyə münasibətlərini uçota almaq üçün hesablar sistemində **«qalan dünya ilə iqtisadi əlaqələr»** bölməsi nəzərdə tutulmuşdur.

Bütövlükdə iqtisadiyyat və onun daxili bölmələri üzrə hesablar sistemi mövcuddur. İqtisadiyyatın ayrı-ayrı sahələri və ayrı-ayrı əməliyyatların əks etdirilməsi üçün isə hesabların sayı bir qədər məhduddur.

MHS-nin hesabları formalarına görə mühasibat uçotunun hesabları ilə eyniyyət təşkil edir. Hesabların böyük əksəriyyəti balans metodunun köməyilə tarazlaşdırılır. Hesabın sol tərəfində ehtiyatlar və onların daxil olması, sağ tərəfində isə ehtiyatlardan istifadənin qeydiyyatı aparılır.

İqtisadiyyatın ayrı-ayrı bölmələri üzrə nəzərdə tutulan hesablar üç yerə bölünür: 1) cari hesablar (istehsal, gəlirlərin pul formasında əmələ gəlməsi, ilkin bölgüsü, yenidən bölgüsü, istifadə edilməsi, gəlirlərin natura formasında yenidən bölgüsü və başqa hesablar); 2) yığım hesabları (maliyyə hesabı, kapitalın vasitəsilə aparılan əməliyyatların hesabı, aktiv-passiv əməliyyatlarda gedən sair dəyişikliklər hesabı); 3) dövrün əvvəlinə və axırına olan aktiv və passiv balanslar.

**Milli hesabdarlıq sistemində adətən, aşağıdakı hesablardan istifadə olunur:**

- **«İstehsal hesabı»nda** istehsal fəaliyyətinin nəticələri, daha dəqiq desək, onun «ehtiyatlar» hissəsində əsas qiymətlərlə məhsul və xidmətlərin ümumi buraxılışı, «istifadə» hissəsində aralıq istehlak və ümumi əlavə dəyər əks etdirilir. Onun yekunu bazar qiymətləri ilə hesablanan əlavə dəyərdir.
- **«Gəlirlərin əmələ gəlməsi hesabı»** əməyin ödənilməsini, istehsala və idxala vergiləri (+), istehsala və idxala subsidiyaları (-), ümumi mənfəəti (qarışıq gəlirləri), əsas kapitalın istehlakını, xalis mənfəəti (xalis qarışıq gəliri) səciyyələndirir.
- **«Gəlirlərin ilkin bölgüsü»** hesabında əldə edilən ümumi gəlirdən son istehlaka və ümumi yığıma gedən hissələr əks etdirilir. Bu hesabın «ehtiyatlar» hissəsində ümumi mənfəət (qarışıq gəlirlər), əməyin ödənilməsi, istehsala və idxala vergilər (+), istehsala və idxala subsidiya (-), mülkiyyətdən əldə edilən gəlirlər, «istifadə» hissəsində isə mülkiyyətdən ödənilmiş gəlirlər, ilkin gəlirlərin bölgüsündən yaranan gəlir nəzərdə tutulur.
- **«Kapital hesabı»nda** kapital xərcləri, kapital ilə əməliyyatlar, yığım göstəriciləri, ehtiyatların dəyişməsi, əsas kapitalın amortizasiyası, kapitalın köçürülməsi öz əksini tapır.
- **«Məhsul və xidmətlər hesabı»nın** «ehtiyatlar» hissəsində məhsul və xidmətlərin ümumi buraxılışı, aralıq istehlak, məhsul-

lara və idxala vergilər (+), məhsullara və xidmətlərə subsidiya (-), bazar qiymətləri ilə ümumi daxili məhsul, «istifadə» hissəsində isə son istehlak xərcləri, fərdi istehlak xərcləri, o cümlədən ev təsərrüfatlarında, ictimai təşkilatlarda, fərdi xidmət göstərən dövlət müəssisələrində, kollektiv xidmət göstərən dövlət idarə və müəssisələrində istehlak xərcləri, əsas fondların (kapitalın) ümumi yığımı, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi (+, -), məhsul və xidmətlər üzrə xalis ixrac, idxal (-), istifadə edilmiş cəmi ümumi daxili məhsul və statistik fərq göstərilir.

- **«Gəlirlərin təkrar bölgüsü hesabı»** ilkin gəlirlərin bölgüsündən yaranan gəliri, alınmış və verilmiş cari transfertləri, o cümlədən gəlirlərə, sərvətə və s. görə vergiləri, sosial sığorta ayırmalarını, sosial təminat üzrə müavinətləri, digər cari transfertləri, sərəncamda qalan ümumi milli gəliri səciyyələndirməyə imkan verir.
- **«Sərəncamda qalan gəlirlərin istifadəsi»** hesabında sərəncamda qalan ümumi gəlir, son istehlak xərcləri, ümumi yığım öz əksini tapır.
- **«Əsaslı xərclər hesabı»nda** ümumi yığım, alınmış və verilmiş əsaslı transfertlər, əsas fondların (kapitalın) ümumi yığımı, xalis dəyərin və maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişilməsi, torpaqların və qeyri-maddi aktivlərin xalis alqısı, xalis kreditlər (+) və xalis borclar (-) əks etdirilir.

**MHS-də faktiki son istehlakı ifadə edən göstəricilərə aşağıdakılar daxildir:**

1) Son istehlak xərcləri

Bundan dövlət müəssisələri:

o cümlədən:

a) kollektiv istehlakı ödəyən dövlət müəssisələri,

b) fərdi istehlakı ödəyən dövlət müəssisələri,

c) ev təsərrüfatı,

d) ev təsərrüfatına xidmət edən ictimai təsərrüfatlar.

2) Faktiki son istehlak

a) dövlət müəssisələri,

b) ev təsərrüfatı,

c) ev təsərrüfatına xidmət edən ictimai təşkilatlar.

**Son istehlak xərcləri ilə faktiki son istehlak bir-birinə bərabər olur.**

**Qalan dünya ilə xarici iqtisadi əlaqələr hesabı** isə mal və xidmətlərin ixracı və idxalını, xarici iqtisadi əlaqələr balansını, alınmış cari transfertləri, alınmış və verilmiş kapital transfertləri, hesablararası və cari xarici balansları, qalan dünyadan alınmış əmək haqqını, mal və xidmətlər hesabı üzrə tələblə təklif arasındakı statistik fərqi, kapital hesabından xalis krediti (+) və ya xalis borcu (-) və s. səciyyələndirir.

Bölmələr arasındakı qarşılıqlı əlaqələr əmtəə və xidmətlər, gəlir və xərclər üzrə əməliyyatları və bütün maliyyə əməliyyatlarını əhatə edir. Hər hansı bir hesabda aparılan qeydiyyat eynilə başqa bir hesabda da öz əksini tapır. Bunun nəticəsində də hesablar arasındakı qarşılıqlı əlaqə sistemi makroiqtisadi səviyyədə təsərrüfat əməliyyatlarının əsas tərəflərini əks etdirmiş olur.

İstehsalın nəticələrinin ölçülməsində aparılan hesablamanın başlanğıc nöqtəsi istehsal edilmiş bütün əmtəə və xidmətlərin ümumi dəyəridir. Bunlar «istehsal» hesabında «ehtiyatlar» sözü yazılmış sol tərəfdə göstərilir. İstehsal olunan məhsulun dəyərindən aralıq istehlakları çıxdıqda (investisiyalar və fəaliyyətdə olan subyektlər tərəfindən maddi ehtiyatların satın alınmasına və xidmətlərin ödənilməsinə sərf olunan xərclər daxil edilmədən) **«ümumi əlavə gəlir» göstəricisi hesablanmış olur və bu «qalıq» göstəricisi adlanır.** Ümumi əlavə dəyər müxabirləşən hesaba – «gəlirlərin əmələ gəlməsi» hesabına köçürülür.

**«Gəlirlərin əmələ gəlməsi»** hesabının təyinatı ümumi əlavə gəlirin onu əmələ gətirən ünsürlər arasında bölüşdürülməsini göstərməkdən ibarətdir. Əlavə dəyərdən əmək haqqını və istehsalla bağlı sair vergiləri (istehsal amillərinə – əmək, kapital, torpağa görə alınan vergilər) çıxmaqla, **ümumi mənfəət (ümumi qarışıq gəlir) müəyyən edilir.**

**«Ümumi mənfəətdən» və ya «ümumi qarışıq gəlirdən»** (buna korporasiyalara daxil olmayan və deməli, ev təsərrüfatlarına aid edilən müəssisələrin gəlirləri də deyilir) amortizasiya məbləğini çıxdıqda **«xalis mənfəət» və ya «xalis qarışıq gəlir» alınır.**

**«Gəlirlərin əmələ gəlməsi» hesabındakı** qalıq göstəricisi olan «ümumi mənfəət» və ya «ümumi qarışıq gəlir» onunla müxabirləşən «gəlirlərin ilkin bölgüsü» hesabının sol tərəfində ehtiyatları əmələ gətirən göstərici kimi əks etdirilir. Hesabın ehtiyatlar hissəsindəki göstəricilər mülkiyyətdən əldə edilən gəlirlərdən, istehsal olunan və idxal edilən məhsullara görə (istehsal amillərinə – əmək, kapital, torpağa görə və ərzaq məhsullarının idxalından alınan vergilər) alınan vergilərdən ibarətdir. «Qalıq» göstəricisi ilkin gəlirlərin qalığından ibarət olmaqla, mülkiyyətdən əldə edilən gəlirlərdən müxtəlif ödəmələri çıxmaq yolu ilə hesablanır.

Beləliklə, nəzərdən keçirilən hesablarda məhsulların istehsalı, gəlirlərin əmələ gəlməsi və ilkin bölgüsü proseslərini səciyyələndirən əməliyyatlar ümumiləşdirilmiş şəkildə qeyd edilir. Cari hesablar isə gəlirlərin yenidən bölgüsü və onlardan istifadəni əks etdirir. **Göstəricilərin bir-biri ilə əlaqələndirilməsini MHS-nin metodologiyasını şərh etməklə nəzərdən keçirək.**

Müasir MHS-ni əksəriyyət hallarda bir-biri ilə qarşılıqlı əlaqədə olan informasiya sistemi adlandırırlar ki, onlar da birlikdə ölkənin iqtisadi həyatının mənzərəsinə dair təsəvvür verir. Sistemin mərkəzində bəzi ölkələrin statistikasında olan ümummilli məhsul (ÜMM) və dünya ölkələrinin əksəriyyətində hesablanan ümumi daxili məhsul (ÜDM) və milli gəlir (MG) kimi makroiqtisadi göstəricilər durur.

ÜMM və ÜDM göstəricilərinin ikisi də istehsal və xidmət dairələrində bir ildə (rübdə, ayda) istehsal olunan əmtəə və xidmətlərin dəyər ifadəsində son həcmi kimi müəyyən edilir. Bunların ikisi də həm qüvvədə olan cari, həm də əsas götürülən hər hansı bir ilin sabit qiymətləri ilə hesablanır.

**Lakin ÜMM-lə ÜDM arasında aşağıdakı fərq vardır:**

ÜMM ölkənin daxilində və onun hüdudlarından kənarda milli iqtisadiyyata mənsub olan iqtisadi vahidlərdə (təsərrüfat subyektlərində) bir il ərzində istehsal olunan son məhsulların və xidmətlərin bazar dəyərinin məcmusudur.

ÜDM-nin tərkibinə isə hansı ölkənin mülkiyyətində olmasından və mülkiyyət formasından asılı olmayaraq hesablama aparılan ölkədə fəaliyyət göstərən iqtisadi vahidlər tərəfindən istehsal

edilən məhsulların və göstərilən xidmətlərin bazar dəyəri daxil edilir.

ÜDM təsərrüfat subyektlərinin istehsal fəaliyyətlərinin son nəticələrini səciyyələndirən, **makroiqtisadi təhlildə və beynəlxalq müqayisələrdə istifadə olunan ən mühüm göstəricidir.** Çünki, ÜDM istehsal edilmiş və son istehlaka gedən əmtəə və xidmətlərin dəyərini ifadə edir, aralıq məhsul və xidmətlərin dəyəri buraya daxil edilmir və deməli, təkrar uçota (hesablamalara) yol verilmir. Digər tərəfdən, ÜDM daxili məhsuldur, ona görə ki, o hansı ölkəyə və hansı mülkiyyət formasına mənsub olmasından asılı olmayaraq ölkə daxilində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən istehsal edilən məhsulu səciyyələndirir.

Beləliklə, ÜMM ÜDM-dən hər hansı bir ölkənin ehtiyatlarından xaricdə istifadə edilməsi ilə əlaqədar olan faktor[1] gəlirlərinə (xaricdə kapital qoyuluşundan əldə edilən mənfəətdən, ölkənin başqa ölkələrdə işləyən vətəndaşlarının əmək haqqından, həmin ölkədə kapital qoyuluşuna görə əldə edilən mənfəət və həmin ölkədə çalışan xarici ölkə vətəndaşlarının əmək haqqı çıxılmaqla) görə fərqlənir. Adətən ÜMM-i hesablamaq üçün ÜDM-in üzərinə həmin ölkənin xaricdə fəaliyyət göstərən müəssisə və fiziki şəxslərinin əldə etdikləri mənfəət və gəlirləri ilə həmin ölkədə fəaliyyət göstərən xarici investorların və fiziki şəxslərin mənfəəti və gəlirləri arasındakı fərq ya əlavə edilir (fərq müsbət işarəli olduqda), ya da çıxılır (fərq mənfi işarəli olduqda). Və qeyd etmək lazımdır ki, bu fərq bir o qədər də böyük olmur. Statistik məlumata görə ÜMM-lə ÜDM arasındakı fərq 1-2%-ə bərabərdir.

**ÜDM-i il ərzində hesablanan əsas kapitalın amortizasiya məbləği qədər azaltdıqda, daha bir makroiqtisadi göstərici - xalis milli məhsul (XMM) alınır.** Ölkənin özünün milli iqtisadiyyatının bütün bölmələrində istehsal və istehlak olunan əmtəə və xidmətlərin illik ümumi həcmi bu göstəricinin köməyi ilə ölçülür.

---

[1] Faktor gəlirlərinə muzdla işləyən işçilərin gəliri və müəssisələrin (firmaların) mənfəəti aiddir.

XMM-in yaradılmasında iştirak edən torpaq, işçi qüvvəsi, kapital və sahibkarlıq qabiliyyəti müqabilində əldə edilən gəlirlərin formalaşması mənbələrinin, başqa sözlə, ehtiyatların istehlak olunması baxımından cari ildə xalis məhsulun cəmiyyətə neçəyə başa gəlməsinin müəyyən olunması da böyük əhəmiyyət kəsb edir. **XMM-dən biznesin ödədiyi dolayı vergilər çıxılır və alınan göstəriciyə milli gəlir deyilir.** MG obrazlı ifadə ilə desək cəmiyyətin xalis «qazanilmış» gəliridir. Makroiqtisadi göstərici kimi MG-nin zəruriliyi və müqayisəli təhlildə geniş tətbiqi bununla müəyyən edilir. **MG-nin tərkibinə konkret olaraq aşağıdakılar daxildir:** muzdlu işçilərin əmək haqqı (renta tədiyələri), faiz, mülkiyyətə görə əldə edilən mənfəət, korporasiyaların əldə etdikləri mənfəətdən ödədikləri vergilər, dividendlər, korporasiyaların bölüşdürülməyən mənfəəti.

**Təcrübədə istehsal olunmuş və istifadə edilmiş MG bir-birindən fərqləndirilir. İstehsal olunmuş MG yaradılmış əmtəə və xidmətlə**rin yeni dəyərinin ümumi kəmiyyətdir. İstifadə edilmiş MG dedikdə, itkilər (təbii fəlakət nəticəsində, saxlama dövründə və s. hallarda baş verən itkilər və i.a.) və mənfi işarəli xarici ticarət qalığı çıxılmaqla istehsal olunan yeni dəyər nəzərdə tutulur.

MG adətən iki yerə bölünür: 1) istehlak fondu; 2) yığım fondu. MG-nin insanların və bütövlükdə cəmiyyətin maddi və mədəni tələbatının (təhsil, müdafiə və i.a.) ödənilməsinə yönəldilən hissəsi istehlak fondunu, istehsalın inkişaf etdirilməsinə yönəldilən hissəsi isə yığım fondunu əmələ gətirir.

Müəssisələr milli hesablardan istifadə etmək üçün informasiyaların verilməsində maraqlıdırlar. Çünki MHS-də öz əksini tapmış makroiqtisadi göstəricilər onlara iqtisadiyyatın ayrı-ayrı sahələrinin əsas inkişaf meyllərinin, iqtisadi proseslərdə müəssisələrin rolunun aşkara çıxarılmasına imkan verir. MHS demək olar ki, dünyanın əksəriyyət ölkələrinin iqtisadi və ictimai-siyasi həyatının bütün sahələrinə nüfuz etmişdir. **Sahibkarlar onun məlumatlarından fəaliyyət göstərdikləri makroiqtisadi mühitə ümumi qiymət vermək üçün istifadə edirlər.** Bunlar investisiya qoyuluşu, habelə ixrac və idxalın genişləndirilməsi məsələləri ilə əlaqədar qərarların qəbul edilməsi üçün lazımdır.

MHS-dən makroiqtisadi problemlər üzrə elmi-tədqiqat işlərinin aparılması, habelə istər iqtisadi proseslərin qanunauyğunluqlarının təfsir olunması, istərsə də proqnozlaşdırma üçün nəzərdə tutulan ekonometrik modellərin işlənib hazırlanmasında istifadə olunur.

## 12.3. Azərbaycan Respublikasında Milli hesabdarlıq sisteminə və beynəlxalq maliyyə hesabatları standartlarına keçilməsinin zəruriliyi

Ölkəmizdə inzibati-amirlik sistemindən bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçilməsi iqtisadi həyatın bütün sahələrində olduğu kimi, uçot, statistika işləri və hesabatlarının da beynəlxalq standartlara uyğunlaşdırılmasını tələb edirdi. Çünki mərkəzləşdirilmiş planlaşdırmaya əsaslanan iqtisadiyyatda mövcud olan mühasibat uçotu investisiya əmtəələri üzərində ictimai mülkiyyətə və dövlət idarəetməsinin tələblərinə uyğunlaşdırılmışdı. Və mühasibat uçotu üzrə informasiyalardan əsas etibarilə dövləti təmsil edən strukturlar, birinci növbədə sahə nazirlikləri və idarələri istifadə edirdilər.

**Azərbaycan Respublikası keçmiş SSRİ-nin tərkibində** olarkən bütün ölkədə olduğu kimi burada da ən ümumi iqtisadi və sosial vəzifələrin yerinə yetirlməsi üçün xalq təsərrüfatı balansından istifadə olunmuşdur. Onun əsasında isə **A.Smitin və K.Marksın əmək dəyər nəzəriyyəsi** və milli gəlirin yaradıldığı maddi istehsal sahələri haqqında konsepsiya dururdu. Bu deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, xalq təsərrüfatı balansı siyasi iqtisad xarakterli konsepsiyalara əsaslanmış və buna görə də onun əsas göstəriciləri (ümumi məhsul, milli gəlir və i.a.) MHS-nin əsas göstəricilərinə uyğun gəlməmişdir.

Bir halda ki, ölkəmiz dünyada gedən qloballaşma prosesinə qoşulmuş və inteqrasiya əlaqələrində fəal iştirak edir, deməli, makroiqtisadi göstəricilər sistemi də ölkələrin böyük əksəriyyətində istifadə olunan sistemə – milli hesabdarlıq sisteminə – uyğunlaşdırılmalıdır.

Lakin qeyd etmək lazımdır ki, MHS-ə keçilməsi sadəcə olaraq bir statistik göstəricilər sisteminin digər bir statistik göstəricilər sistemi ilə əvəz edilməsi demək deyildir. Bu, makroiqtisadi və tənzimləmə ilə əlaqədar aparılan bütün işlərin əsaslı surətdə yenidən qurulması deməkdir. Bu, MHS metodologiyasının xalq təsərrüfatı balansı metodologiyasından köklü surətdə fərqlənməsi ilə əlaqədardır. **Odur ki, iqtisadi hesablamalarda MHS-dən istifadə etmək** üçün qüvvədə olan statistik məlumatlar sistemini, xüsusilə də müəssisə və firma səviyyəsində mühasibat hesabatlarını yeniləşdirmək lazım gəlirdi.

MHS-nə keçidlə əlaqədar problemlər isə olduqca çox və əhatəlidir. Bu, hər şeydən əvvəl BMT tövsiyələrinin keçid dövründə olan ölkələrdə iqtisadiyyatın təşkili xüsusiyyətlərinə uyğunlaşdırılmasının metodoloji problemlərinə aiddir. Bu, onunla izah edilir ki, MHS ilk növbədə bazar iqtisadiyyatında olan ölkələr üçün nəzərdə tutulmuşdur. Digər tərəfdən, bəzi məsələlər üzrə tövsiyələr ümumi xarakter daşıyır və onların yerli şəraitə və xususiyyətlərə uyğunlaşdırılması mümkündür. Məsələn, ölkəmizdəki maliyyə müəssisələri fəaliyyətinin təşkilini bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdəki vəziyyətlə eyniləşdirmək düzgün deyildir.

Ona görə də MHS-nin ümumi prinsipləri, xüsusilə də maliyyə vasitəçilərinin təsnifləşdirilməsi, onların məhsullarının qiymətləndirilməsi metodları və müxtəlif istifadəçi kateqoriyalarına (aralıq və son istehlak və i.a.) aid edilməsi konkretləşdirmə, hətta bəlkə də uyğunlaşdırma tələb edirdi. Bütün bunlarla yanaşı, MHS-yə keçidlə əlaqədar olan məsələlərin həll edilməsi üçün böyük məbləğdə maliyyə vəsaiti tələb olunur. **Bəs, MHS-yə keçilməsi nə üçün zəruridir? Suala konkret cavab versək deyə bilərik ki, MHS-yə keçilməsi aşağıdakılara imkan verir:**

1)Dövlət idarəetmə orqanları tərəfindən iqtisadi siyasətin işlənib hazırlanması üçün geniş və əhatəli makroiqtisadi informasiya sistemi təmin olunur;

2)Məlumatların beynəlxalq iqtisadi təşkilatlara verilməsi problemi həll edilir;

3)Ümumiyyətlə iqtisadi, o cümlədən də statistika işlərinin səviyyəsi və etibarlılığı yüksəlir.

Bunlar nəzərə alınmaqla keçid iqtisadiyyatında olan ölkələrdə beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq mühasibat uçotunun yenidən qurulması üçün islahatlar aparılmasına dair proqram işlənib hazırlanır. **İslahatlar adətən aşağıdakı istiqamətlərdə aparılır:**

-hüquqi tənzimləmə normativlərinin təkmilləşdirilməsi;

-normativ (standartlar) bazasının formalaşdırılması;

-metodiki təminat verilməsi (mühasib peşəsinin formalaşdırılması, mühasibat uçotu mütəxəssislərinin ixtisasının yüksəldilməsi);

-beynəlxalq əməkdaşlıq aparılması (beynəlxalq təşkilatlara daxil olmaq və onlarda fəal iş aparmaq).

Beynəlxalq standartlara uyğun olaraq mühasibat uçotu və maliyyə hesabatlarının yeniləşdirilməsinin başlıca ünsürü - mühasibat uçotu üzrə yeni əsasnamələrin işlənib hazırlanması, mövcud olanların isə yeniləşdirilməsi və onlardan istifadə edilməsidir. Adətən mühasibat uçotunun dörd prinsipi ön plana çəkilir. Bunlar məlumatların həqiqiliyi, ədalətliliyi, uyğunluğu və ardıcıllığıdır. Mühasibat uçotunun **birinci prinsipində** nəzərdə tutulur ki, hesabatda xarici istifadəçilərin qəbul etdikləri qərarlara təsir edə bilən ciddi xətalar yoxdur, maliyyə vəziyyətinin mənzərəsi inandırıcıdır.

**İkinci prinsipə** gəldikdə bu o deməkdir ki, mühasibat hesabatları təsərrüfat prosesləri iştirakçılarının mənafelərinə münasibətdə bitərəflik qaydasında tərtib olunmalıdır.

Mühasibat uçotunun **üçüncü prinsipi** onun uyğunluğudur. Bu o deməkdir ki, mühasibat uçotunun bütün qayda və üsulları zaman-zaman yenidən nəzərdən keçirilməli, dəyişən sosial-iqtisadi mühitə uyğunlaşdırılmalıdır.

Firmaların rəhbərləri qəbul edilmiş uçot üsullarına sadiq qalmalı, onları tez-tez dəyişdirməməlidir. **Bu, onun dördüncü prinsipidir. İlk baxışda bu prinsip üçüncü prinsiplə ziddiyyət təşkil edir. Lakin qeyd etmək lazımdır ki, bu ilk baxışda belədir.** Çünki uçotun metodologiyası obyektiv amillərin və səbəblərin təsiri ilə

dəyişə bilər. Firma rəhbərlərinin xüsusi təşəbbüsü və şəxsi fikirləri əsasında dəyişiklik aparılması isə yolverilməzdir. Müəssisə istər hesabat dövründə, istərsə də gələcək dövrlərdə ardıcıl olaraq müəyyən olunmuş uçot qaydalarına əməl etməlidir. Müəssisənin uçot siyasəti dəyişdikdə o, bu barədə maliyyə hesabatlarından istifadəçiləri xəbərdar etməlidir. Mühasibat uçotunun dördüncü prinsipinin mahiyyəti belədir.

**Mühasibat uçotunun yenidən qurulması bir neçə mərhələdə həyata keçirilməlidir.**

**Birinci mərhələdə** mühasibat uçotunun SSRİ dövründə mövcud olmuş prinsipləri GAAR-ın (ingiliscə Generaly Accepted Accounting Prinsipies sözlərinin qısaldılmış şəklə salınmış variantıdır) hamı tərəfindən qəbul edilmiş mühasibat uçotu prinsipləri ilə tutuşdurulur. Bu iş Maliyyə Nazirliyi, Mərkəzi bank və b. təşkilatlar tərəfindən tənzimlənir.

**İkinci mərhələdə** mühasibat uçotunun hesab planının GAAP tərəfindən məsləhət görülən hesablarla uyğunlaşdırılması həyata keçirilir. GAAP-ın hesab planı şirkət və təşkilatların tələbatlarına əsasən düzəldilir. Keçmiş SSRİ-də isə hesab planı bütün idarə və müəssisələr üçün məcburi olmuşdur.

**Üçüncü mərhələdə** mühasibat hesablarının qarşılıqlı əlaqələndirilməsi sxemi işlənib hazırlanır. Və burada əsas məqsəd bütün uçot işlərini GAAP-dakı hesablarla əvəz etməkdən ibarət olur.

**Dördüncü mərhələdə** qanunvericilik aktları, qaydalar və təlimatlarda təsərrüfat əməliyyatlarının hansı hesablarda və necə əks etdirilməsi müəyyən olunur.

**Beşinci mərhələdə** GAAP-a uyğun olaraq bütün mühasibat hesabları arasındakı müxabirləşmə bir siyahıda birləşdirilir.

**Beynəlxalq maliyyə hesabatları standartlarından istifadə edilməsi ixtisaslı mühasib və auditorlardan asılıdır.** Lakin mühasiblərin biliyi bir çox hallarda milli standartlarla məhdudlaşır. İxtisaslı mühasib və auditorlar nəinki yalnız bazar iqtisadiyyatı şəraitində işləməli, həm də onların səmərəli fəaliyyət göstərməsini təmin etməlidir. **Qloballaşma prosesi mühasibin diplomlarından birinin ən azı milli sərhədlərdən kənarda tanınmasını zəruri edir.**

Deməli, beynəlxalq standartlara keçilməsini sadəcə olaraq ölkədə uçot və hesabat sisteminin dəyişdirilməsi kimi təsəvvür etmək düzgün deyildir. Ölkəmizdə bu prosesə müstəqilliyimizin ilk illərindən başlanmış və bütün uçot-hesabat işləri beynəlxalq standartlara tam uyğunlaşdırılana qədər davam edəcəkdir.

## 12.4. Maliyyə hesabatları üzərində nəzarətin həyata keçirilməsi

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikasında müxtəlif bazar strukturlarının meydana gəlməsi maliyyə nəzarətinin yenidən qurulmasını tələb edirdi. Başqa sözlə, nəzarətin dövlət formaları ilə yanaşı audit[1] xidmətinin formalaşdırılması zəruriliyi meydana çıxmışdır.

Auditin meydana gəlməsi mülkiyyət hüququnun ona sərəncamvermə hüququndan ayrılması ilə əlaqədardır. Mülkiyyətçi sərəncamvermə hüququnu kiməsə verdikdə, mülkiyyətçinin öz mənafeyinin müdafiəsi haqqında məsələ ortalığa çıxır. Bunun müdafiə forması audit olmuşdur. Hazırda Beynəlxalq Mühasiblər Federasiyası auditi maliyyə hesabatlarının müstəqil tədqiqatçısı, yaxud da mülkiyyət formasından asılı olmayaraq müəssisənin maliyyə informasiyası hesab edir. Bu tədqiqatlar müstəqil firmalar və ya səlahiyyətli fiziki şəxslər (auditorlar) tərəfindən aparılır.

Auditin vətəni Böyük Britaniya hesab edilir. Belə ki, bu ölkədə 1944-cü ildən şirkətlər haqqında qanun seriyası çap olunur. Bu qanunlara uyğun olaraq səhmdar cəmiyyətlərinin idarə heyətləri ildə bir dəfədən az olmayaraq səhmdarlar qarşısında mühasibat hesabları və hesabatlarını yoxlamaq üçün xüsusi şəxsi dəvət etməlidirlər. **Müasir auditin formalaşmasında aşağıdakı mərhələləri qeyd etmək olar.**

**Birinci mərhələ** 1929-1933-cü illərdəki Böyük durğunluqla birlikdə başlanmışdır. Bu dövrdə mühasib-auditorların xidmət-

[1] «Audit» latın mənşəli sözdür və dilimizə «qulluqçu» və ya «o, eşidir» kimi tərcümə edilir.

Pul-kredit siyasətinin istiqamətlərini müəyyən edərkən mövcud ötürücü mexanizmdə son nəticəyə əhəmiyyətli təsir göstərən ən azı aşağıdakı iki cəhəti nəzərə almaq lazımdır: 1) Ümumi tələbin faiz dərəcələrinin dəyişməsinə təsiri; Bu təsir nəzərə alınmadıqda pul kütləsi ilə məhsul buraxılışının həcmi arasındakı əlaqə pozulur; 2) Pul kütləsinin dəyişməsi nəticəsində faiz dərəcələrinin dəyişməsi pula olan tələbin elastiklik dərəcəsindən asılıdır. Tələb nisbi mənada elastik olmadıqda pul bazarının pul üzrə təklifin dinamikasına reaksiyası daha güclü olur. Məsələn, pul kütləsinin artması faiz dərəcələrinin daha çox aşağı düşməsinə səbəb olur.

Beləliklə, digər şərtlər sabit qalmaqla pul-kredit siyasətinin səmərəliliyi qısa və uzun müddətli iqtisadi proseslər, pula olan tələb və pul üzrə təklifə təsir edən amillər, pul kütləsi ilə əsas makroiqtisadi parametrlər (nominal ÜMM, qiymətlərin və işsizliyin səviyyəsi, istehsalın həcmi, valyutaların məzənnələri və i.a.) arasındakı mürəkkəb qarşılıqlı əlaqələr haqqında iqtisadçıların proqnozlarının həqiqətə nə dərəcədə uyğun olması və s. müəyyən edilir.

## 5.3. Mərkəzi bankın iqtisadiyyatda pul üzrə təklifə təsiretmə mexanizmi

Mərkəzi bankın iqtisadiyyatda olan pul kütləsinə təsiretmə mexanizmi müasir kredit-bank sisteminin fəaliyyət göstərməsi, kommersiya banklarının kredit emissiyası vasitəsilə pul kütləsini artırıb-azaltmaq iqtidarında olması ilə şərtlənir.

Bankın hər hansı başqa bir kredit-maliyyə təsisatlarından əhəmiyyətli fərqi ondadır ki, o, depozitləri cəlb etmək və kredit verməklə iqtisadiyyatda olan pul kütləsini artırır, başqa sözlə, pul kütləsinə təsir edir.

**Pul kütləsi dedikdə ölkə iqtisadiyyatında olan ümumi qəbul edilmiş tədiyyə vasitələrinin məbləği nəzərdə tutulur.** Müasir şəraitdə o, tədavüldə olan nəqd pullardan və banklardakı

depozitlərdən ibarətdir. Bu pullardan sövdələşmələrdə istifadə olunur.

Pul kütləsini M, tədavüldəki nəqd pul kütləsini C və depozitləri D ilə işarə etsək, aşağıdakı düsturu yaza bilərik:

$$M = C + D$$

Müasir bank sistemi qismən ehtiyatlara malik olan sistemdir. Çünki depozitlərin yalnız bir hissəsi ehtiyat şəklində saxlanılır, qalan hissəsindən isə kreditlərin verilməsi və digər aktiv əməliyyatların aparılması üçün istifadə olunur Bank, kredit verməklə, borc alana bu vəsaitdən sövdələşmələrdə istifadə etmək imkanı verir. Bununla da tədiyə vasitəsinin məbləği verilən kreditin kəmiyyəti gədər artmış olur. Başqa sözlə, bunları nəzərə almaqla, pul kütləsini ifadə edən düsturu aşağıdakı kimi yaza bilərik:

$$M = C + D + K,$$

Burada: K-banklar tərəfindən verilən kreditin məbləğini göstərir.

**Kommersiya bankları sistemi çərçivəsində tədiyyə vasitələrinin emissiyası prosesinə kredit emissiyası deyilir.** Bank sistemində verilən kreditlərin həcmi depozitlərin məbləğindən və ehtiyatların kəmiyyətindən asılıdır. Əgər bütün tədiyyə vasitələri banklarda saxlansaydı, onda pul kütləsi çox, ehtiyat normaları (r) isə az olardı. Ehtiyat norması aşağıdaki düsturla müəyyən edilir:

$$r = (R : D)\ 100\%$$

Burada R- ehtiyatın həcmini göstərir.

Hesablaşmalar qeyri-nəqd formada aparıldıqda kommersiya banklarının fəaliyyəti ona gətirib çıxarır ki, hər hansı bir bank tərəfindən verilən kreditin multiplikator faydalılığına (çoxalmanın faydalılığı) bu proses, həmin kreditin axırıncı pul vahidindən istifadə olunana qədər davam etdikdə nail olunur.

Bütün pullar banklarda saxlandıqda (lakin bu fərziyyədir) banklar tərəfindən pul üzrə təklifin neçə dəfə artırıldığını göstərən əmsal depozit (bank) multiplikatoru **(m)** adlanır və onu belə təsvir etmək olar.

$$m=1:r$$

Bankların kredit fəaliyyəti nəticəsində tədavüldə olan pul kütləsinin artmasını isə aşağıdakı kimi göstərmək olar:

$$M=(1:r)\ \ D \text{ və ya } M=m\ \ D$$

Burada: D – depozitlərin və ya kommersiya bankları ehtiyatlarının artımı, m – depozit multiplikatoru deməkdir.

Lakin real həyatda əhali və firmalar bütün pullarını banklarda saxlamırlar. Daha doğrusu, pulun bir hissəsi nəqd formada onların özlərində olur. Ona görə də **bankların tədavüldə olan pul kütləsini artırmaq imkanları təkcə ehtiyat normalarından deyil, həm də əhalinin davranışından, onun bank sisteminə olan inamından asılıdır.**

Ümumiyyətlə, götürdükdə tədavüldə olan pul kütləsinin həcmi məcburi ehtiyat normalarını müəyyən edən Mərkəzi bankın və verilən kreditlərin həcmini müəyyən edən kommersiya banklarının apardıqları əməliyyatlardan, habelə qeyri-bank sektorunun qərarlarından asılıdır.

Əhalinin davranışını (d) tədavüldə olan nəqd pul kütləsinin (C) kommersiya banklarında olan depozitlərin məbləğinə (D) nüsbəti kimi səciyyələndirmək olar:

$$d = C : D$$

Mərkəzi bankın rolu, habelə bank sistemində - depozitdə olan pulun bir hissəsinin nəqd pula çevrilməsi nəzərə alınmaqla kommersiya banklarının tədavüldə olan pul kütləsinə təsiretmə

dərəcəsini səciyyələndirən əmsala pul multiplikatoru deyilir və o, aşağıdakı kimi müəyyən edilir:

$$m^* = \frac{1 - d}{d - r}$$

Pul üzrə təklifin ümumi modeli Mərkəzi bankın, kommersiya banklarının, habelə qeyri-bank sektorunun qərarları nəzərə alınmaqla qurulur.

Mərkəzi bankın iqtisadiyyatda olan pul kütləsinin həcminə təsiri mexanizmini aşağıdakı kimi təsvir etmək olar:

$$M = m^*B,$$

Burada: B-pul bazasıdır.

**Pul bazası** dedikdə tədavülə buraxılan pul üstəgəl kommersiya banklarının Mərkəzi bankda depozitdə saxladıqları ehtiyatlar nəzərdə tutulur.

Bu bərabərlik pul kütləsinin kəmiyyətinə təsir göstərən iki amili aşkara çıxarmağa imkan verir. Bunlardan biri pul bazasının dəyişməsidir. Mərkəzi bank pul bazası vasitəsi ilə birinci növbədə kommersiya banklarının ehtiyatlarının həcmini dəyişdirməklə, iqtisadiyyatda pul üzrə təklifin dəyişməsinə bilavasitə təsir göstərir. İkinci amil pul multiplikatorunun dəyişməsinə səbəb olan məcburi ehtiyat normalarının dəyişidirilməsidir ki, bunun vasitəsilə də Mərkəzi bank pul üzrə təklifə nəzarət edə bilər. Bu məqsədlə müxtəlif üsullardan istifadə olunur.

İqtisidiyyatda pul üzrə təklifin birbaşa tənzimlənməsində kreditləşdirmə limiti, faiz dərəcələri, verilən kreditlərin ümumi məbləği və s. nəzərə alınır. Bunlardan bir qayda olaraq bank sisteminin və pul bazarının inkişaf etdiyi, inflyasiyanın və ya maliyyə böhranının gücləndiyi dövrdə istifadə olunur.

**Müasir dövrdə** bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə Mərkəzi bank pul-kredit siyasətini tənzimləmək üçün üç əsas dolayı vasitədən istifadə edir. Bunlar açıq bazarda

əməliyyatların aparılması, faiz dərəcələri və məcburi ehtiyat normalarının müəyyən edilməsidir.

Mərkəzi bank açıq bazarda əməliyyatlar aparmaqla və faiz dərəcələrini dəyişdirməklə, pul bazarına, məcburi ehtiyat normalarını dəyişdirməklə isə multiplikasiya prosesinə təsir göstərir.

Müasir dövrdə tədavüldə olan pul kütləsinin tənzimlənməsinin başlıca vasitəsi qiymətli kağızlar bazarında aparılan əməliyyatlardır.

Bunun mahiyyəti ondan ibarətdir ki, Mərkəzi bank dövlət qiymətli kağızlarını kommersiya banklarından ya satın alır, ya da onlara satır, qabaqcadan elan olunmuş, yaxud da bazar qiymətləri ilə aksept və kredit əməliyyatlarını yerinə yetirir. Pul bazarında pul kütləsi artıqlığı müşahidə olunduqda Mərkəzi bank dövlət qiymətli kağızlarını açıq bazara çıxarır. Bu zaman onların bazar qiymətləri aşağı düşür, faiz dərəcələri və onları satın almağa alıcılarda maraq isə artır. Bu, onların ehtiyat hesablarındakı qalığın azalmasına gətirib çıxarır. Pul bazarında pul kütləsi azlıq etdikdə isə Mərkəzi bank pul üzrə təklifin genişləndirilməsinə yönəldilən siyasət yeridir. Başqa sözlə, digər banklarda və əhalidə olan qiymətli kağızları satın alır və bununla da onlara olan tələbi artırır. Nəticədə qiymətli kağızların qiyməti yüksəlir, faiz dərəcələri aşağı düşür, bu da onların «gözdən düşməsinə» səbəb olur. Banklar və əhali dövlət qiymətli kağızlarını həvəslə satdıqlarına görə Mərkəzi bankın ehtiyat hesabındakı qalıq artır.

Məcburi ehtiyat normaları o deməkdir ki, kommersiya bankları depozit məbləğinin bir hissəsini Mərkəzi bankda saxlamalı və aktiv əməliyyatların, hər şeydən əvvəl kreditləşdirilmənin həyata keçirilməsi üçün bu vəsaitdən istifadə edə bilməzlər.

Kommersiya banklarının malik olduqları məcburi ehtiyatlar iki funksiyanı yerinə yetirir. **Birincisi,** məcburi ehtiyatlar kommersiya banklarının əmanətçilər qarşısında götürdükləri tədiyyə öhdəliklərini yerinə yetirə bilməlidir və digər banklarla hesablaşmaları aparmaq üçün likvidliyin zəruri səviyyəsini təmin etməlidir. **İkincisi,** məcburi ehtiyatlar pul kütləsinin tənzimlənməsi üçün Mərkəzi bankın əlində olan başlıca vasitələrdən biridir.

Məcburi ehtiyat normalarının dəyişdirilməsi kommersiya banklarının kredit-maliyyə potensialına bilavasitə təsir edir. Məcburi ehtiyat normaları nə qədər yüksək olarsa, kredit vermək üçün ehtiyat məbləği, kredit emissiyası da bir o qədər az olur. İqtisadiyyatda pul üzrə təklifə məcburi ehtiyat normalarının dəyişməsi pul multiplikatorunun dəyişməsi vasitəsi ilə təsir göstərir. Başqa sözlə, əvvəlcə pul multiplikatoru məcburi ehtiyat normalarının dəyişirməsinə səbəb olur, bu isə oz növbəsində iqtisadiyyatda təklifin dəyişməsinə təsir edir. Məcburi ehtiyat normalarının artması pul multiplikatorunu və tədavüldə olan pul kütləsinin kəmiyyətinə kommersiya banklarının təsir dərəcəsini azaldır.

**Məcburi ehtiyat normalarını tez-tez dəyişdirmək düzgün deyildir.** Çünkü bu, banklar və digər maliyyə vasitələri arasındakı rəqabət tarazlığının pozulmasına gətirib çıxara bilər və gətirib çıxarır. Digər tərəfdən, məcburi ehtiyat normalarının dəyişdirilməsi bankları «fəaliyyət göstərən» aktivlərinin kəskin surətdə dəyişməsinə və onların maliyyə vəziyyətinə təsir göstərə bilər.

Ehtiyatlara olan tələb artırıldıqda kommersiya bankları aktivlərin çox böyük hissəsini faiz gətirməyən formada saxlamağa məcbur olur və deməli, gəlir azalır. Ona görə də bank sisteminin sabit olmasında maraqlı olan Mərkəzi banklar məcburi ehtiyat normalarını ya dəyişdirmir, ya da çox nadir hallarda dəyişdirirlər.

Pul-kredit siyasətinin çox mühüm «alətlərindən» olan faiz dərəcələrinin dəyişdirilməsinin bir sıra xüsusiyyətləri vardır. İş burasındadır ki, kommersiya banklarının Mərkəzi banklardan götürdükləri kredit məbləği adətən onların cəlb etdikləri vəsaitin az bir hissəsini təşkil edir. Odur ki, faiz dərəcələrinin dəyişdirilməsi hər şeydən əvvəl Mərkəzi bankın pul siyasətinin indikatoru hesab edilir. Beləliklə, inkişaf etmiş ölkələrdə iqtisadiyyatda pul üzrə təklifin operativ tənzimlənməsinin ən fəal vasitəsi açıq bazarlarda aparılan əməliyyatlardır.

Ümumiyyətlə, ayrı-ayrı ölkələrdə pul-kredit siyasətinin metodları və vasitələri mövcud ənənələr və ya qanunlarla müəyyən edilir və kredit-bank sisteminin, habelə maliyyə bazarının inkişaf səviyyəsindən asılıdır.

## 5.4. Müasir dövrdə Azərbaycan dövlətinin pul-kredit siyasətinin mahiyyəti və əsas istiqamətləri

Müstəqillik şəraitində Azərbaycanda pul-kredit siyasətinin formalaşması bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı iki qrup amilin fəaliyyət göstərməsi ilə şərtlənir: 1) inzibati-amirlik iqtisadi sistemindən tənzimlənən müasir qarışıq bazar iqtisadiyyatına keçidin həyata keçirilməsi; 2) bu keçidin həyata keçirildiyi konkret sosial-iqtisadi və siyasi şərait.

İnkişafın xüsusi mərhələsi adlandırılan inzibati-amirlik sistemindən qarışıq iqtisadiyyata keçid şəraitində dövlətin apardığı iqtisadi siyasətin xüsusiyyətləri onunla əlaqədardır ki, hələ özünütənzimləmə və özünüinkişafetdirmə mexanizminə malik olan sabit iqtisadi sistem formalaşmamışdır. **Müasir qarışıq iqtisadiyyat** şəraitində dövlət tərəfindən tənzimləmə ilə bazar tənzimləməsi ikisi birlikdə vahid mexanizmi əmələ gətirir və onlar bir-birini tamamlamaqla, bütövlükdə iqtisadi sistemin fəaliyyət göstərməsini təmin edir. Məlum olduğu kimi, keçid iqtisadiyyatı öz təməli üzərində təkrar olunmayan iqtisadi sistemdir. Bu sistemdə müəyyən müddət ərzində həm köhnə, həm də yeni münasibətlər eyni vaxtda mövcud olur. Və tədriclə köhnə münasibətlərin ölüb getməsi və yeni münasibətlərin meydana gəlib formalaşması prosesi gedir. Lakin aydın məsələdir ki, yeni yaradılan təsisat, norma və qaydalar cəmiyyətdə müəyyən müqavimətə rast gəlir və köhnə strukturları tez bir zamanda əvəz edə bilmir. Bir-birinə əks olan tənzimləmə mexanizminin mövcudluğu isə iqtisadi mənafelərin toqquşmasına, sosial-iqtisadi və siyasi münasibətlərin kəskinləşməsinə səbəb olur. Belə bir şəraitdə tarazlığın təmin olunması dövlətin müdaxiləsi olmadan mümkün deyildir. Bununla yanaşı, keçid iqtisadiyyatı özünün sabitləşməsi üçün dövlətlə iqtisadi müvəkkillər arasında xüsusi münasibətlərin formalaşdırılmasını tələb edir. Çünki keçid dövründə iqtisadi müvəkkillərin davranışları qeyri-müəyyən iqtisadi vəziyyətdə formalaşır. İqtisadi fəaliyyətin uzunmüddətli istiqamətlərini formalaşdırmadan isə sabit qarşılıqlı iqtisadi əlaqələrə nail olunması

mümkün deyildir. Bundan başqa, dövlət keçid dövründə mövcud qarışıq iqtisadiyyat şəraitində müsbət nəticə verə bilən makroiqtisadi tənzimləmə mexanizmi və vasitələrindən birbaşa istifadə edə bilməz. Bu, tamamilə pul-kredit siyasətinə də aiddir. Yeni iqtisadi sistemin formalaşdığı dövrdə pul-kredit siyasəti mürəkkəbləşdiyinə görə pul kütləsinin, investisiyanın səviyyəsinə təsir edən faiz dərəcələrinin, iqtisadiyyatda pul axınının tənzimlənməsi üçün mövcud iqtisadi sistemlərdə istifadə olunan metodlarla kifayətlənmək düzgün deyildir.

İkinci qrup amillərin pul-kredit siyasətinə təsiri yeni iqtisadi sistemə keçidin həyata keçirildiyi sosial-iqtisadi və siyasi şəraitlə əlaqədardır. Azərbaycan iqtisadiyyatında müstəqillik dövrünün əvvəllərində istehsalın səviyyəsinin aşağı düşməsi, işsizlik və təsərrüfat əlaqələrinin qırılması ilə müşayiət olunmuşdur. İqtisadi sabitsizlik özünü ümumi tələblə təklif arasındakı tarazlığın pozulmasında, inflyasiyanın güclənməsində, dövlət büdcəsi kəsirinin artmasında və s. göstərmişdir.

Beləliklə, yeni, daha səmərəli təsərrüfatçılıq mexanizminin yaradılması ilə əlaqədar görülən tədbirlər, sabitləşdirmə tədbirləri ilə uyğunlaşdırılmalı, aparılan iqtisadi siyasətdə başlıca məqsəd qısa müddətli dövrdə makroiqtisadi tarazlığın təmin olunmasından, investisiya mühitinin yaxşılaşdırılmasından, iqtisadi artım üçün şəraitin yaradılmasından ibarət olmalıdır.

**Pul-kredit siyasətinin** səmərəli həyata keçirilməsi üçün müasir bank sisteminin yaradılması və inkişaf etdirilməsi çox böyük əhəmiyyətə malikdir. Çünki etibarlı bank sistemi, əsaslandırılmış pul-kredit siyasəti olmadan iqtisadiyyatda sabitlik yaratmaq, yığılıb qalmış problemləri həll etmək və cəmiyyəti düşdüyü böhrandan çıxarmaq qeyri-mümkündür.

**Lakin ölkəmizdə bank sisteminin formalaşdığı** və keçdiyi çox qısa yolun təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, respublikamızda yaradılan banklar özlərinin mövcud olduqları ilk günlərdən qarşılarına real əmtəə istehsalına xidmət göstərmək əvəzinə maliyyə bazarlarında möhtəkirlik etmək, saxta əməliyyatlar aparmaqla qeyri-qanuni formada əldə edilən mənfəət hesabına kapital yığmaq və varlanmaq məqsədini qoymuşdular.

1990-cı illərin əvvəllərində ölkəmizdə qiymətlərin liberallaşdırılması inflyasiyanın dərinləşməsinə, tədavüldə olan pul kütləsinin artmasına, kommersiya bankları şəbəkəsinin genişlənməsinə, xarici iqtisadi əlaqələrin və bütövlükdə iqtisadiyyatda tarazlığın pozulmasına səbəb olmuşdu.

Azərbaycan Respublikasının Milli Bankından ucuz kredit və büdcə vəsaitini, sonralar isə beynəlxalq kreditləri kommersiya bankları ən yaxşı halda onları xarici iqtisadi fəaliyyətin, ticarətin, xammal ixrac edən müəssisələrin maliyyələşdirilməsinə yönəltmişlər.

Beləliklə, ölkəmizdə yaradılan kredit-bank sistemi öz fəaliyyətinin lap başlanğıcından müasir bank sisteminə xas olan funksiyaların – etibarlı pul tədavülü kanallarının yaradılması, yığılan vəsaitin borc kapitalına çevrilməsi və onun iqtisadiyyatın sahələri arasında bölüşdürülməsi, yığımın stimullaşdırılması və s. yerinə yetirilməsini qarşılarına məqsəd qoymamışdılar.

Dövlətin pul-kredit metodları ilə iqtisadiyyata təsiri pul tədavülü dairəsi ilə əmtəə və xidmətlərin istehsalı dairəsinin qarşılıqlı əlaqədə fəaliyyət göstərməsini nəzərdə tutur. Və burada bazar iqtisadiyyatı infrastrukturunun hərəkətverici amili olan kredit-bank sistemi xüsusi rol oynayır.

Yeni iqtisadi sistemə keçən ölkələrin əksəriyyəti üçün pul-kredit siyasətinin məqsədinin və tənzimləmə vasitələrinin düzgün seçilməsi də çox mühüm və mürəkkəb məsələlərdən biridir. Bu ölkələrin demək olar ki, hamısı üçün pul-kredit siyasəti antiinflyasiya yönümlüdür. Bu, iqtisadi şəraitlə əlaqədardır. Antiinflyasiya siyasəti, bir qayda olaraq, bazar münasibətləri əsasında iqtisadiyyatın yenidən qurulmasının ilk dövrlərində sabitləşdirmə proqramının əsasını təşkil edir. **İqtisadiyyatın sabitləşdirilməsinə isə iki yolla nail olmaq mümkündür.**

**Əvvəla qeyd etmək lazımdır** ki, müxtəlif inflyasiya mexanizmləri mövcuddur və bunlara uyğun olaraq pul tənzimlənməsinin metod və vasitələrindən istifadə edilir. Məlum olduğu kimi, keçid iqtisadiyyatı inkişaf etmiş təsərrüfat qanunları əsasında fəaliyyət göstərmək iqtidarında deyildir. Odur ki, öz iqtisadiyyatlarını yenidən quran bütün ölkələrdə zahirən eyni cür təzahür

edən proseslərin tənzimlənməsi mexanizmi və səbəbləri spesifik xüsuiyyətlərə malikdir. Məsələn, Azərbaycanda inflyasiyaya xarakteristika vermək üçün yalnız tələbin və xərclərin inflyasiyası ilə kifayətlənmək olmaz. Çünki ölkəmizdə inflyasiyanın səbəblərindən danışarkən iqtisadiyyatın strukturunun təkmil olmaması nəzərdən qaçırılmamalıdır.

**İkincisi,** yüksək inflyasiya ilə mübarizənin birinci dərəcəli vəzifə kimi irəli sürülməsini hökumət və Mərkəzi banklar iqtisadi böhrandan tezliklə çıxmağın ilkin şərtlərindən biri kimi nəzərdən keçirirlər. Lakin keçid iqtisadiyyatında öz ifadəsini qiymətlərin artım sürətinin ləngiməsində tapan maliyyə sabitliyi əslində iqtisadi artımın öz-özünə baş verəcəyini təmin etmir. O, vergi və pul-kredit sistemlərində islahatların aparılmasını, bazar iqtisadiyyatı strukturlarının yaradılmasını, müasir qarışıq iqtisadiyyatın iş mexanizmlərinin sahmana salınmasını zəruri edir. Çünki dövlət yalnız maliyyə sabitliyinin yaradılması ilə əlaqədar məsələlərlə məşğul olduqda, qarşıya qoyulan məqsədə nail olunması mümkün olmur.

Pul-kredit siyasəti sahəsində nailiyyətlərin qazanılması həm də seçilmiş prinsiplərdən asılıdır. Ölkəmizdə bazar iqtisadiyyatına keçid dövrünün əvvəllərində iqtisadiyyatımızdakı ağır iqtisadi böhranın aradan qaldırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Bunları görməkdə əsas məqsəd inflyasiyanın cilovlanması və dövlətin az müdaxiləsi ilə bazar iqtisadiyyatının əsaslarının yaradılmasından ibarət olmuşdur. Bu problemlərin həll edilməsi mexanizmi büdcənin qeyri-inflyasiya mənbələri hesabına maliyyələşdirilməsinə, güzəştlərin azaldılması və son nəticədə ləğv edilməsinə, pullu hərraclarda özəlləşdirmənin aparılmasına, MDB dövlətləri ilə bəzi ittifaqlardan, xüsusilə də vahid pul məkanından çıxmağa yönəldilmişdi. **Bütün bunlar özünün qismən müsbət nəticələrini vermişdir.**

«Banklar və bank fəaliyyəti haqqında» və «Azərbaycan Respublikasının Milli Bankı haqqında» Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq ölkəmizin pul-kredit siyasətinin əsas prinsipləri və istiqamətləri Azərbaycan Respublikasının

Nazirlər Kabineti ilə qarşılıqlı əlaqə şəraitində Azərbaycan Respublikasının Milli Bankı tərəfindən işlənib hazırlanır.

**1990-cı illərin ikinci yarısında ölkəmizdə pul-kredit** siyasətinin formalaşmasının əsasında aşağıdakı makro-iqtisadi məqsədlərə nail olunması durmuşdur: 1) Maliyyə sabitliyinin yaradılması və bu sahədə əldə edilmiş nəticələrin möhkəmləndirilməsi; 2) İnflyasiyanın sürətinin azaldılması; 3) İqtisadi subyektlərin formalaşmaqda olan şəraitə uyğunlaşdırılması üçün əlverişli mühitin yaradılması; 4) Milli valyutanın məzənnəsinin möhkəmləndirilməsi; 5) İqtisadiyyatda nominal və real faiz dərəcələrinin azaldılması; 6) Ölkənin tədiyyə balansının müsbət saldosunun təmin edilməsi; 7) qeyri-inflyasiya iqtisadi artım meylinə nail olunması və onun möhkəmləndirilməsi.

Azərbaycan Respublikasının Milli Bankının pul-kredit siyasətinin əsas vəzifəsi isə ölkəmizin milli valyutasının – manatın sabitliyini təmin etməkdən və onu qoruyub saxlamaqdan ibarət olmuşdur.

Bu vəzifənin yerinə yetirilməsinin zəruri şərtləri aşağıdakılardır: 1) pul emissiyası üzərində sərt nəzarətin həyata keçirilməsi; 2) çevik idarə olunan valyuta məzənnəsi siyasətinin yeridilməsi; 3) bazar mexanizmlərinin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi; 4) pul-kredit siyasətinin başlıca vasitələrindən olan Milli Bankın apardığı əməliyyatlara görə faiz dərəcələrindən məqsədyönlü istifadə edilməsi.

Görülən tədbirlər nəticəsində ölkəmizdə maliyyə və pul tədavülünün sağlamlaşdırılması və iqtisadiyyatın sabitləşdirilməsi sahəsində bir sıra nailiyyətlər qazanılmışdır. Belə ki, 1994-cü ildə ölkəmizdə inflyasiyanın səviyyəsi 1760% olduğu halda, sonralar bu beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycan milli valyutasının denominasiya edilməsi və ABŞ dollarına nisbətən bahalaşması da bu siyasətin səmərəli nəticələr verdiyinə əyani sübutdur.

Bütün bunlar onu göstərir ki, ölkəmizdə yeridilən pul-kredit siyasəti öz bəhrələrini verir və gələcəkdə iqtisadiyyatımızda müşahidə olunan çatışmazlıqların aradan qaldırılması bəzi problemlərin həll edilməsinə, mövcud imkanlarımıza uyğun gələn və

xalqımızın həyat səviyyəsinin yüksəlməsinə imkan verən sosial yönümlü bazar iqtisadiyyatı modelinin formalaşdırılmasına şərait yaradacaqdır.

## NƏTİCƏ

- pul-kredit siyasətinin köməyilə bazar iqtisadiyyatının tənzimlənməsinə XX əsrin 30-cu illərinədək bir o qədər də əhəmiyyət verilməmişdir. Yalnız Avropanın aparıcı ölkələrini, habelə Şimali Amerika dövlətlərini dağıdıcı böhran bürüdükdən sonra bazar iqtisadiyyatının tənzimlənməsində pul-kredit siyasətindən istifadə olunmağa başlanmışdır;
- dövlətin bazar iqtisadiyyatına geniş miqyaslı müdaxiləsinin nəzəri əsasları tanınmış ingilis iqtisadçısı C.M.Keynsin «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» əsərində (1936-cı il) verilmişdir. O, bu əsərində iqtisadçıların və hökumətin diqqətini işgüzar silsilələrə və iqtisadi siyasətə cəlb etmişdir;
- XX əsrin 70-ci illərində Keyns məktəbində böhran baş vermiş və bunun nəticəsində iqtisadi nəzəriyyədə neoklassik istiqamət, o cümlədən onun müasir forması olan monetarizm üstünlük qazanmışdır. Monetaristlərlə Keynsçilər arasında iqtisadiyyatda pulun rolu və bütövlükdə bazar təsərrüfatının fəaliyyəti ilə əlaqədar kəskin fikir ayrılıqları vardır;
- müasir monetarizmin tanınmış nümayəndəsi, Nobel mükafatı laureatı M.Fridmendir. O, uzunmüddətli monetar siyasətlə tarazlaşdırılmış «pul qaydaları» ideyasını irəli sürmüşdür ki, bu da tədavüldə olan pul kütləsinin artımına ciddi nəzarət olunmasını nəzərdə tutur. Onun fikrincə bu, işgüzar fəallığı artırır;
- pul tədavülü və kredit sahəsində razılaşdırılmış tədbirlər sistemi olan pul-kredit siyasəti əsas makroiqtisadi göstəricilərin (qiymətlərin sabitliyi, tam məşğulluq, iqtisadi artım, sabit tədiyyə balansı və s.) tənzimlənməsinə yönəldilmişdir. Cari pul-kredit siyasəti daha konkret məqsədlərə əsaslanır. Bununla əlaqədar olaraq pul sistemində bir il və daha uzun müddət üçün aralıq

məqsədlər müəyyənləşdirilir. Bu məqsədlərə pul kütləsi, faiz dərəcələri və valyuta məzənnələri aiddir;

- bir neçə onilliklər ərzində müxtəlif ölkələrdə həyata keçirilən pul-kredit siyasəti sahəsində toplanmış təcrübəyə əsasən onun müsbət və mənfi cəhətlərini aşkara çıxarmaq, səmərəliliyinə təsir edən amilləri müəyyənləşdirmək olar. Onun müsbət cəhətləri özünü pul-kredit siyasətinin çevikliyində, mənfi cəhətləri isə tənzimləmənin dolayı metodlarının xüsusiyyətlərində, aralıq və taktiki məqsədlərin seçilməsində və s. göstərir.

- pul-kredit siyasətinin istiqamətlərini müəyyən edərkən mövcud ötürücü mexanizmdə son nəticəyə əhəmiyyətli təsir göstərən aşağıdakı cəhətlər nəzərə alınmalıdır: 1) ümumi tələbin faiz dərəcələrinin dəyişməsinə təsiri; 2) pul kütləsinin dəyişməsi nəticəsində faiz dərəcələrinin dəyişməsi və faiz dərəcəsinə münasibətdə pula olan tələbin elastikliyi;

- müasir dövrdə bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etmiş olduğu ölkələrdə Mərkəzi bank pul-kredit siyasətində üç əsas dolayı vasitədən istifadə edir. Bunlar açıq bazarda aparılan əməliyyatlar, faiz dərəcələri və məcburi ehtiyat normalarıdır;

- kommersiya banklarının malik olduqları məcburi ehtiyatlar aşağıdakı iki funksiyanı yerinə yetirir: 1) kommersiya banklarının əmanətçilər qarşısında götürdükləri tədiyyə ehtiyatlarını yerinə yetirə bilmələri üçün likvidliyin zəruri səviyyəsini təmin etməlidir; 2) pul kütləsinin tənzimlənməsi üçün Mərkəzi bankın əlində olan başlıca vasitələrdən biridir;

- Azərbaycanda pul-kredit siyasətinin formalaşması bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı iki qrup amilin fəaliyyəti ilə şərtlənir: 1) inzibati-amirlik iqtisadi sistemindən tənzimlənən müasir qarışıq bazar iqtisadiyyatına keçidin həyata keçirilməsi; 2) bu keçidin həyata keçirildiyi konkret sosial-iqtisadi və siyasi şərait;

- 1990-cı illərin ikinci yarısında ölkəmizdə pul-kredit siyasətinin formalaşmasının əsasında aşağıdakı makroiqtisadi məq-

sədlərə nail olunması durmuş və yerinə yetirilmişdir: 1) maliyyə sabitliyinin yaradılması və bu sahədə əldə edilmiş nəticələrin möhkəmləndirilməsi; 2) inflyasiyanın sürətinin azaldılması; 3) iqtisadi subyektlərin formalaşmaqda olan şəraitə uyğunlaşdırılması üçün əlverişli mühitin yaradılması; 4) milli valyutanın məzənnəsinin möhkəmləndirilməsi; 5) iqtisadiyyatda nominal və real faiz dərəcələrinin azaldılması; 6) ölkənin tədiyyə balansının müsbət saldosunun təmin edilməsi; 7) qeyri-inflyasiya iqtisadi artım meylinə nail olunması və onun möhkəmləndirilməsi.

## VI FƏSİL

# DÖVLƏTİN ANTİİNHİSAR SİYASƏTİ

## 6.1. Rəqabət və inhisar anlayışlarının iqtisadi məzmunu və formaları

Antiinhisar siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi dövlətin ən mühüm iqtisadi funksiyalarından biridir. Bununla əlaqədar olaraq əvvəlcə rəqabət və inhisar anlayışlarının mahiyyətini aydınlaşdırmaq lazımdır.

Rəqabət bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin səmərəliliyinin yüksəlməsinə təsir edən amillərdən biri olmaqla, iqtisadi subyektlərin hərəkətə gətirilməsinin ən mühüm üsuludur. Rəqabəti həm də yaşamaq uğrunda mübarizənin sivil forması adlandırmaq olar. Rəqibi ötüb keçmək, iqtisadi tərəqqidən geridə qalmamaq, iqtisadi mübarizədə uduzmamaq və daha da inkişaf etmək rəqabətin ən böyük stimullaşdırıcı vasitələridir.

**Rəqabət latınca «Concurrentia»** sözündən əmələ gəlmiş və hər hansı bir fəaliyyət növündə kiminləsə toqquşmaq mənasını verir. İqtisadi ədəbiyyatda rəqabət bu və ya digər işdə – əmtəə və xidmətlərin istehsalında, yaxud da alqı-satqısında bazar iştirakçıları arasında ən yaxşı, iqtisadi cəhətdən daha sərfəli şərait uğrunda bəhsləşmə kimi müəyyən edilir. Bazar iqtisadiyyatı rəqabətsiz mümkün deyildir. Çünki yaşamaq və iqtisadi cəhətdən inkişaf etmək uğrunda bazar mübarizəsi əmtəə istehsalının iqtisadi qanunudur.

Rəqabətin antipodu inhisardır. Bəs, inhisar nədir? İqtisadiyyatın hər hansı bir sahəsində bu və ya digər bir məhsul yeganə bir firma tərəfindən istehsal olunursa və həmin məhsulun ən yaxın əvəzedicisi yoxdursa, bu xalis və ya mütləq inhisar deməkdir.

**İqtisadçıların fikrincə,** təsərrüfat subyektlərinin fəaliyyət göstərdiyi sahədə malik olduqları inhisar hakimiyyəti dərəcəsindən asılı olaraq bazarın bir-birinə bənzəməyən **aşağıdakı dörd tipini**

**fərqləndirmək lazımdır**: 1) azad (xalis) rəqabətin mövcud olduğu bazar; 2) inhisar rəqabətinin mövcud olduğu bazar; 3) oliqopoliya bazarı; 4) xalis inhisarın mövcud olduğu bazar.

Azad rəqabətin mövcud olduğu bazar dedikdə, hər hansı bir əmtəənin, məsələn, pambığın, buğdanın, misin, habelə qiymətli kağızların satıcıları və alıcılarının toplusu nəzərdə tutulur. Burada çoxlu sayda firma fəaliyyət göstərir və yeni iqtisadi vahidlər asanlıqla bu sahələrə daxil ola bilirlər. Bu bazarda eynitipli məhsullar istehsal edən firmalar bir-biriləri ilə rəqabət aparırlar. Qiymətlər eyni olduqda digər şərtlər nəzərə alınmamaqla, alıcı üçün məhsulun hansı satıcıdan alınmasının heç bir əhəmiyyəti yoxdur. Başqa sözlə, alıcı, bazarda «B», «V», «Q», «D» firmalarının məhsullarını «A» firmasının məhsulundan fərqlənməyən məhsul hesab edir. Bunun nəticəsidir ki, qeyri-qiymət amilləri, yəni məhsulların keyfiyyəti, reklam və ya satışın stimullaşdırılması sahəsində firmalar arasında rəqabətə bir o qədər də ehtiyac qalmır. Bundan başqa, bu bazarda hər hansı bir satıcı və ya alıcı əmtəə və xidmətlərin cari qiymətlərinə həlledici təsir göstərə bilmir.

Beləliklə, azad rəqabət bazarının başlıca səciyyəvi cəhətləri aşağıdakılardır: 1) hər bir firmanın istehsal etdiyi məhsul bütün sahədə istehsal olunan məhsulla müqayisədə çox cüzidir və elə hüdudda dəyişir ki bu, reallaşdırılan əmtəələrin qiymətlərinə təsir göstərə bilmir; 2) yeni firmalar bu bazarlara asanlıqla daxil ola və çıxıb gedə bilirlər. Başqa sözlə, hər hansı bir firma bu və ya digər məhsulun istehsalına başlamaqla bazara daxil ola, yaxud da əmtəənin istehsalını dayandırmaqla oradan çıxıb gedə bilər; 3) həmin sahədə fəaliyyət göstərən firma tərəfindən istehsal olunan əmtəə və xidmətlərə hər hansı bir səbəb üzündən tələb azaldıqda, onu ciddi çətinliklər gözləyir. Bu isə firmaların bir qisminin bağlanması, digər bir qisminin köhnəlmiş avadanlıqların yeniləri ilə əvəz edilməsində marağının olmaması ilə nəticələnir.

İnhisar rəqabətinin mövcud olduğu bazar strukturunun nəzəri əsasları ingilis iqtisadçısı E.Çemberlin tərəfindən işlənib hazırlanmışdır. İnhisar rəqabəti şəraiti müxtəlif növ məhsul, məsələn,

qadın ayaqqabısı, mebel, tozsoran və s. istehsal edən və satan çoxlu sayda satıcıların olması ilə səciyyələnir. Lakin hər bir firma rəqiblərinin əmtəələrindən fərqlənən əmtəələr satdığı üçün sahəinin bütün firmaları istehsal etdikləri əmtəələrin qiymətlərini dəyişdirmək imkanına malikdirlər.

Beləliklə, inhisar rəqabətinin mövcud olduğu bazar sövdələşmələri dedikdə geniş qiymət diapazonunda fəaliyyət göstərən alıcı və satıcıların toplusu nəzərdə tutulur. Qiymət diapazonunun mövcud olması isə satıcılar tərəfindən alıcılara əmtəələrin müxtəlif variantlarının təklif oluna bilməsi imkanı ilə əlaqədardır. Belə ki, eyni təyinatlı məhsullar keyfiyyətlərinə, alıcıların zövqünü oxşamaq, onlara xoş gəlmək xassələrinə görə bir-birindən fərqlənir. Alıcılar bu fərqləri görür və onlardan ən yaxşılarını, nəzər-diqqəti daha çox cəlb edənləri seçib almağa çalışırlar.

Ayrı-ayrı sahələrdə bir-biri ilə rəqabət aparan az sayda (və ya «çox sayda olmayan») satıcıların mövcud olduğu bazar oliqopoliya[1] bazarı adlanır. «Çox olmayan say» sözü o deməkdir ki, qiymətlər və istehsalın həcmi haqqında qəbul olunan qərarlar qarşılıqlı surətdə bir-birindən asılı olur. Başqa sözlə, hər bir firmanın vəziyyətinə onun rəqibinin qəbul etdiyi qərarlar təsir edir və buna görə də o, qiymətqoyma və istehsalın həcminin müəyyən olunmasında bu qərarları hökmən nəzərə almalıdır. Əmtəələr isə bir tərəfdən, bir-birinə oxşar (məsələn, alüminium, mis, polad və i.a.), digər tərəfdən isə bənzərsiz (məsələn, müxtəlif markalı avtomobillər, kompüterlər və i.a.) ola bilər. Satıcıların sayının az olması onunla izah edilir ki, yeni iddiaçıların bu bazara daxil olamaları çox çətindir. Burada bazar subyektləri qiymətlər barədə müxtəlif fikirdə ola bilərlər. Məsələn, polad istehsalı ilə məşğul olan bir şirkət qiymətləri 5% aşağı saldıqda alıcılar tez bir zamanda öz əlaqələrini onunla qurmağa çalışırlar. Bu zaman həmin məhsulun başqa bir istehlakçısı da qiymətləri aşağı salmaq məcburiyyətində qalır. Digər tərəfdən, hər hansı

---

[1] Oliqopoliya yunan sözü olub, «oliqo» və «poliya» sözlərindən əmələ gəlmişdir. «Oliqo» bir neçə, «poliya» satıcı cəməkdir.

bir eynitipli məhsul istehsal edən firma qiymətləri qaldırdıqda rəqiblər isə buna reaksiya vermədikdə onda qiyməti qaldıran firma müştərilərinin bir hissəsini itirmək təhlükəsi qarşısında qalır və qiymətləri əvvəlki səviyyəyə qaytarmağa məcbur olur.

Xalis inhisarın mövcud olduğu bazarda cəmi bir neçə satıcı olur. Başqa sözlə, bu bazarda məhsulun və ya xidmətin yeganə satıcısı hər hansı bir firmadır. Yeni firmaların bu bazara daxil olmaları demək olar ki, mümkün deyildir. Burada hər bir ayrıca firma əmtəənin yeganə istehsalçısı olub, bütün sahə üzrə buraxılan məhsula nəzarət edir və buna görə də o inhisarçı sayılır. Bunlar dövlət təşkilatları, tənzimlənən, yaxud da tənzimlənməyən xüsusi inhisarlar ola bilər. Dövlət inhisarı qarşısına məsələn, alıcıları özünə cəlb etmək məqsədilə qiyməti maya dəyərindən aşağı, yaxud da xərcin ödənilməsi və yüksək gəlir əldə olunmasını təmin edən səviyyəyə uyğun müəyyən edilməsi kimi vəzifələr qoya bilər.

Tənzimlənən xüsusi inhisara gəldikdə, şirkətin fəaliyyət göstərdiyi sahədə qalması üçün dövlət, necə deyərlər, «ədalətli mənfəət norması»nı təmin edən qiymət müəyyənləşdirməyə icazə verir. Tənzimlənməyən inhisarlar isə qiyməti müəyyən etməkdə tam sərbəstdirlər.

Xalis inhisarın mövcud olduğu bazarın müsbət və mənfi cəhətlərini qiymətləndirmək üçün **iqtisadi səmərəlilik**, yəni ehtiyatların lüzumsuz sərf edilməsinin qarşısının alınması anlayışından istifadə olunur. İqtisadi səmərəlilik isə italiya iqtisadçısı V.Paretonun təklif etdiyi metodla müəyyən olunur. Bu metoda görə ehtiyatlardan istifadə edilməsi o vaxt səmərəli hesab edilir ki, başqalarının rifahını pisləşdirmədən bir ev təsərrüfatının vəziyyətini yaxşılaşdırmaq üçün digər metodlar yoxdur və ya onlardan istifadə edlimısi az səmərə verir.

**Beləliklə, nəzərdən keçirilənlərdən aydın olur ki, qiymət siyasətinin imkanları və problemləri bazarın tipindən asılı olaraq dəyişə bilər və dəyişir.** Digər tərəfdən, bu strukturların birinci və ikincisində hər hansı bir firma heç bir inhisar hakimiyyətinə malik olmadığı halda, sonrakı ikisində bazarda mütləq inhisara malik olur. Lakin qeyd etmək lazımdır ki, real həyatda bu strukturlara

demək olar ki, rast gəlinmir, aralıq strukturlar – inhisar rəqabəti və oliqopoliya – üstünlüyə malik olur.

Müxtəlif bazar strukturlarının müqayisəsi göstərir ki, ayrı-ayrı firmaların inhisar hakimiyyətinin güclənməsi ümumi iqtisadi itkilərə gətirib çıxarır. Bu itkilər özünü aşağıdakılarda göstərir: 1) istehlakçılar eyni məhsulları azad rəqabət bazarlarındakı qiymətlərə nisbətən inhisarın hökmran olduğu bazarlarda daha yüksək qiymətlərlə satın alırlar; 2) firmanın inhisar hakimiyyətinə malik olmasını təmin etmək məqsədilə bir çox hallarda yüksək qiymətlərin qorunub saxlanması üçün şüurlu surətdə ayrı-ayrı məhsul və xidmət növləri istehsalı məhdudlaşdırılır; 3) inhisarçılıq əksəriyyət hallarda istehsalda texniki durğunluğa, istehsal şəraitinin və məhsulların keyfiyyətinin pisləşməsinə səbəb olur.

Beləliklə, iqtisadiyyatda inhisarçılığın qeyd olunan və olunmayan mənfi cəhətləri dövləti antiinhisar siyasəti işləyib hazırlamağa və həyata keçirməyə, başqa sözlə, inhisarçılığın məhdudlaşdırılmasına, bütün təsərrüfat subyektləri üçün bərabər şərait yaradılmasının təmin olunmasına, haqsız rəqabətə yol verilməməsinə yönəldilmiş kompleks tədbirlər görməyə məcbur edir.

**Dövlətin antiinhisar siyasəti özündə bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı iki istiqaməti birləşdirir**: 1) xüsusi antiinhisar qanunvericiliyinin işlənib hazırlanması və qəbul edilməsi; 2) antiinhisar tənzimlənməni və antiinhisar qanunvericiliyinə əməl olunmasına nəzarəti həyata keçirən orqanların formalaşdırılması.

İqtisadiyyatın antiinhisar tənzimlənməsi ilə əlaqədar **iki model vardır**. Bunlardan biri Amerika, digəri isə Avropa modeli adlanır.

**Amerika modelində** fəaliyyətin sosial-iqtisadi nəticələrindən asılı olmayaraq inhisarçılığa yol verilmir. Strukturalistlər adını almış bu yanaşmanın tərəfdarları qeyd edirlər ki, inhisarçı quruluşa malik olan sahə özünü ihisarçı kimi aparır. Deməli, inhisarçı struktura malik olan sahələrin iqtisadi fəaliyyətləri ictimai nöqteyi-nəzərdən mənfi nəticəli olur və buna görə də antiinhisar qanunvericiliyinə tabe edilməlidir. Antiinhisar tənzimlənməsinin

bu modelində əsas etibarilə qanunla icazə verilən prosesləri və onları pozanların qanunla cəzalandırılması nəzərdə tutulur.

**Avropa modeli** amerika modelindən fərqli olaraq sui-istifadə halları üzərində nəzarət qoyulması prinsipinə əsaslanır. Bu yanaşmada sahənin strukturuna deyil, təsərrüfatçılıq edən ayrı-ayrı subyektlərin davranışlarına istinad olunur. Bu modeldə ağıllı yanaşmadan istifadə edilir. Başqa sözlə, hər cür inhisarçılıq qeyri-qanuni hesab edilmir. Bu, yalnız cəmiyyət üçün sosial-iqtisadi nəticələri mənfi olan inhisarlara şamil edilir. Bu yanaşma müxtəlif bazarlarda rəqabətin vəziyyətini təhlil və ona nəzarət etmək üçün xüsusi inzibati orqanlar sisteminin yaradılmasını tələb edir. Lazım gəldikdə bu orqanlar əsas etibarilə inzibati xarakterli təshihedici, tənzimləyici və qadağaqoyucu tədbirlərdən istifadə edirlər.

Son dövrlərdə aparılan müşahidələr göstərir ki, bu iki model arasındakı fərqlər getdikcə azalır, həm də Avropa modelinin xeyrinə onların bir-birinə yaxınlaşması prosesi gedir. Bu o deməkdir ki, təsərrüfatçılıq edən subyektlərin fəaliyyətinin tənzimlənməsi yalnız onların nisbi və mütləq həcmi deyil, həm də cəmiyyət üçün onların fəaliyyətinin sosial-iqtisadi nəticələri nəzərə alınmaqla həyata keçirilir.

## 6.2. Rəqabət və inhisarın tənzimlənməsi metodları

Müasir dövrdə rəqabəti tənzimləmək mümkündür. **Rəqabətin tənzimlənməsinin əsas vəzifəsi bazarın firmalar tərəfindən inhisarlaşdırılmasına yol verməməkdir.** Bu məqsədlə müxtəlif metodlardan istifadə olunur. İnhisar əleyhinə tənzimləmə siyasətinin ən mühüm vasitəsi dövlət tərəfindən hüquqi tənzimləmə mexanizminin və qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanları sisteminin yaradılmasıdır. Dövlət, inhisar əleyhinə qanunların köməyi ilə inhisarların fəaliyyətinin hüquqi və inzibati yolla tənzimlənməsini həyata keçirir.

Rəqabətin inzibati (qanunvericilik) yol ilə tənzimlənməsi haqsız rəqabət əleyhinə görülən tədbirlər və onlara riayət olunması üzərində dövlət tərəfindən nəzarətin həyata keçirilməsinə əsaslanır.

İlk dəfə belə bir hüquqi aktın 1889-cu ildə Kanadada qəbul edilməsinə baxmayaraq bu sahədə ABŞ-ın təcrübəsi diqqəti daha çox cəlb edir.

Əsası XX əsrin 90-cı illərində amerikanın Şerman qanunu ilə (1890-cı il) qoyulmuş antiinhisar qanunvericiliyi artıq bazar iqtisadiyyatının 40-dan çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkədə, həmçinin Azərbaycan Respublikası da daxil olmaqla, Şərqi Avropa ölkələrində də qəbul edilmişdir. Hazırda ABŞ-da bir-birini tamamlayan bir sıra qanunvericilik aktları – Şerman (1890-cı il), Kleyton (1914-cü il), Federal ticarət komissiyası (1914-cü il), Robinson-Petman (1936-cı il), habelə Ali məhkəmənin bir sıra qərarları – fəaliyyət göstərir.

Başlıca kapitalist ölkələrində ikinci dünya müharibəsindən sonra, 1945-ci ildə Fransada, 1947-ci ildə Yaponiyada, 1948-ci ildə İngiltərədə, 1957-ci ildə Almaniyada inhisar əleyhinə qanunlar qəbul edilmişdir. Avropa iqtisadi birliyində əmtəələrin, kapitalın və əhalinin sərbəst hərəkətini müəyyən edən Roma müqaviləsinin (1957-ci il) 85 və 86-cı maddələri inhisarçılıq əleyhinə yönəldilmişdir.

Milli qanunvericilik hər bir ölkənin spesifik şəraitini əks etdirir və amerika qanunvericiliyindən fərqlənir. Lakin bununla birlikdə ayrı-ayrı ölkələrin inhisar əleyhinə qanunvericilikləri vahid əsasa malikdir. Çünki bunlar bir tərəfdən şirkətlərin birləşməsini dövlətin nəzarəti altında saxlayır, digər tərəfdən isə sahibkarların dilbir olmalarını qadağan edir və haqsız rəqabəti aradan qaldırır.

Hazırda bazar iqtisadiyyatında olan bütün ölkələrdə demək olar ki, inhisar əleyhinə qanunvericilik aktları qəbul edilmişdir. Beynəlxalq bazarlarda rəqəbət hökumətlərarası razılaşmalar, həmçinin BMT-nin sənaye və ticarət (YUNKTAD) üzrə komissiyasının, Avropa iqtisadi Birliyinin, digər təşkilatların sənədləri ilə tənzimlənir. İnhisar əleyhinə qanunvericiliyin bir çox prinsip-

lərinin ümumiliyi ilə yanaşı, bir sıra mühüm fərqlər də vardır. Bunlar hər şeydən əvvəl, bu və ya digər məhdudiyyətlərin şərtliyinə, dövlət strukturlarının hüquq və vəzifələrinə, qanun pozuntularına görə cəzalandırma sisteminə və s. aiddir.

Ümumiyyətlə, inhisar əleyhinə qanunvericilikdə firmaların davranışlarının nizama salınmasında Şerman qununu əsas götürülür. Bu qanuna görə sahədə firmaların inhisar vəziyyəti məhdudlaşdırılmalıdır. İnhisarlaşdırılmış sahələrin müəssisələri qanunu pozanlar sırasına daxil edilməlidir, çünki bu, hüququn demokratik əsaslarına ziddir.

**Nizamlanma prinsipi aşağıdakı iki qaydadan birinə** əsaslanmalıdır: ya inhisarların fəaliyyəti birdəfəlik qadağan olunmalı, yaxud da prinsipcə qadağan olunsa da, bu «səmərəlilik prinsipi», yəni iqtisadi siyasətin müəyyən vəzifələrinin yerinə yetirilməsi əsasında həll edilməlidir. Məsələn, ABŞ-da və Almaniyada kartel yaradılması qadağan olunmuş, Yaponiyada isə buna müəyyən şəraitdə və müyyən müddətə icazə verilir.

Antiinhisar qanunvericiliyi inzibati məhkəmə və ya qarışıq qaydada həyata keçirilir. Antiinhisar siyasəti yeridən orqanlar bir qayda olaraq məhkəmə sistemi vasitəsilə fəaliyyət göstərir. Çünki yalnız məhkəmə testlər haqqında qanunların pozulması ilə əlaqədar sübutlar əsasında sanksiyalar verilməsi barədə qərarlar çıxara bilər.

**Bütün ölkələrdə antiinhisar siyasəti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.** Bu, Almaniyada kartellər üzrə Federal agentlik, Fransada rəqabət üzrə komissiya, Avstraliyada ticarət təcrübəsi üzrə komissiya adlanır. Bəzi hallarda funksiyalar iki təşkilat arasında bölünür. Məsələn, ABŞ-da Federal ticarət komissiyası və Ədliyyə Departamentinin trestlər əleyhinə şöbəsi, İngiltərədə məhdud ticarət təcrübəsi haqqında işlərə baxan xüsusi məhkəmə və ədalətli ticarət üzrə Agentlik fəaliyyət göstərir. Avropa İqtisadi Birliyində qitə miqyasında azad ticarətin pozulması ilə əlaqədar işlərə Birliyin birləşmiş məhkəməsi və komissiyasında baxılır.

Antiinhisar qanunlarından aydın olur ki, onların yerinə yetirilməsinə cavabdeh olan hakimiyyət strukturları nəinki bəzi

sövdələşmələrin aparılmasına icazə verir, həm də ayrı-seçkilikdən zərər çəkənlərin işlərinə baxır, meydana çıxan münaqişələri həll edir və s. və i.a. Ona görə də bu strukturlar digər hökumət strukturlarının malik olmadıqları bir sıra səlahiyyətlərə malik olurlar.

Qanunlarda münaqişələrin inzibati yolla həll edilməsi mümkün olmadığı hallarda işlərin tədqiq olunması və münaqişələrin həllində vasitəçilərə cərimə sanksiyaları, habelə işin məhkəməyə verilməsi qaydaları nəzərdə tutulur. Ölkələrin əksəriyyətində xüsusi firmalar məhkəmədə bir-birinə və antiinhisar strukturlarına qarşı rəqabətin pozulması haqqında mülki iddia qaldıra bilər. Yaponiyada isə belə bir səlahiyyət yalnız ədalətli sövdələşmə üzrə komissiyaya verilmişdir.

**Antiinhisar qanunlarına əsaslanan rəqabətin müdafiəsi siyasətini bir çox hallarda azad rəqabətin «iqtisadi konstitusiyası» adlandırırlar.** Çünki bu siyasət özündə müasir bazar təsərrüfatında istifadə olunan üsulların və hər bir ölkənin inkişafının tarixi xüsusiyyətlərini əks etdirir.

İnhisar şəraiti müəyyən olunarkən adətən yeni rəqiblərin çətinliklə daxil olduqları əmtəə bazarları xüsusi qrupa ayrılır. Bu iri miqyasda istehsal və satışla əlaqədar olan xərclərə qənaət edilməsi (iri seriyalarla məhsul buraxılışını mənimsəmiş və satış şəbəkəsi yaratmış müəssisələr xərclərdə müəyyən üstünlüyə malik olurlar); texnoloji inhisarın patentlə qorunması; xammal və bütövlükdə müəssisələrin üfiqi inteqrasiyası üzərində nəzarət qoyulması; bazara daxil olmaq üçün iri həcmli kapital qoyuluşunun zəruriliyi, başqa sözlə, maliyyə maneələri; sabit istehlakçı seçimi (istehlakçılar hər hansı bir firmanın məhsullarına üstünlük verir, onunla rəqabət aparmaq üçün reklamla əlaqədar böyük məbləğdə xərc çəkmək lazım gəlir) və s-lə əlaqədardır. Bir çox ölkələrdə antiinhisar qanunlarının yerinə yetirilməsinə cavabdeh olan strukturlar çətinliklə daxil olunan bazarlarda daim monitorinq keçirir, bazar təmərküzləşməsi indekslərini hesablayır və çap etdirir. Əlbəttə, təmərküzləşmənin kəmiyyət göstəriciləri şərtidir, çünki bazarın (sahənin) həcm strukturu ilə müəssisələrin davranışları – onların qoyduqları qiymət, istehsal etdik-

ləri məhsulların miqdarı, rentabellik – arasında birbaşa əlaqə özünü göstərmir. Lakin buna baxmayaraq bəzi ölkələrdə qanunlar bazar payının həddini müəyyənləşdirir. Məsələn, Almaniyada bir müəssisənin hər hansı məhsul üzrə bazar payı bazarın 1/3-nə, iki müəssisəninki 50%-nə, üç müəssisəninki 2/3-nə bərabər olduqda, bazarda hakim müəssisə hesab olunur. Böyük Britaniya və Fransada bazar payı 25%, Rusiyada və Azərbaycan Respublikasında 35% təşkil etdikdə onlar hakim müəssisə sayılırlar. Yaponiyada isə bir qədər müxtəliflik vardır. Belə ki, bu ölkənin qanunlarına görə ya bir ən iri istehsalçının payı 50%-dən, ya da ikisinin payı 75%-dən çox olduqda onlar bazarda hakim mövqeyə sahib olurlar. Yaponiyada ədalətli sövdələşmələr üzrə komissiya hər il 485 əmtəə qrupu üzrə monitorinq aparır və bir, üç və beş ən iri istehsalçı üzrə istehsalın təmərküzləşməsi indeksini dərc etdirir.

**Bazar təmərküzləşməsi indeksindən** hansı formada həyata keçirilməsindən asılı olmayaraq (səhmlərin satın alınması, qarşılıqlı razılaşma və ya idarəetmə hüququnun verilməsi və s.) müəssisələrin birləşməsini nizama salmaq üçün istifadə olunur. Müəssisələrin birləşməsi qiymət və satış siyasəti haqqında razılaşmaya nisbətən rəqabəti daha kəskin surətdə aradan qaldırır. Digər tərəfdən, müəssisələrin birləşməsi həm də iri miqyaslı istehsaldan iqtisadi səmərə əldə edilməsi obyektiv surətdə zəruri olduğuna görə prinsipcə qadağan edilməsi mümkün olmayan qənaətin reallaşdırılması üsulu deməkdir. Lakin belə hesab edirlər ki, təkamülün gedişində firma öz gücünü artırdıqda və bazarda xüsusi mövqe qazandıqda, bu şərt bazar seçiminin dəyişməsinə səbəb olur.

Müxtəlif ölkələrdə birləşmənin nizama salınmasının sərt prinsipləri vardır. Məsələn, Böyük Britaniya və Fransada bazar payı, habelə müəyyən aktivlərin kəmiyyəti 25%-dən çox olmamalıdır. Bunlarla yanaşı, Almaniyada illik satışın aşağı həddi müəyyən edilir. Yaponiyada firmaların həcminin əlavə tənzimləyicisi mövcuddur. Belə ki, burada səhmdar şirkətinə məxsus xüsusi səhmlərin öz balansında saxlanması qadağan olunmuşdur. Bu o deməkdir ki, şirkət öz səhmlərini satın ala və onları

yenidən, yüksək qiymətlə satmaqla özünün səhm kapitalını artıra bilməz.

ABŞ-ın ədliyyə departamenti «üfiqi», «şaquli» və «konqlomerat» birləşməsi ilə əlaqədar müxtəlif meyarlardan istifadə edir. Bu əmtəə bazarında birinci ikinciyə, xüsusilə də üçüncüyə nisbətən daha sərt üsullarla nizama salınır. Bundan başqa, bazarın nəinki birləşmə məqamında, həm də son 5-10 ildəki inkişafı dövründəki təmərküzləşməsi nəzərə alınır.

**Bazar təmərküzləşməsi Herfindal-Xurşmanın** «bazarın təmərküzləşməsi indeksi»nin köməyi ilə müəyyən edilir. Bu indeksin 100-dən aşağı olduğu bazar az inhisarlaşdırılmış bazar hesab olunur və tənzimlənmir.[1]

Bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə antiinhisar fəaliyyətinin qanunvericiliklə tənzimlənməsi ilə yanaşı, aşağıdakı normativ metodlardan da istifadə olunur: 1) hökumətin sifarişləri; 2) vergilər; 3) faiz; 4) dövlət subsidiyaları.

Dövlət bu vasitələrdən istifadə etməklə, bazarın müxtəlif bölmələri və seqmentlərində rəqabətin intensivləşdirilməsinə təsir göstərmək imkanına malik olur.

Rəqabətin tənzimlənməsinin əsas cəhəti sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasıdır. Bu məqsədlə dövlət tərəfindən bağlaşma sistemində müsabiqədən, istehsalın prioritet istiqamətlərinin inkişafı üçün vergi güzəştləri və subsidiyalardan istifadə edilir, yeni yaradılan şirkətlərə nəinki maliyyə və maddi yardım, həm də informasiya köməyi göstərilir.

## 6.3. Azərbaycan Respublikasında rəqabət mühitinin hüquqi əsaslarının yaradılması

Azərbaycan Respublikasında antiinhisar qanunvericiliyinin əsası 4 mart 1993-cü ildə «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanununun qəbul edilməsi ilə qoyulmuş və ölkədə gedən sosial-iqtisadi proseslərdəki dəyişikliklərlə

---

[1] Bax: Газанова Н.М.Фирма в экономической системе. М, 1998 г. с. 228

əlaqədar olaraq 10 oktyabr 1997-ci il, 23 mart, 5 oktyabr (iki qanun), 23 noyabr 2001-ci il və 3 dekabr 2003-cü il tarixli qanunlarla ona əlavə və dəyişikliklər edilmişdir.

Qanun inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını müəyyən edir.

Ümumiyyətlə götürdükdə isə **Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyi** Azərbaycan Respublikasının Konstitusiyasından, «Antiinhisar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında», «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikasının qanunlarından və digər normativ-hüquqi sənədlərdən, Azərbaycan Respublikası Prezidentinin fərmanlarından, hökumətin qərar və sərəncamlarından ibarətdir.

**Dövlətin antiinhisar tənzimləmə sisteminə aşağıdakılar daxildir:**

1) inhisarçılıq anlayışı, onun keyfiyyət və kəmiyyət xarakteriskası;

2) dövlət tərəfindən tənzimlənən inhisarçılıq fəaliyyətinin növləri;

3) qadağan olunan haqsız rəqabət formalarının siyahısı;

4) inhisar əleyhinə mübarizə orqanları sisteminin, onların vəzifələri, funksiyaları və səlahiyyətlərinin müəyyən edilməsi;

5) antiinhisar qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri.

Hər bir ölkədə antiinhisar sisteminin başlıca ünsürü inhisarçı anlayışıdır. Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyində inhisarçının məzmunu və kəmiyyət meyarı «hökmran mövqe» anlayışı vasitəsilə müəyyən edilmişdir. «Antiinhisar fəaliyyəti haqqında» **Azərbaycan Respublikasının qanununda «hökmran mövqe» anlayışının** məzmunu belə müəyyən edilmişdir: «təsərrüfat subyektlərinin öz iqtisadi potensialının üstünlüklərinə əsaslanaraq rəqabətə həlledici təsir göstərməyə imkan verən və bununla da bazarın digər iştirakçılarının bazara daxil olmasını çətinləşdirən müstəsna vəziyyətdi. Bazarda payı 35%-dən və ya qanunvericiliklə müəyyən olunmuş digər həddən çox olan təsərrüfat subyekti hökmran mövqe tutan hesab olunur».

**Son dövrlərdə inkişaf etmiş ölkələrdə inhisarçılığın və onun iqtisadi hakimiyyətinin müəyyən edilməsində «qarşılıqlı asılılıq vəziyyətində olan şəxslər» anlayışından istifadə olunur.**

«Qarşılıqlı asılılıq vəziyyətində olan şəxslər» dedikdə, aralarındakı münasibətlərin onların özlərinin, yaxud da onları təmsil edən şəxslərin fəaliyyətlərinin nəticələrinə bilavasitə təsir göstərən istənilən fiziki və hüquqi şəxslər nəzərdə tutulur. Bunlara aşağıdakı kateqoriyalardan olan şəxslər aiddir:

1) başqasına məxsus olan əmlakda iştirak payı 20%-dən çox olan şəxslər;

2) vəzifəsinə görə başqa fiziki şəxsə tabe olan fiziki şəxslər;

3) qohumluq münasibəti olan şəxslər (ər-arvad, valideynlər və uşaqlar, bacı-qardaş)

Qarlışıqlı asılılıq vəziyyətində olan şəxslər bir-birindən əmlak, müqavilə, təşkilati-idarəetmə, qohumluq və qarışıq münasibətlərə görə asılı ola bilərlər.

Qarlışıqlı asılılıq vəziyyətində olan şəxslərə kimlər tərəfindənsə nəzarət oluna, yaxud da onların özləri kimlərəsə nəzarət edə bilərlər.

Antiinhisar tənzimləməsi sisteminin başqa bir vacib ünsürü inhisarçılığın növləridir.

**Azərbaycan Respublikasının «Antiinhisar fəaliyyəti haqqında» qanununda inhisarçılığın aşağıdakı növləri nəzərdə tutulmuşdur:** 1) dövlət inhisarçılığı; 2) sahə inhisarçılığı; 3) yerli inhisarçılıq; 4) təsərrüfat subyektlərinin inhisarçılığı; 5) maliyyə-kredit inhisarçılığı; 6) bazar subyektlərinin üfiqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq; 7) təbii inhisarçılıq; 8) patent-lisenziya inhisarçılığı; 9) yerin təkindən istifadə inhisarçılığı.

Dövlət inhisarçılığı o deməkdir ki, təsərrüfatçılıq edən bəzi subyektlər üçün müəyyən məhdudiyyətlər qoyulur və ya tamamilə ləğv edilir, yaxud sosial-iqtisadi proseslər bilavasitə dövlətin özü tərəfindən tənzimlənir. Bunlara aşağıdakılar aiddir: iqtisadiyyatın dövlət bölməsindən kənarda fəaliyyət göstərən təsərrüfat subyektləri üçün məhsul istehsalı və satışı üzrə tapşırıq və məcburi dövlət sifarişlərinin verilməsi; onların istehsal etdikləri və satdıqları malların qiymətləri üzərində əsassız nəzarətin həya-

ta keçirilməsi; respublikanın regionları arasında məhsulların hərəkətinə əsassız qadağaların qoyulması; bazarın subyektləri arasında vergilərin ödənilməsində və kreditlərin verilməsində ayrıseçkiliyə yol verilməsi; qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla müəyyən növ əmtəələrin (xidmətlərin) istehsalının qadağan edilməsi və ya məhdudlaşdırılması; təsərrüfat subyektlərinin xarici iqtisadi fəaliyyətinə əsassız məhdudiyyətlər qoyulması, yaxud da gömrük rüsumlarında ayrı-seçkiliyə yol verilməsi; qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla tələb və təklif sahəsində informasiya şəbəkəsi üzərində nəzarətin həyata keçirilməsi və s. və i.a.

**Sahə üzrə** idarəetmə orqanlarının təsərrüfat subyektləri və istehlakçıların mənafelərinə zidd olaraq rəqabətin məhdudlaşdırılmasına və ya aradan qaldırılmasına gətirib çıxara bilən qeyri-qanuni fəaliyyət göstərmələri sahə inhisarçılığı adlanır.

**Sahə inhisarçılığında** aşağıdakılara yol verilmir: yeni təsərrüfat subyektlərinin sahə bazarlarına daxil olmalarına süni əngəlləmələrin yaradılması; təsərrüfat subyektlərinin müstəqilliyinin əsassız olaraq məhdudlaşdırılması; sahə tabeliyində olan təsərrüfat subyektlərinin özəlləşdirilməsi prosesində nəzarət səhm zərfinin ələ keçirilməsi; kapitalın sərbəst surətdə bir sahədən çıxıb başqa sahələrə getməsinin qarşısına əsassız olaraq maneələr, əmtəə əvəzedicilərinin istehsalına, malların idxalına nəzarət qoyulması; rəqabəti məhdudlaşdırmaq, yaxud da aradan qaldırmaq məqsədilə tabeliyində olan təsərrüfat subyektlərinə dempinqin tətbiqi üçün şərait yaradılması; qüvvədə olan qanunvericiliyə zidd olmayan yeni məhsul və texnologiyanın hazırlanması və ya yeni müəssisənin yaradılmasına əsassız maneələr qoyulması və s. və i.a.

**Yerli inhisarçılıq** rayon, şəhər və onlara daxil olan inzibati ərazi qurumlarının təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinin ziddinə olaraq rəqabətin məhdudlaşıdırılmasına və ya aradan qaldırılmasına gətirib çıxaran, yaxud da gətirib çıxara bilən qeyri-qanuni fəaliyyətləri deməkdir və bunlara aşağıdakılar daxildir: tabeliyində olan ərazidə sahibkarlıq fəaliyyətini məhdudlaşdırmaq məqsədilə vergitutma, özəlləşdirmə və torpaq

məsələlərinin tənzimlənməsi sahəsində öz səlahiyyətlərindən sui-istifadə olunması; yerli bazarda hökmran mövqe tutmağa səbəb olan təşkilati-idarə qurumlarının, yaxud holdinq şirkətlərinin yaradılması; respublika ərazisində əmtəələrin hərəkətinə maneçilik törətmək məqsədilə onların idxalı və ixracına məhdudiyyətlərin qoyulması; təsərrüfat subyektlərinin yerli bazara daxil olmalarının məhdudlaşdırılması və kapital qoyuluşu üçün hüquqi, təşkilati və ya iqtisadi maneələrin yaradılması; rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilən hallarda bələdiyyə mülkiyyəti obyektlərindən, yerli büdcənin vəsaitindən, həmçinin büdcədənkənar fondlardan istifadə edilməsi və s. və i.a.

**Bazarda hökmran mövqe tutan təsərrüfat**_subyektlərinin rəqabətin məhdudlaşdırılmasına, digər təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinə toxunmasına gətirib çıxaran, yaxud da gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti təsərrüfat subyektlərinin inhisarçılığı adlanır və aşağıdakıları əhatə edir: iqtisadiyyatın, əhalinin, ayrı-ayrı təsərrüfat subyektlərinin tələbatının ödənilməsi üçün kifayət etmədiyi məhsulların istehsalının əsassız olaraq məhdudlaşdırılması, yaxud da dayandırılması; süni qıtlıq yaratmaq, yaxud da qiymətləri qaldırmaq məqsədilə istehsalın həcminin dəyişdirilməsi və əmtəələrin dövriyyədən çıxarılması; digər təsərrüfat subyektlərinin bazara daxil olması, yaxud da oradan çıxıb getməsinə süni surətdə maneələr yaradılması; topdansatış və pərakəndə satış təsərrüfat subyektlərinin qapalı satış şəbəkələrinin yaradılması; bazarda əlavə üstünlüklər əldə etmək məqsədilə qiymətlərlə manipulyasiya edilməsi, yəni onların qaldırılması, aşağı salınması; məhsulların alternativ satıcıları və alıcıları olmadıqda təsərrüfat subyektləri arasında ayrı-seçkilik yaratmaq məqsədilə həmin məhsulları satmaqdan və ya almaqdan imtina edilməsi və s. və i.a.

**Maliyyə-kredit inhisarçılığı** da vardır. Bu inhisarçılıqda adətən rəqabətin məhdudlaşdırılmasına gətirib çıxaran, yaxud da gətirib çıxara bilən aşağıdakı qeyri-qanuni fəaliyyət növləri nəzərdə tutulur və bunlarla səciyyələnir: kommersiya bankları arasında vahid faiz dərəcəsi siyasəti yeritmək barədə saziş bağlanması; mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olaraq

təsərrüfat subyektlərinin bank krediti almalarında əsassız ayrı-seçkilik yaradılması; kreditlərin verilməsində qanunvericilikdə nəzərdə tutulmayan şərtlərin qoyulması və onların sərtləşdirilməsi; süni qıtlıq yaratmaq, yaxud da qıtlığı qoruyub saxlamaq, həmçinin kreditin verilməsində istifadə olunan faiz dərəcələrini yüksəltmək məqsədilə kredit verilməsinin məhdudlaşdırılması, azaldılması və ya tamamilə dayandırılması; digər maliyyə-kredit təşkilatlarının maliyyə bazarına daxil olması, yaxud da buradan çıxıb getməsinə süni maneələr yaradılması və s. və i.a.

**Rəqabətin məhdudlaşdırılmasına bazar subyektləri** arasında üfiqi və şaquli sazişlərin bağlanması da təsir göstərir. Bunlar öz ifadəsini onda tapır ki, bazar subyektlərinin öz aralarında bazarın inhisarlaşdırılmasını doğuran, (bazarın ərazi prinsiplərinə, alqı-satqının həcminə və s. əlamətlərə görə bölüşdürülməsi, təklifin həcmini süni surətdə dəyişdirmək məqsədilə istehsal kvotasının razılaşdırılması, qiymət ayrı-seçkiliyi qoyulması, güzəştlərin, əlavələrin müəyyən edilməsi, rəqibin bazara girməsinin məhdudlaşdırılması və s.), bazar subyektlərinin rəqabəti məhdudlaşdırmaq, yaxud da aradan qaldırmaq məqsədilə birgə müəssisə yaratmaq haqqında öz aralarında bağladıqları, hər hansı bir məhsulun satın alınmasını digər məhsulun satılması üçün şərt kimi irəli sürən müəyyən bir şərtə əsaslanan, təsərrüfat subyektlərinin bazardakı paylarının birləşdirilməsi onlara hökmran mövqe tutmağa şərait yaradılırsa və ya bu mövqeyi gücləndirirsə, onların birləşməsi və ya başqasının əlinə keçməsi ilə nəticələnən sazişlər bağlamalarına yol verilmir.

**Patent-lisenziya** inhisarçılığı rəqabəti məhdudlaşdıra, yaxud da aradan qaldıra bilən aşağıdakı qeyri-qanuni fəaliyyət növlərinə yol verilməməsini nəzərdə tutur: lisenziya alanın texniki siyasətinin məhdudlaşdırılması; lisenziyalaşdırılmış texnologiyanın lisenziya alan tərəfindən mənimsənilməsinin məhdudlaşdırılması; lisenziya alanın kommersiya fəaliyyətinin məhdudlaşdırılması; lisenziya sahibi tərəfindən lisenziya satılarkən onun haqqının ödənilməsi rejiminin sərtləşdirilməsi.

Məlum olduğu kimi, yerin təki ümumxalq sərvəti olmaqla dövlətə məxsusdur. Bununla əlaqədar olaraq antiinhisar haq-

qında qanunvericilikdə bir qayda olaraq dövlət hakimiyyəti orqanlarının, habelə hər hansı bir təsərrüfat subyektinin – yerin təkindən istifadə edənin – aşağıdakılara yönəldilən hərəkətləri qadağan edilir və ya qanunvericilikdə müəyyən edilmiş qaydada etibarsız sayılır: 1) yerin təki haqqında qanunvericiliyə uyğun olaraq yerin təkindən istifadə hüququ almaq istəyən hüquqi və fiziki şəxslərin iştirak etmək üçün müsabiqəyə və ya hərraca buraxılışın həmin müsabiqənin (hərracın) şərtlərinə zidd olaraq məhdudlaşdırılması; 2) müsabiqə və ya hərracın qaliblərinə xüsusi razılıq verməkdən boyun qaçırılması; 3) müsabiqə və ya hərracın birbaşa danışıqlarla əvəz edilməsi; 4) yerin təkindən istifadə olunmasında hökmran mövqeyə malik təsərrüfat subyektləri ilə müsabiqəyə girə bilən strukturlar yarada bilən yerin təki istifadəçilərinin ayrı-seçkiliyə məruz qoyulması; 5) nəqliyyat və infrastruktur obyektlərindən istifadə olunmasına imkan yaradılmasında yerin təkindən istifadə edənlərin ayrı-seçkiliyə məruz qoyulması; 6) istifadəyə verilən yerin təki sahələrinin ölçüləri, sahələrin sayı və çıxarılan faydalı qazıntı ehtiyatlarının miqdarı qanunvericilikdə müəyyən edilmiş qaydada məhdudlaşdırıla bilər.

**Antiinhisar tənzimləmə sisteminin ünsürlərindən biri də haqsız rəqabətə yol verilməməsidir.** Azərbaycan Respublikasının «Haqsız rəqabət haqqında» 2 iyun 1995-ci il tarixli qanununda haqsız rəqabətə aşağıdakılar aid edilir:

- rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;
- rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;
- rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;
- haqsız sahibkarlıq fəaliyyəti;
- haqsız işgüzarlıq davranışı;
- istehlakçıların çaşdırılması.

Bunlara əsas etibarilə rəqibin əmtəəsinin, onun əmtəə formasının, qablaşdırılması və xarici tərtibatının özbaşına təqlid edilməsi, başqalarının patent-lisenziya hüququnu pozmaqla onun məhsulunun olduğu kimi təkrarlanması, digər bazar subyektinin əmtəə nişanından, coğrafi göstəricilərindən, firmaların adından, əmtəə markasından qanunsuz istifadə edilməsi; digər bazar

subyektlərinin nüfuzu və maliyyə vəziyyəti, onun elmi-texniki və istehsal imkanları haqqında yalan və təhrif olunmuş məlumatların yayılması və ya açıqlanması; rəqibin işgüzar münasibətlərinin yolverilməz (qanunsuz) vasitələrlə qəsdən pozulması, kəsilməsi və dayandırılması, onun işçilərini özlərinin xidməti vəzifələrini yerinə yetirməməyə sövq etmək məqsədi ilə onlara qanunsuz vasitələrlə təsir göstərilməsi; bazar subyektlərinin elmi-texniki, istehsal və ya ticarətlə əlaqədar fəaliyyətlərinə dair məlumatların, o cümlədən kommersiya sirrinin qanunsuz yolla əldə edilməsi, ondan istifadə olunması və onun yayılması, rəqibin üzərində üstünlük qazanmaq məqsədilə onun təsərrüfatlara aid qərarlarının qəbul edilməsi və yerinə yetirilməsinə qanunsuz təsir göstərilməsi, müqavilələrdə əsassız birtərəfli üstünlüklərin nəzərdə tutulması, qiymətlərin bahalanmasına şərait yaratmaq məqsədilə əmtəələrin təsərrüfat dövriyyəsindən çıxarılması və ya dövriyyəyə buraxılmaması; müəyyən dövr ərzində rəqabətdən yayınmaq üçün tərəf müqabili ilə bağlanmış sazişin pozulması, rəqibin işgüzar əlaqələrini pozmaq məqsədilə digər bazar subyektlərinə əsassız müraciətlər edilməsi; əmtəələrin mənşəyi, hazırlanma üsülları, istifadə üçün yararlılığı, keyfiyyəti və başqa xassələri haqqında istehlakçıları çaşdıra bilən məlumatların verilməsi, reklam olunması, yanlış müqayisələr aparılması, əmtəələrin öz təyinatlarına uyğun olmadığının istehlakçılardan gizlədilməsi və s. aiddir.

**Hər bir antiinhisar tənzimləmə sisteminin** tərkib ünsürlərindən biri də antiinhisar orqanları, onların vəzifələri, funksiyaları və səlahiyyətləridir. Azərbaycan Respublikasında əsas antiinhisar orqanı İqtisadi İnkişaf Nazirliyidir ki, onun da regionlarda şöbələri fəaliyyət göstərir. Onun əsas vəzifələri aşağıdakılardır:

- rəqabət və sahibkarlıq əsasında bazar münasibətlərinin formalaşmasına təsir göstərilməsi;
- inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin məhdudlaşdırılması, qarşısının alınması və ya aradan qaldırılması;
- antiinhisar qanunvericiliyinə əməl olunması üzərində dövlət nəzarətinin həyata keçirilməsi.

Antiinhisar tənzimləmə sisteminə həmçinin qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirləri daxildir. Onlar əsas etibarilə qanunun pozulmasına görə təsərrüfat subyektləri, onların rəhbərləri və antiinhisar siyasətinin həyata keçirilməsinə bilavasitə səlahiyyəti olan hakimiyyət orqanlarının vəzifəli şəxsləri haqqında görülən inzibati-təşkilati tədbirlərdən ibarətdir.

## 6.4. Təbii inhisarların tənzimlənməsi

Antiinhisar siyasəti inhisarçılığın ümumiyyətlə ləğv edilməsini nəzərdə tutmur. Çünki iqtisadiyyatın elə sahələri vardır ki, həmin sahələrdə inhisarçılığın qalması zəruridir. Bu, birinci növbədə rəqabətin mövcudluğunun ya iqtisadi cəhətdən səmərəli olmadığı, yaxud da ölkənin milli təhlükəsizliyinin təmin edilməsi baxımından məqsədəuyğun hesab olunmadığı sahələrə aiddir.

**İqtisadiyyatın bazar rəqabətinə daxil edilməyən bu sahələri təbii və ya dövlət inhisarı adlanır.**

Təbii inhisarların səciyyələndirilməsinə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, iqtisadçılardan bir qrupunun fikrincə, təbii inhisar dedikdə, sərəncamında istehsalın nadir tapılan və sərbəst surətdə təkrar istehsal edilməsi mümkün olmayan ünsürləri (məsələn, faydalı qazıntı, nadir metal ehtiyatları, münbit torpaq sahələri və i.a.) olan mülkiyyətçilərin və təsərrüfatçılıq edən subyektlərin inhisarı nəzərdə tutulur. İqtisadçılardan digər bir qrupu belə hesab edir ki, istehsalın texnoloji xüsusiyyətlərinin təsiri ilə onun (istehsalın) həcminin artması nəticəsində məhsul vahidinə düşən istehsal xərclərinin aşağı olması rəqabət olmadığı şəraitdə tələbatın ödənilməsinin səmərəliliyinin xeyli yüksək olduğu əmtəə bazarının vəziyyəti başa düşülür. Azərbaycan Respublikasının 15 dekabr 1998-ci il tarixli **«Təbii inhisarlar haqqında» qanununda** isə təbii inhisar anlayışı: «təbii inhisar – istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabət olmadığı şəraitdə subyektlərinin istehsal etdiyi (satdığı) əmtəə istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyəti» kimi səciyyələndirilir. Beləliklə, təbii inhisar subyektləri tərəfindən

istehsal olunan məhsullar istehlakda digər əmtəələrlə əvəz oluna bilməz. Çünki digər əmtəələrə olan tələbin dəyişməsi həmin əmtəələrin qiymətlərinin dəyişməsindən asılı olduğu halda, təbii inhisarlar tərəfindən istehsal edilən məhsullara olan tələbin dəyişməsi qiymətlərin dəyişməsindən bir o qədər də asılı olmur. Dünya təcrübəsi göstərir ki, belə istehsal şəraiti ictimai istifadə müəssisələrinə, xüsusilə də elektrik, qaz təchizatı və telefon xidməti müəssisələrinə aiddir. **«Təbii inhisarlar haqqında»** Azərbaycan Respublikası qanununun 5-ci maddəsinə uyğun olaraq təbii inhisar subyektlərinin fəaliyyət sahələri bunlardır:

- neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli;
- təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanması xidmətləri;
- elektrik və istilik enerjisinin ötürülməsi və paylanması xidmətləri;
- magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərinin istismarı, hərəkəti idarəetmə və hərəkət – təhlükəsizlik fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri;
- aeroport xidməti, aeroportların uçuş zolaqları və qurğuların istismarı, hava gəmilərinə aviasiya və aeronaviqasiya xidmətləri;
- metro nəqliyyatında yolların, tunellərin və stansiyaların istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti;
- su limanı xidmətləri, liman qurğularının istismarı, yükaşırma və hərəkət təhlükəsizliyi fəaliyyəti;
- ümumi istifadədə olan elektrik və poçt rabitəsi xidmətləri, qəbuledici və ötürücü radio və televiziya stansiyalarının, yüksəktezlikli qurğuların istismarı və nəzarət fəaliyyəti;
- baş sutəmizləyici qurğular, magistral borular, su kəməri şəbəkəsi və onların üzərindəki təzyiq və tənzimləyici qurğuların istismarı;
- kanalizasiya təsərrüfatında aerasiya, mexaniki təmizləmə stansiyaları, nasosxanalar, yağış kollektorları və kanalizasiya xətlərinin istismarı;

- meliorasiya və irriqasiya sahələrinə aid olan su anbarları, kanallar, kollektorlar, boru kəmərləri və bəndlərin istismarı;

- istilik təchizatı xidmətləri.

Göründüyü kimi, ölkəmizdə təbii inhisarın əhatə dairəsi olduqca genişdir. İnhisarın digər növləri kimi təbii inhisar subyektləri də öz hakimiyyətlərindən sui-istifadə etmək imkanına malikdir. Bu sui-istifadə imkanları təbii inhisar sahələrində əmtəə və xidmətlərə qiymət və tariflərin, istehsalın həcminin müəyyən olunmasında, ayrı-ayrı istehlakçılar arasında məhsulların bölüşdürülməsində və s. hallarda mümkündür. Dövlət, belə sui-istifadə hallarına yol verməmək üçün təbii inhisarların fəaliyyətini tənzimləməlidir.

**Azərbaycan Respublikasında təbii inhisarların tənzimlənməsində aşağıdakı metotlardan istifadə olunur:**

- Əmtəələrin qiymətlərinin (tariflərinin) tənzimlənməsi;

- Xidmət göstərilməsi məcburi olan istehlakçıların müəyyən edilməsi və təbii inhisar subyektlərinin istehlakçıların əmtəəyə olan ehtiyacını tam həcmdə ödəyə bilmədiyi hallarda onların həmin əmtəə ilə təmin olunmasının minimum səviyyəsinin müəyyən edilməsi.

Təbii inhisarların dövlət tərəfindən tənzimlənməsi istehlakçıların və təbii inhisar subyektlərinin mənafelərinin tarazlaşdırılmasına əməl olunmasına əsaslanır.

Təbii inhisarlarla yanaşı, dövlət inhisarı da bazar rəqabətinin fəaliyyət dairəsindən çıxarıla bilər. Bu sahələrdə raqəbətin qalmasının məqsədəuyğunsuzluğu yalnız iqtisadi səmərəsizliklə deyil, həm də onların ölkənin iqtisadi və sosial inkişafında ümumi şəraitin formalaşmasında, milli təhlükəsizliyin təmin olunmasında oynadıqları rol, habelə həmin sahələrdə istehsal olunan əmtəə və xidmətlərin xüsusi sosial əhəmiyyəti ilə müəyyən edilir. Azərbaycan Resbublikasında dövlət inhisarının subyekti kimi müəyyən fəaliyyət növü ilə məşğul olmağa icazəsi olan dövlət müəssisələri çıxış edirlər. Dövlət inhisarının növləri isə bunlardır: ölkənin Milli Bankı tərəfindən həyata keçirilən pul-emissiya fəaliyyəti, xarici iqtisadi fəaliyyətin (ayrı-ayrı əm-

təələrin ixracı və idxalı), xüsusi ilə də alkoqollu məhsulların istehsalı və satışı və s. Dövlət inhisarının rejimi xüsusi səciyyə daşıyır, onun növləri və hüdudları xüsusi qanunlarla müəyyən edilir.

**Beləliklə, dövlətin antiinhisar siyasəti inhisarçılığın tamamilə aradan qaldırılması demək deyildir.** Bütün ölkələrdə inhisarın bəzi növləri saxlanılır və onların fəaliyyəti dövlət tərəfindən tənzimlənir. Hər bir antiinhisar siyasətinin mahiyyəti və mənası ondan ibarətdir ki, iri miqyaslı iqtisadiyyatdan faydalanmaq və rəqabətin zəifləməsi ilə əlaqədar olaraq onun mümkün olan mənfi nəticələrini «bitərəfləşdirmək» lazımdır. Məhz qarşıya qoyulan hüquqi və iqtisadi vəzifələrlə əlaqədar yaranan vəziyyətdən asılı olaraq dəyişən və həll edilməsi çox çətin olan bu iki yanaşmanın əlaqələndirilməsi antiinhisar siyasətinin əsasını təşkil edir.

**Azərbaycanda antiinhisar tənzimləmə sistemi bu sahədə zəngin beynəlxalq təcrübə nəzərə alınmaqla formalaşır.** Lakin onun özünəməxsus bir sıra xüsusiyyətləri də vardır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycanda gedən bu proses özünün formalaşma mərhələsindədir, hələlik yalnız bazar iqtisadiyyatının əsasları yaradılmış və dövlət inzibati inhisarçılığı tam aradan qaldırılmamışdır. Ölkəmizdə bir çox bazar strukturlarının inkişaf etməməsi, onlardan bəzilərinin olmaması dövlət antiinhisar tənzimləmə sisteminin üzərinə düşən yükün artmasını gücləndirir. Azərbaycanda antiinhisar tənzimləmə vəzifələri rəqabətin müdafiə olunması sahəsində qarşıya qoyulan vəzifələrdən daha genişdir. Və antiinhisar qanunvericiliyi öz-özlüyündə azad sahibkarlıq və rəqabət şəraiti yaratmır. Bu sistem beynəlxalq təcrübədə ən mütərəqqi cəhətlər nəzərə alınmaqla təkmilləşdirilməli və yeni-yeni ideyalarla zənginləşdirilməlidir.

Bundan başqa, Azərbaycanda inhisarçılıq fəaliyyətinə təkcə təsərrüfatçılıq edən subyektlər deyil, həm də dövlət və yerli idarəetmə orqanları daxildir. Ona görə də ölkəmizdə antiinhisar tənzimləməsi bu subyektlərin hamısının fəaliyyətinə şamil edilir və bu özünün müsbət nəticələrini verir.

# NƏTİCƏ

- antiinhisar siyasəti dövlətin ən mühüm iqtisadi vəzifələrindən biridir. Bununla əlaqədar olaraq rəqabət və inhisar anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. Rəqabət hər hansı bir fəaliyyət növündə kiminləsə toqquşmaq deməkdir. Hər hansı bir məhsul yeganə bir firma tərəfindən istehsal olunursa və həmin məhsulun ən yaxın əvəzedicisi yoxdursa, bu xalis və ya mütləq inhisar adlanır;

- iqtisadçıların fikrincə, bazarın bir-birinə bənzəməyən aşağıdakı dörd tipi vardır: a) azad (xalis) rəqabətin mövcud olduğu bazar; b) inhisar rəqabətinin mövcud olduğu bazar; c) oliqopoliya bazarı; d) xalis inhisarın mövcud olduğu bazar;

- iqtisadiyyatın antiinhisar tənzimlənməsi ilə əlaqədar iki model vardır. Bunlardan biri Amerika, digəri isə Avropa modeli adlanır. Son dövrlərdə aparılan müşahidələr göstərir ki, bu modellər arasındakı fərq getdikcə azalır, həm də Avropa modelinin xeyrinə onların bir-birinə yaxınlaşması prosesi gedir;

- müasir dövrdə rəqabəti tənzimləmək mümkündür. Bu məqsədlə müxtəlif metodlardan istifadə olunur. Bunlara hökumət sifarişləri, vergilər, faiz, dövlət subsidiyaları və s. aiddir;

- Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, «Anti-inhisar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında», «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikasının qanunlarından və digər normativ-hüquqi sənədlərindən, hökumətin qərar və sərəncamlarından ibarətdir;

- Azərbaycan Respublikasının «Antiinhisar fəaliyyəti haqqında» qanununda inhisarçılığın aşağıdakı növlərinin olduğu göstərilmişdir: 1) dövlət inhisarçılığı; 2) sahə inhisarçılığı; 3) yerli inhisarçılıq; 4) təsərrüfat subyektlərinin inhisarçılığı; 5) maliyyə-kredit inhisarçılığı; 6) bazar subyektlərinin üfiqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq; 7) təbii inhisarçılıq; 8) patent-lisenziya inhisarçılığı; 9) yerin təkindən istifadə inhisarçılığı;

- haqsız rəqabətə aşağıdakılar aiddir: rəqibin təsərrüfat fəaliyyətinin təqlidi və nüfuzdan salınması; rəqibin təsərrüfat fəa-

liyyətinə müdaxilə; haqsız sahibkarlıq fəaliyyəti və işgüzarlıq davranışı; istehlakçıların çaşdırılması;

- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin antiinhisar fəaliyyəti ilə əlaqədar əsas vəzifələri aşağıdakılardır: 1) rəqabət və sahibkarlıq əsasında bazar münasibətlərinin formalaşmasına təsir göstərmək; 2) inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin məhdudlaşdırılması, qarşısının alınması və aradan qaldırılması üçün tədbirlər görmək; 3) antiinhisar qanunvericiliyinə əməl olunması üzərində dövlət nəzarətini həyata keçirmək;

- antiinhisar siyasəti inhisarçılığın ümumiyyətlə ləğv olunmasını nəzərdə tutmur. Çünki iqtisadiyyatın elə sahələri vardır ki, həmin sahələrdə inhisarçılığın qalması zəruridir. Bu sahələri təbii və ya dövlət inhisarı adlandırırlar. Bu sahələrə elektrik, qaz təchizatı, telefon xidməti müəssisələri və s. aiddir;

- Azərbaycan Respublikasında təbii inhisarların tənzimlənməsində aşağıdakı metodlardan istifadə olunur: 1) əmtəələrin qiymətlərinin (tariflərinin) tənzimlənməsi; 2) xidmət göstərilməsi məcburi olan istehlakçıların müəyyən edilməsi və təbii inhisar subyektlərinin istehlakçıların əmtəəyə olan ehtiyacını tam həcmdə ödəyə bilmədiyi hallarda onların həmin əmtəə ilə təmin olunmasının minimum səviyyəsinin müəyyən edilməsi.

# VII FƏSİL

# DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ

## 7.1. İnvestisiya prosesinin əsas anlayışları və onların qısa səciyyəsi

Hər bir ölkənin iqtisadiyyatının inkişaf etdirilməsində investisiyalar mühüm rol oynayır. İqtisadi artımın, kapitalın və istehsalın strukturunun bazarın dəyişən konyukturasına uyğunluğunun, əhalinin həyat səviyyəsinin, təsərrüfat subyektlərinin və bütövlükdə ölkənin rəqabət qabiliyyətinin artırılması və makroiqtisadi sabitliyin təmin olunması ilə əlaqədar bir çox sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsi investisiyaların həcmindən və bu prosesin vəziyyətindən asılıdır.

İnvestisiyalar haqqında daha aydın təsəvvürə malik olmaq və onun tənzimlənməsini həyata keçirmək üçün birinci növbədə «investisiya prosesinə daxil olan ünsürləri» - investisiyaların obyektini, subyektini (investorları), onların arasındakı əlaqələri və fəaliyyət göstərdikləri investisiya mühitini aydınlşdırmaq lazımdır.

**İnvestisiya dedikdə,** adətən gəlir əldə etmək məqsədilə pul vəsaitinin avans olunması nəzərdə tutulur. Sözün geniş mənasında investisiyalar ölkə iqtisadiyyatının inkişaf etdirilməsinin maliyyələşdirilməsinə yönəldilir. Azərbaycan Respublikasının «İnvestisiya fəaliyyəti haqqında» 13 yanvar 1995-ci il tarixli qanununda investisiyalar belə səciyyələndirilir: investisiya – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

**Bunlara konkret olaraq aşağıdakılar daxildir**: pul vəsaiti, məqsədli bank əməliyyatları, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar; daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıqlar, başqa maddi sərvətlər); intellektual sərvətlər; texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu; torpaq-

dan, sudan və digər ehtiyatlardan, bina, qurğu və avadanlıqlardan istifadə və başqa əmlak hüquqları (müəlliflik hüququndan irəli gələn hüquqlar da daxil olmaqla) və i.a.

İnvestisiya fəaliyyəti dedikdə, invesetorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar olan bütün hərəkətlərinin məcmusu nəzərdə tutulur. **İnvestisiya fəaliyyətinin aşağıdakı növləri vardır:** 1) özəl investisiya fəaliyyəti; 2) dövlət investisiya fəaliyyəti; 3) xarici investisiya fəaliyyəti; 4) birgə investisiya fəaliyyəti; 5) innovasiya fəaliyyəti.

Özəl investisiya fəaliyyəti ilə Azərbaycan Respublikasının vətəndaşları, qeyri-dövlət idarə, müəssisə, təşkilat və qurumları, dövlət investisiya fəaliyyəti ilə dövlət orqanları, xarici investisiya fəaliyyəti ilə xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər, birgə investisiya fəaliyyəti ilə Azərbaycan respublikasının və xarici dövlətlərin vətəndaşları, hüquqi şəxsləri məşğul ola bilərlər. İnnovasiya fəaliyyətinə isə aşağıdakılar daxildir: 1) uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi; 2) iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədilə məhsuldar qüvvələrdə keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi; 3) texnika və texnologiyanın prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, buraxılması, yayılması və tətbiq edilməsi.

**Obyektindən asılı olaraq investisiyalar iki yerə bölünür:** 1) istehsala qoyulan investisiyalar; 2) maliyyə investisiyaları. İstehsala qoyulan investisiyalar dedikdə, müəssisələrin maddi və qeyrimaddi aktivlərinə qoyulan vəsait nəzərdə tutulur. Onların köməyilə fəaliyyətdə olan avadanlıqlar təzələnir, istehsalın miqyası genişləndirilir, elmi-texniki tərəqqi həyata keçirilir, kadrlar hazırlanır və insan kapitalı inkişaf etdirilir, dövlət investisiya proqramları və sifarişləri yerinə yetirilir. Maliyyə investisiyalarının məqsədi gəlirlərin kapitallaşdırılmasından, bu məqsədlə səhm, istiqraz, bank depozitləri, sertifikatlar kimi «maliyyə vasitələri»ndən istifadə edilməsindən ibarətdir və i.a.

**Beynəlxalq statistikada bir ölkə və ya onun müəssisələri tərəfindən digər ölkəyə qoyulan investisiyaların ümumi həcmində bir-**

**başa və dolayı investisiyalardan geniş istifadə edilir.** Birbaşa investisiyalar o deməkdir ki, kapitalı qoyan ölkə və ya müəssisə onun idarə olunmasında bilavasitə iştirak edir, yaxud da onların üzərində nəzarəti həyata keçirir. Dolayı investisiyalar dedikdə isə gəlir əldə etmək üçün xarici investisiyalara, qiymətli kağızlara, müəssisələrin səhmlərinə kapital qoyuluşu nəzərdə tutulur.

Burada məqsəd müəssisələrin təsərrüfat fəaliyyəti üzərində nəzarəti həyata keçirməkdir.

Bazar iqisadiyyatı şəraitində investisiya problemi başlıca olaraq xüsusi kapital yığımı kimi nəzərdən keçirilir. Yığım qanunlarının təhlilinin başlanğıcını klassik burjua siyasi iqtisadi (A.Smit, D.Rikardo) qoymuşdur. Onlar bu məsələni əsas etibarilə fərdi kapitalların təkrar istehsalı proseslərinin bazasında təhlil etmişlər. Bu təhlildə mənfəətin əmələ gəlməsi və kapitallaşdırılması, tələblə təklifin qarşılıqlı əlaqəsi mexanizmi əsas rol oynayır. Bu yanaşma üsulu neoliberalizm nəzəriyyəçiləri tərəfindən qəbul olunmuş və davam etdirilmişdir.

Yığım nəzəriyyəsinin inkişafının başlıca mərhələsi K.Marksın əsərləri ilə bağlıdır. Bu nəzəriyyənin fərqləndirici cəhəti ondan ibarətdir ki, ictimai kapitalın təkrar istehsalının təhlilinə xüsusi diqqət yetirilir. **Bu nəzəriyyə mikroiqtisadi təhlildən makroiqtisadi təhlilə keçilməsində ilk təşəbbüsdür.**

Yığım probleminin makroiqtisadi təhlilinin daha da inkişaf etdirilməsi C.M.Keynsin XX əsrin 20-30-cu illərində nəşr olunmuş əsərləri ilə əlaqədardır. C.M.Keyns bu əsərlərində əsas makroiqtisadi göstəricilər – milli gəlir və onun istehlak və investisiyaya yönəldilən hissələri, pul kütləsi, əmək haqqı və mənfəət, kapitala görə alınan faiz, aktivlərin və təəhhüdlərin ümumi məbləği arasındakı qarşılıqlı əlaqələri nəzərdən keçirmişdir.

C.M.Keyns bu makroiqtisadi parametrlərin dinamikasından istifadə etməklə, yığımın əmələ gəlməsi və istifadə olunması mexanizmini, investisiya prosesinə onun təsirini əsaslandırmışdır. İqtisadiyyatın Keyns modelində yığım və onunla əlaqədar olan multiplikator və akselarator anlayışları K.Marksın geniş təkrar istehsal sxemlərində izafi məhsul və yığım norması anlayışlarının yerinə yetirdikləri funksiyaları yerinə yetirirlər.

C.M.Keynsin makroiqtisadi modeli ikinci dünya müharibəsindən sonra iqtisad elmində «hökmran» olmuşdur. Çünki neoliberalizm də daxil olmaqla o, bu və ya digər şəkildə demək olar ki, dünya iqtisad elminin bütün istiqamətlərində qəbul edilmişdir.

Son dövrlərdə investisiya prosesində çox böyük dəyişikliklər baş vermişdir. Belə ki, hazırda investisiya fəaliyyətində dövlət, korporasiyalar, maliyyə vasitəçiləri, xarici investorlar, əhali fəal iştirak edir. İnvestisiya prosesinin çoxsubyektliliyinin artması ilə investisiyaların maliyyələşdirilməsi mənbələri də çoxalır. İstehsalın ictimailəşməsinin dərinləşməsi, iqtisadiyyatın demokratikləşdirilməsi və sosiallaşması səviyyəsinin yüksəlməsi ilə eyni vaxtda investisiyaların makroiqtisadi xarakterinin əhəmiyyəti də artır.

İnvestisiyaların həcmi və onların dinamikası ölkənin sosial-iqtisadi inkişafının başlıca göstəriciləridir. Hazırda fərdi kapitallar səviyyəsində investisiya ehtiyatlarının yenidən bölgüsü firmalar, maliyyə təsisatları, iqtisadiyyatın dövlət tənzimləməsi idarələri tərəfindən həyata keçirilən kapitalın sahələrarası və ölkələrarası axını dəfələrlə güclənmişdir. Bu, korporativ, ümummilli və xarici investisiyaların hesabına baş verir. Kapitalın bu cür hərəkəti, hazırda makroiqtisadi təkrar istehsalın fəaliyyət göstərməsi və inkişaf etməsinin çox mühüm şərtidir.

Milli investisiya strategiyasının işlənib hazırlanmasında dövlətlə biznes arasında düzgün münasibətlərin qurulması həlledici rol oynayır. Lakin bu, dövlətin müəssisələrin və sahibkarların işinə birbaşa qarışmasını deyil, onun biznes qaydalarını əlaqələndirməsi, formalaşdırması və müşahidə etməsini nəzərdə tutur. **Bazar iqtisadiyyatında iri, orta, kiçik (o cümlədən, dövlət mülkiyyətində olan) sahibkarlıq iqtisadi artımın hərəkətverici qüvvəsidir.** Odur ki, dövlət sahibkarların səmərəli işləmələri üçün şərait yaratmalı, hamı üçün vahid təsərrüfat fəaliyyəti qaydalarını müəyyən etməli və onu qoruyub saxlamalıdır.

Sahibkarlığın bütün forma və növlərinin fəal müdafiəsi, inzibati əngəlləmələrin aradan qaldırılması və onun inkişaf etdirilməsi dövlətin investisiya siyasətinin əsasını təşkil edir. Hüquq,

vergi, bank və torpaq islahatları buna tabe edilməlidir. Bütün bunlar ölkədə investisiya mühitini əhəmiyyətli dərəcədə dəyişdirə, iqtisadiyyata investisiya axını üçün şərait yarada, milli miqyasda investisiya proseslərini fəallaşdıra bilər. Dövlət, investisiya proseslərində iştirak etməklə, mövcud investisiya resurslarından ən səmərəli istifadə olunması variantlarının seçilməsinə yönəldilən formaların yaradılmasını qarşısına məqsəd qoyur.

**Dövlətin investisiya prosesində iqtisadi rolu müxtəlif göstəricilərin köməyilə müəyyən edilir.** Bunların içərisində iki göstərici xüsusi əhəmiyyətə malikdir. Bunlardan biri iqtisadiyyatın dövlət bölməsində investisiyaların həcmi, digəri isə dövlət büdcəsindən maliyyələşdirilən dövlət investisiyalarının həcmidir.

Dövlətin investisiya proseslərində iştirakının mümkünlüyü və reallığı yalnız onun iri mülkiyyətçi olması, ÜDM-in və dövlət müəssisələri əmlakının xeyli hissəsinə sərəncam verməsi ilə deyil, həm də mülkiyyətçi hüququnun reallaşdırılmasını təmin edən hüquqi vasitələrin və strukturların onun əlində cəmləşməsi ilə müəyyən edilir.

Dövlət investisiya fəaliyyətində birbaşa iştirak etməklə yanaşı, həm də bu prosesi tənzimləyə bilər. İnvestisiya proseslərinin dövlət tərəfindən tənzimlənməsi dedikdə investisiya fəallığının və bu əsas üzərində iqtisadi artımın stimullaşdırılması üçün səlahiyyətli dövlət strukturlarının həyata keçirdikləri qanunverici, icraedici və nəzarətedici xarakterli tədbirlər sistemi nəzərdə tutulur. Hazırda investisiyalar iqtisadiyyatın tənzimlənməsinin makroiqtisadi mexanizminin ayrılmaz atributudur. Həm də son illərdə investisiyaların müxtəlif forma və metodlarından istifadənin makroiqtisadi şəraitə təsiri vasitələrinin rolu əhəmiyyətli dərəcədə artmışdır.

İnvestisiya prosesinin tənzimlənməsinin dövlət mexanizmi milli iqtisadiyyatda daim fəaliyyət göstərən mexanizmə çevrilməlidir. Azad bazar və direktiv idarəetmə sistemlərinin vaxtı keçmiş və onların yerinə tənzimləmənin bazar və dövlət metodlarının əlaqələndirilməsinə əsaslanan, investisiyaların idarə edilməsi sistemi gəlmişdir. Ona görə də investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi vəzifələri dövlət və bazar tən-

zimləmələrinin üstün cəhətlərini birləşdirməkdən ibarətdir. Bazar, investisiya resurslarının ən əlverişli nisbətdə bölüşdürülməsini təmin edə bilmədikdə və uğursuzluğa düçar olduqda bu proses dövlət tənzimləməsinin müxtəlif metodları ilə tamamlanmalıdır. Əksinə, investisiya qoyulan sahələrdə dövlət müəssisələrinin fəaliyyətinin səmərəsizliyi investisiyalaşdırmanın daha çevik xüsusi və qarışıq formalarından istifadə olunmasını tələb edir.

Hər iki tərəfin – **bazar və dövlətin - investisiya fəaliyyətində çox böyük rolu vardır. Odur ki, onların arasında ən əlverişli nisbət yaradılmalıdır.** Başqa sözlə, P. Samuelson və V. Nordhausun hesab etdikləri kimi, bu prosesdə hər iki tərəf, yəni həm bazar, həm də hökumət fəaliyyət göstərir. Bunlardan biri olmadan iqtisadiyyatın idarə edilməsini mümkün hesab etmək, kimisə bir əllə alqışlamağa cəhd göstərmək demək olardı. Deməli, investisiya proseslərində dövlətin rolunun mütləqləşdirilməsinə və bazar vasitələrinin rolunun qiymətləndirilməməsinə, yaxud da əksinə, yol verilməməlidir. Dövlət tənzimləməsi və bazar mexanizminin düzgün əlaqələndirilməsi əsas investisiya vəzifələrinin həll olunmasına imkan verir. İnvestisiya prosesində dövlətin iştirakının miqyasının həddi-hüdudu olmalıdır. Bu, həm iqtisadi qaydalardan (iqtisadi inkişaf səviyyəsi, investisiya fəallığı), həm də milli xüsusiyyətlərdən (cəmiyyətdə dövlətin ənənəvi rolu) asılıdır. Bunlardan hər hansı birinə üstünlük verilməsi düzgün deyildir. Bütün bunları ümumiləşdirərək belə bir nəticə çıxarmaq olar ki, dövlətin investisiya proseslərinin tənzimlənməsində iştirakının hüdudu onun fəallığının yüksəlməsinə müsbət təsir etmiş olur. Dövlət tərəfindən tənzimləmə və bazar mexanizmləri arasındakı nisbətin pozulması arzuolunmaz nəticələrə gətirib çıxarır. Bunlarla yanaşı, dövlətin investisiya fəallığı problemi də az əhəmiyyət kəsb etmir. Dövlət, büdcə, maliyyə, kredit və fiskal siyasət sahələrində gördüyü tədbirlərlə investisiya sahəsində bazar mexanizminin normal fəaliyyət göstərməsini təmin etməyə, investisiya böhranının nəticələrinin aradan qaldırılması və investisiya fəallığının artırılmasına səy göstərir. O, bu məqsədlə investisiyalara olan ümumi tələbi stimullaşdırır, bank faizi və vergi dərəcələrini tənzimləyir.

lərinə, onun keyfiyyətinin yaxşılaşdırılmasına olan tələbat artmışdır. Böhran qurtardıqdan sonra demək olar ki, bütün ölkələrdə müəssisələrin illik hesabatlarında və auditorların tərtib etdikləri sənədlərdə informasiyalara verilən məcburi tələblər artmışdır.

**İkinci mərhələ** XX əsrin 50-ci illərindən başlanmışdır. Bu zaman müstəqil auditorlar şirkətlərdə daxili nəzarət məsələlərinə daha çox diqqət yetirməyə başlamışlar. Diqqəti cəlb edən cəhətlərdən biri də ondan ibarətdir ki, auditor firmaları daha çox məsləhət verməklə məşğul olmuşlar.

Auditin inkişafında **üçüncü mərhələ** XX əsrin 60-cı illərinə təsadüf edir. Bu dövrdə mümkün olan riski etməyə istiqamət götürən auditor xidməti yoxlama apararkən və ya məsləhət verərkən bu riskdən «uzaqlaşmağa» çalışır, yoxlamaları seçmə üsulu ilə aparmağa üstünlük verirdilər.

**Dördüncü mərhələ** XX əsrin 70-ci illərində başlanmış və ən çox auditor standartlarının işlənib hazırlanması ilə əlaqədardır. İndiyədək Beynəlxalq Mühasiblər Federasiyası auditin beynəlxalq normalarını işləyib hazırlamış və təsdiq etmişdir.

Müstəqillik şəraitində Azərbaycan Respublikasında müxtəlif mülkiyyət formalarının meydana gəlməsi ilə əlaqədar olaraq bir boşluq – tərəfdaşlar arasında işgüzar etibarlılıq haqqında informasiya çatışmazlığı yaranmışdı. Bəziləri təklif edirdilər ki, bu yoxlamaları vergi müfəttişlikləri həyata keçirməlidirlər. Lakin vergi müfəttişliklərinə qanunla vergilərin vaxtında və tamamilə büdcəyə keçirilməsi üzərində nəzarət etmək səlahiyyətləri verilmişdi. Digərləri belə hesab edirdilər ki, təsərrüfat təşkilatlarında kənar maliyyə yoxlamaları aparılmalıdır. Lakin dünya təcrübəsinin göstərdiyi kimi, yoxlamaların aparılmasını həm hər bir vətəndaşın, həm də bütövlükdə iqtisadiyyatın mənafeyi tələb edir.

Beləliklə, **Müstəqil Azərbaycan Respublikasında müstəqil peşəkar auditə tələbat doğuran səbəblər aşağıdakılardır:**

- sahibkarlığın və kapital bazarının meydana gəlib inkişaf etməsi;
- firmaların özünüidarəyə cəhd göstərmələri;

- iqtisadi sabitliyi təmin edən, mülkiyyətçilərə və kreditorlara məxsus olan əmanətlərin qorunmasına zəmanət verən maliyyə fondlarının yaradılmasının zəruriliyi;

- dövlətin auditə maraq göstərməsi. Çünki peşəkarların nəzarəti müəssisələrin maliyyə hesabatlarının düzgün olub-olmamasını ciddi surətdə müəyyən etməyə və bu əsas üzərində düzgün vergi tutmağa imkan verir.

Keçən əsrin 90-cı illərinin əvvəllərindən ölkəmizdə auditor fəaliyyətinin tənzimlənməsinin hüquqi əsaslarının yaradılmasına başlanmışdır. Auditor fəaliyyətinin həyata keçirilməsi üçün attestasiya aparılması və xüsusi razılıq (lisenziya) alınması qaydaları, iqtisadi subyektlərin fəaliyyətinin əsas meyarları (göstəricilər sistemi) hər il məcburi yoxlanmalı olan mühasibat (maliyyə) hesabatları təsdiqlənmişdir.

Bu sahədə keçid iqtisadiyyatında olan ölkələrdə, məsələn, Rusiya Federasiyasında aparılan işlərlə tanışlıq pis olmazdı. Belə ki, Rusiya auditinin normativ aktları beynəlxalq aktlardan əhəmiyyətli surətdə fərqlənir. Müstəqilliyin ilk illərində Rusiyanın bəzi auditorları tamamilə beynəlxalq norma və standartlardan istifadə olunmasını təklif edirdilər. Lakin onların bu təklifi qəbul olunmamış və Rusiyanın milli ənənələri nəzərə alınmaqla audit xidmətinin yaradılması qərara alınmışdır.

Hazırda ümumi audit, birjaların, büdcədənkənar fondların, investisiya təsisatları və sığorta şirkətlərinin auditi sahəsində attestasiyaların aparılması Rusiya Federasiyasının Maliyyə Nazirliyinə həvalə edilmişdir. Auditorluq fəaliyyəti hüququna yiyələnmək üçün attestasiyalardan keçməyə, bu fəaliyyət növü ilə məşğul olan iqtisadi, yaxud da hüquq (ali və ya orta ixtisas) təhsilli, son beş illik stajının ən azı üç ili audit sahəsində olan, audit təşkilatının mütəxəssisi, mühasibi, iqtisadçısı, müfəttişi, müəssisənin rəhbəri, iqtisadi sahədə elmi işçi, yaxud da müəllim işləyən şəxslər buraxılır. Bunlar ona görə tələb olunur ki, auditorlar üzərlərinə düşən vəzifələri peşəkarcasına və məsuliyyətlə yerinə yetirə bilsinlər.

Rusiyada auditor fəaliyyətinin bütün növlərinin dövlət tərəfindən tənzimlənməsi RF Prezidenti yanında **«audit fəaliyyəti üzrə komissiya»**ya həvalə edilmişdir.

Attestasiyaya verilən və yuxarıda göstərilən tələblərlə yanaşı, auditor olmaq istəyən şəxs, həm də mərkəzi attestasiya-lisenziya audit komissiyası tərəfindən təsdiq olunmuş və beş bölmədən ibarət olan proqram üzrə imtahan verməlidirlər. Bu bölmələr aşağıdakılardır: 1) əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin əsasları; 2) mühasibat uçotu və hesabatı; 3) hüquqi və fiziki şəxslərin vergilərə cəlb edilməsi; 4) müəssisələrin maliyyəsi; 5) audit.

Hüquqi və fiziki şəxslər fərdi qaydada auditor fəaliyyəti ilə yalnız buna icazə verən xüsusi formada təsdiq olunmuş sənəd olduqda məşğul ola bilərlər.

Auditor fəaliyyətinin lisenziyalaşdırılması qanunvericiliyin tələblərinə riayət olunması üzərində nəzarəti həyata keçirmək üçün aparılır. Bu fəaliyyət növü ilə məşğul olmağa icazəsi olmayan şəxs qanunvericilikdə nəzərdə tutulan qaydada cəzalandırılır.

Auditor fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün şərait yaratmaq məqsədilə aşağıdakı istiqamətlərdə iş aparılması məqsədəuyğundur: auditor fəaliyyəti haqqında qanunvericiliyin hazırlanması, onun tətbiq olunması və pozulduqda cəza tədbirləri görüləcəyinin aydınlaşdırılması, lisenziyaların verilməsi, auditorların və audit firmalarının, onların birliklərinin reyestrinin aparılması, auditorların attestasiyadan keçirilməsi qaydalarının müəyyən edilməsi və i. a.

**Auditorluq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi xüsusi komissiya ilə yanaşı, mərkəzi auditor, lisenziya-attestasiya komissiyası, habelə Mərkəzi bank tərəfindən xüsusi proqram əsasında həyata keçirilir.**

Attestasiyanın aparılması üçün haqq alınır. Haqqın məbləği hökumət tərəfindən müəyyən olunur. İddiaçı attestasiya keçməkdən imtina etdikdə (yaxud da gəlmədikdə), habelə attestasiyanın yekunları onun üçün qeyri-müvəffəq qiymətlə nəticələn-

dikdə qabaqcadan ödənilmiş haqq geri qaytarılmır. Attestasiya ilə əlaqəli mübahisəli məsələlər məhkəmə yolu ilə həll olunur.

Auditorluq fəaliyyəti ilə məşğul olmaq üçün icazə müxtəlif müddətlərə, məsələn, deyək ki, bir gündən beşilədək verilə bilər.

Müasir dövrdə audit fəaliyyətinin hüdudları xeyli genişlənmiş və dövlət tənzimləməsi sistemində audit təşkilatlarının rolu artmaqdadır.

Azərbaycan Respublikasında auditor xidməti **«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının 16 sentyabr 1994-cü il tarixdə qəbul edilmiş və sonralar müəyyən düzəlişlər aparılmış qanunu ilə tənzimlənir.**

Azərbaycan Respubliksında audit fəaliyyətinin tənzimlənməsi sistemini müəyyən edərkən ölkəmizdə mövcud olan hüquqi ənənələri, habelə uzun illər yaşadığımız inzibati-amirlik dövründə dövlətin sərt nəzarətində olan iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaq lazımdır. O zaman hüquqa, məhkəmə qərarlarına hörmət heç zaman təsərrüfat və sahibkarlıq fəaliyyətinin zəruri ünsürü olmamışdır. Son dövrlərdə iqtisadi münasibətlərin hüquqi tənzimlənməsində eklektik qərb variantlarından kor-koranə istifadə olunması, sahibkarlığın formalaşması və inkişaf etdirilməsində dövlətin rolu haqqında aydın təsəvvürün olmaması da buna öz təsirini göstərmişdir. Bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, ölkəmizdə formalaşmış audit xidməti hələlik müasir dövrün tələblərinə tam cavab vermir və onun təkmilləşdirilməsinə ehtiyac duyulur. Əgər ölkədə audit xidməti sözün əsl mənasında təkmilləşdirilərsə və inkişaf etmiş ölkələrdə olduğu kimi etibar qazanarsa, bu, vergidənyayınma hallarının qarşısının alınmasında və sağlam sahibkarlıq fəaliyyətinin canlandırılmasında və daha da inkişaf etdirilməsində çox mühüm rol oynamış olar. Bu məqsədlə lazımi işlərin aparılması, dünya təcrübəsində sınaqdan çıxmış və özünü doğrultmuş forma və metodlardan istifadə edilməsi olduqca vacibdir.

# NƏTİCƏ

- milli hesabdarlıq sistemi (MHS) bazar iqtisadiyyatında iqtisadi və sosial prosesləri, təkrar istehsalı və onun nəticələrini səciyyələndirən, qarşılıqlı əlaqədə olan makroiqtsiadi göstəricilər, qruplaşdırma və təsnifləşdirmə sistemidir. MHS rəsmi statistikada ikinci dünya müharibəsindən sonra meydana gəlmişdir;
- MHS-dən siyasi və təsərrüfat işləri ilə əlaqədar qərarların qəbul edilməsi və nəticələrin təhlil olunmasında hökumət və ərazi hakimiyyət orqanları, informasiya bazası kimi elmi-tədqiqat təşkilatları, müxtəlif mərkəzlər, ali məktəblər, ayrı-ayrı ölkələr arasında əməkdaşlığın həyata keçirilməsinə cavabdeh olan beynəlxalq təşkilatlar geniş istifadə edirlər;
- ikinci dünya müharibəsindən sonra MHS-nin nəzəriyyə və metodologiyasının inkişaf etdirilməsində BMT, İİƏT və s. nüfuzlu qurumların çox böyük rolu olmuşdur. 1973-cü ildə mühasibat standartları üzrə beynəlxalq komissiya, 1977-ci ildə Mühasiblərin Beynəlxalq Federasiyası, 1982-ci ildə BMT yanında beynəlxalq uçot və hesabat standartları üzrə ekspertlərdən ibarət hökumətlərarası işçi qrupu yaradılmışdır və s. və i.a.
- MHS istehsal amilləri haqqında müasir nəzəriyyələrə əsasən düzəldilmişdir. O, istehsalı, təhsili, gəlirlərin bölgüsü və istifadə olunmasını, investisiyaları, maliyyəni, digər dövlətlərlə qarşılıqlı əlaqələri və s. səciyyələndirir;
- MHS-nin əsasında mühasibat uçotunun ikili qeydiyyat, məlumatların həqiqiliyi, ədalətliliyi, uyğunluğu və ardıcıllığı prinsipləri durur. Mühasibat uçotunun təşəkkül tapması aşağıdakı mərhələlərdən keçmişdir: 1) 1800-cü ilədək olan ticarət mərhələsi; 2) 1900-cü ilədək olan sahibkarlıq mərhələsi; 3) 1950-ci ilədək olan təşkilati mərhələ; 4) 1950-1970-ci illəri əhatə edən mərhələ; 5) 1975-ci ildən başlanan mərhələ.
- MHS aşağıdakı sahə və bölmələri əhatə edir; 1) bütövlükdə iqtisadiyyat üzrə hesablar; 2) iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə hesablar; 3) iqtisadiyyatın ayrı-ayrı bölmələri üzrə hesablar; 4) ayrı-ayrı iqtisadi əməliyyatlar üzrə hesablar.

- MHS-də faktiki son istehlakı ifadə edən göstəricilər xüsusi yer tutur. Bunlara aşağıdakılar daxildir: 1) son istehlak xərcləri (kollektiv və fərdi istehlakı ödəyən dövlət müəssisələri, ev təsərrüfatları, ev təsərrüfatlarına xidmət edən ictimai təsərrüfatlar); 2) faktiki son istehlak (dövlət müəssisələri, ev təsərrüfatları, ev təsərrüfatlarına xidmət edən ictimai təşkilatlar);

- MHS-nin mərkəzində bəzi ölkələrin statistikasında olan ÜMM və dünya ölkələrinin əksəriyyətində hesablanan ÜDM, XMM və MG kimi makroiqtisadi göstəricilər durur. Statistik məlumata görə ÜMM-lə ÜDM arasındakı fərq 1-2%-ə bərabərdir;

- ölkəmiz dünyada gedən qloballaşma prosesinə qoşulduğu və inteqrasiyada fəal iştirak etdiyi üçün makroiqtisadi göstəricilər sistemi də milli hesabdarlıq sisteminə uyğunlaşdırılmışdır;

- Azərbaycan Respublikasında müxtəlif bazar strukturlarının meydana gəlməsi ilə əlaqədar olaraq maliyyə nəzarəti də yenidən qurulmuşdur. Bununla bağlı audit xidmətindən geniş istifadə olunur və bu öz nəticələrini verməkdədir.

III BÖLMƏ

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ DÖVLƏTİN SOSİAL SİYASƏTİ

## XIII FƏSİL

## DÖVLƏTİN SOSİAL FUNKSİYALARI

### 13.1. Bazar iqtisadiyyatının sosial modelləri

Güclü sosial siyasət yeridən dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarının təminatı sahəsində konstitusiya borcunu yerinə yetirmiş olur. Və bununla da dövlət vətəndaş cəmiyyətinin digər subyektləri ilə birlikdə sosial siyasətin strategiyası və prioritetlərini işləyib hazırlayır.

Sosial siyasətə demoqrafik, əhalinin məşğulluğu və əmək bazarı, səhiyyə, təhsil, mədəniyyət və s. ifadə edən göstəricilər daxildir. İctimai təhlükəsizliyin təmin olunması, cinayətkarlığın aradan qaldırılması və kriminal ünsürlərlə mübarizə, ekologiyanın yaxşılaşdırılması, insan hüquqlarının təmin olunması da sosial göstəricilərə aiddir.

Özünün sosial siyasətində bu göstəriciləri nəzərə alan dövlət bu sahədə daha böyük və təqdirəlayiq nəticələrə nail olur. Və bunlar öz əksini iqtisadi sistemə xas olan milli təsərrüfatın təşkili modellərində tapır. Bu modellərin xarakteri isə ölkələrin bir-birindən tarixi keçmişlərinə, iqtisadi inkişaf səviyyələrinə, millətin adət-ənənələrinə və mentalitetinə və s. əlamətlərinə görə fərqlənməsi ilə əlaqədardır.

Dünyada mövcud olan və diqqəti daha çox cəlb edən müxtəlif bazar iqtisadiyyatı modellərinin öyrənilməsi başqa ölkələrdə yeni inkişaf modelinin işlənib hazırlanması üçün həm nəzəri, həm də əməli əhəmiyyətə malikdir.

Dünyada daha çox «tanınan» milli modellər Amerika, İsveç, Almaniya, Yaponiya, Cənubi Koreya modelləri və başqalarıdır. **İqtisadçıların fikrincə, bunların içərisində Almaniyanın «sosial yönümlü bazar iqtisadiyyatı» və İçveçin «Sosial-demokrat» modelləri sosial təmayüllü modellərdir.**

Almaniyanın sosial bazar iqtisadiyyatı modeli ikinci dünya müharibəsindən (1939-1945-ci illər) sonra geniş yayılmışdır. Bu, müharibədən sonrakı dövrdə klassik şəkildə öz əksini alman maliyyəçisi və siyasi xadimi L.Erhardın iqtisadi islahatlarında tapmışdır. Bundan sonra, daha dəqiq desək, keçən əsrin 50-60-cı illərində həmin modeldən Avropanın digər ölkələrində, xüsusilə də Avstriya və Belçikada istifadə olunmuşdur.

Bu model iqtisadi təşəbbüskarlıq üçün hüquqi və sosial bazar şəraiti yaradır və bütün təsərrüfat formalarına (kiçik, orta, iri) sabit inkişaf etmək imkanı verilməsi əsasında formalaşmışdır. Xırda və orta müəssisələr, fermer təsərrüfatları xüsusi himayə, qayğı və imtiyazlardan istifadə edirlər. Dövlət qiymətlərə, gömrük rüsumlarına, texniki normalara fəal təsir edir. Bu modelin təşəbbüskarlıq üçün hüquqi və sosial bazar şəraiti yaratması öz əksini vətəndaşların sosial bərabərliyinin, yəni onların hüquq bərabərliyi və müdafiəsi sisteminin yaradılması üçün tədbirlər görülməsində tapır. Burada dövlətin əsas funksiyası bazarın səmərəliliyi ilə sosial bərabərlik arasında tarazlığı təmin etməkdən ibarətdir.

**Almaniyanın sosial yönümlü bazar iqtisadiyyatı modeli üçün aşağıdakı cəhətlər səciyyəvidir:**

1) qarışıq iqtisadiyyat az və ya çox dərəcədə dövlət bölməsinin mövcudluğu ilə səciyyələnir;

2) təkcə makroiqtisadi proseslər deyil, həm də digər sahələrdə təsərrüfatçılıq edən subyektlərin fəaliyyəti dövlət tərəfindən tənzimlənir;

3) iqtisadiyyatın sosial yönümü, dövlətin qayğısı cəmiyyətin bütün üzvləri üçün eyni dərəcədə həyata keçirilir, bu yolla əhalinin səhiyyə, təhsil, mədəniyyət və mənzilə olan tələbatının ödənilməsinə təminat verilir;

4) azad rəqabətin qorunub saxlanması, tənzimləmə yolu ilə kapitalın az miqdarda əllərdə toplanmasının qarşısının alınması, yeni təsərrüfat vahidlərinin yaradılmasına xüsusi diqqət yetirilir;

5) işsizliyin azaldılması və əhalinin məşğulluğunun tənzimlənməsi diqqət mərkəzində saxlanılır;

6) ümumi daxili məhsulda dövlət büdcəsi böyük xüsusi çəkiyə malikdir;

7) iqtisadiyyat büdcə-maliyyə siyasəti vasitəsilə deyil, pul-kredit siyasəti vasitəsilə tənzimlənir.

**İsveçin «sosial demokrat modeli»** Almaniya modeli ilə bir sıra oxşar cəhətlərə malik olsa da, onun spesifik xüsusiyyətləri də vardır. Bu ideya hələ vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) iqtisadi platformasında olduğuna görə onu bir qədər ətraflı nəzərdən keçirək.

**«İsveç modeli» termini** keçən əsrin 60-cı illərində İsveçdə aparılan islahatların sürətli iqtisadi artımla müvəffəqiyyətlə əlaqələndirilməsi zəminində uğurlu sosial siyasət yeridilməsi ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu modeli «ümumi rifah dövləti»nin inkişaf etmiş forması ilə eyniləşdirirlər.

İsveç iqtisadiyyatının qarışıq xarakterdə olması və bazar münasibətləri ilə dövlət tərəfindən tənzimlənmənin əlaqələndirilməsi istehsal dairəsində xüsusi mülkiyyətin və istehlakın üstünlüyə malik olması ilə tamamlanır.

İkinci dünya müharibəsindən sonrakı İsveçə işçi qüvvəsi bazarında əməklə kapital arasında spesifik münasibətlər xasdır. Bir çox onilliklər ərzində İsveçdə güclü Həmkarlar İttifaqı Təşkilatları və sahibkarların iştirakı ilə əmək haqqı sahəsində kollektiv müqavilələrin bağlanması barədə danışıqlar sistemi mövcud olmuşdur. Həm də Həmkarlar İttifaqlarının siyasəti zəhmətkeşlərin müxtəlif təbəqələri arasında həmrəylik prinsiplərinə əsaslanmışdır.

İsveç modeli bu ölkənin iqtisadi siyasətində iki əsas məqsədin üstünlüyə malik olması istəyinə istiqamətləndirilmişdir. Bunlardan biri **tam məşğulluğun təmin edilməsi, digəri isə gəlirlərin bərabərləşdirilməsidir.** Bu siyasətin əyani nəticələri özünü əmək bazarında fəal siyasət yeridilməsində, dövlət tərəfindən maliyyə

resurslarının çox böyük hissəsinin sosial və iqtisadi məqsədlər üçün səfərbərliyinə alınması və yenidən bölüşdürülməsində və s. göstərir.

Ümumiyyətlə, İsveç modelini çevik iqtisadi siyasət yeritməklə əhalinin tam məşğulluğu ilə qiymətlərin sabitliyinin bir-birilə əlaqələndirilməsini özündə əks etdirən model kimi müəyyən etmək olar. İsveçə xas olan spesifik amil xarici siyasətdə onun həyata keçirdiyi bitərəflikdir.

İsveç modelində dövlətin iqtisadiyyata fəal müdaxiləsi nəzərdə tutulur ki, bu da onun çox sürətli inkişafına təsir göstərmişdir. Belə ki, keçən əsrin 70-ci illərində İsveç hər nəfərə düşən sənaye məhsulu istehsalına görə Avropada birinci yerdə olmuşdur. İsveç uzun müddət ərzində ümumi daxili məhsulun orta illik artım sürətinə görə yalnız Yaponiyadan geri qalmaqla, ön mövqelərdə qərarlaşmışdır.

Ümumi rifah prinsipini seçən İsveç, dövlət bölməsini elə bir həddə qədər genişləndirmişdir ki, bu, onu unikal bir ölkəyə çevirmişdir. Belə ki, əmək qabiliyyətli əhalinin 1/3 hissəsi dövlət bölməsində çalışır ki, bu da öz əksini vergi dərəcələrinin yüksək olmasında tapır. Dövlət bölməsindəki xərclər və transfert ödənişləri də daxil olmaqla, dövlət bölməsinin xüsusi çəkisi İsveçin ümumi daxili məhsulunda 60%-dən çoxdur və bu da onu həmin göstəriciyə görə dünyada birinci yerə çıxarmışdır. İsveç modeli təhsil, səhiyyə kimi əsas tələbatların sosiallaşdığını deməyə əsas verir.

**Bəs, İsveç modelinin təcrübəsi və qazandığı nailiyyətlərdən hansı nəticələri çıxarmaq olar?**

**Hər şeydən əvvəl** qeyd etmək lazımdır ki, İsveçin əmək bazarında böyük nailiyyətlər qazanılmışdır. İsveç əmək bazarında fəal siyasət yeritməklə özünün iqtisadi siyasətinin məzmununu daha da zənginləşdirmiş və keçən əsrin 90-cı illərindən bu ölkədə işsizliyin səviyyəsi ən aşağı həddə düşmüşdür.

**İkincisi,** İsveçdə bərabərlik uğrunda mübarizədə müəyyən nailiyyətlər əldə edilmişdir. Ölkədə aparılan siyasətin əsas məzmunu belədir: «sərf olunan bərabər əməyə görə bərabər əmək haqqı». Bu, o deməkdir ki, əmək haqqını müəyyən edərkən əsas

meyar kimi firma və sahələrdə əldə edilən mənfəətdəki müxtəliflik deyil, əməyin tipi və təbiəti götürülməlidir. Bunun nəticəsində ölkədə əmək haqqının yuxarı və aşağı həddi arasındakı fərq keçən əsrin 60-cı illərindəki 30%-dən 80-ci illərin axırlarında 15%-ə enmişdir.

Bir neçə önilliklər ərzində İsveç, Avropada geridə qalmış kasıb bir ölkədən yüksək həyat səviyyəsi və sosial müdafiə sistemi ilə səciyyələnən, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdən birinə çevrilmişdir.

Lakin qeyd etmək lazımdır ki, bunlarla yanaşı, **İsveç modelini ideallaşdırmaq və onun heç bir çatışmaz cəhəti olmadığını demək düzgün deyildir.** Belə ki, burada diqqəti cəlb edən belə bir faktı nəzərə almaq lazımdır ki, İsveçdə Qərbi Avropa ölkələri ilə müqayisədə qiymətlər sürətlə artmış, əmək məhsuldarlığı demək olar ki, yüksəlməmişdir. Modelin «ən zəif yeri» tam işsizliklə qiymətlərin sabitliyi arasında əlaqənin yaradılmasında mürəkkəbliyin olmasındadır.

İsveç modelinin çatışmazlıqlarından biri də ölkə iqtisadiyyatının beynəlmiləlləşməsi və onun Avropa inteqrasiyasında iştirakının təhlükəli olmasındadır. Bunu deməyə belə bir fakt əsas verir ki, iqtisadiyyatın inkişafına təsir edən amillər dəyişdikdə, dövlət buna reaksiya verməyə məcbur olmuşdur. Məlum olduğu kimi, İsveçdə 1976-1982-ci illərdə hakimiyyətə burjua partiyaları gəldikdə sosial-demokratlar müxalifətdə olmuşlar. Lakin İsveç modeli dəyişmiş şəraitə müəyyən dərəcədə uyğunlaşa bilmiş və özünün üstünlüyünü saxlamışdır. Belə ki, XX əsrin 80-ci illərində ölkədə iqtisadi yüksəliş davam etmişdir.

1990-cı illərdə ölkədə yenə də kəskin sosial, iqtisadi və siyasi problemlər meydana çıxmışdır. 50-60-cı illərdə səmərəli olan dövlət bölməsi bu zaman böhran vəziyyətinə düşmüş, 60-cı illərdə müşahidə olunan 2%-lik işsizlik səviyyəsi 90-cı illərdə 13%-ə yüksəlmiş, milli borcun həcmi ümumi daxili məhsulun həcminə yaxınlaşmış, dövlət büdcəsinin kəsiri 11%-ə çatmışdı.

**Beləliklə, İsveç modelinin aşağıdakı spesifik cəhətlərini qeyd etmək olar:**

1) işsizlik səviyyəsinin aşağı olması;

2) əmək haqqı sahəsində həmkarlar ittifaqlarının həmrəylik siyasəti;

3) əmək haqqının mərkəzləşmiş qaydada tənzimlənməsi;

4) dövlət bölməsinin yüksək xüsusi çəkiyə malik olması;

5) ağır vergi yükünün mövcud olması.

Lakin keçən əsrin 90-cı illərində İsveç modelinin nəzərə çarpan bu və ya digər mənfi cəhətləri aradan qaldırılmışdır.

Nəzərdən keçirilən Almaniya və İsveç modellərinə əsasən aşağıdakı ümumi nəticələri çıxarmaq olar; **hər iki modeldə dövlət, ölkənin sosial-iqtisadi inkişafının tənzimlənməsində çox böyük rol oynayır.** Dövlət, firmaların (müəssisələrin) istehsal fəaliyyətinə müdaxilə etmir, lakin həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyələrdə tənzimləmə funksiyasını yerinə yetirir.

Bazar iqtisadiyyatı hərəkətdə olan dinamik sistemidir. Başqa ölkələrdə tətbiq olunan bazar iqtisadiyyatı modelinin hansı miqyasda nailiyyət qazanılmasına imkan verməsinə baxmayaraq, onu şablon kimi götürüb hər hansı bil ölkədə, o, cümlədən də **Azərbaycanda istifadə etmək düzgün deyildir.** Çünki formalaşmaqda olan bazar iqtisadiyyatı modeli Azərbaycan xalqının tarixi ənənələri, dövlətçilik təcrübəsi, mentaliteti nəzərə alınmaqla yaradılmalı, konkret iqtisadi şəraitə uyğun gəlməlidir. Qərb ölkələrindəki bazar iqtisadiyyatı modellərinin öyrənilməsi zəruridir və onun yalnız səmərəli cəhətlərindən yararlanmaq olar. Ölkəmizdə bazar iqtisadiyyatı modeli bütün bunlar nəzərə alınmaqla yaradılır.

XX əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyimizi bərpa etdikdən sonra qurmağa başladığımız bazar iqtisadiyyatı sistemi daxilində təsərrüfat təşkilinin **Azərbaycan modeli** tarixi təcrübəmiz, coğrafi-iqtisadi mövqeyimiz və digər amillər nəzərə alınmaqla yaradılır. Bu məqsədlə 1991-ci ildən tədriclə totalitar quruluşun strukturları aradan qaldırılır, dinamik bazar iqtisadiyyatı – xarici dünyanın üzünə açıq, çox böyük yanacaq və xammal ehtiyatlarına malik olan ölkəmizin nadir təbii potensialından səmərəli istifadə etməyə imkan verən iqtisadiyyat yaradılır.

Yeni iqtisadi sistemin yaradılması isə təkcə iqtisadi problemlərin həll edilməsindən asılı deyildir. Çünki iqtisadi problemlər sosial problemlərlə birlikdə həll edildikdə daha yaxşı səmərə verir. Başqa sözlə, iqtisadiyyatda əldə edilən nailiyyətlərdən həm də sosial problemlərin həlli üçün istifadə olunduqda insanlarda cəmiyyətə, hakimiyyətə, dövlətə daha çox inam olur.

Lakin əsaslı iqtisadi islahatların aparıldığı və bazar münasibətlərinin formalaşdığı şəraitdə sosial inkişafa birtərəfli yanaşmaq olmaz. Ona görə ki, iqtisadi vəzifələrin yerinə yetirilməsi üçün nəzərdə tutulan vəsaitin sosial vəzifələrin həyata keçirilməsinə yönəldilməsi həm iqtisadiyyatın tarazlı inkişafının təmin olunmasına əngəl törədər, həm də sosial yönümlü iqtisadiyyat yaradılmasına imkan verməz. Deməli, yuxarıda göstərildiyi kimi iqtisadi və sosial vəzifələr vəhdət halında həll edilməlidir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, sosial, ekoloji və demoqrafik vəziyyəti yaxşılaşdırmadan iqtisadiyyatın tarazlı inkişafından danışmaq olmaz. Odur ki, sosial vəziyyətin normallaşdırılması sahəsində elmi cəhətdən əsaslandırılmış tədbirlər hazırlanır və həyata keçirilir. Həm də bu zaman ölkənin malik olduğu ehtiyat, istehsal-texnoloji imkanlar, əhalinin gəlirləri və yaşayış vasitələrinin dəyəri arasındakı nisbətin gözlənilməsi nəzərə alınır.

İndiyədək görülən işlərin və həyata keçirilən tədbirlərin nəzərdən keçirilməsi və aparılan müşahidələrə əsasən belə bir qanunauyğun nəticəyə gəlmək olar ki, bazar iqtisadiyyatının **Azərbaycan modeli yaradılarkən** zəngin tarixi keçmişə malik olan xalqımızın əməksevərliyi, vətənə bağlılığı, xeyriyyəçilik ənənələrinə sədaqətliliyi, ölkəmizin əlverişli coğrafi-iqtisadi mövqeyi və zəngin təbii sərvətlərə malik olması, sahibkarlıq fəaliyyəti üçün sağlam mühitin yaradılması, əhalinin aztəminatlı hissəsinin müdafiəsi, kəskin əmlak bərabərsizliyinə yol verilməməsi, milli gəlirin vergi mexanizmi vasitəsi ilə yenidən bölgüsü və beləliklə də, sosiallaşdırmanın həyata keçirilməsi, xırda və orta müəssisələrə, fermer təsərrüfatlarına qayğı göstərilməsi, milli mənlik şüurunun bərqərar olması, millətin mənafeyinin cəmiyyətin hər bir

üzvünün mənafeyindən üstün tutulması, perspektivli sahələrin inkişaf etdirilməsi imkanları və s. nəzərə alınır.

**Oqtay Məmmədlinin** 2004-cü ildə Gəncədəki «İlkin» nəşriyyatı tərəfindən buraxılmış «İqtisadi nəzəriyyə» adlı dərs vəsaitində bazar iqtisadi sistemi daxilində milli təsərrüfatın təşkilinin Azərbaycan modelinin yaradılması tarixi keçmişimiz, adət-ənənələrimiz, milli dövlətçiliyimiz, təbii-iqtisadi imkanlarımız nəzərə alınmaqla belə səciyyələndirilir: «**Azərbaycan Respublikasının** bazar iqtisadiyyatına keçid şəraitində formalaşmaqda olan milli təsərrüfat modeli sosiallaşdırma və demokratikləşdirmə tədbirləri əsasında sahibkarlığı stimullaşdırmaqla ölkənin malik olduğu təbii-iqtisadi potensialdan səmərəli istifadə olunmasına, çevik vergi siyasəti yeritməklə əmlak bərabərsizliyinin azaldılmasına, xüsusi güzəştlər və yardımlar hesabına əhalinin aztəminatlı hissəsinə qayğı göstərilməsinə, milli şüurun yüksək inkişaf səviyyəsinə, millətin mənafeyinin üstün tutulmasına yönəldilmiş güclü sosial siyasətə əsaslanmaqla yaradılır və onu sosial yönümlü bazar iqtisadiyyatı adlandırmaq olar.[1]

Beləliklə, bazar iqtisadi sistemi daxilində milli təsərrüfat təşkilinin Azərbaycan modeli əslində Almaniyanın sosial yönümlü bazar iqtisadiyyatı və ümumi rifah dövlətinin inkişaf etmiş forması olan İsveç modelinə daha yaxındır.

## 13.2. Dövlətin sosial funksiyaları

Sosial bazar iqtisadiyyatı konsepsiyası vətəndaşların sosial müdafiəsinə və sosial bərabərliyə zəmanət verən siyasi azadlıqların, iqtisadi sərbəstliyin və sosial dövlət ideallarının sintezini nəzərdə tutur. Başqa sözlə, sosial yönümlü bazar iqtisadiyyatı şəraitində bütövlükdə cəmiyyətin çiçəklənməsi və onun hər bir üzvünün tələbatının ödənilməsi problemi ön plana çəkilir. Lakin bazar özü təkbaşına bu vəzifələri yerinə yetirmək iqtidarında deyildir. Odur ki, dövlət, əmək prosesinə hələ qoşulmamış, ya-

---

[1] Oqtay Məmmədli. İqtisadi nəzəriyyə. Ali məktəblər üçün dərs vəsaiti. Gəncə, «İlkin» nəşriyyatı, 2004, s 101

xud da əmək qabiliyyətini müvəqqəti və ya birdəfəlik (yaşa, sağlamlığını itirdiyinə görə və s.) itirərək bu prosesdən çıxan insanların minimum yaşayış səviyyəsinin təmin olunmasına zəmanət verməlidir.

Digər tərəfdən, insan kapitalının formalaşması və iqtisadi artımın əsas amili olan texnologiyaların tətbiqində dövlətin rolu xüsusilə böyükdür. **İqtisadçıların hesablamalarına görə ABŞ-da təhsil müddətinin bir il uzadılması UDM-in 5-15% artmasına səbəb olur.** Bu göstərici inkişaf etməkdə olan ölkələrdə daha yüksəkdir. Belə ki, mərkəzi Afrika ölkələrində ibtidai təhsilə qoyulan investisiya UDM-in 24 % artmasını təmin edir. Ona görə də heç də təsadüfi deyildir ki, **Cənub-Şərqi Asiya ölkələrində** iqtisadi artımın birinci dərəcəli amili kimi ümumi təhsilə xüsusi diqqət yetirilir.

Aydın məsələdir ki, bazar insan kapitalının investisiyalara olan tələbatını ödəyə bilməz. Ona görə ki, 1) nə vaxtsa daha çox gəlir götürmək niyyəti ilə vəsaitin cəlb edilməsi olduqca çətindir; 2) «kredit»in, daha dəqiq desək qoyulan vəsaitin qaytarılması üçün insan kapitalının girov qoyulması mümkün deyildir. Məhz bütün bunlara görə lazım olan xərclərin maliyyələşdirilməsi ilə əlaqədar yük, dövlətin üzərinə düşür.

Bütün bunlara əsasən belə bir nəticə çıxarmaq olar ki, insanlar istehsalı təşkil və nemətləri istehsal etməklə özlərinin artmaqda olan tələbatlarını ödəməyə çalışırlar. Deməli, iqtisadiyyatı inkişaf etdirməkdə məqsəd cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəməkdən ibarətdir. Başqa sözlə, iqtisadiyyat insanlar üçündür və insanlara xidmət etməlidir. **İqtisadiyyatda çox böyük uğurlar qazanılarsa, lakin insanlar yenə də yoxsulluq həddində, kasıbçılıq içərisində yaşayarlarsa, onlar heç zaman varlı dövlət yaratmaq uğrunda mübarizə aparmaz və bu barədə düşünməzlər.**

Keçmiş SSRİ dönəmində zahirən sosial problemlərin həllinə xüsusi diqqət yetirilmiş və hətta «hər şey insan naminə, hər şey insanlar üçün» şüarından təbliğat məqsədilə, «sosial» sözündən isə kapitalizmə qarşı ideoloji mübarizədə kəskin silah kimi istifadə edilmişdir. «Sosial» sözü öz əksini ölkənin inkişaf etdiril-

məsi planlarının adlarında da tapmışdır. Məsələn, müəyyən dövr üzrə tərtib olunan SSRİ xalq təsərrüfatının inkişaf etdirilməsinə dair beşillik planlar ölkənin iqtisadi və sosial inkişaf planları adlandırılmışdır. Doğrudur, təhsil və səhiyyənin inkişaf etdirilməsi sahəsində müəyyən nailiyyətlər qazanılmışdı. Lakin buna baxmayaraq insanlar cəmiyyətin başlıca məhsuldar qüvvəsi, istehsalın əvəzolunmaz amili olsalar da o dövrdə bütün sosial sfera qalıq prinsipi əsasında maliyyələşdirilmişdir.

Sənayecə inkişaf etmiş ölkələrdə isə ikinci dünya müharibəsindən sonra uzun illərdən bəri işlədilən «bazar iqtisadiyyatı» kateqoriyası «sosial bazar iqtisadiyyatına» çevrilmişdir. Hazırda isə bu «tənzimlənən sosial bazar iqtisadiyyatı» adını almışdır. Bu isə təsadüfi deyildir. Ona görə ki, həmin ölkələrdə bazar münasibətləri əhalinin sosial müdafiəsinin gücləndirilməsi və bazarın tənzimlənməsi ilə əlaqələndirilir. Deməli, həm bazar iqtisadiyyatı, həm də ona keçid şəraitində əhalinin sosial müdafiəsi dövlətin diqqət mərkəzində olmalıdır.

Bazar iqtisadiyyatı şəraitində əhalinin bəzi qrupları, birinci növbədə ayrıca və ya müstəqil yaşayan qocalar və əlillər, yetim uşaqlar və çoxuşaqlı ailələr xüsusi sosial proqramlar obyekti olmalı, onların yeməyə, mənzilə, tibbi xidmətə olan tələbatının ödənilməsi bu proqramlar əsasında həyata keçirilməlidir.

**Təcrübə göstərir ki, bazar iqtisadiyyatı şəraitində sosial siyasətin əsas istiqamətləri aşağıdakılardır:**

- əməyin ödənilməsi vaxtaşırı nəzərdən keçirilir və insan iş qüvvəsinin dəyəri artırılır. Bu məqsədlə əməyin ödənilməsinin minimum məbləğinə dövlət tərəfindən təminat verilir, onun qalan məsələləri – əmək haqqının forma və sistemləri, mükafat, haqq, əlavə haqq və s. müəssisələrin özləri tərəfindən müstəqil surətdə, dövlət orqanlarının müdaxiləsi olmadan həll edilir, fərdi əmək haqqı məhdudlaşdırılmır və yalnız gəlir vergisi vasitəsilə, büdcədən maliyyələşdirilən sahələrdə isə dövlət tərəfindən tənzimlənir;
- əmək qabiliyyəti olmayan əhaliyə və tələbələrə sosial yardım gücləndirilir, minimum istehlak büdcəsinə, uşaqların doğulması və tərbiyə edilməsi ilə əlaqədar, habelə əlillərə verilən

müavinətlər və tələbələrin təqaüdü vaxtaşırı görülən tədbirlər nəticəsində bazar iqtisadiyyatına uyğunlaşdırılır;

- minimum istehlak büdcəsinin müəyyən edilməsi və əhalinin inflyasiyadan müdafiə olunması mexanizmi hazırlanır və həyata keçirilir və s. və i.a.

Qabaqcıl ölkələrdə iqtisadiyyatın inkişaf etdirilməsi əhalinin sosial məsələlərinin həlli ilə birbaşa əlaqələndirilir. Bu, onunla izah edilir ki, iqtisadiyyatın inkişaf etdirilməsinin başlıca və hərəkətverici amili sosial inkişafdır. Digər tərəfdən, sosial, ekoloji, demoqrafik vəziyyəti yaxşılaşdırmadan iqtisadiyyatın tarazlı inkişafından danışmaq məntiqsizlik olardı. Odur ki, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə sosial vəziyyətin normallaşdırılması və daha da yaxşılaşdırılması ilə əlaqədar dövlət tərəfindən elmi cəhətdən əsaslandırılmış tədbirlər hazırlanır və həyata keçirilir. Həm də qeyd etmək lazımdır ki, bu zaman ölkənin mövcud inkişaf səviyyəsi və malik olduğu ehtiyatlar, istehsal-texnoloji imkanlar əhalinin gəlirləri ilə yaşayış vasitələrinin dəyəri arasındakı nisbətin gözlənilməsi nəzərə alınır. **Siyasi, iqtisadi, sosial, demoqrafik, ekoloji, ideoloji və hüquqi problemlər vəhdət halında həll edildikdə daha səmərəli olur.** Çünki bunların hamısının son məqsədi insanlara xidmət etməkdən, insanların həyat şəraitini yaxşılaşdırmaqdan ibarətdir.

Ən mühüm sosial problemlər sırasına həmçinin minimum istehlak büdcəsinin vaxtaşırı nəzərdən keçirilib dəyişdirilməsi, əhalinin səmərəli məşğulluğunun təmin olunması, inflyasiyadan qorunması, bu məqsədlə gəlirlərin və əmək haqqının indeksləşdirilməsi və s. daxildir.

Azərbaycan dövləti beynəlxalq təcrübəni nəzərə alaraq əhalinin sosial müdafiəsinə daim xüsusi diqqət yetirir, bunu özünün başlıca funksiyalarından biri hesab edir. Bunlar öz əksini Azərbaycan Respublikası Konstitusiyasında tapmışdır. Konstitusiyanın 38-ci maddəsində deyilir: «hər kəsin sosial təminat hüququ vardır... hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir».

**Azərbaycan dövləti** öz vətəndaşlarının sosial müdafiəsini təmin etmək məqsədilə ölkəmizdə bazar münasibətlərinin formalaşmağa başladığı ilk dövrlərdə yeritdiyi siyasətin əsas prioriteti inflyasiyanın cilovlanması olmuşdur. Çünki 1994-cü ildə ölkəmizdə inflyasiyanın səviyyəsi olduqca təhlükəli bir həddə – 1760%-ə çatmışdı və onun qarşısının vaxtında alınmaması fəlakətli nəticələrə gətirib çıxara bilərdi. Görülən məqsədyönlü tədbirlər nəticəsində onun səviyyəsi beynəlxalq miqyasda, beynəlxalq maliyyə təşkilarlarının normal hesab etdikləri həddə endirilmiş və hazırda bu sahədə dövlət tərəfindən tənzimləmə öz səmərəsini verir. Lakin burada bəzi məqamları xüsusi qeyd etmək lazımdır. Bunlar ondan ibarətdir ki, həmin dövrdə aparılan sosial siyasətin məqsədi ilə maliyyə sabitliyinin təmin olunmasının məqsədi arasında bir sıra ziddiyyətli məqamlar olmuşdur. Belə ki, inflyasiya və büdcə kəsirinin aradan qaldırılması ilə əlaqədar mübarizədə ağırlıq mərkəzi əsas etibarilə əhalinin üzərinə düşmüş, sosial inkişafa və əhalinin həyat səviyyəsinə təsir edən mənfi amillər özünü cəmiyyət həyatının bütün sahələrində göstərmişdir. Bu mənfi amillər sosial sahədə – insanların «təkrar istehsalı» və həyat səviyyəsinin pisləşməsində; istehsal sahəsində – daxili istehsalın, xüsusilə də istehlak dairəsi sahələrinin maddi-texniki bazasının dağılmasında; mübadilə və tədavül sahələrində-inflyasiyanın və qiymətlərin səviyyəsinin yüksəlməsində; dövlət idarəetmə sistemində-iqtisadiyyatın idarə olumasında çətinliklərin meydana çıxması, dövlətin rolunun zəifləməsi, kriminal hadisələrin artması və s. müşahidə olunmuşdur.

**Bazar münasibətlərinin formalaşdığı dövrdə meydana çıxan və sosial gərginliyə səbəb olan məsələlərdən biri də daxili qiymətlərin dünya qiymətlərinə yaxınlaşdırılmasıdır.** Ölkəmizdə bu proses çoxtərəfli xarakter daşıyır. Belə ki, bir çox əsas məhsul növləri üzrə daxili qiymətlər dünya qiymətlərinə yaxınlaşdırılmış, bəzi məhsul növləri üzrə isə proses davam edir. Bütün bunlar dünya standartlarına «uyğunlaşma» sahəsində çox mühüm tədbirlərdir və bu prosesdən kənara çıxılması mümkünsüzdür. Lakin məlum olduğu kimi, bazar iqtisadiyyatı və ona keçid şəraitində iş qüvvəsi də əmtəəyə çevrilir. Deməli, onda iş qüvvəsindən ibarət

əmtəənin qiyməti də (əmək haqqı) dünya qiymətlərinə yaxınlaşdırılmalı və onunla eyniləşdirilməlidir. Ölkəmizin iqtisadiyyatının bir sıra sahələrində (bank sistemi, neft hasilatı və neft emalı, dağ-mədən sənayesi və i.a) bu proses, yəni iş qüvvəsi dəyərinin dünya standartlarına uyğunlaşdırılması prosesi getdiyi halda, elə sahələr də vardır ki, onlarda iş qüvvəsinin dəyəri çox aşağıdır. Bu, birinci növbədə dövlət tərəfindən tənzimlənən və büdcədən maliyyələşdirilən elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və s. sahələrdə çalışanlara aiddir. **Bu bir həqiqətdir ki, iş qüvvəsi ən ucuz əmtəə olduqda həyat səviyyəsi də bir o qədər aşağı olur.**

Bütün bunlar ona görə baş vermişdir ki, əhalinin gəlirləri və büdcədən maliyyələşdirilmənin bəzi istiqamətlərinin tənzimlənməsidə həddindən artıq sərt siyasət yeridilmişdir. Bu, özünü hər şeydən əvvəl əhalinin real gəlirlərinin azalmasında, kütləvi istehlak malları və xidmətlərin qiymətlərinin kəskin surətdə bahalaşmasında, işsizliyin artmasında göstərmişdir.

**İqtisadiyyatda köklü dəyişikliklər aparıldığı dövrdə sosial siyasət qabaqlama xarakteri daşımalıdır.** Bu isə sosial göstəricilərin normal hesab olunan çərçivəyə salınmasını, əhalinin həyat səviyyəsinin minimum standartlarının müəyyən olunmasını zəruri edir. Bunun üçün isə büdcədə sosial xərclərin maliyyələşdirilməsinə imkan verən qədər vəsait olmalıdır.

Müstəqilliyimizi bərpa etdikdən sonra dövlətin konstitusiyada təsbit olunmuş vəzifələrinin yerinə yetirilməsi üçün ölkəmizdə əhalinin sosial müdafiəsinə təminat verən bir sıra qanunlar qəbul olunmuş və sonralar onlara müəyyən dəyişiklik və əlavələr edilmişdir. Bunlara «Məşğulluq haqqında», «Minimum istehlak büdcəsi haqqında», «Vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında», «Vətəndaşların pensiya təminatı haqqında», «Məzuniyyətlər haqqında», «Əlillərin sosial müdafiəsi haqqında» və s. qanunları misal göstərmək olar. Bunlardan bəzilərini qısaca nəzərdən keçirək.

Müasir dövrdə məşğulluq, iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin mühüm amillərindən biri olmaqla, Azərbaycan dövlətinin sosial siyasətinin tərkib hissəsini təşkil edir. 2001-ci il iyul ayının 2-də qəbul edilmiş

**«Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanununda** bu siyasətin mahiyyəti belə müəyyən edilmişdir: «Məşğulluq – Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq, onlara qazanc (gəlir) gətirən hər hansı fəaliyyətdir». Qanunun **«məşğul şəxslər»** adlanan 2-ci maddəsində bu kateqoriyaya muzdla işləyən, sahibkarlıq və fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, mülkiyyətində torpaq payı olan, haqqı ödənilən, vəzifəyə seçilən, təyin və təsdiq olunan şəxslər və s. daxil edilir.

Əhalinin sosial müdafiəsi ilə əqadər qəbul edilmiş qanunlardan biri də «Minimum istehlak büdcəsi haqqında» Azərbaycan Respublikasının qanunudur.

**İstehlak büdcəsi** – istehlak səbətinin strukturu və formalaşmasını, əmək haqqının, pensiyaların, müavinətlərin, təqaüdlərin və digər sosial ödəmələrin minimum məbləğini özündə əks etdirən tədbirlər sistemidir. Bu büdcə cəmiyyət tərəfindən onun hazırki inkişaf dövründə mümkün olan minimum səviyyə kimi qəbul edilmiş səviyyədən aşağı olmamaqla insanın əsas fizioloji və sosial-mədəni tələbatının ödənilməsini təmin edəcək istehlak mallarının və xidmətlərin dəyərini əks etdirir.

**İstehlak büdcəsinin başlıca tərkib hissəsi istehlak səbətidir.** İstehlak səbəti və yaşayış minimumuna insanın konkret funksional ehtiyaclarını ödəyən, elmi cəhətdən əsaslandırılmış, tarazlaşdırılmış istehlak malları və xidmətlər toplusu olmaqla təxminən 400 adda məhsul və xidmət daxil edilir.

Qiymətlərin sürətlə artdığı bir şəraitdə insanların vəziyyəti pisləşməsin deyə onların gəlirlərini inflyasiyadan qoruyan sistem olmalıdır. **Bu, müxtəlif yollarla, ən əvvəl gəlirlərin və əmək haqqının indeksləşdirilməsinin köməyi ilə həyata keçirilir.** Məsələn, inkişaf etmiş ölkələrdə hər yarım ildə bir dəfə inflyasiya nəzərə alınmaqla əmək haqqı indeksləşdirilir, yəni inflyasiyanın hər faizinə görə əmək haqqı 0,5 % artırılır.

İndeksləşdirmə ölkəmizin ərazisində istehlak malları qiymətlərinin və pullu xidmətlərin tariflərinin artması ilə əlaqədar ola-

raq, əhalinin alıcılıq qabiliyyətini qorumaq məqsədilə onların pul gəlirləri və əmanətlərinin artırılmasının dövlət tərəfindən müəyyən edilən mexanizmidir.

**Pul gəlirləri və əmanətlərin indeksləşdirilməsinin əsasını istehlak qiymətləri indeksi təşkil edir.** Əhalinin gəlirlərinin indeksləşdirilməsi «Vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında» Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

«**Əmək pensiyaları haqqında**» Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli qanunu ilə Azərbaycan Respublikası vətəndaşlarının əmək pensiyası hüquqlarının yaranmasının əsasları, bu hüquqların həyata keçirilməsi qaydaları və əmək pensiyasının təminatı sistemi müəyyən edilmişdir.

Bu qanuna uyğun olaraq əmək pensiyasının aşağıdakı növləri vardır: 1) yaşa görə əmək pensiyası; 2) əlilliyə görə əmək pensiyası; 3) ailə başçısını itirməyə görə əmək pensiyası. Yaşa və əlilliyə görə əmək pensiyası baza, sığorta və yığım hissələrindən, ailə başçısını itirməyə görə əmək pensiyası isə baza və sığorta hissələrindən ibarətdir.

62 yaşına çatmış kişilərin və 57 yaşına çatmış qadınların azı 5 il sığorta stajı olduqda yaşa görə əmək pensiyasına çıxmaq hüququ vardır. Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş şərtlərlə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla əmək pensiyası təminatı hüququ vardır.

**Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiya hüququ** olan istirahət hüququnun qanunvericiliklə təmin edilməsi məqsədilə «Məzuniyyətlər haqqında» Azərbaycan Respublikasının qanunu işçilərin normal istirahəti, əmək qabiliyyətinin möhkəmləndirilməsi, sağlamlığının mühafizəsi və bərpası, uşaqların tərbiyəsi və fizioloji tələbatının təmin edilməsi, həmçinin vətəndlaşların təhsil hüququnun həyata keçirilməsi üçün məzuniyyətlərdən istifadə hüququnu və qaydasını tənzimləyir.

Qanunda bütün növ məzuniyyətlərin minimum müddəti müəyyən olunmaqla yanaşı, qeyd edilir ki, mülkiyyət formasın-

dan, təsərrüfatçılıq və təşkilati – hüquqi tabeliyindən asılı olmayaraq bütün müəssisələrdə işverənlərlə əmək münasibətlərində olan işçilər vəzifəsindən, iş rejimindən, əmək şəraitindən və fərdi əmək müqaviləsinin müddətindən asılı olmayaraq müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdir.

İşçilərin məzuniyyət hüququ aşağıdakı məzuniyyət növləri ilə təmin edilir: 1) əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyətləri; 2) anaların və uşaqların mühafizəsi üçün, habelə təhsil və yaradıcılıqla əlaqədar sosial məzuniyyətlər; 3) ödənişsiz məzuniyyətlər.

Beləliklə, dövlət, bazar iqtisadiyyatı və ona keçid şəraitində iqtisadiyyatın daha sürətlə inkişaf etdirilməsi, onun səmərəliliyinin yüksəldilməsi və bunun nəticəsidə əhalinin sosial sahədə tələbatının daha yaxşı ödənilməsi üçün məqsədyönlu siyasət yeridir. İqtisadi məsələlərlə sosial məsələlər düzgün əlaqələndirildikdə isə hər iki sahədə böyük uğurlar qazanılır.

## NƏTİCƏ

sosial göstəricilərə demoqrafik, əhalinin məşğulluğu, əmək bazarı, səhiyyə, təhsil, mədəniyyət, ictimai təhlükəsizliyin təmin olunması, cinayətkarlığın aradan qaldırılması və kriminal ünsürlərlə mübarizə, ekologiyanın yaxşılaşdırılması, insan hüquqlarının təmin olunması və s. aiddir;

özünün sosial siyasətində bu göstəriciləri nəzərə alan dövlət öz vətəndaşlırının hüquq və azadlıqlarının təminatı sahəsində konstitusiya borcunu yerinə yetirmiş olur və çox böyük nailiyyətlər qazanır;

iqtisadçıların fikrincə dünyada mövcud olan çoxsaylı bazar iqtisadiyyatı modelləri içərisində Almaniyanın «sosial yönümlü bazar iqtisadiyyatı» və İsveçin «sosial-demokrat» modelləri daha çox sosial təmayüllü modellərdir;

hər iki modelin özünə məxsus müsbət, mənfi və spesifik cəhətləri vardır. Lakin bununla yanaşı, onların aşağıdakı ümumi xüsusiyyətlərini də qeyd etmək olar: hər iki modeldə dövlət, ölkənin sosial-iqtisadi inkişafının tənzimlənməsində çox böyük rol

oynayır. Dövlət, firmaların istehsal fəaliyyətinə müdaxilə etmir, lakin həm makro-iqtisadi, həm də mikroiqtisadi səviyyələrdə tənzimləmə funksiyasını yerinə yetirir;

bazar iqtisadiyyatı hərəkətdə olan dinamik sistemdir. Lakin başqa ölkələrdə tətbiq olunan bazar iqtisadiyyatı modelini hansı miqyasda uğur qazanılmasından asılı olmayaraq, şablon kimi götürüb hər hansı bir ölkədə, o cümlədən də Azərbaycanda istifadə etmək düzgün deyildir. Odur ki, ölkəmizdə bazar iqtisadiyyatının Azərbaycan modeli müxtəlif cəhətlər və amillər, xalqımızın mentaliteti nəzərə alınmaqla yaradılır. Və bu modeli sosial yönümlü bazar iqtisadiyyatı kimi səciyyələndirmək olar;

sosial bazar iqtisadiyyatı konsepsiyası vətəndaşların sosial müdafiəsinə və sosial bərabərliyinə zəmanət verən siyasi azadlıqların, iqtisadi sərbəstliyin və sosial dövlət ideallarının sintezini nəzərdə tutur;

bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə ikinci dünya müharibəsindən sonra uzun illərdən bəri işlədilən «bazar iqtisadiyyatı» kateqoriyası «sosial bazar iqtisadiyyatı»na çevrilmişdir. Hazırda isə bu «tənzimlənən sosial bazar iqtisadiyyatı» adını almışdır;

inkişaf etmiş ölkələrdə iqtisadiyyatın inkişaf etdirilməsi əhalinin sosial məsələlərinin həlli ilə birbaşa əlaqələndirilir. Və bu məqsədlə sosial siyasət yeridilir ki, burada da ən mühüm sosial problemlər öz əksini tapır;

ölkəmizdə bazar münasibətlərinin formalaşdığı ilk günlərdən sosial siyasətdə əsas məsələlərdən biri əhalinin inflyasiyadan qorunması olmuşdur. Bu dövrdə meydana çıxan və sosial gərginliyə səbəb olan məsələlərdən biri də daxili qiymətlərin dünya qiymətlərinə, əmək haqqının isə dünya standartlarına yaxınlaşdırılmasıdır. Ölkəmizdə bu istiqamətdə müəyyən işlər görülsə də, hələlik bütün məsələlər dünya standartları səviyyəsinə çatdırılmamışdır. Çox güman ki, «Əsrin müqaviləsi» tam gücü ilə fəaliyyət göstərməyə başladıqda digər məsələlər kimi, bunlar da öz həllini tapacaqdır.

## XIV FƏSİL

# ƏMƏK BAZARININ VƏ ƏHALİNİN MƏŞĞULLUĞUNUN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

## 14.1. Əmək bazarının mahiyyəti və tənzimlənməsi mexanizmi

Əmək bazarı istehsal amillərindən birinin – əmək münasibətlərinin meydana çıxdığı bazardır. Əmək bazarında işləmək arzusunda olan şəxslərlə müxtəlif növ əmtəə və xidmətlərin istehsalında istifadə etmək üçün muzdla işçi tutmaq istəyən şəxslər qarşı-qarşıya dururlar.

**Əmək bazarının aşağıdakı səciyyəvi cəhətləri vardır:** 1) həm işverənlər, həm də iş axtaranlar iqtisadi müstəqilliyə malikdir; 2) kəmiyyət və keyfiyyət cəhətdən iş qüvvəsinə olan tələb və təklifi özündə əks etdirən əməyin haqqının ödənilməsinin çevik sistemi mövcuddur; 3) bu bazar üçün cəmiyyətin ayrı-ayrı peşələrə olan tələbatının dəyişməsinə uyğun olaraq işçi qüvvəsinin yenidən hazırlanmasını, iş və yaşayış yerinin dəyişməsini nəzərdə tutan miqrasiya səciyyəvidir.

**Əmək bazarı mexanizminin əsas ünsürləri** iş qüvvəsinə olan tələb; iş qüvvəsi üzrə təklif; iş qüvvəsinin qiyməti; ən yaxşı iş yerləri uğrunda işverənlər, habelə əmək şəraiti və əmək haqqı üzrə tarif qiymətləri barədə müqavilə (saziş) imzalanarkən muzdlu işçilərlə işverənlər arasında gedən rəqabətdən ibarətdir.

**Əmək bazarı haqqında bir neçə konsepsiya vardır.** Bunlardan birinin əsasında klassik siyasi iqtisadın hamı tərəfindən qəbul olunmuş müddəası durur. Bunun tərəfdarları neoklassiklərdir (P.Samuelson, M.Feldstayn, R.Xoll). Keçən əsrin 80-ci illərindən başlayaraq təklif iqtisadiyyatı konsepsiyasının tərəfdarları da (D.Gilder, A.Laffer və b.) bu konsepsiyaya tərəfdar çıxmışlar. Onlar belə hesab edirlər ki, bütün başqa bazarlar kimi, əmək bazarı da qiymət tarazlığı əsasında fəaliyyət göstərir. Başqa sözlə, bazar tənzimləyicisi vəzifəsini iş qüvvəsindən ibarət əmtəənin

qiyməti (əmək haqqı) yerinə yetirir. Onların fikrincə məhz tələb və təklif əmək haqqının köməyi ilə tənzimlənir. Təhsilə və ixtisasın artırılmasına qoyulan investisiyalar da maşın və avadanlıqlara qoyulan investisiyaların analoqudur. Neoklassik nəzəriyyəyə görə iş qüvvəsinin dəyəri tələb və təklifdən asılı olaraq ya artır, ya da azalır, bazarda tarazlıq hökm sürdükdə isə işsizlik aradan qalxır.

**Keynsçilər və monetaristlər isə əmək bazarının** mahiyyətinin aydınlaşdırılmasına başqa mövqedən yanaşırlar. Onlar neoklassiklərdən fərqli olaraq əmək bazarını daimi və tarazlığın olmadığı bir sahə kimi nəzərdən keçirirlər. C.M.Keyns, sonralar isə R.Qordon və başqaları iddia edirdilər ki, iş qüvvəsinin qiyməti (əmək haqqı) müyyən olunmuş kəmiyyətdir və demək olar ki, dəyişmir (xüsusilə də azalmağa doğru dəyişmir). Lakin onlar bunu isbata ehtiyacı olmayan bir fakt hesab edirdilər. Bu konsepsiyaya görə iş qüvvəsinin qiyməti bazarın tənzimləyicisi olmadığına görə onu (yəni tənzimləyicini) kənarda axtarmaq lazımdır. Onların fikrincə, dövlət ümumi tələbi azaltmaq və ya artırmaqla bu vəzifəni yerinə yetirməli, qeyri-tarazlığı aradan qaldırmalıdır. Bunu onunla izah edirdilər ki, dövlət, vergiləri azaltmaqla tələbin və istehlakın artmasına şərait yarada bilər. Beləliklə, bu modelə görə işçi qüvvəsinə olan tələb, əməyin bazar qiymətindəki tərəddüdetmələrlə deyil, ümumi tələblə, başqa sözlə, istehsalın həcmi ilə tənzimlənir.

**Monetarizm məktəbi nümayəndələri** (M.Fridmen və başqaları) belə hesab edirlər ki, məsələn, ABŞ-ın əmək bazarında tarazlığı pozan mənfi amillər vardır və bunlar dövlət tərəfindən əmək haqqının minimum məbləğinin müəyyən edilməsi, həmkarlar ittifaqlarının mövqeyinin möhkəm olması, boş iş yerləri haqqında bütün zəruri informasiyaların olmaması və s. ibarətdir. Onlar bazarda tarazlıq yaratmaq üçün pul-kredit siyasətindən, xüsusilə də Mərkəzi bankın qeydiyyat normalarından, kommersiya banklarının Mərkəzi bankların hesablarında olan məcburi ehtiyat mədləğindən istifadə olunmasını təklif edirdilər. Onların fikrincə, bunlar investisiya və işgüzar fəallığın, nəticə etibarilə isə ölkədə məşğulluğun artmasına səbəb ola bilər.

Əmək bazarının fəaliyyət mexanizminə dair geniş yayılmış ideyalardan biri də C.Danlop, L.Ulman və başqalarının fikirləridir. Onlar əsas diqqəti işçi qüvvəsinin strukturunda peşələr və sahələr üzrə muxtəlifliyin və əmək haqqının səviyyəsinin təhlilinə yönəldirlər. Göründüyü kimi, burada makroiqtisadi təhlildən bir növ imtina edilir və onların bazarın, ayrı-ayrı sahələrin, demoqrafik qrupların dinamikasının xüsusiyyətləri ilə əlaqələndirilməklə izah olunmasına cəhd göstərilir.

**Marksist iqtisadi nəzəriyyədə** əmək bazarı, bazarın xüsusi növü hesab edilir. Marksizmə görə əmək prosesində iş qüvvəsi dəyər yaratdığı halda, bütün digər ehtiyatların dəyəri əməyin vasitəsilə istehsal olunan məhsulların dəyərinin üzərinə keçirilir. Bu, iş qüvvəsini bütün digər istehsal ehtiyatlarından əsaslı surətdə fərqləndirir. Bundan başqa, marksistlər hesab edirlər ki, işçi qüvvəsi bazarı da, bazara xas olan ümumi qanunauyğunluqlara tabe olsa da, onun özünə məxsus spesifik xüsusiyyətləri vardır. Belə ki, istehsalın subyektiv amili olan işçi qüvvəsi özü əmtəə olmaqla, tələb və təklifə fəal təsir göstərə bilir.

**Tədqiqatçların əksəriyyəti müasir əmək bazarının ikili xarakterdə olduğunu deyirlər**. Onların fikrincə bazarda bir-biri ilə rəqabət aparmayan ən azı iki işçi qüvvəsi bazarı, yaxud da vahid işçi qüvvəsi bazarının iki seqmenti fəaliyyət göstərir. Bu bazarlardan biri ali təhsilli mütəxəssislərin, inzibati və idarəetmə işçilərinin, yüksək ixtisaslı işçilərin iş yerlərini əhatə edir. Bazarlardan digəri isə xüsusi ixtisas və peşə hazırlığı tələb etməyən iş yerlərini əhatə edir. Bunlara xidmət işçilərini, ixtisassız işçiləri, aşağı kateqoriyadan olan qulluqçuları misal göstərmək olar.

Bazarın sosial-əmək münasibətləri subyektlərinə gəldikdə, bunlara muzdlu işçilər və onların birlikləri (həmkarlar ittifaqları, assosiasiyalar), sahibkarlar (kollektiv və fərdi) və onların ittifaqları (məsələn, sənayeçilər və sahibkarlar ittifaqları və i.a.), dövlət orqanları daxildir.

**Dövlət, əmək bazarının subyekti olmaqla xüsusi rola malikdir.** O, həm iqtisadiyyatın dövlət bölməsində sahibkar, həm də bir çox proqramların investoru rolunda çıxış edir. Lakin onun əsas funksiyası tərəfdaşların və qarşı-qarşıya duran qüvvələrin məna-

fələrinin tənzimlənməsi qaydalarını müəyyən etməkdən ibarətdir.

Dövlət, qanunverici orqan kimi qanunları işləyib hazırlayır və əmək bazarının bütün subyektləri üçün ümumi davranış qaydalarını müəyyən edir.

**Əmək bazarının inkişaf səviyyəsini müəyyən edən başlıca göstəricilər əmək haqqı, uyğun ixtisas və təhsil səviyyəsidir.** Özündə çoxsaylı amilləri birləşdirən və onun nəticəliliyini müəyyən edən (ümumi təhsil və ümumi mədəni səviyyə, peşə hazırlığı, əmək potensialından istifadə dərəcəsi və i.a.) əməyin ödənilməsi prinsipləri onda təzahür edir ki, yüksək ixtisaslı işçi qüvvəsinin gəlirləri və yaradıcılıq imkanları yaşayış minimumunu xeyli üstələyir. İnkişaf etmiş əmək bazarının səciyyəvi cəhəti əmək haqqında sahələrarası fərqin azalma meylinin müşahidə olunmasıdır. Bu bazarda minimum əmək haqqı ilə orta əmək haqqı arasındakı nisbət kifayət qədər sabitdir. Bunu adətən bazar subyektlərinin sərbəst davranışları ilə izah edirlər. Lakin bu düzgün deyildir. Ona görə ki, buna sosial-əmək münasibətləri subyektləri arasındakı danışıqlarda kompromis əldə edilməsi nəticəsində nail olunmuşdur. Və lazım gəldikdə bu münasibətlər qanunvericilik aktlarının köməyilə qorunub saxlanılır.

**Əmək bazarının özünə məxsus bir sıra xüsusiyyətləri vardır.** Belə ki, digər bazarlarla müqayisədə əmək bazarında tələb və təklif qanununun fəaliyyəti bir qədər məhdud xarakter daşıyır və deməli, tam məşğulluğa nail olunmamış, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə iqtisadi nəzəriyyədə onun vəziyyəti hərtərəfli öyrənilməmişdir. Bunlar iş qüvvəsi əmtəəsinin spesifik xüsusiyyətləri ilə əlaqədardır. Bu xüsusiyyətlər isə özünü onda göstərir ki, iş qüvvəsinə olan tələb törəmədir, iş qüvvəsi üzrə təklif demoqrafik vəziyyətdən asılıdır, iş qüvvəsinin qiyməti onun normal təkrar istehsalını təmin edən səviyyədən aşağı düşməməlidir. Əməyin istehsal ehtiyatlarının digər növlərindən fərqi ondadır ki, o (yəni əmək) insanın əmək fəaliyyətinin başlıca forması, şəxsiyyətin özünüifadəsidir. Əmək haqqı isə sadəcə olaraq qiymətin növlərindən biri deyildir, o, həm də işçinin özünün və onun ailəsinin rifahını, cəmiyyətdə so-

sial mühiti və sosial gərginliyi müəyyən edən başlıca sosial-iqtisadi kateqoriyadır.

## 14.2. Əmək bazarının təsnifləşdirilməsi və modelləri

Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə həyata keçirilən məşğulluq siyasəti nəticəsində bazarın müxtləif tipləri meydana gəlmişdir. Bununla əlaqədar olaraq keçən əsrin 70-ci illərindən etibarən qərb iqtisadçıları əmək bazarının iki tipinin olduğunu qeyd edirlər. Bunlardan biri daxili və ya qapalı, digəri isə xarici və ya peşə əmək bazarı tipidir.

Daxili əmək bazarının mahiyyəti ondan ibarətdir ki, bu bazarda müxtəlif ixtisas və peşələr üzrə işçilər hazırlanarkən onların eyni firmada (müəssisədə) çalışacaqları nəzərdə tutulur. Bu əmək bazarına müəssisənin spesifik xüsusiyyətlərinə uyğun gələn, yüksək ixtisasa və məhsuldarlığa malik təcrübəli işçilər aiddir.

Xarici əmək bazarı isə heç bir ixtisası, habelə iş təcrübəsi olmayan, yaxud da aşağı ixtisaslı işçilərin olması ilə əlaqədardır. Bu əmək bazarı üçün muzdlu işçilərin müvəqqəti olaraq işə qəbul edilməsinin müxtəlif formaları, qismən məşğulluq, həmçinin sabit xarakter daşımayan tam məşğulluq səciyyəvidir.

**Xarici əmək bazarı demoqrafik əlamətlərinə görə gənclərin,** yaşlı zəhmətkeşlərin, qadınların, əlillərin və yaşlı əhalinin əmək bazarlarına; peşə fərqlərinə görə isə mühəndislərin, müəllimlərin, həkimlərin, iqtisadçıların, menecerlərin, hüquqşünasların və s. peşə sahiblərinin əmək bazarlarına bölünür.

Gənclərin əmək bazarı digər bazarlardan onların nisbətən aşağı peşə-ixtisas səviyyəsinə malik olmaları, iş yerlərini tez-tez dəyişmələri ilə fərqlənir. Bu əmək bazarında fəaliyyət göstərən gəncəlr iş yerlərində daha uzun müddət çalışmağa, yeni peşələrə yiyələnməyə və öz ixtisaslarını artırmağa səy göstərirlər.

Yaşlı zəhmətkeşlərin əmək bazarı isə onunla səciyyələnir ki, onlar yüksək peşə ustalığına və böyük iş təcrübəsinə malik ol-

maları ilə yanaşı, fiziki qüvvələri və sağlamlıqları onların yeni peşələrə yiyələnmələrinə və ixtisaslarını artırmalarına imkan vermir.

Özlərinin əmək fəaliyyətlərini həyata keçirmək üçün xüsusi şərait tələb edən bazar əlillərin əmək bazarı adlanır.

Qadınların əmək bazarında zərif cinsin nümayəndələrinin fizioloji əlamətləri, uşaq doğub tərbiyə etmək və ev təsərrüfatında məşğul olmaq xüsusiyyətləri nəzərə alınır.

Peşə fərqlərinə görə müxtəlif bazarlarda işlər ayrı-ayrı peşələrdəki fərqlər nəzərə alınmaqla həyata keçirilir.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirərək belə bir nəticə çıxarmaq olar ki, daxili əmək bazarı iqtisadiyyatdakı struktur dəyişikliklərinin, xarici əmək bazarı isə silsilə halında inkişaf edən istehsalın tələblərinə cavab verir.

Bununla yanaşı, ölkəmizdə əmək bazarı formalaşma mərhələsində olduğuna görə bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə aparılan məşğulluq siyasətinin və əmək bazarı modellərinin nəzərdən keçirilməsi müsbət nəticə verə bilər. **Bunlara Yaponiya, ABŞ və İsveç modelləri aiddir.**

**Yaponiya modeli** mütəşəkkil daxili əmək bazarının klassik nümunəsidir. Bu ölkədə əmək münasibətləri «ömürlük muzd» sisteminə əsaslanır. Bu sistemin mahiyyəti ondan ibarətdir ki, işçilər hər hansı bir müəssisədə 55-60 yaşadək işləmək üçün təminat alır. Bu sistemdə işçilərin həyat səviyyəsinin yüksəldilməsinə əmək haqqı, mükafat və sosial müavinətlər verilməsi yolu ilə təminat verilir. Bu, müəssisələrə tələb olunan ixtisaslar üzrə işçiləri tam komplektləşdirməyə, kadrların peşə-ixtisas tərkibinin iş yerlərinin strukturuna, texnika və texnologiyanın inkişafına, buraxılan məhsulların yeniləşdirilməsinə uyğunlaşdırmağa imkan verir. İlk 10-12 il ərzində işçilərin peşə ixtisaslarını genişləndirmək məqsədilə onların iş yerlərini 3-4 dəfə dəyişdirirlər. İşləyən kişilər 30-35 yaşlarında 10-12 illik iş stajına malik olurlar. Qadınlar isə bir qayda olaraq «ömürlük muzd» sisteminə düşmürlər və deməli, buna görə də onların iş stajı kişilərinkindən az olur. Bu sistemdə istehsalın və işçilərin ixtisar edilməsi onların işdən çıxarılması yolu ilə deyil, iş vaxtının qısaldılması,

işçilərin iş yerlərinin dəyişdirilməsi, razılaşma əsasında onların başqa müəssisələrə keçirilməsi vasitəsilə həll edilir.

**ABŞ modeli üçün qeyri-mərkəzləşdirilmiş əmək bazarı səciyyəvidir.** ABŞ-da məşğulluğa və işsizliyə kömək göstərilməsinə dair hər bir ştatın öz qanunvericiliyi və işsizlərin sığortalanması fondu mövcuddur. Müəssisələr və işçilərin özləri ayrı-ayrılıqda federal fonda və ştatların fonduna vəsait keçirirlər. Müəssisələrdəki məşğulluq siyasətinin də özünəməxsus səciyyəvi cəhətləri vardır. ABŞ-da konyuktura dəyişdikdə və işçilərin işdən azad edilməsi zəruriliyi meydana çıxdıqda bu, iş vaxtının qısaldılması yolu ilə deyil, işçilərin işdən azad olunması yolu ilə həll edilir. Müəssisələr rentabelli işləmədikdə işçilər işdən azad oluna bilər. ABŞ-da işçilərə qarşı sərt siyasət yeridilir. Belə ki, onlar işdən çıxarılarkən heç bir xəbərdarlıq edilmir, kollektiv əmək müqavilələri müəssisədə işləyənlərin 1/4 hissəsini əhatə edir. Müəssisə daxilində işçilərin hazırlanmasına az fikir verilir. İl ərzində işçilərin bir qayda olaraq 10%-i, gənclərin isə 20-40%-i öz peşələrini dəyişirlər. Bütün bunların nəticəsidir ki, Yaponiya və İsveçə nisbətən ABŞ-da işsizlik səviyyəsi xeyli yüksəkdir.

**İsveç modeli** məşğulluq sahəsində fəal dövlət siyasəti və onun nəticəsi olaraq işsizlik səviyyəsinin ən aşağı həddə olması ilə səciyyələnir. İsveçin əmək bazarında həyata keçirilən siyasətin əsas istiqaməti işsizliyin yaranmaması üçün yeni iş yerlərinin yaradılmasına daha çox vəsait ayırmaqdan, yəni qabaqlama tədbirləri görməkdən ibarətdir. Bunu belə bir faktdan aydın görmək olar ki, İsveçdə məşğulluq proqramının həllinə yönəldilən ümumi xərclər ÜDM-in 2,6%-ni təşkil etdiyi halda, bu göstərici ABŞ-da 0,7%-ə, Yaponiyada 0,6%-ə, İtaliyada 1,6%-ə bərabərdir. Başqa ölkələr vəsaiti işsizliyin həllinə yönəltdikləri halda, İsveç həmin vəsaiti əmək bazarında işçilər arasında rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldir. Məşğulluq sahəsində bu ölkədə qazanılmış nailiyyətlər İsveç alimləri R.Meydnerin və Q.Renanın adı ilə bağlıdır. Onlar 1951-ci ildə Həmkarlar Təşkilatının konfransında «Həmkarlar təşkilatı və tam məşğulluq» mövzusunda etdikləri məruzədə qeyd edirdilər ki, əmək bazarında siyasət boş yerlərin işçilərlə doldurulmasına və işçilərə

köməklik göstərilməsinə deyil, işsizliyin qarşısının alınmasına yönəldilməlidir.

**İsveç modelinin əsas ünsürləri bunlardır:** məhdudlaşdırıcı fiskal siyasət; əmək haqqında «həmrəylik» siyasəti; əmək bazarında fəal siyasət; dövlət proqramı ilə müəyyənləşdirilmiş üstün inkişaf etdirilən sahələrin müdafiəsi sistemi.

Məhdudlaşdırıcı fiskal siyasət yeritməkdə məqsəd ondan ibarətdir ki, əmtəə və xidmətlərə qoyulan dolayı vergilər təklif və inflyasiyanın artmasına imkan verməsin. Çünki belə olmasa az mənfəətlə işləyən müəssisələr fəaliyyətlərini dayandırmağa məcbur olarlar.

Əmək haqqında «həmrəylik siyasəti»ndə məqsəd sahibkarların maliyyə vəziyyətindən asılı olmayaraq bütün işçilərə bərabər əmək haqqı verilməsi ilə yanaşı, az mənfəətlə işləyən müəssisələrin öz işçilərinin sayını azaltmağa və ya fəaliyyətlərini tamamilə dayandırmağa, yüksək mənfəət əldə edən müəssisələri isə əməyin ödənilməsi səviyyəsinin öz imkanlarından aşağı olmamaqla müəyyənləşdirməyə məcbur etməkdən ibarətdir. Lakin burada bəzi məqamların aydınlaşdırılmasına ehtiyac duyulur. Belə ki, bu prinsiplərdən istifadlə olunması bir tərəfdən, inflyasiyanın qarşısının alınmasına, iqtisadiyyatda struktur dəyişikliklərinin stimullaşdırılmasına səbəb olursa, digər tərəfdən rentabelli olmayan müəssisələrin bağlanmasına və deməli, işsizliyin artmasına gətirib çıxarır.

Əmək bazarında fəal siyasət yeridilməsi də məhz bunlarla əlaqədardır. Bu siyasət, əslində rəqabət qabiliyyəti aşağı olan işçilərin müdafiəsinə yönəldilmişdir. Belə işçiləri müəssisədə saxlamaq üçün isə subsidiyalar verilməklə sahibkarlar stimullaşdırılır.

Dövlət proqramı ilə maliyyələşdirilən üstün inkişaf etdirilən sahələrin müdafiə olunması siyasəti o deməkdir ki, iqtisadiyyatın, göstəriciləri aşağı olan bölməsində məşğulluğun təmin edilməsi dövlət tərəfindən müdafiə olunur.

Hər hansı bir əmək bazarı modelinin formalaşması şəraiti göstərir ki, onun məşğulluq səviyyəsinin yüksəlməsi sahəsində əldə etdiyi nailiyyət burada milli ənənələrin, siyasi şəraitin və ictimai

əhval-ruhiyyənin nə dərəcədə nəzərə alınıb-alınmamasından asılıdır. Məsələn, İsveçin məşğulluq modelindən istifadə olunması və onun fəaliyyət göstərməsi imkanları əmək haqqının artırılmasına kəskin məhdudiyyət qoyulması və fiskal siyasətin məhdudlaşdırılması ilə yanaşı, həm də ölkədəki sosial-demokrat partiyasının etimadından və həmkarlar ittifaqı ilə əməkdaşlıq siyasətindən asılıdır.

Yaponiyada isə əmək münasibətləri bütövlükdə götürüldükdə zəhmətkeşlərin milli xarakteri əsasında qurulmuşdur. Lakin burada «ömürlük muzd» sisteminin tətbiqi tərəqqinin inkişafına güclü təsir göstərə bilən perspektivli gənclərin maraqları ilə ziddiyyət təşkil edir. Bu sistem Yaponiya sahibkarlarını ona qarşı elə əks tədbirlər görməyə məcbur edir ki, onların həyata keçirilməsi «ömürlük muzd» sisteminin fəaliyyət dairəsini daralda bilsin. Məlum olduğu kimi, 1950-1987-ci illərdə Avropanın əksər ölkələrində iş vaxtının müddəti 25-30%, o cümlədən Almaniyada 30%, İsveçdə 29%, Danimarkada 28%, Norveçdə 25%, Niderlandda 24% ixtisar edilmişdir. Bu göstəricinin nisbətən aşağı olduğu ölkələrə isə İtaliya (18%), Fransa (17%) və Böyük Britaniya (14%) aiddir.

**Bütün bunlar çevik əmək bazarının meydana gəlib, fəaliyyət göstərməsini zəruri etmişdir.** Bu bazar özündə yeni bazar münasibətlərini əks etdirən əmək bazarı formasıdır. Onu ənənəvi əmək bazarından fərqləndirən əsas cəhət istehsal dairəsində məşğulluğun xüsusi çəkisinin azalması, xidmət dairəsində isə əksinə, artmasına gətirib çıxaran və sənayecə inkişaf etmiş ölkələrdə iqtisadiyyatın strukturunun yenidən qurulmasına uyğunlaşdırılan əmək bazarı kimi səciyyələndirilməsidir. Bu, elmi-texniki tərəqqi, texnoloji inqilab, istehsalın və əməyin elmi təşkilindəki nailiyyətlər əsasında sənayedə, tikintidə və kənd təsərrüfatında əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artması nəticəsində mümkün olmuşdur. Çevik əmək bazarı üzərlərinə ailə vəzifələri düşən qadınlar, yaşlı zəhmətkeşlər, əlillər, gənclər və s. kateqoriyalardan olan işçilərin əmək potensialının reallaşması üçün geniş imkanlar açır.

**İnzibati ərazi asılılığına** və məkan ölçüsünə görə əmək bazarı, milli, yerli və beynəlxalq əmək bazarlarına bölünür. Milli əmək bazarı bütövlukdə ölkə ərazisini əhatə edir və onun sərhədləri çərçivəsində fəaliyyət gösətrir.

Yerli əmək bazarı ayrı-ayrı regionların, şəhər və kəndlərin ərazisində fəaliyyət göstərir.

Beynəlxalq əmək bazarı isə müxtəlif ölkə və qitələri əhatə edir. Müəyyən çətinliklərin olmasına baxmayaraq hazırda Azərbaycan Respublikası Beynəlxalq Əmək bazarına qoşulmuşdur.

**Natamam** (buna fraqment də deyilir) əmək bazarı hələ keçmiş SSRİ-də mövcud olmuş və Azərbaycandan da yan keçməmişdir. Məlum olduğu kimi, Sovet İttifaqı dönəmində investisiya əmtəələri (istehsal vasitələri) üzərində ictimai mülkiyyət olduğuna görə iş qüvvəsi əmtəə hesab edilmirdi. Müəssisə və təşkilatlar iş qüvvəsi ilə planlı qaydada, dövlət orqanları tərəfindən təmin olunurdu. Bununla yanaşı, müəssisələr özləri də işə işçilər qəbul edirdilər. Lakin bu əmək bazarı məhdud xarakter daşıyır və ayrı-ayrı müəssisələrdə işçilərə verilən əmək haqqının məbləği ciddi surətdə Mərkəzi orqanlar tərəfindən müəyyənləşdirilirdi.

**Tənzimlənən əmək bazarı** bilavasitə həm dövlət tərəfindən, həm də sahibkarlarla əməkçilər tərəfindən müxtəlif səviyyələrdə, onların arasındakı razılaşmalar əsasında müəyyənləşdirilmiş çoxsaylı qanunvericilik və normativ aktların mövcudluğu ilə səciyyələnir. Bu əmək bazarının subyektləri işverənlərin nümayəndələri, muzdlu işçilər və dövlət, əməkçilərin sosial müdafiəsini yüksək səviyyədə təşkil etmək və sahibkarların hüquqlarını qorumaq prinsipi ilə fəaliyyət göstərirlər.

Qara (tənzimlənməyən) əmək bazarı qara bazar iqtisadiyyatının nəticəsi kimi meydana gəlmişdir. Beynəlxalq normalara görə qara bazara gəlirdən vergi ödənilməyən bütün fəaliyyət növləri aid edilir. Qara əmək bazarı qanunvericilik və normativ aktlarla tənzimlənmir. Lakin bu bazara işçilərin cəlb edilməsi yüksək əmək haqqı ödənilməklə həyata keçirilir.

**Əmək bazarı, idarəetmə səviyyəsinə görə iki yerə bölünür:** 1) liberal əmək bazarı; 2) sosial yönümlü əmək bazarı. Liberal əmək bazarı dövlətin ona az təsir göstərməsi ilə səciyyələnir.

Müəssisələrdə muzd və iş qüvvəsinə təklif məsələsi əsas etibarilə işverənlər tərəfindən müəyyənləşdirilir. Dövlət, sosial əmək problemlərinin əksəriyyətinin həllinə müdaxilə etmir. Bu əmək bazarında münasibətlər işverənlərlə işçilər arasında razılaşma əsasında formalaşır və daha çox ABŞ-ın əmək bazarına uyğun gəlir.

Sosial yönümlü əmək bazarı isə işçilərin dövlət tərəfindən sosial müdafiəsinin geniş miqyaslı səciyyə daşıması ilə fərqlənir. Məşğulluq, əməyin ödənilməsi və s. məsələlər dövlətin iştirakı ilə danışıqlar əsasında həll edilir. Belə əmək bazarı Qərbi Avropanın bütün ölkələrində fəaliyyət göstərir, lakin İsveç üçün daha səciyyəvidir.

**Azərbaycanda bazar münasibətlərinin formalaşması əmək bazarının yaranmasını zəruri etmişdir.** Ölkəmizdə əmək bazarının formalaşmasının maddi əsasını aşağıdakılar təşkil edir: 1) mülkiyyətin çox böyük hissəsinin dövlətin tabeliyindən çıxarılması və özəlləşdirilməsi; 2) mülkiyyətin çoxnövlü və onların bərabərhüquqlu olması; 3) iqtisadiyyatda inhisarçılığın aradan qaldırılması, istehsalçılar arasında sağlam, azad iqtisadi rəqabətin inkişaf etdirilməsi; 4) əmək ehtiyatları və iş qüvvəsi üzərində dövlət inhisarının aradan qaldırılması, onlara özlərinin bacarıq və qabiliyyətlərindən sərbəst surətdə istifadə etmələrinə imkan verilməsi; 5) muzdlu işçilərin öz əməklərini azad və sərbəst surətdə tətbiq etmək üçün imkan yaradılması.

Beləliklə, əmək bazarı olmadan bazar iqtisadiyyatı olmadığı kimi, mülkiyyət münasibətlərində və cəmiyyət həyatının digər sahələrində müəyyən dəyişikliklər aparılmadan əmək bazarını formalaşdırmaq mümkün deyildir.

**Əmək bazarı ictimai əhəmiyyət kəsb edən aşağıdakı keyfiyyətlərə malikdir. Əmək bazarı:**

1)Yüksək texnologiyaya malik olan və istehsalın tələbatına cavab verən iş qüvvəsinin təkrar istehsalında çox mühüm rol oynayır;

2) Əmək ehtiyatlarının bölüşdürülməsi və yenidən bölüşdürülməsini təmin etməklə, onlardan səmərəli istifadə olunması üçün lazımi şərait yaradır;

3) İnzibati-amirlik sistemindən qalmış qeyri-səmərəli məşğulluq quruluşu səmərəli və dinamik məşğulluq quruluşu ilə əvəz olunur;

4) İş qüvvəsinin sahədaxili, sahələrarası və regionlararası miqrasiyası istiqamətlərinin sürətlənməsinə imkan yaradaraq, onların səmərəli məşğulluğunu təmin edir ;

5) Əməyin haqqının ödənilməsində bazar amillərinin rolunun artmasına və beləliklə də əməyin iqtisadi mənasının, onun səmərəliliyinin yüksəlməsinə təkan verir;

6) Əhalinin formalaşmaqda olan bazar münasibətlərinə uyğunlaşmasına, onlarda bazar şəraitində işləmək bacarığının, şüurunun formalaşmasına köməklik göstərir.

Bütün bunlardan bir daha aydın olur ki, əmək bazarının formalaşması iqtisadi inkişafın bazar modelinə keçilməsi şəraitində ən mürəkkəb problemlərdən biridir.

## 14.3. Məşğulluq anlayışı, onun mahiyyəti, iqtisadi funksiyaları və prinsipləri

«**Məşğulluq**» sosial-iqtisadi kateqoriya olub, müxtəlif aspektlərdə nəzərdən keçirilir. İqtisadi ədəbiyyatda məşğulluq dedikdə, adətən, faydalı bir iş görmək – təhsil almaq, iqtisadiyyatın hər hansı bir sahəsində çalışmaq, uşaqlara və yaşlı adamlara xidmət göstərmək, orduda qulluq etmək və s. fəaliyyət növü nəzərdə tutulur.

Məlum olduğu kimi, insanların malik olduqları əmək qabiliyyəti və ya iş qüvvəsi yalnız əmək prosesində gerçəkləşir. Çünki hər bir konkret əmək prosesi maddi (investisiya əmtəələri) və şəxsi (iş qüvvəsi) amillərin birləşməsi nəticəsində baş verir.

**Məşğulluq iqtisadi kateqoriya olmaqla kəmiyyət və keyfiyyət müəyyənliyinə malikdir**. Məşğulluğun kəmiyyət tərəfi dedikdə, əmək qabiliyyətli əhali ilə mövcud iş yerləri arasındakı nisbət, keyfiyyət tərəfi dedikdə isə iş qüvvəsindən istifadənin səmərəliliyi nəzərdə tutulur. Odur ki, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə istehsalın tam həcmdə fəaliyyət

göstərməsinə və cəmiyyətdə tam məşğulluğun təmin olunmasına çalışırlar. Bununla əlaqədar olaraq tarixi inkişafın müxtəlif mərhələlərində məşğulluq probleminin tədqiqinə həmişə xüsusi maraq olmuş və bu sahədə bir sıra nəzəriyyələr formalaşmışdır. **Bunlardan biri «klassik» nəzəriyyədir.** Bu nəzəriyyəyə görə bazar iqtisadiyyatı üçün «tam məşğulluq» adi hal hesab edilir, ən yaxşı iqtisadi siyasət isə «dövlətin iqtisadiyyata müdaxilə etməməsidir». Bu nəzəriyyənin tərəfdarlarının fikrincə, bazar iqtisadiyyatı daxili resurslardan tam istifadə edilməsi üçün şərait yaradır, bir sıra səbəblər – quraqlıq, siyasi çəkişmələr, müharibələr, birjalarda vəziyyətin pisləşməsi və i.a. – üzündən qeyri-normal hal nəzərə çarpsa da, bu, çox da uzun müddət davam etmir.

Məşğulluq haqqında «klassik» nəzəriyyədə iki əsas istiqamət diqqəti daha çox cəlb edir: 1) tam məşğulluq şəraitində istehsal edilən məhsulların satın alınmasına çəkilən bütün xərclərin səviyyəsinin aşağı salınması mümkün deyildir; 2) bütün xərclərin səviyyəsi kifayət dərəcədə olmadıqda tənzimlənən qiymət, əmək haqqı və faiz dərəcəsi kimi vacib ünsürlərin qısa bir zamanda işə salınması nəticəsində bütün xərclərin səviyyəsinin azaldılması heç də istehsalın faktiki həcminin, məşğulluğun və real gəlirlərin aşağı düşməsinə səbəb olmur.

**Məşğulluğa dair «neoklassik» nəzəriyyə də özünəməxsus xüsusi yer tutur.** Bu nəzəriyyənin tanınmış nümayəndələri A.Marşall, A.Piqu və başqalarıdır. Bu sahədə «neoklassik» nəzəriyyənin ən mühüm müddəaları A.Piqunun 1923-cü ildə nəşr olunmuş «İşsizlik nəzəriyyəsi» adlı məşhur əsərində irəli sürülmüşdür.

A.Piqunun fikrincə, əmək bazarında qeyri-təkmil rəqabət hökm sürür və bu, əməyin qiymətinin yüksəlməsinə gətirib çıxarır. Odur ki, buraxılan məhsulun dəyərinin artmasını təmin edən yüksək ixtisaslı işçilərə yüksək əmək haqqı vermək sahibkarlar üçün daha əlverişlidir. Çünki onların əmək məhsuldarlığının yüksək olması nəticəsində işçi heyətinin sayını xeyli azaltmaq[1]

[1] Belə bir fikir mövcuddur ki, yüksək məhsuldarlıqlı bir adamı işə qəbul edib, ona yüksək əmək haqqı vermək, aşağı əmək haqqı ilə 5-6 nəfər işçi qəbul etməkdən yaxşıdır.

mümkündür.

Ümumiyyətlə, neoklassik nəzəriyyənin tərəfdarları məşğulluğun iki amildən asılı olduğunu əsaslandırırlar. Bunlardan biri əmək məhsuldarlığının son həddi (bu, əməyə olan tələbi müəyyən edir), digəri isə işçilərin real əmək haqqı ilə qiymətləndirdikləri əməyin «ağırlıq» dərəcəsindən (bu, əmək üzrə təklifi müəyyən edir) asılılığıdır.

XIX əsrin ikinci yarısında K.Marks özünün «Kapital» əsərində kapitalizm cəmiyyətində işsizliyi ətraflı tədqiq etmiş və belə bir nəticəyə gəlmişdir ki, texniki tərəqqi ilə əlaqədar olaraq hər işçiyə düşən istehsal vasitələrinin kütləsi və dəyəri artır. Odur ki, əməyə olan tələb kapital yığımının artım sürətindən geridə qalır və bu da işsizliyin yaranmasına səbəb olur.

**Məşğulluq haqqında nəzəriyyələrdən biri də** «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» kitabının müəllifi C.M.Keynsin nəzəriyyəsidir. O, bu əsərində klassik nəzəriyyənin əsaslarını «dağıtmış» və makroiqtisadi məsələlər üzrə iqtisad elmi tarixində çevriliş edərək müasir məşğulluq nəzəriyyəsinin əsaslarını yaratmışdır.

C.M.Keyns özündən əvvəlki klassiklərin və neoklassiklərin məşğulluq haqqında nəzəriyyələrini rədd edərək kapitalist iqtisadiyyatında məşğulluq səviyyəsini özünəməxsus yeni tərzdə aydınlaşdırmışdır. Onun fikrincə, kapitalizmdə tam məşğulluğa təminat verən bir mexanizm yoxdur və iqtisadiyyat işsizlik yüksək səviyyədə və inflyasiya olduğu bir şəraitdə də tarazlaşdırıla bilər. Burada tam məşğulluq qanunauyğunluqdan çox, təsadüfi xarakter daşıyır. Kapitalizm özünü tənzimləməklə sonsuzluğa qədər çiçəklənən bir iqtisadi sistem deyildir. Bundan başqa, C.Keynsə görə, məşğulluq səviyyəsi əmək haqqının dəyişməsi ilə deyil, istehlaka və investisiyaya sərf olunan gözlənilən xərclərdən əmələ gələn səmərəli tələbin dinamikası ilə müəyyən edilir.

Bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi bütün sivilizasiyalı ölkələrdə dövlətin qarşısında duran ən mühüm vəzifələrdən hesab olunur.

İnkişaf etmiş ölkələrdə işçi qüvvəsinə bütün məşğul (hərbi qulluqçular da daxil olmaqla) və işsiz əhali daxil edilir. Buna iqtisadi ədəbiyyatda həm də «iqtisadi fəal əhali» deyilir. Bundan başqa statistikada «Mülki işçi qüvvəsi» (hərbi qulluqçular nəzərə alınmadan) kateqoriyası da hesablanır.

**Məşğul əhalinin tərkibinə konkret olaraq aşağıdakılar daxildir:** hər iki cinsdən olan, tam və natamam iş həftəsində muzdla işləyən, müstəqil surətdə yerinə yetirilən və gəlir gətirən sahələrdə məşğul olan, xəstəlik, xəstələrə qulluq edilməsi, hər il işçilərə və təhsil alanlara verilən məzuniyyət, bazar günlərində, habelə haqqı ödənilməməklə və ya müdiriyyətin təşəbbüsü ilə haqqı qismən ödənilməklə verilən məzuniyyət dövründə, tətil günlərində işləməyən şəxslər.

Məşğulluğun əsas iqtisadi funksiyası investisiya ehtiyatları ilə iş qüvvəsinin, başqa sözlə, istehsalın maddi və şəxsi amillərinin birləşməsindən, daha doğrusu cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək üçün ən zəruri maddi və mənəvi nemətlərin yaradılması məqsədilə işçilərin iqtisadi cəhətdən səmərəli iş yerləri ilə təmin edilməsindən ibarətdir. Fikrimizi bir qədər də sadələşdirsək məşğulluğun iqtisadi funksiyası şəxsi və ictimai tələbatın ödənilməsi üçün zəruri olan ilkin şərti hazırlamaqdır.

**Məşğulluq yalnız iqtisadi funksiya deyil, həm də sosial funksiya yerinə yetirir.** Məşğulluğun sosial funksiyası əhalinin hərtərəfli inkişafının təmin edilməsindən ibarətdir. İnsanın hərtərəfli inkişafı onun istehsalın və cəmiyyətin idarə olunmasında iştiraketmə imkanlarını artırır, bir sıra tədbirlərin görülməsində fəallığını yüksəldir.

Ölkəmizdə sağlam bazar münasibətlərinin formalaşdığı müasir dövrdə məşğulluq, iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin rifahının yüksəldilməsinin mühüm amillərindən biri, dövlətin sosial siyasətinin başlıca tərkib hissəsidir. «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanununda onun sosial-iqtisadi mahiyyəti belə müəyyən edilmişdir: «**Məşğulluq Azərbaycan Respublikası vətəndaşlarının,** Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və

bir qayda olaraq onlara qazanc (gəlir) gətirən hər hansı bir fəaliyyətdir». Qanunda məşğul əhali kateqoriyasına hansı şəxslərin aid edilməsi də özünün konkret və aydın ifadəsini tapmışdır. Qanunun «məşğul şəxslər» adlanan ikinci fəslində deyilir: «məşğul şəxslərə aşağıdakılar aiddir: muzdla işləyən, o cümlədən əmək müqaviləsi ilə tam və ya tam olmayan iş vaxtı ərzində haqq müqabilində iş görən, habelə haqqı ödənilən başqa işi (xidməti) olanlar; sahibkarlıq, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, mülkiyyətində torpaq payı olanlar; haqqı ödənilən vəzifəyə seçilən, təyin və ya təsdiq edilənlər; Azərbaycan Respublikasının silahlı qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edənlər; əmək qabiliyyətinin müvəqqəti itirilməsi, məzuniyyət, ixtisasartırma, tətil, istehsalatın dayanması və ya başqa səbəblər ilə əlaqədar iş yerlərində müvəqqəti olmayanlar; Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər; Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları».

Azərbaycan MEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Ş.M.Muradov göstərilən fəaliyyət növlərini aşağıdakı üç qrupa bölür: 1) iqtisadiyyatda haqqı ödənilən fəaliyyətlə məşğul olanlar; 2) Azərbaycan Respublikasının ordusunda xidmət edənlər; 3) istehsalatdan ayrılmadan təhsil alanlar[1].

**Birinci qrupa** daxil olanlar cəmiyyətin maddi və mənəvi sərvətini yaradanlardır. **İkinci qrupa** aid edilən şəxslər ölkəmizin təhlükəsizliyini təmin etmək üçün zəruri olan sahədə çalışanlardır. **Üçüncü qrupa** daxil olanlar isə təbii yolla əmək qabiliyyətli yaş mərhələsini ötmüş əhalinin yerini doldurmaq üçün ehtiyatda olan və hazırlanan nəsildir.

---

[1] Ş.M.Muradov. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, «Elm» nəşriyyatı. 2004, s.173.

**Məşğulluq problemi həm də müəyyən prinsiplərə əsaslanır.** «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanununda bu prinsiplər belə müəyyən edilmişdir:

1) Hər kəs özünün əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququna malikdir;

2) Uzunmüddətli milli mənafelər nəzərə alınmalı və təmin edilməlidir;

3) Regional, milli, etnik və sahə xüsusiyyətləri və iş yerlərinə olan tələbat nəzərə alınmalıdır;

4) Məşğulluğun həll edilməsinə kompleksli yanaşılmalıdır.

## 14.4. Əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi metodları

Bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi mexanizminə aşağıdakı metodlar daxildir:

1) **İqtisadi metodlar** – iş yerlərinin yaradılması və mövcud olanların saxlanması üçün sahibkarları stimullaşdırmaq məqsədilə güzəştli kreditləşdirmə, vergitutma və büdcə siyasəti yeridilməsi, peşəkar kadrların hazırlanmasının həyata keçirilməsi;

2) **Təşkilati metodlar** – məşğulluq və işədüzəltmə xidmətinin, informasiya və peşəyönümü, kadrların hazırlanması və yenidən hazırlanması sistemlərinin yaradılması;

3) **Qanunvericilikdə** nəzərdə tutulan inzibati metodlar – əmək müqavilələrinin bağlanması, iş gününün uzunluğu, işçilər iş vaxtından artıq işlədikləri hallarda əməyin haqqının ödənilməsi, saatlıq minimum əmək haqqının müəyyən edilməsi, məşğulluğun təmin olunması ilə əlaqədar sahibkarlar tərəfindən milli fondlara ödəmələrin tətbiqi, işədüzəltmə kvotalarının müəyyənləşdirilməsi qaydalarının nizama salınması və i.a.

Qanunvericilikdə nəzərdə tutulan tədbirlər cəmiyyətdə sosial təbəqələşmənin məhdudlaşdırılmasına yönəldilməlidir. Bu za-

man dövlət tərəfindən tənzimləmənin dolayı və birbaşa təsiretmə vasitələri arasında optimal nisbət yaradılmalıdır.

Dolayı təsiretmə vasitələri təsərrüfatçılıq şəraitinin dəyişdirilməsinə yönəldilmiş makroiqtisadi «alət»lərdən istifadə olunmasını nəzərdə tutur, geniş əhali təbəqəsini əhatə edir, əməyə olan tələbin tənzimlənməsinə təsir göstərir.

Birbaşa, bilavasitə təsiretmə tədbirləri isə əmək bazarı ilə əlaqədar dövlət proqoramları vasitəsilə həyata keçirilir.

**Dövlət siyasəti, həmçinin aşağıdakı kimi həyata keçirilə bilər:**

1) **Passiv məşğulluq siyasəti yeridilməsi.** Bu siyasət boş olan iş yerlərinin tutulmasına və işsizliyə görə müavinətin verilməsinə yönəldilir.

2) **Aktiv məşğulluq siyasəti yeridilməsi.** Bu siyasət kütləvi işsizliyin aradan qaldırılmasına yönəldilən investisiya, maliyyə, kredit, vergi siyasətinin köməyi ilə həyata keçirilir.

Məşğulluğun vəziyyətinə təsir göstərilməsinin ən mühüm yollarından biri də sərbəstləşmiş iş yerlərinə uyğun olaraq işçi qüvvəsinin yenidən hazırlanması miqyasının hərtərəfli inkişaf etdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq, həm də işçi qüvvəsinin peşə-ixtisas səviyyəsinin yüksəldilməsi, əmək və sahibkarlıq fəallığının stimullaşdırılması, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Əmək haqqının ödənilməsində yeniliklər edilməsi, əməyin stimullaşdırıcı funksiyasının təmin olunması da az əhəmiyyət kəsb etmir. Məşğulluğun tənzimlənməsinə gəldikdə isə bu proses müəyyən məbləğdə xərc tələb edir.

Qərbin inkişaf etmiş ölkələrində məşğulluğun təmin edilməsi proqramlarının həyata keçirilməsinə sərf olunan xərclər ÜDM-də xeyli xüsusi çəkiyə (2,0-5,5%) malikdir. Həm də kütləvi işsizliyin meydana gəlməsinin qarşısını almaq üçün qabaqlama tədbirlərinə yönəldilən dövlət siyasəti xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, məşğulluq proqramlarını işləyib hazırlayarkən aktiv və passiv tənzimləmə arasındakı nisbəti əsaslandırmaq, başqa sözlə, vəsaiti sadəcə olaraq ayırmaqla kifayətlənməmək, həm də pulun kimə və nə üçün verilməsini bilmək lazımdır.

Beynəlxalq təcrübə, xüsusilə də İsveçin təcrübəsi göstərir ki, aktiv məşğulluq siyasətinin yeridilməsi insanların kütləvi surətdə əmək bazarına çıxmalarının qarşısını almaqla, nəinki ən yaxşı sosial müdafiə vasitəsi funksiyasını yerinə yetirir, həm də passiv məşğulluq siyasətinə nisbətən müəyyən üstünlüklərə malik olduğunu nümayiş etdirir.

Əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi üçün konkret olaraq aşağıdakı **metodlardan** istifadə olunur: 1) **proqram-məqsədli metod; 2) normativ metod; 3) balans metodu.**

Direktiv xarakterli dövlət planı olmadığı şəraitdə proqram-məqsədli metodun funksiyaları dəyişir və o daha geniş yayılmağa başlayır. Dövlət siyasətinin reallaşdırılması mexanizmi olan məşğulluq proqramı müxtəlif səviyyələrdə işlənib hazırlanır və həyata keçirilir. Burada məşğulluq və əmək bazarına dair regional proqramların, habelə müxtəlif demoqrafik qruplar (gənclər, qadınlar və i.a.) üzrə proqramların işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir.

Normativ metoddan xidmət sahələrində işçi qüvvəsinə olan tələbi əsaslandırmaq üçün istifadə edilir. Bazar iqtisadiyyatı şəraitində sosial normativlərin əsaslandırılması xüsusilə vacibdir. Bu normativlərə işsizliyin yol verilən səviyyəsi, əhalinin sosial müdafiəsini təmin edən minimum sosial normativlər, həyat səviyyəsi və sosial inkişafın minimum standartları aiddir.

Məşğulluqla əlaqədar olaraq balans metodundan da geniş istifadə olunur. Məsələn, ümumi əmək ehtiyatları balansı əmək ehtiyatları ilə onların bölüşdürülməsi arasındakı ən ümumi proporsiyaları səciyyələndirir.

Ümumi əmək ehtiyatları balansını tamamlayan, həm də tarazlığın başqa aspektlərini əks etdirməyə imkan verən iş yerləri balansıdır. Onun əsas məqsədi təsərrüfatların ərazi səviyyəsində təşkili zamanı bütün mülkiyyət formalarına mənsub olan müəssisələrin investisiya proqramlarını regionların əmək ehtiyatları ilə uzlaşdırmaqdan ibarətdir. O, iş yerləri ilə işləyənlər, iş yerlərinin komplektləşdirilməsi üçün tələb olunan işçilərin sayı ilə normativ növbəlik əmsalı arasındakı tarazlığı göstərir. Onun

əsasında və iş yerinin dəyəri göstəricisindən istifadə etməklə kapital qoyuluşunun həcmini və onun təkrar istehsal strukturunu (yeni iş yerlərinin yaradılması və onların texniki cəhətdən təkmilləşdirilməsi və i.a.) proqnozlaşdırmaq olar. Kapital qoyuluşu olmadan əmək məhsuldarlığı ilə fondla silahlanma arasında zəruri nisbəti təmin etmək mümkün deyildir. Odur ki, əmək məhsuldarlığı artımının proqnozlaşdırılan sürətinə nail olunması üçün kapital qoyuluşunun mümkün olan artımının obyektiv surətdə ölçülməsi çox vacibdir. İş yerləri balansı region səviyyəsində məşğul əhalinin sayı və strukturunun proqnozlaşdırılması və onun tələb olunan investisiyalarla əlaqələndirilməsinin əsas alətinə çevrilməlidir.

**Hazırda ölkəmizdə** əmək bazarının tənzimlənməsi sahəsində dünya təcrübəsində özünü doğrultmuş metodlardan istifadə olunur. Şübhəsiz ki, dünyada mövcud olan əmək bazarının tənzimlənməsi modellərinin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də vardır. Odur ki, həmin təcrübənin müsbət cəhətlərindən yararlanmaq, zaman keçdikcə baş verən yeniliklərdən istifadə etməklə tam məşğulluğun təmin olunması və işsizliyin azaldılması sahəsində məqsədyönlü işlər görmək, tədbirlər həyata keçirməklə ölkəmizin iqtisadi potensialının artırılması və xalqımızın həyat səviyyəsinin yüksəldilməsində çox böyük nailiyyətlər qazanılması mümkündür.

## 14.5. Məşğulluğun və əmək bazarının tənzimlənməsinin əsas istiqamətləri

Bazar iqtisadiyyatında olan ölkələrdə əmək bazarını kortəbii qüvvələrin ixtiyarına buraxmırlar. Başqa sözlə, bazar mexanizmi ilə yanaşı, dövlət tənzimləmə mexanizmi də fəaliyyət göstərir. Bu prosesdə mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə çox böyük əhəmiyyətə malikdir. Lakin məşğulluq siyasətinin ümumi konsepsiyasının işlənib hazırlanması da obyektiv zərurətdir.

Bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi xarici ölkələrin çoxillik təcrübəsi göstərir ki, özünütənzimləmə mexa-

nizmi əmək bazarı və insanın inkişafı problemlərini təkbaşına həll etmək iqtidarında deyildir. **Odur ki, insan resurslarının inkişaf strategiyasının işlənib hazırlanmasına dövlətin müdaxiləsi zəruridir.**

Məşğulluğun və əmək bazarının dövlət tərəfindən tənzimlənməsinin çoxsaylı problemləri içərisində onun aşağıdakı istiqamətlərini göstərmək olar: 1) iş yerləri sisteminin inkşiaf etdirilməsinin tənzimlənməsi; 2) iş yerlərinə olan tələbin tənzimlənməsi; 3) təhsil, peşə hazırlığı və kadrların yenidən hazırlanması sahəsində dövlət siyasəti.

Məşğulluğun dövlət tərəfindən tənzimlənməsi nəinki dövlətlər, həm də hər bir ölkədə müxtəlif dövrlər üzrə fərqlənir. Ümumdövlət, regional və bələdiyyələr səviyyəsində dövlətin əmək bazarına təsiretmə tədbirləri sabit formalaşan bazar iqtisadiyyatı şəraitində, inkişaf etmiş bazar iqtisadiyyatında fövqəladə hallarda, keçid dövründə isə qarışıq iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə, bir-birindən fərqlənir.

Lakin bunlara baxmayaraq əmək bazarının dövlət tərəfindən tənzimlənməsinin bütün ölkələr üçün ümumi olan cəhətləri də vardır.

**Azərbaycan Respublikasında əmək bazarının aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar:**

1) İqtisadi fəal əhalinin sayının artması müşahidə olunur;

2) Sahələr üzrə məşğulluğun strukturunda kəskin dəyişikliklər baş vermişdir;

3) İqtisadiyyatın bölmələri üzrə məşğul əhalinin bölüşdürülməsində dəyişikliklər olmuşdur. Başqa sözlə, məşğul əhalinin strukturunda dövlət bölməsinin xüsusi çəkisi azalır, xüsusi bölməninki isə artır;

4) Məşğul əhali əsas etibarilə iri və orta müəssisələrdə cəmlənmişdir;

5) Əmək bazarının gizli işsizlik və gizli məşğulluqdan ibarət olan hissəsi demək olar ki, geniş miqyas almışdır. Qeyri-formal bölmə əslində əmək bazarının müstəqil seqmentinə çevrilmiş və məşğulluğa böyük təsir gücünə malikdir;

6) Regionlar üzrə məşğulluq və əmək bazarı göstəricilərində kəskin fərqlər vardır.

Bütün ölkələrdə dövlətin məşğulluq siyasətində işçi qüvvəsinə olan tələbin formalaşmasının əsas yollarından biri dövlət və xüsusi investisiya qoyuluşu əsasında iş yerləri sisteminin inkişaf etdirilməsidir. Bazar münasibətlərinin inkişaf etmiş olduğu ölkələrdə yeni iş yerlərinin yaradılmasına satış bazarlarının məhdudluğu mane ola bilər. Bizim istehlak bazarında isə ciddi məhdudiyyətlər yoxdur. Çünki ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf edir və dövlət tərəfindən yeridilən məşğulluq siyasətinin mərkəzində yeni iş yerlərinin yaradılması durur. Bu isə onunla əlaqədardır ki, ölkəmizin iqtisadiyyatına investisiya axını davam edir və kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün əlverişli mühit yaradılmışdır. Bundan başqa, həm də ölkəmiz böyük investisiya imkanlarına malikdir.

Dövlət, investisiya qoyuluşu sferasında yalnız bazar münasibətlərinin formalaşdığı dövrdə deyil, həm də bundan sonra da əsas rol oynamalıdır. Bazar iqtisadiyyatında olan ölkələrdə iqtisadiyyatın milli və ekoloji təhlükəsizliyini təmin edən prioritet sahələrinin tez bir zamanda ödənilməsi mümkün və xüsusi kapital üçün heç də həmişə cəlbedici olmayan, lakin gələcəkdə çox böyük sosial-iqtisadi fayda gətirə bilən uzunmüddətli layihələrin həyata keçirilməsinə investisiya məhz dövlət tərəfindən qoyulur.

İnvestisiya siyasətinin fəallaşdırılması və əlverişli investisiya mühitinin yaradılması yalnız iş yerlərinin sayına deyil, həm də onun strukturuna təsir edir. Kapital qoyuluşunun sahələr, ərazilər, təkrar istehsal və texnoloji strukturu isə iqtisadiyyatın yenidən qurulması üçün seçilmiş yolun düzgün olub-olmamasından asılıdır.

Əhalinin işsizlik səviyyəsinin azaldılması və onların səmərəli məşğulluğunun təmin edilməsi Azərbaycan dövlətinin qarşısında duran ən ümdə məsələlərdən biridir. Bu sahədə **Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında»** və 11 fevral 2004-cü il tarixli «Regionların sosial-

iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» mühüm rol oynayacaqdır.

Məşğullluğun tənzimlənməsinin əsas istiqamətlərindən biri kimi iş yerlərinin tənzimlənməsi ilə əlaqədar **aşağıdakı ən ümumi nəticələri çıxarmaq olar:**

1) İnvestisiya fəallığının yüksəldilməsi əsas vəzifələrdən biridir. Çünki iqtisadiyyatın strukturunun yenidən qurulması və iş yerlərinin yeni strukturu əsasında kütləvi işsizliyin qarşısının alınması investisiya fəallığından asılıdır;

2) İnvestisiya proseslərinin və iş yerləri sisteminin tənzimləyicisi olan dövlətin bu sahədə rolu investisiya siyasəti prioritetlərinin seçilməsindən investorların hamısı üçün eyni şəraitin yaradılmasından, vergi güzəştləri vasitəsilə investisiya fəaliyyətinin stimullaşdırılmasından, müsabiqə əsasında güzəştli investisiya kreditlərinin verilməsindən, çevik amortizasiya, qiymət və gömrük siyasətinin yeridilməsindən ibarətdir;

3) Daxili maliyyələşdirmə mənbələri strukturunun dəyişdirilməsi üçün iqtisadi şəraitin yaradılması vəzifəsi aktuallığını saxlayır. Dövlət investisiya proqramlarının maliyyələşdirilməsində maliyyə-kredit müəssisələrinin investisiya bankları və fondlarının, pensiya fondunun, sığorta şirkətlərinin rolu artmaqdadır;

4) Əhalinin yığımının heç olmasa dörddəbir hissəsinin investisiya məqsədlərinə yönəldilməsi kapital qoyuluşunu ən azı 20% artırmağa imkan verə bilər;

5) Kapitalın iqtisadiyyatın real bölməsindən bank və ticarət vasitəçi biznes bölməsinə axınının qarşısını almaq lazımdır. Bu axın bank faizi ilə mənfəət norması arasındakı fərqin qalması, istehsal sahələri müəssisələrinin zərərlə işləməsi və dövlət qarşısında təahhüdlərini yerinə yetirə bilməmələri ilə əlaqədardır. Bazar iqtisadiyyatı formalaşarkən kapitalın yüksək mənfəətin əldə edildiyi xammal sahələrindən emaledici sahələrə axınını tənzimləmək, sənaye kapitalına nisbətən bank və ticarət kapitallarının möhtəkirliklə bağlı əsaslandırılmamış üstünlüklərini aradan qaldırmaq lazımdır.

Müasir dövrdə yeni iş yerlərinin yaradılması hesabına işçi qüvvəsinə olan tələbin formalaşması imkanlarının azalması

məşğulluğa dair dövlət siyasətinin digər istiqamətinin – əhalinin iş yerlərinə tələbinin tənzimlənməsini zəruri edir. Tələbin azalmasına özü-məşğulluğun inkişafı, ev şəraitində uşaqların tərbiyəsi ilə əlaqədar əhalinin tələbatının, həyat səviyyəsi yüksəldikcə gəlir mənbələrinin müxtəlifliyinin nəticəsi olaraq könüllü surətdə məşğul olmayanların sayının artması və s. daha çox təsir göstərəcəklər. Əhalinin iş yerlərinə olan tələbinin tənzimləyici rolunu oynayan çevik məşğulluğun da əhəmiyyəti artacaqdır.

**Çevik işçi qüvvəsi çevik əmək bazarının tərkib hissəsi olmaqla aşağıdakı ünsürlərdən ibarətdir:**

- əmək fəaliyyətinin təşkilati formalarının elastikliyini ifadə edən çevik məşğulluq;
- əməyin ödənilməsinin, onun strukturunun dəyişməsinin çevik sistemi;
- bir neçə ixtisasa yiyələnmiş və peşəkar bacarığa malik olan işçilərin bir-birini qarşılıqlı əvəz etmələri;
- sahə və ərazilər üzrə işçi qüvvəsinin sürətlə yerdəyişməsi.

Çevik məşğulluq işçilərə daha sərfəli əmək rejimi seçməyə, özünün asudə vaxtını artırmağa imkan verir. Məşğulluğun bu forması sahibkarlar üçün də sərfəlidir. Başqa sözlə, onlar istehsalın tələbatından asılı olaraq işçilərin sayı və keyfiyyəti ilə əlaqədar hiyləgərlik etmək imkanı əldə edirlər.

Çevik məşğulluqdan xidmət sahələrində, kiçik biznesdə istifadə etmək üçün geniş imkanlar vardır. Çünki bu sahələrdə konyukturanın dəyişməsinə tez reaksiya verilir. Gənclər, qadınlar, pensiyaçılar üçün çevik məşğulluq xüsusilə böyük əhəmiyyətə malikdir.

Elmi-texniki tərəqqinin ən yeni nailiyyətləri demək olar ki, hər yerdə - müştərinin evində, başqa regionlarda və i.a. iş yerlərini təşkil etməyə imkan verir. Müasir rabitə sistemi (elektron poçt, faks, teleks və s.) firmaların EHM-ə və müxtəlif məlumat banklarına tez bir zamanda qoşulmaları üçün əlverişli şərait yaradır. Bu texnoloji imkanlar «**evdə iş**»in, səyyar məşğulluğun formalaşmasına səbəb olmuşdur. Bu isə tikiş, ayaqqabı, toxuculuq və digər sahələrdə «evdə iş»in, yəni kustarçılığın ənənəvi, heç bir ixtisas tələb olunmayan növlərinin genişlənməsi ilə nəticə-

lənmişdir. Keçən əsrin 70-ci illərində «evdə iş»in sənayenin aparıcı sahələrinə, idarətməyə, xüsusilə də xidmət sahələrinə – bank, təhsil və s. - nüfuz etməsi sürətlənmişdir.

«**Evdə iş**»in həm müsbət, həm də mənfi cəhətləri vardır. Onun müsbət cəhəti özünü onda göstərir ki, keçən əsrin 80-ci illərinin axırları və 90-cı illərinin əvvəllərində orada çalışanların əmək məhsuldarlığı orta hesabla 15-20% yüksəlmişdir. Mənfi cəhəti isə ondan ibarətdir ki, «evdə iş» insanları bir-birindən ayırır, onların üzərinə düşən yük iş gününün sərhədlərini aşır.

Dövlət, uşaqların ev şəraitində tərbiyə olunması üçün imkan yaratmaq, özüməşğulluğu stimullaşdırmaq və kiçik biznesi inkişaf etdirməklə iş yerlərinə olan tələbi tənzimləyir. İşçi qüvvəsinin əsas hissəsini isə - təqribən 90%-ni muzdlu işçilər təşkil edir.

Bazar iqtisadiyyatı şəraitində dövlət siyasətinin əsas istiqamətlərindən biri də insan kapitalına – təhsilə investisiya qoyulmasıdır. Bütün dünyada insan kapitalına investisiya qoyuluşu ən sərfəli investisiya hesab olunur. İnkişaf etmiş ölkələrdə kadrların hazırlanması və yenidən hazırlanması üzrə dövlət proqramları mövcuddur. Bu ölkələrdə iri firmaların özlərinin kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması ilə əlaqədar xüsusi sistemləri vardır. Məsələn, ABŞ korporasiyaları özlərinin işçi heyətinin təhsili və peşə hazırlığına hər il ən azı 60 mlrd. dollar xərc çəkir. ABŞ-da təhsilin inkişaf etdirilməsi üçün ayrılan xərc ÜDM-nin 6%-ni təşkil edir. Sənayenin yüksək texnologiyalara malik olan sahələrində hər il rəhbər işçilərin, mütəxəssislərin və işçilərin 75-85%-i yenidən hazırlıq keçirlər. Təhsil alan yaşlı adamların sayı əyani şöbədə oxuyan tələbələrin sayından 4 dəfə çoxdur. Korporasiyalar işçiləri əmək fəaliyyəti ərzində təhsilin bir neçə pilləsindən keçirməklə əslində fasiləsiz təhsil verən instituta çevrilmişdir.

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, **qarışıq iqtisadiyyat şəraitində** hər cür iş qüvvəsi deyil, yüksək keyfiyyət xarakteristikasına malik olan iş qüvvəsi əmtəə hesab edilir. Yüksək keyfiyyətli işçi qüvvəsindən istifadə olunmasında sahibkarların mənafeyi müəyyən məbləğdə xərclə məhdudlaşır və onlar bunu imkan daxilində azaltmağa çalışırlar.

İşçilərin mənafeləri isə özlərinin xüsusi iş qüvvəsinin dəyərinin artırılması ilə əlaqədardır ki, bu da təkcə işçi üçün deyil, həm də sahibkar üçün müəyyən məbləğdə xərc deməkdir. Dövlət, bu ziddiyyəti həll etmək üçün qanunvericilik qaydasında peşə təlimi, yenidən hazırlama (inkişaf etmiş ölkələrdə tətbiq olunan vergilərlə tənzimləmə, güzəştli kredit faizləri və s. daxil olmaqla) və s. həyata keçirməlidir. Peşə hazırlığı və yenidən hazırlama isə ikili xarakter daşıyır. O, bir tərəfdən, işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, digər tərəfdən isə işçi qüvvəsinin çevikliyinin yüksəldilməsi vasitəsi kimi nəzərdən keçirilir.

Bazar iqtisadiyyatı, elmi-texniki tərəqqinin nailiyyətləri mütəxəssislərin bilik və qabiliyyətlərinə verilən tələbləri mürəkkəbləşdirir, istehsalda onların rolu və funksiyalarını dəyişdirir, ali məktəblərlə müəssisələr arasında müqavilə münasibətlərini daha da inkişaf etdirir.

Bu deyilənlər belə bir fikir söyləməyə imkan verir ki, ölkəmizdə bazar iqtisadiyyatının formalaşdığı müasir dövrdə onun tələblərinə cavab verən mütəxəssislərin hazırlanması Azərbaycan dövlətinin diqqət mərkəzində olmalıdır.

## NƏTİCƏ

- əmək bazarında işləmək istəyən şəxslərlə müxtəlif növ əmtəə və xidmətlərin istehsalında istifadə etmək üçün muzdla işçi tutmaq istəyən şəxslər qarşı-qarşıya dururlar;
- əmək bazarı və onun mahiyyəti haqqında neoklassiklər, keynsçilər, monetaristlər və marksistlər arasında fikir müxtəliflikləri vardır;
- tədqiqatçıların fikrincə müasir əmək bazarı ikili xarakterdədir. Başqa sözlə, bir-biri ilə rəqabət aparmayan ən azı iki işçi qüvvəsi bazarı, yaxud da işçi qüvvəsi bazarının iki seqmenti fəaliyyət göstərir;
- daxili və ya qapalı bazar tipi ilə xarici və ya peşə bazar tipini fərqləndirmək lazımdır. Daxili əmək bazarında müxtəlif ixtisas və peşələr üzrə işçilər hazırlanarkən onların eyni firmada çalışa-

caqları nəzərdə tutulur. Xarici əmək bazarı isə heç bir ixtisası olmayan, yaxud da aşağı ixtisaslı işçilərin olması ilə əlaqədardır;

- bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə diqqəti cəlb edən və ən geniş yayılmış əmək bazarı modelləri Yaponiya, ABŞ və İsveç modelləridir;
- milli, yerli və beynəlxalq, natamam, tənzimlənən və tənzimlənməyən, liberal və sosial yönümlü, gənclərin, yaşlı zəhmətkeşlərin, qadınların, əlillərin və yaşlı əhalinin, peşə fərqlərinə görə mühəndislərin, müəllimlərin, həkimlərin, iqtsadçıların, hüquqşünasların, menecerlərin və s. əmək bazarları bir-birindən fərqlənir;
- Azərbaycanda bazar münasibətlərinin formalaşması əmək bazarının yaranmasını zəruri etmişdir. Lakin onun özünə məxsus bir sıra xüsusiyyətləri vardır. Bu, cəmiyyət həyatının bütün sahələrində bazar münasibətlərinə uyğun dəyişikliklərin aparılması ilə əlaqədardır;
- «Məşğulluq» sosial-iqtisadi kateqoriya olub, müxtəlif aspektlərdə nəzərdən keçirilir, kəmiyyət və keyfiyyət müəyyənliyinə malikdir;
- məşğulluq haqqında klassik, neoklassik, marksist, Keyns nəzəriyyələri vardır. Məşğul əhalinin tərkibi mürəkkəb olmaqla, onun əsas iqtisadi funksiyası investisiya ehtiyatları ilə iş qüvvəsini, başqa sözlə, istehsalın maddi və şəxsi amillərini birləşdirməkdən ibarətdir;
- məşğulluq yalnız iqtisadi funksiya deyil, həm də sosial funksiya yerinə yetirir. Məşğulluq iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin rifahının yüksəldilməsinin mühüm amillərindən biri, dövlətin sosial siyasətinin başlıca tərkib hissəsidir. Məşğulluğun sosial-iqtisadi mahiyyəti «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanununda müəyyən edilmişdir;
- əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi mexanizminə iqtisadi, təşkilati, qanunvericilkdə nəzərdə tutulan inzibati metodlar daxildir.
- əhalinin məşğulluğu və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi üçün aşağıdakı metodlardan istifadə olunur: 1) proqram-məqsədli metod; 2) normativ metod; 3) balans metodu;

- məşğulluğun və əmək bazarının tənzimlənməsinin aşağıdakı istiqamətləri vardır: 1) iş yerləri sisteminin inkişaf etdirilməsinin tənzimlənməsi; 2) iş yerlərinə olan tələbin tənzimlənməsi; 3) təhsil, peşə hazırlığı və kadrların yenidən hazırlanması sahəsində dövlət siyasəti;

- ölkəmizdə bazar iqtisadiyyatının formalaşdığı müasir dövrdə onun tələblərinə cavab verən mütəxəssislərin hazırlanması Azərbaycan dövlətinin diqqət mərkəzindədir və bundan sonra da diqqət mərkəzində olacaqdır.

# XV FƏSİL

# ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

## 15.1. Əhalinin həyat səviyyəsini ifadə edən göstəricilər

İqtisadiyyat elmində «həyat tərzi» və «həyat səviyyəsi» anlayışları bir-birindən fərqləndirilir.

Həyat tərzi cəmiyyətdə ayrı-ayrı adamların, sosial qrupların, ailə, millət, xalq, sinif və təbəqələrin həyat fəaliyyəti formasıdır. Bu və ya digər sosial qrupun həyat tərzinin formalaşması və dəyişməsinin obyektiv əsasını onun iqtisadi vəziyyəti təşkil edir. **İqtisadi vəziyyət dedikdə**, özündə əməyin sosial və iqtisadi şəraitini, həyat səviyyəsini, iaşə şəbəkəsini, təhsil və səhiyyənin inkişafını və s. əks etdirən obyektiv şərtlərin toplusu nəzərdə tutulur. Həyat tərzi üçün müəyyənedicilik insanların əmək fəaliyyətlərində iştirakının xarakteri ilə bağlıdır. İqtisadi vəziyyətin həlledici ünsürü olan əmək fəaliyyətində iştiraketmə bütün həyat tərzinin, davranış və ünsiyyət qaydalarının, ideyaların, səylərin səfərbərliyə alınmasının formalaşmasına fəal təsir göstərir.

Ölkəmizdə uzun müddət hakim olan inzibati-amirlik dövründə elə bir həyat tərzi formalaşmışdı ki, bu, əslində xalqı hakimiyyətdən, ictimai işlərdən, istehsalın idarə olunmasından, məişətin, istirahətin təşkilində iştirak etməkdən uzaqlaşdırmışdı. Avtoritar bürokrat sistemdən üz döndərilməsi və demokratiyanın inkişaf etdirilməsi, cəmiyyətin mənəvi həyatının sağlamlaşdırılmasına doğru istiqamət götürülməsi insanların həyat fəaliyyətlərinin hüdudlarını genişləndirir və onu keyfiyyətcə zənginləşdirir. Hazırda siyasi azadlıq, ictimai münasibətlərin humanistləşdirilməsi, əsl xalq hakimiyyətinin qərarlaşması, şəxsiyyətin mənəviyyatca sağlamlaşdırılması və hərtərəfli inkişaf etdirilməsi

- bütün bunlar həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilmişlər.

**İqtisadiyyat elmində həyat tərzi göstəricisi** ilə yanaşı, insanların həyat səviyyəsini ifadə edən göstəricilərdən də istifadə olunur.

Həyat səviyyəsi çox mürəkkəb sosial-iqtisadi kateqoriya olmaqla, iqtisadi inkişafın mövcud səviyyəsində insanların həyat fəaliyyətlərinin (əmək, məişət, istirahət və i.a.) sabit təmin olunan şəraitinin toplusudur. **Həyat səviyyəsi** istehlakın həcmi və quruluşunu, əməyin iqtisadi və sosial şəraitini, xidmət sahələrinin inkişaf dərəcəsini, işdənkənar və asudə vaxtın strukturunu, xüsusi mülkiyyətin əhatə dairəsini, mədəni, təbii və digər qiymətlilərdən istifadə üçün mövcud şəraiti, ekoloji təhlükəsizliyin səviyyəsini əks etdirir, əhalinin yemək şeyləri, paltar, ayaqqabı, mənzil və s. təminolunma dərəcəsini göstərir. Bu, həyat səviyyəsi kateqoriyasının geniş mənada məzmununu ifadə edir. Məhdud mənada həyat səviyyəsi dedikdə isə gəlirlərin həcmi, habelə iqtisadi nemət və xidmətlərin faktiki istehlakı nəzərdə tutulur. Həyat səviyyəsi kəmiyyətcə ayrı-ayrı məhsul növləri üzrə natural (məsələn, hər nəfərə düşən polad, prokat, elektrik enerjisi, avtomobil, kimyəvi lif, əsas qida məhsulları - taxıl, ət, süd, şəkər, kartof və s.), ümumi şəkildə isə dəyər formasında (məsələn, hər nəfərə düşən ümummilli məhsul, milli gəlir, milli sərvət və i.a.) ifadə olunur. Cəmiyyət üzrə orta həyat səviyyəsi göstəriciləri ilə yanaşı, ayrı-ayrı sosial qruplar üzrə də belə hesablamalar aparılır ki, bu da onlara müqayisəli xarakteristika verməyə imkan yaradır, həyat səviyyəsinin yüksəlməsi və ya aşağı düşməsi haqqında isə onun dinamikası və tələbata uyğun gəlib-gəlməməsinə dair məlumatlar əsasında mühakimə yürütmək olur. Həyat səviyyəsinin dinamikası əhalinin real gəlirləri, ərzaq və qeyri-ərzaq məhsullarının istehlakı, asudə vaxt, ümumi əmək məsrəflərində mexanikləşdirilmiş sahələrdə sərf olunan əməyin xüsusi çəkisi və b. göstəricilərin köməyi ilə müəyyən edilir.

**Ölkələrin iqtisadi inkişaf səviyyələrini təhlil edərkən ilk əvvəl hər nəfərə düşən ümummilli məhsul və milli gəlir göstəricilərindən istifadə olunur.** Başqa sözlə, beynəlxalq miqyasda ölkələri təsnif-

ləşdirərkən, yəni inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə bölərkən məhz bu göstəricilər əsas götürülür. Hər nəfərə düşən əsas qida məhsulları – taxıl, ət, süd, şəkər, kartof və s. istehsalı da bu göstəricilərə daxildir. Hər hansı bir ölkə üzrə hesablanmış göstəricilərin BMT-nin ərzaq və kənd təsərrüfatı[1] təşkilatı tərəfindən işlənib hazırlanmış qida məhsullarının istehlakı normaları ilə müqayisə edilməsi nəticəsində həmin ölkənin öz əhalisinin özündə istehsal olunan qida məhsulları ilə təmin edib edə bilməməsi və qida rasionu haqqında fikir söyləmək olur.

Müqayisə apararkən hər 1000 nəfərə, yaxud da bir orta statistik ailəyə görə ölkədə mövcud olan və ya istehsal edilən bir sıra uzunmüddətli istifadə əmtəələri – soyuducu, paltaryuyan maşın, televizor, yüngül minik maşınları, fərdi kompüter və s. göstəricilərdən də istifadə olunur.

**Ölkə əhalisinin həyat səviyyəsi** xeyli dərəcədə ümummilli məhsulun istifadə olunması ilə səciyyələnir. Bu zaman ÜMM-in istifadəolunma üzrə quruluşunu öyrənmək lazımdır. Xüsusi son istehlakın (şəxsi istehlak xərclərinin) quruluşunun təhlil edilməsi daha vacibdir. İstehlakın tərkibində uzunmüddətli istifadə üçün nəzərdə tutulan əmtəə və xidmətlərin yüksək xüsusi çəkiyə malik olması əhalinin həyat səviyyəsinin və deməli, **ölkənin ümumi inkişafının yüksək olduğunu göstərir.**

**Əhalinin həyat səviyyəsini təhlil edərkən istehlak səbəti və yaşayış minimumu göstəricilərindən də istifadə olunur.** Bunların mahiyyətini daha yaxşı dərk etmək üçün minimum istehlak büdcəsini nəzərdən keçirmək lazımdır. Doğrudur, bu məsələyə XIV fəsildə ötəri toxunulmuşdur. Lakin burada bəzi məsələlərin nəzərdən keçirilməsi və konkretləşdirilməsini lazım bilirik.

Məlum olduğu kimi, **istehlak büdcəsinin başlıca tərkib hissəsi istehlak səbətidir.** İstehlak səbəti və yaşayış minimumu insanın konkret funksional ehtiyaclarını ödəyən, elmi cəhətdən əsaslandırılmış, tarazlaşdırılmış istehlak malları və xidmətlər toplusundan ibarətdir. İstehlak səbətinə təxminən 400 adda (inkişaf etmiş ölkələrdə belədir) məhsul və xidmət növü daxil edilir və onun

[1] FAO-ingiliscə Food and Agrikulture Organization deməkdir.

strukturu aşağıdakı kimidir. O, bir nəfərin və ya ailənin ərzaq məhsullarına, alt və üst paltarlarına, ayaqqabıya, müxtəlif növ dərmanlara, sanitariya-gigiyena qaydalarına, mebelə, qabqacağa, təsərrüfat və mədəni məişət mallarına, tütün məmulatlarına, mənzil və kommunal xidmətlərinə, mədəni-maarif və təhsillə əlaqədar xərclərə, nəqliyyata, rabitəyə, müalicə və istirahətə, uşaqların məktəbəqədər tərbiyə müəssisələrində olmalarına, vergilərə və digər məcburi ödənişlərə çəkilən və s. əsas xərc maddələri ilə formalaşır.

**Həyat səviyyəsinə qiymət verərkən aşağıdakı göstəricilərdən istifadə edilir:** 1) əmək ehtiyatlarının vəziyyəti (orta ömür müddəti, əhalinin təhsil səviyyəsi və hər 1000 nəfərə düşən tələbə və şagirdlərin sayı, kalori ilə hər nəfərə görə əsas qida məhsulları istehlakı, ÜMM-də təhsilə ayrılan xərclərin xüsusi çəkisi - faizlə – və s. və i.a.); 2) xidmət sahələrinin inkişafı (əhalinin hər 10000 nəfərinə düşən həkimlərin, hər 1000 nəfərinə düşən xəstəxanalardakı çarpayıların sayı, əhalinin mənzillə, məişət cihazları ilə təmin olunması və s).

Son illərdə dünya təcrübəsində əhalinin həyat səviyyəsini müəyyən edərkən **ölkənin iqtisadi inkişaf göstəriciləri və ya indeksləri hesablanır.** Bunlar özündə bir sıra iqtisadi və sosial göstəriciləri, məsələn, əhalinin təhsil səviyyəsini, orta ömür müddətini, iş həftəsinin uzunluğunu və s. əks etdirir. BMT-nin insan ehtiyatlarının inkişafına dair məruzəsində göstərildiyi kimi keçən əsrin 90-cı illərində ictimai inkişaf indeksinə görə Yaponiya birinci (0,983), Kanada ikinci (0,982), Norveç üçüncü (0,978), İsveçrə və İsveç dördüncü və beşinci (hər ikisi 0,977) yeri tutmuşlar. Sonrakı yerlərdə ABŞ (0,976), Avstraliya (0,972), Fransa (0,971), Hollandiya (0,970), İngiltərə (0,964), İslandiya (0,960) və Almaniya (0,957) olmuşlar.

1994-cü ildə insan potensialı inkişafı indeksi orta hesabla 0,764, o cümlədən inkişaf etmiş ölkələr üzrə 0,911, inkişaf etməkdə olan ölkələr üzrə isə 0,576 təşkil etmişdir.

**Həyat səviyyəsini ifadə edən ümumi göstəricilərdən biri də əhalinin real gəlirləridir.** Bu göstərici cəmiyyət üzvlərinin özlərinin pul gəlirləri ilə aldıqları və ya ala biləcəkləri iqtisadi nemətlərin

və xidmətlərin kəmiyyətini, həmçinin pərakəndə qiymətlər və xidmətlər üzrə tariflərin dəyişməsi nəzərə alınmaqla, natural gəlirləri (şəxsi yardımçı həyətyanı təsərrüfatdan əldə edilən məhsullar və s.) səciyyələndirir. Əhalinin real gəlirlərinin dinamikası əsas (müqayisəli) qiymətlərlə müxtəlif dövrlərin son gəlirlərini tutuşdurmaq yolu ilə müəyyən edilir. Beləliklə, əhalinin real gəlirləri göstəricisi bu gəlirlərdən istehlaka sərf olunan hissənin alıcılıq qabiliyyətini göstərir.

Əhalinin həyat səviyyəsi məhsuldar qüvvələrin inkişafından və iqtisadi münasibətlərin xarakterindən asılıdır. Bu, o deməkdir ki, məhsuldar qüvvələrin yüksək dərəcədə inkişaf etdiyi və qarışıq iqtisadiyyata malik olan inkişaf etmiş ölkələrdə həyat səviyyəsi də yüksəkdir. Bu ölkələrə ABŞ, Almaniya, Norveç, Fransa, İsveç, İsevçrə, Danimarka, Hollandiya, İtaliya, Yaponiya, Finlandiya, İslandiya və başqalarını misal göstərmək olar.

Ölkəmizin malik olduğu təbii-iqlim şəraiti, coğrafi-iqtisadi mövqeyi, yeraltı və yerüstü sərvətləri, əmək ehtiyatları, onların işgüzarlığı və intellektual səviyyəsi gələcəkdə əhalinin həyat səviyyəsinin dəfələrlə yüksələcəyini və bütün parametrlərdə inkişaf etmiş ölkələrin səviyyəsinə çatacağını qabaqcadan proqnozlaşdırmağa imkan verir. Bunun üçün ölkəmizin iqtisadiyyatı təkcə neft amilinə söykənməməli, onun ayrı-ayrı sahələrinin hərtərəfli inkişaf etdirilməsi, dünya standartlarına cavab verən istehsal və sosial infrastrukturun formalaşdırılması bundan sonra da Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin mərkəzində dayanmalıdır.

## 15.2. Əhalinin pul gəlirlərinin səviyyəsi və strukturu

**Əhalinin həyat səviyyəsini müəyyən edən əsas amil onun gəlirləridir.** Əhali gəlirlərinə isə muzdlu işçilərin əmək haqqı; sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirləri; pensiyalar; yardımlar; təqaüdlər və digər sosial transfertlər; əmanətə görə əldə

edilən faiz məbləği, qiymətli kağızlara görə dividendlər; xarici valyutaların satışından gələn gəlirlər və s. daxildir.

Gəlirlərin digər mənbələrinə gizli əmək haqqını aid etmək olar. Bu, vergidən yayınmaq məqsədilə müəssisə və təşkilatlar tərəfindən əmək haqqı cədvəli tərtib olunmadan satışdan əldə edilən pul vəsaitindən nəqd qaydada «işçilərə əmək haqqı ödənilməsi, onlara pulla yardım göstərilməsi» və s. formalarda ola bilər.

Ümumiyyətlə götürdükdə isə əhalinin gəlirlərinin formalaşmasının bütün ölkələr üçün səciyyəvi olan əsas mənbələri aşağıdakılardır: 1) istehsalda sərf olunan əməyin müqabilində əldə edilən gəlirlər (əmək haqqı, mükafat və s.); 2) sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər (mənfəət); 3) əmək sərf edilməsindən asılı olmayaraq sosial gəlirlər (ailələrə verilən müxtəlif təyinatlı müavinətlər, sosial sığorta ödəmələri, pensiya, yardım və i.a.); 4) mülkiyyətdən əldə edilən gəlir (əmanət bankında saxlanılan əmanətlərə görə ödənilən faiz məbləği, istiqrazlar, lotoreyalar üzrə uduşlar, renta və s.)

**Bütün bu gəlirləri iki qrupda birləşdirmək olar:** 1) əmək sərfi və sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər (əmək haqqı, mənfəət, mükafat və i.a.); 2) qeyri-əmək gəlirləri (qanuni yolla əldə edilən dividend, ayrı-ayrı maliyyə təşkilatlarına qoyulan müxtəlif növ əmanətlər üçün verilən faiz məbləği, mülkiyyətdən, o cümlədən mənzilin kirayə verilməsindən götürülən gəlirlər, dövlət tərəfindən verilən müavinət, yardım, ödənclər və i.a.).

Müxtəlif ölkələrdə bu gəlirlər eyni deyildir və onlar təsərrüfat konyukturasından, sahibkarlıq fəaliyyətindən və digər amillərdən asılıdır. Həm də qeyd etmək lazımdır ki, gəlirlərin ümumi məbləğində «qeyri-əmək gəlirləri»nin payı olduqca yüksəkdir və ailələr kəskin surətdə fərqlənir. P.Samuelson və V.Nordhausun yazdıqları kimi gəlirlərin qeyri-bərabər bölüşdürülməsinin səbəblərindən biri sərvət üzərində mülkiyyət münasibətlərinin bərabər olmamasıdır. Məsələn, ABŞ-da ölkənin bütün sərvətinin 20%-ə qədəri əhalinin 1%-nin mülkiyyətindədir.

XX əsrin ikinci yarısından inkişaf etmiş ölkələrdə elmi-texniki inqilabın təsiri ilə dövlət büdcəsindən maliyyələşdirilən sosial

infrastruktur sürətlə inkişaf edir. Bununla əlaqədar olaraq əhaliyə göstərilən pulsuz təhsil və mədəni xidmətlər də onların gəlirlərinin formalaşmasında mühüm rol oynayır.

**İnkişaf etmiş ölkələrdə** infrastrukturun tərkibində dövlət təminatının: 1) sosial sığorta; 2) dövlət yardımı; 3) «universal təminetmə» sistemi əmələ gəlmiş və fəaliyyət göstərir.

Sosial sığorta sistemi daha geniş yayılmışdır. Bu sistemdə maddi vəziyyətindən asılı olmayaraq sığortalanmış şəxsin zəruri sığorta stajına, yaşa və digər şərtlərə cavab verən ailə üzvləri pensiya almaq hüququna malik olurlar. Sosial sığortanın əsas növü yaşa (qocalığa) görə pensiyadır. Bu, işçi pensiya yaşına çatdıqda və zəruri əmək, yaxud da sığorta stajına malik olduqda verilir, həm də onun məbləği əmək haqqının 25%-i ilə 90%-i arasında tərəddüd edir.

Dövlət yardımı dövlət büdcəsi hesabına ödənilir. Lakin bu imkandan işsiz, yaxud da əmək qabiliyyəti olmayan əhalinin hamısı deyil, yalnız ailənin üzvlərindən heç birinin yaşamaq üçün gəlir mənbəyinə malik olmadığı rəsmi surətdə sübuta yetirilən şəxslər istifadə edə bilərlər. ABŞ, Böyük Britaniya, Yaponiya və başqa ölkələrdə pensiyaçıların 1/3 hissəsi dövlətə məhz qocalığa görə yardım almaq üçün müraciət edirlər.

İsveç, Finlandiya, Norveç, Kanada və İslandiyada pensiya təminatında «universal» sistem formalaşmışdır. Bu ölkələrdə pensiya yaşına çatan, şikəst olan və ya ailə başçısını itirən bütün vətəndaşlar pensiya almaq hüququna malikdirlər. Pensiya hamı üçün möhkəm, sabit həcmdə ödənilir və onu vermək üçün lazım olan vəsait 16-18 yaşına çatmış vətəndaşların hamısından tutulan xüsusi növ vergi hesabına yaradılır.

Əhalinin rifahı, xüsusilə də onun gəlir və xərcləri haqqında informasiyalar müxtəlif mənbələrdən əldə edilir. Bunların içərisində əsas yeri əhalinin gəlir və xərcləri balansı; statistika orqanları tərəfindən aparılan ev təsərrüfatları büdcələrinin tədqiq olunması, həmkarlar ittifaqı və qeyri-hökumət təşkilatlarının məlumatları və s. tutur.

**Nominal və real pul gəlirlərini bir-birindən fərqləndirmək lazımdır.**

Məcburi tədiyyələr və üzvlük haqları çıxıldıqdan sonra əhalinin sərəncamında qalan pul gəlirləri nominal gəlir adlanır. Lakin bu gəlir istehlak qiymətləri indeksi vasitəsilə təshih olunmalıdır.

**İstehlak qiymətləri indeksi** müəyyən zaman kəsiyində əhali tərəfindən qeyri-istehsal istehlakı üçün satın alınmış əmtəə və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin dəyişməsini əks etdirir. Bu indeks cari dövrdə «bazar səbətinin» dəyərinin əsas dövrdə «bazar səbətinin» dəyərinə olan nisbəti kimi müəyyən edilir. İstehlak qiymətləri indeksləri inflyasiyanın səviyyəsini səciyyələndirən başlıca göstəricilərdən biridir və ondan dövlət siyasəti, iqtisadiyyatda qiymətlərin təhlili və proqnozlaşdırılması, minimum sosial təminatların müəyyən olunması üçün istifadə edilir.

İstehlak qiymətləri indeksləri hesablanarkən aşağıdakı məlumatlardan istifadə olunur: 1) istehlak bazarlarında qiymətləri və tarifləri qeydetmə yolu ilə qiymətlərin dəyişməsi haqqında məlumatlar; 2) əvvəlki dövrdə (ildə) əhalinin faktiki istehlak xərclərinin strukturu haqqında məlumatlar. Bu işlər statistika orqanları tərəfindən həyata keçirilir. **Hansı əmtəə və xidmətlərin qiymətləri üzərində müşahidə aparılmasını statistika orqanları müəyyən edirlər.** Və müşahidəyə kütləvi istehlak olunan əmtəə və xidmətlər cəlb edilir. Həm də müşahidəyə cəlb olunan əmtəə və xidmətlər seçilərkən həmin məhsulların istehlak üçün zəruriliyi nəzərə alınır.

Həyat səviyyəsinin ümumi göstəricisi olan **sərəncamda qalan pul gəlirləri** göstəricisindən ölkəmizdə müstəqillik dövrünün əvvəllərindən istifadə olunur və o, «əhalinin real gəlirləri» göstəricisini əvəz etmişdir. Əhalinin pul gəlirləri göstəricisinə pul gəlirlərindən başqa, pulla qiymətləndirilməklə natural gəlirlər və sosial sahə müəssisələrinin maddi xərcləri şəklində gəlirlər də daxil edilir. Şəxsi həyətyanı təsərrüfatlardan əldə edilən gəlirlər həmişə real gəlirlərdə mühüm rol oynamışdır və sərəncamda qalan real gəlirlərin tərkibində onların nəzərə alınması vacibdir.

Əhalinin böyük əksəriyyəti üçün əsas gəlir mənbəyi əmək haqqıdır. Lakin bu ölkəmiz üzrə olan faktiki statistik məlumat-

larla təzad təşkil edir. Belə ki, 2003-cü ildə əhalinin pul gəlirlərinin tərkibində əmək haqqının xüsusi çəkisi cəmi-cümlətanı 15,8%-ə bərabər olmuşdur.

Bazar iqtisadiyyatı şəraitində əmək haqqı bir sıra funksiyaları yerinə yetirir ki, bunlardan da aşağıdakıları qeyd etmək olar. Əmək haqqının: 1) təkrar istehsal funksiyası; 2) stimullaşdırıcı funksiyası; 3) sosial funksiyası.

**Əmək haqqının təkrar istehsal funksiyası** müəyyən peşə tərkibi və keyfiyyətə malik olan işçi qüvvəsinin təkrar istehsalı üçün əsas vasitədir. Əmək haqqının stimullaşdırıcı funksiyası istehsalın inkişaf etdirilməsi və əmək məhsuldarlığının artırılması üçün marağın yüksəldilməsinə yönəldilmişdir. Əmək haqqının sosial funksiyası isə sosial ədalət prinsipinin həyata keçirilməsinə xidmət edir.

Hazırda əmək haqqı istehsalın inkişaf etdirilməsi və əmək məhsuldarlığının yüksəldilməsində özünün **stimullaşdırıcı funksiyasını demək olar ki, itirmişdir.** Belə ki, əmək haqqının səviyyəsinin aşağı olması iqtisadi artıma səbəb olmur və həm iqtisadiyyat, həm də işçilərin özləri üçün bir sıra mənfi nəticələr törədir. Bu, öz ifadəsini əhalinin real gəlirlərinin və deməli, alıcılıq qabiliyyətinin aşağı düşməsində, həyati əhəmiyyətə malik olan əmtəə və xidmətlərdən istifadənin məhdudlaşması nəticəsində aparılan struktur dəyişikliklərində baş verən ləngimələrdə və s-də tapır.

Müasir şəraitdə iqtisadiyyatın müxtəlif sahələrində əmək haqqında çox böyük fərqlərin olması göstərir ki, **o, özünün sosial funksiyasını da tamamilə yerinə yetirə bilmir.** Bu, özünü sahələr, regionlar, ayrı-ayrı müəssisə və işçi kateqoriyalarının əmək haqqında kəskin fərqlərin olmasında göstərir. Belə ki, əmək haqqının səviyyəsi neft-qaz və dağ-mədən sənayesində, elektroenergetika, qara və əlvan metallurgiyada, bank sistemində daha yüksək, kənd təsərrüfatında və sosial-mədəni sahələrdə olduqca aşağıdır.

**Əmək ödənişlərinin gizli formaları** geniş yayılmışdır. Bunun əsas səbəbi vergidən yayınmaqdır. Başqa sözlə, işverənlər, xüsusilə də kiçik müəssisələr, maliyyə və kommersiya təşkilatları

büdcəyə və büdcədənkənar dövlət fondlarına ayırmaları ödəməmək məqsədilə əməyin haqqının ödənilməsinin gizli formalarından istifadə edirlər. Bunun səbəbi isə mövcud vergi dərəcələri və müvafiq fondlara ödəmə faizlərinin yüksək olmasıdır.

İşçilərin əksəriyyətinin gəlirləri onların necə işləmələrindən deyil, harada işləmələrindən asılıdır. Və buna əsasən demək olar ki, əmək haqqı ən mühüm iqtisadi kateqoriya kimi özünün işçi qüvvəsinin təkrar istehsalı və əməyin stimullaşdırılması funksiyalarını yerinə yetirmir. O, əslində əmək fəaliyyətinin nəticələrindən asılı olmayan sosial yardıma çevrilmişdir. Bunu əhali gəlirlərində əmək haqqının xüsusi çəkisinin azalması da əyani surətdə göstərir. Belə ki, ölkəmizdə 1996-cı ildə əhalinin gəlirlərində əmək haqqının xüsusi çəkisi 20,1%-ə, 2003-cü ildə isə azalaraq 15,8%-ə bərabər olmuşdur. Halbuki **inkişaf etmiş ölkələrin əksəriyyətində bu göstərici 60%-dən aşağı düşmür.**

Müxtəlif işçi kateqoriyaları və peşə qrupları üzrə əmək haqqında olan fərqlər əməyin keyfiyyəti və mürəkkəbliyi ilə əlaqədardır. Məsələn, avtobus sürücüsü həkimə nisbətən daha yüksək əmək haqqı ala bilər. Deməli, bazar iqtsadiyyatının tələblərinə uyğun olaraq yüksək peşə hazırlığına malik olan kadrlar hazırlanarkən əməyin mürəkkəbliyi və keyfiyyəti müəyyənedici əlamət olmalıdır.

Bu sahədə ABŞ-ın təcrübəsi diqqətəlayiqdir. Məsələn, burada qeyri-kənd təsərrüfatı sahələrində çalışanların əmək haqqı ilə müqayisədə həkimlərin əmək haqqının səviyyəsi 227%, yuxarı sinif müəllimlərinki 195-148%, mühasiblərinki 166%, mühəndislərinki 134% təşkil edir və i.a. ABŞ-da bir saat üçün müəyyən edilmiş minimum haqq yüksəldiyinə görə əmək haqqı da ilbəil artır.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirərək **ölkəmizdə bazar münasibətlərinin** formalaşdığı müasir şəraitdə əməyin haqqının ödənilməsi sahəsində nəzərə çarpan mənfi cəhətlərin aşağıdakılardan ibarət olduğunu demək olar:

1) iş qüvvəsinin dəyəri aşağı düşmüşdür;

2) iqtisadiyyatın sahələri, müəssisələr və işçi kateqoriyaları üzrə əmək haqqında kəskin fərq müşahidə olunur;

3) əməyin nəticələri ilə onun haqqının ödənilməsi arasındakı əlaqə öz əhəmiyyətini itirmişdir;

4) büdcədən maliyyələşdirilən və dövlət tərəfindən tənzimlənən təşkilatlarda əmək haqqının müasir səviyyəsi bazar iqtisadiyyatının tələblərinə uyğun gəlmir.

Bütün bunlar əmək haqqı sahəsində islahatların davam etdirilməsini, onun bazar iqtisadiyyatına uyğunlaşdırılmasını və bu sahədə dövlət tərəfindən tənzimləmənin gücləndirilməsini zəruri edir.

## 15.3. Əhalinin pul gəlirlərindən istifadə olunması və istehlak xərclərinin quruluşu

Əhali büdcəsindəki vəsait əmtəələrin satın alınmasına və xidmətlərin dəyərinin, məcburi tədiyyələrin və müxtəlif növ haqların (vergilər, rüsumlar, sığorta ayırmaları, ictimai və kooperativ təşkilatlarına ödəmələr, bank kreditlərinin qaytarılması, əmtəə formasında verilən kreditə görə ödənilən faiz məbləği və s.) ödənilməsinə, xarici valyutaların satın alınmasına sərf olunur, onun bir hissəsi isə əmanətlərdə və qiymətli kağızlarda olan yığımın artırılmasına yönəldilir.

Əhalinin rifahı yalnız xərcin ümumi məbləği ilə deyil, həm də onun quruluşu ilə müəyyən edilir. Əhali büdcəsinin xərc hissəsinin dəyişməsinə tələbatın dəyişməsi ilə yanaşı, pərakəndə satış qiymətlərinin dəyişməsi, ticarətdə olan məhsulların miqdarı və digər amillər də təsir edir. Bununla əlaqədar olaraq əhalinin nomianl (pul) xərclərinin quruluşunun dəyişməsi tələbatın ödənilməsində baş verən real dəyişiklikləri təqribi əks etdirir.

**Əhali gəlirlərinin konkret olaraq hansı məqsədlərə sərf edildiyini,** başqa sözlə, onun quruluşunu aşağıdakı kimi qruplaşdırmaq olar: 1) sosial-mədəni və məişət xidmətlərinin ödənilməsi üzrə xərclər; 2) yeməyə sərf olunan xərclər; 3) vergi, rüsum və ödəmələr; 4) sənaye mallarının satın alınmasına sərf olunan xərclər; 6) sair xərclər.

**Azərbaycan Respublikası Statistika Komitəsinin** nəşrlərində isə əhali xərclərinin quruluşu aşağıdakı kimi göstərilir. 2003-cü ilə olan statistik məlumata görə ölkəmizdə əhali xərclərinin tərkibində mal alınması və xidmətlərin ödənilməsinə sərf olunan xərclərin xüsusi çəkisi 74,9%-ə, məcburi ödənişlər və könüllü üzvlük haqlarınkı 3,4%-ə, əmanət qoyuluşlarının artımı və qiymətli kağızların alınması ilə əlaqədar sərf edilən xərclərinki 1,8%-ə, xarici valyutaların satın alınması xərclərininki 19,9%-ə bərabər olmuşdur.[1]

Buradan aydın olur ki, əhali gəlirlərinin çox böyük hissəsi əmtəələrin satın alınması və göstərilən xidmətlərin dəyərinin ödənilməsinə sərf edilir. Həyat səviyyəsinin ümumi göstəricisi isə sərf olunan bütün xərclərin tərkibində yemək şeylərinin satın alınmasına yönəldilən xərclərin xüsusi çəkisidir. Bu məqsəd üçün sərf olunan xərclərin xüsusi çəkisinin aşağı olması cəmiyyətin rifahının yüksək olduğunu göstərir.

Əhalinin həyat səviyyəsini tənzimləmək üçün yalnız bütövlükdə onun gəlir və xərclərinin dinamikasını deyil, həm də müxtəlif əhali qrupları və təbəqələri üzrə quruluşunu da öyrənmək lazımdır. Bunun üçün lazım olan statistik məlumatlar ev təsərrüfatları büdcələrinin seçmə üsulu ilə tədqiq olunması yolu ilə əldə edilir. Bu üsulla əldə edilmiş məlumatlara əsasən əhali xərclərinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisi 38,5%-ə, qeyri-ərzaq məhsullarınınkı 41,3%-ə, xidmətlərinki isə 20,2%-ə bərabərdir.

**Hazırda xərclərin quruluşunun dəyişməsində bir neçə istiqamət özünü göstərir.** Bu, hər şeydən əvvəl yemək şeylərinin satın alınmasına sərf olunan vəsaitin xüsusi çəkisinin azalması meylidir. Ümumiyyətlə, bu meyl mütərəqqidir və iqtisadiyyatı dinamik inkişaf edən bütün ölkələr üçün səciyyəvidir. Müxtəlif ölkələrdə əhali gəlirlərinin təqribən 20-30%-i yemək şeylərinin satın alınmasına sərf edilir. Lakin bu meyl müəyyən dərəcədə əhalinin bir sıra qida məhsullarına olan tələbatının ödənilmədiyini də əks etdirir. Odur ki, yemək şeylərinə olan tələbatın ödənilməsi onun

---

[1] Azərbaycanın statistik göstəriciləri. Bakı, «Səda» nəşriyyatı,2004, s.125.

quruluşunun dəyişməsi, yəni daha çox kalorili və vitaminlə zəngin olan məhsulların (ət, balıq, tərəvəz, təzə meyvə və i.a.) istehlak edilməsi ilə əlaqələndirilir.

**Nəzərə çarpan meyllərdən biri də** sənaye mallarının satın alınmasına sərf olunan vəsaitin daxili quruluşunda baş verən dəyişikliklərdir. Bu, özünü onda göstərir ki, mebelin, mədəni-məişət mallarının (yüngül minik maşını, velosiped də daxil olmaqla) satın alınması ilə əlaqədar sərf olunan vəsaitin xüsusi çəkisi artır, spirtli içkilərin əldə edilməsinə çəkilən xərclərinki isə azalır. Paltarın və ayaqqabının çeşidinin genişlənməsi və keyfiyyətinin yaxşılaşması ilə əlaqədar onların satın alınmasına yönəldilən xərclər də çoxalır. Bazar iqtisadiyyatının formalaşdığı şəraitdə əhalinin əsas hissəsinin tədiyyə qabiliyyətinin aşağı düşməsi nəticəsində onun sərf etdiyi xərclərin tərkibində xidmət sahələrinin xüsusi çəkisi də artır.

Beləliklə, əhali gəlirlərinin reallaşdırılmasını təmin etmək üçün istehlak bazarında münasib qiymətə satın alınması mümkün olan kifayət qədər və lazımi çeşiddə əmtəələrin olduğu istehlak bazarı formalaşdırılmalıdır.

**Ölkənin iqtisadi inkişafını təhlil edərkən** hər nəfərə görə ərzaq məhsulları istehlakı göstəricilərindən də istifadə olunur. Bunlar başlıca olaraq ət və ət məhsulları, süd və süd məhsulları, balıq və balıq məhsulları, yumurta, bitki yağı, şəkər və s-dir. Ölkəmizdə hər nəfərə görə illik ət və ət məhsulları (ətə çevrilməklə) istehlakı 1996-cı ildə 15 kq, 2003-cü ildə isə 29 kq, süd və süd məhsulları (südə çevrilməklə) istehlakı müvafiq olaraq 138 və 271 kq, balıq və balıq məhsulları istehlakı 1,3 və 6,6 kq, yumurta istehlakı (il ərzində) 76 və 123 ədəd, bitki yağı istehlakı 2,1 və 8,3 kq, şəkər istehlakı isə 12,2 və 30,7 kq təşkil etmişdir.[1]

Göründüyü kimi, ölkəmizdə hər nəfərə görə ən mühüm qida məhsulları istehlakı 1996-cı ilə nisbətən 2003-cü ildə xeyli artmışdır. Bu, iqtisadiyyatımızın dinamik inkişaf etdiyini və Azər-

---

[1] Azərbaycanın statistik göstəriciləri. Bakı, «Səda» nəşriyyatı,2004, s.334.

baycan dövlətinin əhalinin ən mühüm qida məhsulları ilə təmin edilməsinə xüsusi diqqət yetirdiyini göstərir.

Əhalinin bu və ya digər məhsula olan tələbatının ödənilməsinə xarakteristika verərkən onun mütləq kəmiyyəti haqqında məlumtla kifayətlənmək olmaz. **Həm də hər nəfərə düşən faktiki istehlakı tövsiyə olunan minimum norma ilə müqayisə etmək lazımdır.** Bu normalar ət məhsulları üzrə 81 kq-a, süd məhsulları üzrə 392 kq-a, kərə yağı üzrə 6,1 kq-a, şəkər üzrə 41 kq-a, bitki yağı üzrə 13 kq-a, balıq və balıq məhsulları üzrə isə 23,7 kq-a bərabərdir. Ölkəmizdə 2003-cü ildə hər nəfərə düşən faktiki istehlakı bu normalarla müqayisə etdikdə aydın olur ki, fərq mənfi işarə ilə ət və ət məhsulları üzrə 52 kq-a (29-81), süd və süd məhsulları üzrə 121 kq-a (271-392), balıq və balıq məhsulları üzrə 17,1 kq-a (6,6-23,7), bitki yağı üzrə 4,7 kq-a (8,3-13), şəkər üzrə isə 10,3 kq-a (30,7-41,0) bərabərdir. Başqa sözlə, Azərbaycanda hər nəfərə düşən faktiki istehlak 2003-cü ildə tövsiyə olunan normaların ət məhsulları üzrə 35,8%-ni, süd məhsulları üzrə 70,0%-ni, şəkər üzrə 75,0%-ni, bitki yağı üzrə 63,9%-ni, balıq və balıq məhsulları üzrə 28,0%-ni təşkil etmişdir.

Əhalinin ərzaq məhsulları ilə təmin olunmasının yaxşılaşdırılması və hər nəfərə düşən istehlakın səviyyəsinin yüksəldilməsinə yönəldilən dövlət tərəfindən tənzimləmə ölkənin ərzaq təhlükəsizliyinin azaldılması və gələcəkdə aradan qaldırılması ilə müşayiət olunacaqdır. **Bu fikri ona görə irəli sürürük ki,** hazırda ölkəmizdə əhalinin bəzi ərzaq məhsulları ilə daxili istehsal hesabına təmin olunması (məsələn, bitki yağı, taxıl, yumurta və s.) nisbətən yaxşılaşmış və qarşıda duran əsas vəzifə qazanılmış nailiyyətləri daha da möhkəmləndirməkdən və digər sahələrdə də dönüş yaratmaqdan ibarətdir. Bunun üçün ölkəmizdə hər cür şərait və imkan vardır. Ümumi daxili məhsulun artım sürəti də bunu deməyə əsas verir. Belə ki, 1999-2003-cü illərdə ÜDM-in artım sürəti 10% olduğu halda, 2005-ci ildə onun artımı 26,6%-ə bərabər olmuş, 2006-cı ildə isə 30%-dən çox olacağı gözlənilir.

## 15.4. Əhalinin pul gəlirləri və xərcləri balansı. İstehlakın strukturunun proqnozlaşdırılması

Əhalinin pul gəlirləri ilə xərclərinin bir-birinə nə dərəcədə uyğun olub-olmamasının müəyyən edilməsinin əsas metodu pul gəlirləri və xərcləri balansının işlənib hazırlanmasından ibarətdir. Bu balans adətən Statistika Komitəsi və Mərkəzi bank tərəfindən hər ay üzrə tərtib olunur. Proqnozların işlənib hazırlanmasında İqtisadi İnkişaf, Əmək və Əhalinin Sosial Müdafiəsi, Maliyyə Nazirlikləri, Mərkəzi bank və digər strukturlar iştirak edirlər. Balans çoxməqsədli xarakter daşıyır və dövlət orqanları onun göstəricilərindən bəzi qərarların əsaslandırılması üçün istifadə edirlər.

Balansın əsas funksiyası pərakəndə ticarət dövriyyəsini əsaslandırmaq üçün əhalinin əmtəə və xidmətlərə olan alıcılıq tələbini proqnozlaşdırmaqdan ibarətdir.

**Əhalinin pul gəlirləri və xərcləri balansının sxemi aşağıdakı kimidir:**

| Pul gəlirləri | Pul xərcləri və yığım |
|---|---|
| Əmək haqqı | Əmtəələrin satın alınması və xidmətlərin dəyərinin ödənilməsi |
| Sosial transfertlər | Məcburi tədiyyələrin və müxtləif haqların ödənilməsi |
| Mülkiyyətdən əldə edilən gəlir | Vəsaitin əmanət qoyuluşu və qiymətli kağızlar formasında yığılması |
| Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir | Valyutaların satın alınması |
| Xarici valyutaların satışından əldə edilən gəlir | Sair xərclər |
| Sair gəlirlər | **Pul xərclərinin və yığımın cəmi** |
| **Pul gəlirlərinin cəmi** | Gəlirlərin xərclərdən çox olması – əhalinin əlində pul kütləsinin artması (-) |
| Xərclərin gəlirlərdən çox olması – əhalinin əlində olan pul kütləsinin azalması (+) | |

Əhalinin pul gəlirlərinin xərclərindən çox olması nəqd formada pul aktivlərinin artması haqqında mühakimə yürütməyə əsas verir.

Əhalinin xərclərinin gəlirlərindən çox olması isə o deməkdir ki, əhali yığdığı pul vəsaitinin bir hissəsini istehlakla əlaqədar xərclərə yönəltmişdir.

Balansın məlumatlarından əhalinin real gəlirlərinin, əmtəə və xidmətlərə olan tələbinin strukturunun proqnozlaşdırılması üçün istifadə olunur. Əmək haqqı, fiziki şəxslərdən alınan vergi, pensiya təminatı, pullu xidmətlər sahəsində qiymət siyasəti və digər məsələlər balansın göstəriciləri ilə uyğunlaşdırılır və onda öz əksini tapır.

Balansın məlumatlarından həmçinin pul tədavülünü tənzimləmək üçün istifadə edilir. Balans işlənib hazırlanarkən - manatın xarici valyutalara olan məzənnəsinin, əmanətlər üzrə faiz dərəcələrinin dəyişməsi də nəzərə alınır.

**Hazırda gəlirlərin ümumi məbləği əvvəllərdə (1992-ci ilə qədər) olduğu kimi, ayrı-ayrı gəlir növlərini cəmləmək yolu ilə deyil,** əksinə əhalinin xərclərini (əmtəə və xidmətlərin satın alınması, məcburi tədiyyələr və haqlar, bütün formalarda yığım, valyutaların satın alınmasına sərf edilən vəsait və i.a.) cəmləməklə müəyyən olunur. Bu zaman ticarət statistikasının rəsmi məlumatlarına əsasən əhalinin əmtəə və xidmətlərin satın alınması ilə əlaqədar xərcləri ekspert qaydasında təqribən 20% artırılır. Həm də əmtəə və xidmətlərə sərf olunan xərclərdə əhali arasındakı gəlirlərin dövriyyəsi (fiziki şəxslərin bir-birilərinə satdıqları əmtəələr, transfert xidmətləri və i.a.) nəzərə alınır. Onun ümumi məbləğində ayrı-ayrı gəlir növlərinin (əmək haqqı, sosial transfertlər və i.a.) xüsusi çəkisi müəyyən edildikdən sonra, sair gəlirlər alınır.

Bununla əlaqədar olaraq əhalinin pul gəlirləri və xərcləri balansında bir tərəfdən adamlar özlərinin rifahı haqqında məlumat verməmək üçün bəzi şeyləri (məsələn, təkrar məşğulluq) gizlədir, digər tərəfdən isə onda təkrar hesbalamalara rast gəlinir. Təkrar uçot valyutaların yenidən satışı, yaxud da onların xaricə aparılması ilə əlaqədardır. Odur ki, balansın bu cür hesablanması me-

todikasından çarəsizlikdən istifadə olunur. Çünki toplanan məlumatlarda gəlirlər xərclərdən xeyli az olur. Bununla əlaqədar olaraq gəlirlərin səviyyəsi haqqında rəsmi göstəriciləri bəzi iqtisadçılar şişirdilmiş, bəziləri isə əksinə, azaldılmış hesab edirlər.

Əhalinin əmtəə və xidmətlərə olan tədiyyə (alıcılıq) qabiliyyətli tələbi, onun pul gəlirləri və xərcləri balansının məlumatlarına əsasən aşağıdakı düsturla müəyyən edilir:

$$T_q = PG - QƏ_x \pm Y$$

Burada: $T_q$-tədiyyə qabiliyyəti; PG-pul gəlirləri; $QƏ_x$-qeyri-əmtəə xərcləri (vergi və xidmətlər); Y-yığım (əmanətlərdə və valyutaların satın alınmasında yığımın artımı) deməkdir.

Pərakəndə əmtəə dövriyyəsini təmin etmək üçün zəruri olan əmtəə ehtiyatlarının miqdarı əhalinin əmtəələrə olan tədiyə tələbindən (alıcılıq qabiliyyətindən) əmtəə ehtiyatlarının kəmiyyəti, əmtəələrin təbii itkisi, mövsümi və köhnəlmiş əmtəələrin qiymətlərinin ucuzlaşdırılması ehtimalı qədər çox olmalıdır. Bu, əmtəə qıtlığının olmaması deməkdir. Lakin bu «artıqlıq» müəyyən çərçivə daxilində olmalıdır. Çünki bu, bir tərəfdən, tədavül prosesinin ləngiməsinə, digər tərəfdən isə istehlakçı bazarlarında qiymətlərin aşağı düşməsinə səbəb ola bilər.

**Əldə edilən gəlirlər** və əmək haqqı üzrə bazar strukturlarının hesabatları etibarlı deyildir. Ona görə ki, əhalinin özüməşğulluğu və bununla əlaqədar əldə etdiyi gəlirlər demək olar ki, nəzərə alınmır, əhalinin gəlir və xərclər balansı qiymətləndirmə xarakteri daşıyır.

**Xəlvəti iqtisadiyyatın** mövcud olması da əhalinin gəlir və xərcləri balansını mürəkkəbləşdirir. **Ən varlı adamlar öz kapitallarını xarici bankda saxlamağa üstünlük verir, xarici ölkələrdə mülkiyyət sahibi olurlar ki, bu da onlara böyük fayda gətirir.**

Əhali özünün pul gəlirlərindən iqtisadi nemətləri və xidmətləri satın almaq üçün istifadə edir. İstehlakın strukturunu proqnozlaşdırmaq üçün isə **normativ metodundan** istifadə olunur. Bu metodun mahiyyəti ondan ibarətdir ki, bu və ya digər nemətə olan tələbatı və istehlakı müəyyən edərkən sadəcə olaraq fak-

tiki istehlakın quruluşunun müəyyənləşdirilməsi ilə kifayətlənilmir, həm də bu zaman tələbat sistemi haqqında elmi təsəvvürlər və istehlakın səmərəliliyi nəzərə alınır.

Normativ metodun reallaşdırılması üçün başlıca vasitə istehlak büdcəsi sisteminin işlənib hazırlanmasıdır. Bunun mərkəzində **səmərəli istehlak büdcəsi durur**. Onun əsas vəzifəsi və təyinatı istehlak üçün etalon və insanların müxtəlif təyinatlı maddi və mənəvi nemətlərə olan tələbatlarının ölçüsü olmaqdan ibarətdir.

Bazar münasibətlərinin formalaşdığı dövrdə, əhali qrupları və regionlar üzrə həyat səviyyəsində kəskin fərqlər əmələ gəldiyinə görə dövlətin sosial siyasətində istehlak büdcəsi sistemindən istifadə olunmasının zəruriliyi meydana çıxır. Bu, aşağıdakı tərkib ünsürlərindən ibarətdir: **1) yaşayış minimumu büdcəsi; 2) minimum istehlak büdcəsi; 3) yüksək firavanlıq büdcəsi.**

**Yaşayış minimumu** fiziki yaşayışı təmin edən məhdud miqdarda qida məhsulları və xidmətlər toplusu üzrə hesablanan bir növ minimum istehlak büdcəsi deməkdir.

**Minimum istehlak büdcəsi** yaşayış minimumuna nisbətən insanların geniş çeşiddə qida və qeyri-ərzaq məhsullarına, pullu xidmətlərə olan tələbatlarının minimum səviyyədə ödənilməsini və istehlakın səviyyəsinin bərpa olunmasını təmin etməyə şərait yaradır.

**Yüksək firavanlıq büdcəsi** işçi qüvvəsinin geniş təkrar istehsalını təmin edir və səmərəli fiziki və mənəvi tələbatın ödənilməsinə imkan verir.

İstehlak büdcəsindən sosial-iqtisadi siyasətin aşağıdakı vəzifələrinin həll edilməsi üçün istifadə oluna bilər;

1) əhalinin həyat səviyyəsini yüksəltmək üçün iqtisadiyyatın inkişaf etdirilməsi göstəricilərinin (iqtisadi artım sürəti, iqtisadiyyatın sahə quruluşu və i.a.) əsaslandırılması;

2) bölgü münasibətlərinin – əmək haqqı, sosial transfertlər, əhalidən alınan vergilər – tənzimlənməsi;

3) əhalinin müxtəlif təbəqələrinin real gəlirləri və onların maddi rifahının dinamikasının müəyyən edilməsi və proqnozlaşdırılması;

4) əhalinin strukturunu aşkara çıxarmaqla gəlirlərə görə fərqləndirilməsinin tənzimlənməsi.

Bu məqsədlə əhalini aşağıdakı kimi qruplaşdırmaq olar: 1) **yoxsul əhali** – gəliri yaşayış minimumundan aşağı olan şəxslər; 2) **aztəimantlı əhali** – gəliri yaşayış minimumundan çox, lakin minimum istehlak büdcəsindən az olan şəxslər; 3) **orta təminatlı əhali** – gəliri minimum istehlak büdcəsindən çox, lakin yüksək firavanlıq büdcəsindən az olan şəxslər; 4) **imkanlı və varlı əhali** – gəliri yüksək firavanlıq büdcəsindən yüksək olan şəxslər.

Əhalinin hər bir sosial təbəqəsinin özünəməxsus xüsusiyyətləri və problemləri olduğuna görə dövlətin sosial siyasəti işlənib hazırlanarkən bunlar nəzərə alınmalıdır.

Yoxsullara münasibətdə **ünvanlı sosial siyasət** yeridilməlidir. Əhalinin orta təbəqəsi ilə əlaqədar sosial siyasət hər şeydən əvvəl **məşğulluğun təmin olunmasına**, sahibkarlığın inkişaf etdirilməsi üçün şərait yaradılmasına, ixtisasın yüksəldilməsinə yönəldilməlidir.

Sosial siyasətin məqsəd və vəzifələri işlənib hazırlanarkən regionların iqtisadi potensialı və demoqrafik göstəriciləri nəzərə alınmalıdır. Çünki bunlar əhalinin gəlirlərə və həyat səviyyəsinə görə təbəqələşməsinə səbəb olur.

Regionlar üzrə iqtisadi potensialın və həyat səviyyəsinin ən ümumi göstəricisi **hər nəfərə düşən regional ümumi məhsuldur.** Bu göstəricinin təhlili ölkəmizin regionları üzrə həyat səviyyəsindəki fərqlərin aşkara çıxarılmasında və dövlət tərəfindən tənzimləmənin təkmilləşdirilməsində müsbət rol oynaya bilər.

## 15.5. Əhalinin həyat səviyyəsinin tənzimlənməsinin əsas istiqamətləri və mexanizmi

Əhalinin həyat səviyyəsi minimum dövlət sosial standartları, əmək haqqı, sosial inkişaf və s. köməyi ilə tənzimlənir.

**Minimum dövlət sosial standartları** Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş sosial təminatların həyata keçirilməsinə yönəldilmişdir. Minimum dövlət sosial standartla-

rı sisteminin yaradılması sosial proseslərin idarə olunmasının başlıca istiqamətidir.

Minimum dövlət sosial standartları dedikdə ölkəmizin qanunvericiliyi ilə müəyyən edilmiş sosial normalarla ifadə olunan minimum zəruri sosial təminatın həyata keçirilməsi nəzərdə tutulur. Bəzi hallarda regionlar üzrə də belə təminetmə müəyyən edilir.

**Minimum dövlət sosial standartlarının işlənib hazırlanmasının əsas məqsədi aşağıdakılardan ibarətdir:**

1) insanların əsas iqtisadi nemətlərə və sosial xidmətlərə olan ən mühüm tələbatlarının ödənilməsinin təmin olunması;

2) ölkədə vahid sosial məkanın möhkəmləndirilməsi və onun bütün ərazisində sosial inkişaf səviyyəsinin nisbi mənada bərabərləşdirilməsi;

3) sosial ehtiyaclar üçün büdcə və büdcədənkənar vəsaitin formalaşması və istifadəsi normativlərinin təmin edilməsi;

4) büdcələrarası münasibətlərin təkmilləşdirilməsi və yerli büdcələrin sosial inkişafla əlaqədar olan hissəsinin dövlət tərəfindən müdafiəsi;

5) dövlət siyasətinin prioritet istiqamətlərinin həyata keçirilməsi üçün resursların səfərbərliyə alınması.

**Minimum dövlət sosial standartlarının** köməyilə ölkənin müxtəlif regionlarında əhali qruplarının rifahı sahəsində vəziyyəti daim izləmək, habelə müvafiq idarə, müəssisə və təşkilatların vətəndaşlar qarşısında götürdükləri sosial öhdəliklərin yerinə yetirilməsinə dövlət nəzarətini gücləndirmək olar. Çünki verilmiş zəmanətlərin təmin olunmaması sosial gərginliyin artmasına səbəb ola bilər.

**Minimum dövlət sosial standartlarından aşağıdakı göstəricilərin müəyyən edilməsində istifadə olunur:**

1) minimum gəlirlərin (minimum əmək haqqı və s.) və minimum yaşayış vasitələrinin müəyyən edilməsi;

2) sosial yardımların və ödənişlərin ən aşağı həddinin müəyyən olunması;

3) pulsuz və qismən pullu xidmətlərin nomenklaturu, siyahısı və məhsul (xidmət) dəstinin müəyyən edilməsi;

4) əhalinin sosial xidmətlərlə təmin edilməsi normalarının müəyyən olunması.

**Bu göstəriciləri** ən çətin vaxtlardakı qiymətlər və əhalinin gəlirləri ilə müqayisə etmək lazımdır ki, orta və minimum əmək haqqı, habelə minimum əmək haqqı ilə yaşayış minimumu arasındakı nisbəti müəyyənləşdirmək mümkün olsun. Bu, ölkə və region üzrə əhalinin ümumi sayında yoxsul əhalinin xüsusi çəkisinin azaldılmasına imkan verə bilər.

Azərbaycan Respublikasında 2005-ci ildəki faktiki hədlə 1990-cı illərin əvvəllərində dünya təcrübəsində qəbul edilmiş həddin müqayisəsi göstərir ki, ölkəmiz üzrə aşağıdakı göstəricilər hələ dünya standartlarından geri qalır. **Minimum və orta əmək haqqı arasındakı nisbət dünya üzrə** 1:3, Azərbaycan üzrə 1:4 nisbətindədir. Yoxsul əhalinin xüsusi çəkisi dünya təcrübəsinə görə 10%-i keçməməlidir, lakin bu göstərici Azərbaycan üzrə 29%-ə bərabərdir. İşsizliyin səviyyəsi müvafiq olaraq 8-10% və 14,6%-dir. BMT-nin təklifinə görə büdcə xərclərində sosial yardım və sosial proqramların xüsusi çəkisi 25% olmalıdır, halbuki bu, Azərbaycanda 21%-ə bərabərdir. İnkişaf etmiş ölkələrdə minimum əmək haqqının yaşayış minimumuna olan nisbəti MƏH>YM formulu ilə ifadə olunduğu halda, Azərbaycanda bu MƏH<YM formulu ilə ifadə edilir.[1]

Minimum dövlət sosial standartları büdcədənkənar fondların formalaşdırılması və istifadə edilməsi üçün baza olmalıdır. Sosial məqsədlər üçün büdcədə nəzərdə tutulan vəsait öz məqsədinə sərf edilməlidir.

Bazar iqtisadiyyatı formalaşdığı dövrdə dövlət, əmək münasibətlərinə, əmək haqqının səviyyəsi və əhali gəlirlərinin müəyyən olunmasına birbaşa müdaxilə etmir. İnzibati-idarəetmə metodlarından imtina olunması hələ yeni mexanizmlərin, xüsusilə də sosial tərəfdaşlığın formalaşmasına gətirib çıxarmamışdır. Bu, özünü onda biruzə verir ki, **ölkəmizdə fəaliyyət göstərən xarici firmalar əmək haqqında azərbaycanlılarla əcnəbilər arasında ayrı-seçkilik prinsipindən istifadə edir, bu müəssisələrin demək**

---

1 MƏH-minimum əmək haqqı, YM-yaşayış minimumu deməkdir.

**olar ki, böyük əksəriyyətində Həmkarlar İttifaqının yaradılması və sərbəst fəaliyyət göstərməsinə imkan verilmir**, kollektiv müqavilələr bağlanarkən nöqsanlara yol verilir. Ölkədə əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunların bəziləri fəaliyyət göstərmir. Bu, özünü hər şeydən əvvəl inflyasiya ilə əlaqədar gəlirlərin indeksləşdirilməsində göstərir. İşverənlərlə işçilər arasındakı münasibətlər qanunvericilikdə nəzərdə tutulan normalara uyğun gəlmir. **Hazırda Azərbaycanda iş qüvvəsi ən ucuz əmtəələrdən biridir.**

Büdcə xərclərinə qənaət etmək üçün büdcədən maliyyələşdirilən təşkilatlarda tarif dərəcələrinin, vəzifə maaşlarının, əlavələrin səviyyəsi çox aşağıdır. Bu isə o deməkdir ki, büdcə təşkilatlarında əmək haqqının, daha dəqiq desək vəzifə maaşlarının müəyyən edilməsinin təkmilləşdirilməsinə ehtiyac duyulur. **İqtisadçılar bəzi hallarda inflyasiyanın sürətlənməsini əmək haqqının artırılması ilə əlaqələndirirlər. Lakin əmək haqqının artırılması inflyasiyaya təsir edən amillərdən biri olsa da, birincisi deyildir.** Burada digər vasitələrdən istifadə etməklə, sərt maliyyə siyasəti yeritmək və beləliklə də əmək haqqının inflyasiyaya təsirini azaltmaq olar.

Bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, müasir dövrdə Azərbaycan Respublikasında əmək haqqını təkmilləşdirərkən onu işçinin özünün və ailə üzvlərinin zəruri maddi və mənəvi nemətlərə olan tələbatının ödənilməsinə imkan verə bilən iş qüvvəsinin dəyərinə uyğunlaşdırmaqdan, əmək haqqının təkrar istehsal, stimullaşdırıcı və sosial funksiyalarını bərpa etməkdən ibarətdir. Bu məqsədə dövlət və bazar tərəfindən tənzimləmənin əlaqələndirilməsi əsasında istehsalın artırılması və səmərəliliyinin yüksəldilməsini stimullaşdıran makroiqtisadi şəraiti yaratmadan nail olmaq mümkün deyildir.

**Əmək haqqının tənzimlənməsi ilə əlaqədar ən yaxın məqsəd və vəzifələr bunlardır:**

1) Minimum əmək haqqının yaşayış minimumu səviyyəsinə çatdırılması;

2) Sosial standartın – saatlıq minimum əmək haqqının tətbiqinə təsir göstərən dövlət təminatının gücləndirilməsi;

3) Sahələr üzrə əmək haqqındakı kəskin fərqləri aradan qaldırmaq məqsədilə onun tənzimlənməsi, əməyin mürəkkəbliyi və keyfiyyətinin nəzərə alınması. Bunun üçün əmək haqqındakı fərqin ən yüksək həddinin müəyyən edilməsi;

4) Antiinflyasiya tədbirlərinin dövlət tərəfindən tənzimlənməsi:

5) Əhali gəlirlərinin indeksləşdirilməsi, yəni qiymətlərin qalxması ilə əlaqədar olaraq əhali gəlirlərinin real məzmununun yüksəldilməsi;

6) İşsizliyin azaldılması, məşğulluğun artırılması, iş yerlərinin yaradılması, kiçik biznesin dövlət tərəfindən müdafiə edilməsi.

Bazar iqtisadiyyatı və müəssisələrin müstəqilliyi şəraitində əmək haqqının tənzimlənməsinə dövlətin birbaşa müdaxilə etmək imkanları məhduddur. Lakin bu sahədə müəyyən tədbirlər görüb, həyata keçirmək olar. **Bu tədbirlərə aşağıdakılar aiddir:**

1) Sosial əməkdaşlıq. Bu və ya digər müəssisədə, yaxud da ayrı-ayrı sahələrdə muzdlu işçilərə verilən əmək haqqının nə vaxt və nə qədər artırılması məsələsi dövlətin iştirakı ilə həmkarlar ittifaqları ilə iş verənlər arasında danışıqlar yolu ilə həll edilir. Razılaşmaların nəticələri kollektiv müqavilələrdə əks etdirilir və işverənlər üçün məcburidir.

2) Vergi qanunvericiliyinin təkmilləşdirilməsi. Vergi yükünün azaldılması istehsalın həcminin artmasına, məhsulların reallaşdırılmasına və deməli, əmək haqqının səviyyəsinin yüksəldilməsinə imkan verir;

3) **Makrosəviyyədə gəlirlərin** bölüşdürülməsində dövlətin rolunun optimallaşdırılması, əsas qanunvericilik təminatları – minimum dövlət sosial standartları, minimum dəyişməz gəlirlər – üzrə minimum öhdəliklərin sözsüz yerinə yetirilməsi;

4) **Sosial yardımların** və güzəştlərin ünvanlı olması;

5) Əhalinin müəyyən qruplarına güzəştlərin, subsidiyaların – pulsuz dərman verilməsi, nəqliyyatda pulsuz və güzəştli gediş, mənzil subsidiyaları və i.a. – şamil edilməsi;

6) İcbari sosial sığortalama. Bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə sosial müdafiənin bu forması geniş yayılmışdır. İcbari sığorta yalnız işləyənlərə şamil edilir və bu

prosesdə üç tərəf iştirak edir: 1) işverən; 2) işçi; 3) dövlət. Onun əsas vəzifəsi işçi əmək qabiliyyətini itirdikdə qanunla nəzərdə tutulan əmək haqqının minimum səviyyəsini müəyyən etməkdən ibarətdir.

Dövlətin sosial proqramlarında bu sahədə qarşıya qoyulan vəzifələri həll etmək üçün lazım olan iqtisadi resursların mənbəyi müəyyən edilməlidir. Resursların başlıca mənbəyi iqtisadiyyatın istehlak malları və xidmətlərin istehsalı ilə məşğul olan sahələrində məqsədyönlü struktur dəyişikliklərinin aparılmasıdır.

**Yaxın vaxtlarda sosial sahələrin inkişaf etdirilməsinin mənbələrindən biri də xəlvəti iqtisadiyyata mənsub olan müəssisələrin xarici ölkələrdəki hesablarında olan milli sərvətin bir hissəsinin yenidən bölüşdürülməsi ola bilər.**

Sosial inkişaf üçün resurs imkanlarının artırılmasının mənbələrindən biri də müəssisə və təşkilatlardan vergilərin alınması dərəcələrinin təkmilləşdirilməsi, daha dəqiq desək, azaldılmasıdır.

Büdcə, sosial təmayüllü olmalıdır ki, sosial məqsədlər üçün ayrılan vəsait öz məqsədinə sərf olunsun, onun maliyyələşdirilməsi vaxtında həyata keçirilsin.

Bütün bu proqnozların həyata keçirilməsi, şübhəsiz ki, əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayacaqdır.

## NƏTİCƏ

- «Həyat tərzi» və «həyat səviyyəsi» anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. Həyat tərzi cəmiyyətdə ayrı-ayrı adamların, sosial qrupların, ailə, millət, xalq, sinif və təbəqələrin həyat səviyyəsi formasıdır. Həyat səviyyəsi isə çox mürəkkəb sosial-iqtisadi kateqoriya olmaqla, iqtisadi inkişafın mövcud səviyyəsində insanların həyat fəaliyyətlərinin sabit təmin olunan şəraitinin toplusudur;
- həyat səviyyəsi kəmiyyətcə ayrı-ayrı məhsul növləri üzrə natural, ümumi şəkildə isə dəyər formasında ifadə olunur. Cə-

miyyət üzrə orta həyat səviyyəsi göstəriciləri də hesablanır. Lakin bunlar real həqiqəti düzgün əks etdirmirlər. Çünki yüksək, orta və aşağı təbəqənin həyat səviyyəsi haqqında həqiqətə uyğun olmayan, aldadıcı təsəvvür verir;

- ölkəmizin malik olduğu təbii-iqlim şəraiti, coğrafi-iqtisadi mövqeyi, yeraltı və yerüstü sərvətləri, əmək ehtiyatları, onların ümumi və peşə hazırlığı, işgüzarlığı və intellektual səviyyəsi gələcəkdə əhalinin ayrı-ayrı kateqoriyalarının həyat səviyyəsinin dəfələrlə yüksələcəyini və bütün parametrlərdə inkişaf etmiş ölkələrin səviyyəsinə çatacağını qabaqcadan proqnozlaşdırmağa imkan verir;
- əhali gəlirləri müxtəlif mənbələr hesabına formalaşır. Bunlara muzdlu işçilərin əmək haqqı, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir, pensiyalar, yardımlar, təqaüdlər, əmanətə görə əldə edilən faiz məbləği, dividendlər, xarici valyutaların satışından əldə edilən gəlirlər və s. daxildir.
- XX əsrin ikinci yarısından inkişaf etmiş ölkələrdə əhaliyə göstərilən pulsuz təhsil və mədəni xidmətlər də onların gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Belə ki, bu ölkələrdə infrastrukturun tərkibində dövlət təminatının «sosial sığorta», «dövlət yardımı» və «universal təminetmə sistemi» əmələ gəlmiş və fəaliyyət göstərir;
- bazar iqtisadiyyatı şəraitində əmək haqqı təkrar istehsal, stimullaşdırıcı və sosial funksiyaları yerinə yetirir. Lakin işçilərin əksəriyyətinin gəlirləri onların necə işləmələrindən deyil, harada işləmələrindən asılı olduğuna görə demək olar ki, əmək haqqı özünün təkrar istehsal və stimullaşdırıcı funksiyalarını yerinə yetirə bilmir;
- əhali gəlirləri sosial-mədəni və məişət xidmətlərinin, müxtəlif növ haqların (vergilər, rüsumlar, sığorta ayırmaları və s.) ödənilməsinə, yemək şeyləri və sənaye mallarının satın alınmasına sərf edilir, bir hissəsi isə əmanətlərdə və qiymətli kağızlarda olan yığımın artırılmasına yönəldilir;
- əhalinin bu və ya digər məhsula olan tələbatının ödənilməsinə xarakteristika verərkən onun mütləq kəmiyyəti ilə yanaşı, həm də hər nəfərə görə faktiki istehlakını tövsiyə olunan mini-

mum norma ilə müqayisə etmək lazımdır. Belə bir müqayisə apardıqda aydın olur ki, Azərbaycanda hər nəfərə düşən faktiki istehlak tövsiyə olunan normalardan xeyli aşağıdır;

- dövlətin sosial siyasətində istehlak büdcəsi sistemindən istifadə olunur ki, bunun da tərkib ünsürləri aşağıdakılardır: 1) yaşayış minimumu büdcəsi; 2) minimum istehlak büdcəsi; 3) yüksək firavanlıq büdcəsi.

- əhalinin həyat səviyyəsi minimum dövlət standartları, əmək haqqı, sosial inkişaf və s. köməyilə tənzimlənir. Minimum dövlət standartları işlənib hazırlanarkən qarşıya müxtəlif məqsədlər qoyulur və bir sıra göstəricilərdən istifadə olunur;

- əmək haqqı tənzimlənərkən qarşıya qoyulan ən yaxın məqsəd və vəzifələr müəyyənləşdirilir, müxtəlif tədbirlərin, proqramların həyata keçirilməsi nəzərdə tutulur. Bunları etməkdə məqsəd əhalinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir.

# XVI FƏSİL

# ELMİ-TƏDQİQATLARIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

## 16.1. Milli iqtisadiyyatda elmi-tədqiqatların rolu

Müasir dövrdə elm iqtisadi inkişafın əsas amillərindən biridir. Çünki elm keyfiyyətcə xüsusi iqtisadi ehtiyat, elmi biliklər isə təbiət və cəmiyyətin inkişaf qanunları, onların təcrübədə tətbiq olunması üsulları haqqında informasiya mənbəyidir. Lakin elmi digər iqtisadi ehtiyatlara, xüsusilə də maşın və avadanlıqlardan, işçi qüvvəsindən ibarət olan ehtiyatlara qarşı qoymaq, onun müstəqil ünsür olduğunu demək düzgün deyildir. Çünki elmi yeniliklər öz ifadəsini məhz texniki təkmilləşdirmələrdə, işçilərin peşə hazırlığının artmasında tapır. Bu meyl, yəni elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi texnoloji tərəqqi adlanır.

Hər cür inkişaf kimi texnoloji tərəqqi də həm təkamül, həm də inqilab yolu ilə baş verir. Texnoloji tərəqqinin təkamül yolu dedikdə elmi biliklərin daim və tədriclə toplanması və onların istehsalda maddiləşməsi nəzərdə tutulur. Bu zaman yeniliklər mövcud elmi təsəvvürlər çərçivəsində, son texnoloji inqilabla əlaqədar baş verən keyfiyyət dəyişikliklərindən kənara çıxmadan həyata keçirilir. İqtisadi ehtiyatların kəmiyyətcə artırılması variantından fərqli olaraq texnoloji tərəqqi təbiət qüvvələrindən məqsədyönlü istifadə olunmasının genişləndirilməsinə imkan verir.

Elm ən yeni texnika və mütərəqqi texnologiyaların meydana gəlməsi, istehsalın miqyasının genişləndirilməsi, əmək prosesinin yüngülləşdirilməsi, iqtisadi nemətlərin artırılması və xalqın həyat səviyyəsinin yüksəldilməsi üçün yeni-yeni imkanlar açır. Odur ki, sənayecə inkişaf etmiş ölkələrdə elmi-tədqiqatlara xüsusi diqqət yetirilir, onun maliyyələşdirilməsinə böyük məbləğdə vəsait ayrılır. Bu ölkələrin yüksək elmi-texniki potensiala və ixtisaslı kadrlara malik olmaları da məhz elmin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmələri - böyük məbləğdə vəsait ayırmaları ilə

əlaqədardır. Bunu faktiki statistik məlumatlar da təsdiq edir. Belə ki, hazırda elmi-tədqiqatlar üçün ayrılan vəsaitin ümumi daxili məhsulda xüsusi çəkisi Yaponiyada təqribən 2,9%-ə, ABŞ-da 2,8%-ə, Almaniyada 2,3%-ə, Fransada isə 2,2%-ə bərabərdir və s. İqdisadçıların fikrincə, elmin inkişaf etdirilməsinə yönəldilən xərclərin ümumi daxili məhsulda tutduğu xüsusi çəkinin 1%-ə qədər enməsi ölkənin bütün iqtisadiyyatına böyük məbləğdə ziyan vurur.

**Elmi fəaliyyətin geniş mənada ümumiləşdirilmiş adı belədir: «Elmi-tədqiqatlar və təcrübə-konstruktor işləri»-ETTKİ.** Bu proses aşağıdakı üç mərhələdən ibarətdir:

1) fundamental tədqiqatlar;
2) tətbiqi tədqiqatlar;
3) elmi tədqiqatların nəticələrinin kütləvi surətdə istehsal prosesində istifadə olunması.

Fundamental tədqiqatlar hər hansı bir prosesin əsaslarının kəşf olunmasına yönəldilmişdir və qabaqcadan kommersiya məqsədi daşımır. Onun nəticələri mətbuatda dərc olunur və tez bir zamanda ümumi sərvətə - ictimai əmtəəyə – çevrilir.

Tətbiqi tədqiqatların məqsədi metodun və ya nəyinsə istehsalı prosesinin kəşf olunmasından ibarətdir. Onların nəticələri gələcəkdə kommersiya əhəmiyyətinə malik ola bilər. Bu kəşflər patentləşdirilir və çox az hallarda mətbuatda dərc olunur. Elmi işləmələrin nəticəsində yeni məhsul və ya yeni texnoloji proses yaradılır ki, bunlaradan da tez bir zamanda təcrübədə istifadə edilə bilər və edilir.

Elmi-tədqiqatların nəticələrinin kütləvi surətdə istehsal prosesində tətbiqi isə ETTKİ-dən kənara çıxır və innovasiya fəaliyyəti sahəsini əmələ gətirir.

## 16.2. Elmi-tədqiqat təcrübə konstruktor işlərinin təsərrüfat mexanizmi və onun xüsusiyyətləri

İnkişaf etmiş ölkələrdə ETTKİ özünün əhatə dairəsinin geniş olması ilə səciyyələnir, mülkiyyət və təsərrüfatçılıq baxımından

olduqca mürəkkəb quruluşa malikdir. ETTKİ-nin icraçıları elmi statuslarına, mülkiyyət formalarına və məqsədlərinə görə fərqlənən elmi-tədqiqat strukturlarıdır. **Beynəlxalq statistikada onlar dörd bölmədə birləşdirilir. Sənaye** (sahibkarlıq) bölməsi adlandırılan birinci bölmə əsas fəaliyyəti elmi məhsulları istehsal edib satmaqla mənfəət əldə etməkdən ibarət olan bütün müəssisə və təşkilatları əhatə edir. Bu bölməyə iri sənaye korporasiyalarının, o cümlədən dövlət mülkiyyətində olan korporasiyaların elmi bölmələri və kiçik innovasiya firmaları da daxildir. **İkinci bölmə** dövlət bölməsi adlanır. Bu bölməyə dövlət orqanlarının tabeliyində olan və bütün cəmiyyətin tələbatını ödəyən elmi-tədqiqat institutları və laboratoriyaları daxildir. **Sonrakı iki bölməyə** ali təhsil müəssisələri, habelə qeyri-kommersiya xarakterli elmi-tədqiqat təşkilatları daxildir. Bunların əsas məqsədi öz təşkilatlarını inkişaf etdirməkdən ibarətdir.

Elmin əhatə etdiyi sahələr müxtəlif mənbələr hesabına maliyyələşdirilir. Bunlara dövlət büdcəsini, firmaların vəsaitini, ali məktəblərin özlərinin xüsusi vəsaitlərini, müxtəlif təyinatlı xüsusi fondları, xarici kapitalı misal göstərmək olar.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə yerinə yetirilən elmi-tədqiqat işlərinin həcminə və onların maliyyələşdirilməsi mənbələrinə görə hakim mövqe sənaye (sahibkarlıq) bölməsinə məxsusdur və keçən əsrin 90-cı illərindən başlayaraq onun rolu daha da artmışdır.

Elmi biliklərin «istehsalında» dövlətin bilavasitə iştirakı ayrı-ayrı ölkələrdə elmi-texniki inkişafın milli modelindən asılı olaraq eyni olmasa da bütün ölkələrdə o, ETTKİ-nin maliyyələşdirilməsində böyük rol oynayır.

**ETTKİ-nin təsərrüfat mexanizmi son yüzillikdə bir sıra təkamül mərhələlərindən keçmişdir.** Artıq **XIX** əsrin axırlarından ilk elmi-texniki inqilab şəraitində Y. Şumpeter tərəfindən müəyyən edilmiş **bazar innovasiya modeli** təcrübədə həyata keçirilməyə başlanmışdır[1]. Hazırda iri sənaye şirkətlərinin çoxu rəqa-

---

[1] Шумпетер Й. Теория экономического развития. М., Прогресс, 1992.

bət mübarizəsində üstünlük qazanmaq üçün özlərinin xüsusi laboratoriyalarını yaratmışlar.

XX əsrin 70-ci illərində elm və texnikada baş verən kəskin inqilabi dəyişikliklər bütün inkişaf etmiş ölkələrdə sənaye məhsullarının elm tutumunun, başqa sözlə, sahədə istehsal olunan məhsulların dəyərində ETTKİ üzrə xərclərin xüsusi çəkisinin artmasına səbəb olmuşdur.

Məlum olduğu kimi, bazarda müəyyən dövr ərzində ən yaxşı yeniliklərdən istifadə edilməsi uzunmüddətli rəqabət şəraitində əlavə inhisar mənfəəti əldə olunmasına imkan verir. Lakin elmi-texniki yeniliklərin tez-tez, demək olar ki, hər gün baş verdiyi və bunun nəticəsində rəqabətin xarakterinin dəyişdiyi hallarda vəziyyət dəyişir. Başqa sözlə, bu yenilikləri rəqiblərin ələ keçirmələrinə maneçilik törətmək mümkün olmur və inkişaf edən rəqabət meydana gəlir. Bu yeniliklərin 40%-ə qədəri məhz ETTKİ-nin payına düşür. ETTKİ prosesinin əsas mərhələləri arasındakı qarşılıqlı əlaqələrin güclənməsi fundamental tədqiqatların bir hissəsinin sənaye firmalarının elmi mərkəzlərinin fəaliyyət dairəsinə daxil olmasını obyektiv zərurətə çevirmişdir. Bütün bunlar isə korporasiyaların elmi bazasının genişlənməsinə səbəb olmuşdur. Firmalar elmi sahəni yalnız konyuktura şəraiti yaxşı olduqda deyil, mənfəət norması aşağı düşdüyü şəraitdə də maliyyələşdirirlər. Bu, həm də yeniliklərin çoxalmasının zəruriliyinə bir işarədir. **Firmalar elmi işçilərin ən sayılıb-seçilənlərini, obrazlı ifadə ilə desək «qaymağını» müdafiə edir.** Və belə hesab edirlər ki, alim və ya mühəndis ən azı beş il elmi mərkəzdə işləməlidir ki, elmi bölmənin fəaliyyətinə qoşula bilsin.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə **elmi sahənin qarışıq bazar-dövlət təsərrüfat mexanizmi modeli** fəaliyyət göstərir. Bu, özündə bazarın innovasiya mexanizmi ilə iri korporasiyalar və dövlət tərəfindən tənzimləmə mexanizmini birləşdirir. İkinci dünya müharibəsi illərində elmin dövlət büdcəsindən ayrılan vəsait hesabına maliyyələşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Müharibədən sonrakı dövrdə isə dövlət hərbi elmlərlə yanaşı, həm də mülki elmlər sahəsində əsas sistem – formalaşdırıcı rol oynamağa başlamışdır.

Büdcədən fundamental elmlərin maliyyələşdirilməsinə ayrılan vəsaitin xüsusi çəkisi daha yüksəkdir. Bu elmi sahələrin inkişaf etdirilməsinə sərf olunan vəsaitin 50%-dən üçdə iki hissəsinə qədəri dövlətin payına düşür. Bu elmlərin nəticələri öz əksini təyinatlarına görə ictimai əmtəə hesab edilən şeylərdə (müdafiə sənayesi məhsullarında, infrastrukturda və i.a.) tapır. Bu məhsulların əsas, bəzi hallarda hətta yeganə alıcısı dövlət olur.

Milli məhsulların rəqabət qabiliyyətinə, nəticəsi yeniliklərdən ibarət olan axtarış xarakterli elmi-tədqiqat işləri daha çox təsir göstərir. Bu investisiyalar özlərinin yüksək risk dərəcəsi ilə fərqlənirlər. Məsələn, İngiltərə sənayesində ETTKİ-ə sərf olunan xərclərin yalnız 5%-i bazarda nüfuz qazanan yeni məhsulların meydana gəlməsi ilə nəticələnir.

Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə elmi sahələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir, bu məqsədlə büdcədən böyük məbləğdə vəsait ayrılır. **Lakin burada da prioritet sahələr mövcuddur.** Məsələn, ABŞ-ın aerokosmik sənayesində ETTKİ-nin maliyyələşdirilməsi üzrə xərclərin 82%-i dövlət büdcəsindən ayrılır, bu göstərici avtomobil sənayesində 17%-ə, neft-kimya sənayesində isə 1%-ə bərabərdir.

Dövlət, həmçinin müxtəlif proqramlarda iştirak etməklə, xüsusi firmaların ETTKİ ilə əlaqədar xərclərinin maliyyələşdirilməsində birbaşa və ya dolayısı ilə iştirak edir.

## 16.3. Elmi sahənin dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri

Elmi sahənin tənzimlənməsi müxtəlif vasitələrdən istifadə olunmaqla həyata keçirilir. Bunlardan biri qanunvericilikdir.

Elmi-texnoloji sahənin qanunvericiliklə tənzimlənməsi dövlətin unikal vəzifələrindən biridir. Müəlliflik və patent hüquqlarının köməyi ilə elmi məhsullara olan intellektual mülkiyyətin müdafiəsi üçün hüquq normalarının müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir. **Dövlət ixtiralara, sərfəli modellərə, sənaye məhsullarının nümunələrinə patent verməklə, əldə edilmiş nəticə-**

**lərdən müstəsna istifadə hüququnu və müvəqqəti xüsusi inhisarı müəyyən zaman kəsiyində qoruyub saxlayır.**

Elmi məhsullar üzərində müstəsna mülkiyyət hüququ müəllifin (müəllifin patenti, elmi əsərlər üçün müəlliflik hüququ, kompüter proqramları və i.a.) və ya işverən təşkilatın ixtiyarında ola bilər.

**Patent sahibi** bəzi hallarda dilemma qarşısında qalır: elmi nailiyyəti istehsalata özünü tətbiq etsin, yoxsa patenti satmaq yolu ilə özünün müstəsna və ya qeyri-müstəsna (sadə) lisenziyavermə hüququnu başqasına versin? Neoklassik **alternativ xərclər** nəzəriyyəsinə əsasən yenilikçi özünün intellektual mülkiyyətini - texnologiyalarının nəticələrini satarkən lisenziyanın qiymətini gözlənilən innovasiya mənfəəti ilə müqayisə edir. Qərb şirkətləri adətən texnologiyaları lisenziya yolu ilə verirlər ki, bu zaman yeni bazarlara sahib olmaq naminə innovasiya mənfəətinin xeyli hissəsini itirirlər. Alıcı lisenziyanı satın alarkən məhsulun ona gətirə biləcəyi gözlənilən əlavə mənfəət əldə edəcəyinə ümid edir. Lisenziyanın qiyməti bir çox hallarda bu innovasiya mənfəətində satıcının payı kimi müəyyən edilir. Qanunvericilikdə lisenziya haqqının mənfəətdən və ya satışdan əldə edilən gəlirlərdən vaxtaşırı, yaxud da birdəfəlik ayırmalar şəklində ödənilməsi nəzərdə tutulur.

Lakin qeyd etmək lazımdır ki, intellektual mülkiyyət hüququnun dövlət tərəfindən qorunmasının təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox hallarda intellektual məhsullara olan mülkiyyət hüququnun dəqiq spesifikliyi (bu xüsusi ilə də nou-hauya aiddir) olmur. Bu, elmdə innovasiyalarda casusluq, oğurluq, quldurluq hallarının olması ilə əlaqədardır. Saxta məhsul istehsalı ilə mübarizənin səmərəli hüquqi mexanizmi hələ tapılmamışdır. Bu, nisbi mənada sadə təqlidetmənin (bənzətmə) mümkün olduğu sahələrin bazarlarında xüsusi ilə geniş yayılmışdır. Məsələn, beynəlxalq bazarda kompüter proqramlarının tirajının artırılmasının qeyri-qanuni dövriyyəsi onların qanuni satışının həcmi ilə müqayisə olunur. Və aydın məsələdir ki, saxta məhsullar, onu işləyib hazırlayanların əsl məhsullarından daha ucuz qiymətlə satılır.

Dövlətin əsas vəzifəsi elmi sahənin fəaliyyət göstərməsinin ümumi şəraitini təmin etməkdən ibarətdir. O, elmi kadrların hazırlanmasına, elmi informasiyaların yayılması, elmi nailiyyətlərin kommersiya yolu ilə reallaşdırılması infrastrukturlarının yaradılmasına təsir göstərməlidir.

**İnkişaf etmiş ölkələrin əksəriyyətində dövlət elmi bölməsi mövcuddur.** Məsələn, ABŞ-da elm üçün ayrılan dövlət xərclərinin 25%-i dövlət idarələri tərəfindən bilavasitə idarə olunan dövlət laboratoriyalarının, institutlarının, elm mərkəzlərinin maliyyələşdirilməsinə sərf olunur.

**Dövlət elmi bölməsində** milli mənafelərin həll edilməsi üçün zəruri olan problemlər tədqiq edilir. Lakin bu, kommersiya səmərəliliyini aradan qaldırmır. Odur ki, layihədə kommersiya perspektivləri meydana çıxdıqda xüsusi bölmə də ona daxil olmağa başlayır.

Bütün ölkələrdə gündəlikdə duran əsas məsələ dövlət elmi-tədqiqat təşkilatlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Bu sahədə axtarışlar davam edir və bunun üçün idarəetmənin müxtəlif formalarından istifadə olunur. Uzun müddət elmi kollektivlərin idarə olunmasında inzibati-təşkilati formalardan istifadə edilmişdir. Və onların maliyyələşdirilməsi dotasiya verilməsi əsasında həyata keçirilmişdir. Başqa sözlə, elmi-tədqiqat təşkilatlarına vəsait onların fəaliyyətlərinin nəticələrinə görə deyil, təsdiq olunmuş plana uyğun olaraq öz xərclərini ödəmək üçün ayrılmışdır.

ETTKİ-nin büdcədən məqsədli maliyyələşdirilməsi iri miqyaslı xüsusi elmi-texniki proqramlar əsasında həyata keçirilir. Proqramları nazirlik və idarələr, məsələn, ABŞ-da müdafiə nazirliyi, milli elm fondu və başqaları idarə edirlər. Onlar müsabiqə yolu ilə seçilmiş konkret icraçıları işə götürmək üçün müqavilə bağlayırlar. Belə layihələrin icraçıları ayrı-ayrı alimlər, həmçinin fəaliyyətdə olan və ya müvəqqəti yaradılan elmi kollektivlər ola bilər. Dövlət orqanları prioritetləri seçmək üçün layihələri ciddi ekspertizadan keçirirlər. Bununla da dövlət bölməsində çalışan alimlərin fəaliyyətində rəqabət və kommersiya əsasları

güclənir. Fundamental tədqiqatlar üçün elmi axtarışların müstəqil təşkili daha prioritetdir.

Mülkiyyət münasibətləri nöqteyi-nəzərindən dövlət elmi bölməsinə nəzarət səhm zərfinin dövlətin əlində olduğu, lakin bazar mühitinə daha üzvi surətdə daxil olmuş, sahibkarlıq məqsədinə daha çox tabe olan iri sənaye və hərbi-sənaye korporasiyalarının elmi bölmələrini də aid etmək olar.

Elmin digər bölmələrdə dövlət tərəfindən müdafiəsi müstəqim (birbaşa) və ya dolayı yolla həyata keçirilir. Sənaye firmalarında, mənfəətlə işləməyən şirkətlərdə və ali məktəblərdə elmi tədqiqatların dövlət tərəfindən müdafiə olunması silsilə fazalarından asılı olaraq müxtəlif formalarda həyata keçirilir. **Fundamental tədqiqatlar iki kanalla maliyyəşdirilir:** 1) ali məktəblərdə büdcədən məqsədli maliyyələşdirmə həyata keçirilir; 2) ayrı-ayrı alimlər və ya laboratoriyalar tərəfindən təklif olunan perspektivli elmi layihələrin maliyyələşdirilməsi tədqiqatın nəticələrinin dərc olunması şərtilə subsidiya (qrant) formasında müsabiqə əsasında həyata keçirilir.

Əsas etibarilə sənaye firmalarında həyata keçirilən tətbiqi tədqiqatların, xüsusilə də layihələrin işlənib hazırlanmasının maliyyələşdirilməsi dövlət sifarişi formasında ola bilər. ETTKİ-ə dövlət sifarişi əksəriyyət hallarda firmaların elmtutumlu məhsullarının tədarükünə təminat verən razılaşmanın (müqavilənin) birinci fazasıdır. Bu «qızıl açar» firmaların ən yeni texnologiyalara gedən yolunu müəyyən edir. Firmalarda dövlət sifarişi ilə yerinə yetirilən ETTKİ-nin nəticələri üzərində dövlət özünün müstəsna mülkiyyət hüquqlarını saxlayır. Bu, xüsusilə də müdafiə sənayesinin məhsullarına aiddir. Lakin bəzi hallarda elmi məhsullar üzərində mülkiyyət hüququ dövlətlə icraçı firmalar (xüsusilə də firma belə tədqiqatların maliyyələşdirilməsində payla iştirak etdiyi hallarda) arasında bölüşdürülə bilər. Bundan başqa, dövlət laboratoriyalarında işlənib hazırlanan texnologiyalardan həm hərbi, həm də mülki sahələrdə istifadə edilmək hüququ dövlət sifarişləri ilə işləyən sənaye firmalarına transfert qaydasında pulsuz verilə bilər.

Dövlət sifarişi və tədarükü bazarında dövlətin qarşısında xüsusi vəzifələr durur. Elmi və elmtutumlu məhsulların reallaşdırılmasında bazarın «çatışmazlıqlarını» aradan qaldırmaq məqsədilə dövlət xüsusi tədbirlər görməlidir. Bunun üçün çalışmaq lazımdır ki, müqavilələr inzibati danışıqlar yolu ilə deyil, açıq ticarət rəqabəti əsasında bağlansın. Bu işin düzgün təşkili də çox vacibdir.

XX əsrin 80-90-cı illəri inkişaf edən rəqabətlə səciyyələnir. Bu, özünü həm də beynəlxalq aləmdə göstərmişdir. Bu isə öz növbəsində xüsusi firmalarda ETTKİ-ə sərf olunan xərclərin artırılmasını və dolayısı ilə dövlətin müdafiəsini zəruri etmişdir. Bu, birbaşa dotasiya subsidiyalarına nisbətən daha faydalıdır.

ETTKİ-nin maliyyə cəhətdən dolayı yolla müdafiəsinə xüsusi diqqət yetirilməsi hər şeydən əvvəl elmi-tədqiqatlara sərf olunan xərclərin artmasına görə vergi güzəştlərinin tətbiq edilməsidir. Böyük Britaniyada bu güzəştlər ümumi vergi sistemi çərçivəsində həyata keçirilir. Fransada vergi güzəştləri ayrı-ayrı fəaliyyət sahələri üzrə müəyyən edilir. ETTKİ-nin stimullaşdırılmasının dolayı metoduna elmi tədqiqat və təcrübə konstruktor işlərini aparmaq üçün istifadə olunan avadanlıqların sürətli amortizasiyası misal ola bilər. Riskli fəaliyyətlə məşğul olan firmaların xüsusi kredit müəssisələrindən aldıqları kreditlərə dövlət tərəfindən təminat verilməsi olduqca böyük əhəmiyyətə malikdir. Bütün bu tədbirlər bazar seçiminin sərt şərtlərinin yumşaldılmasına yönəldilmişdir. **Kiçik elmi biznes üçün bunlar xüsusilə böyük əhəmiyyət kəsb edir.**

Elmi-texniki inqilabın müasir mərhələsində bir çox iri elmi layihələr çox böyük məbləğdə ilkin kapital, işlənmə və tətbiqolunma proseslərinin sürətləndirilməsini tələb edir. Ona görə də dövlət milli məhsulların rəqabət qabiliyyətini qoruyub saxlamaq üçün elmi-texniki kooperasiyanı stimullaşdırır və bu prosesdə özü bilavasitə iştirak edir. **Avropa İttifaqında** şirkətlər, dövlət elmi-tədqiqat mərkəzləri və universitetlər arasında çoxtərəfli əməkdaşlığın ən geniş yayılmış forması elmi-tədqiqat assosiasiyalarıdır. Bunların maliyyələşdirilməsi həmin assosiasiyaların üzvü olan firmaların ödədikləri üzvlük haqqı və İqtisadiyyat

Nazirliyinin vəsaiti (lakin 50%-dən çox olmamaqla) hesabına həyata keçirilir. Bu elmi-tədqiqat birlikləri bazardan uzaqlardakı fəaliyyət sahələrində layihələri həyata keçirirlər. Onların apardıqları elmi tədqiqatların nəticələri bütün cəmiyyətə xidmət edir.

Kiçik elmi biznesə kömək göstərilməsinin istiqamətləri içərisində – xüsusilə də onun fəaliyyət göstərdiyi ilk dövrlərdə – innovasiyalar üzrə mərkəzlərin yaradılması və ən yeni nailiyyətlərin yerli büdcələrin yardımı ilə region səviyyəsində tətbiq olunmasını qeyd etmək olar. Bunlara hər şeydən əvvəl tədqiqat mərkəzləri və istehsalat zonası da daxil olmaqla ərazi kompleksləri aiddir. Bunların tərkibində icarə şərtləri ilə kiçik elmtutumlu firmalar, necə deyərlər iki-üç illik biznes-inqubatorlar da yerləşə bilər.

ETTKİ sahəsində iri firmalar arasındakı əməkdaşlığı inkişaf etdirmək üçün ölkələrin çoxunda antiinhisar qanunvericiliyi liberallaşdırılmışdır. Bazarda elmtutumlu məhsullarla bilavasitə rəqabət aparan şirkətlər və elmi-tədqiqat konsorsiumları arasında elmi-texniki kooperasiyalaşdırma geniş yayılmışdır. Bu proses ilk dəfə Yaponiyada özünə vətəndaşlıq hüququ qazanmışdır.

Dövlət tərəfindən yeridilən elmi siyasətin ən mühüm funksiyalarından biri də sözün geniş mənasında müdafiə, ekoloji, sağlamlığın qorunması, ərzaq, enerji problemləri daxil olmaqla milli təhlükəsizliyi, habelə uzunmüddətli perspektivdə iqtisadiyyatın rəqabət qabiliyyətini təmin etmək üçün elmi tədqiqatların istiqamətləri və növləri üzrə ölkənin elmi potensialının strukturunun təkmilləşdirilməsindən ibarətdir.

İkinci dünya müharibəsindən sonrakı illərdə bütün inkişaf etmiş ölkələrdə milli elm və texnologiyaların inkişaf etdirilməsində dövlətin fəal iştirakı nəticəsində strateji cəhətdən ən mühüm sahələr (elektronika, telekommunikasiya, kosmos, nüvə energetikası və i.a.) **«texnoloji təkan» əldə etmiş oldular.** Bir sıra ölkələrdə, xüsusilə də ABŞ, Böyük Britaniya və Fransada dövlət tərəfindən müdafiə olunan elmlərin strukturunda hərbi məqsədlər və onunla əlaqədar kosmosun tədqiq olunması hakim mövqeyə malik olmuşdur. Yaponiya, Almaniya, İtaliya və başqa öl-

kələrin müharibədən sonrakı siyasi inkişafının xüsusiyyətləri ilə əlaqədar olaraq bu ölkələrdə elm bir qədər az «hərbiləşdirilmişdir».

Dövlət tərəfindən elmin müdafiə əhəmiyyətli sahələrinin inkişaf etdirilməsinə böyük məbləğdə vəsaitin yönəldilməsi, hazırda daha prioritet hesab edilən digər sahələrin, xüsusilə də resurslara qənaət etmək imkanı verən texnologiyaların və çox böyük həyati əhəmiyyətə malik olan sahələrin (ekologiya, texnologiya, tibb və s.) inkişafını ləngidir.

SSRİ-də, o cümlədən də onun tərkibində olan Azərbaycanda Sovet hakimiyyəti illərində güclü elmi-texniki potensial yaradılmışdı. Bütün ölkənin səylərinin səfərbərliyə alınması nəticəsində dövlət elmin inkişaf etdirilməsi üçün ayrılan vəsaitin 95%-ə qədərini öz əlində cəmləməklə yalnız elmin ən yeni sahələrində (kosmos, nüvə energetikası və i.a.) «texnoloji sıçrayışa» nail olmuşdu. SSRİ 1989-1990-cı illərdə kadr potensialının sayına və ETTKİ-nin inkişaf etdirilməsi ilə əlaqədar vəsaitin məbləğinə görə müasir dövrün hər hansı bir inkişaf etmiş ölkəsindən üstün olmuşdur.

Lakin SSRİ-də elmi-texniki kompleksin inkişafında həm də dərin uyğunsuzluqlar (disproporsiyalar) meydana gəlmişdi. Başqa sözlə, keçən əsrin 70-80-ci illərində məlum olmuşdur ki, belə bir elmi-texniki kompleksin qorunub saxlanması ölkənin təsərrüfat imkanlarına uyğun gəlmir. Çünki SSRİ-nin elmi-texniki kompleksi digər inkişaf etmiş ölkələrdəkinə nisbətən daha çox «hərbiləşdirilmişdi». Bunu belə bir faktdan aydın görmək olar ki, 1989-cu ildə ETTKİ-nin maliyyələşdirilməsi üçün ayrılan vəsaitin 75%-i hərbi məqsədlərə sərf olunmuşdur. Hətta, 1992-ci ildə gərginliyin azaldığı dövrdə elm üçün ayrılan vəsaitin 2/3 hissəsi bu məqsədlərə sərf edilmişdir. Bu, digər ölkələrdəkindən çoxdur.

SSRİ-də elmin mülki sahələri təkcə vəsait çatışmazlığından deyil, həm də elmin və iqtisadiyyatın inkişaf etdirilməsi üçün vasitə və stimulların olmamasından «əziyyət çəkirdilər». O zaman ölkədə yerinə yetirilən fundamental tədqiqatların nəticələrinin

çox böyük hissəsi ya işlənmə mərhələsinə çatmır, yaxud da sənayedə tətbiq olunmurdu.

SSRİ-nin tərkibində olarkən mərkəzləşdirilmiş qaydada idarə olunan bütün respublikalarda olduğu kimi, **Azərbaycan Respublikasında da elmi-tədqiqat işləri** ilə məşğul olan icraçı-təşkilatları aşağıdakı bölmələrə ayırmaq olar: 1) Akademiya sistemində olan elmi-tədqiqat müəssisələri və strukturları; 2) Ali məktəblər; 3) İqtisadiyyatın ayrı-ayrı sahələrinin tabeliyində olan elmi-tədqiqat strukturları; 4) Zavodlarda olan elmi-tədqiqat strukturları. Bu sahələrdə müxtəlif vaxtlarda müəyyən struktur dəyişiklikləri aparılsa da onu, inkişaf etmiş ölkələrdəki səviyyəyə çatdırmaq mümkün olmamış və təkmilləşdirilməyə ehtiyac duyulurdu.

Sovet hakimiyyəti illərində Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaradılmış, Elmlər Akademiyası, onun elmi-tədqiqat institutları formalaşdırılmışdı. Bununla da Azərbaycanda elmin inkişafı üçün zəmin hazırlanmış, sanballı elmi potensial yaradılmışdı.

**Lakin bu böyük potensial müstəqilliyimizin ilk dövrlərində,** hərcmərclik illərində dağıntılara məruz qalmışdı. Odur ki, ölkəmizdə digər sahələrdə olduğu kimi elmi sahənin də bazar münasibətləri əsasında yenidən qurulmasının zəruriliyi meydana çıxmışdı. Ölkəmizdə siyasi sabitlik bərqərar edildikdən sonra elmin inkişafına xüsusi diqqət yetirilməsi bu çətinliklərin aradan qaldırılmasına imkan vermişdir. Bu, özünü hər şeydən əvvəl onda göstərir ki, insan fəaliyyətinin və ölkənin sosial-iqtisadi inkişafının çox mühüm sahəsi olan elmin yenidən qurulması və inkişaf etdirilməsi üçün dövlət tərəfindən hər il daha çox vəsait ayrılır, elmi işçilərin stimullaşdırılması üçün konkret tədbirlər görülür. Bunu statistik məlumatlar da təsdiq edir. Belə ki, 1993-cü ildə ölkəmizdə elmin inkişaf etdirilməsinə 0,6 mlrd manat vəsait ayrıldığı halda, bu rəqəm 2003-cü ildə 83 mlrd manata bərabər olmuşdur. Lakin bununla yanaşı ÜDM-də elm üçün ayrılan vəsaitin xüsusi

çəkisi çox azdır. Başqa sözlə, cəmi-cümlətanı 0,2% təşkil edir. Ölkəmizdə indi iqtisadiyyatımızı qısa müddətdə yenidən qura bilməyimiz üçün mükəmməl elmi-tədqiqat və layihə institutları, elmi bölmələr, laboratoriyalar fəaliyyət göstərir, onlarda yüksək ixtisaslı elmi-texniki kadrlar, kifayət qədər ixtisaslı işçi qüvvəsi çalışır.

Lakin cəmiyyət daim inkişaf edir, elmi-texniki yeniliklər meydana çıxır, dünyada gedən qloballaşma prosesində elmin rolu getdikcə artır. Və bununla əlaqədar olaraq Azərbaycan elminin də qarşısında çox böyük vəzifələr durur. Fikrimizcə, elmin müxtəlif sahələrində fəaliyyət göstərən **dövlət rəhbərləri qarşısında öz kəskinliyi ilə fərqlənən ən azı aşağıdakı üç vəzifə durur:**

1) Elmi-texniki işlərin və onlardan istifadənin dövlət tərəfindən stimullaşdırılması sisteminin yaradılması və zaman keçdikcə dünya təcrübəsində qazanılan yeniliklərlə zənginləşdirilməsi;

2) Mövcud elmi-texniki siyasət modelinin təshih olunması məqsədəuyğundur. Bu, o, deməkdir ki, ayrılan vəsaitin elmi-texniki tərəqqinin bütün əsas istiqamətləri üzrə bölünməsi modelinə yox, onu prioritet sahələrin özləri arasında seçmə modelinə üstünlük verilməli, ən vacib sahələr arasında sıralama aparılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, hər hansı bir vacib problemin həlli özündən sonra gələn problemlərin həlli üçün zəmin hazırlamış olsun;

3) ETTKİ-nin yalnız birinci mərhələsində deyil, onun sonrakı mərhələlərində də intellektual məhsulların dünya bazarlarına çıxarılmasına xüsusi diqqət yetirmək lazımdır. Yəni yalnız elmi-texniki tərəqqinin birinci mərhələ məhsullarını deyil, həm də «emalın» sonrakı, daha yüksək mərhələsində hazırlanan son məhsulların (hətta elmtutumlu məhsulların) özlərinin dünya bazarlarına çıxarılmasına ciddi-cəhdlə səy göstərilməlidir.

## NƏTİCƏ

-elm iqtisadi inkişafın ən mühüm amillərindən biridir. Lakin elm digər iqtisadi ehtiyatlardan fərqlənir və onun müstəqil ünsür olduğunu demək düzgün deyildir. Çünki elmi yeniliklər öz ifa-

dəsini məhz texniki təkmilləşdirmələrdə, işçilərin peşə hazırlığının yüksəlməsində tapır;

-elm ən mütərəqqi texnika və texnologiyaların meydana gəlməsi, əmək prosesinin yüngülləşdirilməsi, istehsalın miqyasının genişləndirilməsi və bunun əsasında iqtisadi nemətlərin artırılması və deməli, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün yeni-yeni imkanlır açır;

- elmi fəaliyyətin geniş mənada ümumiləşdirilmiş adı belədir: «elmi tədqiqatlar və təcrübə konstruktor işləri» - ETTKİ. Bu proses fundamental tədqiqatlar, tətbiqi tədqiqatlar və elmi tədqiqatların nəticələrinin kütləvi surətdə istehsal prosesində istifadə olunamsı mərhələlərindən keçir;

- elmin əhatə etdiyi sahələr dövlət büdcəsi və firmaların, ali məktəblərin, müxtəlif təyinatlı xüsusi fondlardakı vəsait, habelə xarici kapital hesabına maliyyələşdirilir;

- müasir dövrdə bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə elmi sahənin qarışıq bazar-dövlət təsərrüfat mexanizmi modeli fəaliyyət göstərir. Bu, özündə bazarın innovasiya mexanizmi ilə iri korporasiyalar və dövlət tərəfindən tənzimləmə mexanizmini birləşdirir;

- inkişaf etmiş ölkələrin əksəriyyətində dövlət elmi bölməsi mövcuddur. O, elmi kadrların hazırlanmasına, elmi informasiyaların yayılmasına, dövlət laboratoriyaları və institutlarının, elm mərkəzlərinin maliyyələşdirilməsinə nəzarəti həyata keçirir;

- dövlət, ETTKİ-nin dolayı yolla müdafiəsinə də xüsusi diqqət yetirir. Bu, öz ifadəsini hər şeydən əvvəl vergi güzəştlərində tapır. Məsələn, Böyük Britaniyada bu güzəştlər ümumi vergi sistemi çərçivəsində, Fransada ayrı-ayrı fəaliyyət sahələri üzrə müəyyən edilir;

- müasir dövrdə bir çox iri elmi layihələr çox böyük məbləğdə ilkin kapital, işlənmə və tətbiqolunma proseslərinin sürətləndirilməsini tələb edir. Ona görə də dövlət, milli məhsulların rəqabət qabiliyyətini qoruyub saxlamaq üçün elmi-texniki kooperasiyanı stimullaşdırır və bu prosesdə özü bilavasitə iştirak edir;

- Sovet hakimiyyəti illərində Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, ölkənin sanballı elmi-pedaqoji potensialı formalaşmışdır. Lakin bu böyük potensial müstəqilliyimizin ilk dövrlərində hərcmərclik illərində dağıntılara məruz qalmışdı. Odur ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, elmi sahənin də bazar münasibətləri əsasında yenidən qurulmasının zəruriliyi meydana çıxmışdı. Ölkəmizdə siyasi sabitlik bərqərar edildikdən sonra elmin inkişafına xüsusi diqqət yetirilməsi bu çətinliklərin aradan qaldırılmasına imkan vermişdir. Və hazırda ölkəmizdə elmin inkişafına xüsusi diqqət yetirilir.

# IV BÖLMƏ

# MİLLİ İQTİSADİYYATIN DİNAMİKASI VƏ STRUKTURUNUN TƏNZİMLƏNMƏSİ. RESURS POTENSİALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

## XVII FƏSİL

## İSTEHSALIN DİNAMİKASI VƏ SƏMƏRƏLİLİYİNİN ƏSASLANDIRILMASI

### 17.1. İqtisadi dinamika göstəriciləri

Bazar iqtisadiyyatına ilk baxışda bir-birini qarşılıqlı surətdə inkar edən «tarazlıq» və «dinamika» anlayışları xasdır.

Bazar iqtisadiyyatı şəraitində istehsal olunan bütün məhsullar («ümumi istehsal») əmtəəyə çevrilməli («ümumi təklif») və satılmalı («satışın ümumi həcmi»), əldə edilən bütün gəlirlər («gəlirlərin ümumi məbləği») xərclənməli («ümumi tələb») və istehlak olunmalıdır («ümumi istehlak»). Yalnız bu zaman tədiyyə qabiliyyətli ümumi tələblə ümumi təklif bir-birinə uyğun gələ bilər. Bazar iqtisadiyyatının bu ideal, lakin nail olunması mümkün olmayan vəziyyətinə «iqtisadi tarazlıq» deyilir.

Digər tərəfdən, bazar iqtisadiyyatı daim hərəkətdədir və inkişaf edir. Bu isə ümumi tələblə ümumi təklif arasındakı tarazlığın pozulmasına və mənfi halların baş verməsinə gətirib çıxarır. Lakin buna baxmayaraq öz inkişafını «iqtisadi dinamika»da tapan bazar iqtisadiyyatı məhz həmin kənarlaşmaların vasitəsilə hərəkət edir. Bütün bunlara əsasən belə bir təsəvvür yaranır ki, iqtisadi tarazlıq ümumi tələbin ümumi təklifə bərabər olmasını zəruri etdiyi halda, iqtisadi dinamika qeyri-bərabərliyə gətirib çıxarır. Lakin buna baxmayaraq bazar iqtisadiyyatı bir-birini inkar edən bu iki tələbə cavab verə bilir.

Məsələni bu kontekstdə izah etməkdə məqsəd ondan ibarətdir ki, iqtisadiyyatın dinamikası və strukturunun perspektivdə

dəyişməsi ilə əlaqədar proqnozlar verərkən «tarazlıq» və «dinamika», onları ifadə edən göstəricilər haqqında müəyyən təsəvvürə malik olmaq lazımdır.

Milli iqtisadiyyatın dinamikası haqqında proqnozların hazırlanması proqnozlaşdırmanın başlıca sahəsi olmaqla geniş təkrar istehsalın ümumi qanunauyğunluqlarına əsaslanır. Proqnoz verməkdə məqsəd iqtisadi artımın mümkün olan səviyyəsini qabaqcadan müəyyən etməkdir. İqtisadi artım və onun əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsi isə hər bir ölkənin iqtisadi siyasətinin başlıca strateji məqsədidir.

Rəsmi proqram sənədlərində, liberallaşdırma, özəlləşdirmə, sabitləşdirmə və iqtisadi siyasətin digər vasitələrinin analitik xülasələrində iqtisadi inkişafla əlaqədar qarşıya qoyulan məqsəd və vəzifələr xüsusi yer tutur. Lakin əhalinin həyat səviyyəsi, elmi-texniki tərəqqi, istehsalın iqtisadi səmərəliliyi göstəricilərinin əvəzinə bəzi hallarda iqtisadi siyasətin məqsədini deyil, ona nail olunması vasitələrini səciyyələndirən göstəricilərdən – özəlləşdirilmiş müəssisələrin sayı, inflyasiya, gömrük qaydalarının dəyişməsi və s. – istifadə olunur. Məsələn, məlum olduğu kimi, əmək məhsuldarlığı həm istehsalın səmərəliliyini səciyyələndirən başlıca göstərici, həm də iqtisadi artımın əsas amilidir. Lakin hazırda bu göstərici Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən nəşr olunan məcmuələrdə və digər rəsmi sənədlərdə demək olar ki, öz əksini tapmır.

İstehsalın artım və əlavə artım sürəti, makroiqtisadi səviyyədə istifadə olunan göstəricilər – ÜDM, ÜMM, ÜDMM, MKG, Milli sərvət və s. məlumdur. Burada yalnız onu demək kifayətdir ki, makro, region və sahə səviyyələrində göstəricilərin seçilməsi artımın təhlili və proqnozlaşdırılması ilə əlaqədar qarşıya qoyulan məqsəddən asılıdır. Bazar iqtisadiyyatı şəraitində istifadə edilən Milli hesabdarlıq sistemində əsas göstəricilər ÜDM və ÜMM-dir.

Həm də qeyd etmək lazımdır ki, ÜDM-in həcmi istehsal olunan məhsulların və göstərilən xidmətlərin fiziki həcminin, habelə qiymətlərin dəyişməsinin təsiri ilə dəyişə bilər. İstehsalın dinamikası dedikdə yaradılmış iqtisadi nemətlərin və xidmətlərin

fiziki həcmi nəzərdə tutulur. Bununla əlaqədar olaraq nominal və real ÜDM göstəriciləri bir-birindən fərqləndirilir və bu zaman ÜDM-in deflyatoru – qiymət indeksindən istifadə edilir.

İstehsalın ən mühüm göstəricilərindən biri də hər nəfərə düşən ümumi daxili məhsuldur. Məhz bu göstərici ölkənin ümumi gücünü səciyyələndirir. Əhalinin həyat səviyyəsi və sosial inkişaf göstəricilərini müəyyən etdikdə isə hər şeydən əvvəl «istinadolunma» nöqtəsini tapmaq lazımdır. Ölkələrin çoxu adətən öz səviyyələrini inkişaf etmiş ölkələrin, birinci növbədə ABŞ-ın səviyyəsi ilə müqayisə edirlər. Bu məqsədlə aşağıdakı göstəricilərdən istifadə olunur: 1) hər nəfərə düşən ümummilli məhsul və Milli gəlir; 2) Milli iqtisadiyyatın sahə quruluşu; 3) hər nəfərə görə əsas məhsul növləri istehsalı (ayrı-ayrı sahələrin inkişaf səviyyəsi); 4) əhalinin həyat səviyyəsi; 5) iqtisadi səmərəlilik göstəriciləri.

Hazırda xüsusi tədqiqatlarda və statistik məlumatlarda Beynəlxalq Valyuta Fondu tərəfindən işlənib hazırlanmış və Milli hesabdarlıq sisteminə daxil edilmiş, rəqabət qabiliyyətini ifadə edən müqayisəli göstəricilərdən də istifadə olunur. Bu göstəricilər ölkələrin emaledici sənayesində qiymətləri və xərcləri müəyyənləşdirmək və onları inkişaf etmiş ölkələrin orta göstəriciləri ilə müqayisə etmək məqsədilə işlənib hazırlanmış və aşağıdakılardan ibarətdir:

1) məhsul vahidində əmək haqqının xüsusi çəkisi; 2) işlənmiş bir adam-saatda istehsal edilmiş məhsul; 3) məhsul vahidində istehsalın bütün ilkin amillərinin xüsusi çəkisi; 4) sənaye məhsullarının topdansatış və ixrac qiymətlərinin müqayisəli səviyyəsi.

Milli iqtisadiyyatın dinamikasına dair proqnozlar işlənib hazırlandıqda bu göstəricilər hərtərəfli təhlil olunur və qarşıya aşağıdakı vəzifələr qoyulur:

- ölkənin mövcud inkişaf səviyyəsində iqtisadi artıma təsir edən amillərin müəyyən edilməsi;

- proqnozlaşdırma aparılan dövrədək hər bir amilin artım sürətinə təsiri ilə əlaqədar görülən tədbirlərin və ya onların əlaqələndirilməsinin kəmiyyətcə qiymətləndirilməsi;

- iqtisadi artımı təmin edən variantların işlənib hazırlanması;
- iqtisadi artıma təsir edən amillərin əlaqələndirildiyi ən yaxşı variantın seçilməsi əsasında ona daha çox təsir göstərən imkan və istiqamətlərin müəyyən edilməsi.

## 17.2. İqtisadi artıma təsir edən amillərin təsnifləşdirilməsi

İqtisadi artıma təsir göstərən çoxsaylı amillər bir sıra əlamətlərə görə təsnifləşdirilir. Bundan başqa iqtisadi artım yalnız amillərdən asılı olmadığına görə onların hamısının kəmiyyətcə qiymətləndirilməsi mümkün deyildir. Məsələn, bütün ölkələrdə iqtisadi artım sürətindəki fərqlər müəyyən şəraitdə təkrar istehsal prosesinin tsiklik xarakteri ilə əlaqədardır.

İqtisadi artıma təsir edən amilləri aşağıdakı kimi təsnifləşdirmək olar: 1) iqtisadi amillər; 2) siyasi və sosial amillər; 3) ekstensiv və intensiv amillər; 4) daxili və xarici amillər; 5) investisiya və qeyri-investisiya amilləri; 6) uzunmüddətli və qısamüddətli amillər.

İqtisadi amillər dərs vəsaitinin bundan əvvəlki fəsillərində nəzərdən keçirilmişdir, təkrara yol verməmək üçün onları bir daha aydınlaşdırmağı məqsədəuyğun hesab etmirik və sonrakı fəsillərdə yeri gəldikcə ətraflı təhlil aparılacaqdır. Odur ki, qısaca olaraq digər amilləri nəzərdən keçirək. Müstəqilliyimizin ilk dövrlərində Azərbaycanda hadisələr elə cərəyan edirdi ki, hətta dövlətçiliyimizin müqəddəratı təhlükə qarşısında qalmışdı. Siyasi çəkişmələr, hakimiyyət davası Azərbaycanı parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Ölkə iqtisadiyyatı demək olar ki, dağıdılmışdı, müəssisələrin çoxu fəaliyyətini dayandırmışdı, kütləvi işsizlik baş alıb gedirdi, siyasi gərginlik artmışdı. Təbiidir ki, bütün bunlar ölkədə iqtisadiyyatın ayrı-ayrı sahələrində tənəzzülə gətirib çıxarmış, istehsalın səviyyəsinin hər il aşağı düşməsinə səbəb olmuşdu. Belə bir şəraitdə iqtisadi artımdan danışmağa dəyməzdi. İqtisadi şəraitə xalqın hakimiyyətə, hakimiyyət qollarının isə bir-birinə olan inamı da təsir göstərir. Bu, özünü onda göstərir ki, ölkədə siyasi vəziyyətin kəskinləşməsi iqtisadi sabitliyin pozulmasına səbəb olur.

İqtisadi problemlərin müvəffəqiyyətlə həll edilməsinin başlıca ilkin şərtlərindən biri fəal sosial siyasət yeridilməsidir. Çünki istehsalın səmərəliliyinin yüksəlməsinə təsir edən və bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən amillər içərisində sosial amillər xüsusi rol oynayır. Sosial siyasətdə qarşıya qoyulan məqsəd və vəzifələr yaranmış şəraitdən asılı olaraq dəyişkən xarakter daşımalıdır. Bu o deməkdir ki, vaxtı keçmiş və zamanla həmahəng səslənməyən sosial təminatlar daim dəyişdirilməli və təkmilləşdirilməlidir. Bu sahədə Azərbaycan dövləti məqsədyönlü iş aparır. Buna ehtiyac meyarının, yaşayış minimumunun, minimum əmək haqqının və pensiyaların baza hissəsinin daim nəzərdən keçirilməsi və konkret şəraitdən asılı olaraq onlara düzəlişlər edilməsi və s. əyani misal ola bilər.

Müxtəlif əhali qruplarının gəlirləri və istehlakında bu gün mövcud olan kəskin fərqlər əməyin səmərəliliyinin, onun məhsuldarlığının yüksəldilməsinə olan stimulu zəiflədir, iqtisadiyyatdakı tarazlığı pozur. Bunlar keçid iqtisadiyyatı şəraitində Azərbaycanda özünü daha qabarıq şəkildə göstərir. Məsələn, 2006-cı ilə olan rəsmi statistik məlumata görə ölkə üzrə orta aylıq nominal əmək haqqı 149 manata bərabər olduğu halda, mədənçıxma sənayesi və karxanaların işlənməsində bu, 633,7 manat, tikintidə 298,7 manat, maliyyə vasitəçiliyində 418,0 manat, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyətində 368,5 manat, təhsildə 80,1 manat, səhiyyə və sosial xidmətlərdə 69,9 manat təşkil etmişdir.

Sosial siyasətin bir çox aspektlərinin aktuallığı şəraitində əhalinin əmək fəallığının yüksəldilməsi və onun əməyə olan marağının artırılması üçün həvəsləndirmə tədbirlərinin həyata keçirilməsi, səmərəli məşğulluğun təmin olunması, bazar münasibətlərinə keçid şəraitində sosial xərclərin imkan daxilində azaldılması vəzifələri birinci dərəcəlói əhəmiyyətə malikdir.

İqtisadi artımın xarakterinə görə amillər iki yerə bölünür: 1) ekstensiv amillər; 2) intensiv amillər. Buna uyğun olaraq iqtisadi artımın ekstensiv və intensiv tipləri bir-birindən fərqlənir. Ekstensiv inkişaf yolu iqtisadi artımın kəmiyyət amilləri, yəni istehsalata əlavə iş qüvvəsinin cəlb edilməsi, xammal və material sər-

finin, kapital qoyuluşunun artırılması, kənd təsərrüfatına yararlı becərilən torpaqların və əkin sahələrinin genişləndirilməsi və s. hesabına istehsalın həcminin artırılması deməkdir. Ekstensiv inkişaf yolunda istehsalın səmərəliyi dəyişməz qalır. Müasir dövrdə təkrar istehsalın ekstensiv tipindən xalis şəkildə istifadə edilməsinə rast gəlinmir. O, bir qayda olaraq iqtsadi inkişafın intensiv tipi ilə əlaqələndirilir. İntensiv inkişaf yolu dedikdə istehsalın keyfiyyət amilləri, birinci növbədə elm və texnikanın nailiyyətlərinin tətbiq olunması, işçilərin ixtisasının yüksəldilməsi, təbii ehtiyatlardan və mövcud istehsal potensialından daha səmərəli istifadə edilməsi yolu ilə artırılması nəzərdə tutulur. İntensiv amillər özünün ümumiləşdirilmiş ifadəsini əmək məhsuldarlığının yüksəlməsində və istehsal olunan məhsul vahidinə sərf edilən maddi xərclərin azalmasında tapır. Ekstensiv və intensiv iqtisadi amillərdən paralel şəkildə istifadə olunsa da, konkret şəraitdən asılı olaraq onlardan hər hansı birinə üstünlük verilə bilər.

İqtisadi artımın əsas amilləri haqqında aşağıdakı sxem daha aydın təsəvvür verir:

**İqtisadi artımın əsas amilləri**



Dünyada neftin, qazın və digər xammal resurslarının qiymətlərinin bahalaşması dövlət büdcəsinin gəlirlərini artırır və büdcə xərclərinə yenidən baxılmasına, yəni onun artırılmasına imkan verir. Bu isə həmin xərclərin bir hissəsinin iqtisadi artıma təsir göstərən və çox mühüm amillərdən hesab olunan investisiyaların real iqtisadiyyata yönəldilməsinə şərait yaratmış olur. Lakin bu, xarici və konyuktura amilidir. İqtisadi artım əsas etibarilə daxili amillər hesabına – əmək məhsuldarlığının yüksəldilməsi, istehsal xərclərinin azaldılması, iqtisadiyyatın real bölməsində mənfəətin artırılması və i.a. – təmin edilməlidir.

İnvestisiya tələb etməyən amillər demək olar ki, yoxdur və ya olduqca azdır. Ona görə də amillərin investisiya tələb edən və investisiya tələb etməyən amillərə bölünməsi əslində şərti xarakter daşıyır. İstehsalın səviyyəsinin aşağı düşməsi və investisiyaların ixtisar olunması bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan proseslərdir. Bu, təbiidir. Çünki investisiya qoymadan müəssisənin texniki təchizatını yeniləşdirmək, əmək məhsuldarlığını yüksəltmək mümkün deyildir. Odur ki, Azərbaycan dövləti müstəqilliyimizin ilk günündən iqtisadiyyata xarici və daxili investisiya qoyuluşu üçün əlverişli mühit yaradılmasına xüsusi diqqət yetirmiş və bu sahədə çox böyük, bəlkə də ölçüyəgəlməz işlər görülmüşdür və görülür.[1] Bütün bunların və ölkədə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası hazırda ÜDM-in artım sürətinə görə dünyada ön mövqelərdən birini tutur. Səciyyəvi cəhət ondan ibarətdir ki, ölkəmiz indi özü də xaricdə investisiya qoyan ölkəyə çevrilmişdir. Xarici və daxili investisiyalar arasındakı nisbət də dəyişmişdir. Belə ki, ölkəmizin iqtisadiyyatına bütün mənbələr üzrə ümumi investisiya qoyuluşunda daxili investisiyaların xüsusi çəkisi 2004-2006-cı illərdə 22,8%-dən 39,1%-ə çatmış, xarici investisiyalarınkı isə müvafiq olaraq 77,3%-dən 60,9%-ə enmişdir. Bu, mütərəqqi haldır və yaxın vaxtlarda ölkəmizin həyat səviyyəsinə görə inkişaf etmiş ölkələrə yaxınlaşacağını deməyə əsas verir.

---

[1] Bu barədə VII və XXIII fəsillərdə ətraflı bəhs olunmuşdur.

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində bir sıra çətinliklərlə üzləşmişdi. İqtisadiyyatın həlledici sahələrində – sənaye və kənd təsərrüfatında – istehsalın səviyyəsi ilbəil aşağı düşürdü. Belə ki, 1991-1995-ci illərdə iqtisadiyyatımızın ayrı-ayrı sahələrində istehsal olunan ümumi daxili məhsul hər il 13-20% azalırdısa, 1996-cı ildə onun fiziki həcm indeksi 101,3% (1,3% artım) təşkil etmiş, sonrakı illərdə isə bu artım getdikcə sürətlənmişdir. Bunu statistik rəqəmlər də əyani surətdə göstərir. Belə ki, ÜDM-in artım sürəti 1997-ci ildə 5,8%, 1998-ci ildə 10,3%, 2003-cü ildə 11,4%, 2005-ci ildə 36,0%, 2006-cı ildə isə 34,5% olmuşdur.

Qeyri-investisiya amilləri istehsalın daxili ehtiyatlarıdır. Elmi-tədqiqat institutlarının apardıqları hesablamalara görə iqtisadiyyatın ayrı-ayrı sahələrində (məsələn, emaledici sənayedə) heç bir investisiya qoymadan mövcud istehsal güclərindən tam istifadə etməklə məhsul istehsalını 25-35% artırmaq olar. Qeyri-investisiya amillərinə həmçinin mövcud olan ixtisaslı iş qüvvəsindən onların ixtisasına uyğun işlərdə səmərəli istifadə edilməsini misal göstərmək olar.

Yuxarıda qeyd olunduğu kimi, 1995-ci ildən etibarən ölkəmizdə ÜDM istehsalının artım sürəti ilbəil yüksəlməyə başlamışdır. Bu, birinci növbədə iqtisadiyyatın baza sahələrinə aiddir. Sual olunur: buna hansı amillər təsir etmişdir və onları iqtisadiyyatın uzunmüddətli proqnozlaşdırılan dinamikasının inkişaf meyllərinə aid etmək olarmı? Buna hər şeydən əvvəl, aparılan iqtisadi islahatlar, iqtisadiyyatın strukturunun bazar münasibətləri əsasında yenidən qurulması ilə əlaqədar görülən məqsədyönlü tədbirlər imkan vermişdir. Bunlardan başqa, ölkəmizdə həyata keçirilən inhisarçılıq və inflyasiya əleyhinə tədbirlər də müsbət rol oynamışdır. Təbiidir ki, bunlardan bəziləri uzunmüddətli, bəziləri isə qısamüddətli amillərdir.

İqtisadiyyatın dinamikası ilə əlaqədar amillərin təsnifləşdirilməsindən aydın olur ki, onların hamısını kəmiyyətcə qiymətləndirmək mümkün deyildir. İqtisadçılar üçün bu amillərin, o cümlədən iqtisadi artıma mane olan amillərin keyfiyyətcə qiymətləndrilməsi də olduqca vacibdir. Lakin iqtisadi dinamikanın

gələcəkdə necə olacağını proqnozlaşdırmaq üçün hər şeydən əvvəl modelləşdirmədən istifadə etməklə onları kəmiyyətcə qiymətləndirmək lazımdır. Bu modellərdə bir qayda olaraq ölkənin mövcud şəraiti və maddi-texniki bazasının vəziyyətindən asılı olaraq öz aralarında əlaqələndirilən eyni amillərdən istifadə olunur. Aşağıdakı təsnifləşdirmənin aparılması da məqsədəuyğun olardı: 1) iqtisadiyyatda fiziki artımı təmin edə bilən amillər; 2) ümumi xərclərin artırılması imkanları ilə müəyyən olunan tələb amilləri; 3) bölgü amilləri.

İqtisadiyyatda fiziki artımı təmin edə bilən amillər təbii və əmək ehtiyatlarının kəmiyyəti və keyfiyyətini, əsas kapitalın həcmini, ETT-nin nailiyyətlərindən istifadə olunması dərəcəsini, amillərin səmərəliliyinin dəyişməsini və s. səciyyələndirir.

İqtisadi nemətlərin və xidmətlərin istehsalı cəmiyyətin sərəncamında olan istehsal ehtiyatlarının müəyyən həcmdə, tərkibdə və keyfiyyətdə məhsula çevrilməsi deməkdir. Bu məhsullar öz növbəsində istehsal ehtiyaclarının ödənilməsinə yönəldilir. Sabit inkişafa təsir edən amillərdən biri də millətin intellektual səviyyəsi, onun təhsili, ölkənin elmi potensialıdır.

Dünyada uzun müddət ayrı-ayrı ölkələr özlərinin iqtisadiyyatının inkişaf etdirilməsi üçün xarici resursları cəlb etmişlər. Bu inkişaf kapitalist ölkələrinin müstəmləkə və yarımmüstəmləkə ölkələrin təbii ehtiyatlarından istifadə etmələri əsasında təmin edilmişdir. Bu, özünü qeyri-ekvivalent mübadilədə – xammalın ucuz qiymətlə satın alınması və sənaye məhsullarının həmin ölkələrə baha satılması – göstərmişdir. ABŞ öz iqtisadiyyatını inkişaf etdirmək üçün dünyanın bir çox ölkələrinin təbii resurslarından istifadə edir.

Hazırda ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası və standartlarına uyğunlaşdırılması prosesi gedir. Və bu proses çoxtərəfli xaratker daşıyır. Başqa sözlə, dünya standartlarına «uyğunlaşma» sahəsində çox mühüm tədbirlər görülür və bu prosesdən kənarda qalınması və ya kənara çıxılması mümkünsüzdür. Lakin hələ ölkəmizdə iş qüvvəsi digər ölkələrlə müqayisədə ən ucuz əmtəədir. Odur ki, əmək haqqının səviyyəsinin aşağı olmasının iqtisadi artıma əngəl törətdiyini id-

dia edən iqtisadçıların fikri ilə razılaşmaq olar. Çünki əhali gəlirlərinin mövcud səviyyəsi daxili bazarda kifayət qədər tələbi təmin etmir. Ən varlı adamların gəlirlərinin çox böyük hissəsi əksəriyyət hallarda xarici bazarlarda, cüzi bir hissəsi isə daxili bazarda reallaşdırılır. Onlar öz gəlirlərini xarici banklarda saxlamağa üstünlük verir və xarici ölkələrdə mülkiyyət sahibi olurlar.

Bazar iqtisadiyyatına keçid tələbin istehsala təsirini kəskin surətdə yüksəldir. Və bununla da iqtisadiyyata stimullaşdırıcı təsir göstərən amillər meydana çıxır. Lakin tələb kortəbii proses deyildir, tənzimlənə bilər. Başqa sözlə, dövlət tələbə təsir göstərə bilir.

Bölgü amilləri resursların elə bölüşdürülməsini səciyyələndirir ki, bu, daha çox məhsul əldə edilməsinə imkan versin. İqtisadi artımın maliyyə amilləri də vardır. Bunların içərisində iqtisadi artıma həlledici təsir göstərənləri inflyasiya və bankın faiz dərəcələridir. Çünki kapitalın qiymətini bunlar müəyyən edirlər. Lakin nəzərdən keçirilən ümumi amillərlə yanaşı, hər bir ölkədə bu və ya digər dövrdə spesifik amillər də fəaliyyət göstərir.

Azərbaycanda iqtisadiyyatın inkişaf etmiş bölməsinin – neft sektorunun yaradılmış olduğu müasir şəraitdə qeyri-neft bölməsinin hərtərəfli inkişaf etdirilməsi qarşıda duran ən mühüm və strateji vəzifələrdən biridir. Başlıca problemlərdən biri də havadarlarının bilavasitə iştirakı ilə ermənistan ordusu tərəfindən işğal olunmuş ərazilərin boşaldılmasıdır. Bu, ölkə iqtisadiyyatında mütərəqqi struktur dəyişikliklərinin daha da təkmilləşdirilməsinə və bir sıra iqtisadi məsələlərin həll edilməsinə imkan verə bilər.

## 17.3. Dinamikanın proqnozlaşdırılması metodları

Makroiqtisadi dinamikanın proqnozlaşdırılması metodları ölkənin mövcud və arzu olunan inkişafı haqqında təsəvvürə əsasən müəyyən edilməlidir. Dinamikanın proqnozlaşdırılmasının

başlıca tərkib ünsürləri iqtisadi artımın imkanları və məhdudiyyətləri (elmi-texniki, sosial tədbirlər və i.a.) olmalıdır.

İqtisadi siyasətdə qarşıya qoyulan məqsədlərin, imkanların, məhdudiyyətlərin və vasitələrin müxtəlif variantlarda bir-biri ilə əlaqələndirilməsi makroiqtisadi proqnozlaşdırmada xüsusi yer tutur. Məsələn, perspektiv dövr üzrə iqtisadi artım müəyyən olunarkən ölkədəki mövcud demoqrafiya, əsas fondların fiziki və mənəvi köhnəlməsi, dövlət borcu və s. nəzərə alınır.

Makroiqtisadi dinamikanın metodlarına gəldikdə bunlardan ən sadələrini nəzərdən keçirək. Onlardan biri ekstrapolyasiya metodudur. Bu, ÜDM hesablandıqda zaman funksiyası kimi nəzərdən keçirilir və aşağıdakı düsturla müəyyən olunur:

$$Y = f(t),$$

Burada: Y – ÜDM, t – zaman deməkdir. Lakin bunun tətbiq dairəsi olduqca məhduddur. Çünki o, həm inkişafın yeni imkanlarını, həm də artım imkanları tükəndikdə meydana çıxan yeni məhdudiyyətləri təhrif edir. Mövcud meyllərlə əlaqədar ekstrapolyasiya əsasında verilən proqnozlar bir o qədər də etibarlı deyildir. Odur ki, riyazi statistikanın metodlarından, xüsusilə də reqressiv tənlikləri tətbiq etməklə korrelyasiya təhlilindən geniş istifadə olunur.

Resurslardan istifadənin dinamikası və səmərəliliyi əsasında iqtisadi artım sürətinin proqnozlaşdırılmasının ən sadə modelini nəzərdən keçirək. Tutaq ki, ilkin istehsal ehtiyatı əsas istehsal fondları (K) və əmək ehtiyatlarıdır (L). Bu zaman model ümumi şəkildə belə yazılır:

$$Y = f(K, L)$$

ÜDM-in dinamikası əmək məsrəfləri və əmək məhsuldarlığının dinamikası, yaxud da əsas istehsal fondlarının və fondveriminin dəyişməsinin mümkünlüyü əsasında müəyyən olunduqda təkamilli və çoxamilli (ən sadə halda ikiamilli) modellərdən istifadə edilə bilər.

ÜDM canlı əməyin funksiyası kimi təsəvvür olunduqda aşağıdakı düsturla müəyyən edilir:

$$Y_t = P_t \cdot L_t$$

Burada: $P_t$ – t ilində əmək məhsuldarlığını,

$L_t$ – t ilində milli iqtisadiyyatda məşğul olanların sayını göstərir.

Orta illik artım sürətini müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə olunur:

$$Y = P + L$$

Burada: Y – ÜDM-in artım sürətini,

P və L - əmək məhsuldarlığı və milli iqtisadiyyatda məşğul olanların sayının orta illik artım sürətini göstərir.

İqtisadi artım sürəti əsaslandırılarkən aşağıdakılar hesablanır:

- əmək məhsuldarlığının artım sürəti;
- iqtisadiyyatda məşğul olan işçilərin sayının artım sürəti.

Əmək məhsuldarlığının artım sürətini hesabladıqda ekstrapolyasiya metodundan istifadə edilə bilər. Lakin bu zaman ən azı aşağıdakı əsas amillər nəzərə alınmalıdır:

- əməyin fondla və enerji ilə silahlanması göstəricilərində baş verən dəyişikliklər;
- istehsalın sahə strukturunda gələcəkdə baş verməsi gözlənilən dəyişikliklər (çünki əmək məhsuldarlığının səviyyəsi iqtisadiyyatın sahələri üzrə kəskin surətdə fərqlənir);
- elm və texnikanın nailiyyətlərinin istehsalata tətbiqi.

Perspektiv dövr üzrə əmək ehtiyatlarının sayının dinamikası müəyyən olunduqda isə aşağıdakılar nəzərə alınır:

- əhalinin təbii artımı;
- miqrasiya proseslərinin dinamikası;
- iqtisadi fəal əhalinin sayı və işsizliyin səviyyəsi;
- məşğul əhalinin sahələr üzrə bölüşdürülməsində baş verən dəyişikliklər.

Əsas fondların və onların səmərəliliyinin funksiyası kimi ÜDM-in həcmi aşağıdakı düsturla hesablanır:

$$Y_t = E_t \cdot K_t$$

Burada: $E_t$ – t ilində fondverimi;

$K_t$ – t ilində əsas fondların dəyəri deməkdir.

Bu zaman artım sürətini müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə olunur:

$$y = E \cdot K$$

Burada: K və E müvafiq olaraq əsas fondların orta illik artım sürətini və fondveriminin dəyişməsini göstərir.

Əsas fondların dinamikasını hesablamaq üçün aşağıdakıları nəzərə almaq lazımdır:

- ÜDM-də istehsal təyinatlı yığımın xüsusi çəkisinin dəyişməsi;
- əhalinin yığıma meylliliyi;
- İqtisadiyyatın sferaları və sahələri üzrə istehsal potensialının genişləndirilməsinə olan tələbat və digər amillər.

Fondveriminin dəyişməsi imkanlarının əsaslandırılması olduqca çətin məsələdir. Çünki o, əksəriyyət hallarda əks istiqamətlərdə fəaliyyət göstərən bir çox amillərin nəzərə alınması ilə əlaqədardır.

Makroiqtisadi səviyyədə fondveriminin dinamikasına aşağıdakılar təsir göstərir:

- əsas fondların və kapital qoyuluşunun sahə və ərazi üzrə quruluşu;
- elmi-texniki tərəqqi və s.
- əsas fondların və kapital qoyuluşunun artırılması mənbəyi ÜDM-in yığıma yönəldilən hissəsidir. ÜDM-in orta illik artım sürəti isə aşağıdakı düsturla müəyyən edilir:

$$Yy = a \cdot e$$

Burada: a – ÜDM-də yığımın xüsusi çəkisi,
e – yığım vahidinin səmərəliliyi deməkdir.

Bu mütənasibliyə əsaslanmaqla milli məhsulda yığımın xüsusi çəkisinin optimallaşdırılması vəzifəsini qarşıya qoymaq olar. Optimallaşdırmanın isə müxtəlif meyarlar üzrə aparılması mümkündür.

Çoxamilli model ÜDM-in dinamikasının eyni zamanda bir neçə amildən funksional asılılığını əks etdirir:

$$y = f(K, L)$$

Bu model əvvəlki model kimi makroiqtisadi istehsal funksiyalarının köməyilə düzəldilir. İkiamilli funksiyanın konkret formasına Kobb-Duqlas istehsal funksiyasını misal göstərmək olar.

XX əsrin 20-ci illərinin axırlarında ABŞ vətəndaşları iqtisadçı P.Duqlas və riyaziyyatçı X.Kobb 1899-1922-ci illərdə Amerikanın emaledici sənayesində əsas kapitalın, işlənmiş saatların miqdarının və istehsalın həcminin artmasını nəzərdən keçirərək üç müvəqqəti sıra düzəltmişlər. Məlum olmuşdur ki, bu dövrdə əsas kapital 4,0 dəfə, əməyin kapitalla təchiz olunması 2,7 dəfə, işlənmiş saatların miqdarı 1,61 dəfə, istehsalın fiziki həcmi isə 2,4 dəfə artmışdır.

Onlar istehsal funksiyasının xətti və homogen (eyni mənşəli) olduqlarını nəzərə alaraq aşağıdakı empirik düsturdan istifadə olunmasını təklif etmişlər:

$$Y = 1{,}01 \cdot L^a \cdot K^b$$

Burada: Y – istehsalın həcmi, L – əmək məsrəfləri, «a» və «b» qüvvət əmsallarıdır.[1]

«a» və «b» əmasalları arasındakı nisbət müxtəlif ola bilər. Başqa sözlə, a+b=1, a+b<1, a+b>1 variantlarının olması mümkündür. Kobb-Duqlas funksiyasında a+b=1 olması o deməkdir ki, ÜDM canlı və ictimai əmək sərfi nəticəsində arta bilər. Daha dəqiq desək, bu iqtisadi artımın ekstensiv amillər hesabına əldə edilməsi deməkdir. Kobb və Duqlas sonrakı hesablamalarında «a»-nın qiymətinin 3/4-ə, «b»-nin qiymətinin 1/4-ə bərabər olduğunu müəyyənləşdirmişlər. P.Samuelson və V.Nordhausun «Ekonomiks»ində də məsələlər təqribən bu cür qoyulur. Bu məsələlər xüsusi ədəbiyyatda daha ətraflı şərh olunur.

XX əsrin 50-ci illərinin ortalarından 80-ci illərinin ortalarınadək ekzogen, yəni xarici qüvvələrin təsiri ilə yaranan neoklassik nəzəriyyələr konsepsiyası çərçivəsində işlənib hazırlanmış texnoloji tərəqqi hökmranlıq etmişdir. Onlar Y.Timbergen,

---

[1] Qüvvət əmsalları dedikdə müvafiq istehsal amili 1% artdıqda istehsalın həcminin nə qədər artacağı nəzərdə tutulur.

R.Solou, R.Xarrod, C.Xiks kimi xarici ölkə iqtisadçılarının və başqalarının əsərlərində irəli sürülmüş və əsaslandırılmışdır.

$Y_{(t)} = \lfloor K_{(t)}, L_{(t)}, t \rfloor$ şəklində istehsal funksiyası ilə artımın üçamilli neoklassik modelləri əsasında yerinə yetirilmiş müxtəlif xarakterli tədqiqatlar statistika göstəriciləri sistemində elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadənin ABŞ iqtisadiyyatının inkişaf dinamikasına verdiyi töhfənin yüksək qiymətə layiq olduğunu göstərir. Məsələn, Amerika iqtisadçısı Edvard Denisonun hesablamalarına, habelə Amerika iqtisadçılarının məlumatlarına görə 1909-1929-cu illəri əhatə edən statistika sıralarında o 33% təşkil etmişdir. Lakin neoklassik modellər çərçivəsində elmi-texniki tərəqqi əmək və kapitaldan savayı istehsalın digər amillərini birləşdirən istehsal funksiyasının hər hansı bir arqumenti kimi təsvir olunur.

XX əsrin 80-ci illərinin ortalarında insan potensiallı ideyasına əsaslanan yeni daxili, iqtisadi artım modelləri meydana gəlmişdir. Və bu, insan kapitalına xüsusi diqqət yetirilməsi sahəsində həyata keçirilən dövlət siyasətinin köməyilə uzunmüddətli iqtisadi artıma təsiretmə imkanlarını xeyli genişləndirmişdir.

Daxili (endogen) texnoloji tərəqqi konsepsiyası əcnəbi alimlər – P.Romer, R.Lukas, C.Qrossman, E.Heenman və başqaları tərəfindən təklif olunan iqtisadi artım modellərində öz əksini tapmışdır. Bu modellər sayəsində «yeni biliklər», «insan kapitalı» kimi anlayışlar müasir iqtisadi artım nəzəriyyələrinin əsas kateqoriyaları cəbbəxanasına daxil olmuşdur. Odur ki, yeni biliklərin texnoloji yeniliklərə çevrilməsi mexanizminin öyrənilməsi və mənimsənilməsi problemi çox böyük əhəmiyyətə malikdir. Çünki uzunmüddətli və sabit iqtisadi artımın təmin olunmasında elmi biliklər və insan potensiallı başlıca rol oynayır. Ona görə də elmin inkişaf etdirilməsi, təhsildə islahatların aparılması və deməli, yüksək ixtisaslı elmi kadrların hazırlanması dövlətin iqtisadi siyasətinin prioritetlərindən biri olmalıdır.

İqtisadi artımın proqnozlaşdırılmasında müxtəlif metodlardan istifadə olunur ki, bunlar da dərs vəsaitinin ikinci fəslində ətraflı nəzərdən keçirilmişdir.

## 17.4. İstehsalın səmərəliliyini ifadə edən əsas göstəricilər

Nəzərdən keçirilən modellərdən aydın olur ki, məhsul buraxılışının həcminin istehsal amillərinin dinamikası ilə müqayisəsi nəticəsində istehsalın iqtisadi səmərəliliyi göstəriciləri əmələ gəlir.

İqtisadi səmərəlilik göstəriciləri digər amillərdən asılı olaraq dəyişir. Səmərəliliyin ümumi göstəricisi – istehsalın nəticəsinin ümumi xərclərə olan nisbətini ifadə edir. Səmərəliliyin xüsusi göstəriciləri isə istehsalın nəticələrinin istehsal ehtiyatları növlərinin hər birinin kəmiyyətinə olan nisbəti kimi hesablanır. Bu göstəricilərə aşağıdakılar aiddir:

1) Material tutumu – ÜDM-in bir manatına düşən maddi xərclər, habelə natura ifadəsində ÜDM-in bir manatına düşən əsas növ maddi resurs sərfi (enerjitutumu, metaltutumu və başqaları) – maddi resurslardan istifadə göstəricisi;

2) Əmək məhsuldarlığı (əmək tutumu), əmək məhsuldarlığının yüksəldilməsi hesabına ÜDM artımının xüsusi çəkisi – canlı əməkdən istifadə göstəricisi;

3) Fondverimi, fondtutumu, kapital qoyuluşu və əsas fondlardan istifadəni ifadə edən digər göstəricilər.

Bu göstəricilər səmərəlililyin orta göstəriciləri, əlavə və son artımı kimi hesablana bilər.

İstehsalın səmərəliliyinin ümumiləşdirici göstəricisi hər nəfərə görə ümumi daxili məhsul istehsalıdır.

İstər səmərəlilik, istərsə də istehsalın strukturu göstəriciləri «artımın keyfiyyəti» anlayışı ilə sıx surətdə bağlıdır. Odur ki, hər cür artıma iqtisadi inkişaf demək olmaz. Deməli, artımın hansı ehtiyatın hesabına əldə edilməsinin müəyyən edilməsi çox vacibdir.

İş qüvvəsi, avadanlıqlar, materiallar çox geniş və əhatəli keyfiyyət əlamətlərinə malikdirlər. Məsələn, iş qüvvəsi üçün bu, təhsil və ixtisas, avadanlıqlar, materiallar üçün müxtəlif texniki xassələrin toplusundan ibarətdir.

İqtisadiyyatın dinamikasını proqnozlaşdırarkən ona əsaslanmaq lazımdır ki, istehsalın səmərəliliyinin artırılmasının başlıca yolu əmək məhsuldarlığının yüksəldilməsi və təkrar istehsalın ehtiyatlara qənaətetmə tipinə – material tutumunun azaldılması, əsaslı xərclərin ehtiyatlara qənaətetmə istiqamətinin müəyyənləşdirilməsi və ona üstünlük verilməsi və i.a. – keçilməsindən ibarətdir. İqtisadi səmərəlilik göstəriciləri demək olar ki, dərs vəsaitinin müvafiq fəsillərində hərtərəfli nəzərdən keçirilir.

## 17.5. İqtisadiyyatın sabitləşdirilməsi və iqtisadi artımın təmin edilməsi

Bazar iqtisadiyyatı qanunlarına görə böhrandan sonra canlanma, bundan sonra işgüzar fəallıq, nəhayət sabit iqtisadi artım başlanır. SSRİ dağıldıqdan və onun yerində müstəqil dövlətlər yarandıqdan sonra Azərbaycanda da həm siyasi, həm də iqtisadi böhran başlanmışdı. Odur ki, qarşıda duran əsas vəzifə bu böhrandan çıxmaq üçün iqtisadiyyatın sabitləşdirilməsini təmin etmək, sonra isə artıma nail olmaqdan ibarət idi. Bu isə bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsi ilə mümkün ola bilərdi. Azərbaycan dövləti tərəfindən aparılan səmərəli iqtisadi siyasət nəticəsində 1995-ci ildən etibarən ölkəmizdə iqtisadi artıma nail olunmasının etibarlı bünövrəsi qoyulmuş oldu.

İqtisadi artım nəzəri diskussiyalarda və praktik tövsiyələrdə əsas yer tutur. Amillər «dəsti», onların prioritetliyi, artım sürətinin kəmiyyəti – ildə 1,5%-dən 13%-ədək – ilə fərqlənən müxtəlif konsepsiyalar təklif olunur. Azərbaycan iqtisadçıları bu konsepsiyalardan yararlanmaqla ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə əlaqədar məqsədyönlü və dəyərli təkliflər irəli sürür və bunların əsasında dövlət strukturları tərəfindən xüsusi proqramlar işlənib hazırlanır. Bunlara «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı (2002-2005-ci illər), 1995-1998-ci illərdə Dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı, Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II dövlət

proqramı», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)», «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi» və s. dövlət proqramlarını misal göstərmək olar.

İqtisadiyyatın dinamikasının son illərdəki mövcud vəziyyətini hərtərəfli təhlil etmədən onun əsas göstəricilərinə nəzər salaq (cədvəl 17.1).

Cədvəl 17.1.

**Azərbaycan Respublikası üzrə əsas makroiqtisadi göstəricilər[1]**

| № | Göstəricilər | Əvvəlki ilə nisbətən, faizlə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
| 1 | Ümumi daxili məhsul | 88 | 111,1 | 110,8 | 105,2 | 106,7 | 102,9 | 100,7 | 95,6 |
| 2 | İnflyasiya (istehlak qiymətləri indeksi) | 511,8 | 101,8 | 101,5 | 102,8 | 102,2 | 106,7 | 109,6 | 108,3 |
| 3 | Sənaye məhsullarıı istehsalçılarının qiymət indeksi | 560,7 | 127,4 | 101,8 | 97,7 | 116,1 | 112,9 | 118,9 | 117,7 |
| 4 | Sənaye məhsullarının ümumi həcmi | 78,6 | 106,9 | 105,1 | 103,6 | 106,1 | 105,7 | 133,5 | 136,6 |
| 5 | Kənd təsərrüfatı məhsullarının həcmi | 93,0 | 112,1 | 111,1 | 106,4 | 105,6 | 104,6 | 107,5 | 100,9 |
| 6 | Əsas kapitala investisiya qoyuluşu | 82,0 | 103,0 | 121,0 | 184,2 | 173,8 | 135,4 | 116,6 | 115,2 |

17.1 cədvəlindəki məlumatlar ölkəmizdə on bir il ərzində ümumi daxili məhsul istehsalının hələ baza kimi götürülən illə – (1995-ci il) müqayisəsi bir yana qalsın, hər sonrakı ilin göstəricisinin özündən əvvəlki ilin göstəricisi ilə müqayisəsi onun sürətlə artdığını göstərir. Bu, ölkəmizin iqtisadi artım sürəti sahəsində öndə getdiyini deməyə əsas verir. 2000-2006-cı illərdə inflyasiyanın sürəti hər il özündən əvvəlki illə müqayisədə 1,5%-lə 9,6%

---

[1] Azərbaycanın statistik göstəriciləri. 2007. bakı, «Səda» nəşriyyatı. Bakı, 2007-ci il, s.40, 48, 49, 50, 361,

arasında tərəddüd etmişdir. Sənaye məhsulları istehsalının artımı 2005-ci ilə nisbətən 2006-cı ildə 36,6% olmuş, kənd təsərrüfatı məhsulları istehsalınınkı isə əksinə, 6,6% azalmış və demək olar ki, artmamışdır. Başqa sözlə, əvvəlki illə müqayisədə cəmicümlətanı 0,9% təşkil etmişdir. Əsas kapitala investisiya qoyuluşu 1995-ci ildən başlayaraq 2003-cü ilədək əvvəlki ilə nisbətən hər sonrakı ildə yüksələn xətt üzrə getmiş, 2003-cü ildən isə azalma meyli özünü göstərmişdir. Belə ki, özündən əvvəlki illə müqayisədə əsas kapitala investisiya qoyuluşu 2003-cü ildəki 73,8%-dən 2004-cü ildə 35,4%-ə, 2005-ci ildə 16,6%-ə, 2006-cı ildə isə 15,2%-ə enmişdir.

Dünyada istehsal olunan ümumi daxili məhsulda Azərbaycanın payı təqribən 0,003%-ə, orta aylıq nominal əmək haqqı isə 250 manata və ya təqribən 300 ABŞ dollarına bərabərdir. Dünyada yaradılan ÜDM-də ABŞ-ın xüsusi çəkisi 20% təşkil edir ki, bu da hər nəfərə düşən orta aylıq gəlirin 3000 dollardan çox olmasını təmin edir. Deməli, Azərbaycanda orta aylıq gəlir ABŞ-dakı eyni göstəricidən 10 dəfə azdır və bu ölkəmizin imkanlarına uyğun gəlmir.

ABŞ özünün xüsusi təbii resursları ilə pis təmin olunmamışdır. Yaponiya haqqında isə bunu demək olmaz. Çünki Yaponiya təbii ehtiyatlara görə demək olar ki, «kasıb» ölkələr sırasına daxildir. Lakin buna baxmayaraq dünyada istehsal olunan ÜDM-in 8%-ə qədəri Yaponiyanın payına düşür. Hazırda inkişaf etmiş ölkələrdə ÜDM artımının 90%-ə qədəri yeni texnologiyalardan istifadə olunması hesabına əldə edilir. Dünya bazarında elm tutumlu məhsulların həcmi 2,5 trln. dollar təşkil edir ki, bunun da 40%-i ABŞ-ın, 30%-i Yaponiyanın, 18%-ə qədəri Almaniyanın payına düşür. Azərbaycanın xüsusi çəkisi statistika cədvəllərinin tərtib olunmasına verilən tələblər nəzərə alınmaqla «0,0»-a bərabərdir.

Müstəqilliyimizin ilk dövrlərində, daha dəqiq desək təqribən 2003-cü ilədək iqtisadi siyasətin prioritetləri aşağıdakı kimi olmuşdur:

- əlverişli investisiya və sahibkarlıq mühitinin yaradılmasını təmin edən qanunvericilik bazasının formalaşdırılması;

- dövlətin əsas funksiyalarının yerinə yetirilməsi üçün sistemləşdirmə aparılması və prioritetlərin müəyyən edilməsi. Burada əsas etibarilə investisiya və təsərrüfatçılıq şəraitinin əsaslı surətdə yaxşılaşdırılması, vergi yükünün azaldılması, vergi və gömrük sisteminin səmərəliliyinin yüksəldilməsi nəzərdə tutulur;

- büdcə sisteminin tarazlığına nail olunması və onun səmərəliliyinin yüksəldilməsi;

- Azərbaycan iqtisadiyyatında mütərəqqi struktur dəyişiklikləri aparılmasının stimullaşdırılması;

- təbii inhisarların işinin tənzimlənməsi;

- maliyyə infrastrukturunun inkişafı üçün şərait yaradılması və maliyyə sabitliyinə nail olunması;

- Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyası üçün şərait yaradılması.

Bunlar demək olar ki, uğurla yerinə yetirilmişdir. Və bu, iqtisadi artımın daha da sürətləndirilməsi üçün geniş imkanlar açır. İqtisadi artımın sürətləndirilməsinə təsir edən əsas amillərə isə aşağıdakılar aid edilə bilər:

- innovasiyaların və texniki tərəqqinin nailiyyətlərindən geniş istifadə edilməsi;

- Azərbaycanın əsas sərvətlərindən – təbii resurslarının dünya bazarına çıxarılmasının ən sərfəli variantlarının müəyyən edilməsi;

- vergi sisteminin təkmilləşdirilməsi və dünya standartlarına uyğunlaşdırılması;

- Azərbaycandan kapital axınının ən optimal kanallarının tapılması, xarici investisiyaların ölkə iqtisadiyyatında səmərəliliyini yüksəltmək üçün mövcud əlverişli investisiya mühitinin daha da yaxşılaşdırılması;

- daxili bazara xarici kapitalın gəlməsinə mane olan «sədlərin», süni əngəlləmələrin aradan qaldırılması, kiçik biznesin inkişaf etdirilməsi üçün kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi;

- inzibati islahatların, birinci növbədə hökumətdə, nazirlik, komitə və idarələrdə islahatların aparılması. Bu zaman təkcə onların strukturu və ştatlarını deyil, həm də yerinə yetirdikləri funk-

siyaları nəzərdən keçirib dəqiqləşdirmələr aparılması məqsədəuyğun olardı.

## NƏTİCƏ

- «Tarazlıq» və «dinamika» ilk baxışda bazar iqtisadiyyatına xas olan və bir-birini qarşılıqlı surətdə inkar edən anlayışlardır. Lakin buna baxmayaraq bazar iqtisadiyyatı bu iki tələbə cavab verə bilir;

- Milli iqtisadiyyatın dinamikası haqqında proqnoz verməkdə məqsəd iqtisadi artımın mümkün olan səviyyəsini qabaqcadan müəyyən etməkdir;

- Milli iqtisadiyyatın dinamikasına dair proqnozlar hazırlanarkən müxtəlif göstəricilərdən istifadə olunur və qarşıya bir sıra məqsədlər qoyulur;

- İqtisadi artıma aşağıdakı çoxsaylı amillər təsir göstərir: iqtisadi amillər: siyasi və sosial amillər; ekstensiv və intensiv amillər; daxili və xarici amillər; investisiya və qeyri-investisiya amilləri; uzunmüddətli və qısamüddətli amillər.

- Müasir dövrdə Azərbaycan iqtisadiyyatında qeyri-neft bölməsinin inkişaf etdirilməsi qarşıda duran ən mühüm və strateji vəzifələrdən biridir;

- İqtisadi siyasətdə, makroiqtisadi proqnozlaşdırmada qarşıya qoyulan məqsədlərin, imkanların, məhdudiyyət və vasitələrin müxtəlif variantlarda bir-biri ilə əlaqələndirilməsi xüsusi yer tutur. Bu məqsədlə müxtəlif modellərdən və göstəricilərdən istifadə edilir. Bunlardan ən çox diqqəti cəlb edən X.Kobb və P.Duqlas modelidir;

- XX əsrin 50-80-ci illərində ekzogen neoklassik nəzəriyyələr konsepsiyası çərçivəsində işlənib hazırlanmış texnoloji tərəqqi hökmranlıq etmişdir. Lakin 80-ci illərin ortalarında insan potensialı ideyasına əsaslanan yeni endogen texnoloji tərəqqi konsepsiyası meydana gəlmişdir;

- İstehsalın səmərəliliyini səciyyələndirən müxtəlif göstəricilərdən istifadə olunur. Bunlara maddi resurslardan, canlı əməkdən istifadə göstəriciləri, fondverimi, fondtutumu, kapital qoyu-

luşu və əsas fondlardan istifadəni ifadə edən digər göstəricilər aiddir;

- Azərbaycanda 2003-cü ilədək olan dövrdə iqtisadi siyasətin prioritetləri müəyyən olunub uğurla yerinə yetirildikdən sonra makroiqtisadi sahədə əldə edilmiş nailiyyətlər iqtisadi artımın daha da sürətləndirilməsi üçün yeni imkanlar açmışdır. Bunlardan istifadə olunması iqtisadi artımın daha da sürətlənməsinə və Azərbaycan əhalisinin həyat səviyyəsinin yüksəldilməsində çox mühüm rol oynaya bilər.

# XVIII FƏSİL

# İQTİSADİYYATIN SAHƏ STRUKTURUNUN ƏSASLANDIRILMASI METODLARI

## 18.1. İqtisadiyyatın strukturu anlayışının mahiyyəti və növləri

İqtisadiyyatın strukturu dedikdə təsərrüfat sisteminin bütövlüyünü təşkil edən ünsürlər arasındakı proporsiya və münasibətlərin toplusu nəzərdə tutulur.

İqtisadiyyatın dinamikası və strukturu isə bir-birilə qarşılıqlı əlaqədə olan iki başlıca problemdir. Bir tərəfdən iqtisadiyyat köhnə strukturda olduqda yüksək iqtisadi artım sürəti onun səmərəliliyini təmin edə bilmir. Digər tərəfdən isə, iqtisadiyyatın yeni, mütərəqqi strukturunun formalaşdırılmasına keçilməsi onu müəyyən edən sahələrin yüksək sürətlə inkişaf etdirilməsini tələb edir. Odur ki, dünya iqtisadiyyatının sürətlə qloballaşdığı və təsərrüfat əlaqələrinin dərinləşdiyi indiki şəraitdə dövlət siyasəti ölkənin iqtisadi təhlükəsizliyini təmin edə bilən sosial yönümlü, yüksək səmərəli və rəqabət qabiliyyətli bazar iqtisadiyyatının yaradılmasına istiqamətləndirilməlidir.

İqtisadiyyatın strukturu çoxplanlı anlayışdır və onu müxtəlif cəhətlərdən nəzərdən keçirmək olar. İqtisadiyyatın strukturu əmək bölgüsünün, elmi-texniki tərəqqinin, insanların tələbatlarının artması və mürəkkəbləşməsinin, ilkin istehsal resurslarının məhdudluğu və xarici iqtisadi amillərin təsiri ilə formalaşır.

İqtisadiyyatın müxtəlif strukturu mövcüddür. Bunlardan əsasları aşağıdakılardır. İqtisadiyyatın, 1) təkrar istehsal və ya funksional strukturu; 2) sahə strukturu; 3) texnoloji strukturu; 4) regional strukturu; 5) sosial-iqtisadi strukturu; 6) kapitalın təmərküzləşdirilməsi, kooperasiyalaşdırılması və mərkəzləşdirilməsi proseslərini əks etdirən strukturu.

Məlum olduğu kimi, istehsalın son məqsədi xalqın tələbatını ödəməkdən, onun həyat səviyyəsini yüksəltməkdən ibarətdir.

Buna uyğun olaraq ÜDM-in strukturu istifadəolunma mənbələrinə görə üç ünsürdən ibarətdir. Birinci ünsür cari tələbatı – iqtisadi nemətlərin və xidmətlərin son istehlaka sərf olunmasını səciyyələndirir. İkinci ünsürə zəruri inkişafı qoruyub saxlamaq və daha da yüksəltmək üçün maddi ilkin şərtin yaradılması aiddir. Bu, milli iqtisadiyyatda ümumi yığımın yaradılması ilə əlaqədardır ki, bunun vasitəsilə də geniş təkrar istehsal prosesi həyata keçirilir. ÜDM-in üçüncü struktur ünsürü əmtəə və xidmətlərin xalis ixracıdır. 2006-cı ildə ölkəmizdə istehsal olunmuş ÜDM-in tərkibində son istehlak xərcləri 7743,4 mln. manat və ya 43%, ümumi yığım 5536,1 mln. manat və ya 29%, xalis ixrac isə 5201,3 mln. manat və ya 28% təşkil etmişdir.

İqtisadiyyatın sahə strukturu ÜDM-də, istehsal fondlarında, işçilərin sayında və s-də ayrı-ayrı sahələrin tutduqları xüsusi çəki (%-lə) ilə müəyyən edilir. İqtisadiyyatın strukturu əmək bölgüsü, sahələrarası və sahələrdaxili proseslərin təsiri ilə formalaşır. Sahələrdaxili proseslərə daxili xamal bazaları, təkrar istehsalı mümkün olmayan resursların məhdudluğu və s. aiddir. 2006-cı ildə ölkəmizdə istehsal olunan ÜDM-də sahələrin xüsusi çəkisi aşağıdakı kimi olmuşdur (%-lə): sənaye – 58,2; kənd təsərrüfatı – 6,9; tikinti – 7,4; nəqliyyat və rabitə – 7,3; ticarət və ictimai iaşə – 5,8; sosial-və qeyri-formal xidmətlər – 8,0; xalis vergilər – 6,4.

Milli iqtisadiyyatın iriləşdirilmiş sahə strukturuna aşağıdakı əsas sahələrarası komplekslər daxildir: yanacaq-energetika kompleksi; aqrar-sənaye kompleksi; maşınqayırma, investisiya, hərbi-sənaye kompleksləri və s.

İqtisadiyyatın texnoloji strukturu dedikdə istehsalın texnoloji bazasını müəyyən edən texnoloji sistemlərin toplusu nəzərdə tutulur. O, şeylərin, enerjinin və informasiyaların yeniləşdirilməsi səviyyəsini əks etdirir. Ölkəmizin bir sıra prioritet istiqamətlərdə digər ölkələrdən geri qalması dünya təsərrüfatında texnoloji inqilabların getdiyi müasir şəraitdə iqtisadiyyatın texnoloji strukturunun yeniləşdirilməsini xüsusilə zəruri edir.

Rus iqtisadçısı N.D.Kondratyevin, iqtisadçı-sosioloq Y.Şumpeterin və başqalarının araşdıramaları əsasında müəyyən edilmişdir ki, sosial-iqtisadi inkişaf davametmə müddəti müxtə-

lif olan təkrar istehsal silsilələri üzrə həyata keçirilir. N.D. Kondratyevin bu sahədəki xidmətləri yüksək qiymətləndirilir və uzun bir müddəti əhatə edən dövrü onun şərəfinə «Kondratyevin uzun dalğaları» adlandırarlar. Uzundalğalı tsikllər ardıcıl olaraq köhnəlmiş bir texnoloji sistemdən daha mütərəqqi başqa bir texnoloji sistemə keçilməsi ilə əlaqədardır.

İqtisadi ədəbiyyatda sənayeləşmə və ondan sonrakı dövrlərdə bir-birini əvəz edən beş əsas texnoloji sistemin şərhi verilmişdir. Bunu 18.1. sxemindən aydın görmək olar.

## TEXNOLOJİ QATLANMALARIN SALNAMƏSİ VƏ SƏCİYYƏSİ[1]

| | Texnoloji qatlanmaların nömrəsi | | | | |
|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 |
| Əhatə etdiyi dövr | 1770-1830-cu illər | 1830-1880-ci illər | 1880-1930-cu illər | 1930-1980-ci illər | 1980-1990-cı illər |
| Texnoloji ukladın nüvəsi | Toxuculuq sənayesi. Toxuculuq maşınqayırması, çuqun əribilməsi, dəmir emalı, kanalların tikintisi, su mühərriki | Buxar mühərriki, dəmir yollarının çəkilməsi, nəqliyyat, maşınqayırma, gəmiqayırma, kömür, dəzgah-alət sənayesi, qara metallurgiya | Elektronika, ağır maşınqayırma, polad istehsalı və yayılması, elektrik xətləri, qeyri-üzvi kimya | Avtomobil və traktorqayırma, əlvan metallurgiya, uzunmüddət istifadə olunan malların istehsalı, sintetik materiallar, üzvi kimya, neft istehsalı və emalı | Elektrik sənayesi, hesablama, optik lifli texnika, proqramm təminatı, telekommunikasiya, robotqayırma, qaz istehsalı və emalı, informasiya xidmətləri |
| Həlledici amil | Toxuculuq maşınları | Buxar mühərriki və dəzgahları | Elektrik mühərriki, polad | Daxili yanma mühərriki, neftkimya | Mikroelektron komponentlər |
| Əvvəlki texnoloji ukladla müqayisədə | Müəssisələrdə istehsalın təmərküzləşdirilməsi və mexanikləşdirilməsi | Buxar mühərriklərindən istifadə əsasında istehsalın miqyasının genişlənməsi və təmərküzləşdirmə | Elektrik mühərriklərindən istifadə əsasında istehsalın çevikliyinin yüksəlməsi, istehsalın standartlaşdırılması, urbanizasiya | Kütləvi və seriyalı istehsal | İstehsal və istehlakın fərdiləşməsi, istehsalın çevikliyinin artması AİS əsasında enerji və material istehlakı üzrə ekoloji məhdudiyyətlərin aradan qaldırılması, telekommunikasiya texnologiyaları əsasında deurbanizasiya |

[1] Bax: Российский Экономический Журнал. №3, səh.83, 2001-ci il. Sxem 18.1.

Hazırda dünyada hökmranlıq edən beşinci sistem XX əsrin 50-60-cı illərində formalaşmağa başlamışdır. Bu sistemin müəyyənedici komponentləri kimi mikroelektronikada, proqram təminatında, hesablama texnikasında, informasiya xidmətlərində, kosmik əlaqələrdə qazanılmış nailiyyətləri qeyd edirlər. Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsini isə informasiya iqtisadiyyatı adlandırırlar.

Azərbaycanda üçüncü və dördüncü texnoloji sistemlər üstünlüyə malikdir. Odur ki, ölkəmizdə xammal təmayüllü iqtisadiyyatdan yüksək texnologiyalı iqtisadiyyata keçilməlidir.

İqtisadiyyatın regional strukturu məhsuldar qüvvələrin yerləşməsi (və ya yerləşdirilməsi) ilə əlaqədardır. Regional mütənasibliklər ərazi əmək bölgüsünə, regionların resurs potensialından istifadə olunmasına, tarixi ənənələrə əsaslanır. İqtisadiyyatın regional strukturu xeyli dərəcədə onun sahə strukturu ilə müəyyən edilir. İqtisadiyyatın regional strukturunda regionun yerini əks etdirən ümumiləşdirici göstərici regional ümumi məhsul istehsalıdır.

İqtisadiyyatın sosial-iqtisadi strukturu mülkiyyətin formalarından asılıdır. Bazar iqtisadiyyatı şəraitində ölkəmizdə mülkiyyətin çoxnövlülüyü dövlət və xüsusi mülkiyyət arasındakı nisbətin dəyişməsinə səbəb olmuşdur. Belə ki, 1995-ci ildə ÜDM-də qeyri-dövlət bölməsinin xüsusi çəkisi 30,3% olduğu halda, 2006-cı ildə 81,0%, 2007-ci ildə isə 84,0% təşkil etmişdir. Bu, özünü iqtisadiyyatın sahələri üzrə daha qabarıq şəkildə göstərir. Belə ki, qeyri-dövlət bölməsinin xüsusi çəkisi sənayedə 1995-ci ildəki 5,5%-dən 2006-cı ildə 87,3%-ə, kənd təsərrüfatında 61,5%-dən 98,9%-ə, nəqliyyatda 4,6%-dən 63,5%-ə, rabitədə 10,0%-dən 74,8%-ə, sosial sahələrdə 24,1%-dən 32,7%-ə çatmışdır.

ÜDM-in həcmi və strukturunda da dəyişiklik olmuşdur. Belə ki, əgər 1995-ci ildə ÜDM-də məhsul istehsalının xüsusi çəkisi 56,3% təşkil edirdisə, bu 2006-cı ildə 72,6%-ə bərabər olmuşdur. Buna uyğun olaraq xidmətlərin payı 37,9%-dən 21,4%-ə enmişdir. Əlbəttə inkişaf etmiş ölkələrlə müqayisədə bu meyl bir qədər mütərəqqi hesab olunmaya bilər. Çünki sənayecə inkişaf etmiş

ölkələrdə ÜDM-də istehsalla xidmətin xüsusi çəkisində əks mənzərə müşahidə olunur. Başqa sözlə, həmin ölkələrdə xidmət sahələrinin xüsusi çəkisi artır, məhsul istehsalınınkı isə əksinə, azalır. Və bu meyl o ölkələr üçün səciyyəvidir. Keçid iqtisadiyyatında olan öləkələrdə isə müəyyən müddət, yəni iqtisadiyyatda tarazlaşma prosesinin getdiyi dövrdə istehsalın xüsusi çəkisinin artması, xidmət sahələrinin xüsusi çəkisinin isə azalması meyli daha mütərəqqi hesab oluna bilər. Hazırda sənayecə inkişaf etmiş ölkələrdə vaxtilə belə olmuşdu.

Kapitalın təmərküzləşməsi, kooperasiyalaşması və mərkəzləşməsi prosesini əks etdirən strukturu şərti olaraq «ölçü strukturu» da adlandırmaq olar. Ona görə ki, bu, istehsalın ümumi həcmində xırda, orta və iri müəssisələrin, maliyyə-sənaye qruplarının, transmilli şirkətlərin xüsusi çəkisini səciyyələndirir. Keçən əsrin 90-cı illərində baş verən birləşmə və «udulma» prosesləri dünyada transmilli şirkətlərin təsirini gücləndirmişdir. Müasir dövrdə təsərrüfat həyatının beynəlmiləlləşməsi də güclənir. Azərbaycanda inkişaf etmiş ölkələrlə müqayisədə kiçik və orta müəssisələrin rolu demək olar ki, kifayət səviyyədə deyildir. Odur ki, ölkəmizdə bu tipdən olan müəssisələr şəbəkəsinin genişləndirilməsinə və orta təbəqənin formalaşmasına xüsusi diqqət yetirilməlidir.

Milli iqtisadiyyatın strukturunun təhlili, proqnozlaşdırılması və tənzimlənməsi isə balans metodunun köməyilə həyata keçirilir.

## 18.2. Sahələrarası balans, onun mahiyyəti və təkmilləşdirilməsi sahəsində görülən işlər

İqtisadi artımın tədqiqi labüd olaraq bir sıra modellərin işlənib hazırlanmasına gətirib çıxarmışdır. Belə modellərin ilk ünsürlərini F.Kenenin 1758-ci ildə nəşr olunmuş «iqtisadi cədvəlləri»ndə görmək olar. O, ilk dəfə iqtisad elmində milli təsərrüfatı özünəməxsus xüsusi balansa malik olan bir sistem kimi təsvir etmişdir.

Təcrübədə istifadəyə yararlı model birinci dəfə Sovet hakimiyyətinin ilk illərində P.Popovun rəhbərliyi ilə Dövlət Plan

Komitəsinin işçiləri tərəfindən hazırlanmışdır. 1923-1924-cü təsərrüfat ili üçün ölkənin milli iqtisadiyyatının sahələrarası balansı mövcüd vəziyyəti qiymətləndirməyə və bir il üçün elmi cəhətdən əsaslandırılmış proqnoz verməyə şərait yaratmışdır. Buna əsasən ölkənin idarə edilməsində sahələrarası balansdan istifadə etmək olardı. Lakin İ.V.Stalinin hakimiyyəti dövründə bu mümkün olmamış, bundan yalnız onun vəfatından sonra istifadə edilmişdir.

Balans metodu planlaşdırmanın əsas metodu olmaqla tarixən bir çox istiqamətlər üzrə təkmilləşdirilmişdir.

Lakin bütövlükdə təkrar istehsal prosesini səciyyələndirən əsas və ümumi iqtisadi proporsiyalar xalq təsərrüfatı balansında müəyyən olunmuşdur. Ümumi məhsulun sahələr üzrə bölgüsü xalq təsərrüfatı balansında iri sahələrin (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə və i.a.) göstərilməsi ilə məhdudlaşmışdır.

Çoxsaylı maddi balanslar (metal balansı, dəzgah balansı, ət balansı, taxıl balansı, süd balansı və i.a.) tərtib olunsa da, onlar bütün təkrar istehsal prosesini əhatə etməmişdir.

İqtisadi artımın əsl mahiyyətini əks etdirən «Xərc-məhsul buraxılışı» (input-output) modeli rus riyaziyyatçısı və iqtisadçısı, 1925-ci ildən ABŞ-a mühacirət etmiş və bu ölkənin vətəndaşlığını qəbul etmiş V.Leontyev tərəfindən işlənib hazırlanmışdır. O, 1919-1929-cu illər üzrə Amerika iqtisadiyyatında sahələrarası istehsal əlaqələrinin empirik təhlilini vermişdir.[1] V.Leontyev ikinci dünya müharibəsindən sonra «Xərc-məhsul buraxılışı» metodu ilə ABŞ iqtisadiyyatının 400 sahəsinin daxil olduğu sahələrarası balansı tərtib etmişdir. ABŞ-da iqtisadi təhlilin nəticələrindən müharibədən sonrakı dövrdə iqtisadiyyatın strukturunun dəyişdirilməsi yolu ilə əhalinin məşğulluğunun proqnozlaşdırılması üçün istifadə edilmişdir.

V.Leontyev bir ölkə daxilində sahələrarası əlaqələri regionlararası və rayonlararası əlaqələrlə uzlaşdırmaqla bu metodikanı

---

[1] Bax: Leontev V. i dr. İssledovaniə strukturı amerikanskoy gkonomiki. M., 1958.

bir qrup ölkələrə (və ya ölkələr qrupuna), son nəticədə isə dünya təsərrüfatına şamil etmişdir.

Yaxşı riyazi hazırlığa və iqtisadi təfəkkürə malik olan V.Leontyev milli təsərrüfatı maddi və dəyər göstəricilərinin köməyilə şahmat cədvəli formasında təsvir etmişdir. Bu modelin səciyyəvi cəhəti ondan ibarətdir ki, bir-birinin ardınca gələn maddi və dəyər göstəricilərinin sayı məhdud deyildir. Hər şey informasiyanın həcmindən və lazım olan hesablama vasitələrindən asılıdır. Hazırda yüzlərlə sahəyə bölünməklə ümummilli məhsulun istehsalı və bölgüsünə dair sahələrarası balans dünyanın 80-dən çox ölkəsində tərtib olunur. Bu balans iqtisadiyyatın keçdiyi yolu qiymətləndirməyə və onun inkişafını proqnozlaşdırmağa imkan verir. V.Leontyev bu modelə görə 1973-cü ildə Nobel mükafatına layiq görülmüşdür.

V.Leontyevin sahələrarası balansı aşağıdakı dörd kvadratdan ibarətdir: 1) məhsulun istehsalına sərf olunan maddi xərc göstəriciləri; 2) bilavasitə istehlak, yığım və ixrac üçün istifadə olunan son məhsul göstəriciləri; 3) xalis məhsul (əmək haqqı, mənfəət, vergilər) göstəriciləri; 4) xalis məhsulun yenidən bölüşdürülməsi.

Sahələrarası balansın sütunlarında dəyər ifadəsində ümumi məhsulun formalaşmasına sərf olunan xərclər, üfüqi sətirlərdə isə bu məhsulun bölüşdürülməsi göstərilir. Bu məlumatlardan istifadə etməklə ayrı-ayrı xərclərin xüsusi çəkisini asanlıqla müəyyən etmək olur. Bu məqsədlə sütundan və ya sətirdən götürülmüş (seçilmiş) göstərici ümumi məhsulun kəmiyyətinə bölünür. Məsələn, maşınqayırmada sərf olunan elektrik enerjisinin kəmiyyətini həmin sahədə istehsal edilmiş məhsula bölməklə bu sahədə istehlak olunmuş elektrik enerjisinin xüsusi çəkisi tapılır.

V.Leontyev «xərc-məhsul buraxılışı» metodundan cəmiyyətin ətraf mühitə təsirinin təhlilində istifadə etmişdir. Bu metodun köməyilə o, belə bir nəticəyə gəlmişdir ki, ətraf mühitin çirkləndirilməsi hər cür təsərrüfat-istehsal fəaliyyətinin əlavə məhsulu deməkdir. Hər hansı bir ölkə, yaxud da dünyanın bütün ölkələri iqtisadi nemətlərin istehlakının müəyyən səviyyədə olmasını tə-

min etmək istəyirlərsə, onda onlar qabaqcadan insanları əhatə edən Aləmi çirkləndirən və «son məhsul» adlandırılması mümkün olan zərərli şeylərin «istehsalı»nı təşkil etməlidirlər.

«Xərc-məhsul buraxılışı» metodunun köməyilə iqtisadi sistemin müxtəlif bölmələri arasındakı qarşılıqlı əlaqələrin kəmiyyət tərəfini təhlil etmək olar. Bu metod istənilən iqtisadi sistemi – makrosistemi (bütövlükdə milli iqtisadiyyatı), meqasistemi (dünya təsərrüfatı), regional iqtisadiyyatı və mikrosistemi (rayonun, şəhərin, korporasiyanın və i.a. iqtisadiyyatı) təhlil etməyə imkan verir. İstənilən halda yanaşma eyni cür olur.

## 18.3. Sahələrarası balansın təyinatı, təhlil və proqnozlaşdırmada ondan istifadə edilməsi imkanları

Sahələrarası balansdan analitik hesablamalarda, proqnozlaşdırmada və planlaşdırmada geniş istifadə oluna bilər. Sahələrarası balansı tərtib etmək üçün zəruri olan informasiyalar və hesablama nəticəsində əldə edilmiş məlumatlar əsasında aşağıdakılar mümkün olur:

1) sahələrarası balans iqtisadiyyatın çərçivə modeli, milli iqtisadiyyatın inkişaf sürətinin və proporsiyalarının proqnozlaşdırılması metodu kimi nəzərdən keçirilməsinə imkan verir. Sahələrarası balans sahələr üzrə konkretləşdirilməklə geniş təkrar istehsalın geniş sxemi deməkdir. ÜMM-in formalaşması, ödəmə, istehlak və yığım fondlarına bölünməsi, ÜDM-in yaradılması, bölgüsü, yenidən bölgüsü və istifadəsi prosesləri sahələrarası balansda əks etdirilir;

2) cəmiyyətin son tələbatını (son tələbi) müəyyən etməyə imkan verir. Bunlar sosial-iqtisadi inkişaf proqramlarının işlənib hazırlanması üçün lazımdır. Bu, artım sürəti və proporsiyaların proqnozlaşdırılması ilə əlaqədar aparılan işlərə məqsədli xarakter verir. Sahələrarası balans iqtisadiyyatda ümumi proporsiyaların müəyyən olunmasına yeni mövqedən yanaşılmasını təmin edir;

3) sahələrarası balansın göstəriciləri elmi-texniki tərəqqinin istiqamətlərini tədqiq etməyə imkan verir. Sahələrarası balansda

məhsulların kapital, fond və əmək tutumu, metal tutumu, enerjitutumu, yanacaqtutumu kimi göstəricilərin dinamikası özünün kəmiyyət ifadəsini tapır. Sahələrarası balans həmçinin istehsalın təşkilinin müxtəlif formalarının (ixtisaslaşdırma, kooperasiyalaşdırma) milli iqtisadiyyatın strukturuna təsirini nəzərə almağa imkan verir;

4) sahələrarası balans metodundan sahələrarası əlaqələrin sahə strukturunun əsaslandırılması və proqnozlaşdırılmasında istifadə olunur. Sahələrarası əlaqələrin dəyişməsi ayrı-ayrı sahələrdə istehsalın artım sürətindəki obyektiv zəruri nisbətləri müəyyən edən həlledici amillər sırasına daxildir. Sahələrarası əlaqələrin mexanizmləri iqtisadi inkişafın müxtəlif mərhələlərində iqtisadi resursların strukturunda baş verən dəyişikliklər, habelə resursların birinin digərini əvəz etməsi ilə əlaqədar olaraq dəyişir. Ayrı-ayrı sahələrdə məhsul istehsalının ekstensiv və intensiv yolla artırılması arasındakı nisbət bu dəyişikliklərlə müəyyən edilir. Sahələrarası balans nəinki müxtəlif sahələr arasındakı əlaqələri, həm də hər bir sahənin daxilində istehlak olunan resursları təhlil etməyə imkan verir.

5) İqtisadiyyatın ən mütərəqqi və səmərəli strukturunu müəyyənləşdirməyə və deməli, sahələrarası balansı bir neçə variantda işləyib hazırlamağa imkan verir. Bu variantlar əsas etibarilə bir-birindən son tələbin həcmi və strukturu ilə fərqlənir;

6) Sahələrarası balansdan sahələrarası əlaqələrin optimallaşdırılması, bir sıra variantların tərtib olunması və bunlardan ən səmərəli variantın seçilməsi üçün istifadə edilir;

7) Sahələrarası balans istehsalın genişləndirilməsi, sahələr arasında və illər üzrə bölünməsi üçün zəruri olan kapital qoyuluşuna olan tələbatı hesablamağa imkan verir;

8) Sahələrarası balansın köməyilə iş qüvvəsinə olan tələbat hesablanır, iqtisadiyyatın sahələri üzrə məşğulluğa dair proqnoz verilir. Cəmiyyət hər bir konkret dövrdə müəyyən qədər əmək ehtiyatlarına malik olur. İqtisadiyyatın iş qüvvəsinə olan tələbatını ifadə edən variantların aşkara çıxarılması bu tələbatı ölkənin malik olduğu real əmək ehtiyatları ilə müqayisə etməyə imkan verir;

9) Sahələrarası balansı müxtəlif qiymətlərlə işləyib hazırlamaq olur. Sahələrarası balans qiymətlərin səviyyəsi və strukturunu iqtisadi cəhətdən əsaslandırmaq üçün imkanlar açır. Məsələn, kömür, neft, qaz, elektrik enerjisi və digər yanacaq-energetika resursları qiymətlərinin səviyyəsi və onların proqnozlaşdırılması yanacaq-energetika balansının strukturunun optimallaşdırılmasına imkan verir. Sahələrarası balansın köməyilə ayrı-ayrı əmtəələrin qiymətlərinin dəyişməsinin nəticələrini, iqtisadiyyatın enerji daşıyıcıları qiymətlərinin dəyişməsindən asılılığını təhlil etmək mümkün olur;

10) Regionlararası əlaqələri təhlil etmək, ərazi əmək bölgüsündə regionun yerini və iqtisadiyyatın kompleks şəkildə inkişaf etdirilməsi üçün tədbirlər həyata keçirməyə imkan verir. Sahələrarası balansın regional və regionlararası modelləri iqtisadi rayonlarda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinin planlaşdırılması və rayonlararası iqtisadi əlaqələrin öyrənilməsi üçün ən mühüm vasitədir.

Sahələrarası balans təsərrüfat fəaliyyətini dinamikada təhlil etməyə və buna əsasən böhran əleyhinə çoxvariantlı təkliflər verməyə şərait yaradır. Və bunlardan iqtisadi proqramların, firmaların, korporasiyaların illik və perspektiv planlarının işlənib hazırlanması üçün istifadə oluna bilər. Beləliklə, sahələrarası balans metodunun köməyilə iqtisadi tənəzzülü və böhranları proqnozlaşdırmaq, habelə sabitliyə nail olunması və iqtisadi artımın dinamikasının qabaqcadan müəyyənləşdirilməsinə təsir göstərən istehsal, maliyyə və ticarət böhranlarının məhdudlaşdırılmasına dair tədbirlər sisteminin işlənib hazırlanması mümkün olur.

Sahələrarası modellərdən həm dövlət bölməsində, həm də qarışıq iqtisadiyyat şəraitində istifadə edilə bilər.

İqtisadiyyatda dövlət bölməsi xeyli yüksək çəkiyə malik olduqda çoxsahəli təhsil və proqramlaşdırma aparmadan bu bölmənin fəaliyyətinə səmərəli rəhbərlik imkanlarından danışmaq olmaz. Qeyd etmək lazımdır ki, çoxbölməli modelləşdirmə və proqramlaşdırmanın obyekti təsərrüfat resursları dövriyyəsinin təhlil olunmasıdır. Dövlət orqanları iqtisadi resurs axınlarının

parametrlərini bildikdə daha düzgün və səmərəli tənzimləmə prosesləri həyata keçirə və bununla da kapitalın dövranı zamanı yol verilən boşluqları aradan qaldıra bilər.

Dövlət qarışıq iqtisadiyyatı tənzimləyərkən «xərc-məhsul buraxılışı» modeli çərçivəsində «son tələb», «investisiya», «istehlak», «hökumət tərəfindən satınalma» kimi ünsürlərə təsir göstərə bilər. Bununla yanaşı, dövlət müvafiq tənzimləyicilərdən istifadə etməklə bu ünsürlərdən hər birinin miqyası və strukturuna təsir edir.

## 18.4. Sahələrarası balansın işlənib hazırlanması metodikası

Sahələrarası balansın işlənib hazırlanması onun modelindən asılıdır. Bu balansların ayrı-ayrı növləri təhlil və proqnozlaşdırma zamanı müxtəlif məqsədlər üçün nəzərdə tutulmuşdur.

İstifadə olunan «ölçülər»in xarakterinə görə sahələrarası balanslar natura, dəyər və natura-dəyər ifadəsində işlənib hazırlanır.

Modelin xarakterinə görə statik, dinamik və optimallaşdırma ünsürləri ilə fərqlənən modellər mövcuddur. Modelləşdirmə obyektinin böyüklüyünə və bu məqsəd üçün istifadə edilən informasiyaların həcminə görə sahələrarası balanslar aşağıdakı səviyyələrdə tərtib olunur:

- dünya təsərrüfatı səviyyəsində (qlobal miqyasda);
- milli təsərrüfat səviyyəsində;
- region səviyyəsində;
- rayonlararası səviyyədə;
- sahə səviyyəsində.

Natura ifadəsində sahələrarası balans maddi balansları bir kompleksdə birləşdirir və onun ən sadə formasıdır. Belə balanslar iki bölmədə birləşdirilmiş üç hissədən ibarət olur.

Birinci bölmə resursların formalaşması mənbələrini, iki hissədən ibarət olan ikinci bölmə resruslardan istifadənin istiqamətlərini, habelə cari istehsalatda və son istehlakda onlardan istifadəni göstərir.

Natura ifadəsində şahmat cədvəli hər bir məhsulun istehsalına sərf olunan maddi xərcləri özündə əks etdirən və bir-birilə qarşılıqlı əlaqədə olan maddi balanslar sistemi deməkdir. Maddi balansların nomenklaturunu müəyyən etmək üçün istehsalın kütləviliyini səciyyələndirən ən mühüm məhsul növləri seçilir.

Sahələr daxilində proporsiyalar arasındakı tarazlığı təmin etmək, qarşılıqlı əlaqədə olan sahə və komplekslərdə istehsalın sahədaxili strukturunu optimallaşdırmaq üçün məhsullar üzrə ayrıca balanslar tərtib olunur. Bu balansların sahədaxili məhsul dövriyyəsinin çox olduğu və çoxlu növdə məhsul istehsal olunan sahələr üzrə tərtib olunması məqsədəuyğundur. Bu zaman tabeçiliyindən asılı olmayaraq məhsul istehsal olunan bütün müəssisələr nəzərə alınır. Natura ifadəsində sahələrarası balansın forması aşağıdakı kimidir (sxem 2).

Natura ifadəsində sahələrarası balansın sxemi

Sxem 2.

<table>
<tr><th rowspan="3">Məhsullar</th><th rowspan="3">Ölçü vahidi</th><th colspan="4">Resurslar</th><th colspan="7">Resurslardan istifadə</th></tr>
<tr><th rowspan="2">İstehsal</th><th rowspan="2">İdxal</th><th rowspan="2">Ehtiyatlardan cəlb edilmişdir</th><th rowspan="2">Cəmi</th><th colspan="5">Məhsulların istehsalı (cari istehlak)</th><th rowspan="2">Son istehlak üçün</th><th rowspan="2">İstifadə edilmiş resursların cəmi</th></tr>
<tr><th>Neft</th><th>Kömür</th><th>Elektrik enerjisi</th><th>Qaz</th><th>Sair məhsullar</th></tr>
<tr><td>Neft</td><td>t</td><td colspan="4" rowspan="5">I kvadrant</td><td colspan="7" rowspan="5">II kvadrant</td></tr>
<tr><td>Kömür</td><td>t</td></tr>
<tr><td>Elektrik enerjisi</td><td>kvt. saat</td></tr>
<tr><td>Qaz</td><td>m³</td></tr>
<tr><td>Sair məhsullar</td><td>-</td></tr>
</table>

Sahələrarası balansın metodoloji və praktik cəhətdən işlənib hazırlanmış mükəmməl forması dəyər ifadəsində məhsulların istehsalı və bölgüsünə dair sahələrarası balansdır. Bu balans iqtisadiyyatın vəziyyətini, müəyyən dövrdə (il ərzində) sahələrarası əlaqələri göstərir.

Sahələrarası balans modelləri düzəldilərkən digər iqtisadi-riyazi modellərdə olduğu kimi, onların başlıca xüsusiyyətləri ekzogen və endogen dəyişənləri arasındakı nisbətdən ibarət olur. Ekzogen dəyişəni modelləşdirilən sistemə münasibətdə xarici amilləri, endogen dəyişəni isə modelləşdirilən sistem çərçivəsində meydana çıxan daxili amilləri səciyyələndirir. Tərkibinə yalnız ekzogen dəyişənlərin daxil olduğu tam açıq model yoxdur. Əgər belə bir model olarsa, onda modelləşdirilən sistemlə xarici mühitin arasında sədd çəkilməsinin mənası olmazdı.

Bir qayda olaraq tərkibinə yalnız endogen dəyişənlərin daxil olduğu tamamilə qapalı modellər də yoxdur. Çünki bunun mövcudluğu modelləşdirilən sistemin xarici mühitin təsirindən tamamilə asılı olmadığını deməк olardı.

Sahələrarası balansın statik modelində ekzogen dəyişənlər birbaşa maddi xərc əmsalları və son tələbdən-əmtəə və xidmətlərdən son istifadə, ümumi yığım və ixrac – ibarətdir.

Birbaşa (müstəqim) maddi xərc əmsalları hər hansı bir sahənin bu və ya digər resurs növünün digər sahələrdə ümumi məhsul buraxılışının hər vahidinə sərf olunan sahə üzrə orta səviyyəsini əks etdirir. Onlar həm də cari istehsalın sahələrarası əlaqələrini özündə ehtiva edir.

Birbaşa xərc əmsallarına əsasən hər hansı bir sahə məhsullarının digər sahələrin son tələb vahidinə sərf olunan tam xərc əmsallarını hesablamaq mümkün olur.

Tam xərc əmsalları yalnız birbaşa xərcləri deyil, istehsal əlaqələrinin bütün zəncirində üstəlik xərcləri də özündə birləşdirir. Bəzi hallarda tam xərclər əmsalları birbaşa xərc əmsallarından bir neçə dəfə böyük olur.

Əsas qiymətlərlə sahələrarası balansın ümumi sxemi aşağıdakı kimidir (sxem 3).

## Əsas qiymətlərlə sahələrarası balansın ümumi sxemi[1]

Sxem 3.

| Göstəricilər | Aralıq istehlak | Son istifadə | | | Cəmi istifadə edilmişdir |
|---|---|---|---|---|---|
| | İqtisadiyyatın sahələri | Son istehlak | Ümumi yığım | İxrac | |
| İstehsalın sahələri üzrə əsas qiymətlərlə əmtəələr (xidmətlər).<br>İstifadə edilmiş əmtəələrə nəqliyyat xərcləri.<br>İstifadə edilmiş əmtəələrə ticarət, təchizat və tədarük xərcləri.<br>Məhsullara xalis vergilər (istifadə edilmiş əmtəələrə görə).<br>Alıcı qiymətləri ilə cəmi istifadə edilmişdr. | I kvadrant | II kvadrant | | | |
| Əməyin ödənişləri istehsala digər vergilər (xalis).<br>Ümumi mənfəət və ümumi qarışıq gəlirıər<br>Əsas qiymətlərlə əlavə edilmiş ümumi dəyər | III kvadrant | | | | |
| Əsas qiymətlərlə məhsul buraxılışı<br>İdxal<br>Əsas qiymətlərlə resursların cəmi | | | | | |

[1] Bax: İqtisadi statistika. Dərslik, M., 1998, s.194.

Sahələrarası statik balansın əsas tənliyi belədir:

$$X_i = \sum_{j=1}^{n} a_{ij}x_j + y_i (i = 1,2,3,....,n$$

Burada: $X_i$ – $i$ sahəsində ümumi məhsul buraxılışı;

$a_{ij}$ – $j$ sahəsində istehsal edilən məhsul vahidinə $i$ sahəsinin birbaşa sərf olunan maddi xərcləri;

$X_j$ – $j$ sahəsində ümumi məhsul buraxılışı;

$Y_j$ – $i$ sahəsi məhsullarının son istifadəsi deməkdir.

Tam xərc əmsalları matrisinin bütün sahələr arasındakı istehsal əlaqələrinin mövcudluğunu səciyyələndirən 0 («sıfır») əmsalları yoxdur. Matris formasında sahələrarası balansın açıq statik modelinin tənliyi isə aşağıdakı kimidir:

$$X=AX+Y;$$

Burada: $X$ – ümumi məhsul buraxılışının vektoru;

$A$ – birbaşa maddi xərc əmsalları matrisi;

$Y$ – sahələr üzrə son tələb vektoru deməkdir.

Matrisin istifadə üsulunu tətbiq etsək:

$X = (E - A)^{-1} \cdot y$ alarıq.

Burada: $E$ – yeganə matris,

$(E\text{-}A)^{-1}$ – tam maddi xərc əmsalları matrisi deməkdir.

Balansın şaquli sütunlarındakı məlumat sahədə ümumi məhsul buraxılışının dəyər üzrə tərkibində aralıq istehlakı (I kvadrant) və əlavə edilmiş dəyəri (III kvadrant) əks etdirir. Əlavə edilmiş ümumi dəyərə istehsal prosesində bilavasitə iştiraka görə əldə edilən ilkin gəlirlər (əməyin ödənilməsi, mənfəət, istehsala vergilər, qarışıq gəlirlər və i.a.) daxildir.

Sahələrarası balansın statik modeli əsasında sahə strukturunun proqnozlaşdırılması aşağıdakı mərhələləri əhatə edir:

- son tələb üzrə proqnozun kəmiyyətinin müəyyən edilməsi;
- cari maddi xərc əmsallarının müəyyən olunması;
- tələb olunan son məhsul vahidinin istehsalına sərf edilən tam maddi xərc əmsallarının hesablanması;
- proqnozlaşdırılan son tələbin həcminin təmin olunması üçün lazım olan həcmdə məhsul buraxılışının müəyyən edilməsi.

Sahələrarası balansın ümumi sxemindən (sxem 3) göründüyü kimi, onun I kvadrantında aralıq məhsullar (və ya cari maddi məsrəflər) əks etdirilmişdir. II kvadrantda sahələr üzrə məhsuldan son istifadənin funksional ünsürlərinin formalaşması göstərilmişdir. III kvadrantda isə əlavə edilmiş dəyərin sahə mənşəyi öz əksini tapmışdır.

Statik modellərdə son tələbin tərkibinə kapital qoyuluşu daxildir ki, bu da sonrakı illərdə məhsul buraxılışında fəal iştirak edir. Statik model hər hansı ayrıca bir ilə aid olduğu halda, dinamika modeli bir neçə ili əhatə edir.

Dinamik modelləri statik modellərdən aşağıdakı iki xüsusiyyət fərqləndirir:

1) statik modeldə əsas kapitala vəsait qoyuluşu və maddi dövriyyə vəsaitlərinin artımı son tələbə daxil edilmir;

2) dinamika modellərində zaman kəsiyi – kapitalın qoyulduğu vaxtdan obyektin (güclərin) istismara verildiyi dövr nəzərə alınır. Son tələb üçün ən mühüm kəmiyyət ev təsərrüfatlarının son istehlakıdır.

İstehlak fondunun sahə strukturu bir neçə metodla hesablana bilər. Bunlara aşağıdakılar aiddir: istehlak fondunun strukturu vaxt (zaman) funksiyası kimi verildikdə ekstrapolyasiya metodu; istehlak fondunun strukturunda baş verən dəyişikliklərin səbəblərini aşkara çıxarmağa imkan verən faktor metodu (həm də bu zaman sahə strukturu hesablanarkən gəlirlərə və qiymətlərə görə istehlakın elastikliyi əmsallarından istifadə olunur); qida və qeyri-ərzaq məhsulları, mənzil şəraitindən istifadənin səmərəli normalarına əsaslanan normativ metod. Bu metodlardan variant kimi istifadə edilə bilməz, onlar bir-biri ilə əlaqələndirilməli və bir-birini tamamlamalıdır.

Ümumi yığımın sahə strukturunu hesablamaq üçün kapital qoyuluşunun texnoloji strukturunda baş verən dəyişiklikləri nəzərə almaq lazımdır. Bu, fondəmələgətirən sahələrin (maşınqayırma, tikinti və i.a.) məhsullarına olan tələbatı müəyyən etməyə imkan verir.

İxrac və idxalın sahə strukturu ölkənin dünya təsərrüfatında tutduğu yerlə müəyyən edilir. Hər sahə üzrə ixrac olunan məh-

sulların həcmi əmsal üsulu ilə müəyyənləşdirilir. Bu əmsallar ixrac olunan əsas əmtəələr üzrə ümumi məhsul buraxılışında onların xüsusi çəkisi ilə müəyyən edilir.

Sahələrarası balanslar həm əsas, həm də alıcı qiymətləri ilə işlənib hazırlanır. Baza kimi həm «xalis sahələr» (müxtəlif sahələrdə istehsal olunan məhsullar), həm də «təsərrüfat sahələri» (bir sahədə istehsal olunan bütün məhsul ayrıca qeyd edilir) fərqlənir.

Sahələrarası balansın «xalis sahələr» sxemi üzrə işlənib hazırlanması daha məqsədəuyğundur. Çünki bu zaman birbaşa xərc əmsllarının sabitliyinin daha yüksək olmasına nail olunur. «Xalis sahələr»ə hansı «təsərrüfat sahəsi»ndə istehsal edilməsindən asılı olmayaraq eyni məhsul növləri daxil edilir. Lakin qeyd etmək lazımdır ki, bu, çox mürəkkəb və ağır işdir.

## NƏTİCƏ

- iqtisadiyyatın dinamikası və strukturu bir-biri ilə qarşılıqlı əlaqədə olan iki çox mühüm problemdir;
- iqtisadiyyatın strukturu müxtəlif amillərin təsiri ilə formalaşır. Bunlar əmək bölgüsü, elmi-texniki tərəqqi, insanların tələbatlarının artması, xarici iqtisadi resursların məhdudluğu və s-dən ibarətdir;
- iqtisadiyyatın funksional, sahə, texnoloji, regional, sosial-iqtisadi, «ölçü» strukturları bir-birindən fərqlənir;
- iqtisadi artımın tədqiqi ilə əlaqədar olaraq bir sıra modellər meydana gəlmişdir. Bunların içərisində balans metodu xüsusi yer tutur. Hazırda dünyanın 80-dən çox ölkəsində sahələrarası balans tərtib olunur;
- sahələrarası balans cəmiyyətin son tələbatını hesablamağa, elmi-texniki tərəqqinin istiqamətlərini müəyyən etməyə, sahələrarası əlaqələri əsaslandırmağa və optimallaşdırmağa, iqtisadiyyatın mütərəqqi strukturunu formalaşdırmağa, regionlararası əlaqələri təhlil etməyə imkan verir;
- sahələrarası modellərdən həm dövlət bölməsində, həm də qarışıq iqtisadiyyat şəraitində istifadə oluna bilər;

- dövlət, qarışıq iqtisadiyyat şəraitində müvafiq tənzimləyicilərdən istifadə etməklə «xərc-məhsul buraxılışı» çərçivəsində «son tələb», «investisiya», «istehlak», «hökumət tərəfindən satınalma» kimi ünsürlərə təsir göstərə bilər;

- modelləşdirmə obyektinin böyüklüyünə və bu məqsəd üçün istifadə olunan informasiyaların həcminə görə dünya təsərrüfatı (qlobal miqyasda), milli təsərrüfat, region, regionlararası və sahə səviyyələrində işlənib hazırlanan sahələrarası modellər bir-birindən fərqlənir;

- sahələrarası balans modelləri düzəldilərkən ekzogen və endogen amillər arasındakı dəyişmələrdən istifadə edilir;

- sahələrarası balansın statik və dinamik modelləri vardır. Dinamik modellər statik modellərdən onunla fərqlənir ki, a) əsas kapitala vəsait qoyuluşu və maddi dövriyyə vəsaitlərinin artımı son tələbə daxil edilmir; b) dinamika modellərində zaman kəsiyi nəzərə alınır;

- istehlak fondunun sahə strukturunu müəyyən etmək üçün ekstrapolyasiya, faktor və normativ metodlardan istifadə olunur.

# XIX FƏSİL

# AZƏRBAYCAN İQTİSADİYYATINDA STRUKTUR DƏYİŞİKLİKLƏRİNİN APARILMASI İMKANLARI VƏ REALLAŞDIRILMASI MEXANİZMİ

## 19.1. Azərbaycan iqtisadiyyatının müstəqillikdən əvvəlki dövrdə formalaşmış strukturunun yenidən qurulmasının obyektiv zəruriliyi

Akademik Z.Ə.Səmədzadənin apardığı təhlil göstərir ki, 1960-1970-ci illərdə Azərbaycan Respublikası iqtisadi inkişaf səviyyəsinə görə müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tutmuş, yalnız Tacikistandan irəlidə olmuşdur.

Azərbaycanın həm keçmiş SSRİ, həm də onun tərkibində olan digər müttəfiq respublikaların iqtisadi inkişaf göstəriciləri ilə müqayisəsi belə bir fikir söyləməyə əsas verir ki, o dövrdə respublikamızın «geriləməsi»nin artması meyli özünü göstərmişdir. Belə ki, 1960-1970-ci illərdə hər nəfərə düşən milli gəlir SSRİ üzrə bütövlükdə 75,6%, o cümlədən Litvada 111,3%, Belorusiyada 99,3%, Moldoviyada 86,3%, Azərbaycanda isə 23,7% artmışdır. Göründüyü kimi, nəzərdən keçirilən dövrdə bu göstərici Azərbaycanda SSRİ-ə nisbətən 3,2 dəfə, Litvaya nisbətən 4,7 dəfə, Belorusiyaya nisbətən 4,2 dəfə, Moldoviyaya nisbətən isə 3,9 dəfə aşağı olmuşdur.

Azərbaycan Respublikasında 1913-1970-ci illər ərzində əhali ölkə üzrə eyni göstəriciyə nisbətən 1,45 dəfə sürətlə artıdığı halda, sənayenin ümumi məhsulu 2,8 dəfə ləng, kənd təsərrüfatı məhsulları istehsalı isə vur-tut 1,3 dəfə artmışdır. Hər nəfərə düşən milli gəlir istehsalı da getdikcə azalmağa doğru meyl etmişdir. Belə ki, bu göstərici İttifaq üzrə eyni göstəricinin 1960-cı ildə 98% təşkil etdiyi halda, 1965-ci ildə 70%-ni, 1970-ci ildə isə 61%-ni təşkil etmişdir. Azərbaycanda hər nəfərə düşən milli gəlir istehsalının mütləq artımı 1960-1969-cu illərdə 57 manat, 1970-ci

ildə 77 manat, Estoniyada 779 manat, Litvada isə 690 manat təşkil etmişdir.[1]

1960-1970-ci illərdə əhali artımının hər faizinə görə milli gəlirin artımın SSRİ üzrə 7,1% təşkil etmiş, ən yüksək göstərici (8-11) Baltikyanı respublikalarda, Rusiya Federasiyasında, Belorusiya və Gürcüstanda, ən aşağı göstərici isə Orta Asiya respublikaları və Azərbaycanda (2%) olmuşdur.

İqtisadi inkişaf səviyyəsini ifadə edən başlıca göstəricilərdən biri də əmək məhsuldarlığının səviyyəsi və dinamikasıdır. 1960-1970-ci illərdə ictimai əmək məhsuldarlığının ən yüksək artım sürəti Baltikyanı respublikalarda, ən aşağı artım sürəti isə Moldoviya və Azərbaycanda olmuşdur. Azərbaycan Respublikası əmək məhsuldarlığının artım sürətinə görə müttəfiq respublikalar arasında axırıncı yerlərdən birində – 13-cü yerdə qərarlaşmışdı. Respublikamız fondverimi göstəricisinə görə müttəfiq respublikalar içərisində Türkmənistandan sonra 14-cü yeri tuturdu. Digər göstəricilər üzrə müqayisə də Azərbaycanın geridə qaldığını deməyə əsas verir.

1960-1970-ci illərdə Azərbaycan Respublikası iqtisadi inkişaf səviyyəsinin müqayisəli təhlilinin qısa mənzərəsi belədir. Və qətiyyətlə demək olar ki, o dövrdə respublika iqtisadiyyatı dərin böhran mərhələsinə qədəm qoymuşdu. Azərbaycanın bütün sahələrdə geriləməsi, qeyri-sağlam meyllərin getdikcə dərin kök atması respublikanın iqtisadi potensialını dağıtmaq qədər təhlükəli miqyas almışdı. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişaf etdirilməsi üçün prinsipcə yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılığın yeni metodlarından istifadə olunmalı idi.

1970-1985-ci illər Azərbaycan iqtisadiyyatının inkişafında baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan islahatların xarakterinə görə xüsusi yer tutur. Sənaye məhsulları istehsalı, iqtisadiyyatın ayrı-ayrı sahələrində key-

---

[1] 1960-1970-ci illərdə

fiyyət göstəricilərinin yüksəlməsi 70-80-ci illərdə Azərbaycan iqtisadiyyatının dinamik olduğunu göstərir.

Həmin dövrdə sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur siyasətinin yeni istiqamətləri işlənib hazırlandı. Bu istiqamətlər sənayenin qabaqcıl və mütərəqqi sahələrinin, ilk növbədə maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma prosesləri ilə eyni vaxtda neft və qaz hasil edən, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişləndirilməsini nəzərdə tuturdu. Bunun nəticəsində elmi-texniki tərəqqini müəyyən edən sahələr daha sürətlə inkişaf etməyə başladı, respublika sənayesində onların xüsusi çəkisi 1975-ci ildəki 24,7%-dən 1980-ci ildə 28,7%-ə çatdırıldı, bununla da sənayenin strukturunda keyfiyyət dəyişiklikləri əmələ gəldi. 1970-1980-ci illərdə respublikada pambıq lifi istehsalı 1960-1970-ci illərdəkinə nisbətən 3 dəfə, yeyinti sənayesi məhsulları istehsalı 2,6 dəfə artmışdır.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində yaradılmış çoxsaylı sənaye müəssisələri, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələri respublikanın iqtisadi infrastrukturunu əsaslı surətdə dəyişdirmiş, onun aqrar yönümlü respublikadan daha çox sənaye yönümlü respublikaya çevrilməsinə zəmin hazırlamış oldu.

Sənayenin texniki səviyyəsinin yüksəlməsi müəssisələrin işinin səmərəliliyini artırmağa, keyfiyyəti yaxşılaşdırmağa, məhsul vahidinə düşən maddi və əmək məsrəflərini azaltmağa imkan vermişdir. Belə ki, 1970-ci illə müqayisədə sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, mənfəət isə 3,2 dəfə artmışdır.

Bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye məhsulları istehsalı və əmək məhsuldarlığı 2,0 dəfə, xalq istehlakı malları istehsalı 3,0 dəfə artmışdır. 1971-1985-ci illərdə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bəarbər olmuşdur. Kənd təsərrüfatında məcmu məhsul da 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı 2,0 dəfədən artıq çoxalmışdır.

Azərbaycanın ənənəvi təsərrüfat sahələrinin – aqrar bölmənin sürətli yüksəlişi, respublikanın əlverişli təbii-iqlim şəraitinin üstünlüklərindən bacarıqla istifadə edilməsi keçən əsrin 70-ci illərinin iqtisadi strategiyasının çox mühüm tərkib hissələrindəndir. Bu sahəyə diqqətin artırılması onunla şərtlənirdi ki, Azərbaycan üçün ənənəvi təsərrüfat sahəsi olmasına baxmayaraq, aqrar bölmənin inkişafı dövrün tələblərindən əhəmiyyətli dərəcədə geri qalırdı və respublikaya böyük gəlir gətirmək imkanına malik olan pambıqçılıq, üzümçülük, bağçılıq, tərəvəzçilik öz mövcud potensialının cüzi bir hissəsini reallaşdıra bilirdi.

Əsası 1969-cu ildə qoyulan və məqsədi aqrar sahəni sürətlə irəliyə aparmaqdan ibarət olan strateji xətt çox qısa müddətdə öz bəhrəsini verməyə başladı. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1 milyon 481 min tona, pambıq istehsalı 1970-ci ildəki 335,6 min tondan 1980-ci ildə 831,2 min tona çatdırıldı. Eyni inkişaf sürəti bağçılıq, bostançılıq və tərəvəzçilikdə də müşahidə olunurdu. Həmin dövrdə aqrar sahənin sürətli yüksəlişi intensiv metodların tətbiqinə, elmin ən yeni nailiyyətlərindən, o dövr üçün ən müasir texnologiyalardan kənd təsərrüfatında istifadə edilməsinə əsaslanırdı. Bu illərdə respublikada geniş meliorasiya və irriqasiya işləri həyata keçirilir, çoxlu dəryaçalar salınır, hidrotexniki qurğular tikilirdi. Bütün bunların nəticəsində kənd təsərrüfatının maddi-texniki bazası möhkəmləndirilmiş, bu sahədə fondverimi, fondtutumu və əməyin enerji ilə silahlanması göstəriciləri xeyli yaxşılaşmış, əmək məhsuldarlığı 2,0 dəfə yüksəlmişdi. O dövrdə respublikamızda kapital qoyuluşunun artırılması demək olar ki, iqtisadiyyatın digər sahələrinin yüksəlişinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə səbəb olmuşdu.

Ümumiyyətlə, bu dövrdə respublikada milli gəlir 2,5 dəfə artmış, sənaye məhsulları istehsalı 2,7 dəfə artaraq əvvəlki 30 ildə istehsal edilmiş məhsulun həcmindən 2,0 dəfə çox olmuşdur. Kənd təsərrüfatında ümumi məhsul 2,7 dəfə çoxalmışdı. İqtisadiyyatın inkişaf etdirilməsinə əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuşdur.

Beləliklə, mahiyyətcə gələcəyə yönəldilmiş inkişaf strategiyasında əsas məqsəd iqtisadiyyatın tezliklə dirçəldilməsi, Azərbaycanın təbii ehtiyatlarından və iqtisadi potensialından məqsədyönlü istifadə olunmaqla onun hərtərəfli inkişaf etdirilməsindən ibarət olmuşdu.

Lakin 1980-ci illərin axırlarında respublikada ictimai-siyasi vəziyyətin kəskinləşməsi və ziddiyyətli xarakter alması sosial-iqtisadi inkişafa mənfi təsir göstərməyə bilməzdi. Bunun nəticəsində iqtisadi inkişafı və onun səmərəliliyini ifadə edən bütün keyfiyyət göstəriciləri əvvəlki illərlə müqayisədə pisləşmişdi. İqtisadiyyatda dinamizmin aşağı düşməsi, onu ifadə edən keyfiyyət göstəricilərinin pisləşməsi isə respublikada vəziyyəti yenidən gərginləşdirirdi.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirərkən belə bir nəticə çıxarmq olar ki, keçmiş SSRİ dönəmində hakimiyyət orqanlarının Azərbaycana münasibəti müxtəlif dövrlərdə eyni olmamışdır. Başqa sözlə, respublikamızın iqtisadiyyatı qeyri-bərabər inkişaf etmiş, azalma, artma, kəmiyyət və keyfiyyət dəyişiklikləri, mənfi və müsbət meyllər bir-birini əvəz etmişdir. Ümumi nəticə isə ondan ibarətdir ki, müxtəlif dövrlərdə qazanılmış nailiyyətlər Azərbaycanın malik olduğu iqtisadi potensialın, yerləşdiyi ərazinin təbii-iqlim şəraitinin yaratdığı imkanlara uyğun gəlməmişdir. Çünki Azərbaycan iqtisadiyyatı imperiyanın mənafeyinə uyğun gələn strukturda inkişaf etdirilmişdi. Bu isə təbiidir ki, müstəqilliyimizi bərpa etdikdən sonra əsaslı struktur dəyişiklikləri aparılmasını zəruridirdi.

## 19.2. Azərbaycan iqtisadiyyatının mövcud strukturu, onun təhlili və qiymətləndirilməsi

Bazar iqtisadiyyatına doğru istiqamət götürən, habelə geosiyasi vəziyyətinin əsaslı surətdə dəyişdiyi Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi ilk gündən iqtisadiyyatın yeni strukturunun formalaşdırılması sahəsində üzərinə düşən vəzifələri yerinə yetirməyə başlamış və hazırda bu proses müvəffə-

qiyyətlə davam edir. Azərbaycan dövləti tarixən çox qısa müddət ərzində ölkənin sosial-iqtisadi inkişaf strategiyasını, struktur-texnoloji dəyişikliklərin əsas istiqamətlərini, geoiqtisadi münasibətlər sistemində ölkəmizin yerini, bazar iqtisadiyyatının sosial yönümünü müəyyən etmiş, iqtisadiyyatda inkişaf etmiş dövlət bölməsinin yaradılması, çox mühüm investisiya, struktur-texnoloji proqramlarda ölkənin iştirakının təmin olunması; ümummilli məhsulun bölüşdürülməsi və yenidən bölüşdürülməsinin tənzimlənməsi; iqtisadi və sosial proseslərin tənzimlənməsində beynəlxalq təcrübədən istifadə edilməsi; ümumi qanunvericilik və hüquqi ilkin şərtlərin; bazar iqtisadiyyatı subyektləri üçün əlverişli və sağlam mühitin formalaşdırılması; davranış qaydalarının işlənib hazırlanması sahəsində geniş miqyaslı işlər həyata keçirmişdir. Bütün bunlar isə özünün müsbət nəticələrini vermişdir. Bunlar yeni formalaşan təsərrüfat strukturlarının artması, kiçik sahibkarlığın dinamik inkişaf etdirilməsi, qeyri-dövlət bölməsinin, sənaye və kənd təsərrüfatı məhsulları istehsalının, daxili və xarici investisiya qoyuluşunun getdikcə artması, nəqliyyat və rabitənin işini ifadə edən göstəricilərin yaxşılaşması ilə müşayiət olunur. Belə ki, müstəqilliyinin ilk illərini getdikcə dərinləşən iqtisadi böhran şəraitində yaşayan Azərbaycan Respublikası 1995-ci ilə qədər davam edən geriləmə prosesinin qarşısını çox qısa müddətdə ala bilmiş və sabit inkişaf istiqamətində dönüş yaradılmasına nail olmuşdur. 1991-1995-ci illərdə iqtisadiyyatın ayrı-ayrı sahələrində istehsal olunan ümumi daxili məhsul hər il 13-20% azaldığı halda, 1996-cı ildə onun fiziki həc indeksi 101,3% (1,3% artım) təşkil etmiş, sonrakı illərdə isə bu artım getdikcə sürətlənmişdi. Bunu statistik rəqəmlər də əyani surətdə göstərir. Belə ki, ÜDM-in artım sürəti 1997-ci ildə 5,8%, 1998-ci ildə 10,3%, 2000-ci ildə 11,1%, 2003-cü ildə 11,4%, 2004-cü ildə 26,4%, 2005-ci ildə 36,0%, 2006-cı ildə 34,5%, 2007-ci ildə isə 24,0% olmuşdur.

1995-2006-cı illərdə ölkəmizin iqtisadiyyatında aparılan geniş miqyaslı islahatlar nəticəsində sənaye sahələrinin inkişaf etdirilməsində əhəmiyyətli nailiyyətlər qazanılmışdır. Bu dövrdə sənaye məhsulları istehsalı 136% və ya hər il orta hesabla 12,4%

artmışdır. Bunlar sənayedə 1997-ci ildən başlayaraq müşahidə olunan və 2006-cı ildə də davam edən müsbət artım meylləri hesabına əldə edilmişdir.

Ölkəmizdə hasilat sənayesi ilə yanaşı, emal sənayesi də inkişaf edir. Bunu ondan göstərmək olar ki, 1995-2006-cı illərdə emal sənayesi sahələrində məhsul istehsalı 46%, o cümlədən içkilər də daxil olmaqla qida məhsulları istehsalı 85,8%, kimya sənayesi məhsulları buraxılışı 2,6 dəfə, ağac emalı və ağacdan hazırlanan məmulatların istehsalı 27,4%, metallurgiya sənayesi məhsulları istehsalı 8,0 dəfə artmışdır. Bu artım sənayenin digər sahələrində də müşahidə olunmuşdur.

Son illərdə kassa və telefon aparatlarının, mikrokalkulyatorların, məişət elektrik cihazlarının (kofe üyüdən, ət çəkən, şirə sıxan), plastikdən qapı və pəncərə bloklarının, neftin nəqli üçün xüsusi boruların və başqa məhsulların istehsalı mənimsənilmişdir.

Vaxtilə xarici ölkələrdən idxal olunan bir çox məhsulların müəyyən hissəsi artıq respublikamızın özündə istehsal olunur. Bitki yağı istehsal edən «Bakı yağ və qida sənaye» ASC, alkoqolsuz içkilər istehsal edən «Coca-Cola Bottlers» LTD, qablaşdırılmış çay istehsal edən «Sun Tea», pivə istehsal edən «Bakı-Kastel», «Eurepson Tobacco», «Nehur» (parket), «DAD», «Bərəkət» (üzlü süd məhsulları) müəssisələrinin, plastikdən qapı və pəncərə istehsal edən «Türk-Baycan», neftin nəqli üçün xüsusi boruların istehsalı ilə məşğul olan «EİNEC Pips Coiptinqs Azərbaycan» və başqa müştərək və xarici müəssisələrin dünya standartlarına cavab verən məhsulları daxili bazarımızı daha da zənginləşdirmiş, idxaldan asılılığımızın azalmasında çox mühüm rol oynamışdır.

Bütün bunlar sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin yaradılmasına, kiçik sahibkarlığın inkişaf etdirilməsinə güclü təkan vermişdir. 1995-2006-cı illərdə respublikamızda minlərlə yeni kiçik müəssisə açılmış, 2006-cı ildə onların sayı 12232-ə çatmışdır. Həyata keçirilən «açıq qapı» siyasətinin nəticəsidir ki, xarici və müştərək müəssisələrin sayı 3,0 dəfə artmışdır. Hazırda (2006-cı ildə) sənaye sahələrində 234 xarici və

müştərək müəssisə fəaliyyət göstərir, onlarda 28416 nəfər işçi çalışır. Yeni formalaşan təsərrüfat strukturlarının belə sürətlə artması, kiçik sahibkarlığın dinamik inkişafı, sahibkarlıqla məşğul olan fiziki şəxslərin sayının artması bu sahədə qeyri-dövlət bölməsinin xüsusi çəkisinin getdikcə artması ilə müşayiət olunur. Bu, öz ifadəsini onda tapır ki, sənayenin ümumi məhsulunda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 1995-ci ildəki 5,5%-dən 2000-ci ildə 48,4%-ə, 2004-cü ildə 68,5%-ə, 2006-cı ildə isə 87,3%-ə çatmışdır.

Aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının dinamik inkişaf etməsinə öz töhfəsini vermiş və möhkəm zəmin yaratmışdır. Belə ki, 1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi hər il orta hesabla 12% aşağı düşdüyü halda, 1996-cı ildən etibarən (1997-ci il istisna olmaqla) bu göstərici daim artmağa başlamış və 2002-ci ilə nisbətən 2006-cı ildə taxıl istehsalı 35,0%, bostan məhsulları 38,6%, kartof istehsalı təqribən 2,0 dəfə, tərəvəz istehsalı 44,3% artmışdır. Ölkəmizdə meyvə və giləmeyvə istehsalının həcmi 2006-cı ildə 1995 və 2000-ci illərin səviyyəsini müvafiq olaraq 2,0 dəfə və 1,4 dəfə üstələmişdir.

Sərt bazar münasibətləri şəraitində bir sıra səbəblərlə əlaqədar olaraq pambıq və üzüm istehsalı 2002-ci ilədək hər il azalırdısa, artıq 2003-cü ildə pambıq istehsalı həmin illə müqayisədə 23,9%, 2006-cı ildə isə 61,8%, tütün istehsalı müvafiq olaraq 42,4% və 45,5% artmışdır. Lakin yaşıl çay yarpağı istehsalı sahəsində hələ vəziyyəti sabitləşdirmək və ciddi dönüşə nail olmaq mümkün olmamışdır.

Bu dövrdə mal-qaranın sayının dinamik çoxalması heyvandarlıq məhsulları istehsalının artırılmasına imkan vermişdir. Belə ki, 1995-ci ilə nisbətən 2006-cı ildə ət istehsalı (kəsilmiş çəkidə) 1,9 dəfə, süd istehsalı 51,0 % artmışdır. Barama istehsalı haqqında isə bu sözləri demək olmaz. Belə ki, istehsal olunan baramanın həcmi 1991-ci ildəki 5,9 min tondan 2003-cü 131 tona düşmüş və demək olar ki, artma meyli özünü göstərməmişdir.

2007-ci il yanvarın 1-nə bütün təsərrüfat kateqoriyalarında 1996-cı ilə nisbətən 45,3% çox iri buynuzlu qaramal, o cümlədən

53,2% çox inək və camış, 70,0% çox qoyun və keçi olmuşdur. Bu dövrdə donuzların sayı təqribən 30,0% azalmış, quşların sayı isə 40,0% artmışdır. Meşə və balıqçılıq təsərrüfatlarının inkişaf etdirilməsi sahəsində çox böyük nailiyyətlər qazanılmasa da hər halda bu sahələrdə də işlərin gedişində müsbət dəyişikliklər müşahidə olunmuşdur.

Aqrar bölmədə bu müsbət dəyişikliklərin baş verməsində yeni təsərrüfatçılıq sisteminə keçilməsi - kəndli (fermer) təsərrüfatlarının, kiçik müəssisələrin, istehsal kooperativlərinin, səhmdar cəmiyyətlərinin yaradılması, torpağın onu əkib-becərənlərin xüsusi mülkiyyətinə verilməsi çox böyük rol oynamışdır. Yeni təsərrüfatçılıq formaları ilk illərdən öz üstünlüyünü göstərmişdir.

Məlum olduğu kimi, 1998-ci ilədək respublikamızın kənd təsərrüfatı sistemində kolxoz və sovxozlar mövcud olmuşdur. 1998-ci ildən etibarən isə kənddə aparılan islahatlar nəticəsində kəndli (fermer) təsərrüfatları yaradılmış, bunun nəticəsində iqtisadi münasibətlər köklü surətdə dəyişmişdir ki, bu da öz bəhrələrini vermişdir. Bunu kənd təsərrüfatı bitkilərinin məhsuldarlığından daha aydın görmək olar. Belə ki, 1993-1998-ci illərdə respublikamızda dənli bitkilərin hər hektardan orta məhsuldarlığı 15,1 sentnerlə 17,4 sentner, pambığının 6,1 sentnerlə 13,0 sentner, üzümünkü 22,2 sentnerlə 32,6 sentner, kartofun orta məhsuldarlığı isə 78 sentnerlə 98 sentner arasında tərəddüd edirdisə, 1999-cu ildən başlayaraq bu göstəricilər artmışdır. Başqa sözlə, orta məhsuldarlıq 1998-ci ilə nisbətən 2006-cı ildə dənli bitkilər üzrə 63,5%, pambıq üzrə 1,8 dəfə, üzüm üzrə 3,1 dəfə, kartof üzrə isə 1,5 dəfə yüksək olmuşdur. Bunlar kolxoz və sovxozlara nisbətən yeni təsərrüfatçılıq formalarının üstünlüyə malik olduqlarını əyani surətdə göstərir. 2007-ci il yanvarın 1-nə ölkəmizin kənd təsərrüfatında 2456 fərdi sahibkar fəaliyyət göstərmişdir. 2006-cı ildə istehsal olunan kənd təsərrüfatı məhsullarının 98,9%-i əhalinin şəxsi yardımçı təsərrüfatlarının payına düşmüşdür. Həmin ildə ölkəmizdə istehsal olunmuş ÜDM-də kənd təsərrüfatının xüsusi çəkisi 6,9%-ə bərabər olmuşdur.

Azərbaycan dövləti məqsədyönlü investisiya siyasəti yeridir.[1] Burada yalnız onu deməyi lazım bilirik ki, ölkəmizin iqtisadiyyatına investisiya qoyuluşlarının tərkibində struktur dəyişiklikləri baş vermişdir. Başqa sözlə, ölkəmizin iqtisadiyyatına bütün mənbələr üzrə investisiya qoyuluşunda xarici investisiyaların xüsusi çəkisi 2004-cü ildəki 77,2%-dən 2006-cı ildə 60,9%-ə düşmüş, daxili investisiyalarınkı isə 22,8%-dən 39,1%-ə çatmışdır.

Xarici investisiya qoyuluşunda diqqəti cəlb edən cəhətlərdən biri də investisiyaların tərkibi və ayrı-ayrı ölkələrin xüsusi çəkisində baş verən dəyişikliklərdir. Bu dövrdə maliyyə kreditlərinin xüsusi çəkisi 58,7%-dən 6,5%-ə düşmüş, neft sənayesinə yönəldilən xarici investisiyaların xüsusi çəkisi isə 37,3%-dən 85,8%-ə qədər yüksəlmişdir. Bununla da struktur siyasətinin əsas istiqamətlərindən biri olan ehtiyat mənbələrinin səfərbərliyə alınmasının zəruri şərtlərindən biri kimi sənaye cəhətdən inkişaf etmiş bölmə yaradılmışdır.

2004-2006-cı illərdə ölkəmizin iqtisadiyyatına ümumi investisiya qoyuluşunda maliyyə kreditlərinin xüsusi çəkisi yenidən yüksələrək 2004-cü ildəki 6,2%-dən 2005-ci ildə 14,2%-ə, 2006-cı ildə isə 19,5%-ə çatmışdır.

Xarici investisiya qoyuluşunda ölkələrin xüsusi çəkisinə gəldikdə, burada nisbi mənada ən yüksək göstərici Türkiyə, ABŞ və Böyük Britaniyaya məxsusdur.

Mütəxəssislər yük nəqliyyatını iqtisadiyyatın qan damarı adlandırırlar. Bu da təsadüfi deyildir. Çünki yük nəqliyyatı iqtisadiyyatın ayrı-ayrı sahələri arasında qarşılıqlı əlaqələrin yaradılması və geniş təkrar istehsalın fasiləsizliyinin təmin olunmasında həlledici rol oynayır. Odur ki, ölkəmizdə iqtisadiyyatın bu bölməsində 1996-cı ildən başlayaraq müşahidə olunan sabit artım sonrakı illərdə də davam etmişdir. Ümumiyyətlə bu bölmədə də özəlləşdirmənin həyata keçirilməsi öz bəhrələrini vermiş, bazar münasibətləri inkişaf etməyə başlamışdır. Belə ki, 1995-ci ildə

[1] Bu barədə dərs vəsaitinin VII və XXIII fəsillərində ətraflı bəhs olunur.

yük daşınmasının 3,3%-i özəl bölmənin payına düşdüyü halda, bu göstərici 2006-cı ildə 63,5% təşkil etmişdir.

Ümumiyyətlə, müstəqilliyimizi bərpa etdikdən sonra keçən müddət ərzində iqtisadiyyatımızın bu bölməsində də çox dərin kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Belə ki, 1990-cı ildə yük daşınmasının strukturunda əsas yeri avtomobil (55,2%) və dəmiryol nəqliyyatı (28,9%), yük dövriyyəsinin strukturunda isə birinci yeri dəmiryol nəqliyyatı (74,8%), ikinci yeri dəniz nəqliyyatı (11,7%), sonrakı yerləri boru kəməri (6,8%), avtomobil (6,6%) nəqliyyatı tutmuş, aviasiyanın xüsusi çəkisi isə çox aşağı olmuşdur. 2006-cı ildə vəziyyət dəyişmiş və yük daşınmasında aparıcı sahələr avtomobil (51,1%), dəmiryol (20,7%), boru kəməri (18,8%) və dəniz nəqliyyatı (9,3%) olmuşdur. Bu sahələrin yük dövriyyəsində xüsusi çəkisi isə müvafiq olaraq 19,0%; 25,5%; 36,2% və 18,6%-ə bərabərdir. İstər yük daşınması, istərsə də yük dövriyyəsinin strukturunda 1990-cı ilə nisbətən 2006-cı ildə boru nəqliyyatının xüsusi çəkisinin artması mütərəqqi haldır. Çünki ucuz yük daşınması məhz bu nəqliyyatda həyata keçirilir.

Zəruri informasiyaların tez və vaxtında əldə edilməsi iqtisadiyyatın bir çox sahələri üçün daha vacib olan meteoroloji şəraiti nəzarət altında saxlamağa və onu proqnozlaşdırmağa imkan verir, bir çox məsələlərin (əmtəə və valyuta birjalarının vəziyyəti, daşınan yüklərin məhz harada olması və i.a.) həllini sürətləndirir. Bununla əlaqədar olaraq ölkəmizin sosial-iqtisadi həyatında çox mühüm rol oynayan rabitədə yeniləşmə və ən mütərəqqi texnologiyalardan istifadə prosesi iqtisadiyyatın digər sahələrinə nisbətən daha sürətlə gedir. 1993-2006-cı illərdə mobil telefon, peycer, trank, sürətli poçt-kuryer, İnternet və digər yeni rabitə xidməti növlərinin iqtisadiyyatın bu sahəsinə daxil olması və sürətlə inkişaf etdirilməsinin nəticəsidir ki, artıq bu xidmət növlərindən əldə edilən gəlir bütün gəlirlərin 60%-dən çoxunu təşkil edir. Rabitə müəssisələrinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 1995-ci ildəki 1,0%-dən 2006-cı ildə 2,8%-ə çatmışdır. Həm də rabitə müəssisələrinin əldə et-

dikləri gəlirin təqribən 2/3 hissəsi qeyri-dövlət bölməsinin payına düşür.

Müasir dövrdə ölkələr dünya ticarətində fəal iştirak edirlər. Bu, bir sıra səbəblərlə əlaqədardır. Belə ki, dünya ticarəti ölkədə mövcud olan iqtisadi ehtiyatlardan, elm və texnikanın ən yeni nailiyyətlərindən, mütərəqqi texnologiyalardan istifadə olunmasına, çox qısa müddətdə iqtisadiyyatda struktur dəyişiklikləri aparılmasına imkan verir.

Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasətin nəticəsidir ki, xarici ticarət dövriyyəsi 1993-cü illə müqayisədə 2006-cı ildə 9,8 dəfə artmışdır. Hazırda ölkəmizin xarici ticarət balansı aktivdir, yəni ixrac idxaldan dəfələrlə çoxdur. Xarici ticarət əməliyyatlarının 44,1%-i, o cümlədən idxalın 30,8%-i, ixracın isə 57,2%-i Avropa İttifaqına üzv ölkələrlə aparılır.

2006-cı ildə Azərbaycanın idxalda əsas tərəfdaşları Rusiya (22,4%), Birləşmiş Krallıq (8,6%), Almaniya (7,7%), Türkiyə (7,3%), Ukrayna (6,0%), Çin (4,2%), ABŞ (3,8%), Yaponiya (3,6%) və başqaları, ixracda isə İtaliya (44,7%), İsrail (10,7%), Türkiyə (6,1%), Fransa (5,5%), Rusiya (5,4%), İran (4,6%), Gürcüstan (4,6%), Yunanıstan (2,9%) və başqa ölkələr olmuşdur. Xarici ticarət əlaqələrində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 63,4%, o cümlədən idxalda 76,3%, ixracda isə 50,3% təşkil etmişdir.

Beləliklə, Azərbaycan iqtisadiyyatının ən mühüm sahələrində gedən iqtisadi prosesləri ifadə edən göstəricilərin qısa təhlili göstərir ki, müstəqillik dövründə Sovet hakimiyyəti illərində süni yolla formalaşdırılmış iqtisadiyyatımızda mövcud olan nöqsanların tədricən aradan qaldırılması sahəsində məqsədyönlü işlər görülmüş və müəyyən nailiyyətlər əldə edilmişdir.

Lakin qeyd etmək lazımdır ki, ölkəmiz öz inkişafının yeni dövrünü yaşayır və Azəbaycan dövləti tərəfindən həyata keçirilən tarazlaşdırılmış daxili və xarici iqtisadi siyasət iqtisadiyyatımızın onun malik olduğu təbii-iqtisadi potensiala uyğun olaraq daha da inkişaf etdirilməsi və sahələr arasında tarazlığın təmin olunması üçün böyük imkanlara malikdir. İmkanın reallığa çevrilməsi isə öz-özünə baş vermir.

Ona görə də ölkəmizin mövcud imkanlarını dərindən və hərtərəfli təhlil etmək əsasında ölçülüb-bilçilmiş struktur dəyişiklikləri proqramı, bazar iqtisadiyyatının formalaşdığı şəraitdə tarazlığı nəzərə alan konsepsiya ilə fəaliyyət göstərən fəaliyyət göstərmək lazımdır. Yalnız belə bir strateji məqsəd, onun həyata keçirilməsinə yönəldilmiş və müxtəlif sahələrə dair taktiki vəzifələrin – kompleks proqramların yerinə yetirilməsi uğurlu nəticələr verə bilər.

## 19.3. Dövlət əmalıkının özəlləşdirilməsi – iqtisadiyyatın başlıca strukturformalaşdırıcı amilidir

Özəlləşdirmə dövlət tərəfindən həyata keçirilən prosesdir və bunun nəticəsində mülkiyyət, formasını dəyişir. Başqa sözlə, özəlləşdirmə yolu ilə dövlət mülkiyyəti xüsusi mülkiyyətə çevrilir. Bu prosesin müvəffəqiyyətlə başa çatdırılması xeyli dərəcədə onun prinsiplərinin düzgün müəyyən edilməsindən asılıdır. Çünki prinsip insan fəaliyyətinin başlıca ideyasını təşkil edir. Bu mənada iqtisadiyyatda istifadə olunan prinsipləri dəmir yolunda qatarların hərəkəti ilə müqayisə etmək olar. Dəmir yolu onun qarşısında qoyulan tələblərə cavab vermədikdə qatar mənzil başına çata bilmədiyi kimi özəlləşdirmənin prinsipləri də düzgün müəyyən olunmadıqda o, uğurla başa çatdırıla bilmir. Bununla əlaqədar olaraq dövlət əmlakının özəlləşdirilməsi prosesində aşağıdakı prinsiplərdən istifadə olunmalıdır: 1) dövlət mülkiyyətinin özəlləşdirilməsinin qaydası, mərhələləri, dövrləri, müddəti, növbəliliyi, ardıcıllığı, obyektlərin seçilməsi və s. üçün hüquqi baza yaradılmalıdır; 2) əmək kollektivlərinin və əhalinin bütün təbəqələrinin iqtisadi mənafeləri, bölgələrin xüsusiyyətləri, müəssisələrin istehsal gücləri, əsas istehsal fondlarının vəziyyəti, psixoloji amillər və s. nəzərə alınmalıdır; 3) özəlləşdirməyə dair tədbirlərin aşkarlığı təmin olunmalı, onların həyata keçirilməsi və nəticələri üzərində nəzarət qoyulmalıdır.

Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, mülkiyyətin formasının dəyişdirilməsi

dövlət proqramı əsasında həyata keçirilir. Proqramda özəlləşdirmənin əhatə dairəsi, yəni özəlləşdirilən obyektin (əmlakın) siyahısı, onların texniki-iqtisadi göstəriciləri və ilkin qiymətləndirilməsi, mərhələləri, formaları, müddətləri, iqtisadiyyatın sahələri üzrə variantları, özəlləşdirmə payının müəyyən edilməsi, əldə olunan vəsaitdən istifadə qaydası və s. nəzərdə tutulur. Mülkiyyətin forması bu proqrama və prinsiplərə tam əməl olunduğu hallarda dəyişdirilir. Bundan başqa, özəlləşdirməyə müəyyən məhdudiyyətlər qoyula bilər və qoyulur. Bunlara ümumdövlət əhəmiyyətli müəssisələr və əmlak növləri (faydalı qazıntı yataqları, müdafiə sənayesinin obyektləri və məhsulları və i.a.) daxildir.

Ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsi prosesində yuxarıda göstərilən prinsiplərdən istifadə olunmuş, 1993 və 2000-ci illərdə qanun, habelə 1995-1998-ci illəri və 2000-ci ildən sonrakı dövrü əhatə edən Dövlət Proqramları qəbul edilmişdir.

1995-1998-ci illərdə dövlət mülkiyyətində olan müəssisə və obyektlər özəlləşdirmə imkanlarından asılı olaraq aşağıdakı qruplara bölünmüşdü:

1) özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər;

2) Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

3) Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin qərarı ilə sahə nazirliklərinin rəyi nəzərə alınmaqla özəlləşdirilən müəssisə və obyektlər;

4) yerli hakimiyyət orqanları ilə razılaşdırılmaqla özəlləşdirilən müəssisə və obyektlər;

5) ilk növbədə özəlləşdirilən müəssisə və obyektlər.

Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərə yerin təki, meşə fondu, su ehtiyatları, hava məkanı, qitə şelfi resursları, ölkəmizin ərazi suları və dəniz iqtisadi zona resursları, geostasionar orbitlərdə peyk rabitəsini yerləşdirmək və istifadə etmək hüququ, Azərbaycan xalqının tarixi və mədəni irs obyektləri və s. daxildir.

Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlərə (tikinti idarələri və tikinti sənayesi

müəssisələrindən başqa) elektroenergetika, kömür, neft, təbii qaz çıxaran və emal edən müəssisələr, ixrac ötürücü neft bazaları, habelə milli əhəmiyyət kəsb edən neft bazaları; kimya, neftkimya və biokimya, rabitə, Ali və orta ixtisas tədris müəssisələri; Azərbaycan MEA-nın, Səhiyyə və Təhsil Nazirliklərinin müəssisə və təşkilatları; Dəmir yolu, hava, dəniz və çay nəqliyyatı müəssisələri (o cümlədən elektrik, istilik, qaz təchizatı, su və kanalizasiya təsərrüfatı, şəhər işıqlandırılması), habelə göstərilən obyektləri istismar edən və saxlayan müəssisələr aiddir.

Üçüncü qrupa ümummilli əhəmiyyətli inşaat materialları və konstruksiyaları istehsal edən tikinti müəssisə və təşkilatları; limanlar, liman qurğuları və obyektləri; elmi-tədqiqat, layihə, layihə-axtarış idarələri və müəssisələri; uşaq yeməkləri istehsal edən müəssisə və təşkilatlar; poliqrafiya müəssisələri və nəşriyyatlar; xalq bədii sənət müəssisələri, aptek bazaları (anbarları) və s. daxildir.

Şəhər sərnişin nəqliyyatı müəssisələri və obyektləri, hamamlar, camaşırxanalar, zibil emalı zavodları və stansiyaları yerli hakimiyyət orqanları ilə razılaşdırılmaqla özəlləşdirilə bilər.

İlk növbədə özəlləşdirilən müəssisə və obyektlərə topdansatış və pərakəndə ticarət obyektləri, ictimai iaşə və məişət xidməti müəssisələri və obyektləri, tikinti və inşaat materialları sənayesi müəssisələri, kənd təsərrüfatı məhsullarının emalı müəssisələri, çörək və çörək məhsulları, ət kombinatları, yağ-pendir, konserv zavodları, zeytun emalı müəssisələri, qənnadı fabrikləri və s. daxildir.

Özəlləşdirmənin bu mərhələsində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdu:

- dövlət əmlakının 75,1%-nin, o cümlədən 1995-ci ildə 15,9%-nin, 1996-cı ildə 41,9%-nin, 1997-ci ildə 13,0%-nin, 1998-ci ildə isə 4,3%-nin özəlləşdirilməsi;
- özəlləşdirmənin əmək kollektivləri və əhalinin bütün sosial təbəqələrinin iqtisadi mənafeləri, bölgələrin xüsusiyyətləri, psixoloji amillər və s. nəzərə alınmaqla aparılması;
- sahibkarlığın inkişaf etdirilməsi və sağlam rəqabət mühitinin formalaşdırılması ilə əlaqədar görülən işlərin aşkarlığının

təmin olunması, əhalidə bu prosesin dönməzliyi haqqında tam təsəvvür yaradılması;

- sahibkarların hüquqları və qanuni mənafelərinin dövlət tərəfindən qorunması, fəaliyyətlərinə müxtəlif iqtisadi vasitələrlə nəzarət edilməsi və kömək göstərilməsi haqqında onlarda inam yaradılması;

- daşıqnmaz əmlakın, o cümlədən torpaq sahələrinin özəlləşdirilməsini həyata keçirən regional və yerli özhünüidarə orqanlarının hüquqlarının genişləndirilməsi və s. və i.a.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, özəlləşdirmə uzun sürən və mürəkkəb bir prosesdir. Bu isə belə bir fikir söyləməyə əsas verir ki, özəlləşdirmənin aparılması müxtəlif mərhələlərə bölünməlidir. Bu prosesi şərti olaraq aşağıdakı mərhələlərə bölmək və rəmzi adlar vermək olar:

1) «kiçik» özəlləşdirmə;
2) «orta» özəlləşdirmə;
3) «böyük» özəlləşdirmə.

Ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsində məhz bu ardıcıllıqdan istifadə olunur. Başqa sözlə, özəlləşdirmənin birinci dövlət proqramına uyğun olaraq ilk növbədə ticarət, ictimai iaşə, əhaliyə məişət xidməti sahələrində fəaliyyət göstərən, həmçinin xalq istehlakı malları istehsal edən kiçik müəssisələrin əmək kollektivlərinə üstünlük verilməklə sahibkarlar qrupuna, ayrı-ayrı adamların xüsusi mülkiyyətinə verilməsindən başlanmışdır.

Özəlləşdirmənin ikinci mərhələsində çox da böyük olmayan istehlak malları istehsal olunan müəssisələr xüsusi mülkiyyətə verilmişdir.

Üçüncü mərhələdə iri sənaye, rabitə (bəzi sahələr istisna olmaqla) və digər sahə müəssisələrinin özəlləşdirilməsinə başlanmışdır və hazırda bu proses davam edir. Bu, ən mürəkkəb mərhələdir. Çünki bu mərhələdə qiymətli kağızlar bazarının, kredit ehtiyatlarından istifadə və xarici kapitalın cəlb olunması nəzərdə tutulur.

Beləliklə, özəlləşdirmənin nəzərdən keçirilən hər bir mərhələsi özündən sonrakı mərhələ üçün zəmin hazırlayır. Bu mərhələ-

nin hər biri də aralıq «dövrlərə», müddətlərə bölünür və obyektlərin (əmlakın) hansı ardıcıllıqla özəlləşdirildiyi müəyyən olunur.

Dövlət əmlakının özəlləşdirilməsində müxtəlif metodlardan istifadə olunur ki, bunlardan biri də çek variantıdır. Bu variant Şərqi Avropa ölkələrinin təcrübəsindən yaxşı məlumdur. O, adətən kapital çatışmazlığı və dövlət bölməsində olan müəssisələrin əksəriyyətini xarici investorlar üçün cəlbedici olmadığı şəraitdə dövlət mülkiyyətinin xüsusi mülkiyyətə çevrilməsi prosesidir. Çeklə özəlləşdirmə, həm də sosial ədalətin reallaşdırılması vasitəsi hesab olunur. Çeklə özəlləşdirmə zamanı dövlət əmlakının tez bir zamanda, sürətlə yenidən bölgüsünün həyata keçirilməsi, onun kiçik şəxslər, işgüzar mülkiyyətçilər və real investorlar qrupuna verilməsi və s. vəzifələr qarşıya qoyulur. Mütəxəssislərin fikrincə bu proses təqribən bir il yarım, iki il davam edir və həmin müddətdə qiymətli kağızların ikinci bazarı formalaşır.

Lakin çeklə özəlləşdirmə əslində hələ mülkiyyətin və mülkiyyətçinin dəyişməsi demək deyildir. Ona görə ki, Şərqi Avropa ölkələrinin və Rusiyanın bu sahədəki təcrübəsi göstərir ki, çeklə özəlləşdirmə işgüzar fəallığın canlanmasına, istehsaldakı tənəzzülün aradan qaldırılmasına, investisiyaların artmasına və struktur dəyişikliklərinin güclənməsinə bir o qədər təsir etmir. Çeklə özəlləşdirmənin daxili çatışmazlıqları da özünü göstərir. Əvvəla qeyd etmək lazımdır ki, bazar mexanizminin zəif inkişaf etdiyi və ya bir o qədər də inkişaf etmədiyi bir şəraitdə özəlləşdirmədə iştirak edənlər sahibi olduqları əmlakın bazar dəyərini olduğu kimi qiymətləndirmək imkanına malik olmurlar. İkincisi, necə deyərlər, «özəlləşdirilmiş pulların» bərabər bölgüsü mülkiyyət titullarının səhmdarlar arasında bərabər bölgüsünə səbəb olur ki, bu da onların idarə olunmasında çətinliklərə gətirib çıxarır. Çünki, idarəetmə prosesi nəzarətdən çıxır, onun fəaliyyəti kapital sahiblərinin deyil, menecerlərin maraqlarının reallaşdırılmasına tabe edilir. Avstriya Elmlər Akademiyası tərəfindən 1992-ci ilin yanvar ayında Vyanada 20-dən çox Universitet

və elmi-tədqiqat İnstitutunun iştirakilə keçirilən Beynəlxalq Konfransda da bu modelin nöqsanlı olduğu göstərilmişdir[1].

XX əsrin 80-ci illərindən başlayaraq özəlləşdirmə proqramlarını həyata keçirən Qərbi Avropa ölkələrinə, habelə inkişaf etmiş ölkələrə nisbətən ölkəmizdə aparılan özəlləşdirmənin bir sıra xususiyyətləri vardır. Bunlar ilk öncə ölkəmizdə ilk dövrlərdə kapital bazarının, özəlləşdirmədə iştirak etmək üçün əhalinin böyük əksəriyyətində real tədiyyə vəsaitinin olmaması; dövlət inhisarı ilə əlaqədar ideoloji steorotiplərin, təkcə iqtisadi əlaqələrin deyil, həm də istehsal-texniki əlaqələrin yüksək dərəcədə inhisarlaqdırılmasının mövcudluğu və s. əlaqədardır.

Azərbaycan Respublikasında mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi təkcə xalis iqtisadi məsələ deyil, həm də geniş miqyaslı sosial-siyasi məqsəd daşıyan, köhnə sosial-iqtisadi münasibətlərin ləğv edilməsi və yenilərinin yaranması prosesidir. Odur ki, ölkəmizdə xüsusi mülkiyyətin və xüsusi mülkiyyətçilər sinfinin formalaşmasına xüsusi diqqət yetirilir, bu məqsədlə konkret tədbirlər görülür.

Azərbaycanda əhalinin özəlləşdirmədə iştirakına və ictimai sərvətdən pay almaq hüquqlarına şərait yaratmaq məqsədilə özəlləşdirmə payı verilməsi qaydasından istifadə olunur. Özəlləşdirmə payı təyinatlı dövlət qiymətli kağızıdır və nominal dəyəri 10.000 (on min) manata (2 yeni AZN-ə) bərabər olan səhmlərə dəyişdirilir. Özəlləşdirmə çekləri Azərbaycan vətəndaşlarının müəssisələrin, onların əmlakının özəlləşdirilməsində, səhmdar cəmiyyətlərinin səhmlərinə sahib olmaqda və onların əldə etdikləri mənfəətin bölüşdürülməsində iştirak etmələrinə imkan verir.

Lakin özəlləşdirmənin çek variantından istifadə olunması bu mərhələdə bir sıra nöqsanların baş verməsinə gətirib çıxarmışdır.

Əvvələ qeyd etmək lazımdır ki, dövlət əmlakının özəlləşdirilməsinə dair birinci proqram 1995-1998-ci illəri əhatə etdiyi halda, əhaliyə özəlləşdirmə paylarının verilməsinə 1997-ci il mart ayının 1-dən, özəlləşdirmə prosesinə isə əslində 1998-ci, yən

---

[1] Росссийская Экономическая газета. 1995 г., №7-10, с. 3.

proqramın əhatə etdiyi axırıncı ildən başlanmışdır. Deməli, birinci proqramda nəzərdə tutulan obyektlərin hamısını özəlləşdirməyə hazırlamaq mümkün olmamışdır. Digər tərəfdən, özəlləşdirmə paylarının istifadə müddəti uzadılsa da həmin dövrdə onun təqribən 1/4 hissəsi silinmişdir. Deməli, əhaliyə paylanmış 8 milyon özəlləşdirmə payının (32 milyon özəlləşdirmə çekinin) təqribən 6 milyonu (və ya özəlləşdirmə çekinin 24 milyonu) istifadə edilməmiş qalırdı.

İkincisi, özəlləşdirmənin əsas məsələlərindən biri də müəssisələrin əmlakının qiymətləndirilməsidir. Əsas kapitalın tam ilk dəyəri ilə bazar dəyəri (qiyməti) arasında kəskin fərq əmələ gəldiyi şəraitdə, bu xüsusilə vacibdir. Lakin birinci mərhələdə özəlləşdirməyə çıxarılan obyektlərin qiymətləndirilməsində bir sıra nöqsanlara yol verilmiş və maraqlı şəxslər və qruplar bundan sui istifadə etmişlər. Başqa sözlə, onlar obyektlərin dəyərini az göstərməklə, onları asanlıqla ələ keçirə və özlərininkiləşdirə bilmişlər;

Üçüncüsü, özəlləşdirmə aşkarlıq şəraitində aparılmalı, onların həyata kesirilməsi və nəticələri üzərində nəzarət qoyulmalı, əhali arasında onun məramı və məqsədi ilə əlaqədar geniş təbliğat işləri aparılmalıdır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, özəlləşdirmə prosesində bəzi hallarda aşkarlıq təmin olunmamış və əhalinin böyük əksəriyyəti bu barədə demək olar ki, heç bir təsəvvürə malik olmadığına görə özəlləşdirmə paylarını satıb pula çevirməyə üstünlük vermişlər;

Doğrudur, bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etmiş olduğu ölkələrin (ABŞ, Fransa, İngiltərə və s.) təcrübəsi göstərir ki, dövlət əmlakının özəlləşdirilməsi uzun sürən və mürəkkəb bir proses olduğuna görə onun aparılması mərhələlərə bölünür. Lakin bu, ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsi prosesinin ləng getməsinə haqq qazandırmağa əsas vermir. Nəzərə alsaq ki, 1995-1998-ci illərdə birinci Dövlət Proqramına uyğun olaraq mövcud dövlət əmlakının 75,1%-nin özəlləşdirilməsi vəzifəsi qarşıya qoyulmuşdu, onda dediklərimizin həqiqət olduğu heç kimdə mübahisə doğurmamalıdır. Bizə elə gəlir ki, özəlləşdirmə prosesi sürətləndirilsə və ikinci Dövlət Proqramın-

da qarşıya qoyulan vəzifələr tezliklə reallaşdırılsa, bu, ölkə iqtisadiyyatının hərtərfli inkişaf etdirilməsi sahəsində daha böyük nailiyyətlər qazanılmasına imkan verə bilər.

İkincisi, ölkəmizin regionlarında xarici investisiya fəallığı arzu olunan səviyyədə deyildir. Halbuki respublikamızda hələ Sovet hakimiyyəti illərində tikilmiş, bir sıra strateji əhəmiyyətli müəssisələr ya tamamilə, ya da tam gücü ilə işləmir. Bu müəssisələrin xarici investorlara verilməsi və müasir avadanlıqlarla təchiz edilməsi üçün onlarda stimul yaradılması investisiya mühitinin daha da yaxşılaşdırılmasını zəruri edir. Bizə elə gəlir ki, bu yolla ölkəmizdə istehsal sahələri və turizmin inkişaf etdirilməsi üçün xarici və daxili investorların xidmətlərindən istifadə olunması böyük fayda verər.

Üçüncüsü, sağlam rəqabət mühitinin formalaşdırılması ilə əlaqədar bir çox tədbirlər görülməsinə baxmayaraq, bu sahədə də bir sıra çatışmazlıqlar nəzərə çarpır. Bu, özünü hər şeydən əvvəl ölkə daxilində inhisarçılıqda göstərir. Belə ki, Azərbaycanın daxili bazarında sağlam rəqabət prinsiplərinin formalaşmasına ən azı aşağıdakı iki səbəbə görə yerli inhisarçılığın güclənməsi əngəl törədir:

1) Təbii inhisarların fəaliyyətinə münasibətdə hakimiyyət orqanlarının passiv mövqedə durmaları. Bu, özünü hər şeydən əvvəl onda göstərir ki, nəqliyyat və energetika xidmətlərində əsaslandırılmamış yüksək tariflərin mövcud olması mənfi nəticələrə gətirib çıxarmışdır;

2) Bəzi regionlarda rəqabətin qeyri-bazar metodlarından, xüsusilə də süni əngəlləmələrdən istifadə olunur ki, bu da ölkə ərazisində əmtəələrin sərbəst surətdə yerdəyişməsinə mane olur.

Bütün bunlar Azərbaycan Respublikasının vahid iqtisadi məkanının pozulmasına səbəb olur. Deməli, sağlam rəqabət mühiti yaratmadan və bu sahədə vaxtaşırı təkmilləşdirmələr aparmadan nə elmi-texniki tərəqqi əsasında istehsalda struktur dəyişikliklərinə, nə də iqtisadi artıma nail olmaq mümkün deyildir.

## 19.4. İqtisadiyyatda mütərəqqi struktur dəyişiklikləri aparılmasında dövlət siyasətinin əsas istiqamətləri və səmərəliliyi

Azərbaycan dövləti ölkəmizin gələcək inkişafına dair milli maraqlara cavab verən Proqrama malikdir. Proqramda Azərbaycan Respublikasının hərtərəfli inkişaf etdirilməsi ilə bağlı kompleks məsələlər, o cümlədən real şərait, islahatların keyfiyyətcə yeni mərhələyə daxil olması, respublika iqtisadiyyatında baş verən müsbət meyllərin güclənməsi, regionda və dünyada gedən proseslərin milli mənafelər baxımından qiymətləndirilməsi və s. ətraflı nəzərə alınmışdır.

Müasir dövrdə elmi-texniki tərəqqinin təsiri ilə durmadan genişlənən və dərinləşən beynəlxalq əmək bölgüsünün yaratdığı üstünlüklər dünyanın əksər ölkələrində cəmiyyət həyatının bütün sahələrinin yeniləşdirilməsi, xüsusilə də iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi imkanlarını daim artırır. Əslində bu imkan hazırda çox mühüm iqtisadi inkişaf amilinə çevrilmişdir. Təbiidir ki, bu müstəsna imtiyazın böyük faydası ilk növbədə beynəlxalq aləmdə son dərəcə xüsusi maraq doğuran geosiyasi üstünlüyə, çox münasib strateji coğrafi mövqeyə malik olan və əlverişli istehsal infrastrukturu ilə seçilən ölkələrin sosial-iqtisadi yüksəlişində özünü daha qabarıq şəkildə biruzə verir.

Elmi-texniki tərəqqinin cəmiyyət həyatının bütün sahələrinə lərin nüfuz etməsi nəticəsində beynəlxalq əmək bölgüsünün istünlüklərindən istifadə etməklə dünyanın bir çox ölkələri tezliklə yüksək inkişaf etmiş dövlətlər sırasına çıxa bilmişlər.

Bunlara əsasən demək olar ki, regional inteqrasiya proseslərində fəal iştirak etmək Azərbaycanın hərtərəfli inkişafının əsas ərkib hissəsidir. Hazırda ölkəmiz bir neçə qlobal layihənin iştiakçısıdır. Bu layihələrin mahiyyəti Azərbaycanın beynəlxalq ləmdə kommunikasiya əhəmiyyətini artırmaqdan ibarətdir. Bu, yni zamanda, ölkə və ümumiyyətlə region üçün mühüm iqtisadi ıydadır. Azərbaycan xarici sərmayəçilər və maliyyə qurumları ə birlikdə iqtisadi layihələr irəli sürərək və ya yaradaraq, əslin-

də, bütün Güney Qafqaz məkanının inkişaf etdirilməsini qarşısına məqsəd qoymuşdur.

Azərbaycanın şərqlə qərbi, şimalla cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin yolu üstündə yerləşməsi qloballaşma prosesləri baxımından onun təkcə regional layihələrdə deyil, həm də beynəlxalq layihələrdə əhəmiyyətini xeyli artırır.

Bu cəhətdən tarixi ipək yolunun daha geniş iqtisadi əməkdaşlıq imkanlarına əsaslanaraq yenidən dirçəldilməsi Avropa və Asiyanın bir çox ölkələrinin, o cümlədən də Azərbaycanın yaxın gələcəkdə yüksək sürətlə tərəqqi etməsinin mühüm amillərindən birinə çevriləcəkdir.

Dünyanın onlarla ölkəsinin iqtisadi mənafelərini birləşdirəcək Qədim İpək yolu vasitəsilə xeyli genişlənəcək qarşılıqlı əməkdaşlıqda maraqlı dövlətlər arasında öz imkanlarına görə Azərbaycan müstəsna şəraitə və üstünlüyə malikdir. Onun Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi və iqtisadi tərəqqisi üçün nə dərəcədə vacib olması və yaranmış bu yeni imkandan tam və səmərəli istifadə edilməsinin zəruriliyi barədə bəzi mülahizələrimizi söyləməyi lazım bilirik.

Əvvəla qeyd etmək lazımdır ki, Azərbaycan bu mühüm transkontinental magistralın demək olar ki, mərkəzində yerləşməklə, həm də onun uğurlu işləməsi üçün müstəsna dərəcədə əlverişli və nadir coğrafi mövqeyə malikdir.

İkincisi, respublikamızda inkişafın əvvəlki dövrlərində müasir nəqliyyatın bütün növlərini özündə əks etdirən geniş şəbəkə yaradılmışdır. TRASEKA proqramı ilk növbədə məhz Qədim İpək yolunu Mərkəzi Asiyanın və Qafqazın tərəfdaş ölkələrinin nəqliyyat sistemlərinin infrastrukturlarının və daşıma sistemlərinin dünya standartlarına uyğun təkmilləşdirilməsi, yenilərinin yaradılması və onların transavropa kommunikasiya şəbəkələri ilə birləşdirilməsi məqsədini güdür. Bu sistemə daxil olan bütün ölkələr kimi Azərbaycanın da müasir tələblərə cavab verən bütün nəqliyyat şəbəkələrinin istifadəsi hesabına onun büdcəsinə hər il böyük məbləğdə ABŞ dolları ilə vəsait daxil olacaqdır.

Üçüncüsü, Azərbaycanın başlıca tranzit yolu kimi Avropa – Qafqaz – Asiya dəhlizinin genişlənməsindən əldə edəcəyi iqtisad

səmərə bununla məhdudlaşmayacaqdır. Bunu ölkəmizin əldə edəcəyi böyük məbləğdə faydanın yalnız bir hissəsi hesab etmək olar. Çünki TRASEKA proqramının əsasında bu dəhlizlə birbaşa əlaqəsi olan ölkələr arasında daha geniş iqtisadi fəaliyyətin həyata keçirilməsi durur. Bunun nəticəsində tarixi ipək yolu ilə bağlı olan ölkələr arasında qarşılıqlı əməkdaşlıq genişlənəcəkdir ki, bu da onların hər birinə, o cümlədən də Azərbaycana böyük fayda gətirəcəkdir.

Dördüncüsü, bəşəriyyətin yenidən dirçəldəcəyi bu ümumi iqtisadi tərəqqi yolunun təsiri ilə ona sıx tellərlə bağlı olan ölkələr özlərinin təbii sərvətlərindən öz milli mənafeləri üçün istehsalın çox mühüm sahələrinin genişləndirilməsi əsasında daha tam və səmərəli istifadə edilməsi, habelə getdikcə dərinləşən beynəlxalq əmək bölgüsünün yaratdığı böyük üstünlüklərə söykənərək onların hər birinin iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafına və müvafiq dəyişikliklərə təsiri olacaqdır.

Beşincisi, bu amilin təsiri ilə iqtisadiyyatın sürətlə inkişaf etdirilməsində yeni meyllərin özünü ən çox biruzə verə biləcək ölkələrdən biri də Azərbaycan Respublikası olacaqdır. Çünki Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən olkələrin inkişafı onların təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialından səmərəli istfiadə olunması, ticarətin və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün etibarlı zəmin yaradır.

Bəs, bunlar Azərbaycan iqtisadiyyatında nə kimi struktur dəyişikliklərinə səbəb ola bilər?

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, bu, ölkəmizin mövcud nəqliyyat vasitələrinin dünya standartları səviyyəsində yenidən qurulması ilə əlaqədar, mövcud olan bir çox istehsal sahələrinin müasir tələblərə uyğunlaşdırılması və bu istiqamətdə yeni müəssisələrin yaradılmasına səbəb olacaqdır. Və bu məqsədlə nəqliyyat vasitələrinin yeniləşdirilməsinə böyük məbləğdə vəsait qoyulması lazım gələcəkdir. Bu nəhəng quruculuq işlərində müxtəlif nəqliyyat vasitələrinin geniş əhatəli infrastrukturunun yaradılması həyata keçirilməlidir. Çünki Azərbaycanda infrastruktur yaradılması xarici investorlar üçün çox maraq doğuran sahədir. Bağlanan müqavilələrin və çox böyük əhə-

miyyət kəsb edən beynəlxalq və regional layihələrin həyata keçirilməsi ölkəmizdə güclü infrastruktur yaradılmasını tələb edir. Və qeyd etmək lazımdır ki, ölkəmizdə infrastruktur və xidmət sahələrinə investisiya qoyuluşu üçün münbit şərait vardır.

Bunlarla əlaqədar olaraq, respublikamızın əsas avtomagistrallarında müxtəlif xidmət müəssisələri şəbəkəsinin yaradılması zəruriliyi meydana çıxacaqdır. Avtomobil yolları şəbəkəsinin yenidən qurulması və modernləşdirilməsi öz növbəsində bir sıra çox mühüm istehsal sahələrinin meydana gəlməsinə, mövcud olanların isə modernləşdirilməsinə imkan verəcəkdir.

Tarixi İpək yolunun əhəmiyyəti həm də onunla müəyyən edilir ki, onun bərpa olunması əhatə etdiyi ölkələrin sosial-iqtisadi inkişafının sürətlənməsinə yeni yollar açacaq, ona təkan verəcəkdir. Onun sayəsində Mərkəzi Asiyanın və Qafqazın gənc müstəqil dövlətlərinin Avropanın inkişaf etmiş və inkişaf etməkdə olan dövlətləri ilə yeni əməkdaşlıq mühiti yaradan təsərrüfat əlaqələri baş verəcəkdir ki, bu da onların dünya iqtisadiyyatına inteqrasiyasını xeyli sürətləndirəcəkdir. Bu yeni dirçəliş dəhlizi ilə bilavasitə bağlı olan hər bir ölkə kimi Azərbaycanda da beynəlxalq əmək bölgüsünün tələblərinə uyğun olaraq yeni istehsal sahələrinin meydana gəlməsi və mövcud olan bir sıra sahələrin əsaslı surətdə yenidən qurulması, genişləndirilməsi və modernləşdirilməsi ehtimalı olduqca böyükdür.

Azərbaycanın neftçıxarma sənayesində proqnozlaşdırılan böyük artım, habelə İpək yolu üzərində yerləşən ölkələrdə neft-qaz sənayesinin inkişafı ilə əlaqədar olaraq digər ölkələrin də tələbatı nəzərə alınmaqla bir sıra çox mühüm sahələrin inkişaf etdirilməsi tələb olunur. Bu, birinci növbədə hələ Sovet İttifaqı dönəmində ölkənin neft sənayesi üçün lazım olan avadanlıqların 70%-ə qədərini verən neft avadanlıqları istehsal olunan sahələrə aiddir. İpək yolunun üstündə yerləşən ölkələrin heç birində həmin sahənin əhatəli və tam təyinatlı elmi-texniki və istehsal-kadr potensialı ya yoxdur, ya da hələ yaradılmamışdır. Bu üstünlüyün gələcəkdə Azərbaycandakı səviyyəyə çatıb həmin ölkələrdən hər hansı birinə nəsib olması ehtimalı da istisna olunur. Ona görə də Azərbaycan Çin Xalq Respublikasından başlamış Rumıniyaya

qədər İpək yolu üzərində yerləşən, o cümlədən Rusiyanı, xüsusilə də onun Azərbaycanla həmsərhəd olan ərazilərindəki neft sənayesi sahələrini bu sahənin inkişafı üçün lazım olan ən zəruri müasir texnika və avadanlıqlarla təmin edə bilər.

Eyni vəziyyət Azərbaycanın qara metallurgiya sənayesi üçün də səciyyəvidir. Ölkəmiz kifayət qədər dəmir filizi ehtiyatlarına malik olmaqla, burada həm də neft sənayesi üçün müxtəlif növ borular istehsal olunan güclü istehsal sahəsi formalaşmış və uzun müddət Azərbaycan özünün həmin məhsullara olan tələbatını ödəməklə yanaşı, həm də onların xeyli hissəsini başqa neft rayonlarına ixrac etmişdir. Bu isə o deməkdir ki, respublikamızın təbii sərvətləri – dəmir filizi, elektrik enerjisi, təbii qazı və i.a. – əsasında metallurgiya sənayesinin inkişaf etdirilməsi məsələsinin uğurla həll olunması dövlət müstəqilliyimizin yaratdığı əlverişli imkanlardandır.

Azərbaycan iqtisadiyyatının tarazlı inkişaf etdirilməsi üçün çox vacib məsələlərdən biri də etibarlı yerli xammallarla işləyən müəssisələrdə müasir mütərəqqi texnologiyaların tətbiq olunmasıdır. Burada diqqəti cəlb edən bir cəhətin xüsusi qeyd edilməsi lazım gəlir. Bu, domna sobası mərhələsini keçmədən birbaşa yüksək keyfiyyətli dəmir alınmasıdır. Bu yolla alınan təmiz dəmir elektrik üsulu ilə polad istehsalı üçün ən səmərəli və yüksək keyfiyyətli xammal sayılır. Həmin tədbirin həyata keçirilməsi, respublikamızda qara metallurgiya sənayesi kompleksinin inkişafı üçün xammal bazasının genişləndirilməsinə və bu əsas üzərində illik istehsal gücü bir milyon tondan çox olan Azərbaycan boru prokatı zavodunda elektrik üsulu ilə polad istehsalının mənimsənilməsi və daha da genişləndirilməsinə şərait yaradır. Bunun nəticəsində Azərbaycan yenə də, lakin indi daha sərfəli yolla boru istehsalını genişləndirə və bu lazımlı məhsullarla İpək yolu üzərində yerləşən ölkələrin bazarlarında özünün əvvəlki mövqelərini əsaslı surətdə möhkəmləndirə bilər.

Ölkəmizdə əvvəlki dövrlərdə yaradılan istehsal, elmi-texniki və kadr potensialı əsasında Azərbaycan kimya məhsulları, elektrik mühərrikləri, məişət sərinkeşləri və soyuducuları və bəzi baş-

qa məhsulların istehsalına görə də Mərkəzi Asiya ölkələrinin əhatə etdiyi ərazilərdə özünə geniş bazarlar tapa bilər.

Avropa-Qafqaz-Asiya iqtisadi əməkdaşlıq dəhlizinin yenidən əsaslı inkişaf amilinə çevrilməsi Azərbaycanın iqtisadi tərəqqisində müstəsna rol oynaya bilən bir çox imkanlardan tələb olunan səviyyədə istifadə edilməsi üçün də əlverişli şərait yaradacaqdır.

Azərbaycanın milli maraqları və iqtisadi təhlükəsizliyi baxımından respublikamızın şimal-cənub nəqliyyat dəhlzində iştirakının da çox böyük iqtisadi əhəmiyyəti vardır. Modernləşdirilməkdə və çəkilməkdə olan Qars-Axalkalaki-Tbilisi-Bakı dəmiryolu xətti də Şərq ilə Qərb arasında iqtisadi əməkdaşlığın, birinci növbədə yük daşınmasının artmasına, ticarət əlaqələrinin genişlənməsinə və ölkəmizin bir sıra regionlarında məhsuldar qüvvələrin inkişafına səbəb olacaqdır.

Beləliklə, qloballaşan dünya iqtisadiyyatı şəraitində Azərbaycanın beynəlxalq və regional layihələrdə iştirakı onun üçün daimi kapital, daimi gəlir, daimi sabitlik mənbəyi, daimi strateji amildir.

Azərbaycan iqtisadiyyatında tarazlığın təmin edilməsinə təsir göstərə biləcək əsas amillərdən biri də metallurgiya və neft maşınqayırma sənaye sahələrinin modernləşdirilməsidir. Vaxtilə kənardan gətirilən xammallar hesabına inkişaf edən bu sahələrin prioritet sahələrə çevrilməsi və modernləşdirilməsi üçün hazırda ölkəmizdə daha əlverişli şərait vardır. Azərbaycanda metallurgiya sənayesinin inkişafını müəyyən edən amillər bol və rəngarəng metallurgiya, mineral xammal ehtiyatlarının (dəmir, mis, polimetal, qiymətli və nadir metal filizləri), müxtəlif metal tullantılarının, yerli istilik-energetika ehtiyatlarının (neft, qaz və s.), təcrübəli metallurgiya kadrlarının və əmək ehtiyatlarının mövcud olması, metaltələbatlı sənaye və tikinti sahələrinin geniş inkişafı və mövcud metallurgiya sənayesinin maddi-texniki bazası əsasında yeni istehsal sahələrinin yaradılması imkanları və s. olmasıdır.

Məlum olduğu kimi, yüksək metal tutumlu və çox böyük ölçülü metallurgiya sənayesi məhsullarının uzaq məsafələrə da-

şınması bir o qədər də sərfəli deyildir. Ona görə də Azərbaycanın təkcə özünün yox, həm də onunla qonşu və neftlə xeyli zəngin olan ölkələrin metallurgiya sənayesi məhsullarına olan tələbatının ödənilməsi üçün müvafiq bazalara sahib olmaq haqqında da fikirləşmək lazımdır. Azərbaycanın istehsal, geniş əhatəli təhsil və elm, sınaq-təcrübə bazasına malik olması bunu deməyə əsas verir. Odur ki, Azərbaycanda fəaliyyətdə olan müəssisələrin ən yeni texnika və mütərəqqi texnologiyalar əsasında modernləşdirilməsini həyata keçirməklə, regional iqtisadi əməkdaşlıqda bu sahədə geniş fəaliyyət imkanlarına malik oluna bilər. Bu sahələrdə modernləşdirmə işlərinin aparılması istər xarici, istərsə də daxili investisiyaların xidmətlərindən istifadə olunduqda daha səmərəli ola bilər. Çünki mütəxəssislərin proqnozlarına görə yaxın gələcəkdə neftlə zəngin olan qonşu ölkələrin müxtəlif avadanlıqlara, borulara, cihazlara və başqa məhsullara tələbatları xeyli artacaqdır. Azərbaycan, yaranmış imkandan istifadə etmədiyi təqdirdə, həmin ənənəvi sahələrin geniş miqyasda inkişaf etdirilməsi və ondan yararlanmaq imkanını itirə bilər.

Sənayecə inkişaf etmiş bəzi ölkələrdə olduğu kimi, Azərbaycanda da istehsalın elə sahələri vardır ki, onların sürətlə inkişaf etdirilməsi iqtisadiyyatda tarazlığın təmin olunmasına öz töhfəsini verə bilər. Bunlara hər şeydən əvvəl energetika sənayesi, tikinti materialları istehsalı və bəzi infrastruktur sahələri daxildir. Hazırda Azərbaycanda hər il orta hesabla 21-23 mlrd. kVt. saat elektrik enerjisi istehsal olunur və bu göstəriciyə görə o, MDB ölkələri içərisində öncül yerlərdən birini tutur. Azərbaycanın sürətli iqtisadi yüksəlişi onun yaxın gələcəkdə elektrik enerjisinə olan tələbatının xeyli artmasına səbəb olacaqdır. Bu isə ölkədə elektrik enerjisi istehsalının artırılmasını zəruri edəcəkdir. Bununla əlaqədar olaraq indidən ölkəmizin müxtəlif regionlarında yaradılmasına başlanmış modul tipli elektrik stansiyalarının miqyasının genişləndirilməsi və nəticədə elektrik enerjisi istehsalının artırılması qayğısına qalmaq lazımdır.

Azərbaycan tikinti materialları sənayesi üçün rəngarəng xammal ehtiyatı ilə zəngindir. Respublikada minə qədər mineral tikinti xammalı yatağı məlumdur. Həm də bu mühüm sahənin

inkişaf etdirilməsi üçün ölkəmizin demək olar ki, bütün ərazisində olduqca əlverişli şərait vardır. Bu sahəni inkişaf etdirib daxili bazarı qorumaqla, daha ucuz və keyfiyyətli məhsullar hesabına respublikamız özünün yerli tələbatını ödəməyə qadirdir.

Respublikamızın əvvəlki dövrlərində yüngül və yeyinti sənaye sahələri iqtisadiyyatımızda həmişə aparıcı mövqe tutmuş, hətta keçmiş SSRİ-nin mövcud olduğu illərdə, demək olar ki, sənayemizin ümumi məhsulunun yarıdan çoxu onların payına düşmüşdür. Bunlar müstəqillik şəraitində həmin sahələrin inkişaf etdirilməsi üçün nə qədər böyük imkanın olduğunu göstərir. Digər tərəfdən, ölkəmizdə istehsal olunan xammal bu sahələrin müvəffəqiyyətlə inkişaf etdirilməsinə təminat verir. Bu sahələrin inkişafı kənd təsərrüfatı xammalları ilə bilavasitə bağlı olduğuna görə, onlarda aparılan modernləşdirmələr nəticə etibarilə axırıncının da inkişaf etdirilməsi üçün zəmin yaradacaqdır. Bu sahələrlə kənd təsərrüfatı arasındakı qarşılıqlı əlaqə və asılılıq belə bir fikir söyləməyə əsas verir ki, yüngül və yeyinti sənayesinin inkişafı məsələləri dövlətin iqtisadi tənzimləmə siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır. Bunu deməyə belə bir fakt da əsas verir ki, dünyanın demək olar ki, bütün dövlətləri xaricdən satın aldıqları xammal hesabına öz ölkələrində yüngül və yeyinti sənayesi sahələrini müvəffəqiyyətlə inkişaf etdirir, son məhsul istehsalı sahəsində ixtisaslaşmaqla, çox böyük nailiyyətlər qazanırlar. Kifayət qədər yerli xammal ehtiyatlarına (pambıq, ipək, yun, meyvə-tərəvəz və i.a.), ixtisaslı iş qüvvəsinə malik olan Azərbaycan bu məhsulların istehsalını nəinki təşkil etmək, həm də onun miqyasını genişləndirmək yolu ilə ölkədaxili ehtiyacını təmin etməklə yanaşı, həm də rəqabətədavamlı məhsullar istehsal edib, dünya bazarlarına çıxara bilər. Ölkəmizdə kimya və neft-kimya sənayesinin inkişaf etməsi və bu sahədə elmi-texniki potensialın kifayət dərəcədə olması ilə əlaqədar olaraq trikotaj, sintetik materiallar, ayaqqabı və s. məhsulların istehsalı imkanları haqqında da eyni sözləri demək olar.

## 19.5. Qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan dövlətinin struktur siyasətinin prioritetlərindən biridir

Neft və qaz Azərbaycanın ən böyük sərvətləridir. Çünki ölkəmiz üzləşdiyi bir sıra problemləri bu sərvətlərin vasitəsilə həll etmiş və edir. Lakin dünya təcrübəsi göstərir ki, neft və qaz ölkənin iqtisadiyyatında nə qədər böyük əhəmiyyətə malik olsalar da, onlara bel bağlamaq olmaz. Başqa sözlə, ölkəmizin iqtisadiyyatı təkcə neft amilinə söykənməməli və birtərəfli inkişaf etdirilməməlidir. Çünki bu, sonralar gözlənilməz və arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu çox yaxşı qiymətləndirmiş, neftlə zəngin olan ölkələrdə iqtisadiyyatın birtərəfli inkişaf etdirilməsinin ağır nəticələr verdiyini misal gətirmiş və xüsusi olaraq qeyd etmişdir ki, «Biz gələcəyimizi təkcə neft sənayesinə bağlamamalıyıq, orada işlər çox uğurla davam edir və bu sahə Azərbaycana böyük həcmdə valyuta ehtiyatları gətirəcəkdir. Lakin biz öz siyasətimizi elə aparmalyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri ilk növbədə qeyri – neft sektoru, infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik».[1]

Buradan aydın olur ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan dövlətinin struktur siyasətinin prioritetlərindən biridir. Çünki əks təqdirdə ölkə **«holland sindromu»** ilə üzləşə bilər. Bəs bu nə deməkdir? İqtisadi ədəbiyyatda belə bir fikir formalaşmışdır ki, bir sıra ölkələrdə aşkara çıxarılan yeni faydalı qazıntı yataqları onların iqtisadi vəziyyətinin kəskin surətdə dəyişməsinə səbəb olmuşdur. Bu ölkələrin sırasında Hollandiyanın da adı çəkilir. Bir qədər haşiyə çıxıb qeyd etməyi lazım bilirik ki, bizim ağız ədəbiyyatımızda «sonradan görmüşlər» ifadəsi vardır. Bunun mahiyyəti ondan ibarətdir ki, sonradan görmüşlər təsadüf nəticəsində görmədikləri günə düşdükdə görməmişlik

---

[1] Bax: «İqtisadiyyat» qəzeti, 29 oktyabr – 4 noyabr, 2004-cü il.

edir, əllərinə keçən varı-dövləti sağa-sola səpməklə, özlərini nümayiş etdirməyə çalışırlar. Vaxtilə Hollandiyada da belə olmuşdur. Burada neft gəlirləri ölkə iqtisadiyyatının həlledici sahələrinin inkişaf etdirilməsinə yönəldilməli olduğu halda, birbaşa ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, abadlıq işlərinin aparılmasına, büdcə kəsirinin maliyyələşdirilməsinə və bir sıra digər sahələrə istiqamətləndirilmiş, qeyri-neft sektorunun inkişaf etdirilməsinə bir o qədər də fikir verilməmişdir. İqtisadiyyatı neft və ondan gələn gəlir üzərində qurulmuş Hollandiya məhsulların böyük əksəriyyətini idxal etdiyinə görə sonrakı dövrdə neftdən əldə edilən gəlir xarici ölkələrə axmağa başlamışdır. Odur ki, Azərbaycan dövləti bu acı təcrübədən nəticə çıxarır, neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişaf etdirilməsinə də xüsusi diqqət yetirir və qayğı göstərir. Ölkəmizdə qeyri-neft sektorunun bir sıra sahələri, xüsusilə də nəqliyyat, rabitə, ticarət, sənaye, tikinti, xidmət sahələri müvəffəqiyyətlə inkişaf etdirilir. Qeyri-neft sektorunun elə sahələri də vardır ki, onlar bütün ölkələrdə dövlətin iqtisadi siyasətinin mərkəzində dayanır. Fikrimizcə, ölkəmiz üçün səciyyəvi olan aşağıdakı qeyri-neft sahələrinin inkişaf etdirilməsinin diqqət mərkəzində saxlanılması və investisiyaların çox hissəsinin ilk növbədə həmin sahələrə yönəldilməsi məqsədəuyğun olardı: 1) Aqrar bölmənin modernləşdirilməsi və çoxsahəli kənd təsərrüfatının formalaşdırılması; 2) ölkədə turizmin daha da inkişaf etdirilməsi.

Təcrübə göstərir ki, formalaşmaqda olan sistemlərdə milli iqtisadiyyatın əsas struktur bölmələrindən biri olan kənd təsərrüfatının modernləşdirilməsi və hərtərəfli inkişaf etdirilməsi sahəsində ciddi addımlar atılmasının çox böyük əhəmiyyəti vardır. Keçən əsrin ikinci yarısında dövlət müstəqilliyi qazanmış bəzi ölkələrin (Əlcəzair, Tunis və s.) təcrübəsi bunu deməyə əsas verir ki, sağlam milli iqtisadiyyat quruculuğu prosesində kənd təsərrüfatının inkişaf etdirilməsinə laqeydlik göstərilməsi, başqa sözlə, həmin prosesdə bütün səylərin sənayenin inkişafına yönəldilməsi və aqrar məsələlərin həlli ilə bağlı işlərin sonrakı mərhələlərə saxlanması ölkənin qarşısında sosial-iqtisadi xarakterli bir sıra problemlərin meydana çıxmasına səbəb olur. Odur ki, müa-

sir dövrdə keçid iqtisadiyyatında olan ölkələr kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində yeritdikləri siyasətdə malik olduqları potensialın reallaşdırılmasına xüsusi diqqət yetirirlər. Bu, aqrar bölmənin qarşısında qoyulan məqsədə nail olmaq üçün lazımdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi «Kənd təsərrüfatı bizim iqtisadiyyatımızın çox önəmli bir sahəsidir. Eyni zamanda sosial sahədir. Əhalinin təxminən yarısı kənd şəraitində yaşayır və bu sahəyə biz daim böyük diqqət yetirməliyik».[1]

**Qloballaşmanın dərinləşdiyi müasir şəraitdə aşağıdakılara xüsusi diqqət yetirilməlidir:** 1) ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması; 2) ölkənin təbii-iqlim şəraitinin imkan verdiyi çoxsahəli kənd təsərrüfatının formalaşdırılması. Bu vəzifələrin yerinə yetirilməsi üçün ölkəmizdə bütün imkanlar vardır və hazırda onların reallaşdırılması üçün struktur dəyişiklikləri aparılır. Həyata keçirilən bu dəyişikliklərin məqsədi ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Başqa sözlə, ölkədə mövcud olan əlverişli təbii-iqlim şəraitindən istifadə etməklə, əsas ərzaq məhsullarına olan tələbatın çox böyük hissəsinin yerli istehsal hesabına ödənilməsinin təmin olunması qarşıda duran ən ümdə problemlərdəndir.

Mütəxəssislərin yekdil rəyinə görə mill ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından bütün istehlakın 70-80%-i ölkənin daxilində istehsal olunan məhsulların payına düşməlidir. Məsələyə bu mövqedən yanaşıldıqda aydın olur ki, hazırda ölkəmiz kartof və bitki yağı ilə təminolunma sahəsində milli ərzaq təhlükəsizliyinin meyarlarına uyğun gələn vəziyyətə demək olar ki, çatmışdır. Belə ki, bu göstəricilər müvafiq olaraq 80%-ə və 70%-ə bərabərdir. Lakin bu sözləri əhalinin qida rasionunda xüsusi yer tutan bir çox məhsullar, xüsusilə də taxıl, süd və süd məhsulları haqqında demək olmaz. Hazırda ölkəmizin təqribən 3,4-3,5 mln. ton taxıla, 1,5 mln. ton ərzaq buğdasına tələbatı vardır ki, bunun da 25%-ə qədəri idxal hesabına ödənilir.

---

[1] Bax: «Respublika» qəzeti, 22 avqust, 2007-ci il.

Buradan aydın olur ki, çoxsahəli kənd təsərrüfatının yaradılmasına nail olmaq üçün qarşıda duran başlıca vəzifə onun mütərəqqi strukturunun formalaşdırılmasıdır. Lakin aydın məsələdir ki, bunlar bir göz qırpımında yerinə yetirilə bilməz və deməli, bunun üçün müəyyən vaxt lazımdır. Başqa sözlə, bu problemlər tədricən, növbə ilə, mərhələ-mərhələ həll edilməli, hər bir mərhələdə prioritet sahələr və ya sahələr qrupu üzrə istiqamətlər müəyyən olunmalı, iqtisadçılarla kənd təsərrüfatı mütəxəssisləri qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərməlidirlər. Beləliklə, taxıl istehsalının artırılması ölkəmizin aqrar iqtisadiyyatının inkişaf etdirilməsinin prioritet sahələrindən biridir.

**Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar prioritet sahələrdən biri də heyvandarlıqdır.** Lakin heyvandarlıq məhsulları istehsalının artırılması üçün mövcud imkanlardan tam və səmərəli istifadə edilmir. Çünki bu sahənin məhsulları ilə ölkənin özünütəminetmə və onun inkişafını ifadə edən göstəricilərin səviyyəsi aşağıdır. Bundan başqa, fizioloji tələbat normaları ilə müqayisədə adambaşına heyvandarlıq məhsulları istehlakı bitki mənşəli ərzaq məhsullarından xeyli aşağıdır. Bunlara əsasən demək olar ki, əhalinin istehlak etdiyi ərzaq məhsullarının tərkibində heyvan mənşəli məhsulların mütləq və nisbi artımı təmin edilməlidir.

Lakin heyvandarlıq məhsulları istehsalının artırılması sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə təsir edən məhdudlaşdırıcı amillər vardır. Bu, özünü onda göstərir ki, müstəqillik dövründə ölkəmizdə örüş-otlaq yerlərinin sahəsi Ermənistanın təcavüzü nəticəsində ərazimizin bir hissəsi işğal altında olduğuna görə xeyli azalmış, yay otlaqlarının 2/3 hissəsindən çoxu, biçənək sahələrinin 15%-ə qədəri eroziyaya uğramışdır. Deməli, heyvandarlıq məhsulları istehsalının artırılması bir tərəfdən onun özünün, digər tərəfdən isə onun yem bazasının möhkəmləndirilməsi ilə əlaqədardır.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirərək aşağıdakı qısa nəticələri çıxarmaq olar:

Birincisi, dünya təcrübəsindən istifadə edilməklə, sistem dəyişmələri və bazar münasibətlərinə keçid şəraitində ölkəmizin

yerləşdiyi ərazinin çox əlverişli təbii-iqlim şəraitinin yaratdığı imkanlardan yararlanmaq üçün kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə çoxtərəfli dövlət yardımı göstərilməsinin ən səmərəli metodlarının tətbiqinə və bütün prosesin modernləşdirilməsinə ehtiyac vardır;

İkincisi, ölkəmiz yetişdirilən texniki bitkilərin istər məhsuldarlığı, istərsə də istehsal olunan xammalın keyfiyyət göstəricilərinə görə bəzi xarici dövlətlərlə müqayisədə geri qalır. Bunun səbəblərindən biri müasir becərmə texnologiyalarının tətbiqi sahəsində geridəqalmalar və istehsal edilən xammalın rəqabət qabiliyyətinin aşağı olmasıdır.

Üçüncüsü, ölkələrin təbii-iqlim şəraitinin yetişdirməyə imkan verdiyi bitkiçilik məhsullarının demək olar ki, hamısı ixrac yönümlüdür. Onların inkişaf etdirilməsində ixraca kömək mexanizmlərinin işlənib hazırlanması və təkmilləşdirilməsi mühüm rol oynaya bilər. Ölkəmizdə formalaşmaqda olan bazar münasibətləri bunu təkidlə tələb edir.

Buradan aydın olur ki, strukturformalaşdırıcı amil kimi ölkəmizdə aqrar bölmənin hərtərəfli inkişaf etdirilməsi və modernləşdirilməsi sahəsində hələ çox iş görülməlidir. Bunların həyata keçirilməsi isə bir sıra modernləşdirmə tədbirlərinin görülməsini tələb edir. Bu tədbirlərə aşağıdakılar aiddir:

1) aqrar sahənin texniki təchizat səviyyəsinin yüksəldilməsi. Ölkəmiz bu göstəriciyə görə inkişaf etmiş ölkələrdən 2,5-3,0 dəfə, dünya üzrə orta səviyyədən isə xeyli geri qalır. Bu isə əmək qabiliyyətli əhalinin daha çox hissəsinin aqrar bölmədə çalışmasına səbəb olur;

2) suvarmanın tənzimlənməsindəki nöqsanların, təsərrüfatdaxili suvarma kanallarının və kollektorların texniki vəziyyətinin yaxşılaşdırılması. Bu, su itkisinin qarşısının alınmasına və ya azaldılmasına səbəb ola bilər;

3) torpaqların münbitliyinin yüksəldilməsi üçün aqro-texniki tədbirlərin gücləndirilməsi, elmi cəhətdən əsaslandırılmış əkin dövriyyəsinin tətbiq edilməsi;

4) heyvandarlıqda damazlıq işinin yaxşılaşdırılması, yemçiliyin təşkilində yol verilən nöqsanların aradan qaldırılması və məhsul istehsalının artırılması.

Beləliklə, Azərbaycan Respublikası iqtisadiyyatının aqrar bölməsinin inkişaf etdirilməsi sahəsində mövcud uyğunsuzluqların aradan qaldırılması və prioritetlərin reallaşdırılması burada da texnoloji dirçəlişə nail olunmasını zəruri edir.

**Ölkələrin böyük əksəriyyətində turizmdən gələn gəlir dövlət büdcəsinin gəlir mənbələri içərisində xüsusi yer tutur.** Bu ölkələrdə müalicə-istirahət ocaqlarının fəaliyyəti və turizm çox böyük yer tutsa da, onların çoxunda təbii vasitələrlə müalicə imkanları olduqca məhduddur. Digər tərəfdən, belə bir həqiqəti qeyd etmək lazımdır ki, bu zənginliyin başlıca ünsürü olan təbii şərait heç zaman tükənmir, əksinə etibarlı amil kimi özünün əhəmiyyətini həmişə saxlayır. Odur ki, belə imkana malik olan ölkələrdə bu amildən tam yararlanmaq, onların iqtisadiyyatlarının əvəzedilməz, prioritet istiqamətlərindən birini təşkil edir. Bunlar təbiəti hər cəhətdən füsunkar və şəfalı, dünyanın cənnətməkan ərazilərindən olan Azərbaycanın da ən böyük sərvətidir.

Lakin qeyd etmək lazımdır ki, iqtisadiyyatımızın bu çox mühüm və faydalı, habelə heç zaman öz əhəmiyyətini itirməyən sahəsinin lazımi səviyyədə inkişaf etdirilməməsinin başlıca səbəbi ölkəmizin uzun müddət – 200 ilə yaxın bir müddətdə əvvəlcə Çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində olmasıdır. Doğrudur, hələ keçən əsrin 70-ci illərində Azərbaycanda haqqında söhbət gedən sahənin hərtərəfli və geniş miqyasda inkişaf etdirilməsi üçün xüsusi qərar qəbul edilmiş, bu məqsəd üçün xeyli vəsait ayrılmış və bir sıra işlər görülmüşdür. Lakin bu, olduqca faydalı işə münasibət sonralar kəskin surətdə pisləşmiş, iqtisadiyyatın başqa sahələri kimi burada da ciddi problemlər meydana çıxmış, hər şey tənəzzülə uğramışdır.

Müstəqillik şəraitində ölkəmizdə bu sahənin yenidən qurulması və beynəlxalq standartlara uyğunlaşdırılması üçün dövlət və özəl qurumlar tərəfindən bir sıra tədbirlər görülüb həyata keçirilməsinə baxmayaraq hər şey bütün tələblərə cavab verə bilən və arzu olunan səviyyədə olmamışdır. Ona görə də bu sahədə

işlər elə təşkil olunmalıdır ki, ölkəmizin təbiətinin rəngarəngliyi, dünyada yayılmış müxtəlif xəstəliklərin təbii üsullarla müalicə imkanları əcnəbi turistlərin diqqətini cəlb etsin, onların ölkəmizə axınına səbəb olsun. Bu məqsədlə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, habelə bu sahədə fəaliyyət göstərən digər dövlət və özəl qurumlar ölkəmizin hər bir ərazisinin malik olduğu imkanları, milli adət-ənənələri, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən nəfis şəkildə tərtib olunmuş məlumat-reklam xarakterli vəsaitlərin və materialların nəşr etdirib dünyada geniş yayılmasını, həmçinin milli sənətkarlıq məhsullarının istehsalının və satışının genişləndirilməsini təşkil etməlidirlər. Həm də bu, birdəfəlik xarakter daşımamalı, vaxtaşırı təkrarlanmalı və əlavə nəşrlərlə tamamlanmalıdır.

Bu imkanlardan tez və daha dolğun istifadə olunması ölkəmizin iqtisadiyyatında mütərəqqi struktur dəyişikliklərində mühüm rol oynaya bilər. Ona görə ki, Azərbaycanın füsunkar təbiəti, müalicə-istirahət komplekslərinin mövcudluğu və buraya böyük turistlər ordusunun gəlməsi üçün hər cür şəraitin yaradılması ölkəmizin böyük məbləğdə vəsait əldə etməsinə səbəb ola bilər. Turistlərin ölkəyə gəlməsi mehmanxana təsərrüfatının, dövlət və özəl nəqliyyat şirkətlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında müsbət rol oynaya bilər.

Lakin bu sahənin belə bir xüsusiyyətini nəzərə almaq lazımdır ki, o, öz inkişafının başlanğıcında xeyli vəsait tələb etsə də, çox tez bir zamanda nəinki qoyulan xərci ödəyir, həm də ölkənin büdcəsinə böyük məbləğdə vəsait daxil olmasında mühüm rol oynayır. Həm də bu sahə yüksək rentabelli olmaqla yanaşı, yüksək əmək tutumludur. Bu isə Azərbaycan şəraitində çox böyük əhəmiyyətə malik olmaqla, iqtisadiyyatın bir çox sahələrinin inkişaf etdirilməsinə təsir göstərər. Bunlar belə bir fikir söyləməyə əsas verir ki, turizm Azərbaycan iqtisadiyyatının aparıcı, prioritet sahələrindən birinə çevrilməlidir.

Bütün bunlara görədir ki, Azərbaycan dövləti ölkəmizin malik olduğu turizm potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir. Və bu məqsədlə 2007-2016-cı illəri əhatə

edən ölkədə turizmin inkişaf etdirilməsinə dair Dövlət Proqramı da işlənib hazırlanmışdır. Proqramın əsas məqsədi «Turizm haqqında» Azərbaycan Respublikasının Qanununda və digər normativ-hüquqi sənədlərdə nəzərdə tutulmuş müddəalara uyğun olaraq ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən biri kimi turizm sərvətlərindən səmərəli istifadə olunmasını, onun ölkə iqtisadiyyatının öncül istiqaməti kimi tanınması və səmərəliliyinin artırılmasını təmin edən dövlət siyasətinin həyata keçirilməsindən ibarətdir.

Azərbaycanda turizmin bütün növlərinin – mədəni turizm, ekoloji turizm, kənd yaşıl turizmi, qış turizmi və i.a. – inkişaf etdirilməsi, bu sahədə həyata keçirilən tədbirlərin müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort və mehmanxana şəbəkəsinin və yeni obyektlərin tikintisinin genişləndirilməsi və s. vacib məsələlərdir.

Ölkəmizi dünyada turizmin və əlverişli məkanlarından biri kimi tanıtmaq üçün yeni Azərbaycan turizm əmtəə nişanının (loqosunun) və bu sahədə Azərbaycan brendlərinin reklam-təbliğat və məlumat-sorğu fəaliyyətinin canlandırılması, regional mədəni turizm marşrutlarının yaradılması və inkişaf etdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlər olmalıdır. Turizm infrastrukturunun təkmilləşdirilməsi, turizm zonalarının hüquqi statusunun müəyyənləşdirilməsi, peşəkar kadrların hazırlanması, bu sahədə beynəlxalq təcrübədən istifadə olunması səmərəliliyin yüksəldilməsinin başlıca vasitələridir.

## NƏTİCƏ

- Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə iqtisadiyyatın strukturu vaxtı ilə obyektiv sürətdə-kapitalın bir sahədən digərinə sərbəst axını nəticəsində formalaşmışdır. Azərbaycanda isə bu proses müstəqilliyimizdən əvvəlki dövrdə süni surətdə, direktiv yolla formalaşdırılmışdır. Odur ki, müstəqillik şəraitində başlanan fəaliyyətin mərkəzində ilk növbədə iqtisadiyyatımızın struktrunun yenidən qurulması problemi dururdu.

- Azərbaycanın iqtisadi inkişaf səviyyəsi müstəqillikdən əvvəlki dövrdə tərkibində olduğu ölkəyə daxil olan digər respublikaların eyni göstəricisindən kəskin surətdə aşağı olmuşdur. Halbuki Azərbaycan çox böyük təbii-iqtisadi potensiala yeraltı və yerüstü sərvətlərə malikdir və deməli, o zamankı göstəricilər onun imkanlarına uyğun gəlməmişdir.

- Azərbaycan dövləti tarixən çox qısa müddətdə iqtisadiyyatın mütərəqqi, yəni onun təbii-iqtisadi potensialının verdiyi imkanlara uyğun gələn strukturunun formalaşdırılması istiqamətində geniş miqyaslı işlər görmüş və nəticədə əhəmiyyətli nailiyyətlər qazanılmışdır.

-İqtisadiyyatımızın digər bölməsində həyata keçirilən islahatlar kənd təsərrüfatının dinamik inkişaf etməsinə öz töhfəsini vermiş, yeni təsərrüfatçılıq formalarına keçilməsi öz üstünlüklərini göstərmişdir.

-Xarici investisiya qoyuluşunun tərkibində mühüm dəyişikliklər baş vermişdir. Belə ki, iqtisadiyyatımıza qoyulan investisiyaların tərkibində xarici investisiyaların xüsusi çəkisinin azalması, daxili investisiyalarınkının isə artması meyili müşahidə olunub. Həm də Azərbaycan indi özü xaricə invesstisiya qoyan ölkəyə çevrilmişdir.

- Azərbaycanda nəqliyyatın, rabitənin inkişaf etdirilməsi ən yeni texnologiyalardan istifadə olunması sahəsində də çox böyük nailiyyətlər qazanılmışdır. Başlıca cəhətlərdən biri hər iki sahədə özəl bölmənin xüsusi çəkisinin sürətlə artmasıdır.

- Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasətin nəticəsidir ki, xarici ticarət dövriyyəsi 1993-cü illə müqayisədə 2006-cı ildə 10 dəfəyə qədər artmışdır. Təbiidir ki, xarici ticarət əlaqələrinin genişlənməsi iqtisadiyyatda struktur dəyişikliklərinin aparılmasına öz təsirini göstərmişdir.

- Ölkəmizdə keçən əsrin 90-cı illərinin ortalarından başlanan özəlləşdirmə prosesi davam edir. Bu müddət ərzində «kiçik», «orta», və «böyük», özəlləşdirmə sahəsində bir sıra işlər görülmüşdür. Lakin müəyyən nöqsanlara da yol verilmişdir. Odur ki, özəlləşdirmənin indiki mərhələsinin uğurla aparılması üçün konkret tədbirlər görülüb, həyata keçirilir.

- Ölkəmizdə özəlləşdirmənin aparılmasında çek variantından istifadə edilir. Bu variantdan adətən dövlət bölməsində olan müəssisələr xarici investorlar üçün cəlbedici olmadığı şəraitdə istifadə olunur. Mülkiyyətin özəlləşdirilməsi təkcə (xarici) xalis iqtisadi məsələ deyil, həm də geniş miqyaslı sosial-siyası məqsəd daşıyan bir prosesdir.

- Qədim İpək yolu vasitəsi ilə qarşılıqlı əməkdaşlıqda maraqlı dövlətlər arasında Azərbaycan müəyyən üstünlüklərə malikdir. Bu, ölkəmizdə iqtisadiyyatın yeni sturuktrunun formalaşmasında çox mühüm rol oynaya bilər. Buna digər amillər də təsir göstərəcəkdir. Qloballaşan dünyada Azərbaycanın beynəlxalq və regional layihələrdə iştirakı onun üçün daimi kapital, daimi gəlir, daimi sabitlik mənbəyi, daimi strateji amil olacaqdır

Ölkəmizin iqtisadiyyatı təkcə neft amilinə söykənməməli və birtərəfli inkişaf etdirilməməlidir. Bununla yanaşı, qeyri-neft sektoruda inkişaf etdirilməlidir. Çünki bu, ölkənin tarazlı inkişaf etdirilməsinə onun iqtisadiyyatının mütərəqqi struktrunun formalaşmasına təsir göstərən ən mühüm amillərdən biridir.

Təcrübə göstərirki, milli iqtisadiyyatın əsas struktur bölmələrindən olan kənd təsərrüfatının inkişaf etdirilməsinə laqeydlik göstərilməsi başqa sözlə, aqrar məsələlərin həlli ilə bağlı işlərin sənayeləşdirmədən sonrakı mərhələlərə saxlanması bir sıra sosial-iqtisadi xarakterli problemlərin meydana çıxmasına səbəb olur.

Ölkələrin əksəriyyətində turizmdən çox böyük gəlir götürülür ki, bu da ölkə büdcəsinin gəlir mənbələri içərisində xüsusi yer tutur. Ölkəmizdə bu sahənin inkişaf etdirilməsi üçün hər cür şərait vardır. Bu məqsədlə konkret tədbirlər görülüb həyata keçirilir.

# XX FƏSİL

# ÖLKƏNİN RESURS POTENSİALI VƏ ONDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

## 20.1. Resurs potensialının strukturu

Ölkənin sosial-iqtisadi inkişafı onun resurs potensialı[1] ilə sıx surətdə əlaqədardır. Çünki resurs potensialı iqtisadiyyatın inkişaf etdirilməsində, bu isə öz növbəsində sosial problemlərin həll olunmasında çox mühüm rol oynayır. Ona görə də qarşıya qoyulan məqsədin ölkənin malik olduğu potensialla əlaqələndirilməsi tarazlı və səmərəli iqtisadiyyat yaradılmasının başlıca problemi hesab edilir.

Cəmiyyətin resurs potensialı sosial-iqtisadi inkişaf sahəsində qarşıya qoyulan vəzifələrin reallaşdırılmasının obyektiv əsası olmaqla, müxtəlif səbəblər üzündən dəyişdirilə bilər. Ölkənin resurs potensialı son istehlakın təmin olunması üçün istehsalın əmtəə və xidmətlər istehsal etmək qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

İqtisadi nemətlərin və xidmətlərin istehsalı prosesi cəmiyyətin sərəncamında olan istehsal resurslarının müəyyən həcmdə, tərkibdə və keyfiyyətdə məhsullara çevrilməsi deməkdir. Bu məhsullar da öz növbəsində iqtisadi resursların tamamlanmasına və cəmiyyətin qeyri-istehsal tələbatının ödənilməsinə yönəldilir. Tələbatın təhlili və proqnozlaşdırılması iqtisadi inkişafın başlıca və aralıq məqsədlərinin müəyyənləşdirilməsinin ilkin şərtləridir. Tələbatın resurslarla müqayisə edilməsi nəticəsində isə sosial-iqtisadi inkişafın parametrləri müəyyən olunur.

Resurs potensialı anlayışının hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur. Resurs potensialı dedikdə, bir-biri ilə qarşılıqlı əlaqədə olan maddi əşya, energetika, informasiya vasitələrinin, habelə iqtisadi nemətlərin və xidmətlərin istehsalı prosesində on-

---

[1] Potensial latınca «potentia» sözündən götürülmüşdür və güc deməkdir.

lardan istifadə edən (və ya istifadə edə bilən) işçilərin toplusu nəzərdə tutulur.

Resurs potensialının özəyini cəmiyyətin məhsuldar qüvvələri təşkil edir. Bu kontekstdə ölkənin «resurs potensialı» kateqoriyası özünün sosial-iqtisadi məzmununa görə «milli sərvət», «məhsuldar qüvvələr» kateqoriyalarına uyğun gəlir. Lakin əslində onların ikisi də resurs potensialının tərkib ünsürləri olmaqla, son nəticədə bir məqsədə – iqtisadiyyatın dinamik inkişaf etdirilməsinə, əhalinin artmaqda olan tələbatının daha yaxşı ödənilməsinə xidmət edir. Resursların xeyli hissəi «milli sərvət» anlayışına daxildir. Kəmiyyət və keyfiyyətinə görə eyni olan resurslar onlardan istifadə dərəcəsindən asılı olaraq müxtəlif potensiala malik ola bilər. Resurs potensialına nəinki müxtəlif növ resurslar, həm də onlardan istifadə dərəcəsi, səmərəli effekt yaratmaq qabiliyyətləri də daxildir.

Resurs potensialı təhlil olunduqda və onun haqqında gələcək dövr üçün proqnoz hazırlandıqda onlardan hər birinin ayrılıqda nəzərdən keçirilməsi məqsədəuyğundur. Bu cür yanaşma ona görə lazımdır ki, onun tərkib hissələri arasındakı mütənasibliyin müəyyən edilməsi və optimallaşdırılması bir çox sosial-iqtisadi problemlərin həllinə imkan verə bilər.

Resurs potensialı, onun strukturu və tərkib ünsürləri arasındakı optimal nisbət iqtsadi fəaliyyətə həlledici təsir göstərir. Bütün iqtisadi ehtiyatlar ümumi bir xassəyə malikdir. Bu, ondan ibarətdir ki, onların hamısı məhdud miqdardadır. Başqa sözlə, əksinə yararlı torpaqların, faydalı qazıntı ehtiyatlarının miqdarı, iş qüvvəsinin sayı və s. müəyyən hədd daxilindədir. Resurs potensialının tərkibində elə ünsürlər də vardır ki, onların miqdarı məhdud deyildir. Məsələn, hava və su ehtiyatları belə resurslardandır. Doğrudur, planetin su ehtiyatlarının tərkibində içməli su ehtiyatları bir o qədər də yüksək xüsusi çəkiyə malik deyildir. Həm də dünya təsərrüfatı ehtiyaclarının ödənilməsi üçün mövcud su ehtiyatlarının təqribən 10%-i sərf edilir. Və deməli, sudan səmərəli istifadə olunması prinsiplərinə əməl edildikdə bunu tükənməyən resurs hesab etmək olar. Gələcəkdə elmi-texniki tə-

rəqqi ilə əlaqədar şirin və şor suların təmizlənməsi, ya texniki, yaxud da içməli suya çevrilməsi imkanları da qalmaqdadır.

İqtsiadi fəaliyyət üçün bütün resursların mövcudluğu zəruridir. Lakin qeyri-məhdud miqdarda resurslardan səmərəli istifadə edilməsi probleminin və resurslara qənaət etmək imkanı verən iqtisadi inkişaf tipinin aktuallığından danışmağa dəyməz. Bundan başqa, hər hansı bir resurs özünün mövcudluğu, yaxud da çatışmazlığı onların spesifik xüsusiyyətləri ilə əlaqədar deyildir. Bu, cəmiyyətin tələbatının daim artması və dəyişməsi ilə bağlı inkişaf etməkdə olan iqtisadi sistemlərin xüsusiyyətlərindən irəli gəlir.

İstər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə energetika resurslarına tələbat xüsusilə sürətlə artır. Energetika resursları texnoloji tərəqqinin, elmtutumlu istehsalın inkişaf etdirilməsinin əsası olmaqla, iqtisadi artımın keyfiyyətinə birbaşa təsir göstərirlər. Məlum olduğu kimi, keçən əsrin 90-cı illərində inkişaf etməkdə olan ölkələrdən xammal kimi ixrac olunan əmtəələrin qiymətləri kəskin surətdə aşağı düşmüş və bir barel neftin qiyməti 8-9 dollara çatmışdı. İnkişaf etmiş ölkələrdə isə elmtutumlu əmtəələrin qiymətləri təqribən 4-5 dəfə bahalanmış və hazırda bütün dünyada istehsal olunan və istifadə edilən enerjinin 25 %-i yer kürəsi əhalisinin 5 %-nin yaşadığı ABŞ-ın payına düşür. Gələcəkdə «üçüncü dünya» ölkələrində istehsalın intensiv inkişaf etdirilməsi və inkişaf etmiş ölkələrdə tələbatın artması nəticəsində resurs problemi daha da kəskinləşə bilər.

İqtisadi inkişaf prosesində təbii, əmək, investisiya və informasiya resursları, elmi-texniki tərəqqidən ibarət resursların tərkibi daha da genişlənir.

**Təbii resurslar təsərrüfat dövriyyəsinə cəlb edilmiş və istifadə olunan təbii ehtiyatlardır.** Onlardan istehsal prosesində əmək cisimləri kimi istifadə edilir. Bunlara kənd təsərrüfatında torpaq, sənayedə faydalı qazıntı ehtiyatları, içməli su və s. aiddir.

İstehsal prosesində təbii resurslardan istifadəyə tələbat olduqda onlar iqtisadi resurs hesab edilir. Lakin təbii sərvətlərin mənimsənilməsinin texniki şərtləri meydana çıxdıqda və genişləndikdə onlara tələbat olur.

Neft duru yanacaq kimi eramızdan 600 il əvvəl məlum olmuşdur. Lakin ondan sənaye miqyasında yanacaq xammalı kimi yalnız XIX əsrin 60-cı illərində istifadə edilməyə başlanmışdır. O dövrdən neft istifadə üçün ən real energetika resursuna çevrilmiş və əhəmiyyəti gündən-günə artır. Başqa bir misal: XX əsrin ikinci yarısınadək dünya okeanında olan neft ehtiyatı resurs hesab olunmurdu. Çünki o dövrdəki texnika həmin neft yataqlarının işlənilməsinə imkan vermirdi. Bu isə o deməkdir ki, təbii resursların mənimsənilməsində iqtisadi amillər çox böyük əhəmiyyətə malikdir. Bu amillərdən ən əsası rentabellik göstəricisidir.

**Beləliklə, iqtisadi resurslara müasir axtarış metodları ilə kəşf olunmuş və ya mövcudluluğu sübuta yetirilmiş, mənimsənilməsi texniki cəhətdən əlverişli və iqtisadi cəhətdən rentabelli olan təbii resurslar daxildir.** Texniki və ya iqtisadi təsəvvürlərə görə hazırda mənimsənilməsi mümkün olmayan təbii resurslara potensial resruslar deyilir. Bəzi iqtisadi ədəbiyyatda onları gələcəyin resursları adlandırırlar.

Resurs potensialı sistemində əmək resursları xüsusi yer tutur. Ölkənin intellektual potensialı, insan resursları, onların biliyi, yaradıcılıq qabiliyyəti - məhz bunlar əsas milli sərvət olmaqla iqtisadi artımı və ölkənin təhlükəsizliyini təmin etməyə, əhalinin həyat səviyyəsini yüksəltməyə imkan verir. İstehsalın şəxsi amili «əmək ehtiyatları» anlayışı ilə yanaşı, son dövrlərdə «əmək potensialı», «insan potensialı» anlayışları ilə də səciyyələndirilir. Lakin qeyd etmək lazımdır ki, onların mahiyyəti ilə əlaqədar iqtisadçılar arasında yekdil fikir yoxdur.

İnvestisiya ehtiyatları iqtisadi məzmununa görə əsas və dövriyyə kapitalının yaradılması, genişləndirilməsi, yenidən qurulması və texniki cəhətdən təchiz olunmasına sərf edilən xərcləri ifadə edir. İqtisadiyyatın investisiya potensialı milli yığımdan – son istehlak çıxılmaqla ölkənin malik olduğu gəlirin bir hissəsindən asılıdır.

ÜDM-in tərkibində əsas kapital üçün ümumi yığım normasının aşağı düşməsi iqtisadiyyatın investisiya potensialının azalmasının başlıca amilidir. İnvestisiyaların artırılmasının əsas yolu

isə daxili resurslarla müəyyən edilir. Bu, hər şeydən əvvəl müəssisələrin xüsusi vəsaitindən, büdcə vəsaitlərindən və s. ibarətdir. İnvestisiya resurslarının müəyyən hissəsi xarici investisiyalar hesabına formalaşır.

Elmi-texniki tərəqqinin iqtisadi resurslara daxil edilməsi onunla əlaqədardır ki, onun köməyilə istehsal ehtiyatlarının məhdud miqdarda olması anlayışına «düzəlişlər» edilir. Başqa sözlə, elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə olunmaqla təbii resursların süni əvəzedriciləri hazırlanır və təsərrüfat dövriyyəsinə cəlb edilir. Bundan başqa elmi-texniki tərəqqi iqtisadi inkişafa güclü təsir göstərir. İntensiv və sabit inkişaf edən iqtisadiyyat üçün iqtisadi artım daha çox elmi-texniki tərəqqi əsasında əməyə qənaət olunması yolu ilə təmin edilməlidir. Ümumiyyətlə, elmi-texniki tərəqqi bəşəriyyətin gələcək inkişafı üçün başlıca resursa çevrilmişidir.

İqtisadi resurslara maliyyə resursları da daxildir. Lakin maliyyə resursları xammalların, materialların, yanacağın və s. satın alınmasına sərf olunduğuna görə digər resurs növünə çevrilir. Əsas maliyyə resrusları bankların aktivləri ilə müəyyən olunur.

Müasir texnoloji sistem şəraitində informasiya resurslarının əhəmiyyəti getdikcə artır. Yuxarıda nəzərdən keçirilən resurs potensiallarından fərqli olaraq informasiya resursları istehsal prosesinə sərf edilmir.

Elmtutumlu texnologiyalara əsaslanan yeni tip istehsal sistemində informasiyalar ictimai inkişafın başlıca resursuna və amilinə çevrilməkdədir. Bu iqtisadi ədəbiyyatda «informatizasiya» adlandırılır.

İnformasiya texnologiyalarının maddi əsasını özündə EHM-i, müxtəlif rabitə sistemlərini, proqram məhsullarını, məlumat bazalarını və s. birləşdirən informasiya – kommunikasiya sistemi təşkil edir. İnternet sistemində qlobal kompüter şəbəkələri və onların dünya şəbəkəsində birləşmələri vahid dünya informasiya məkanının formalaşdırılmasına imkan verir. İctimai inkişafın yeni keyfiyyəti öz əksini yeni «informasiya cəmiyyəti»ndə tapmışdır.

**Bazar iqtisadiyyatı şəraitində ən mühüm iqtisadi resurslardan biri də sahibkarlıq qabiliyyəti və idarəetmə bacarığıdır.** Məhz, sahibkarların təşəbbüskarlığı, risk etmələri və bacarıqları digər iqtisadi resurslardan daha çox səmərə əldə etməyə, iqtisadi artımı stimullaşdırmağa imkan verir. Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin iqtisadi artım sürəti, investisiya fəallığı, texnoloji yeniliklərin tətbiqi və s. sahələrdə qazandıqları nailiyyətlər və topladıqları təcrübə göstərir ki, bütün bunlar sahibkarlıq qabiliyyətindən bilavasitə asılıdır.

## 20.2. Resursları təsnifləşdirmə əlamətləri və əlaqələrin tipləri

**Təbii resurslar iki yerə bölünür:** 1) bərpa olunmayan təbii resurslar; 2) bərpa olunan təbii resurslar.

Bərpa olunmayan təbii resurslara bütün növlərdən olan mineral resurslar və torpaq daxildir. Bərpa edilməsi mümkün olmayan təbii resursların əmələ gəlmə müddəti, «yaşı» on və yüz milyon illərlə ölçülür.

Bərpa olunan resurslara bitki (meşə resursları) və heyvanlar aləminin resursları daxildir. Onlar olduqca tez bərpa olunur və bərpa olunan həcmi (meşədəki oduncaqların ehtiyatı, balığın yetişdirilməsi və i.a.) asanlıqla proqnozlaşdırıla bilir.

Azərbaycan Respublikası xarici ticarətdə bərpa olunmayan təbii resursların ixracına üstünlük verir. ABŞ güclü resurs bazasına malik olsa da, starteji məqsədlərini həyata keçirərkən özünün mineral-xammal resurslarından intensiv istifadə etməyə cəhd göstərmir, əksinə digər ölkələrin energetika ehtiyatlarından daha çox yararlanmağa çalışır. ABŞ müxtəlif növ energetika xammallarının ən böyük idxalatçısıdır. Belə ki, dünya iqtisadiyyatının hər il neftə olan tələbatının 1/5 hissəsi ABŞ-ın payına düşür. ABŞ bu tələbatının 70%-ni kənardan idxal olunan energetika ehtiyatları, 30%-ni isə özünün daxili istehsalı hesabına ödəyir. ABŞ-ın xarici resurslara «bağlılığı» müxtəlif cəhətlərdən qiymətləndirilə bilər. Bunlardan ən əsası gələcək nəsillərin taleyi

nəzərə alınmaqla, tələblə resursların istehsalı arasındakı tarazlığın qorunub saxlanması ola bilər.

**Energetika resursları iki yerə bölünür:** 1) yanacaq resursları; 2) qeyri-yanacaq resursları. Yanacaq resurslarına neft, qaz, kömür, torf, yanar şist, odun və s., qeyri-yanacaq resurslarına isə hidroenerji, atom, günəş və külək enerjisi və s. aiddir.

İlkin və törəmə energetika resursları da bir-birindən fərqlənir. İlkin energetika resurslarına yanacaq və qeyri-yanacaq resursları daxildir.

Sənayedə güc avadanlıqlarında işlədilmiş buxar, texnoloji proseslərin soyudulması zamanı alınan isti su, domna sobalarının verdiyi istilik və s. törəmə energetika resurslarını əmələ gətirir. Metallurgiyada, ağır maşınqayırmada, kimya, yanacaq sənayesi və digər sahələrdə belə törəmə resurslar əmələ gəlir ki, bunlardan istifadə olunmaqla yanacaq və enerjiyə olan tələbatın xeyli hissəsini ödəmək olar.

Resurslara bir tərəfdən kəmiyyət, digər tərəfdən isə keyfiyyət xarakteristikası verilir. Resursların kəmiyyət xarakteristikası onlardan hər birinin həcmi və artırılması imkanları ilə müəyyən edilir. Resursların keyfiyyət xarakteristikası isə hər bir resurs vahdinin ona olan tələbatın ödənilməsinin potensial imkanını əks etdirir. Resrusların keyfiyyət xarakteristikası onlardan istifadəolunma səviyyəsi ilə birlikdə səmərəliliyini müəyyən edir. Resursların keyfiyyət xarakteristikası kəmiyyət ifadəsində resurs potensialını artıra və ya azalda bilər.

Resurslar keyfiyyətcə yekcins deyildir. Bu o deməkdir ki, **əmək ehtiyatları, əsas fondlar, xammal və materiallar kifayət qədər geniş və nisbi mənada sabit keyfiyyət xarakteristikası diapazonuna malikdir.** Əmək ehtiyatlarının keyfiyyət xarakteristikası dedikdə əhalinin təhsili, yaş strukturu, istehsal təcrübəsi, əmək vərdişləri, peşəsi; avadanlıqlar, materiallar, enerji daşıyıcıları üzrə onların müxtəlif texniki xassələrinin toplusu nəzərdə tutulur. Avadanlıqların keyfiyyət xarakteristikasına onların texniki səviyyəsi, «yaş tərkibi», fiziki və mənəvi köhnəlməsi aiddir. Mineral xammalların keyfiyyəti onların tərkibində faydalı elementlərin xüsusi çəkisi (məsələn, filizin tərkibində dəmirin xüsusi çə-

kisi) ilə səciyyələnir. Torpaq sahələri isə bir-birindən humus qatına, münbitliklərinə və başqa keyfiyyətlərinə görə fərqlənir.

Resurs potensialının inkişafı onların müəyyən xassələrindən istifadə edilməsi ilə əlaqədardır. Bunlar resurslardan kompleks şəkildə istifadə edilməsindən, onların bir-birini tamamlaması və bir-birini əvəz etməsindən ibarətdir.

Kompleksli anlayışı birinci növbədə təbii resurslardan, ilk əvvəl faydalı qazıntılardan istifadə olunması ilə bağlıdır. Təbii resurslardan kompleks şəkildə istifadə olunması təbii xammalların (neft və səmt qazının) hasilatını azaltmağa imkan verir. Resursların bir-birini tamamlaması o zaman lazım olur ki, hər hansı bir resurs növü başqa bir resurs növü olmadan fəaliyyət göstərə bilmir. Məsələn, əsas və dövriyyə kapitalı olmadan iş qüvvəsi fəaliyyət göstərə bilməz. Ümumiyyətlə, iqtisadi resursların bir-birini tamamlaması o deməkdir ki, əmək ehtiyatları və istehsal vasitələri (investisiya əmtəələri) istehsal prosesinin zəruri amilləridir və onlardan hər hansı biri olmadıqda istehsal prosesi başlana bilməz.

Resursların bir-birini əvəz etməsi isə o deməkdir ki, eyni bir resursdan müxtəlif tələbatların ödənilməsi üçün istifadə oluna bilər. Məsələn, yanacaq-energetika balansında neft kömürlə, qazla, atom enerjisi ilə, konstruksiya materialları kompleksində metal hissələr plastik kütlə ilə əvəz oluna bilər.

Əsas resurs növlərindən istifadə olunduqda başlıca məsələ iş qüvvəsinin maşınlarla əvəz edilməsidir. Müasir dövrdə milli iqtisadiyyat çərçivəsində resursların bir-birini əvəz etməsinin hüdudları əhəmiyyətli surətdə genişlənir. Bu, ölkəmizin beynəlxalq əmək bölgüsündə fəal iştirakı və dünya təsərrüfat sisteminə bərabər hüquqlu üzv kimi daxil olması ilə əlaqədardır. Odur ki, bir-birini qarşılıqlı surətdə əvəzetmə anlayışını xarici və daxili resurslara münasibətdə nəzərdən keçirmək lazımdır. Ayrı-ayrı xammal, yanacaq növləri xaricdən idxal olunan eyni növdən olan xammal və yanacaqla əvəz oluna bilər. Bu, iqtisadi artımın sürətlənməsinə səbəb olur. Çünki o, ayrı-ayrı resurs növlərindəki məhdudluğu aradan qaldırmağa imkan verir. Sonsuz əvəzetmə

olmadığına görə bir-birini tamamlama və bir-birini əvəzetmə eyni vaxtda mövcud olur.

Resurs potensialının ayrı-ayrı ünsürləri arasında zəruri nisbətin qorunub saxlanmasında məqsəd ölkənin malik olduğu bütün resurslardan səmərəli istifadə olunmasını təmin etməkdir. Lakin təbiidir ki, ayrı-ayrı resurs növləri arasındakı nisbət dəyişir və qarşıda duran əsas vəzifə bunu optimallaşdırmaqdan ibarətdir.

## 20.3. Azərbaycan Respublikasının resurs potensialı

Azərbaycan Respublikası çox böyük resurs potensialına malikdir və bu, sosial sahədə ən zəruri problemlərin həll edilməsi üçün böyük imkanlar açır. Lakin müasir şəraitdə ölkələri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə bölərkən təbii və əmək ehtiyatları ilə yanaşı, digər resurs növləri də nəzərə alınır. Bunlara ideyalardan ibarət intellektual resurslar, o cümlədən yeni kommersiya ideyaları, mövcud biliklər haqqında informasiya verən informasiya resursları, kompüter texnikası və ondan səmərəli istifadə etməyi bacaran idarəetmə kadrları, yeni idarəetmə texnologiyalarından ibarət idarəetmə resursları və s. aiddir.

Azərbaycan Qərblə Şərqi birləşdirən dünyanın ən əlverişli ərazilərindən birində yerləşmişdir. Tranzit ölkə olmaqla çox böyük əhəmiyyətə malik olan qlobal enerji və nəqliyyat dəhlizidir. Lakin qeyd etmək lazımdır ki, ölkəmizin müasir inkişaf səviyyəsi onun dünya iqtisadiyyatında tutduğu mövqeyə uyğun gəlmir. Odur ki, qarşıda duran başlıca vəzifə ölkənin təbii-iqtisadi potensialından səmərəli istifadə etməklə iqtisadi inkişaf səviyyəsini onun imkanlarına uyğunlaşdırmaqdan ibarətdir. Bunun üçün resurs potensialının strukturunu və onun təkmilləşdirilməsi imkanlarını nəzərdən keçirmək lazımdır.

Ölkənin resurs potensialının proqnozlaşdırılması və iqtisadiyyatın dinamikası, onu əmələ gətirən əsas tərkib ünsürlərinin qiymətləndirilməsi və onlardan istifadənin səmərəliliyinin təhlil edilməsinə əsaslanır. Odur ki, resurs potensialının vəziyyəti və

dinamikasının bazar münasibətlərinə keçidlə əlaqədar hansı nəticələrə gətirib çıxara biləcəyi ilə müqayisə etmək lazımdır.

XXI əsr bəşəriyyətin inkişaf tarixinə əhalinin daha sürətlə artacağı, «demoqrafik sıçrayış» dövrü kimi daxil olacaqdır. Mütəxəssislərin fikrincə, bu əsrdə yer kürəsi əhalisinin sayı təqribən 9 mlrd. nəfərə çatacaqdır. Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, əhalinin həyat şəraitinin yaxşılaşması ilə əlaqədar olaraq ölkə əhalisinin sayının sürətlə artacağı və əsrin ortalarında təxmini hesablamalara görə indikindən 1,5-2,0 dəfə çox olacağı proqnozlaşdırılır.

Perspektivdə əmək ehtiyatlarının tərkibində baş verən dəyişikliklərin təhlili və proqnozlaşdırılması aşağıdakı istiqamətlərdə aparılır:

- əhalinin ümuimi sayının dinamikası qiymətləndirilir və proqnoz verilir;
- əhalinin təbii artımı qiymətləndirilir və proqnozlaşdırılır;
- əhalinin miqrasiyası qiymətləndirilir və proqnozlaşdırılır;
- əmək qabiliyyətli əhalinin sayı qiymətləndirilir və proqnozlaşdırılır.

2007-ci il yanvarın 1-nə olan məlumata görə Azərbaycan Respublikası əhalisinin ümumi sayı 8 mln. 532 min 700 nəfər, o cümlədən şəhər əhalisinin sayı 4 mln. 397 min 600 nəfər, kənd əhalisinin sayı isə 4 mln. 135 min 100 nəfər olmuşdur. Əhalinin ümumi sayında kişilərin xüsusi çəkisi 49,3%-ə, qadınlarınkı isə 50,7%-ə bərabərdir. Əhalinin ümumii sayında 15-19 yaşlıların sayı 930 min (10,9%), 10-14 yaşında olanlarınkı 859,3 min (9,6%), 20-24 yaşında olanlarınkı isə 812,0 min nəfərdir. (9,9%) Əmək qabiliyyətli əhalinin sayı (kişilər 15-61, qadınlar 15-56 yaşda) 5 mln. 709 min 900 nəfər təşkil edir. Azərbaycan Respublikası əhalisinin 53,4%-i 10-39 yaş həddində olan şəxslərdir 1996-2006-cı illərdə doğum əmsalının orta hesabla 15,6%, ölüm əmaslının 6,0%, təbii artım əmsalının 9,6% olduğu da nəzərə alınmalıdır. Bu, XXI əsrin ortalarınadək respublika əhalisinin sayı haqqında verilən proqnozun düzgünlüyünə təminat verir.

Müasir texnologiyalardan istifadə olunması yüksək ixtisaslı iş qüvvəsi, insan potensialına investisiya qoyulmasını tələb edir

İş qüvvəsinin keyfiyyəti bir sıra əlamətlərlə səciyyələnir. Bunlardan ən əsası ümumi və xüsusi təhsil sistemi ilə müəyyən olunan ixtisasdır. Mütəxəssislərin hesablamalarına görə iş qüvvəsinin keyfiyyəti əmək məhsuldarlığının səviyyəsini 10-15% yüksəldir və elmi-texniki tərəqqidən sonra ikinci yeri tutur.

Azərbaycan Respublikası əhalinin təhsil səviyyəsi yüksək olan ölkələr sırasına daxildir. Belə ki, 2007-ci ilin əvvəlinə olan məlumata görə 15 və yuxarı yaşda olan əhalinin hər 1000 nəfərinə 115 nəfər tam ali təhsilli, 118 nəfər orta ixtisas, 523 nəfər ümumi orta təhsilli düşür. Ali məktəb tələbələrinin sayı 1995/96-cı tədris ilində 86,3 min nəfər olduğu halda, 2006/2007-ci tədris ilində 106,9 min nəfər olmuşdur. Əhalinin hər 10000 nəfərinə müvafiq olaraq 113 və 127 nəfər tələbə düşmüşdür. Perspektivdə təhsil potensialının artacağı, onun strukturunun təkmilləşdiriləcəyi, bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılacağı şübhə doğurmur.

Ölkənin intellektual potensialı hər şeydən əvvəl elmi kadrlarla səciyyələnir. Elmi biliklər bütün resurs növlərindən onunla fərqlənir ki, o bütün resurs növlərinə qənaət olunmasını təmin etməyə imkan verir. ÜDM-in istehsalında elmi nailiyyətlərin tətbiqi onun 50%-dən çox artmasına səbəb olur. 2006-2007-ci dərs ilinin əvvəlinə ölkəmizin ali məktəblərində 1145 nəfər elmlər doktoru, 1168 nəfər professor, 5152 nəfər elmlər namizədi, 3738 nəfər dosent çalışmışdır. Elmdə 2007-ci ilin əvvəlinə 17973 nəfər məşğul olmuşdur ki, bunların da 11698 nəfəri tədqiqatçıdır. Lakin ölkəmizdə elmə çəkilən xərclər çox azdır. Onun ÜDM-də və dövlət büdcəsində xüsusi çəkisi 0,8%-ə bərabərdir. Halbuki elmi-tədqiqatlar üçün ayrılan vəsaitin ÜDM-də xüsusi çəkisi Yaponiyada təqribən 2,9%-ə, ABŞ-da 2,8%-ə, Almaniyada 2,3%-ə, Fransada isə 2,2%-ə bərabərdir. İqtisadçıların fikrincə, elmin inkişaf etdirilməsinə yönəldilən xərclərin ÜDM-də xüsusi çəkisinin 1%-ə enməsi ölkənin bütün iqtisadiyyatına böyük məbləğdə ziyan vurur. Ali təhsil müəssisələrində və elmi-tədqiqat institutlarında əmək haqqının səviyyəsinin aşağı olması zəkaların xarici ölkələrə axınını sürətləndirir. Bazar münasibətlərinin formalaşması isə yeni tip kadrlar hazırlanmasını zəruri edir.

Bütün bunlar nəzərə alınmaqla ölkəmizin strateji məqsədi iqtisadi inkişafın investisiya tipinə keçməkdən ibarət olmalıdır. Bu isə insan potensialına xüsusi diqqət yetirilməsini tələb edir.

Əmtəə və xidmətlərin istehsalı dairəsinə yeni kapital qoyuluşu yığım fondu (ümumi yığım) və ödəmə fondu, başqa sözlə mənfəət və amortizasiya ayırmaları vəsaiti hesabına həyata keçirilir. Bəzi hallarda isə investisiyalar azalır. Bu, istifadə olunan ÜDM-də ümumi yığımın payının aşağı düşməsi ilə əlaqədar olaraq baş verir.

Keçən əsrin 90-cı illərində müstəqilliyimizin ilk dövrlərində müəssisələrdə mövcud olan əsas fondlar mənəvi cəhətdən köhnəldiyinə görə rəqabət qabiliyyətli məhsul istehsalına və onun dünya bazarlarına çıxarılmasına imkan vermirdi. Deməli, iqtisadiyyatın bütün sahələrində bazar münasibətlərinə keçilməsi və bu əsas üzərində əsas kapitalın yeniləşdirilməsi, müəssisələrin ən mükəmməl, dünya standartlarına cavab verən müasir yeni texnika və mütərəqqi texnologiyalarla təmin olunması üçün ölkədə investisiyalara, o cümlədən xarici investisiyalara ehtiyac var idi. 1994-cü ildən ölkəmizə xarici investisiyaların cəlb edilməsi iqtisadiyyatda inkişaf etmiş dövlət bölməsinin yaradılmasına imkan vermişdir. Bu da öz növbəsində multiplikator funksiyasını, yəni iqtisadiyyatın digər sahələrinə investisiya cəlb olunmasını təmin etmişdir. Hazırda Azərbaycan iqtisadiyyatının demək olar ki, bütün sahələri müvəffəqiyyətlə inkişaf etdirilir. Bunlar ölkəmizin investisiya potensialının artması hesabına əldə edilmişdir. Həm də Azərbaycanın investisiya imkanlarının artmasının nəticəsidir ki, indi o, özü investisiya qoyan ölkəyə çevrilmişdir. Əhalinin əlində olan sərbəst pul vəsaiti də ölkənin investisiya imkanlarının artmasında çox mühüm rol oynayır.

İnvestisiya resurslarının investisiya əmtəələrinə çevrilməsi prosesi bazar qanunları – tələb və təklif, rəqabət və i.a. – əsasında baş verir. Deməli, dəyər ifadəsində investisiya resursları maddi – şey formasında investisiya resurslarına (fond əmələgətirən sahələrin məhsullarına) uyğun gəlməlidir. Fond əmələgətirən əsas sahələrə isə maşınqayırma və tikinti aiddir.

Beləliklə, ölkəmiz çox böyük investisiya potensialına malikdir və bundan istifadə edərək iqtisadiyyatını bazar münasibətləri əsasında yenidən qurmaqla bu gün əldə etdiyi nailiyyətlərə nisbətən daha böyük uğurlar qazanmaq imkanına malikdir.

## 20.4. Resurs potensialından istifadənin səmərəliliyi

İqtisadi artımın dinamikasını proqnozlaşdırarkən bütövlükdə istehsalın, o cümlədən resurs potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanlarının araşdırılması böyük əhəmiyyət kəsb edir. Bu zaman prosesin ana xəttinin iqtisadi inkişafın resurslara qənaət etməyə imkan verən tipinə (material və əmək tutumunun azaldılması və i.a.) keçilməsindən ibarət olmasına əsaslanmaq lazımdır. Digər tərəfdən, resurslara qənaət olunmasını zəruri edən şərtlərdən danışarkən ekstensiv inkişaf amillərinin tükənmək üzrə olduğu, yaxud da tükəndiyi fikri gündəmə gəlir.

**Bu və ya digər resursdan istifadənin səmərəliliyini qiymətləndirərkən onun hüdudlarının proqnozlaşdırılması da olduqca vacibdir.** Əməyə, xammal və materiallara, yanacağa, kapital qoyuluşuna qənaət olunması vəzifəsini qarşıya qoymaqla, eyni vaxtda həm də başqa bir vəzifə – resurslara qənaət edilməsi siyasətinin reallaşdırılması mümkün deyildir. Bu, ekstensiv və intensiv iqtisadi artım mənbələrinin çulğalaşması, yəni «hər hansı bir resurs növünə qənaət edilməsi digər bir resurs növündən əlavə sərf olunması hesabına ola bilər» tezisi ilə əlaqədardır. Bunu ondan görmək olar ki, məsələn, əmək məhsuldarlığının yüksəlməsi - canlı əmək məsrəflərinə qənaət edilməsi – investisiya əmtəələrində (istehsal vasitələrində) maddiləşmiş keçmiş əmək məsrəflərinin artması ilə müşayiət olunur. İnvestisiya əmtəələrinin təkmilləşdirilməsi isə məhsulun hər vahidinə sərf olunan keçmiş əmək məsrəflərini azaldır, yeni elmi ideyaların meydana çıxdığı, layihələndirildiyi və mükəmməl texnikanın yaradıldığı sfera və sahələrdə xərclərin artmasına səbəb olur. Lakin bu o demək deyildir

ki, ekstensiv və intensiv inkişaf amilləri bir-birini inkar edir. Əlbəttə yox, əksinə onlar bir-birini tamamlayır.

Əmək ehtiyatlarından istifadənin və istehsalın səmərəliliyinin əsas göstəricisi əmək məhsuldarlığıdır.

İstehsalda əmək ehtiyatlarından istifadənin səmərəliliyi iqtisadi və sosial meyarlarla səciyyələnir. Əmək ehtiyatlarından istifadənin iqtisadi səmərəlilik səviyyəsi və dinamikasına qiymət vermək üçün əsas meyar isə yenə də əmək məhsuldarlığıdır.

**Əmək məhsuldarlığı dinamikasının əsas amillərinə aşağıdakılar aiddir:** 1) elmi-texniki tərəqqi; 2) iqtisadiyyatın strukturunun yenidən qurulması; 3) iş qüvvəsinin keyfiyyət tərkibi; 4) təşkilati-idarəetmə amilləri; 5) sosial və psixoloji amillər.[1]

Təbii resurslardan (xammal, enerji, yanacaq və i.a.) istifadənin səmərəliliyi material tutumu (ÜDM-in bir manatına düşən maddi xərclər), həmçinin natura ifadəsində ÜDM-in bir manatına düşən maddi resurs sərfi (enerjitutumu, metaltutumu və i.a.) ilə səciyyələnir.

Təbii resursların fiziki ehtiyatları proqnozlaşdırılması mümkün olan perspektivdə əslində iqtisadi artıma əhəmiyyətli məhdudiyyətlər qoymur. Lakin bir çox resurs növlərinin məhdudluğu və bərpa oluna bilməməsi təbii-xammalların bahalaşmasına, onun daşınması xərclərinin artmasına səbəb olur. Həm də son dövrlərdə iri xammal və ilkin enerji resursları istehsalçıları bir sıra çətinliklərlə üzləşmişlər. Belə ki, yanacaq-energetika kompleksində istehsalı artırmaq nəinki mümkün deyildir, hətta əldə olunmuş səviyyənin qorunub saxlanması da çətinləşmişdir.

Azərbaycanın mineral xammal ehtiyatları, birinci növbədə neft və qazı Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə Azərbaycan neftinin, Bakı-Tbilisi-Ərzurum kəməri ilə Azərbaycan qazının Avropa bazarlarına çıxarılması və yeni çəkiləcək sərhədlərinin genişləndirilməsi, kəmərlərə birləşdirilməsi tərəfdaş ölkələrin Rusiyadan asılılığının nisbətən azal-

---

[1] Əmək potensialından istifadənin səmərəliliyi dərs vəsaitinin XIV fəslində ətraflı nəzərdən keçirilir.

dılmasında mühüm rol oynaya bilər. Proqnozlara görə yaxın gələcəkdə ölkəmizdə neft hasilatı və qaz çıxarılması xeyli artacaq, Qazaxıstan və Orta Asiya ölkələrinin enerji daşıyıcılarının Avropa bazarlarına çıxarılmasında Azərbaycan tranzit ölkə kimi xüsusi rol oynayacaqdır. Lakin qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı hələ resurstutumlu ölkə olaraq qalır. Bu, özünü onda göstərir ki, ÜDM-in hər manatına görə sərf edilən bir çox resurs növlərinin miqdarı Qərb ölkələrinə nisbətən yüksəkdir. Bunun başlıca səbəbləri ekstensiv inkişaf amillərinin üstünlük təşkil etməsi, müəssisələrin texniki və texnoloji cəhətdən hələ dünya standartlarından geri qalması və bu səbəbdən də beynəlxalq bazarlara çıxmaqda çətinlik çəkmələri, ixrac materialları içərisində xammalların, xüsusilə də neftin xüsusi çəkisinin yüksək olması və s-dir. Odur ki, enerji daşıyıcıları ilə əlaqədar yaxın və perspektiv dövr üçün dövlət siyasəti xammal, enerji və yanacağın istehsalı ilə istehlakı arasındakı tarazlığın təmin olunmasına yönəldilməlidir.

Təbii resurslardan səmərəli istifadə olunmasında onlardan istifadəetmə hüququ başlıca rol oynayır. Bununla əlaqədar olaraq hüquqi bazanın yaradılması çox böyük əhəmiyyətə malikdir. Ölkəmizdə bu istiqamətdə bir çox işlər görülmüş, su və torpaq resurslarından istifadə haqqı, mədən vergisi haqqında qanun və digər normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bunlara aşağıdakılar aiddir: «Mülkiyyət haqqında», «Kəndli fermer təsərrüfatı haqqında», «Aqrar islahatın əsasları haqqında», «Torpaq vergisi haqqında» Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının «Torpaq məcəlləsi», təbii ehtiyatlardan istifadə ilə əlaqədar ölkə daxilində həyata keçirilən tədbirlər, ölkə iqtisadiyyatına xarici kapitalın cəlb edilməsi üçün formalaşdırılmış mükəmməl hüquqi baza və s. və i. a.

Bütün bunlar Azərbaycanda mövcud təbii sərvətlərdən səmərəli istifadə olunmasına, iqtisadiyyatın mütərəqqi strukturunun formalaşdırılmasına, sənayenin strukturunun təkmilləşdirilməsinə, kənd təsərrüfatının modernləşdirilməsinə və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr sırasına çıxmasına imkan verə bilər.

## 20.5. Enerjiyə qənaət edilməsinin əsas istiqamətləri

Hər bir resurs növünün özünəməxsus xüsusiyyəti vardır. Lakin mübaliğəsiz demək olar ki, energetika resursları resurs potensialının əsasını təşkil edir. Odur ki, resurslara qənaət olunması problemi bir qayda olaraq enerjiyə qənaət edilməsinin timsalında nəzərdən keçirilir.

**Enerjiyə qənaət edilməsi bütün dünyada ən aktual məsələlərdən biridir.** Bu, Azərbaycan üçün xüsusilə böyük əhəmiyyət kəsb edir. Enerjiyə qənaət edilməsi yanacaqdan və enerjidən istifadə edənlər, enerji resursları istehsalçıları və dövlət – bir sözlə, bütün strukturlar və bazar subyektləri üçün əhəmiyyətlidir. Bu məqsədlə xüsusi proqramlar hazırlanır, onların həyata keçirilməsi üçün konkret işlər görülür.

Enerjiyə qənaət olunmasının başlıca istiqaməti elmi-texniki tərəqqi ilə əlaqədardır. Bu, həm yanacaq hasilatı və enerji resursları istehsalı, həm də yanacaq-energetika resurslarının istifadə olunduğu sahələrdə özünü göstərir. Buna onların yerin təkindən kompleks şəkildə tam olaraq çıxarılması misal ola bilər. Faydalı qazıntı yataqlarının çoxunda əsas komponentlə yanaşı, həm də bir sıra əlavə elementlər mövcud olur. Bu isə o deməkdir ki, enerjinin çevrilməsi və son istifadəsi üzrə faydalı iş əmsalının yüksəldilməsi əlavə xərc çəkmədən səmərə əldə edilməsinə imkan verir.

Yanacaqdan istifadə edənlər üçün enerjiyə qənaət olunmasının əsas istiqaməti ona qənaət etmək imkanı verən kapitaltutumlu texnologiyalardan, proseslərdən, aparatlardan, avadanlıqlardan istifadə olunmasıdır. Kapitaltutumlu tədbirlər hesabına enerjiyə qənaət olunması potensialı, mütəxəssislərin fikrincə istifadə edilən ümumi enerjinin 30-35%-ni təşkil edir. Lakin tələb olunan investisiyaların həcmi yanacaq hasilatının və enerji istehsalının artırılması üçün lazım olan kapital qoyuluşundan iki dəfə azdır.

Elmi-texniki tərəqqinin nailiyyətləri aztullantılı və tullantısız istehsalatların yaradılması sahəsində təbii resurslardan səmərəli istifadə olunması üçün böyük imkanlar açır. Müasir şəraitdə Azərbaycanda milli iqtisadiyyatın resurslara qənaət etmək imkanı verən texnika ilə təchiz olunması üçün real maşınqayırma bazası yoxdur və bu sahədə dönüş yaradılması məqsədilə konkret tədbirlər görülür. Və ölkəmizin yaxın gələcəkdə dünya standartlarına cavab verən maşınqayırma kompleksinin yaradılmasına böyük məbləğdə kapital qoymaq imkanı vardır. Bu imkanı orta və uzunmüddətli dövrlər üzrə konkretləşdirmək olar. Yaxın prespektivdə resurslara qənaət edilməsinə nail olmaq üçün aşağıdakıların həyata keçirilməsi zəruridir:

- yanacaq və enerjidən istifadənin səmərələşdirilməsi ilə əlaqədar az xərc tələb olunan tədbirlərin həyata keçirilməsi. Bu, yanacaq və enerjiyə olan tələbatı azaltmağa imkan verir. Onlara sərf olunan elektrik enerjisini qeydə alan və ona nəzarət etməyə imkan verən cihazlar və başqa texniki tədbirlər aiddir;
- ÜDM-nin istehsalında qeyri-enerjitutumlu sahələrin xüsusi çəkisinin artması ilə əlaqədar olaraq iqtisadiyyatın strukturunun yenidən qurulması. Bütövlükdə sənayedə, xidmət sahələrində, tikintidə məhsulların enerji tutumu yanacaq-energetika kompleksinə nisbətən 8-10 dəfə, metallurgiyaya nisbətən isə 12-15 dəfə aşağıdır. Maşınqayırma sənayesi məhsullarının enerji tutumu yanacaq sənayesi ilə müqayisədə 3 dəfə, metallurgiya sənayesi ilə müqayisədə isə 8-10 dəfə aşağıdır.
- milli iqtisadiyyatın ilkin enerji resurslarının strukturunda baş verən dəyişikliklərə uyğunlaşdırılmasının başlıca ilkin şərti olan yanacaq balansının strukturunun yeniləşdirilməsi;
- yanacaq-energetika kompleksinə daxil olan bir çox sahələrin qarşısında çox mürəkkəb struktur-texnoloji dəyişikliklərin aparılması vəzifəsi durur. Perspektivdə fəal energetika siyasəti yeridilməsində qaz sənayesi başlıca rol oynayacaqdır. Əminliklə demək olar ki, bərpa oluna bilən qeyri-ənənəvi enerji mənbələrinin (günəş, külək enerjisi və s.) energetika balansında xüsusi çəkisi gələcəkdə artacaqdır;

- enerjiyə qənaət etmək imkanı verən və inzibati vasitələri əhatə edən təşkilati-texniki tədbirlərin həyata keçirilməsi. Bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etmiş olduğu ölkələrin təcrübəsi göstərir ki, enerji daşıyıcılarının konyuktur bazarlarının doğurduğu stimullar inzibati qanunvericiliklə tənzimlənir. Bu zaman iqtisadi metodlardan, birinci növbədə mütərəqqi vergiqoymadan da istifadə olunur. **Enerjiyə qənaət olunmasının ən mühüm yollarından biri də büdcə təşkilatlarında yanacaq və enerji sərfinə limit qoymaqla məcburi normativlərdən istifadə edilməsi ola bilər.**

Sənaye ilə yanaşı, mənzil-kommunal təsərrüfatı da (MKT) yüksək enerjitutumlu sahədir. Burada da yanacağa və enerjiyə qənaət edilməsi üçün çox böyük ehtiyat mənbələri vardır. Mənzil-kommunal bölməsi yanacaq-energetika resurslarının ən böyük istehslakçısı olmaqla yanaşı, həm də istilik enerjisinin 30%-dən çoxunun istehsalçısıdır. Bu bölmənin saxlanmasına sərf edilən xərclər bələdiyyənin büdcə vəsaitinin təqribən 35-50%-ni, dövlətin bu sahənin saxlanmasına sərf etdiyi vəsait isə büdcə vəsaitinin təqribən 10-15%-ni təşkil edir. Odur ki, enerjiyə qənaət edilməsi ilə əlaqədar tədbirlər həyata keçirilərkən MKT-lər qarşısında xüsusi vəzifələr qoymaq lazımdır.

Enerji təchizatının idarə edilməsi ilə əlaqədar həyata keçirilən iqtisadi tədbirlər resurslardan səmərəli istifadə edilməsi sahəsində müəssisələrin maddi marağına əsaslanmalıdır. Bunlara aşağıdakılar aiddir: istilik-elektrik resurslarından səmərəli istifadə edilməsi üçün vergi siyasətinin kəskinləşdirilməsi, müəssisələrə güzəştli kreditlərin, subsidiyaların verilməsi və i.a.

Enerjiyə qənaət edilməsinin maddi stimulları çoxplanlıdır. Bununla əlaqədar ABŞ-ın təcrübəsindən aşağıdakıları misal gətirmək olar. Mənzillərdə istiliyin izolyasiyasına yönəldici investisiyalara 15%, birinci 2 min dollardan 30%, sonrakı 7 min dollardan 20% vergi güzəşti edilir. Avadanlıqların istehslçıları tərəfindən qızdırıcı və havalandırma sistemlərinin işlətdikləri elektrik enerjisinin miqdarı müəyyən edilmiş səviyyədən yüksək olduqda, onun artıq olan hissəsi vergiyə cəlb edilir.

Enerjiyə qənaət edilməsinin ən müüm istiqamətlərindən biri də dövlət tənzimlənməsinin rolunun artırılmasıdır. Bu məqsədlə enerji xammalları istehsalı bölməsində əks inhisarlaşdırma formalarını yenidən nəzərdən keçirmək, inhisarçı sahələrdə qiymət və tariflərin tənzimlənməsində dövlətin rolunu gücləndirmək lazımdır. Enerjiyə qənaət edilməsi sahəsində dövlət siyasəti energetika ilə əlaqədar strategiyanın işlənib hazırlanması əsasında həyata keçirilir.

Ölkənin resurs potensialından istifadənin səmərəliliyinin yüksəldilməsinə yönəldilən istiqamətlər aşağıdakılardır:

1) təkrar xammal resurslarından, tullantılardan istehsal edilmiş xammal və yanacaqdan istifadə olunması;

2) xammal və materialların hasilatı, emalı, daşınması, saxlanması və istifadəsi zamanı baş verən itkinin azaldılması;

3) enerjiyə qənaət etmək imkanı verən texnologiyaların reklamı ilə məşğul olan təşkilatlar şəbəkəsinin genişləndirilməsi və inkişaf etdirilməsi.

Bütün bunların hamısı ölkənin resurs potensialının artmasına, resurslardan istifadənin bir tipindən digərinə keçid prosesinin ixtisar olunmasına, iqtisadi artımın keyfiyyət amillərinin güclənməsinə səbəb olur.

## 20.6. Ekologiya və resurs potensialından istifadə

Enerjiyə qənaət etmək imkanı verən tədbirlər ekologiya ilə əlaqəli şəkildə həyata keçirilməlidir. Çünki XX əsrin 50-ci illərinin ortalarından başlayaraq resurs potensialından istifadənin artması və nəticədə istehsalın miqaysının genişlənməsi ilə əlaqədar olaraq hava və su hövzəsinin çirklənməsi prosesi güclənmişdir. Atmosferə ən çox zərərli tullantıları istilik stansiyaları atır. Lakin enerjiyə qənaət edilməsi üzrə tədbirlərin həyata keçirilməsi əsasında tullantıların böyük bir hissəsini aradan qaldırmaq olar.

Təbii resurslardan səmərəli istifadə edilməsi ölkənin təbii-resurs potensialının mühafizə olunması və möhkəmləndirilməsini, istehsalın ətraf mühitə mənfi təsirinin azaldılmasını, bitki və heyvanlar aləminin təkrar istehsalını, əhali üçün ən əlverişli həyat, əmək və istirahət şəraitinin yaradılmasını nəzərdə tutur.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının ərazisi 86,6 min $km^2$-dir. Bunun 12%-ni meşələr, 1,7%-ni su hövzəsi, 54,9%-ni yararlı torpaqlar, o cümlədən 31,1%-ni biçənək və otlaqlar, 31,4%-ni sair torpaqlar təşkil edir. Azərbaycan dünyanın torpaq ehtiyatı qıt olan ölkələrindən biridir. Hazırda respublikamızda hər nəfərə 0,16 ha əkin yeri düşür. Əhalinin sayının artması, sənaye, tikinti və nəqliyyatın ehtiyaclarının ödənilməsi üçün yeni torpaq sahələrinin ayrılması ilə əlaqədar olaraq hər nəfərə düşən torpaq sahəsi azalmaqda davam edir. Məsələn, 1940-cı ilə nisbətən 1985-ci ildə respublikamızda hər nəfərə düşən ümumi torpaq sahəsi 2 dəfə, əkin sahəsi isə 1,5 dəfə azalmışdır. Ona görə də torpaq ehtiyatlarının diqqət və qayğı ilə qorunması, şoranlaşmış və korlanmış torpaqların bərpası dövlət işi olmalıdır.

İqtisadiyyatımızın digər sahələrində, xüsusilə də sənayedə, tikintidə, nəqliyyatda, rabitədə və s-də çox böyük nailiyyətlər qazanıldığı bir şəraitdə ölkəmizin malik olduğu münbit torpaq sahələrindən səmərəli istifadə olunduğunu, torpaqların şoranlaşmasının qarşısının alınması sahəsində görülən işlərin müasir tələblərə cavab verdiyini demək olmaz. Kənd təsərrüfatında belə vəziyyətin yaranmasına təsir edən başlıca amil ekoloji vəziyyətin pisləşməsi olmuşdur. Bu isə ekoloji böhrana gətirib çıxarmışdır. Bu, özünü torpaqların münbitliyinin aşağı düşməsində göstərmişdir. Münbitliyin azalmasının əsas səbəbləri isə müstəqilliyimizin ilk illərindən demək olar ki, son dövrlərədək torpaq sahələrinə verilən gübrələrin miqdarının, bunun nəticəsində isə torpaqda olan qida maddələrinin azalması, şoranlaşma, humus qatının korlanması və s-dir.

Əkinçiliyin məhsuldarlığı və torpaq sahələrinin münbitliyi xeyli dərəcədə kənd təsərrüfatının texnika ilə təchiz olunmasından asılıdır. Əkin yerinin hər 100 hektarına düşən traktorların

sayına görə ölkəmiz Avropa İttifaqına daxil olan ölkələrdən (təqribən 100 traktor) və ABŞ-dan (təqribən 45 traktor) çox-çox geri qalır. Odur ki, bu sahədə dönüş yaradılması, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması baxımında olduqca vacibdir.

Yuxarıda göstərildiyi kimi, ərazimizin 12%-ni meşələr təşkil edir ki, bu da əsas etibarilə dağlıq sahələrdədir. Onların torpaq və suqoruyucu əhəmiyyəti vardır. Meşə və kolluqlarımız ərzaq və müalicə əhəmiyyətli cır meyvə-giləmeyvələrlə zəngindir. Respublikamızda böyük əhəmiyyətə malik rəngarəng dərman bitkiləri olduqca çoxdur. Ölkəmizdə bitki və heyvanat aləmini qorumaq və gələcək nəsillərə çatdırmaq üçün bir sıra qoruqlar yaradılmışdır. Lakin Azərbaycan meşə materiallarına olan tələbatını əsas etibarilə idxal olunan məhsullar hesabına ödəyir.

**Meşə resursları təkrar istehsalı mümkün olan resurslardır.** Odur ki, bu sahədə məqsədyönlü iş aparılmalı, ən nadir ağac növləri qorunub saxlanmalıdır. Meşə yanğınları bəzi hallarda təbiətə böyük ziyan vurur. Meşə resursları həm də yeni yolların, neft və qaz kəmərlərinin çəkilməsi nəticəsində azalır. Odur ki, təbiətin bu nemətini istifadə etdiyimiz kimi, həm də bərpa etməliyik. Bu, bütün bəşəriyyətin vəzifəsidir. Bunu həm də ekoloji tarazlığın qorunub saxlanması tələb edir.

Müasir dövrdə istehsalın yerləşdirilməsi və inkişaf etdirilməsinin ən mühüm amillərindən biri də su ehtiyatlarıdır. Su ehtiyatı dedikdə çaylar, göllər, su anbarları, ərazidəki yeraltı sular, habelə sənayedə istifadə oluna bilən dəniz suları nəzərdə tutulur.

Respublikamızda ildə təqribən 15-17 km$^3$ su işlədilir ki, bunun da 1/3 hissəsindən çoxu kənd təsərrüfatının payına düşür. Sənayenin ehtiyaclarının ödənilməsi üçün ildə 4-6 km$^3$ su sərf edilir ki, bunun da 80%-ə qədəri iri sənaye mərkəzlərinin (Bakı, Gəncə, Sumqayıt və s.) payına düşür.

İstehsal ehtiyaclarının ödənilməsi və əhalinin su ilə təchizatında çaylar böyük rol oynayır. Çaylarımızın bərpa olunan orta illik su ehtiyatının (təqribən 42-45 km$^3$ təşkil edir) bir hissəsi (25%-ə qədəri) yerli axının, yerdə qalan hissəsi isə qonşu ərazilərdən gələn tranzit axının payına düşür.

Su ehtiyatlarından istifadənin səmərəliliyi, göstəricisi sututumudur. İqtisadiyyatda bu göstərici bir ildə istehlak olunan təzə suyun miqdarı və ÜDM-in bir illik həcminə nisbətlə götürülən bir illik dövrəli su təchizatı ilə ölçülür. Başqa sözlə, ÜDM-in bir vahidinin alınmasına nə qədər su ehtiyatı sərf olunması ilə müəyyən edilir.

**Kommunal təsərrüfatı çox böyük miqdarda su istehlak edir.** Hazırda su və çirkab suları kəmərləri ilə təchiz olunmuş müasir şəhərlərdə bir gündə hər nəfərə görə 300-600 litr su işlədilir. Lakin istifadə olunan suyun miqdarına görə digər sahələr, xüsusilə də kənd təsərrüfatı başqa sahələri üstələyir. Bu suyun çox hissəsi suvarmaya sərf olunur.

Suyun fiziki-kimyəvi xassələrini dəyişdirmədən resurs kimi istifadə olunan sahələrə Sudan istifadə edənlər deyilir. Sudan istifadə edən başlıca «subyekt» hidroenergetikadır. SES-də istehsal olunan elektrik enerjisinin maya dəyəri AES və JES-də istehsal olunan elektrik enerjisinin maya dəyərindən 5-6 dəfə ucuz başa gəlir. Lakin SES-lərin tikilməsi təbiətə böyük ziyan vurur, torpaq sahələrinin su altında qalmasına səbəb olur. Ən iri Sudan istifadəçilərdən biri də çay nəqliyyatıdır. Dəniz nəqliyyatı ilə yük daşınması daha ucuz başa gəlir.

**Ölkənin daxili sularının balıq ehtiyatlarının bərpa olunmasında oynadığı rolu xüsusi qeyd etmək lazımdır**. Bu, ölkədə ərzaq probleminin həllində çox böyük əhəmiyyətə malikdir.

Su ehtiyatlarından istifadənin yaxşılaşdırılmasının əsas istiqamətlərindən biri iqtisadiyyatın əsas sahələrində onun istehlakının azaldılmasıdır. Su təsərrüfatının iqtisadiyyatın digər sahələri ilə texnoloji əlaqələri və iqtisadi münasibətləri müəyyən edən normativlərin müəyyənləşdirilməsi və göstəricilərin hesablanması olduqca zəruridir. **Su ehtiyatları təbiətin insanlara pulsuz verdiyi «hədiyyə»dən əmtəəyə çevrilməlidir.** Sudan istifadə və təkrar istehsalı ilə əlaqədar xərclər onun satışından əldə edilən vəsait hesabına ödənilə bilər və ödənilməlidir. Belə olduqda fiziki və hüquqi şəxslər Sudan qənaətlə istifadə olunması qayğısına qalarlar. Sudan istifadə ilə əlaqədar sayğacların olmaması isə ondan geninə-boluna istifadə edilməsinə səbəb olur.

Su ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsinin ikinci başlıca istiqaməti Sudan istifadənin bütün mərhələlərində itkiyə yol verilməməsidir. Köhnəlmiş texnologiya ucbatından suvarma zamanı 40-50% su itkisinə yol verilir.

Su ehtiyatlarının keyfiyyəti pisləşir. Buna axar sular təsir edir. Qrunt suları, axar sular, neft, azot, fosfor tullantıları və sairələrlə birlikdə su ehtiyatlarının keyfiyyətinə mənfi təsir göstərir.

**Unutmaq olmaz ki, insanlar müxtəlif ölkələrdə yaşasalar da və müxtəlif dillərdə danışsalar da onların hamısının bir fəzası və bir kainatı vardır**. Ətraf mühitin tənzimləciyisi olan biosfera vahid sistemdən ibarət oluduğuna görə tarazlı ekoloji – iqtisadi sistemin təmin olunması yalnız səmərəli beynəlxalq əməkdaşlıq şəraitində həyata keçirilə bilər. Bu məqsədlə aşağıdakı işlərin görülməsi vacibdir: 1) hər bir ölkə bəşəri ekoloji problemlərin həllinə öz töhfəsini verməli, birinci növbədə resurslara qənaət etmək imkanı verən və tullantısız texnologiyalardan istifadə etməli, əhalinin təsərrüfat fəaliyyəti üzərində ekoloji nəzarəti gücləndirməlidir; 2) cəmiyyətin malik olduğu resurslar iqtisadi və demoqrafik artım üçün imkan yaratmaqla yanaşı, həm də ilkin şərait hazırlayır. Lakin bu artım təkrar istehsalı mümkün olmayan (neft, qaz, dəmir filizi və s.) xammal və enerji ehtiyatlarından daha çox istifadə edilməsi hesabına təmin oluna bilməz. Bu isə təbii resurslardan istifadə edilməsinə yeni, mütərəqqi metodla yanaşılmasını tələb edir; 3) bəşəriyyətin qarşısında yeni texnoloji mədəniyyət formalaşdırmaq vəzifəsi durur ki, bu da öz mahiyyətinə görə ekologiyanın qorunmasına xidmət etməlidir.

Beləliklə, təbii ehtiyatlar tükənməz deyildir, onların miqdarı məhduddur və müəyyən hədd daxilindədir. Buna görə də təbii ehtiyatlardan qənaətlə və səmərəli istifadə edilməsi müasir dövrün ən mühüm iqtisadi problemlərindən biri olaraq qalır.

## NƏTİCƏ

- resurs potensialı ölkənin sosial-iqtsiadi inkişafına təsir edən mühüm amillərdən biridir. Azərbaycan Respublikası çox böyük

resurs potensialına malikdir və bu, bir sıra iqtisadi və sosial vəzifələrin həll edilməsində çox böyük rol oynayır;

- resurs potensialı anlayışının hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur. Resurs potensialının özəyini məhsuldar qüvvələr təşkil edir. Bu kontekstdə «ölkənin resurs potensialı» kateqoriyası «milli sərvət» kateqoriyasına uyğun gəlir;
- resurs potensialı və onun tərkib ünsürləri arasındakı nisbət iqtisadi fəaliyyətə həlledici təsir göstərir. Deməli, iqtisadi fəaliyyət üçün bütün resursların mövcud olması zəruridir;
- iqtisadi resurslara müasir axtarış metodları ilə kəşf olunmuş, yaxud da mövcud olması sübuta yetirilmiş, mənimsənilməsi isə texniki cəhətdən əlverişli və iqtisadi cəhətdən rentabelli olan təbii resurslar daxildir;
- elmi-texniki tərəqqi, maliyyə, informasiya resursları da iqtisadi resurslara daxil edilir;
- təbii resurslar bərpa oluna bilən və bərpa olunmayan resurslara bölünür. Bərpa oluna bilən resurslara bitki və heyvanlar aləminin resursları, bərpa olunmayan resurslara isə mineral resurslar və torpaq daxildir;
- XXI əsr bəşəriyyətin inkişaf tarixinə «demoqrafik sıçrayış» dövrü kimi daxil olacaqdır. Bu, Azərbaycandan da yan keçməyəcəkdir;
- hər hansı bir resursdan istifadənin səmərəliliyini qiymətləndirdikdə onun hüdudlarını proqnozlaşdırmaq lazımdır. Bu məqsədlə müxtəlif göstəricilərdən istifadə olunur;
- bütün dünyada ən aktual məsələlərdən biri enerjiyə qənaət edilməsidir. Bunun üçün bir sıra tədbirlər həyata keçirilir. Burada stimullaşdırma və dövlət tənzimləməsinin rolunun artırılması, energetika ilə əlaqədar strategiyanın işlənib hazırlanması xüsusi rola malikdir;
- müasir dövrün ən aktual problemləri içərisində torpaqlardan, meşə və su resurslarından səmərəli istifadə olunması, ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi çox böyük əhəmiyyətə malikdir.

# XXI FƏSİL

# YANACAQ VƏ ENERGETİKA KOMPLEKSİNİN TƏNZİMLƏNMƏSİ

## 21.1. Yanacaq-energetika kompleksinin tərkibi və onun inkişaf etdirilməsi vəzifələri

Energetika hər bir ölkənin milli iqtisadiyyatının başlıca sahələrindən biridir. Onun inkişaf səviyyəsi və potensialına əsasən ölkənin iqtisadi gücü haqqında mühakimə yürüdülür. Digər tərəfdən sivilizasiyanın inkişafı əhalinin hər nəfərinə düşən enerjinin miqdarı ilə müəyyən edilir.

Yanacaq-energetika kompleksinin (YEK) məhsulları kütləvi istehlak olunması ilə səciyyələnir, investisiya əmtəələri (istehsal vasitələri) və istehlak mallarının qiymətlərinin müəyyən olunmasında həlledici rol oynayır. Çünki iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada enerji daşıyıcılarından istifadə edilməsin. Odur ki, hər bir ölkə enerji balansının perspektiv strukturunun dəyişdirilməsi ilə əlaqədar proqnoz hazırlayarkən yanacağın istehsalı və istehlakında yeni texnoloji qərarlar əsasında enerjiyə qənaət edilməsi siyasətini yeritməlidir.

YEK-in tərkibinə elektroenergetika, yanacaq sənayesi sahələri, boru kəmərləri, habelə geoloji kəşfiyyat işləri (neft, qaz, kömür, şist və atom energetikası üçün xammal axtarışı) daxildir.

Elektroenergetikaya su, istilik və atom elektrik stansiyaları, elektrik və magistral yanacaq şəbəkələri, atom elektrik təchizat stansiyaları, qeyri-ənənəvi yolla bərpa oluna bilən enerji mənbələri və s. daxildir.

Boru kəmərlərinə aşağıdakılar aiddir: magistral neft, neft məhsulları və qaz kəmərləri və i.a. Energetikanın əhəmiyyəti onunla müəyyən edilir ki, milli iqtisadiyyatın bütün sahələrində istehsal prosesləri enerjidən hər hansı bir formada istifadə edilməsinə əsaslanılır.

YEK-in inkişaf etdirilməsində əsas məqsəd milli iqtisadiyyatın və əhalinin tələbatının etibarlı şəkildə ödənilməsindən, müəyyən standartlara cavab verən, yüksək keyfiyyətli məhsulların ixracının təmin olunmasından ibarətdir. Yanacaq-energetika kompleksinin məhsullarına əsasən dünyada ölkə haqqında fikir formalaşır.

YEK Azərbaycan iqtisadiyyatının ən mühüm və həlledici sahələrarası komplekslərindən biri olmaqla ölkəmizin iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, yanacaq-energetika kompleksi sənayenin bütün sahələrinin tələbatının ödənilməsində, əhalinin məişətində əvəzsiz rol oynayır. Bu bir həqiqətdir ki, yanacaq-energetika resurslarına malik olan ölkələrin inkişafı da asan olur və sürətlə gedir. Bu cəhətdən ölkəmizin bəxti gətirmişdir. Belə ki, təbiət Azərbaycana zəngin yanacaq, su, külək, günəş enerjisi ehtiyatları bəxş etmişdir. Respublikamızda istifadə olunan yanacaq növlərinin əsas ehtiyatları, neft və qazla zəngin əraziləri, çaylarımızın hidroenerji resursları, habelə günəş və külək enerjisi istehsalının artırılmasına imkan verir. Külək və günəş enerjisindən texniki cəhətdən hələlik az istifadə olunsa da, onların böyük gələcəyi vardır. Başqa sözlə, perspektivdə bu enerji növlərinin yanacaq-enerji balansında xüsusi çəkisinin xeyli artacağı istisna deyildir. Yaxın gələcəkdə Azərbaycanda neft hasilatının sürətlə artacağı proqnozlaşdırılır. Ölkəmizdə neft hasilatı 1995-ci ildə 9,2 mln. ton, 2006-cı ildə 32,2 mln. ton, 2007-ci ildə 43,0 mln. ton olmuş, 2008-ci ildə isə 50,0 mln. tondan çox olacağı gözlənilir. Məlum olduğu kimi, neft və qaz ölkəmizin əsas ixrac məhsullarıdır. Başqa sözlə, ixrac olunan məhsulların 2/3 hissəsindən çoxu neft və neft məhsullarının payına düşür. Azərbaycan yaxın gələcəkdə həm də qaz ixrac edən ölkələrdən birinə çevriləcəkdir.

YEK ölkə büdcəsinin gəlir hissəsinin formalaşmasında çox mühüm rol oynayır. Başqa sözlə, büdcə gəlirləri proqnozlaşdırılarkən neft ixracı əsas götürülür və neft mənfəətinin bir hissəsi büdcə kəsirinin ödənilməsinə yönəldilir. Azərbaycan nefti isə keyfiyyətinə görə dünyada ən çox tanınan neftdir.

Beləliklə, yanacaq-energetika kompleksi ölkəmiz üçün çox böyük strukturformalaşdırıcı rol oynamaqla, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyətə malikdir.

## 21.2. Ölkənin energetika sahəsində strategiyası və tənzimləmə ilə əlaqədar dövlət orqanlarının funksiyaları

Yanacaq-energetika kompleksinin inkişaf perspektivləri bu sahədə uzunmüddətli strategiyanın işlənib hazırlanmasına əsaslanmalıdır. Ölkəmizdə bu sahədə çox iş görülmüş, enerji təchizatında dövlət siyasətinin prioritetləri müəyyən edilmişdir. Bu sahədə ölkə strategiyasının mahiyyəti ondan ibarətdir ki, Azərbaycanda enerji daşıyıcılarının hasilatı gələcəkdə çox-çox artacaqdır. Bu, həm ölkəmizdə ÜDM-in istehsalı sahəsində qazanılmış liderlik mövqeyinin qorunub saxlanmasına, həm də onun ixrac potensialının daha da artırılmasına imkan yaratmış olacaqdır. Azərbaycanın mövcud yanacaq-enegetika potensialı bunu deməyə əsas verir. Neftin sənaye üsulu ilə çıxarılmasından keçən təqribən 130 il ərzində Azərbaycanda yerin təkindən 1,4 mlrd. tondan çox neft, 470 mlrd. kub metrə qədər qaz çıxarılmışdır.[1] Xarici ekspertlərin fikrincə, Xəzər dənizində karbohidrogen xammalının potensial resursu 40-50 mlrd. ton şərti yanacaq qədər qiymətləndirilir. Xəzər dənizinin Azərbaycan sektorunda neft və qazın potensial resursu 10-12 mlrd. ton şərti yanacaq həcmində qiymətləndirilir. Xəzərin Azərbaycan sektorunda aşkara çıxarılmış 130 kontrakt sahəsinin perspektiv strukturlarına cəmi-cümlətanı 30 struktur daxil edilir ki, bunların da neft və qaz ehtiyatı 4 mlrd. ton şərti yanacaq həcmindədir. Yerdə qalan 100 strukturun payına isə 6-8 mlrd. ton düşür.[2]

---

Bax: «İqtisadiyyat» qəzeti. 18 sentyabr 2002-ci il, səh.17.
Bax: «İqtisadiyyat» qəzeti, 18 sentyabr 2002-ci il, səh. 17.

Keçən əsrin əvvəllərində – 1901-ci ildə dünyada 21,2 mln. ton neft çıxarılmışdır ki, bunun da yarıdan çoxu (11,5 mln. ton) Azərbaycanın payına düşür. **Azərbaycan Respublikası MEA-nın müxbir üzvü Kərim Kərimovun proqnozlarına görə Azərbaycanın neft ehtiyatının 8 mlrd. ton olması fərziyyə deyildir.**[1] Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri bu ehtiyatlardan səmərəli istifadə edilməsindən ibarətdir. Bu məqsədlə energetika sahəsində düşünülüb-daşınmış, yüz ölçülüb-biçilmiş siyasət yeridilməlidir.

Enerjiyə qənaət problemi ona görə energetika strategiyasının mərkəzində durmalıdır ki, bu sahədə məqsədyönlü siyasət yeridilməsə 20-25 ildən sonra ölkə iqtisadiyyatının energetika resursları ilə təmin edilməsində çətinliklər meydana çıxa bilər.

Enerji təchizatının başlıca problemlərindən biri də qaz sənayesinin vəziyyətidir. Azərbaycanda çıxarılan qaz nəinki ölkə daxilində istehlak olunur, həm də avropanın enerji təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır. Qaz ölkəmizin energetika balansında mühüm yer tutur və çox böyük inkişaf perspektivlərinə malikdir. Bununla yanaşı, qazın yanacağın digər növləri ilə əvəz edilməsi nəinki aktualdır, həm də bunun üçün böyük məbləğdə xərc tələb olunur.

Energetika strategiyasının başlıca problemləri içərisində investisiya və bu sahə məhsullarının qiymətlərinin formalaşmasının nəzərdən keçirilməsi də olduqca vacibdir.

Dünyanın ən əlverişli ərazilərindən birində – Şərqlə Qərbin qovuşuğunda, 44 və 52 şərq uzunluq dairəsi, 38 və 42 şimal en dairəsində yerləşən və tranzit, zəngin yerüstü və yeraltı sərvətlərə malik olan Azərbaycan böyük investisiya imkanlarına malikdir.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra iqtisadiyyatının yenidən qurulması, onun strukturunun təkmilləşdirilməsi istiqamətində məqsədyönlü siyasət yeridir və bunun tərkib hissələrindən biri də investisiya siyasətidir. Ölkəmizin iqtisadiyyatına xarici investisiya qoyuluşuna energetika sahəsindən başlanmışdır. Bu isə təsadüfi deyildir. Çünki

---

[1] Bax: «Respublika» qəzeti, 12 noyabr 1997-ci il.

neft və qaz Azərbaycanın ən böyük sərvətidir. Bu sahədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın sənaye cəhətdən inkişaf etmiş bölməsinin yaradılması və struktur-texnoloji tarazlığın formalaşdırılması sahəsində çox böyük nailiyyətlər qazanılmışdır.

Əlbəttə, ölkəmizin kifayət qədər neft və qaz ehtiyatları vardır. Dünya bazarlarında neftin və qazın qiymətlərinin artması, düzgün qiymət siyasəti yeridilməsini və qiymətlərin dəyişməsi nəticəsində əldə edilən əlavə vəsaitdən (iqtisadi ədəbiyyatda buna «profisit» deyilir) səmərəli istifadə olunmasını vəsaitin bir hissəsinin neft fondunda toplanması və gələcək nəsillərə çatdırılmasını zəruri edir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanı ilə ölkəmizdə Dövlət Neft Fondu yaradılmışdır. Bu fond güclü iqtisadiyyat yaradılması, iqtisadi inkişafa dinamizm gətirilməsi, xalqın rifahının yüksəldilməsi üçün vasitədir. Dünyanın 15-dən çox ölkəsində keçən əsrin 90-cı illərindən başlayaraq müxtəlif adlar altında belə fondlar fəaliyyət göstərir. Məsələn, ABŞ-ın Alyaska ştatında, Venesuelada, Kolumbiyada, Küveytdə, Nigeriyada, Norveçdə, Çində bu fond sabiləşdirmə və ya gələcək nəsil üçün fond, Sinqapurda, Estoniyada və CAR-da büdcə ehtiyatları fondu adlandırılır. Bu fondlar ən ümumi formada sabitləşdirmə və yığım funksiyalarını yerinə yetirilər. Sabitləşdirmə fondlarının gəliri bir qayda olaraq təbii resursların (neftin, misin, əlvan metalların) dünya qiymətlərinin səviyyəsindən, yığım fondlarının gəlirləri isə ölkə ərazisinin təbii sərvətlə zənginliyindən asılı olur.

Fondun yaradılmasında əsas məqsəd neftin, qazın, əlvan metalların dünya qiymətlərinin kəskin surətdə dəyişdiyi dövrlərdə dövlət büdcəsinin gəlirləri ilə xərcləri arasında tarazlığın təmin edilməsindən, təbii sərvətlərin ehtiyatı tükəndiyi halda gələcək nəsillərin normal yaşaması və fəaliyyət göstərməsinə şərait yaradılmasından ibarətdir. Ölkəmizdə Dövlət Neft Fondu məhz bu məqsədlə yaradılmışdır və bu istiqamətdə çox işlər görülmüşdür.

Azərbaycan Respublikasının hökuməti təbii inhisar məhsulları tariflərinin son səviyyəsini müəyyən edir, bununla əlaqədar

onların investisiya proqramlarını nəzərdən keçirir, daxili bazara məhsul göndərilməsi ilə bağlı balans tapşırıqlarını müəyyənləşdirir.

Azərbaycanda təbii inhisarların tənzimlənməsi ilə İqtisadi İnkişaf Nazirliyinin tərkibində yaradılmış və fəaliyyət göstərən Tarif Şurası məşğul olur. Başqa sözlə, təbii inhisar sahələrindən Tarif Şurasına daxil olan təkliflər ciddi surətdə götür-qoy edilir və qərar qəbul olunur.

Tarif şurasının başlıca vəzifəsi enerjinin istehsalçıları ilə istehlakçıları arasında əlverişli şərait yaratmaqdan ibarətdir. Bu, isthlakçıya enerjini münasib qiymətlə satın almağa, istehsalçının isə biznesinin normal fəaliyyət göstərməsi və inkişaf etməsinə imkan verir. Tarif şurasının əsas vəzifəsi təbii inhisar məhsullarının qiymətləndirilməsini tənzimləməkdən ibarətdir. Bu funksiyanı regionlar səviyyəsində regional energetika komissiyaları yerinə yetirə bilər.

Energetika, neft və qaz sənayesi azsayda yekcins və standartlaşdırılmış məhsullar istehsal edirlər. Odur ki, belə bir şəraitdə enerji daşıyıcılarına sərbəst qiymətlərin müəyyən edilməsi rəqabət vasitəsi ola bilməz. O, vergi sistemi ilə birlikdə maliyyə vəsaitinə olan tələbat, habelə enerji daşıyıcıları istehslçıları və istehlakçılarının imkanları nəzərə alınmaqla dövlət tərəfindən tənzimlənməlidir.

Hazırda energetika kompleksində dövlətin qiymətlər və maliyyə vəsaiti üzərində nəzarəti gücləndirilməlidir. Bununla yanaşı, enerji daşıyıcılarının daxili qiymətləri və yanacaq-energetika şirkətləri vasitəsilə daxil olan maliyyə vəsaiti üzərində də dövlət ciddi nəzarət etməli və onu tənzimləməlidir.

Enerji resurslarının daxili qiymətləri dünya qiymətlərinin və manatın digər valyutalara məzənnəsinin kəskin surətdə dəyişməsindən qorunmalıdır. Lakin bu, onların tam sərbəst və asılı olmaması demək deyildir. Bunlar ölkəyə məxsus istehsalçı və istlakçıların dünya konyukturasına uyğunlaşmlarını stimullaşdırmalıdır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, qiymətlərin kəskin surətdə dəyişməsi həm yanacaq-energetika sahələrinin,

həm də onun istehlakçılarının istehsal potensialına mənfi təsir göstərə, investorlar üçün yüksək risk şəraiti yarada bilər.

İnkişaf etmiş ölkələrdə enerji daşıyıcılarının dünya qiymətləri artdıqda onların daxili qiymətləri artır, aşağı düşdükdə isə daxili qiymətlər də aşağı düşür. Lakin dünya qiymətlərinə nisbətən daxili qiymətlər xeyli az dəyişir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, daxili qiymətlər dövlət tərəfindən tənzimlənir.

Enerji daşıyıcılarının bir hissəsinin daxili ehtiyatlarımızın ödənilməsinə sərf olunduğu ölkəmiz üçün də bu problem aktual olaraq qalır. Enerji daşıyıcılarının qiymətlərinin ümumi səviyyəsi və aralarındakı nisbət onların istehsalı və daşınması (nəql olunması) ilə əlaqədar xərclərdən, habelə kapital qoyuluşuna olan tələbatdan asılıdır. Bununla birlikdə, dünya iqtisadiyyatının inkişafı göstərir ki, yanacağın və xammalın qiymətinin yüksəlməsi ölkə iqtisadiyyatında mütərəqqi struktur dəyişiklikləri üçün stimul yaradır. Enerjiyə və xammallara qənaət etmək imkanı verən texnologiyalara tələbat və istehsalın strukturunda elm tutumlu sahələrin xüsusi çəkisi artır. Bu, bir qayda olaraq enerji daşıyıcıları və xammal istehlakının azalmasına və bu məhsulların dünya qiymətlərinin aşağı düşməsinə gətirib çıxarır. Dövlət əhalinin işlətdiyi enerji daşıyıcılarının qiymətlərini də vaxtaşırı nəzərdən keçirib, təshihetmələr aparmalıdır. Bütün bu proseslərin tənzimlənməsi üçün dövlət ona görə bütün məsuliyyəti üzərinə götürməlidir ki, o, elektrik enerjisinin istehsal və istehlak olunduğu bazarlarda ən iri mülkiyyətçidir.

## 21.3. Dünya enerji balansı və Azəbaycanın yanacaq-energetika sahəsində imkanları

Dünyada energetika sahəsində vəziyyəti nisbi mənada əlverişli hesab etmək olar. Böyük ehtiyata malik faydalı qazıntı yataqlarının mövcudluğu, enerjidən qənaətlə istifadə edilməsi sahəsində tərəqqiyə nail olunması, energetika texnologiyalarının təkmilləşdirilməsi, bazar tənzimləyicilərinin daha səmərəli tətbiqi bunu deməyə əsas verir. Lakin yalnız inkişaf etmiş ölkələrdə

enerjinin yüksək istehlak səviyyəsinə nail olunmuşdur. Və istər həmin ölkələrdə, istərsə də bütün dünyada enerjiyə olan tələbat sürətlə artır.

XXI əsrin əvvəllərində dünyada 3,34 mlrd. ton neft çıxarılmışdır ki, bunun da 32,1%-i Yaxın və Orta şərqin, 25,6%-i Mərkəzi, Şimali və Cənubi Amerikanın, 11,7%-i Mərkəzi və Şərqi Avropa və MDB ölkələrinin, 11%-i Asiya-Sakit Okean regionunun, 10%-i Afrikanın, 9,6%-i isə Qərbi Avropanın payına düşmüşdür.

**Hazırda dünyanın 97 ölkəsində neft çıxarılır.** Ən çox neft çıxaran ölkələr Səudiyyə Ərəbistanı, Rusiya Federasiyası, ABŞ, İran, ÇXR, Norveç, Meksika, Venesuela, İraq, Böyük Britaniya, BƏƏ, Nigeriya, Kanada, Küveytdir ki, dünyada istehsal olunan neftin 74%-ə qədəri onların payına düşür. Keçən əsrdə yer kürəsində 121 mlrd. tona qədər neft çıxarılmışdır. XXI əsrin əvvəllərinə kəşf edilmiş və ya istismar olunan yataqlardakı neft ehtiyatı 142 mlrd. ton həcmində qiymətləndirilir.

Beləliklə, mütəxəssislərin fikrincə dünyada neft hasilatı XXI əsrin əvvəllərindəki 3,34 mlrd. ton səviyyəsində qalmaqla kəşf olunmuş yataqlardakı neft etiyatı 42 ilə kifayət edə bilər. Mütəxəssislər neftin kəşf olunmamış, başqa sözlə, perspektiv və proqnoz ehtiyatının 200-320 mlrd. ton civarında olduğunu deyirlər.

Yerin təkində olan və proqnozlaşdırılan 200-320 mlrd. tonunun çıxarılacağı gözlənilir. Bununla əlaqədar olaraq Rusiya, Qazaxıstan, Azərbycanın da daxil olduğu Xəzər dənizi hövzəsi və Fars körfəzinin, ÇXR və Hindistanın malik olduqları imkanlar daha realdır. XXI əsrdə neft və neft məsullarına olan tələbatın artması nəzərə alınmaqla, onlara olan tələbatın ödənilməsi üçün təqribən 400 mlrd. ton neft lazım olcağı proqnozlaşdırılır ki, bu da dünyada neft etiyatından xeyli çoxdur.

XXI əsirn əvvəllərinə dünyada enerji daşıyıcılarından istifadənin strukturunda neftin xüsusi çəkisi 40,2%-ə, kömürünkü 25,4%-ə, qazınkı 23,8%-ə, digər enerji mənbələrininki (hidroresurslar, atom enerjisi və i.a.) 10,6%-ə bərabər olmuşdur. Deməli, enerji daşıyıcılarının 90%-ə qədəri yerin təkindən çıxarılan yanacaqla, o cümlədən 64%-i karbohidrogenlə - (neft və qaz) əlaqə-

dar olmuşdur. Mütəxəssislərin hesablamalarına görə dünyanın enerji balansında yerin təkindən hasil edilən yanacaq növlərinin xüsusi çəkisi 2000-ci ildəki 88%-dən 2020-ci ildə 76%-ə, 2050-ci ildə isə 64%-ə düşəcəkdir. Bu sahədə baş verən dəyişiklikləri aşağıdakı cədvəldən daha aydın görmək olar (cədvəl 21.1).

Cədvəl 21.1.

Dünya enerji balansının proqnozu (%-lə)[1]

| Enerji mənbələri | İLLƏR | | | |
|---|---|---|---|---|
| | 1990 | 2000 | 2020 | 2050 |
| Neft | 43 | 38 | 28 | 20 |
| Təbii qaz | 19 | 23 | 23 | 23 |
| Kömür | 28 | 27 | 25 | 21 |
| Nüvə yanacağı | 5 | 6 | 7 | 14 |
| Bərpa oluna bilən (su elektrik stansiyaları da daxil olmaqla) enerji mənbələri | 5 | 6 | 7 | 22 |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** | **100,0** |

21.1. cədvəlindəki məlumatlar XXI əsrin ortalarında dünya enerji balansında neftin və kömürün xüsusi çəkisinin xeyli azalacağını, təbii qazınkının demək olar ki, sabit qalacağını, nüvə yanacağı və bərpa oluna bilən enerji mənbələrininkinin sürətlə artacağını göstərir. Bununla yanaşı, Avropa İttifaqına üzv ölkələr ümumi energetika strategiyası çərçivəsində 2010-cu ilədək bərpa edilməsi mümkün olan enerji mənbələrindən əldə olunan elektrik enerjisinin xüsusi çəkisinin artırılaraq 22%-ə çatdırılması vəzifəsini qarşılarına məqsəd qoymuşlar.

Enerji mənbələri içərisində külək energetikası daha dinamik inkişaf edir. Çünki bu, iqtisadi cəhətdən səmərəlidir.

Dünyada istehsal olunan elektrik enerjisinin təqribən 1/6, Avropada isə 1/3 hissəsi atom energetikasının payına düşür. Son məlumata görə dünyada 69 atom elektrik stansiyası istismarda olmuşdur ki, bunlarda da 427 atom enerji bloku işləmişdir. Atom reaktorlarının miqdarına görə dünyada birinci yeri ABŞ

---

А.М.Бабашкина. Государственное регулирование национальной экономики. М., 2004, с.319

(104), sonrakı yerləri isə Fransa (59), Yaponiya (53), Böyük Britaniya (35) və Rusiya (29) tutur.

Atom Elektrik Stansiyalarının payı Fransanın Energetikasında 75%-ə, Böyük Britaniyada 50%-ə, Yaponiyada 36%-ə, ABŞ-da 20%-ə, Rusiyada 14%-ə bərabərdir. Atom elektrik stansiyaları enerjinin ən ucuz mənbəyidir. Lakin bununla birlikdə bu sahə ekoloji və siyasi xarakterli ciddi problemlər doğurur. İşlədilmiş yanacağın və nüvə tullantılarının artan həcminin təhlükəsiz saxlanması da ciddi problemlərdəndir. Atom energetikası iqtisadiyyatın perspektivli sahəsi olsa da, bu sahədə təhlükəsizlik tədbirlərinə ciddi əməl edilməlidir.

**Məlum olduğu kimi, Azərbaycan böyük neft və qaz ehtiyatına malikdir.** Azərbaycanda XXI əsrdə neft hasilatının ildə ən azı 50 mln. tona çatdırılması, (əsrin axırında 100 mln. tona), qaz çıxarılmasının sürətlə artırılması üçün real şərait yaradılmışdır.

Yeni yataqların axtarılması, onların ehtiyatının müəyyən edilməsi hər şeydən əvvəl Xəzər dənizinin Azərbaycan sektorunun perspektiv strukturları, malik olduğu imkanın az öyrənilməsi ilə əlaqədardır. Xəzər dənizi hövzəsinə Azərbaycanla yanaşı, Şimalda Qazaxıstan və Rusiyanın, cənubda isə Türkmənistanın qərb ərazisi ilə həmsərhəd rayonlar da daxildir. Xarici ölkə ekspertlərinin hesablamalarına görə Xəzərdə karbohidrogen xammallarının potensial resursları 40-50 mlrd. ton şərti yanacaq civarında qiymətləndirilir. Xəzər dənizinin Azərbaycan sektorunun neft və qaz resurslarının isə 10-12 mlrd. ton şərti yanacağa bərabər olduğu qeyd edilir.

**Neft sənayesi Azərbaycanın ən qədim sənaye sahəsidir.** Azərbaycan dünyanın ilk neftçıxarma rayonlarında biri olmaqla «neft akademiyası» adlandırılır. Neft sənayesi Azərbaycanda sənayenin digər sahələrinin formalaşmasına səbəb olmuşdur. 1871-ci il Azərbaycanda neft sənayesinin başlanğıcı hesab edilir. Bu vaxtdan SSRİ dağılanadək Azərbaycanda 1 mlrd. 245 mln. ton neft çıxarılmışdır ki, bunun da 1 mlrd. tonu 1920-ci ildən sonrakı dövrün payına düşür.

Qaz sənayesi də ölkəmizin yanacaq balansında çox mühüm yer tutur. Qaz istehsalı 1928-ci ildən başlayaraq respublikamız-

da sənayenin mühüm sahəsinə çevrilmişdir və bu zaman 175 mln. $m^3$-ə qədər qaz çıxarılmışdır. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, 1959-cu ilə qədər Azərbaycanda qaz respublika əhəmiyyətli bir sahə hesab olunmuşdur. 1959-cu ildən sonra isə onun əhəmiyyəti respublikamızın hüdudlarından kənara çıxmış, ondan həm də kimya sənayesində xammal kimi geniş istifadə edilməyə başlanmışdır.

Ekoloji cəhətdən təmiz, habelə ucuz yanacaq növü olan təbii qaz məişətimizdə geniş istifadə edilir, sənayeni, elektrik stansiyalarını yanacaqla, kimya sənayesini xammalla etibarlı şəkildə təmin edir.

Son illərdə ölkəmizdə yeni qaz yataqları kəşf olunmuş, onların çox böyük ehtiyata malik olduqları aşkara çıxarılmışdır. Bu isə neft və qaz ixracının artmasına səbəb olmuşdur. İndi Azərbaycan Avropanın yanacaq-enerji təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır.

Azərbaycanda hazırda ildə 22-25 mlrd. kvt/saat elektrik enerjisi istehsal olunur. Azərbaycanın sürətli inkişafı – ÜDM istehsalının artım sürətinə görə 2004-cü ildən başlayaraq öncül mövqelərdə olması – onun yaxın gələcəkdə elektrik enerjisinə olan tələbatının xeyli artmasına səbəb olacaqdır. Bu isə ölkədə elektrik enerjisi istehsalının artırılmasını zəruri edəcəkdir. Bu sahədə ölkəmizin müxtəlif regionlarında inşa olunan modul tipli elektrik stansiyaları mühüm rol oynaya bilər.

**Yanacaq-energetika kompleksinin əsas inkişaf istiqamətləri işlənib hazırlandıqda yanacaq-energetika balansı əsas götürülür.** Bu balans adətən ölkə və iqtisadi rayonlar, həmçinin ayrı-ayrı yanacaq və enerji növləri üzrə işlənib hazırlanır. Müxtəlif yanacaq və enerji növlərinin bir-birini əvəz etməsi, yanacaq və elektroenergetika sahələrinin fəaliyyət göstərmələri və inkişaf etdirilməsinin texnoloji cəhətdən qarşılıqlı əlaqədə olması həm də vahid yanacaq-energetika balansının tərtib olunmasını zəruri edir.

Yanacaq-energetika balansının ölkə üzrə işlənib hazırlanması lazım olan qədər yanacaq və enerji istehsalının müəyyən edilməsinə, onun strukturunun təkmilləşdirilməsinə, istehsalın sə-

mərəliliyinin yüksəldilməsi və resurslardan istifadə olunmasını proqnozlaşdırmağa imkan verir.

**Vahid energetika öalansının tərtib olunması aşağıdakılara əsaslanır:**

- istifadə olunan müxtəlif enerji resruslarının bir-birini əvəz etməsi;
- enerjinin bir növünün digərinə çevrilməsinin mümkünlüyü;
- eyni bir resurs növündən müxtəlif məqsədlər (məsələn, elektrik enerjisindən mühərrikin gücü və texnoloji məqsədlər üçün istifadə olunması) üçün istifadə edilməsi.

Enerji resurslarının bir-birini qarşılıqlı surətdə əvəz etməsi və bir növünün digər növə çevrilməsi vahid yanacaq-energetika balansının işlənib hazırlanmasını mümkün və zəruri edir. Bu balans müvafiq ekvivalentlərə uyğun olaraq bütün resursların və enerji növlərinin istehsalı, bölgüsü və istehlakının vəhdətini təmin edir. Vahid (icmal) balansdan başqa ölkə, region və energetika sistemləri və konkret yanacaq növləri üzrə maddi balanslar və elektrik enerjisi balansı tərtib olunur. Yanacaq-energetika balansının sxemi aşağıdakı kimidir (cədvəl 21.2).

Cədvəl 21.2.

Yanacaq-energetika balansı (şərti yanacağa çevrilməklə, mln.t.).

| Resurslar | İstifadə |
|---|---|
| İlkin enerji istehsalı<br>O cümlədən:<br>Bərk yanacaq:<br>Duru<br>Qazabənzər<br>Elektrik enerjisi istehsalı<br>O cümlədən:<br>Su-elektrik stansiyalarında<br>Atom elektrik stansiyalarında<br>Sair enerji növləri:<br>Külək<br>Geotermal mənbələr<br>Günəş radiasiyası<br>Digər növlər<br>Dövrün əvvəlinə qalıq<br>İdxal | Ümumi istehlak<br>O cümlədən:<br>Ölkənin daxilində istehlak edilmişdir;<br>Digər növlərə çevrilməyə sərf edilmiş enerji (elektrik enerjisi, istilik enerjisi və b.)<br>İstehsal-texnoloji məqsədlərə sərf olunmuşdur<br>Son istehlaka getmişdir<br>İstehlakolunma və daşınma (nəqlolunma) mərhələlərində baş verən itkilər<br>İlin axırına qalıq<br>İxrac |

Qeyd etmək lazımdır ki, ayrı-ayrı resurs növləri üzrə strateji təyinatlı dövlət ehtiyatları yaradılır. Bütün ilkin enerji mənbələri iki yerə bölünür: 1) bərpa oluna bilən; 2) bərpa olunması mümkün olmayan resurslar.

Ayrı-ayrı energetika növlərinin istehsalı və istehlakı prosesləri vaxta görə bir-birinə uyğun gəlir. Elektrik enerjisinin istehsalı, nəql olunması və istifadə edilməsi fasiləsiz olaraq baş verir. Odur ki, ehtiyat yaradılması problemi ayrı-ayrı enerji növləri nəzərə alınmaqla həll edilir. Belə ki, bu **məhsulların ehtiyatlarının yaradılması çətin, elektrik enerjisi üzrə isə qeyri-mümkündür.** Yanacaq-energetika balansında bərk və duru yanacaq üzrə keçici ehtiyatlar və dövlətin məhsul ehtiyatları nəzərdə tutulur. Elektrik enerjisi üzrə isə məhsulun ehtiyatı yox, güclərin ehtiyatı yaradılır. Energetika gücləri balansı tərtib olunarkən belə ehtiyatlar nəzərdə tutulmur.

Elektroenergetikada istehsal proseslərində qeyri-bərabərlik mövcuddur. Bu, elektrik enerjisi və yanacağın gündəlik və mövsümi istehlakının dəyişməsi ilə əlaqədardır. Vahid (icmal) energetika balansından başqa energetika resurslarının ayrı-ayrı növləri (neft balansı, kömür balansı, elektrik enerjisi balansı və i.a.) üzrə xüsusi balanslar da tərtib olunur. Məsələn, elektrik enerjisi balansının sxemi aşağıdakı kimidir:

Elektrik enerjisi balansı

1) Elektrik enerjisi istehsalı
2) İdxal
3) Elektrik enerjisi istehlakı
o cümlədən:
a) sənayedə
b) kənd təsərrüfatında
v) nəqliyyatda
q) digər sahələrdə
4) İxrac
5) Ümumi istifadə şəbəkələrində baş verən itki.

Neft şirkətləri üçün hökumətin rüblük balans tapşırıqları da olur. Bu şirkətlər istehsal olunan neftin bir hissəsini ixrac etmək səlahiyyətlərinə malikdir. Şirkətlər hər rüb çıxarılan neftin həcmindən asılı olaraq neft ixracına dair qrafik tərtib edirlər.

## 21.4. Enerjiyə qənaət edilməsi və təbii sərvətlərdən istifadənin dövlət tərəfindən tənzimlənməsi

Enerjiyə qənaət edilməsi dövlət səviyyəsində tənzimlənməli və bu sahədə yeridilən siyasət aşağıdakılara əsaslanmalıdır:

- enerjiyə qənaət olunmasına dair ölkə, regionlararası və regionlar üzrə proqramların işlənib hazırlanması və həyata keçirilməsi;
- müxtəlif enerji tutumlu məhsulların xüsusi çəkisinin dəyişməsinə səbəb ola bilən struktur siyasətinin yeridilməsi;
- müəssisələrdə energetika sahəsində tədqiqatların aparılması;
- yüksək energetika səmərəliliyi ilə fərqlənən tikinti layihələrinin dövlət ekspertizasının təmin olunması və nümayiş etdirilməsi;
- qeyri-ənənəvi enerji mənbələrinin energetika balansına cəlb edilməsi.

Enerjiyə qənaət olunmasının dövlət siyasəti regionlara böyük səlahiyyətlər və imkanlar verir. Çünki bir çox iqtisadi və maliyyə problemlərinin həlli mərkəzi hökumətdən regionlara keçir.

Enerjiyə qənaət edilməsi ilə əlaqədar müxtəlif təsiretmə formalarının tətbiqi idarəetmənin mərkəzləşdirilmiş, iqtisadi, inzibati və qanunvericilik metodlarının uzlaşdırılmasına əsaslanır. Ona görə ki, bu əlaqələndirmədə müxtəlif mülkiyyət formalarına və ayrı-ayrı regionlar üçün səciyyəvi olan şəraitə təsiretmə imkanları nəzərə alınır.

Enerjiyə qənaət olunmasının iqtisadi idarəetmə metodları resurslardan istifadənin maddi cəhətdən maraqlandırılmasına əsaslanır. Bu sahədə vergi güzəştləri mühüm rol oynaya bilər.

Sənaye ilə yanaşı, daha çox enerji tutumlu sahə mənzil-kommunal təsərrüfatıdır. Odur ki, bu sahədə elektrik enerjisinə qənaət olunması ilə əlaqədar həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirilməlidir.

Yeraltı sərvətlər hər bir ölkə xalqlarının milli sərvətidir və ondan istifadə ilə əlaqədar xüsusi mexanizm olmalıdır. **Dövlət səviyyəsində yeraltı sərvətlərin mənimsənilməsi mexanizminə isə aşağıdakılar daxildir:** 1) mineral-xammal bazasının vəziyyətinin araşdırılması; 2) mineral xammalların kəşfiyyatı, çıxarılması və istifadəsi ilə əlaqədar siyasətin işlənib hazırlanması və həyata keçirilməsi.

Birinci istiqamət Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyi nəzdində xüsusi komissiya yaradılması yolu ilə reallaşdırıla bilər. İkinci istiqamət isə yeraltı sərvətlərdən istifadə ilə əlaqədar hüquqi bazanın yaradılmasıdır. Bunun həyata keçirilməsi dövlətin ən mühüm iqtisadi funksiyalarından biridir. Bu shədə ölkəmizdə bir sıra işlər görülmüş və görülür. Bunun ən bariz nümunəsi «Mədən vergisi haqqında» Azərbaycan Respublikasının 24 mart 1995-ci il tarixli qanunudur.

Qanuna görə Azərbaycan Respublikasının ərazisindəki və Xəzər dənizinin şelfindəki yeraltı sərvətlərdən səmərəli istifadə etmək və onlar çıxarılarkən ayrı-ayrı sahələr arasında rentabellik səviyyəsi ilə əlaqədar rəqabət münasibətlərini tənzimləmək məqsədi güdülür. Vergi ödəyiciləri mülkiyyət formasından asılı olmayaraq yerin təkindən faydalı qazıntıların çıxarılması ilə məşğul olan hüquqi və fiziki şəxslərdir.

Bəzi hallarda hasilatın xüsusiyyətlərini nəzərə alan əmsallar da müəyyənləşdirilir. Məsələn, yatağın geoloji quruluşunun xüsusiyyətlərini nəzərə alan əmsal «sadə» quruluşda 1-ə, «mürəkkəb» quruluşda isə 0,8-ə bərabərdir.

Neftin qiymətindən asılı olaraq ona qoyulan ixrac rüsumu dərəcələri aşağıdakı kimi fərqləndirilə bilər (cədvəl 21.3).

Cədvəl 21.3.

Dünya qiymətlərinin dəyişməsindən asılı olaraq ixrac rüsumu dərəcələrinin fərqləndirilməsi[1]

| Bir barrel neftin qiyməti (ABŞ dolları ilə) | İxrac rüsumu dərəcəsinin dünya qiymətlərindən asılılığı (Avro ilə) |
|---|---|
| 12,5-15,0 | - |
| 15,0-17,5 | 5 |
| 17,5-20,0 | 9 |
| 20,0-22,5 | 14 |
| 22,5-25,0 | 20 |
| 25,0-27,5 | 27 |
| 27,5-30,0 | 34 |
| 30,0-32,5 | 41 |
| 32,5-dən yuxarı | 48 |

Aydın məsələdir ki, dünyada neftin qiymətinin artması neft şirkətlərinin rolundan asılı deyildir. Odur ki, neftin qiymətinin qalxması nəticəsində əldə edilən əlavə mənfəət dövlətin sərəncamına keçməlidir. Lakin faydalı qazıntıların hasilatı ilə əlaqədar vergi dərəcəsi həm dövlət, həm də şirkətlər üçün optimal olmalı və müəyyən nisbətdə bölünməlidir.

Hazırda yanacaq-energetika kompleksi mülkiyyətinin idarə olunmasında dövlətin iştirakının üç formasının olduğunu qeyd etmək olar:

1) Qaz sənayesində (məsələn, «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin nəzarət səhm zərfi dövlətə məxsusdur) və elektroenergetikada dövlət inhisarının qalması;

2) Qarışıq mülkiyyətin olması (məsələn, neft sənayesində dövlətin payı müəyyən oluna bilər);

[1] А.М.Бабашкина. Государственное регулирование национальной экономики. М., 2004, с.330

3) İdarəetmədə dövlətin dolayı yolla iştirak etməsi (bərk faydalı qazıntıların hasilatında, müəssisələr xüsusi şəxslərin mülkiyyətində olduqda).

Kömür sənayesində vasitəçilərin rolunun böyük olması istehsal və tədavüllə əlaqədar əsas xərclərin artmasına və nəticə etibarilə kömür sənayesi müəssisələrinin zərərlə işləməsinə səbəb olur. Odur ki, regionlarda mineral xammalların hasilatı və istifadəsində subyektlərin mənafeləri nəzərə alınmalıdır.

Neft sənayesinin dövlət tərəifndən tənzimlənməsi mexanizmlərindən biri də ixrac kvotasının müəyyən edilməsidir. Bu üsuldan adətən boru kəmərləri azlıq etdikdə istifadə olunur. Hazırda Azərbaycan nefti Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Supsa və Bakı-Novorossiysk boru kəmərləri ilə nəql olunur və sonrakı mərhələlərdə onun əhatə dairəsinin daha da genişlənəcəyi imkanları olduqca böyükdür. Bu isə kvotanın müəyyənləşdirilməsində dövlətin manevretmə imkanlarını artırır.

## NƏTİCƏ

- milli iqtisadiyyatın əsas sahələrindən biri energetikadır. O, ölkənin və sivilizasiyanın inkişaf səviyyəsini səciyyələndirən həledici göstəricilərdən biridir;

- yanacaq-energetika kompleksinə elektroenergetika, yanacaq sənayesi sahələri, boru kəmərləri və geoloji-kəşfiyyat işləri daxildir;

- yanacaq-energetika kompleksi Azərbaycan iqtisadiyyatının həlledici sahələrindən biridir. Bu sahədə ölkəmiz zəngin ehtiyatlara malikdir və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır;

- yanacaq-energetika kompleksinin inkişaf perspektivləri müəyyən olunarkən uzunmüddəti əhatə edən strategiya işlənib hazırlanmalıdır. Bu zaman neft-qaz sənayesinin mövcud vəziyyəti, onun energetika balansında tutduğu yer və inkişaf istiqamətləri müəyyənləşdirilməlidir;

- başqa ölkələrdə (ABŞ, Venesuela, Kolumbiya, Küveyt, Norveç və i.a.) olduğu kimi Azərbaycanda da Neft Fondu yara-

dılmışdır. Onun əsas məqsədi neftin, qazın və başqa təbii sərvətlərin ehtiyatı tükəndiyi halda gələcək nəsillərin normal yaşaması və fəaliyyət göstərməsi üçün şərait yaratmaqdan ibarətdir;

- ölkəmizdə təbii inhisarların tənzimlənməsi ilə İqtisadi İnkişaf Nazirliyi məşğul olur. Onun funksiyalarının bir hissəsini regional energetika komissiyaları yerinə yetirə bilər;

- yanacaq-energetika kompleksinin tənzimlənməsində investisiya və qiymət siyasəti xüsusi yer tutur. Odur ki, dövlət bu sahədə bütün məsuliyyəti üzərinə götürür və məqsədyönlü siyasət yeridir;

- müasir dövrdə dünyada, xüsusilə də inkişaf etmiş ölkələrdə enerjiyə olan tələbat sürətlə artır və enerji daşıyıcılarının strukturunda kəmiyyət dəyişiklikləri baş verir. Gələcəkdə dünya enerji balansında neftin və kömürün xüsusi çəkisinin kəskin surətdə azalacağı, təbii qazın, nüvə yanacağının, bərpa oluna bilən enerji mənbələrininkinin isə artacağı proqnozlaşdırılır;

- dünyada istehsal olunan elektrik enerjisinin təqribən 17%-i, Avropada isə 33%-dən çoxu atom energetikasının payına düşür. Lakin energetikanın bu sahəsi ekoloji və siyasi xarakterli ciddi problemlər doğurur;

- yanacaq-energetika kompleksinin əsas inkişaf istiqamətləri işlənib hazırlandıqda yanacaq-energetika balansı əsas götürülür. Bu balans ölkə, regionlar və ayrı-ayrı enerji növləri üzrə işlənib hazırlanır.

- enerjiyə qənaət edilməsi dövlət səviyyəsində tənzimlənməli və bu sahədə yeridilən siyasət bir sıra şərtlərə əsaslanmalıdır;

- yeraltı sərvətlər hər bir ölkənin, onun bütün xalqının milli sərvəti olduğuna görə ondan istifadə xüsusi mexanizm əsasında həyata keçirilməlidir. Bu mexanizm ölkəmizdə işlənib hazırlanmış və xalqın mənafeyinə xidmət edir.

# V BÖLMƏ

# XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

## XXII FƏSİL

## XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN TƏNZİMLƏNMƏSİ VƏ ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ

### 22.1. Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin zəruriliyi

**Azərbaycan Respublikası** keçən əsrin 90-cı illərinin əvvəllərində müsətqilliyini bərpa etdikdən sonra dünya təcrübəsində özünü doğrultmuş və hələlik alternativi olmayan bazar iqtisadiyyatına doğru istiqamət götürmüş və dünya təsərrüfatına bərabərhüquqlu tərəfdaş kimi daxil olmuşdur. Lakin o dövrdə ölkəmizin daxili bazarında ayrı-ayrı məhsul növləri üzrə qıtlıq hökm sürür, onların çeşidi azlıq edir və gəlirlər qiymətlərə uyğun gəlmirdi. Vəziyyətin belə olması labüd olaraq kortəbii bölgü prosesinin, gözəgörünməz bölüşdürücələrin meydana gəlməsinə, sərvətin dağıdılması və mənimsənilməsi hallarının genişlənməsinə, xidməti vəzifədən sui-istifadənin güclənməsinə səbəb olurdu. Və qətiyyətlə belə bir fikir söyləmək olar ki, xarici bazara çıxmadan daxili bazarın müxtəlif növ əmtəələrlə doldurulması və deməli, əmtəə qıtlığının, sosial gərginliyin aradan qaldırılması mümkün deyildi. Bu isə açıq xarici iqtisadi siyasət yeridilməsini tələb edirdi. Bununla əlaqədar olaraq müstəqillik şəraitində ölkəmizdə həyata keçirilən tədbirlərdən biri də xarici iqtisadi fəaliyyətin liberallaşdırılması olmuşdur. Başqa sözlə, çoxsaylı təsərrüfat subyektlərinin xarici bazarlara çıxmaları üçün şərait yaradılmışdır. Xarici iqtisadi fəaliyyət (XİF) xarici ticarət, istehsal kooperasiyası, elmi-texniki əməkdaşlıq, ölkənin ərazisində və

onun hüdudlarından kənarda birgə sahibkarlıq, xarici kapitalın və işçi qüvvəsinin ölkə iqtisadiyyatına cəlb edilməsi, beynəlxalq təşkilatların işində iştiraketmə formalarında həyata keçirilir.

**Müasir dövrdə** ölkələr dünya ticarətində fəal iştirak edirlər. Bu, bir sıra səbəblərlə əlaqədardır. Belə ki, dünya ticarəti ölkədə mövcud olan iqtisadi ehtiyatlardan, elm və texnikanın ən yeni nailiyyətlərindən istifadə olunmasına, iqtisadiyyatda çox qısa müddətdə struktur dəyişiklikləri aparılmasına, əhalinin tələbatının daha yaxşı ödənilməsinə imkan verir.

Ölkələr arasında qarşılıqlı əlaqə və asılılığın dərinləşməsi iqtisadiyyatın daim inkişaf etməkdə olan beynəlmiləl xarakterinə əsaslanır. Elmi-texniki inqilabın təsiri ilə son illərdə istehsalın beynəlmiləlləşməsi xeyli sürətlənmişdir ki, bu da öz növbəsində bütün prosesə keyfiyyətcə yeni cəhətlər vermişdir.

Beynəlxalq miqyasda istehsalın ixtisaslaşdırılması və kooperasiyalaşdırılması ölkələr arasındakı qarşılıqlı əlaqəni genişləndirir. Bunun əsasını beynəlxalq əmək bölgüsü təşkil edir. Beynəlxalq əmək bölgüsünün (BƏB) inkişaf etməsinin əsas səbəbi bütün bəşəriyyət üçün ümumi olan elmi-texniki tərəqqinin qanunauyğunluqlarıdır. Başqa sözlə, dünya birliyinə daxil olan ölkələr öz aralarında elmi-texniki, ən yeni məhsul növləri istehsalı, elmi-tədqiqatların və təcrübə konstruktor işlərinin nəticələrinin mübadiləsi sahəsində əməkdaşlıq etməkdə maraqlıdırlar. **BƏB-in təsiri ilə** istehsalın beynəlmiləlləşməsi ölkənin hüdudlarından kənarda birgə sahibkarlığın inkişaf etdirilməsinə gətirib çıxarır. Bu, öz ifadəsini onda tapır ki, investorlar birbaşa investisiyaları ixrac etməklə, başqa ölkələrdə yeni müştərək firmalar və ya mövcud firmaların filiallarını yaradır və birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Dünya iqtisadiyyatı qloballaşdıqca ölkələrin əksəriyyətinin iqtisadi, sosial və demoqrafik inkişafı üçün beynəlxalq miqyasda işçi qüvvəsinin və əhalinin miqrasiyası başlıca amilə çevrilir. Bu, beynəlxalq iqtisadi münasibətlərin ən mürəkkəb ünsürlərindən biridir. Çünki onun obyekti insan resurslarıdır və bu, beynəlxalq miqrasiya ilə əlaqədar kəskin problemlər doğurur.

Beləliklə, elmi-texniki inqilabın geniş miqyas aldığı indiki şəraitdə BƏB-in təsiri ilə istehsalın beynəlmiləlləşməsi ona gətirib çıxarır ki, əslində «hər şeyə malik olmağa» cəhd göstərilməsi heç bir ölkə üçün sərfəli olmur. Hər bir ölkənin milli iqtisadiyyatının səmərəli inkişafı yalnız BƏB-in üstünlüklərindən istifadə edilməklə mümkündür. Bunlarla yanaşı, ölkələr arasında iqtisadi münasibətlər ya birbaşa, yaxud da müxtəlif beynəlxalq iqtisadi təşkilatların vasitəsilə tənzimlənir. Belə təşkilatlar hər şeydən əvvəl maliyyə-kredit sahəsində fəaliyyət göstərirlər. Bunlara Beynəlxalq Valyuta Fondunu (BVF), Dünya Bankını (DB), Beynəlxalq Hesablaşmalar Bankını (BHB), Avropa Yenidənqurma və İnkişaf Bankını (AYİB) misal göstərmək olar.

**Göründüyü kimi, beynəlxalq iqtisadi münasibətlər mürəkkəb quruluşa malikdir** və bu, ölkələr arasında xarici iqtisadi fəaliyyətin tənzimlənməsini zəruri edir.

Xarici iqtisadi fəaliyyətin intensivliyi, quruluşu və coğrafi istiqaməti xeyli dərəcədə dövlətin istifadə etdiyi tənzimləmə metodlarından, o cümlədən bu sahədə milli hüquq normalarından asılıdır. Bazar iqtisadiyyatı şəraitində dövlətin XİF-ə təsir etməsinin xarakteri dəyişir, başqa sözlə, onun yuxarı orqanlar tərəfindən bilavasitə mərkəzləşdirilmiş, sərt planlaşdırma və direktiv göstərişlər yolu ilə idarə olunmasından indikativ (tövsiyə xarakteri daşıyan) idarəetmə metodlarına keçilir, əsas etibarilə təsiretmənin dolayı vasitələrindən istifadə olunur. Lakin müstəqilliyimizin ilk illərində Azərbaycan iqtisadiyyatında aparılan islahatların gedişində mövcud vəziyyətdən asılı olaraq bir-biri ilə uzlaşmayan tənzimləmə metodlarından, tarif və qeyri-tarif tədbirlərindən istifadə edilmişdir.

**Azərbaycan Respublikasında** XİF-in dövlət tərəfindən tənzimlənməsində əsas məqsəd ölkənin iqtisadi suverenliyini qorumaqdan, iqtisadi təhlükəsizliyini təmin etməkdən, milli iqtisadiyyatın inkişaf etdirilməsini stimullaşdırmaqdan və dünya iqtisadiyyatına inteqrasiya olunması şərtlərini hazırlamaqdan ibarətdir.

**Təcrübə göstərir ki, XİF-in tənzimlənməsi üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:**

1) Ölkənin xarici ticarət əlaqələrinə dair inkişaf konsepsiyası və strategiyasının, bu sahədə dövlət siyasətinin əsas prinsiplərinin formalaşdırılması;

2) Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, dövlətin iqtisadi suverenliyi və mənafeyinin, habelə bütün vətəndaşların mənafelərinin müdafiə olunması;

3) Maliyyə, valyuta, kredit, gömrük-tarif və qeyri-tarif tənzimləmələri də daxil olmaqla xarici ticarət fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi; ixrac üzərində nəzarətin həyata keçirilməsi; idxal və ixracla əlaqədar olaraq əmtəələrin sertifikatlaşdırılması sahəsində siyasətin işlənib hazırlanması;

4) Ölkənin bütün ərazisində təhlükəsizliklə əlaqədar standartların və meyarların, yaxud da ölkəyə gətirilən malların insanlar üçün zərərsizliyinin təmin edilməsi və onun üzərində nəzarətin həyata keçirilməsi;

5) Silahların, hərbi texnikanın və hərbi-texniki təyinatlı əmlakın ölkəyə gətirilməsi və ölkədən çıxarılması qaydalarının müəyyən edilməsi;

6) Hissələrə ayrıla bilən, zəhərləyici, zəhərli və partlayıcı materialların idxalı və ixracı qaydalarının müəyyən olunması;

7) Qiymətli metalların və qiymətli daşların, onlardan hazırlanan məmulatların ölkəyə gətirilməsi və ölkədən çıxarılması qaydalarının müəyyən olunması;

8) Ölkənin bütün ərazisində xarici ticarət fəaliyyəti ilə əlaqədar məcburi statistika hesabatı göstəricilərinin müəyyənləşdirilməsi;

9) Xarici dövlətlərə kredit verilməsi və onlara başqa formalarda kömək göstərilməsi;

10) Dövlətin rəsmi qızıl-valyuta ehtiyatlarının formalaşdırılması və ondan istifadə edilməsi; ölkənin tədiyyə balansının işlənib hazırlanması;

11) Ölkənin xarici borcu limitinin müəyyən olunması və idarə edilməsi;

12) Xarici iqtisadi əlaqələr sahəsində beynəlxalq müqavilələrin bağlanması;

13) Xaricdə ölkənin ticarət nümayəndəliyinin yaradılması və i.a.

**Xarici iqtisadi əlaqələri həyata keçirmək üçün Azərbaycan dövləti də bu vəzifələri yerinə yetirir.** Bunun nəticəsidir ki, ölkəmizin xarici iqtisadi əlaqələri daim inkişaf edir və daha geniş miqyas alır. Bununla əlaqədar olaraq ölkəmizdə XİF-in dövlət tərəfindən tənzimlənməsi sistemi formalaşmışdır.

**Ölkəmizdə XİF-in tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.** Bu ali hakimiyyət orqanı xarici ticarəti, birgə sahibkarlığı və xarici iqtisadi əməkdaşlığın digər formalarını tənzimləyən qanunları qəbul etmək, dəyişdirmək və ləğv etmək səlahiyyətinə malikdir. XİF-in tənzimlənməsinin müxtəlif formalarına Azərbaycan Respublikası Prezidentinin fərmanları daha çevik təsir göstərir. Ölkəmizdə XİF-in tənzimlənməsi ilə İqtisadi İnkişaf və Kənd Təsərrüfatı Nazirlikləri, Dövlət Gömrük Komitəsi, Milli Bank və müvafiq İcra Hakimiyyəti orqanları məşğul olurlar.

**Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi aşağıdakı vəzifələri yerinə yetirir**: xarici iqtisadi siyasət strategiyasını işləyib hazırlayır; XİF-in bütün iştirakçıları tərəfindən beynəlxalq qanunlara və müqavilələrin şərtlərinə əməl olunması üzərində nəzarəti həyata keçirir; XİF-in inkişaf etdirilməsi və tənzimlənməsi məsələləri üzrə müxtəlif beynəlxalq və hökumətlərarası komissiyalarla əməkdaşlıq edir; müxtəlif ölkələrlə xarici ticarət müqavilələri bağlayır; XİF-i Xarici İşlər Nazirliyi, Milli bank, Maliyyə Nazirliyi və başqa səlahiyyətli orqanlarla razılaşdırır; XİF-in tənzimlənməsində qeyri-tarif metodlarından istifadə edir və i.a.

**XİF-in operativ tənzimlənməsi** dövlət orqanları tərəfindən həyata keçiriilr. Məsələn, Azərbaycan Hökuməti və Dövlət Gömrük Komitəsi keyfiyyətsiz məhsullar göndərildiyi və ya gətirildiyi, ixrac əməliyyatları yerinə yetirilmədiyi, məhsul aşağı qiymətlərlə ixrac və yüksək qiymətlərlə idxal edildiyi hallarda; reklamlarda, gömrük, maliyyə və qeydiyyat sənədlərində yalan informasiyalar verildikdə XİF iştirakçılarının yerinə yetirdikləri əməliyyatları dayandıra bilər. Bundan başqa, Dövlət Gömrük

Komitəsi vahid gömrük siyasəti yeridir və o, dünya ticarətində qüvvədə olan beynəlxalq prinsiplərə müvafiq olaraq fəaliyyət göstərir.

**XİF-in tənzimlənməsində Azərbaycan Respublikasının Milli Bankının üzərinə də çox böyük vəzifələr düşür.** Milli bank banklararası müqavilələr bağlayır, manatın digər ölkələrin valyutalarına dəyişdirilməsi məzənnəsi ilə əlaqədar vahid siyasət yeridir, onu qoruyub saxlayır, beynəlxalq maliyyə-kredit təşkilatlarında, digər dövlətlərin Mərkəzi bankları ilə qarşılıqlı münasibətlərdə ölkənin mənafelərini müdafiə edir. Milli bank həmçinin bütün valyuta əməliyyatlarını aparır, ölkədə xarici valyutaların və qiymətli kağızların tədavülü qaydalarını işləyib hazırlayır, normativ aktları nəşr etdirir, valyuta əməliyyatlarını aparmaq üçün banklara lisenziya verir və i.a.

Beləliklə, ölkəmizdə bazar iqtisadiyyatına xas olan xarici iqtisadi fəaliyyət siyasəti formalaşdırılır. İdxal-ixrac əməliyyatları üzrə gömrük vergi və rüsumları xarici ticarətin tənzimlənməsinin əsasını təşkil edir. Bununla yanaşı, qeyri-tarif vasitələri də mövcuddur. Onlar idxalın məhdudlaşdırılmasının inzibati tədbirləri kimi (kvota, lisenziya, texniki və istehlakçı standartları) fəaliyyət göstərirlər. Bu tədbirlər ixracın stimullaşdırılmasına yönəldilmiş iqtisadi vasitələrdən istifadə olunması ilə əlaqələndirilir. Bunlara məqsədli kreditlər, dövlət tədarükü, vergi və rüsumlar, ixrac kreditlərinin sığortalanması və s. aid edilə bilər.

## 22.2. Xarici iqtisadi əlaqələrin tənzimlənməsi mexanizmi

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün dövlət tərəfindən istifadə olunan vasitələri aşağıdakı üç qrupda birləşdirmək olar: 1) ümumi xarakterli tədbirlər; 2) xüsusi vasitə və mexanizmlər; 3) xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində istehsalçı şirkətlərə birbaşa təsir göstərilməsi.

**Ümumi xarakterli tədbirlər** son nəticədə ölkə sənayesinin və onun məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə

doğru aparan milli iqtisadiyyatın və dünya birliyində onun mövqeyinin möhkəmləndirilməsinə yönəldilmişdir. XİF-in tənzimlənməsi bütün milli iqtisadiyyatın, onun cari vəziyyətinin və strukturunun tənzimlənməsi deməkdir. Bu, inhisarçılığa, haqsız rəqabətə qarşı mübarizə, dövlət iqtisadi proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi, elmi-texniki inkişafın stimullaşdırılması, zəruri normativ bazanın yaradılması ilə əlaqədar tədbirlər sistemidir.

**Xüsusi vasitə və mexanizmlər** XİF-in ayrı-ayrı növlərini ya stimullaşdırır, ya da ləngidir. Gömrük-tarif tənzimləməsi, qeyri-tarif tənzimləmələri, valyutanın dönərliliyi və valyuta məzənnələri siyasətindən ibarət olan xarici ticarətin tənzimlənməsi mexanizmini nəzərdən keçirək.

**Gömrük-tarif tənzimləməsi** (ixrac və idxal rüsumlarının müəyyən edilməsi) iqtisadiyyatın ayrı-ayrı sahələrini xarici rəqabətdən qorumaq və xarici firmaların üstünlüklərini bitərəfləşdirmək üçün yeridilən xarici ticarət siyasətinin başlıca vasitəsidir. Gömrük-tarif tənzimləməsinin əsas «alət»lərindən biri də gömrük rüsumlarıdır. **Rüsum məhsul ölkəyə gətirilərkən və ya ölkədən çıxarılarkən gömrük orqanları tərəfindən alınan məcburi haqdır.** Gömrük rüsumlarının səmərəli strukturu işlənib hazırlanarkən, qarşıya bir-birinə zidd olan məsələlərə nail olunması vəzifələri qoyulur. Bu ziddiyyət özünü onda göstərir ki, bir tərəfdən ölkə iqtisadiyyatı xarici kapitalın üzünə açıq elan edilir, digər tərəfdən isə daxili istehsalın xarici kapitalın təzyiqindən qorunması üçün himayəçilik siyasəti yeridilir.

**Məhsulların yerdəyişməsi istiqamətlərindən asılı olaraq idxal, ixrac və tranzit rüsumlarını bir-birindən fərqləndirmək lazımdır.** Bu rüsumlar gömrük ərazisində məhsulların yerdəyişməsinə görə alınan məbləğdir. İnkişaf etmiş ölkələr əsas etibarilə idxal rüsumlarından istifadə edirlər. İxrac rüsumlarına isə ayrı-ayrı inkişaf etməkdə olan ölkələrdə rast gəlinir və bu, daxili bazarda məhsul çatışmazlığının aradan qaldırılması və xəzinənin doldurulmasına xidmət edir.

Xarici iqtisadi fəaliyyəti tənzimləmək üçün dövlətin istifadə etdiyi çoxsaylı vasitələrdən biri də **gömrük tarifləridir.** Bu o de-

məkdir ki, ölkənin sərhədlərini keçərək gətirilən əmtəə və digər material qiymətlilərinə görə gömrük vergisi və rüsumu ödənilməlidir. Gömrük vergisinin müəyyən edilməsi o deməkdir ki, əmtəənin sahibi dövlətə qiymətin müəyyən hissəsi qədər vergi ödəməlidir. İdxal vergisi istehsalçının xərclərini artırdığına görə əmtəənin satış qiyməti də artır. Deməli, **idxal vergisinin artırılması birinci növbədə istehlakçılara ziyan vurur. Gömrük vergi və rüsumlarının sistemləşdirilmiş siyahısına gömrük tarifi deyilir.** İdxal və ixrac tarifləri bir-birindən fərqlənir. Milli tənzimləmə sistemlərindəki fərqlər beynəlxalq ticarəti çətinləşdirməsin deyə, bütün ölkələr öz sistemlərini tədriclə dünyada mövcud olan ümumi prinsiplərə uyğunlaşdırırlar. Bu məqsədlə Gömrük Əməkdaşlığı Şurası (Ümumdünya Gömrük Təşkilatı) yaradılmışdır və Azərbaycan Respublikası da onun bərabərhüquqlu üzvüdür. Ölkəmizin gömrük tariflərində nəzərdə tutulan əmtəələr XİF-in əmtəə nomenklaturuna uyğun olaraq təsnifləşdirilir.

İdxal vergisi tətbiq olunduqda yerli istehsalçılar öz əmtəələrini daha yüksək qiymətə və daha çox sata bilirlər. Bu zaman təbiidir ki, istehlakçılar idxal olunan məhsulları ixtisar etmək və baha olan yerli məhsulları satın almaq məcburiyyətində qalır.

Bundan başqa, gömrük vergisi və rüsumu yüksək müəyyən olunduqda idxal olunan və yerli istehsalçıların istifadə etdiklləri xammalların, materialların, avadanlıqların qiymətləri yüksəldiyinə görə onların istehsal xərcləri və deməli, məhsulların qiyməti də artır, nəticə isə ondan ibarət olur ki, istehsalın həcmi azalır. Bütün bunlar onu göstərir ki, **gömrük vergi və rüsumlarından istifadə edilməsi mexanizmi də ölçülüb-biçilmiş parametrlər əsasında fəaliyyət göstərməlidir.**

Beləliklə, burada tariflərin himayədarlıq xarakteri özünü göstərir. Bundan isə o vaxt istifadə olunur ki, dövlət gömrük vergi və rüsumlarını artırmaqla, həm də idxal olunan məhsulların daxili (milli) qiymətlərini artırır, onun rəqabət qabiliyyətini azaldır və deməli, daxili (milli) bazarı müdafiə edir.

**Tutulma formalarına görə gömrük vergisinin aşağıdakı növləri vardır:** 1) Advaler vergilər; 2) Xüsusi vergilər; 3) Qarışıq vergilər.

**Advaler vergilərin** mahiyyəti ondan ibarətdir ki, o, əmtəənin qiymətindən faizlə (məsələn, soyuducunun qiymətinin 15%-i qədər) tutulur. Xüsusi vergilər əmtəənin həcmindən, çəkisindən və ya miqdarından müəyyən pul məbləği şəklində (məsələn, metalın hər tonundan 15 dollar) tutulur. Qarışıq vergilər eyni zamanda həm advaler, həm də xüsusi vergilər formasında tutula bilər.

Gömrük tarifləri bir qayda olaraq milli səviyyədə müəyyən edilir. Lakin o, müəyyən ticarət-iqtisadi qruplarda birləşmiş ölkələr üçün də ümumi ola bilər. Məsələn, Avropa İttifaqına daxil olan ölkələr vahid xarici gömrük tarifləri və vahid gömrük sərhədlərinə malikdirlər. **Avropa İttifaqında gömrük rüsumuna onun aşağıdakı növləri daxildir:** 1) maksimum gömrük rüsumu; 2) minimum gömrük rüsumu; 3) güzəştli gömrük rüsumu.

Maksimum gömrük rüsumlarından ticarət sazişləri bağlanmamış ölkələrlə aparılan ticarətdə istifadə olunur. Minimum gömrük rüsumları adətən, ticarət müqavilələri olan ölkələrlə aparılan sövdələşmələrdə tətbiq edilir. Güzəştli gömrük rüsumlarından isə bir qayda olaraq əmtəələr inkişaf etməkdə olan ölkələrdən idxal olunduqda istifadə edilir. BMT çərçivəsində güzəştlərin ümumi sistemi fəaliyyət göstərir. Başqa sözlə, inkişaf ətmiş ölkələr inkişaf etməkdə olan ölkələrdən gətirilən məhsullar :üçün güzəştli gömrük rüsumu müəyyən edirlər.

**Ölkəmizə xaricdən gətirilən mallara görə tariflərin dərəcələri «Gömrük tarifləri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.** Bu qanun Azərbaycan Respublikasında laxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, :arici ticarətin dövlət tərəfindən tənzimlənməsinin mühüm vasiəsi olan gömrük tariflərinin formalaşdırılması və tətbiqi, həminin Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçən ıallardan rüsum tutulması qaydalarını müəyyən edir. Qanuna örə gömrük tariflərinin əsas məqsədi aşağıdakılardır: 1) idxal lunan əmtəələrin strukturunun təkmilləşdirilməsi; 2) Azərbayın Respublikası ərazisinə malların gətirilməsi və bu ərazidən .alların çıxarılması, valyuta gəlirləri və xərcləri arasında əlverişnisbətin təmin olunması; 3) valyutaların Azərbaycan Respub:ası ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində

nəzarətin həyata keçirilməsi; 4) Azərbaycan Respublikasında istehsal və istehlak olunan malların strukturunda mütərəqqi dəyişikliklər aparıla bilməsi üçün əlverişli şərait yaradılması; 5) iqtisadiyyatın xarici rəqabətin mənfi təsirindən qorunması və onun dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaradılması və i.a.

**Azərbaycanda gömrük vergilərinin formaları müəyyən edilərkən beynəlxalq təcrübədən istifadə olunur.** Başqa sözlə, ölkəmizdə də gömrük vergilərinin əsas formaları advaler, xüsusi və qarışıq vergilərdir. Lakin bunlarla yanaşı, malların idxalı və ixracını operativ tənzimləmək məqsədilə bəzi mallara mövsümi rüsumlar da tətbiq oluna bilər. Eyni zamanda ölkənin iqtisadi mənafelərini qorumaq üçün idxal olunan mallara müvəqqəti olaraq xüsusi növ vergi və rüsumların tətbiq edilməsi də mümkündür. Bunlara xüsusi, antidempinq və kompensasiya rüsumları aiddir. Xüsusi rüsumlar ölkə ərazisinə yerli istehsalçılara ziyan vura biləcək qədər və müəyyən şərtlərlə gətirilən mallara, yaxud da dövlətin mənafelərinə toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi başqa ölkələrə tətbiq oluna bilər. Antidempinq rüsumları idxal olunan malların qiyməti ölkənin gömrük ərazisinə gətirildiyi anda onların ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və bu qəbildən olan mallar yerli istehsalçılara ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, kompensasiya rüsumları isə ölkənin gömrük ərazilərinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, ölkədə həmin malların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneçilik törətdikdə tətbiq edilir.

**Müxtəlif ölkələrdə** gömrük rüsumlarının səviyyəsi və tənzimlənməsi qaydalarında əhəmiyyətli fərqlər vardır. Məsələn, gömrük rüsumları əksəriyyət hallarda ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olaraq müəyyən edilir. Belə ki, gömrük rüsumları İsveçrəyə nisbətən Avstriyada demək olar ki, üç dəfə yüksəkdir. İnkişaf etməkdə olan ölkələrdə daha yüksək gömrük rüsumları müəyyən olunur. Gömrük rüsumlarının müəyyən

olunması əmtəələrin emal edilməsi dərəcəsindən asılıdır. Hazır məmulatlar üzrə gömrük rüsumları daha yüksək olur. Məsələn, Avropa İttifaqına daxil olan ölkələrdə dəri xammalı və pambıq rüsumsuz idxal olunduğu halda, ayaqqabı və parça üzrə 20-22% rüsum müəyyən edilmişdir.

İkinci dünya müharibəsindən sonrakı dövrdə ölkələr arasında xarici ticarət əlaqələrinin əsas etibarilə gömrük rüsumlarının qarşılıqlı surətdə azaldılması yolu ilə tənzimlənməsinə başlanmışdır. Bu, başlıca olaraq

beynəlxalq ticarətin tənzimlənməsində özünü göstərirdi. Məsələn, gömrük rüsumunun səviyyəsi QATT (indiki ümumdünya ticarət təşkilatı) çərçivəsində keçirilən bütün raundların müzakirə obyekti olmuşdur. Bu, keçən dövr ərzində gömrük rüsumlarının səviyyəsinin 75% aşağı salınmasına imkan vermişdir. Hazırda tarif dərəcələrinin orta səviyyəsi inkişaf etmiş ölkələrdə 6%-ə, inkişaf etməkdə olan ölkələrdə isə 30-40%-ə bərabərdir. Lakin ayrı-ayrı ölkələr üzrə rüsumlar daha geniş həddə tərəddüd edə bilər.

**Ticarətin liberallaşdırılmasında qeyri-tarif maneələri də az təhlükə törətmir.** Qeyri-tarif maneələrinə xarici iqtisadi fəaliyyətin birbaşa və ya dolayı yolla məhdudlaşdırılmasının müxtəlif növ iqtisadi, siyasi və inzibati metodları aiddir. Bunlara müxtəlif növ vergi və rüsumları, xarici ticarətin kəmiyyətcə məhdudlaşdırılması (kvotalaşdırılması) və ya tamamilə ləğv olunmasını, lisenziyalaşdırılmasını, qarşıya müəyyən sanitariya tələbləri qoyulmasını, milli təhlükəsizlik standartlarını, idxal olunan məhsulların keyfiyyəti, texniki və istehlak xassələrinin tələb olunan ekoloji normalara cavab verib-verməməsinə nəzarətin həyata keçirilməsini və s. misal göstərmək olar.

**Xarici ticarət kvotası** ayrı-ayrı məhsul və xidmət növləri, habelə ölkələr və ölkə qrupları üzrə müəyyən müddət ərzində ixracın (idxalın) kəmiyyətcə və ya dəyərcə məhdudlaşdırılması deməkdir. Kvotalaşdırma tədiyyə balansı kəsirinin aradan qaldırılması ilə daha yaxşı mübarizə aparmağa imkan verir. Həm də gömrük tariflərindən fərqli olaraq kvotalardan istifadə edilməsi idxalın (ixracın) həcmini daha dəqiq məhdudlaşdırmağa şərait

yaradır. Məsələn, idxal rüsumlarının artırılması tədiyyələrin ümumi məbləğini artırsa da, idxalın həcminə təsir göstərməyə bilər. İdxal kvotalarının tətbiq edilməsi isə gətirilən malların həcminin azalmasına birbaşa təsir edir. Digər tərəfdən, idxal kvotası, kvotalaşdırılan əmtəəlr üzrə daxili bazarda rəqabət olduqda müsbət nəticə verir. Əks təqdirdə, daxili bazarı inhisarlaşdırmış müəssisə yüksək qiymətləri qoruyub saxlamaq üçün həmin məhsul üzrə süni qıtlıq yaradır.

**İxrac üzrə kvotanın** müəyyən olunmasından isə hər hansı bir əmtəənin daxili bazardakı qiyməti dünya qiymətlərindən aşağı olduqda istifadə edilir. İxrac üzrə kvota müəyyən olunmadıqda daxili bazarda həmin əmtəə üzrə qıtlıq yarana bilər. İxrac üzrə kvotanın müəyyən edilməsi ölkənin beynəlxalq öhdəlikləri ilə əlaqədardır. Bəzi əmtəə növləri (məsələn, toxuculuq sənayesi məhsulları) üzrə dünya ticarəti xüsusi beynəlxalq sazişlər əsasında tənzimlənir. Bu sazişlərdə bir sıra əmtəələrin onları istehsal edən ölkələrdən ixrac olunmasının məhdudlaşdırılması nəzərdə tutulur. Bu, öz növbəsində həmin məhsulları idxal edən ölkələrdə istehsalın müvafiq sahəsini qoruyub saxlamağa imkan verir. Ayrı-ayrı məhsul növləri üzrə (məsələn, kvotalaşdırılmış, habelə mülki və hərbi təyinatlı məhsulların, nüvə materiallarının, qiymətli metal və daşların, narkotik vasitələrin, zəhərin və i.a.) xarici ticarət əməliyyatları lisenziyalaşdırma – müəyyən olunmuş müddətdə göstərilən məhsulların idxalına (ixracına) yazılı icazə verilməsi – əsasında həyata keçirilir. Bu məhsullarla ticarət əməliyyatları təkcə iqtisadi mənafelərə deyil, həm də digər milli mənafelərə (ölkənin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, mədəni dəyərlərin qorunub saxlanması və i.a.) toxunduğuna görə bu ticarət sövdələşmələri müvafiq dövlət orqanları tərəfindən bəyənilməlidir. **Lisenziya müəyyən müddətə və yalnız bir məhsul növü üzrə verilir.**

Dövlət tənzimləməsi kapitalın idxal və ixrac olunmasına da şamil edilir. Dövlət bir tərəfdən əlverişli investisiya mühitini təmin etməli, digər tərəfdən isə özünün xüsusi mənafelərini müdafiə etməlidir. Məsələn, müştərək müəssisələrdə xarici kapitalın maksimum payını, xarici investorlar üçün sərfəli olan sahələrin

siyahısını, idarəetmədə milli kadrların iştirakını, informasiyanın əlverişliliyini və s. müəyyən etməklə dövlət özünün bütün mənafelərini müdafiə etmiş olur.

**Xarici ticarətin tənzimlənməsinin çox mühüm tərkib hissələrindən biri də** milli valyutanın dönərliliyi və valyuta məzənnələri siyasətinin yeridilməsidir. Bu, onunla əlaqədardır ki, valyuta məzənnələrinin kəskin surətdə aşağı düşməsi məhsul ixrac edən sahələrin genişlənməsini stimullaşdırır, idxalı məhdudlaşdırır və tədiyyə balansındakı çətinliklərin aradan qaldırılmasına imkan verir. Fikrimizi bir qədər də sadə şəkildə ifadə etsək, milli valyutanın – manatın – başqa ölkələrin valyutalarına nisbətdə məzənnəsinin möhkəmləndirilməsi XİF-ə və ölkənin iqtisadi inkişafına təsir edən çox mühüm amillərdən biridir. Burada iki variantın olması mümkündür. Bunlardan birini şərti olaraq **«zəif»**, digərini isə **«güclü» pul siyasəti** kimi səciyyələndirmək olar. Pulun «güclü» olması ölkədə istehsal olunan məhsulların rəqabət qabiliyyətini artırır və bu, ixrac etmək məqsədilə məhsul istehsal olunan sahələr üçün sərfəlidir. Lakin onun mənfi cəhətləri də vardır. Bu, özünü onun iqtisadiyyatın strukturunda mənfi meyllərin meydana gəlməsinə təsirində göstərir. **Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə yönəldilmiş fəal investisiya siyasəti «güclü» manat strategiyasına üstünlük verilməsini tələb edir. Lakin bu zaman manatın möhkəmləndirilməsi sürəti ilə ölkə iqtisadiyyatında aparılan dəyişikliklərin həyata keçirilməsi sürəti arasındakı uyğunluğu gözləmək lazımdır.**

XİF-in səmərəliliyinin yüksəldilməsi üçün valyuta qanunvericiliyinin liberallaşdırılması böyük əhəmiyyətə malikdir. Ölkəmizdə bununla bağlı bütün məsələlər **«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının** Qanunu ilə tənzimlənir. Müəyyən məbləğdə qızıl-valyuta ehtiyatlarına malik olan Azərbaycan Respublikasının Milli bankı valyuta bazarının tənzimlənməsində çox mühüm rol oynayır.

Hər bir ölkənin başqa ölkələrlə iqtisadi əlaqələri özünün ümumiləşdirilmiş ifadəsini **tədiyyə balansında tapır**. Bu balans beynəlxalq miqyasda kapitalın, əmtəə və xidmətlərin mübadilə-

sində ölkənin iştirakının xüsusiyyətlərini aşkara çıxaran informasiya mənbəyidir.

Tədiyyə balansında xarici iqtisadi əlaqələrdə ölkənin həyata keçirdiyi əməliyyatların sistemləşdirilmiş siyahısı verilir, xarici iqtisadi fəaliyyətin yekunları əks etdirilir, onun valyuta-maliyyə vəziyyəti qiymətləndirilir. Dövlətin xarici iqtisadi fəaliyyəti tənzimləmək üçün istifadə etdiyi tədbirlər qrupuna ixracın stimullaşdırılmasının müxtəlif formaları aiddir. Buna xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində istehsalçı şirkətlərə birbaşa təsir göstərilməsi tədbirləri də deyilir.

## 22.3. Xarici iqtisadi fəaliyyətin stimullaşdırılması

Xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi sistemində istehsalçı-subyektlərin stimullaşdırılması xüsusi yer tutur. Başqa sözlə, ixrac üçün məhsul hazırlayan istehsalatların müdafiə olunması dövlətin ümumi iqtisadi strategiyasının tərkib hissəsidir. Dövlət ixracı stimullaşdırmaqla aşağıdakı vəzifələri yerinə yetirir: **birincisi,** ixraca təsir göstərilməsi milli istehsalın məhsullarına olan tələbin genişlənməsinə səbəb olur; **ikincisi,** ixrac, ölkədə istehsal edilməyən, lakin zəruri olan məhsulları, yeni texnologiya və informasiyaları idxal etmək üçün valyutanın daxil olmasını təmin edir; **üçüncüsü,** daxil olan valyutaların artması milli borcun ödənilməsini və milli valyutanın sabitləşdirilməsini təmin edir.

Dövlət orqanları tərəfindən ixracın və milli istehsalçıların stimullaşdırılması ilə əlaqədar görülən tədbirlər çox müxtəlif xarakter daşıyır. Bunlara ixracın dövlət tərəfindən güzəştli şərtlərlə kreditləşdirilməsi (faiz dərəcələrinin azaldılması və kreditin müddətinin uzadılması), ixrac kreditlərinin dövlət tərəfindən sığortalanması, ixracın birbaşa və ya dolayı yolla subsidiyalaşdırılması və ixrac edənlər üçün müxtəlif vergi güzəştləri daxildir. Milli müəssisələrin məhsullarının ixrac edilməsinin, ticarət-iqtisadi informasiyaların əldə olunmasının, nəqliyyat və informasiya infrastrukturlarının inkişaf etdirilməsinin, yarmarka və

sərgilərin təşkilinin müxtəlif formalarından da istifadə olunur. Bunlardan bəzilərini nəzərdən keçirək.

**İxracın birbaşa subsidiyalaşdırılması xaricə mal ixrac** edən milli istehsalçıların maddi cəhətdən stimullaşdırılması və onların məhsullarının qiymət sahəsində rəqabət qabiliyyətinin yüksəldilməsinin ən sadə və ənənəvi üsuludur. O, firma və şirkətlərə mənfəət əldə etmək üçün istehsal etdikləri məhsulların maya dəyəri ilə ixrac qiymətləri arasındakı fərqi aradan qaldırmaq məqsədilə müəyyən məbləğdə ödəmələr şəklində həyata keçirilir. Hazırda ondan əsas etibarilə kənd təsərrüfatı məhsullarının ixracı zamanı istifadə olunur. Bununla əlaqədar olaraq Tariflər və Ticarət üzrə Baş sazişdə (QATT – indiki Ümumdünya Ticarət Təşkilatı - ÜTT) iştirakçı dövlətlərə ixracın subsidiyalaşdırılmasının məhdudlaşdırılması tövsiyə olunur. Məhsul idxal edən ölkənin iqtisadiyyatı məhsul ixracından ziyan çəkdiyi hallarda bu razılaşmada həmin ölkəyə gətirilən məhsullara görə kompensasiya rüsumu tətbiq olunmasına icazə verilir.

Büdcədən birbaşa dotasiyalarla yanaşı, ixracın stimullaşdırılması üçün dolayı üsullardan da istifadə olunur. Məhsul ixrac edənlərin dolayı yolla subsidiyalaşdırılması kommersiya bankları tərəfindən həyata keçirilir. Bu məqsədlə, dövlət, kommersiya banklarına kredit dərəcələrinin azaldılması üçün xüsusi vəsait ayırır. Məhsul ixracatçılarına edilən vergi güzəştləri, onların idxal etdikləri xammal və materiallara qoyulan rüsumlardan azad olunması (və ya onların ödədikləri rüsumların geri qaytarılması), dövlət şirkətləri (nəqliyyat, energetika və i.a.) üçün tariflərin aşağı salınması, həmçinin yüksək qiymətlərlə dövlət sifarişlərini (hərbi məhsullara olan sifarişlər də daxil olmaqla) də dolayı subsidiyalaşdırmaya aid etmək olar.

**Vergi güzəştləri bir çox hallarda vasitəçi təşkilatlara verilir.** Məsələn, ABŞ qanunvericiliyinə uyğun olaraq milli korporasiyalar ölkədən ixrac olunan məhsulların, onların təsis olunduğu ölkədən yan keçməklə istənilən məntəqədə satışının təşkili üçün 5% vergi güzəşti əldə edirlər. Bu zaman xaricdə maliyyə hesabatı aparılmamalı və bu korporasiyaların başçıları ABŞ-ın rezidenti olmamalıdırlar. Keçən əsrin 80-ci illərinin axırlarında əsas

etibarilə Virgin, Guam və Barbados adalarında yerləşən 3000-dən çox belə korporasiya fəaliyyət göstərmişdir.

**Məhsul ixrac edənlərin müdafiə olunmasının mühüm vasitələrindən biri də onların kreditləşdirilməsidir**. Daxili və xarici kreditlərşdirmə bir-birindən fərqlənir. Daxili kredit milli və dönərli valyuta ilə ixrac yönümlü məhsul istehsalı ilə məşğul olan sahələrin inkişaf etdirilməsi üçün dövlət bankı tərəfindən orta (5 ilədək) və uzun (20-30 ilədək) müddətə, sabit faiz dərəcələri və əlverişli şərtlərlə verilir.

**Xarici kreditləşdirmə** məhsul idxal edənlərə maliyyə vəsaiti və əmtəə kreditləri formasında verilir. Dövlət, büdcədən həm firmaların, həm də bankların kredit vermələri üçün subsidiya ayırır. Bunlar məqsədli xarakter daşıyır və xarici alıcılar tərəfindən yalnız məhsul ixrac edən firmanın məhsullarının tədarük edilməsi üçün istifadə olunmalıdır. Məsələn, ABŞ və Yaponiyada xarici ticarətin kreditləşdirilməsi ilə ixrac-idxal bankı, Fransada xarici ticarət üçün Fransa bankı, Almaniyada «Ausfurkreditaq» bankı məşğul olur. ABŞ-ın idxal-ixrac bankı xarici istehlakçılar və ya ticarət vasitəçilərinə amerikanın uzunmüddətli investisiya əmtəələrini (xidmətləri) əldə etmək üçün 5 ildən 10 ilədək müddətə 5 mln. dollardan az olmayan uzunmüddətli kredit verir. Yaponiyanın idxal-ixrac bankı isə krediti kommersiya bankları ilə birlikdə verir. Kredit həm mal göndərənlərə (idxal-ixrac bankının payı adətən 70%-ə bərabərdir), həm də istehlakçılara (60%) verilir. Faiz dərəcələri bir qayda olaraq bazarın faiz dərəcələrindən aşağı olur. Kreditin müddəti 6 aydan 15 ilədəkdir.

İxracın dövlət tərəfindən stimullaşdırılmasının ənənəvi vasitələrindən biri də məhsul ixrac edən subyektlərin müxtəlif risklərdən qorunması üçün ixrac kreditlərinin sığortalanması və onlara təminat verilməsidir. İxracın sığortalanmasının iki istiqaməti vardır. **Bunlardan biri daxili, digəri isə xarici sığortalamadır.** Daxili sığortalama ixrac olunmaq üçün məhsul istehsalına qoyulan böyük məbləğdə kapitala görə gözlənilən itkilərin azaldılması məqsədilə büdcə vəsaiti hesabına dövlət tərəfindən həyata keçirilir. Dövlət büdcə vəsaiti hesabına həm də xarici sığortalamanı həyata keçirməklə ixrac üzrə siyasi və kommersiya risklərinin bi

hissəsini öz öhdəsinə götürür. **Siyasi risklərə müharibələr, hökumət çevrilişləri, siyasi vəziyyətin kəskin surətdə dəyişməsi, tətillər və s. aiddir**. Bütün bunlar müqavilələrin yerinə yetirilməsini ya çətinləşdirir, ya da pozur. **Kommersiya risklərinə isə** valyuta məzənnələrinin dəyişməsi, müflisləşmə, gömrük və vergi sistemində baş verən dəyişikliklər və s. aiddir.

İxrac əməliyyatlarının sığortalanmasını büdcədən yardım alan dövlət təşkilatları, yaxud da firma və korporasiyalar həyata keçirirlər. Məsələn, ABŞ-ın ixrac-idxal bankı xüsusi sığorta şirkətlərini birləşdirən ixrac kreditlərini sığortalayan Assosiasiya ilə əməkdaşlıq şəraitində bu cür fəaliyyət göstərir. Onlar ABŞ-da istehsal olunmuş məhsulların ixrac edilməsi üçün verilmiş krediti birlikdə sığortalayırlar. ABŞ-ın ixrac-idxal bankı kommersiya və siyasi risklərlə əlaqədar verilən uzunmüddətli kreditləri 100% sığortalamaq səlahiyyətinə malikdir. Orta müddətli kredit sənaye məhsullarının dəyərinin 90%-i, kənd təsərrüfatı məhsullarının dəyərinin isə 98%-i həddində sığortalana bilər. Dövlət sığorta təşkilatları bir qayda olaraq sığorta faizlərini xüsusi sığorta firmalarına nisbətən xeyli aşağı müəyyən edirlər. Məsələn, bu, ABŞ-da müqavilənin dəyərinin 1-2%-ni, Yaponiyada isə 0,3%-ni təşkil edir.

Sənaye məhsulları istehsalçılarının rəqabət qabiliyyəti üçün çox mühüm şərtlərdən biri də bazar, rəqiblərin imkanları və davranışları, yeniliklər haqqında məlumatların olmasıdır. Çünki bunlar xarici mühit, cari məqamda və perspektivdə onun inkişaf meylləri barədə tam təsəvvür əldə olunmasına imkan verir. Yalnız belə bir şəraitdə istehsalçı şirkətlər hər cür gözlənilməz hadisələrdən sığortalana və səmərəli elmi-texniki istehsal, satış siyasəti yeridə, rəqiblərinin hər cür «hücumlarına» sinə gərə bilər.

**XİF-in dövlət tərəfindən tənzimlənməsinin inzibati və iqtisadi metodları ilə birlikdə təşkilati, statistik, tədqiqat və informasiya işləri aparılır.** Dövlət orqanları ixracatçılara informasiya və məsləhət xidməti göstərirlər. Onlar statistik materialları toplayır, XİF-in cari vəziyyəti və inkişaf perspektivlərini təhlil edir, sorğu-məlumat kitabları nəşr etdirirlər. Səfirliklərin, ticarət və dövlət xidməti nümayəndəliklərinin köməyi ilə kommersiya fəaliyyə-

ti haqqında informasiyalar toplanır. Məsələn, Fransanın xarici ticarət mərkəzi müxtəlif növ informasiyaların (iqtisadi, kommersiya, sahə, xarici bazarlar və i.a.) əldə edilməsində ixrac edənlərə yardım edir, bazarı öyrənməkdə (işgüzar müqavilələrin təşkili, məhsulların keyfiyyətinin standartlara cavab verməsi və i.a.) onlara kömək göstərir. Bunların hamısı pulsuz yerinə yetirilir.

Dövlət orqanları həmçinin işgüzar dairələrin nümayəndələrini iqtisadiyyatda, elm və texnikada qazanılan nailiyyətlərlə tanış etmək üçün **sərgilər, beynəlxalq simpoziumlar, konfranslar təşkil etmək, xaricdə ticarət, ticarət-informasiya mərkəzləri yaratmaq yolu ilə xarici bazarlarda milli məhsulların irəlilədilməsini həyata keçirirlər.** Həm də dövlət idarələrinin himayəsi ilə biznesmenlərin xarici ölkələrə səfərləri təşkil olunur.

Xarici ölkələrdə məhsul ixrac edənlərin mənəvi həvəsləndirilməsi sistemi də inkişaf etmişdir. Bu sistemdə milli müsabiqələr təşkil edilir, qaliblər medal və diplomlarla təltif olunur. Bu mükafatlara sahib olmaq şirkətlərin nüfuzunu yüksəldir, onun məhsullarının rəqabət qabiliyyətinin artırılması üçün əlavə stimul yaradır. Beləliklə, bütün bunlara əsasən demək olar ki, dövlət bazar iqtisadiyyatı şəraitində XİF-ə təsir göstərmək üçün geniş imkanlara malikdir.

## 22.4. Dünya təsərrüfatının qloballaşdığı müasir şəraitdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi

Ölkənin bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçməsinin ən mühüm və zəruri şərtlərindən biri də onun dünya iqtisadiyyatına inteqrasiya olunmasıdır. Bunun əsas səbəbi isə təsərrüfat həyatının beynəlmiləlləşməsi prosesinin daha da inkişaf etməsi və özünün qloballaşma adlanan yeni mərhələsinə daxil olmasıdır.

Müasir dövrdə qloballaşma prosesi dünya iqtisadiyyatında gedən qanunauyğun dəyişikliklərin və onların inkişaf meylləri

nin əsasını təşkil edir. Dünya ölkələri arasında qarşılıqlı əlaqə və asılılıqların artması ilə müşayiət olunan dünya təsərrüfat əlaqələrinin genişlənməsi qloballaşma prosesinin mahiyyətini təşkil edir.

Qloballaşma beynəlxalq miqyasda qabaqcıl texnologiyaların yayılması, habelə kapitalın, əmtəə və xidmətlərin axınının sürətlənməsi nəticəsində dünya iqtisadiyyatına daxil olan ölkələrin sayının artması və onların arasındakı qarşılıqlı asılılıqların güclənməsi prosesidir. Və hazırda ölkələr arasındakı təsərrüfat əlaqələri keyfiyyətcə yeni mərhələyə daxil olmuş, dünya iqtisadi birliyi milli təsərrüfatlar üçün davranış qaydalarını müəyyən edən bütöv bir iqtisadi sistemə çevrilmişdir.

Bu, təsərrüfat həyatının beynəlmiləlləşməsinin davamı, onun yeni mərhələsidir. Qloballaşma prosesi üçün hər şeydən əvvəl beynəlxalq ticarətin, maliyyə və investisiya axınının üstün artması səciyyəvidir. Bu, o deməkdir ki, **müasir şəraitdə milli dövlətlər qloballaşma prosesini nəzərə almadan ölkənin iqtisadi həyatını tənzimləyə bilməzlər.** Bununla əlaqədar olaraq xarici amillərin təsirinin gücləndiyi indiki şəraitdə iqtisadiyyatı sabit inkişaf edən ölkələrdə dövlətin tənzimləyici rolu aşağı düşməyə doğru meyl edir.

Qloballaşma ictimai fəaliyyətin əsas sahələrinə təsir etməklə, iqtisadi çərçivədən çıxır. Onun güclənməsi dünya inkişafının obyektiv amilləri, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, nəqliyyat və rabitə sahələrində elmi-texniki tərəqqinin geniş vüsət alması ilə əlaqədardır.

Qloballaşmanın hərəkətverici qüvvəsi isə transmilli şirkətlərdir.

Milli dövlətlər həm tərəfdaş, həm də rəqib olan transmilli şirkətlərlə getdikcə daha çox hesablaşırlar. Ona görə ki, onların ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarına təsir dairəsi getdikcə genişlənir. Lakin həm də qeyd etmək lazımdır ki, qloballaşma prosesi birtərəfli getmir. Bununla paralel olaraq inkişaf səviyyələri təqribən eyni olan ölkələrin ticarət-iqtisadi birliklərinin yaradılması prosesi də gedir. **Bu isə dünya iqtisadiyyatının regionlaşmasının gücləndiyini göstərir.**

Qloballaşma prosesində inkişaf etmiş ölkələr üstünlüyə malik olurlar. Çünki bu proses onlar üçün təsərrüfat fəaliyyətinin vahid standartlarla aparılmasının iqtisadi məkanını genişləndirir.

Qloballaşma prosesi ümumiyyətlə milli iqtisadi, xüsusilə də xarici iqtisadi siyasətdə dəyişikliklər edilməsini və yeni yanaşma metodlarından istifadə olunmasını tələb edir. **Bütün dünyada olduğu kimi, ölkəmizdə də xarici iqtisadi siyasətdə dövlətin rolu kəskin surətdə dəyişmişdir.** Ticarət fəaliyyəti üzərində dövlət inhisarının aradan qaldırılması və azad ticarətə keçilməsi müstəqillik dövründə ölkəmizdə nəzərə çarpan ən böyük dəyişikliklərdən biridir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində xarici ticarət siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi iqtisadiyyatımızda aparılan islahatlarla əlaqədar olmuşdur. Bu zaman görülən ən mühüm tədbirlərdən biri kimi xarici iqtisadi fəaliyyətin liberallaşdırılmasını qeyd etmək olar. Dövlət, xarici iqtisadi fəaliyyətin çoxsaylı subyektlərindən biridir. Müəssisələr özlərinin təsərrüfat fəaliyyətlərində ölkədaxili tələb və təklifə ümid etməklə yanaşı, həm də xarici bazara çıxmaq imkanı əldə etmişlər.

Xarici iqtisadi fəaliyyətin liberallaşdırılması həmçinin ölkəmizin, milli iqtisadiyyatların açıq olması meylinin inkişaf üçün səciyyəvi olduğu dünya təsərrüfat əlaqələri sisteminə qoşulmasının zəruriliyi ilə əlaqədar olmuşdur. Bütün bunları nəzərə alaraq demək olar ki, müasir dövlətlərin xarici iqtisadi siyasəti azad ticarətin və himayədarlığın təmin olunması metodlarının əlaqələndirilməsi əsasında qurulur. Bunlar arasındakı nisbət konkret iqtisadi şəraitdə ölkənin mənafeləri ilə müəyyən edilir.

Rəqabət qabiliyyətinin yüksək səviyyədə olduğu inkişaf etmiş ölkələrdə və gətirilən məhsulların daxildə istehsal olunan məhsullarla rəqabətə girmədiyi, yaxud da çox böyük əhəmiyyətə malik olan sahələr üçün xammal hesab edildiyi ölkələrdə xarici iqtisadi siyasətdə azad ticarətə üstünlük verilir.

**Himayədarlıq siyasətindən** öz iqtisadiyyatında struktur dəyişiklikləri aparan, böhran və iqtisadi durğunluq, yaxud da tənəzzüllə üzləşən ölkələrdə daha geniş istifadə olunur. İqtisadiyyatını bazar münasibətləri əsasında yenidən quran ölkəmiz

üçün xarici iqtisadi əlaqələrdə hələlik himayədarlıq siyasətinin yeridilməsi daha münasibdir.

**Xarici iqtisadi siyasətin əsas problemlərindən biri də** iqtisadiyyatın açıq olması ilə milli təhlükəsizliyin əlaqələndirilməsidir. Bu o deməkdir ki, xarici iqtisadi fəaliyyətin bundan sonra daha da liberallaşdırılması milli təhlükəsizlik konsepsiyası ilə elə uzlaşdırılmalıdır ki, sabit artımın təmin olunması və milli istehsalın strukturunun yenidən qurulması vəzifələrinin yerinə yetirilməsi üçün ölkəmizin xarici iqtisadi amillərdən asılılığı təhlükəli xarakter almasın. **Hazırda dünya iqtisadiyyatında qloballaşmanın gedişində xarici amillərin ölkə təsərrüfatına mənfi təsiri ehtimalı artmışdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi də bununla əlaqədardır.** İqtisadi təhlükəsizlik anlayışı hamı tərəfindən eyni cür başa düşülmür. Lakin buna baxmayaraq onu müəyyən edən meyar və göstəricilər sisteminin aşağıdakılardan ibarət olduğunu demək olar:

- İqtisadiyyatın geniş təkrar istehsalı təmin etmək imkanlarının olması. Bu o deməkdir ki, ÜDM elə bir həcmdə olmalıdır ki, o, müasir rəqabət şəraitində ölkə iqtisadiyyatının müstəqil inkişaf etdirilməsinə, investisiyalara və onların maliyyələşdirilməsinə imkan versin;
- Sənayedə yüksək texnologiyaya malik emaledici, o cümlədən elmtutumlu sahələrin xüsusi çəkisi;
- Əhalinin əsas hissəsinin həyat səviyyəsi (yoxsulluq həddi);
- Təbii-ekoloji potensialın təkrar istehsalı;
- Dövlətin maddi, qızıl-valyuta və maliyyə ehtiyatlarının həcmi.

Bu hüdudlardan kənara çıxıldıqda təkrar istehsalın normal gedişinə maneələr meydana çıxa, mənfi meyllər özünü göstərə bilər.

**Ölkənin milli təhlükəsizlik məsələləri nəzərdən keçirilərkən aşağıdakılara xüsusi diqqət yetirilməlidir**:

- Ölkənin inkşiaf etmiş ölkələr üçün xammal bazasına çevrilməsi;
- Məhsul idxalına görə xaricdən asılılığın güclənməsi;

- Kapitalın ölkədən «axıb» getməsi;
- Dövlətin xarici borcunun artması;
- İqtisadiyyatın həddindən çox açıq olması.

**Mütəxəssislərin çoxu** təhlükəsizlik səviyyəsinin hüdudunun daxili istehlakda idxalın xüsusi çəkisinin 30%-ə, o cümlədən ərzaq məhsulları üzrə 25%-ə bərabər olmasını **normal hesab edirlər.**

Ölkənin xarici borcu xüsusi diqqət tələb edir. Çünki bu borc üzrə tədiyələr ölkənin xarici iqtisadi fəaliyyətdən daxil olan gəlirlərinin təqribən 20-30%-ni təşkil edirsə, xaricdən yeni borcun alınması çətinləşir. Daha doğrusu, ya borc vermək istəmirlər, ya da girov tələb etməklə onu yüksək faizlə verirlər.

**Borclu ölkələr adətən ümidsiz borclular siyahısına düşmək istəmirlər.** Çünki bu, xarici maliyyə ehtiyatlarının ölkəyə gəlməsinə mane olur. Belə bir vəziyyətə düşməmək üçün aşağıdakı yollardan istifadə oluna bilər:

- ölkə, borcunu özünün qızıl-valyuta ehtiyatları hesabına ödəyir;
- kreditorların razılığı ilə xarici borcun vaxtı uzadılır;
- xarici borc uzunmüddətli xarici investisiyaya çevrilmək yolu ilə azaldılır;
- ağır vəziyyətə düşən borclu ölkə beynəlxalq banklardan güzəştli şərtlərlə kredit alır.

**Dövlət, xarici borcla əlaqədar iqtisadi təhlükəsizlik səviyyəsinə xarakteristika vermək üçün aşağıdakı iki göstəricidən istifadə edir:**

- xarici borcun kəmiyyətinin ixrac olunan əmtəə və xidmətlərin kəmiyyətinə olan nisbəti;
- borcun qaytarılması əmsalı (bu göstərici borca görə ödənilən faiz məbləğinin ixrac olunan əmtəə və xidmətlərin dəyərinə olan nisbəti kimi hesablanır). **Birinci göstərici üzrə 300%, ikinci göstərici üzrə isə 25% təhlükəli səviyyə hesab edilir.**

Ölkədən kapital axınının düzgün müəyyən edilməsi bir qədər çətindir. Lakin bazar iqtisadiyyatının yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə kapitalın xaricə axını normal hal hesab olunur

Çünki kapital mənfəət norması daha yüksək və deməli, daha çox mənfəət əldə edilməsi mümkün olan ölkələrə axır.

Ölkədən gizli yollarla müxtəlif formalarda kapital axını baş verir. Bunlar özünü ixracdan gələn gəlirin qaytarılmasında, əmtəə və xidmətlərin saxta yollarla idxalında, qaçaqmalçılıqda, qiymətlərdə hiyləgərlikdə və s. göstərir. Ölkədə nəqd formada xarici valyutanın yığımı da kapital «axını»na aid edilir.

Bütün bunlara əsasən belə bir nəticə çıxarmaq olar ki, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması müasir dövlətin ən mühüm vəzifəsidir və bu məqsədlə səmərəli qabaqlama tədbirləri görülməlidir.

Ölkədən kapital axınının qarşısının alınması üçün iki yanaşma qaydasından istifadə olunması, başqa sözlə, iki üsulla fövqəladə tədbir görülməsi məqsədəuyğundur. **Bunlardan biri liberal-bazar, digəri isə inzibati-dövlət tədbirləri adlanır. Birinci yanaşmanın** tərəfdarları belə hesab edirlər ki, ölkədən kapital axını əsas etibarilə bazar iqtisadiyyatının kifayət dərəcədə inkişaf etməməsi ilə bağlıdır və gələcəkdə öz-özünə həll ediləcəkdir. Həm də onların fikrincə inzibati vasitələr əksəriyyət hallarda səmərəli olmur, kapitalın axınını bir qədər azaltsa da, onun qarşısını ala bilmir.

**İnzibati-dövlət yanaşmasının** tərəfdarları isə kapital axınının əsas səbəbini iqtisadiyyatda cinayətkarlığın və xarici iqtisadi fəaliyyətdə sui-istifadə hallarının artmasında görürlər. Onlar xarici iqtisadi fəaliyyətdə dövlət nəzarətinin təkmilləşdirilməsini və kapitalın geri -öz vətəninə qaytarılmasının stimullaşdırılması üçün konkret addımlar atılmasını təklif edirlər. Qeyd etmək lazımdır ki, dünya təcrübəsində belə hallara rast gəlinmişdir. Bu məqsədlə qeyri-qanuni yolla xaricə axıb getmiş kapitala görə amnistiya elan edilməsi variantlarından istifadə olunması mümkündür. Mütəxəssislərin fikrincə ölkədən kapital axınının qarşısının alınmasında qeyri-qanuni xarici iqtisadi sövdələşmələrin (məsələn, qaçaqmalçılıq, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ticarəti və i.a.) aradan qaldırılması da müsbət nəticələr verə bilər.

xarici bazara çıxmadan, digər ölkələrlə iqtisadi əlaqələrə girmədən daxili bazarın müxtəlif növ əmtəələrlə doldurulması və deməli, əmtəə qıtlığının və sosial gərginliyin aradan qaldırılması mümkün deyildir. Bununla əlaqədar olaraq müstəqillik şəraitində ölkəmizdə həyata keçirilən tədbirlərdən biri də xarici iqtisadi fəaliyyətin liberallaşdırılması olmuşdur. Lakin bu proses öz-özünə baş vermir, dövlət tərəfindən tənzimlənir;

ölkələr arasında qarşılıqlı əlaqələrin dərinləşməsi istehsalın daim inkişaf etməkdə olan beynəlmiləl xarakterinə əsaslanır. Bunun əsasını isə beynəlxalq əmək bölgüsü təşkil edir. Başqa sözlə, BƏB-in təsiri ilə istehsalın beynəlmiləlləşməsi ölkənin hüdudlarından kənarda sahibkarlığın inkişafına gətirib çıxarır;

XİF-in intensivliyi, quruluşu və coğrafi istiqaməti xeyli dərəcədə dövlətin istifadə etdiyi tənzimləmə metodlarından, bu sahədə milli hüquq normalarından asılıdır;

ölkəmizdə XİF-in tənzimlənməsi ilə İqtisadi İnkişaf və Kənd Təsərrüfatı Nazirlikləri, Dövlət Gömrük Komitəsi, Milli bank və müvafiq icra hakimiyyəti orqanları məşğul olurlar;

dövlət, XİF-i tənzimləmək üçün ümumi və xüsusi xarakterli tədbirlərdən, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində istehsalçı firma və şirkətlərə birbaşa təsir göstərilməsi vasitələrindən istifadə edir. Burada gömrük-tarif və qeyri-tarif tənzimləmələri, valyutanın dönərliliyi və valyuta məzənnələri də xüsusi rol oynayır;

tutulma formalarına görə gömrük vergilərinin advaler xüsusi və qarışıq növləri vardır. Azərbaycanda gömrük vergilərinin növləri müəyyən edilərkən beynəlxalq təcrübədən istifadə olunmuşdur. Yəni ölkəmizdə də vergilərin eyni növləri mövcuddur;

milli valyutanın – manatın – başqa ölkələrin valyutalarına nisbətdə məzənnəsinin möhkəmləndirilməsi və valyuta qanunvericiliyinin liberallaşdırılması XİF-ə və ölkənin iqtisadi inkişafına təsir edən çox mühüm amillərdir. Ölkəmizdə bununla bağlı

bütün məsələlər «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir;

XİF-in dövlət tərəfindən tənzimlənməsi sistemində istehsalçıların stimullaşdırılması xüsusi yer tutur. Burada hər şeydən əvvəl ixracın birbaşa subsidiyalaşdırılması, vergi güzəştləri, xarici kreditləşdirmə və onun sığortalanması və s. nəzərdə tutulur.

XİF-in dövlət tərəfindən tənzimlənməsinin inzibati və iqtisadi metodları ilə birlikdə, təşkilati, statistik, tədqiqat və informasiya işləri də aparılır. Belə ki, dövlət orqanları ixracatçılara informasiya və məsləhət xidməti göstərirlər;

dövlət orqanları işgüzar dairələrin nümayəndələrini müxtəlif sahələrdə (iqtisadiyyat, elm, texnika və i.a.) qazanılan nailiyyətlərlə tanış etmək üçün sərgilər, beynəlxalq simpoziumlar, konfranslar təşkil edir, ticarət mərkəzləri yaradır, bizneslə məşğul olanların xarici ölkələrə səfərlərini təşkil edirlər;

XİF-in əsas problemlərindən biri də iqtisadiyyatın açıq olması ilə əlaqələndirilməsidir. Çünki ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması hər bir dövlətin, o cümlədən də Azərbaycan dövlətinin ən mühüm vəzifəsidir və bu məqsədlə həmişə səmərəli qabaqlama tədbirləri görülməlidir.

# XXIII FƏSİL

# XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN FORMALAŞMASI VƏ İNKİŞAF ETMƏSİNDƏ DÖVLƏTİN ROLU

## 23.1. Müasir dövrdə dünya təsərrüfat əlaqələri mühitinin dəyişməsi və əsas inkişaf meylləri

Dövlətin xarici iqtisadi siyasətinin fundamental əsaslarının, onun həyata keçirilməsinin strateji və taktiki vasitələrinin işlənib hazırlanması ölkəmizin də daxil olduğu dünya təsərrüfatındakı mövcud mühitin öyrənilməsi və onun haqqında müəyyən məlumatların toplanmasını zəruri edir.

Dünya təsərrüfatı dinamik inkişaf edən bir sistemdir. XX əsrin ikinci yarısı istehsalın, xidmətlərin, kapitalın, texnologiyaların transferti, beynəlxalq iqtisadi təşkilatların rolunun güclənməsi və maliyyə-kredit sahələrinin liberallaşdırılması proseslərinin beynəlmiləlləşməsi və transmilliləşməsinin artması ilə səciyyələnir. Həm də qeyd etmək lazımdır ki, belə qlobal dəyişikliklər yeni infrastrukturların yaradılmasına əsaslanır.

**İstehsalın beynəlmiləlləşməsi müxtəlif ölkələrin milli təsərrüfatları arasında əlaqələrin meydana gəlməsi və dərinləşməsini ifadə edən obyektiv prosesdir**. O, dünya miqyasında ictimailəşmənin spesifik forması olmaqla, məhsuldar qüvvələri və iqtisadi münasibətləri əhatə edir, bütün sahələrdə – istehsal, bölgü, mübadilə və istehlak – özünü göstərir. İstehsalın beynəlmiləlləşməsi həm də beynəlxalq iqtisadi münasibətlərin inkişaf etdirilməsinin obyektiv əsasıdır. Bunlar ayrı-ayrı ölkələr arasında meydana çıxan iqtisadi münasibətlərin obyektiv xarakter daşıdığını göstərir.

İctimai əmək bölgüsünün daim dərinləşməsi, onun nəticələrinin mübadiləsi və qarşılıqlı fəaliyyətin müxtəlif formalarının inkişaf etməsi dünya təsərrüfat sisteminin bütövlüyünün (yerli, milli və dünya miqyasında) və onun subyektləri arasında daxili qarşılıqlı əlaqələrin güclənməsinə təsir göstərir.

Dünya təsərrüfatının meydana gəlməsi ilə beynəlxalq miqyasda milli xammal və maliyyə ehtiyatlarının, hazır məhsul və

xidmətlərin, biliklərin, texniki və təşkilati təcrübənin müəyyən hissəsinin ölkələrarası dövriyyəsi mümkün olmuşdur.

Beləliklə, təsərrüfat həyatının beynəlmiləlləşməsi ayrı-ayrı ölkələrin müəssisələri arasında istehsalda qarşılıqlı asılılığın, beynəlxalq əmtəə dövriyyəsinin, kapitalın beynəlxalq miqyasda hərəkəti və işçi qüvvəsinin miqrasiyasının artması, başlıca iqtisadi proseslər, o cümlədən qiymətlərin və faiz dərəcələrinin müəyyən olunması sahəsində milli iqtisadiyyatların bir-birinə yaxınlaşmasına səbəb olur. Və deməli, **bunun nəticəsində ayrı-ayrı ölkələrdə istehsal prosesləri qloballaşır.** Beynəlmiləlləşmə və qloballaşma anlayışları bir-birilə çox sıx bağlı və hətta demək olar ki, eyni məzmuna malik olsalar da, onları bir-birindən fərqləndirmək lazımdır. Belə ki, **qloballaşma beynəlmiləlləşmənin yeni mərhələsidir** və onun səciyyəvi cəhəti ondan ibarətdir ki, bu prosesə getdikcə daha çox ölkələr meyl edirlər. Bundan başqa beynəlmiləlləşmənin qloballaşma adlandırılan indiki mərhələsində dünyada texnoloji, ekoloji, statistik və mühasibat uçotu, maliyyə münasibətləri sahəsində vahid beynəlxalq standartlar tətbiq olunur, makroiqtisadi siyasətdə yeni standartlardan istifadə edilir, vergi siyasəti qarşısında qoyulan tələblər və əhalinin məşğulluğu sahəsində aparılan siyasət vahid şəklə salınır və s. və i.a.

Lakin təbiidir ki, bunlar birdən-birə meydana gəlib formalaşmamışdır. Başqa sözlə, bir neçə yüzilliklər ərzində milli-dövlət formaları cəmiyyətin təsərrüfat, sosial-mədəni həyatının ən əlverişli forması olmuşdur. **Lakin tarixi təcrübə göstərir ki,** bir sıra səbəblər üzündən ölkələrin bir-birindən təcrid olunmuş halda inkşaf etməsi və öz tələbatını tamamilə yerli istehsal hesabına ödəməsi mümkün və iqtisadi cəhətdən səmərəli deyildir.

Odur ki, tarixi inkşafın gedişində cəmiyyətin məhsuldar qüvvələri inkşaf etdikcə, əmək bölgüsünün dərinləşməsi prosesi davam etmiş, onun subyektləri arasındakı qarşılıqlı əlaqələr artmış, ictimai həyatın təsərrüfat, mədəni, elmi və digər sahələrinin beynəlmiləlləşməsi prosesi dərinləşmişdir. Bununla yanaşı zaman keçdikcə məhsuldar qüvvələrin inkşaf etməsi milli dövlət çərçivəsinə sığmamış və bu çərçivədən kənara çıxmışdır. Beynəlxalq əmək bölgüsünün daim dərinləşməsi yeni, ən əlverişli və sürətli rabitə

vasitələri, beynəlxalq telekommunikasiya infrastrukturunun fasiləsiz olaraq inkişaf etməsi və təkmilləşdirilməsi, müxtəlif ölkələrin vətəndaşlarının elm, mədəniyyət, diplomatiya, turizm və s. sahələrdə geniş miqyaslı şəxsi görüşləri - bütün bunlar dövlətlərarası münasibətləri dərinləşdirir və möhkəmləndirir.

Beləliklə, yalnız texnikada deyil, həm də idarəetmədə əldə edilən nailiyyətlərin təsiri ilə sürətlə inkşaf edən təsərrüfat həyatının beynəlmiləlləşməsi prosesi dünya iqtisadiyyatını keyfiyyətcə yeni mərhələyə çıxarmışdır. Hazırda demək olar ki, dünyada iqtisadi, maliyyə, informasiya, nəqliyyat və telekommunikasiya sistemləri formalaşmış və ayrı-ayrı ölkələrin bu məkandan kənarda inkşafı mümkün deyildir. Bu isə o deməkdir ki, **müxtəlif ölkələrin milli təsərrüfatları vahid dünya iqtisadiyyatının tərkib hissələrinə çevrilmişlər.**

**Qloballaşma XXI əsrdə dünya qaydalarını müəyyən edən ən mühüm hadisələrdən biridir.** «Qloballaşma» anlayışında təsərrüfat həyatının beynəlmiləlləşməsi prosesinin keyfiyyətcə yeni mərhələsi öz əksini tapmışdır. Bu, özünü onda göstərir ki, beynəlmiləlləşmənin ənənəvi amillərinə - beynəlxalq əmək bölgüsünün dərinləşməsi və dünya bazarının inkşafı - yeniləri əlavə olunmuşdur. Bunlara kosmik texnika sahəsində iri layihələrin həyata keçirilməsi, dünyəvi problemlərin həll edilməsi üçün ölkələrin səylərinin birləşdirilməsinin zəruriliyi, dünya iqtisadi infrastrukturunun yaradılması, istehsalın, nəqliyyat və rabitənin standartlaşdırılması, qlobal ekoloji problemlərin həll edilməsi, ölkələrin mümkün olan təbii və texnogen hadisələr haqqında bir-birilərini məlumatlandırmaları və s. aiddir.

Qloballaşma sadəcə olaraq müxtəlif ölkələrin sosial,iqtisadi və başqa subyektləri arasında münasibətlərin müəyyən olunmasında rol oynamır, o, həm də milli dövlətlərin qanunları və normalarına nisbətən dünyəvi qaydaların əhəmiyyətinin kəskin surətdə artmasına səbəb olur. Bunun nəticəsində milli miqyasda həyata keçirilən işlər beynəlmiləl miqyas, o, isə öz növbəsində ümumdünya miqyası alır.

**Dünyada müşahidə olunan** meyllərlə milli mənafelərin toqquşması nəticəsində beynəlxalq iqtisadi münasibətləri və davra-

nış qaydalarını tənzimləyən, habelə hər bir ölkəyə təsir etmək iqtidarında olan qlobal və regional struktur və təşkilatlar sistemi meydana gəlmişdir.

Lakin vahid dünya təsərrüfat məkanının formalaşması ziddiyyətli gedir. Bu, özünü onun ikili təbiətə malik olmasında göstərir. Bir tərəfdən müxtəliflik azaldıqca qloballaşma, universallaşma və vahid şəklə salınma prosesi gedir, bir sıra ümumi prinsiplər və qaydalar, bəzi ümumi məqsədlər əsasında fəaliyyət göstərən iqtisadi mühit (ayrı-ayrı ölkələrdə, regionlarda və bütövlükdə dünyada) formalaşır, digər tərəfdən isə mədəniyyətlərin, davranış normalarının müxtəlifliyinə, həmçinin həyat tərzi və həyat səviyyəsindəki fərqin artmasına təsir edən yerli meyllər özünü biruzə verir. Müasir inkşafdakı inteqrasiyanı və buna uyğun gəlməyən meylləri həm stimullaşdıran, həm də buna əks istiqamətdə fəaliyyət göstərən və onu gücləndirən, deməli sağlam mühakiməyə zidd olan qəribə fikirlər də buradan meydana çıxır.

Müxtəlif istiqamətlərdə fəaliyyət göstərən qlobal və yerli qüvvələrin qarşılıqlı fəaliyyəti özünü dünya təsərrüfat əlaqələrinin obyektləri və subyektlərinin təkamülündə, beynəlxalq əmək bölgüsünün strukturunda baş verən dəyişikliklərdə və bunlara uygun olaraq XİF-in dövlət tərəfindən tənzimlənməsinin forma və metodlarının təkmilləşdirilməsində göstərir.

Texnoloji inqilabın təsiri ilə hazırda beynəlxalq əmək bölgüsü yalnız ümumi formada (sahələr üzrə) deyil, həm də xüsusi (sahədaxili, predmet üzrə) və fərdi (detal və hissələr üzrə) formalarda həyata keçirilir. Bundan başqa, müxtəlif ölkələrin firmaları arasında son məhsul buraxılışı üzrə dərin və sabit istehsal-texniki əlaqələr müəyyən edilir. Avtomabil, elektrotexnika, kompüter, kimya-əczaçılıq, habelə dəqiq maşınqayırma və maliyyə xidməti sahələrində daha güclü inteqrasiya əlaqələri yaradılmışdır. Ayrı-ayrı milli bazarların qarşılıqlı asılılıqlarının güclənməsi ona gətirib çıxarmışdır ki, bazarlar daha çox qlobal xarakter daşıyır.

Hazırda dünya təsərrüfat əlaqələrinin obyekti də dəyişmişdir. Əmtəə (məhsul) həm formasına, həm də məzmununa görə daim dəyişikliklərə məruz qalır. Belə ki, **XX əsrin əvvəllərində təsərrü-**

**fat dövriyyəsinə cəlb olunan əmtəənin iqtisadi məzmunu ilə indiki əmtəənin iqtisadi məzmunu arasında fərq vardır.** Hazırda beynəlxalq əmtəə tədavülü dairəsində əmtəələrin ən sadə formasından (fərdi əmtəə) ən mürəkkəb qarışığa malik olan əmtəələrədək (əmtəə qrupları) təkamül prosesi müşahidə olunur və bunun nəticəsində ən yüksək əmtəə formaları, yəni əmtəə – obyekt, əmtəə-proqram və s. meydana gəlmişdir. Bunlar isə öz növbəsində milli iqtisadiyyatların dünya təsərrüfatı ilə əlaqələrini genişləndirir.

**Fərdi əmtəə indi də əmtəə kütləsinin əsasını təşkil edir.** Bununla birlikdə təklifin geniş miqyasda fərqləndirilməsi və tələbin seqmentləşdirilməsi, həmçinin firmaların marketinq strategiyası bir tərəfdən əmtəələrin çeşidinin genişləndirilməsinə (əmtəələrin çeşidinin durmadan artması, onların istehlak xassələrinin mürəkkəbləşməsi, yaxud da bir və ya bir neçə əlamət üzrə fərqlənən əmtəə oxşarlarının meydana gəlməsi və s.), digər tərəfdən isə onların bir qrupda birləşdirilməsinə səbəb olmuşdur. Bunun nəticəsində **əmtəə qrupları əmələ gəlmişdir**. Bu, xüsusilə inkişaf etməkdə olan bazarlar üçün səciyyəvidir. Bu bazarlarda əsas məhsulla yanaşı onun əlavələrinin satışı da vacibdir. Məsələn, kompüter satışı proqramların, kabelin, kompüter üçün çantanın, onun işləməsi üçün lazım olan digər zəruri vasitələrin satışı ilə müşayiət olunur. İstehsalına orta hesabla daha çox xərc çəkilən (ilkin xərclər çox olduğuna görə), lakin son xərclərin bir o qədər də çox olmadığı əmtəə və xidmətlər özlərinin «əlavələr toplusu» ilə dəst halında daha çox satılır.

**İri layihələrin reallaşdırılması obyekt-əmtəənin meydana gəlməsinə səbəb olmuşdur.** Bu əmtəə növünün kompleksli xarakter daşıması (çox geniş miqyaslı işləri əhatə etməsi – ilkin mərhələdə aparılan işlər, layihələşdirmə, tikintinin idarə olunması, istismara verilməsinə hazırlıq işləri, istismarla əlaqədar göstərilən xidmətlər və i.a. – bazarın kompleksli mənimsənilməsini tələb etmişdir. İstehsal və qeyri-istehsal xarakterli iri obyektlər satılarkən xarici iqtisadi qarşılıqlı fəaliyyət nəinki birbaşa müştəri və sifarişçilərə yönəldilir, həm də həmin obyektin yaradılmasının bütün sistemini əhatə edir. Bütün sistem isə çox səmərəli fəaliyyət göstərir – müxtəlif növ materiallara daim tələbat olur, bu

da öz növbəsində uzunmüddətli multiplikator səmərəliliyinin təmin olunmasına doğru aparır.

**Keçən əsrin 70-ci illərinin axırlarında iqtisadi məzmununa görə qeyri-adi yeni bir əmtəə, yəni proqram-əmtəə meydana gəlmişdir.** Ayrı-ayrı ölkələrin aqrar-sənaye strukturlarının inkişafının təmin edilməsində mühüm rol oynayan iri obyekt və qurğuların, aerokosmik biznes, avtomatlaşdırılmış sistem və robot texnikasının, xidmət sahələri obyektləri komplekslərinin, informasiyaların toplanması və bölüşdürülməsi ilə əlaqədar obyektlərin satışı proqram-əmtəələrə əyani misaldır.

Əmtəə formaları mürəkkəbləşdikcə böyük maddi, əmək və maliyyə-kredit resurslarının idarə olunması və onların üzərində nəzarətin həyata keçirilməsi vahid sistemdə birləşdirilir, göstərilən xidmətlərin xarakteri mürəkkəbləşir. Eyni zamanda əmtəələrin daha mürəkkəb növlərinin dünya bazarlarında reallaşdırılmasından əldə ediləcək uzun-müddətli səmərənin təmin olunmasında dövlətin rolu artır. Bu öz ifadəsini qarışıq maliyyələşdirmədə tapır. Bu o deməkdir ki, məhsulu idxal edən ölkəyə dövlət yardımı bu ölkədəki istehlakçıların maliyyələşdirilməsi ilə əlaqələndirilir. Qarışıq maliyyələşdirmədən Fransadan, Böyük Britaniyadan, ABŞ-dan, Yaponiyadan və Kanadadan komplektləşdirici avadanlıq və obyektlərin ixracı zamanı istifadə edilir.

Əmtəə-proqramların satışı ilə əlaqədar sövdələşmələrdə bir çox hallarda bu, iştirakçı ölkələrin təkcə iqtisadi mənafeləri ilə deyil, həm də onların siyasi mənafelərinə uyğun gəlmir. **Əmtəə-proqramların satıcıları ondan bir dəfə səmərə götürməklə kifayətlənmək istəmirlər.** Onlar digər ölkələrin milli təsərrüfatlarının bir çox sahələri və bölmələrinin inkişafını özlərinin təsiri altında saxlamağa cəhd göstərirlər. **Əmtəə-proqramlar bir çox hallarda iqtisadi pərdə altında hərbi-siyasi xarakter daşıyır.**

İstehsalın və kapitalın beynəlmiləlləşməsi prosesi ona gətirib çıxarmışdır ki, əmtəə istehsalı milli sərhədləri aşmış istehsal-investisiya kompleksləri (transmilli və çoxmilli şirkətlər) tərəfindən həyata keçirilir.

Firmalar dünya bazarında yalnız əmtəə və xidmətləri ixrac etməklə deyil, həm də xaricdə kapital qoyuluşuna görə rəqabət

aparırlar. Və beynəlxalq əməliyyatlar əvvəllərdə olduğuna nisbətən daha geniş və əhatəli olur. Başqa sözlə, elmi-texniki, investisiya və istehsal sahələrindəki əməkdaşlıq adi əmtəələrin ticarətini üstələyir. Bütün bunların nəticəsində əmtəə və xidmətlərin ölkələrarası mübadiləsindən firmalararası, korporasiyalararası mübadiləsinə keçilir. **Bununla əlaqədar olaraq «beynəlxalq əmək bölgüsü» anlayışı hazırda ölkələrarası ictimai əmək bölgüsü prosesini deyil, firmalararası (korporasiyalararası) əmək bölgüsünü, həmçinin transmilli korporasiyalar daxilində istehsalla əlaqədar vəzifələrin bölgüsünü ifadə edir.**

Qarşılıqlı fəaliyyətlərin bütün sahələrində baş verən meyllərin daim pozulması ona gətirib çıxarır ki, təsərrüfatçılıq edən subyektlərin təşkilati-funksional formaları dəyişməz qalmır. Onların statusu (milli, çoxmilli, transmilli, qlobal) dəyişir. Onlar əmtəələrin müxtəlif formaları ilə manipulyasiya edilməsindən asılı olaraq parçalanır və ya birləşirlər. Əmtəə-obyektlər və əmtəə-proqramlarla əməliyyatlar aparan kommersiya təşkilatları və dövlət təsisatları birlikləri (qrupları) beynəlxalq qarşılıqlı fəaliyyətin subyektlərinə çevrilirlər.

Dünya bazarlarında daha mürəkkəb əmtəə növlərinin reallaşdırılmasından uzunmüddətli səmərə əldə olunmasını təmin etmək üçün rəqabət aparan firmalar digər transmilli korporasiyalarla rəqabətə girir, elmi-texniki, strateji ittifaqlar yaradır, qlobal birliklər formalaşdırırlar. Birləşmə, real aktivlərin, yaxud da qarşılıqlı surətdə kapitalda paya sahibliyin əldə edilməsi müasir dünya təsərrüfatı strategiyasının səciyyəvi cəhətidir. Bunun nəticəsində inteqrasiya olunmuş beynəlxalq ticarət-sənaye sistemi formalaşmış və milli ərazi və dövlətlər onunla müqayisədə ikinci dərəcəli əhəmiyyət kəsb edirlər.

**Qloballaşma dünya səhnəsinə yeni subyektlər çıxarmışdır.** Dünyada gedən proseslərə təsir göstərən bir sıra beynəlxalq (BVF, Dünya bankı, YUNESKO, DTT, BƏT, FAO) və regional təşkilatlar (onların sayı 60-dan çoxdur), pensiya və investisiya fondları, sığorta şirkətləri, qeyri-hökumət təsisatları («yaşıllar» hərəkatı, sərhədsiz həkimlər və i.a.), iri şəhərlər (London, Nyu-York, Tokio, Frankfurt, Paris) və s. belə subyektlərdir.

**Qloballaşma ictimai tərəqqinin ən güclü sürətləndiricisidir.** Bu, müxtəlif növ informasiyaların mübadilə olunmasının genişlənməsi, istehsalın səmərəliliyinin kəskin surətdə yüksəlməsi, ölkələr arasındakı qarşılıqlı fəaliyyətin getdikcə daha da dərinləşməsi və s. əlaqədardır.

Bunlarla yanaşı, **qloballaşma həm də yeni təhlükə yaradır.** Ümumi ilə xüsusi, beynəlxalq və milli, qlobal və yerli mənafelər arasında yeni problemlər və ziddiyyətlər meydana çıxır. Dünya təsərrüfatının möhkəmlənməsi üçün ilkin şərt yaradan, beynəlxalq kooperasiya və əməkdaşlığın müxtəlif formalarının inkişaf etdirilməsini stimullaşdıran qloballaşma, həm də təhlükəli dağıdıcı meyllər doğurur, yeni, görünməmiş sosial-iqtisadi hadisələrin baş qaldırmasına səbəb olur.

Ümumi qarşılıqlı əlaqə və asılılıq ona gətirib çıxarır ki, dünya təsərrüfatının bir və ya bir neçə vəsiləsində, hətta əyalətlərdə baş verən böhranlı hadisələr bütövlükdə qlobal sistemə təsir edə və ölkələri zərbə altında qoya bilər. Milli təsərrüfatların əksəriyyətində (hətta ən güclü ölkələrdə də) iqtisadiyyatda tarazlığı pozmaq üçün real imkanlara malik olan müasir dünya maliyyə sistemi böyük təhlükə mənbəyidir.

Bütün bunlar adekvat müdafiə tədbirlərinin görülməsini tələb edir. Odur ki, dövlət tərəfindən tənzimləmə qlobal, milli və regional mənafelərin əlaqələndirilməsini təmin etməlidir.

## 23.2. Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası prosesinin dövlət tərəfindən tənzimlənməsi

Məlum olduğu kimi, dünya təsərrüfat sistemi inkişaf səviyyələrinə və spesifik xüsusiyyətlərinə görə bir-birindən kəskin surətdə fərqlənən bir çox yarımsistemlərdən ibarətdir. Azərbaycan Respublikası da müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinə tam hüquqlu üzv kimi daxil olmaq və inteqrasiya proseslərində fəal iştirak etmək yolunu seçmişdir. Və keçən dövr ərzin-

də bu sahədə Azərbaycan dövləti tərəfindən çox böyük işlər görülmüş və görülməkdədir.

**İnteqrasiya proseslərinin** dövlət tərəfindən tənzimlənməsi ayrı-ayrı ölkələrin öz xüsusi problemlərini həll etmələri üçün onların dünya təsərrüfatı ilə strateji əlaqələrini təmin edən müxtəlif istiqamətlər, formalar, **metod və vasitələr sistemidir.** Beynəlxalq iqtisadi inteqrasiya ölkələr və milli təsərrüfatlar arasında dərin və sabit əlaqələrin, habelə əmək bölgüsünün müxtəlif səviyyələrdə və formalarda inkişaf etdirilməsi əsasında onların xalq təsərrüfatlarının iqtisadi-siyasi cəhətdən birləşməsi deməkdir. Lakin bu prosesə qoşulmaq üçün Azərbaycan ölçülüb-biçilmiş xarici iqtisadi siyasət yeridir və dünya birliyində özünün layiqli yerini tutmağa çalışır. Başqa sözlə, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası kortəbii surətdə getmir, dövlət bu sahədə üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir.

Ayrı-ayrı ölkələrin iqtisadi inkişaf təcrübəsi göstərir ki, bazar qüvvələri öz-özlüyündə dünya təsərrüfatında vəziyyəti dəyişdirmir. Bunun üçün dövlətin müdaxiləsi lazımdır. Məsələn, Yaponiya hökuməti sənayenin qabaqcıl sahələrinin texnoloji cəhətdən yenidən qurulması və inkişaf etdirilməsinə fəal təsir etməsəydi indi o, ən ucuz uşaq oyuncaqları ixrac etməklə kifayətlənməli olardı.

**İqtisadi inkişafın sənaye fazasında dünya təsərrüfat əlaqələri üçün ticarət (ticarət-vasitəçi) modeli səciyyəvi olmuşdur.** Dövlət tərəfindən tənzimləmənin bu modelində ixracatçıların stimullaşdırılması və öz iqtisadiyyatlarının müdafiəsi əsas götürülmüşdür. Bu modellə yanaşı təkrar istehsal adlandırılan model də vardır. Bu modeldə isə söhbət, dünya bazarlarında ayrı-ayrı əmtəə və xidmətlərin yalnız irəliladilməsindən deyil, həm də bu bazarlarda müəyyən bir əmtəə qrupu üzrə fəaliyyət göstərilməsindən gedir. Başqa sözlə, bu modeldə təkcə bir məsələ – əmtəə və xidmətlərin alqı-satqısı deyil, həm də təkrar istehsal prosesinin digər mərhələləri, yəni kapitalın və işçi qüvvəsinin hərəkəti, maliyyə-kredit, valyuta münasibətləri və s. dövlət tənzimlənməsində nəzərə alınan cəhətlərdir. **Bu modelə istehsal – investisiya modeli**

**də deyilir. Azərbaycan Respublikasının dünya təsərrüfatına inteqrasiyası məhz bu modelə əsaslanır.**

Dövlət tənzimləməsinin mövcud olan geniş cəbbəxanası ölkələrə həm özlərinin dünya təsərrüfatı ilə əlaqələrinin inkişaf etdirilməsinin strukturu və istiqamətlərinin formalaşdırılmasına, həm də digər ölkələrlə əlaqələrin qurulmasına imkan verir. Bu qarşılıqlı fəaliyyət müxtəlif səviyyələrdə – ayrıca müəssisə, istehsal kompleksi, sahə, ərazi – istehsal strukturları, makroiqtisadi səviyyələrdə baş verir.

**Azərbaycanda dünya təsərrüfatına inteqrasiya prosesi tənzimləmənin təkrar istehsal modeli əsasında həyata keçirilir.** Və ticarət modeli istehsal-investisiya modelinin tərkibinə daxil olmuşdur. Bununla əlaqədar olaraq tənzimləməyə yanaşmanın forma və metodları da dəyişir, xarici iqtisadi proseslər daha da fəallaşır.

Müasir dövrdə ölkəmizin dünya təsərrüfatında gedən proseslərdə iştirakı müəyyən struktur dəyişiklikləri ilə müşayiət olunur. Bu, birinci növbədə Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasında, ölkəmizdə qeyri-neft sektoruna xarici investisiya qoyuluşunun tədriclə artmasında, kənd təsərrüfatının modernləşdirilməsi istiqamətində görülən işlərdə və s. sahələrdə müşahidə olunur. Azərbaycanda iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi üçün mövcud olan potensialdan istifadə olunması, təbiidir ki, iqtisadiyyatımızın bazar münasibətləri əsasında formalaşmaqda olan strukturunda mütərəqqi dəyişikliklərə və tarazlı inkişafa gətirib çıxaracaqdır. Lakin qeyd etmək lazımdır ki, hazırda ölkəmizdən ixrac olunan məhsullar xam neft və neft avadanlıqlarıdır. İxrac olunan məhsulların 4/5 hissəsinə qədəri bu məhsulların payına düşür. Bunun, indiki şəraitdə mənfi cəhətləri də vardır. Belə ki, ölkə iqtisadiyyatının bir sahə üzərində inkişaf etdirilməsi, yəni təkcə neft amilinə bağlanması gələcəkdə mənfi nəticələr verə bilər. Bunu bir sıra ölkələrin təcrübəsi sübut etmişdir. Müsbət cəhəti isə ondan ibarətdir ki, hazırda ölkəmizdə dünya təsərrüfatına inteqrasiya prosesində istifadə olunan strategiya beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə olunmasına yönəldilmişdir. **Və bu yolla əldə edilən** böyük məbləğdə valyuta gəlirlərinin çox hissəsindən

iqtisadiyyatın **modernləşdirilməsi məqsədilə mütərəqqi texnologiyaların satın alınması üçün istifadə edilir.**

İxrac yönümlü strategiya üçün ölkənin, iqtisadiyyatın hər hansı bir sahəsində ixtisaslaşması məqsədəuyğundur. Rəqabət üstünlüklərinə əsaslanan beynəlxalq ixtisaslaşmanın aşağıdakı iki əsas mənbəyi vardır: 1) istehsal xərclərinin aşağı olması; 2) məhsulların fərqləndirilməsi.

**Müqayisəli üstünlük** və ya müqayisəli istehsal xərcləri nəzəriyyəsinə görə ticarət əlaqələrini zəruri edən şərtlərdən biri də istehsalla bağlı meydana çıxan fərqlərdir. Hər bir ölkə özünə lazım olan bütün məhsulların hər birindən az miqdarda olsa da istehsal olunmasını təşkil edə bilər. Lakin həmin məhsullardan bəzilərinin istehsalına daha çox xərc sərf oluna və onların dəyəri həddindən artıq yüksək ola bilər. Bu isə o deməkdir ki, bütün məhsulların istehsalı bu ölkə üçün iqtisadi cəhətdən sərfəli deyildir. D.Rikardonun hələ 1817-ci ildə bu suala verdiyi cavab beynəlxalq miqyasda ixtisaslaşdırmanın səmərəliliyinin isbat olunduğunu göstərir. Bunun əks nəticələrini də nəzərə almaq lazımdır. Belə ki, resursların (xammal və əmək ehtiyatları), çox və ucuz olması dünya bazarı üçün ənənəvi olan sahələrdə xərclərə görə rəqabət üçün ilkin şərt yaradır. Və bəzi hallarda bu cür ixtisaslaşmada uzunmüddətli nəticələr əldə olunacağına bel bağlamaq düzgün deyildir. Çünki bu bazarlar qeyri-sabit qiymət konyukturası ilə səciyyələnir.

İstehsal xərclərindəki üstünlüklərə əsaslanan ixtisaslaşma milli valyutanın məzənnəsinin aşağı həddə qorunub saxlanmasını nəzərdə tutur.

Məhsul buraxılışındakı fərqləndirmənin üstünlüklərindən istifadə olunmasına əsaslanan ixrac yönümlü strategiya daha sabit və perspektivlidir. Bütün fəaliyyətini keyfiyyəti olduqca yüksək və xüsusi istehlak xassələrinə malik olan unikal məhsulların istehsalına yönəldən istehsalçı firmalar xarici bazarlarda öz şərtlərini müəyyən dərəcədə diktə edə bilər. Həm də bu nəticələrə nail olunmasına çox böyük məbləğdə xərc və vaxt sərfinin lazım gəlməsi potensial rəqiblərin olması imkanını məhdud-laşdırır.

**Mövcud vəziyyətdən asılı olaraq Azərbaycan** iqtisadiyyatında islahatların aparılmasının ixrac yönümlü strategiyası birinci növbədə güclü xammal bazası, ucuz və ixtisaslı işçi qüvvəsi, bəzi fundamental elm sahələrində **qazanılmış nailiyyətlərdən istifadə olunmasına əsaslanır.** Lakin bu resurs və üstünlüklərdən geniş miqyasda və qısa müddətdə istifadə edilməsi düzgün deyildir. Digər tərəfdən, mineral-xammal məhsullarının ixracından daxil olan gəlir yalnız ixrac olunan resursların kəmiyyətindən deyil, həm də xarici bazarların tutumundan asılıdır.

İstehsal xərclərindəki üstünlüklərə əsaslanan xəttin yeridilməsi bəzi hallarda iqtisadi cəhətdən təhlükəli olmaya bilər. Çünki yanacaq-xammal istiqamətli strategiya əslində ölkənin daxilində yox, onun sərhədlərindən kənardan (milli iqtisadiyyatın öz mənafelərini nəzərə alması istisna olmaqla) tənzimlənir. Xammalın sürətlə daşınıb aparılması dünya bazarlarında qiymətlərin aşağı düşməsinə təsir göstərməklə yanaşı, həm də əlverişsiz struktur dəyişikliklərinə – resursların emaledici sahələrdən hasilat sahələrinə «axıb» getməsinə gətirib çıxarır. Bunun nəticəsində iqtisadiyyatın artım sürəti zəifləyir və strukturunda uyğunsuzluqlar meydana gəlir, durğunluq meylləri baş qaldırır, milli təsərrüfat kompleksləri deformasiyaya uğrayır. Bu vəziyyəti mütəxəssislər **«Holland sindromu» adlandırırlar.** Hollandiyada, Böyük Britaniyada və Norveçdə neft hasilatının artması milli iqtisadiyyatın artım sürətinin ləngiməsinə və inflyasiyanın görünməmiş dərəcədə artmasına gətirib çıxarmışdır.

İqtisadiyyatın strukturunda baş verən uyğunsuzluqlar bazarın qeyri–elastik seqmentlərinə idxal olunan məhsullara olan tələbin artmasında özünü daha çox göstərir. Bu, birinci növbədə ərzaq məhsullarına, kənd təsərrüfatı xammallarına və dərman preparatlarına aiddir. İxrac yönümlü strategiyanı həyata keçirərkən iqtisadiyyat labüd olaraq dünya bazarlarında «məskunlaşmış» istehsalçıların müqavimətinə rast gəlir. Dövlət müxtəlif metodlardan istifadə etməklə ixrac yönümlü düzgün strategiyanın həyata keçirilməsini təmin etməlidir. Bunların içərisində müvafiq sahələrə və firmalara avadanlıqların satın alınması üçün ilk növbədə kredit verilməsi, amortizasiya üçün güzəştli

müddət müəyyən olunması, mənfəət vergisinə görə güzəştlər edilməsi və s. xüsusi yer tutur. Müxtəlif metod və vasitələr ona görə zəruridir ki, texnoloji proseslərin yenidən qurulması üçün avadanlıqların satın alınmasına sərf olunan valyuta ehtiyatları müəyyən olunmuş müddətdə ödənilmədiyi hallarda baş verən itkinin qarşısını almaq mümkün olsun.

**Müasir dünyada Azərbaycan iqtisadiyyatının vəziyyəti onun rəqabət qabiliyyətinin, maliyyə və sənaye kapitalının artırılmasını,** Qərbin aparıcı dövlətlərinin, beynəlxalq iqtisadi qurumların güclü transmilli korporasiyaların möhkəmlənməkdə olan təsirindən qorunmaq məqsədilə milli mənafelərin müdafiəsi üçün yeni vasitə və metodların inkişaf etdirilməsini tələb edir.

Ölkəmiz malik olduğu təbii ehtiyatlardan, birinci növbədə neft və qaz hasilatından bəhrələnmək məqsədilə onların dünya bazarlarına çıxarılması üsullarını müəyyənləşdirmiş, regional mərkəzlər arasında qarşılıqlı iqtisadi əlaqələr yaratmaqla dünyada gedən qloballaşma prosesinə qoşulmuşdur.

Son illərdə ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi və milli iqtisadiyyatımızın bazar prinsipləri əsasında **yenidən qurulmasının mühüm istiqamətlərindən biri respublika iqtisadiyyatının** dünya iqtisadiyyatına inteqrasiyasına nail olunmasıdır. Rəsmi statistik məlumatlara görə 2003-cü ildə ölkəmizdə fəaliyyət göstərən müəssisə və təşkilatlar, özəl qurumlar dünyanın 124 dövləti ilə ixrac-idxal əməliyyatları aparmışlar. 1993-cü ildə ixrac-idxal əməliyyatları aparılan ölkələrin sayının cəmi 60 olduğunu nəzərə alsaq, onda əsl vəziyyət aydın olar. Həmin dövrdə xarici ticarət dövriyyəsinin ümumi həcmi milyard 218 milyon 200 min ABŞ dolları, o cümlədən ixrac milyard 592 milyon, idxal isə 2 milyard 626 milyon 200 min dollar təşkil etmişdir. 2002-ci illə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 36,1%, o cümlədən ixrac üzrə 19,6%, idxal üzrə isə 57,7% artmışdır. Ölkəmizin ticarət dövriyyəsi 2004-cü ildə təqribən 6,0 milyard dollar, 2005-ci ildə isə 7, milyard dollar olmuşdur.

**Hazırda ölkəmiz bütün Avropa strukturları ilə fəal əməkdaşlıq edir.** Qloballaşma ilə əlaqədar iqtisadi müstəvidə Avropa birli

ilə münasibətlərin genişləndirilməsi və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. 2003-cü ilin əvvəllərində həmin təşkilata üzv dövlətlərin sayının artırılması və məsuliyyət zonasına yeni ərazilərin daxil edilməsi, digər ölkələr, o cümlədən də **Azərbaycanla** yeni qonşuluq münasibətlərinin formalaşdırılması istiqamətində aparılan işlər onun sərhədlərinin genişləndiyini, inteqrasiya prosesində yeni fəal iştirakçıların meydana gəldiyini və onun coğrafiyasının daha geniş miqyas alacağını qabaqcadan proqnozlaşdırmağa imkan verir. Bunu həm də ona görə qeyd edirik ki, hazırda bu nüfuzlu quruma daxil olmağa maraq olduqca böyükdür və ölkəmizin də gələcəkdə ona üzv olmaq imkanları istisna deyildir. Bunu həm də belə bir faktdan aydın görmək olar ki, Azərbaycanın bu birliyə daxil olan ölkələrlə apardığı ixrac-idxal əməliyyatları ildən-ilə artır. Belə ki, xarici ticarət əməliyyatlarının 48,7%-i, o cümlədən idxalın 32,0%-i, ixracın isə 65,6%-i Avropa birliyinə daxil olan ölkələrin payına düşmüşdür. 2002-ci illə müqayisədə bu ölkələrlə aparılan ticarət dövriyyəsinin ümumi səviyyəsi 36,9%, o cümlədən ixrac 16,3%, idxal 2,1 dəfə artmışdır. Bu proses 2004-2005-ci illərdə daha dinamik xarakter almış və 2003-cü ilin göstəricilərindən daha yüksək olmuşdur.

**Ölkəmiz regional və beynəlxalq inteqrasiya proseslərində fəal iştirak edir. Bu, onun hərtərəfli inkişaf etdirilməsi strategiyasının ayrılmaz tərkib hissəsidir. Bu layihələrin yerinə yetirilməsi Azərbaycanı regionda qüdrətli dövlətə çevirəcək və Cənubi Qafqaz məkanının inkişaf etməsinə imkan verəcəkdir.**

Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin üstündə yerləşməsi onun yalnız regional layihələrdə deyil, həm də beynəlxalq layihələrdə rolunu xeyli artırır. Avropa birliyinin dəstəyi ilə həyata keçirilən TRASEKA – «Böyük İpək Yolu» proqramı Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu xəttinin işə düşməsi və s-lər Azərbaycanın bölgələrinin iqtisadi dirçəlişi üçün zəmin yaradır. Bu və ya digər layihələrin həyata keçirilməsi yeni iş yerlərinin, istehsal komplekslərinin yaradılması, xidmət sahələrinin inkişaf etdiir-

lməsi, tikinti işləri və şəhərsalmanın intensivləşdirilməsi, inteqrasiya layihələrinin iqtisadi səmərəliliyinin yüksəlməsi ilə müşayiət olunur. Bu layihələr ölkəmizi bir tərəfdən Qərb, digər tərəfdən isə Şərqlə bağlamışdır.

**İnteqrasiya proseslərinin başqa bir istiqaməti müstəqil dövlətlər birliyi məkanında əməkdaşlığın beynəlxalq və tərəflər üçün faydalı prinsiplər əsasında qurulmasıdır.**

MDB-nin iqtisadi mexanizminin əsasını 24 sentyabr 1993-cü ildə iqtisadi ittifaqın yaradılması haqqında müqavilə təşkil edir. Bu sənəddə inteqrasiya prosesinin bir neçə mərhələdən keçəcəyi nəzərdə tutulmuşdur: əvvəlcə azad ticarət assosiasiyası, sonra gömrük ittifaqı, nəhayət ümumi bazar yaratmaq. Azad ticarət assosiasiyası və gömrük ittifaqı yaradılması sahəsində müəyyən işlər görülmüşdür.

MDB ölkələri arasında inteqrasiyanın gələcək inkişafının aşağıdakı üç modeli diqqəti daha çox cəlb edir: 1) MDB modeli vasitəsilə inteqrasiya; 2) yeni inteqrasiya birliyinin yaradılması; 3) müvafiq saziş bağlamaqla fəal inteqrasiyaya hazır olan ölkələr arasında ikitərəfli əlaqələrin yaradılması.

**Birinci və üçüncü variantlar daha münasibdir.** Çünki bu mexanizmlər artıq bir neçə ildir fəaliyyət göstərir, inteqrasiya proseslərini idarə edən strukturlar yaradılmış və yaradılmaqda davam edir, iştirakçı ölkələrin qəbul etdikləri qərarlar onların yaxınlaşmasına imkan verir.

**İkinci variant** – postsovet məkanında dövlətlərarası və millətlərarası münasibətləri yaxşılaşdırmaq və inkişaf etdirmək üçün keyfiyyətcə yeni şərait yaradılmasını nəzərdə tutur. Bununla əlaqədar olaraq ümumi vətəndaşlıq, dövlətlərarası sərhədlərin daxili sərhədlər hesab edilməsi, adamların və əmtəələrin sərbəst hərəkətinə maneçilik törədilməməsi nəzərdə tutulur. **Lakin bu ideyalar Sovet İmperiyasının bərpasına cəhd kimi qiymətləndirilir.** Deməli, yaxın zamanlarda MDB dövlətlərinin hamısını belə bir birliyə cəlb etmək çox güman ki, mümkün olmayacaqdır.

**Üçüncü variant** – hazırda MDB ölkələrində iki regional qruplaşmada özünü göstərir. Bunlardan biri Avrasiya gömrük zonasının yaradılmasıdır. Buraya Rusiya, Belarus, Qazaxıstan, Taci-

kistan, Qırğızıstan daxildirlər. Digər bir regional təşkilat Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduqları GUAM-dır. Bu yaxınlarda bu qurum beynəlxalq əməkdaşlıq və inkişaf təşkilatına çevrilmişdir, ona maraq göstərən və üzv olmaq istəyən ölkələrin sayı artmaqdadır.

MDB çərçivəsində inteqrasiyanın ən perspektivli istiqamətlərindən biri ticarət-iqtisadi əməkdaşlıqdır. Hazırda ölkəmiz MDB məkanındakı ölkələrin bir çoxu ilə ticarət və gömrük məsələləri ilə əlaqədar ikitərəfli sazişlər imzalamışdır.

**Əməkdaşlığın istiqamətlərindən biri də** istehsal sahəsində qarşılıqlı əlaqələrdir. Burada birinci növbədə ixtisaslaşma və kooperasiyalaşma, transmilli sənaye-maliyyə qruplarının, maliyyə-kredit təşkilatlarının yaradılması, inhisar əleyhinə vahid qanunvericiliyin olması, investisiyalar üçün hər cür maneələrin aradan qaldırılması və s. nəzərdə tutulur.

**Əməkdaşlığın istiqamətlərindən biri də** sosial sahədir. Bu, hər şeydən əvvəl işçi qüvvəsinin sərbəst hərəkətinə, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq istədiyi ölkədə iş axtarmaq, mənzil satın almaq səlahiyyətlərinin olmasına aiddir.

**Əməkdaşlığın istiqamətlərindən biri də** hesablaşma münasibətləridir. 9 oktyabr 1994-cü ildə birliyin üzvü olan bütün ölkələr tərəfindən MDB dövlətlərinin tədiyə ittifaqının yaradılması haqqında saziş imzalanmışdır ki, bu da gələcəkdə valyuta ittifaqına çevrilə bilər. Sazişə uyğun olaraq təsərrüfatçılıq edən subyektlər arasında hesablaşmalar kommersiya bankları və valyuta bazarları vasitəsilə dövlətin müdaxiləsi olmadan aparılmalıdır. Bu, hesablaşmaların maneəsiz aparılmasına imkan yaradacaqdır.

Beləliklə, ölkəmiz qloballaşan dünyanın bir hissəsinə çevrilməklə, həm inkişaf etmiş ölkələrin qazandıqları nailiyyətlərdən istifadə edir, həm də özünün adət-ənənələrini və tarixini qoruyub saxlayır. Bu, başlıca strateji xətt olmaqla, Azərbaycan cəmiyyətinin inkişafına istiqamətləndirilmişdir və çox böyük perspektivləri vardır.

## 23.3. Xarici investisiyaların dövlət tərəfindən tənzimlənməsinin məqsədi, zəruriliyi və əsas istiqamətləri

Xarici iqtisadi fəaliyyətin əsas formalarından biri də kapitalın beynəlxalq miqyasda hərəkətidir. Beynəlxalq miqyasda kapitalın hərəkəti dedikdə, onun ixrac olunmaqla xaricdə yerləşdirilməsi nəzərdə tutulur.

**Beynəlxalq miqyasda kapitalın hərəkəti** onu həm ixrac, həm də idxal edən ölkənin iqtisadiyyatına hərtərəfli təsir göstərir. Ona görə də dünya iqtisadiyyatına inteqrasiya prosesinə fəal qoşulan Azərbaycan üçün açıq qapı siyasətinin yeridilməsi çox böyük əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq sahibkarlıq fəaliyyətinin bu sahəsini **Azərbaycan dövləti** həmişə diqqət mərkəzində saxlayır. Bu sahədə dövlət tənzimləməsi aşağıdakı istiqamətlərdə həyata keçirilir: 1) milli iqtisadiyyata qoyulan investisiyaların tənzimlənməsi; 2) ölkədən ixrac olunan kapitalın tənzimlənməsi.

**İxrac-idxal əməliyyatlarının dövlət tərəfindən tənzimlənməsi sisteminə aşağıdakılar daxildir**: 1) özündə stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirləri əks etdirən müvafiq qanunvericilik aktlarının işlənib hazırlanması və qəbul edilməsi; 2) bu qanunvericilik aktlarının təcrübədə tətbiq edilməsi üzərində nəzarəti həyata keçirən dövlət orqanlarının yaradılması; 3) əlavə dövlət tədbirləri (dövlətlərarası müqavilələrin bağlanması, xarici investisiyaların sığortalanmasında və perspektivli layihələrin maliyyələşdirilməsində, müxtəlif xarakterli məlumatların toplanmasında və s. lərdə dövlətin iştirakı).

Milli iqtisadiyyata xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar dövlət siyasəti yeridilərkən **çalışmaq lazımdır ki,** bu işin **ölkə iqtisadiyyatında mövcud olan problemlərin həll edilməsində əhəmiyyəti haqqında cəmiyyət üzvlərində aydın təsəvvür olsun.** Başqa sözlə, bu sahədə xarici investorlarla milli sahibkarlığın mənafeləri arasında meydana çıxan ziddiyyətli məqamlar nəzərə alınmalıdır.

Müasir dövrdə milli iqtisadiyyatda xarici kapitalın iştirakının aşağıdakı formaları vardır: 1) istehsalın beynəlxalq miqyasda kooperasiyalaşdırılması; 2) xarici kreditlərin verilməsi; 3) lizinq əsasında xarici avadanlıqların alınması; 4) birgə və tamamilə xarici kapitala məxsus olan müəssisələrin yaradılması; 5) müqavilə ilə fəaliyyət göstərən birgə müəssisələrin yaradılması; 6) konsessiya və müqavilə əsasında məhsul bölgüsündə iştirak.

**Xarici investisiya qoyuluşunun başlıca məqsədi** şirkətlərin həcmini optimallaşdırmaqdan və milli iqtisadiyyatda həyata keçirilə bilməyən miqyasın səmərəliliyi hesabına qənaət etməkdən; beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmaqdan; xarici ölkələrin təbii ehtiyatlarından və ucuz işçi qüvvəsindən istifadə etməkdən; kömrük maneələrini aradan qaldırmaqdan; vergitutma qaydalarını təkmilləşdirməkdən və s. ibarətdir.

**Xarici ölkələrin iqtisadiyyatına investisiya qoyuluşu nəzarətetmə dərəcəsinə görə iki yerə bölünür;** 1) Birbaşa investisiyalar; 2) Dolayı investisiyalar. Beynəlxalq Valyuta Fondunun müəyyən etdiyinə görə birbaşa investisiyaların səciyyəvi cəhəti ondan ibarətdir ki, sahibkar investisiya qoyduğu əmlakın (müəssisənin) idarə olunmasında nəzarəti öz əlində saxlayır və gəlir əldə edir. Dolayı investisiyalar isə onun sahibinə əmlakın idarə olunmasında belə bir səlahiyyət vermir. Çünki bu investisiyalar adətən səhmlər zərfindən (yaxud da ayrı-ayrı səhmlərdən) ibarət olur və sahibinə yalnız gəlir gətirir. Xarici firmaların ümumi kapitalında birbaşa və dolayı investisiyaların xüsusi çəkisi 10-20% arasında tərəddüd edir. Ayrı-ayrı ölkələrdə formal olaraq birbaşa və dolayı investisiyalar arasında müxtəlif formalarda və müəyyən hədd daxilində fərq qoyulsa da, bu şərti xarakter daşıyır. Ona görə ki, bəzi hallarda, xüsusilə də firmaların özlərinə məxsus olan kapital çoxsaylı həmsahiblər arasında bölündükdə, səhmlərə sahib olmaq idarəetməyə nəzarəti həyata keçirməyə imkan verir.

**Birbaşa və dolayı investisiyaların milli mənafelər baxımından həm müsbət, həm də mənfi cəhətləri vardır.** Birbaşa investisiyalar əsas kapitala qoyuluş formasında uzunmüddətli strateji investisiya adlanır və ölkədə işgüzar fəallığın artmasına təsir göstərsə

də, əslində müəssisənin aktivləri üzərində xaricdən nəzarət olunması deməkdir. Dolayı investisiyalar isə bir çox hallarda möhtəkirlik xarakteri daşıyır və maliyyə bazarında sabitliyin pozulmasına səbəb ola bilər və olur.

Kapitalın beynəlxalq miqyasda hərəkətindən bəhs olunduqda investisiya mühiti və riskinin aydınlaşdırılması da çox böyük əhəmiyyət kəsb edir.

**İnvestisiya mühiti dedikdə, kapitalın ixrac olunduğu ölkədəki mövcud şərait nəzərdə tutulur.**

İnvestisiya mühitinə qiymət verərkən bir qayda olaraq kapitalın daxil və xaric olması, inflyasiyanın və faiz dərəcələrinin səviyyəsi, ÜDM-də yığımın xüsusi çəkisi, ölkənin təbii ehtiyatları və ekologiyanın vəziyyəti; əmək ehtiyatlarının keyfiyyəti; infrastruktur obyektlərinin inkşaf səviyyəsi; siyasi sabitlik və onun gələcəyi; makroiqtisadi sabitlik; büdcənin vəziyyəti, tədiyə balansı və dövlət borcu; dövlət idarəetməsinin keyfiyyəti; qanunvericilik, iqtisadi həyatın tənzimlənməsinin keyfiyyəti və əhatəliliyi; liberallaşdırma dərəcəsi; qanunçuluğa və hüquq qaydalarına əməl olunmasının səviyyəsi, cinayətkarlıq və korrupsiya; mülkiyyət hüququnun müdafiəsi, korporativ idarəetmənin səviyyəsi; tərəfdaşların müqavilə öhdəliklərini yerinə yetirmələri; vergi sistemi və vergi ağırlığının səviyyəsi; bank sistemi və digər maliyyə təşkilatlarının keyfiyyəti; kreditləşdirmənin sadə və əlverişli olması; iqtisadiyyatın açıq olması, xarici ölkələrlə ticarət qaydaları; bazara daxil olmağın inzibati, texniki, informasiya və başqa maneələri; iqtisadiyyatın inhisarlaşdırılması səviyyəsi və s.

**İnvestisiya mühitini bu çoxsaylı ünsürlərdən ibarət olan aşağıdakı quruplarda birləşdirmək olar**: 1) Ölkədəki sosial-siyasi şərait və onun perspektivləri; 2) daxili iqtisadi şərait və onun perspektivləri; 3) xarici iqtisadi fəaliyyət və onun perspektivləri. Bunların hər birinin öz «çəkisi» var və bal sistemi ilə qiymətləndirilir. Öz kapitalını ixrac edən sahibkarı həm bu amillərin hər biri, həm də ən başlıcası maraqlandırır. Xarici sahibkarın fikrincə, bu, onun başqa ölkələrdə rastlaşdığı müxtəlif növ məsuliyyətləri səciyyələndirən amillərdir. Bu halda məsuliyyət investor tərəfindən qoyulmuş vəsaitin itirilməsi ehtimalıdır.

**Riskin təsnifləşdirilməsi ilə əlaqədar digər baxışlar da vardır.** Bunlardan aşağıdakıları qeyd etmək olar: 1) Bəzi sosial risklər də daxil olmaqla, siyasi risklər; 2) maliyyə riskləri. Bu, ölkəyə və onun hüquqi şəxslərinə verilən borc kapitalının ödənilə bilməsi imkanları ilə müəyyən edilir; 3) əməliyyatlar üzrə risklər. Bunlara aşağıdakıları aid etmək olar: a) xarici ticarət fəaliyyəti ilə əlaqədar risklər (xarici ticarət riski); b) istehsal fəaliyyəti ilə əlaqədar olan risklər (istehsal riski).

Riskin qiymətləndirilməsi investorların hamısı, xüsusilə də xaricdə investisiya qoyuluşunu həyata keçirənlər üçün olduqca vacibdir. Çünki xarici investor tanış olmadığı mühitə düşür. Ona görə də o, bu yeni mühitin müsbət və mənfi cəhətlərindən xəbərdar olmalıdır. Bu məqsədlə müxtəlif mənbələrdən informasiya almaq, onu təhlil etmək və qiymətləndirmək lazımdır. Burada məqsəd xaricdə firma yaratmaq istəyən investora ilkin mərhələdə «harada» (kapital qoyuluşu üçün ölkə seçilərkən), «necə» (bazara daxil olmaq üsulu müəyyən olunarkən) və «nə zaman» (layihədə nəzərdə tutulan müddətdən asılı olaraq) suallarına cavab axtarmaqda kömək göstərməkdir. Xaricdə fəaliyyət göstərən firmalara münasibət isə başqa cür olmalıdır. Çünki onlar demək olar ki, fəaliyyət göstərdikləri ölkələrin necə deyərlər, «ab-havasına» öyrənmişlər və onları digər məsələlər – bazarda fəaliyyətin genişləndirilməsinin məqsədəuyğun olub-olmaması, hansı məhsulların satışının təşkili və s. maraqlandırır.

**Riskin azaldılmasının mümkün olan aşağıdakı metodları vardır:** 1) layihənin dəyərinə «riskə görə mükafatın» əlavə edilməsi. Məsələn, 100 bal sistemi ilə ölkə üzrə ümumi investisiya riskinin səviyyəsi 90-100 bal təşkil edirsə, investor layihənin dəyərinə böyük məbləğdə «riskə görə mükafat» əlavə etmir. Bu səviyyə 80-89 bal həddindədirsə real diskont dərəcəsinin (inflyasiyadan «təmizlənmiş») 3 faizlik həddi qədər artırılması məqsədəuyğundur. Bu səviyyə 60 baldan aşağı olduqda diskont dərəcəsinə 11%-lik bənd əlavə edilməsi münasib sayılır; 2) xaricdə investisiya fəaliyyətindən mümkün olan itkiləri sığortalamaq üçün firmaların ehtiyat fondlarının yaradılması və ya genişləndirilməsi; 3) xüsusi sığorta şirkətləri, habelə dövlət təşkilatları vasitəsilə

siyasi riskdən sığortalanma. ABŞ-da bunlar ixrac-idxal bankı və xarici xüsusi investisiya korporasiyalarıdır; 4) elə layihə seçmək lazımdır ki, bu, doğrudan da onu qəbul edən ölkəyə lazım olsun və xaricdə «himayə» edilsin; 5) riskin, mülkiyyətin qeyri-səhmdar formasından istifadə olunmasına əsaslanan səmtə yönəldilməsi.

Riskin azaldılmasına imkan verən digər üsullardan da istifadə edilə bilər və bunlar şübhəsiz ki, kapitalın hərəkətinin sürətləndirilməsinə təsir göstərir.

**Kapital ixracının əsas subyektləri** transmilli korporasiyalardır. Müasir transmilli korporasiyalar dünya sənaye məhsulları istehsalının 50%-nə, xarici ticarətin 63%-nə, yeni texnika, texnologiya və nou-hau üzrə patent və lisenziyaların 4/5 hissəsinə, dünya taxıl, qəhvə, qarğıdalı, meşə materialları, tütün, cut və dəmir filizi bazarlarının 90%-nə, mis və alüminium filizi bazarlarının 85%-nə, çay və qalayın 80%-nə, banan, təbii kauçuk və xam neft bazarlarının 75%-nə nəzarət edir.

Transmilli korporasiyaların əsasını çox böyük iqtisadi hakimiyyətə malik olan təqribən 500 ən iri şirkət təşkil edir. Aparıcı transmilli korporasiyaların fəaliyyətinin miqyası orta səviyyəli ölkələrin ÜDM-i ilə müqayisə oluna bilər və onlar öz iradələrini bir çox ölkələrə qəbul etdirmək iqtidarındadırlar.

**Transmilli kapital həm də müəyyən ziddiyyətlər doğurur.** Onlar bir tərəfdən investisiya qoyduqları ölkələrə yeni əmtəələr, mütərəqqi texnologiyalar, istehsal mədəniyyəti gətirir, digər tərəfdən isə dünya iqtisadiyyatının qeyri-sabitliyini gücləndirir. Həm də müasir iqtisadi məkanda sərbəst hərəkət edən transmilli kapitalın xeyli hissəsi möhtəkirlik xarakteri daşıyır.

Transmilli korporasiyaların iqtisadi gücü və «vətənsiz xarakterdə» olması milli təsərrüfatlar səviyyəsində onların fəaliyyətinin tənzimlənməsini çətinləşdirir. Bununla əlaqədar olaraq mütəxəssislər dünyada (hər şeydən əvvəl inkişaf etməkdə olan ölkələrdə) milli dövlət və transmilli kapitalın timsalında ikihakimiyyətlilik sisteminin formalaşdığını deyirlər. Onların fikrincə perspektivdə bu problem yalnız **«dünya hökuməti»** funksiyasını

öz öhdəsinə götürən benyəlxalq təşkilatlar tərəfindən həll oluna bilər.

**Transmilli korporasiyaların müdafiəsi ilə əlaqədar bir sıra tədbirlərdən istifadə olunur.** Bunlara aşağıdakılar daxildir: birbaşa investisiyalara dövlət tərəfindən təminat verilməsi və onların sığortalanması; investisiya mübahisələrinin tənzimlənməsinin müdafiə edilməsi və investisiya sferasında beynəlxalq arbitrajın ixtisaslaşdırılmış təşkilatlarının yaradılması (investisiya mübahisələrinin tənzimlənməsi üzrə beynəlxalq konvensiyanı 115 ölkə imzalamışdır); investorlar üçün ədalətli və qeyri-ayrıseçkilik şəraitinin yaradılması, onların ikiqat vergitutmadan azad edilməsi, xarici bazarların mənimsənilməsində ölkəni təmsil edən transmilli korporasiyaların inzibati və diplomatik yolla müdafiə olunması.

**Dünya təcrübəsi** göstərir ki, strategiya və taktika düzgün qurulduqda xarici kaptital ölkə iqtisadiyyatının inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə təsir etmək iqtidarındadır.

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, hazır əcnəbi məhsulların satın alınması üçün kredit götürülməsinə nisbətən daha sərfəlidir. Çünki götürülən kredit xarici borcun artmasına səbəb olur. Digər tərəfdən, xarici kapital ölkəyə öz-özünə, kortəbii surətdə deyil, dövlətin nəzarəti altında gəlməlidir. Belə olmadıqda, kapitalın axını nəzarətdən çıxdıqda bu, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına zərbə vurur və ən yaxşı halda **müstəmləkə tipli kapitalizmin inkişafı üçün şərait yaradır.**

Müasir dövrdə, dünyada milli təsərrüfatların inkişaf etdirilməsində xarici iqtisadi amillərin rolunun artması ilə əlaqədar olaraq iqtisadi əlaqələrin liberallaşdırılması, iqtisadiyyatın açıq olması dərəcəsinin yüksəlməsi meylləri özünü daha qabarıq şəkildə göstərir. Bununla birlikdə dünyanın bütün ölkələrində qeyri-qanuni varlanma hallarına yol verilməməsi və milli mənafelərə ziyan vurulmaması üçün xarici investisiyalar bu və ya digər formada tənzimlənir.

## 23.4. Xarici investisiyaların dövlət tərəfindən tənzimlənməsi mexanizmi

Hazırda ölkəmizdə dinamik bazar iqtisadiyyatı – xaprici dünyanın üzünə açıq və çox böyük yanacaq və xammal ehtiyatlarına malik olan ölkəmizin nadir təbii və iqtisadi potensialından istifadə etməyə imkan verən iqtisadiyyat yaradılır. Lakin ölkəmizdə bu prosesin daxili imkanlar hesabına həyata keçirilməsi demək olar ki, mümkünsüzdür. Odur ki, **Azərbaycan dövləti** müstəqilliyimizin ilk illərindən iqtisadiyyatımızın bazar münasibətləri əsasında yenidən qurulması və onun strukturunun təkmilləşdirilməsində çox mühüm rol oynayan xarici investisiyaların cəlb olunmasına xüsusi əhəmiyyət verir. Bu məqsədlə ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb olunması sahəsində hələlik tam və mükəmməl olmasa da, dövlət tənzimləmə sistemi formalaşdırılmış və fəaliyyət göstərir.

Xarici kapital yeni texnologiyaların əldə edilməsi və idarəetmə təcrübəsinin öyrənilməsini təmin edə, əmək mədəniyyətinin yüksəlməsinə təsir göstərə, iqtisadiyyatın strukturunun yeniləşdirilməsinə, rəqabətin inkişaf etməsinə, ölkənin ixrac potensialının artmasına, regionların problemlərinin həll edilməsinə öz töhfəsini verə bilər.

**Azərbaycanda 1992-ci ildən indiyədək ölkədə xarici investisiyaların tənzimlənməsi üçün kifayət qədər hüquqi və normativ aktlar (qanunlar, qərarlar, göstərişlər, təlimatlar) qəbul edilmişdir. Bunların içərisində «Xarici investisiyaların tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının qanunu xüsusi yer tutur.**

Qanunda **Azərbaycan Respublikasının ərazisində** xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsipləri müəyyən edilir, xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl texnikanın və texnologiyanın, idarəetmə təcrübəsinin ölkəyə gətirilməsinə bunlardan səmərəli istifadə edilməsinə yönəldilmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verilir.

**Azərbaycan Respublikasında** xarici hüquqi şəxslər, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayı

yeri olan Azərbaycan Respublikası vətəndaşları (bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar), xarici dövlətlər, **beynəlxalq təşkilatlar xarici investor hesab edilir.**

**Ölkəmizdə** xarici investorlar tərəfindən investisiya qoyuluşu aşağıdakı yollarla həyata keçirilir: 1) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə və təşkilatlarda payla iştirak; 2) tamamilə xarici investorlara məxsus olan müəssisələrin yaradılması; 3) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi, 4) müəssisələrin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların və xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi; 5) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələrin bağlanması.

Xarici investisiyalı müəssisələr ölkəmizin qanun-vericilik aktlarında nəzərdə tutulan şərtlərlə birləşib assosiasiyalar, konsernlər, konsorsiumlar və başqa birliklər yarada bilərlər. Bu qəbildən olan müəssisələrdə nizamnamə fondunun 25%-dək məbləğində ehtiyat fondu yaradıla bilər. Bu fond illik ayırmalar yolu ilə yaradılır. Ayırmaların məbləğini və valyutanın növünü müəssisə müəyyən edir.

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula (işlərə, xidmətlərə) qiymət qoymaq, ölkənin daxili bazarında onun satışının şərtlərini müəyyənləşdirmək, bu bazardan məhsul (işləri, xidmətləri) göndərənləri seçmək səlahiyyətinə malikdir. Bundan başqa, tamamilə xarici investorlara məxsus olan müəssisələr, habelə nizamnamə fondunun 30%-dən çoxu xarici investisiyadan ibarət olan müəssisələr istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilərlər.

**Ölkəmizin hüdudları** daxilində fəaliyyət göstərən xarici investisiyalı müəssisələrdə istehsal və əmək münasibətləri, o cümlədən işəgötürmə və işdən azadetmə, əmək və istirahət rejimi, əmək haqqı və s. məsələlər kollektiv və fərdi əmək müqavilələri ilə tənzimlənir.

**Dünya təcrübəsində xarici investisiyalar yerləşdirilərkən bu və ya digər məhdudiyyətlərin olması nəzərdə tutulur.** Bu məhdudiyyətlər bir qayda olaraq həlledici sahələrə, yalnız milli kapitalın formalaşdığı dövlət və ya qarışıq xüsusi-dövlət inhisarında olan sahələrə, torpaq üzərində mülkiyyətə aid edilir. Belə hesab olunur ki, məhdudlaşdırma təcrübəsindən bütün hallarda – xarici investisiyalar ayrı-ayrı sahələrin inhisarlaşdırılmasına yönəldildikdə, xarici və daxili bazarlarda ölkədə istehsal olunan məhsulların rəqabət qabiliyyətinin möhkəmləndirilməsinə maneçilik törətdikdə, işsizliyi stimullaşdırdıqda, iqtisadi cinayətkarlığı və strateji materialların, texnologiyaların və kapitalın qeyri-leqal yolla xaricə aparılmasına maraq yaratdıqda – istifadə etmək lazımdır.

**Azərbaycan ərazisində xarici kapitalın fəaliyyəti daxili qanunvericilik aktları ilə yanaşı, həm də beynəlxalq qanunlar, qaydalar, konvensiyalar və dövlətlərarası müqavilələrlə tənzimlənir.**

**Hazırda Azərbaycan Respublikasında** xarici investisiyaların dövlət tərəfindən tənzimlənməsi sistemi yaradılmışdır. Bunlara müxtəlif nazirliklər, məsləhət komissiyaları, işçi qrupları, ayrı-ayrı ölkələrin və şirkətlərin nümayəndəlikləri daxildir. Bu strukturlar ölkədə investisiya mühitinin yaxşılaşdırılması, onun imicinin yüksəldilməsi, vergi, gömrük və valyuta siyasətinin təkmilləşdirilməsi məsələləri ilə məşğul olurlar. Aparılan məqsədyönlü işlərin nəticəsidir ki, ölkəmizin iqtisadiyyatına xarici investisiya qoyuluşu ildən-ilə artır.

**Ölkəmizin iqtisadiyyatına xarici investisiya qoyuluşuna neft sektorundan başlanmışdır və bu heç də təsadüfi deyildir.** Çünki neft və qaz ölkəmizin ən böyük sərvətidir. Digər tərəfdən, neft sənayesinə qoyulan kapital iqtisadiyyatımızın digər sahələrinin inkişaf etdirilməsi üçün multiplikator rolunu oynaya bilər və oynayır. Ölkəmizdə çox qısa müddətdə əlverişli investisiya mühiti yaradıldığına görə 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» bağlandıqdan sonra Azərbaycan iqtisadiyyatına, birinci növbədə neft sənayesinə xarici kapital axını xeyli güclənmişdir. Belə ki, 1996-2001-ci illərdə ölkəmizin iqtisadiyyatına 9,0 mlrd. ABŞ dolları məbləğində investisiya qoyulmuşdur ki,

bunun da 6,0 mlrd. dolları və ya 67,0%-i xarici investisiyaların payına düşür. Həmin dövrdə iqtisadiyyatımıza qoyulmuş xarici investisiyaların5,3 mlrd. dolları və ya 59,0%-i neft sənayesinə yönəldilmişdir. 1996-2003-cü illərdə xarici investisiya qoyuluşu 10,0 mlrd. dollar təşkil etmiş, hazırda isə təqribən 20,0 mlrd. dollara bərabərdir. Ümumiyyətlə, iqtisadiyyatımıza 50,0 mlrd. dollardan çox xarici investisiya qoyulacağı gözlənilir ki, bu da **Azərbaycan Respublikasının xarici investorlar üçün çox münasib bir məkan olduğunu deməyə əsas verir.**

Beləliklə, ölkəmizin iqtisadiyyatına xarici investisiya axınının yaxın gələcəkdə çox sürətlə artacağı gözlənilir. Bu, bir tərəfdən «Əsrin müqaviləsi»ndə Azərbaycanın maraqlarının təmin olunması ilə əlaqədardırsa, digər tərəfdən, xarici investisiyalar üçün çox əlverişli şərait yaradımasının nəticəsidir. Mütəxəssislərin hesablamalarına görə yalnız «Azəri-Çıraq-Günəşli» yataqlarından Azərbaycanın payına düşən nəqd pul daxil olmalarının 2006-cı ildə 1,0 mlrd., 2007-ci ildə 1,8 mlrd., 2009-cu ildə 3,0 mlrd., 2012-ci ildə təxminən 5,0 mlrd. ABŞ dolları məbləğinə çatacağı gözlənilir. Ümumiyyətlə götürdükdə isə beynəlxalq bazarda neftin 1 barelinin 50 ABŞ dolları səviyyəsində olacağı təqdirdə 2020-ci ilədək ölkəmizə 140-160 mlrd. dollar mənfəət neftinin daxil olacağı proqnozlaşdırılır.

**Lakin bunlarla yanaşı qeyd etmək lazımdır ki, xarici investisiyaların iqtisadiyyatımıza cəlb edilməsi sahəsində aparılan siyasətin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsinə ehtiyac duyulur:**

1) xarici investisiyaların ölkə iqtisadiyyatını əhatəetmə dairəsi genişləndirilməli, yəni o neft sektoru ilə yanaşı, digər sahələri və Azərbaycanın bütün bölgələrini əhatə etməlidir;

2) inkişaf etmiş ölkələrlə elmi-texniki əməkdaşlıq daha da genişləndirilməli, süni əngəlləmələr aradan qaldırılmalı, daxili bazarın qorunmasında iqtisadi vasitələrə üstünlük verilməlidir;

3) ölkəmizə xarici investisiyaların cəlb edilməsi xüsusi proqram əsasında həyata keçirilməlidir;

4) xarici investisiyaların qorunması və onların səmərəliliyinin artırılması məqsədilə xüsusi güzəştlər nəzərdə tutulmalıdır;

5) respublikamızın müxtəlif ərazilərində, hər şeydən əvvəl Bakı yaxınlığında, Gəncə və Sumqayıt şəhərlərinin yerləşdikləri ərazilərdə təbii-iqtisadi potensialdan səmərəli istifadə olunmasında mühüm rol oynayan azad iqtisadi zonaların yaradılması qayğısına qalınmalıdır;

6) xarici investisiyalar infrastruktur sahələrinin inkişaf etdirilməsinə yönəldilməli, dövlətin investisiya siyasətinin əsas istiqamətlərindən birinə çevrilməlidir;

7) ölkə və xarici sahibkarlar üçün vergitutma rejimində sahələr üzrə investisiya prioritetləri və məqsədli investisiya proqramları üçün vergi güzəştləri müəyyən edilməlidir.

Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar olaraq, milli iqtisadiyyatın ölkəmiz üçün həyati əhəmiyyətə malik olan xarici investisiyalardan müdafiə edilməsi barədə deyil, bu labüd prosesin əlavə mənfi təzadlarının bitərəfləşdirilməsi və investisiya mexanizminin təhlükəsizlik sistemi ilə təchiz edilməsi haqqında fikirləşmək lazımdır.

**Milli iqtisadiyyatın xarici investisiyalardan müdafiə olunmasına gəldikdə isə bu, zəruridir və aşağıdakıları əhatə etməlidir:** onların təbii resurslardan səmərəsiz istifadə etmələrinə, ekologiyanı korlayan istehsalatları yaratmalarına, iqtisadiyyatdan valyuta vəsaitinin axıb getməsinə, işsizliyin əmələ gəlməsinə yol verilməməli, milli iqtisadiyyatın strateji cəhətdən əsas sahələri xarici kapitalın təzyiqindən qorunmalıdır və i.a.

**Müəyyən fəaliyyət növləri isə dövlət inhisarında olduğuna görə xarici investisiyaların bu sahələrə gəlməsinə yol verilməməlidir. Bunlara aşağıdakılar aiddir:**

- bütün növlərdən olan silahların, partlayıcı maddələrin istehsalı və təmiri;
- narkotik, güclü təsiredici və zəhərləyici şeylərin hazırlanması və satışı;
- tərkibində narkotik və zəhərləyici maddələr olan bitkilərin əkilməsi, becərilməsi və onların məhsullarının satışı;
- qiymətli metal filizlərinin, radioaktiv elementlərin emalı;
- spirtli içkilərin və tütün məmulatının istehsalı.

**Xarici şirkətlərin fəaliyyətinin məhdudlaşdırılmasına qərb ölkələrində də rast gəlinir.** Bu məhdudiyyətləri həyata keçirməkdə məqsəd ölkənin həyat təminatı sisteminin əsas sahələrini nəzarətdə saxlamaqdan, həmçinin bir sıra çox mühüm sahələrin ölkə xaricində qəbul olunan qərarlardan asılılığına yol verməməkdən ibarətdir. Bu tədbirlərin həyata keçirilməsi mülkiyyət münasibətlərinin təkmilləşdirildiyi Azərbaycan Respublikası üçün də çox böyük əhəmiyyətə malikdir.

## NƏTİCƏ

ölkələr arasında meydana çıxan iqtisadi münasibətlər obyektiv xarakter daşıyır. Bu, beynəlxalq əmək bölgüsü ilə əlaqədardır. Bunlar isə dünya təsərrüfatında mövcud mühitin öyrənilməsi və onun haqqında zəruri məlumatların toplanmasını zəruri edir;

bir neçə yüzilliklər ərzində milli-dövlət formaları cəmiyyətin təsərrüfat və sosial-mədəni həyatının ən əlverişli forması olsa da, tarixi inkişafın gedişində məlum olmuşdur ki, ölkələrin bir-birindən təcrid olunmuş halda inkişaf etməsi və öz tələbatını tamamilə yerli istehsal hesabına ödəməsi mümkün və iqtsiadi cəhətdən səmərəli deyildir;

dünyada gedən qloballaşma ilə əlaqədar olaraq ölkələrarası iqtisadi münasibətlərdə istifadə olunan qaydaların əhəmiyyəti kəskin surətdə artmışdır. Lakin vahid dünya təsərrüfat məkanının formalaşması prosesi ziddiyyətli gedir. Bu, özünü onda göstərir ki, bir tərəfdən qloballaşma, universallaşma və vahid şəklə salınma prosesi gedir, bir sıra ümumi prinsip və qaydalar, bəzi ümumi məqsədlər əsasında fəaliyyət göstərən iqtisadi mühit formalaşır, digər tərəfdən isə mədəniyyətlərin, davranış normalarının müxtəlifliyinə, həyat tərzi və həyat səviyyəsindəki fərqin artmasına təsir edən yerli meyllər meydana çıxıb fəaliyyət göstərir;

hazırda beynəlxalq əmtəə tədavülü dairəsində əmtəələrin ən sadə formasından (fərdi əmtəə) ən mürəkkəb formalarınadək

(əmtəə qrupları) təkamül prosesi müşahidə olunur. Mürəkkəb əmtəələrə obyekt-əmtəələr, əmtəə-proqramlar və s. misal ola bilər;

qloballaşma ilə əlaqədar yeni subyektlər meydana gəlmişdir. Bunlar BVF, Dünya Bankı, YUNESKO, DTT, FAO, qeyri-hökumət təşkilatları və s-dir;

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinə tam hüquqlu üzv kimi daxil olmaq və inteqrasiya prosesində fəal iştirak etmək yolunu seçmişdir. Çünki inteqrasiya prosesində iştirak etmək tərəflər üçün bir sıra əlverişli şərait yaradır. İnteqrasiya əlaqələri maddi, əmək və maliyyə ehtiyatlarından, ən yeni texnika və mütərəqqi texnologiyalardan istifadə olunmasına, yüksək keyfiyyətli məhsullar hazırlanmasına, ölkələrin iqtisadi inkişaf səviyyələrinə görə bir-birinə yaxınlaşmasına imkan verir;

inteqrasiya prosesləri nə qədər məqsədyönlü olsa da, Azərbaycan iqtisadiyyatının vəziyyəti onun rəqabət qabiliyyətinin, sənaye və maliyyə kapitalının artırılmasını, Qərbin aparıcı dövlətlərinin, beynəlxalq iqtisadi qurumların, güclü transmilli korporasiyaların möhkəmlənməkdə olan təsirindən qorunmaq məqsədilə milli mənafelərin müdafiəsi üçün yeni vasitə və metodların inkişaf etdirilməsini tələb edir;

XİF-in əsas formalarından biri də beynəlxalq miqyasda kapitalın hərəkətidir. Ona görə də dünya iqtisadiyyatına inteqrasiya prosesinə fəal qoşulan Azərbaycan üçün açıq qapı siyasətinin yeridilməsi çox böyük əhəmiyyətə malikdir. Lakin bununla yanaşı, milli iqtisadiyyatın xarici investisiyalardan müdafiə olunması da olduqca vacibdir. Bu məqsədlə bir sıra tədbirlər görülüb, həyata keçirilməli, xarici şirkətlərin fəaliyyətinin məhdudlaşdırılması metodundan istifadə olunmalıdır. Bunu etməkdə məqsəd ölkənin həyat təminatı sisteminin əsas sahələrini nəzarətdə saxlamaqdan ibarətdir.

Azərbaycan ərazisində xarici kapitalın fəaliyyəti daxili qanunvericilik aktları ilə yanaşı, həm də beynəlxalq qanunlar, qaydalar, konvensiyalar və dövlətlərarası müqavilələrlə tənzim-

lənir. Hazırda Azərbaycanda xarici investisiyaların dövlət tərəfindən tənzimlənməsi sistemi yaradılmışdır;

ölkəmizin iqtisadiyyatına xarici investisiya qoyuluşuna neft sektorundan başlanmışdır və bu heç də təsadüfi deyildir. Çünki neft və qaz ölkəmizin ən böyük sərvətidir. Digər tərəfdən, neft sənayesinə qoyulan kapital iqtisadiyyatımızın digər sahələrinin inkişaf etdirilməsi üçün multiplikator rolunu oynayır. İndi iqtisadiyyatımızın digər sahələrinə də xarici investisiya axını müşahidə olunur. Lakin xarici investisiyaların ölkəmizə cəlb edilməsi siyasətinin təkmilləşdirilməsinə ehtiyac vardır;

elə fəaliyyət növləri vardır ki, xarici investorların bu sahələrə gəlməsinə yol verilməməlidir. Bunlara hər şeydən əvvəl hərbi sənaye məhsullarını istehsal edən müəssisələri, narkotik maddələri, qiymətli metal filizlərini və s-ləri misal göstərmək olar. Xarici şirkətlərin fəaliyyətlərinin məhdudlaşdırılmasına Qərb ölkələrində də rast gəlinir.

# XXIV FƏSİL

# MÜASİR DÖVRDƏ CƏMİYYƏTİN İQTİSADİ VƏ SOSİAL HƏYATINDA DÖVLƏTİN ROLUNUN DƏYİŞMƏSİ

## 24.1 Dövlətlə iqtisadiyyat arasındakı qarşılıqlı münasibətlərdə yeni meyllər

Dövlət və iqtisadiyyat bir-biri ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərirlər. Dünyada eyni iki dövlət olmadığı kimi dövlətlə iqtisadiyyat arasındakı qarşılıqlı münasibətlərdə eyni xarakterli nümunənin olması da qeyri-mümkündür. Lakin tarixdə bir tərəfdən iqtisadiyyatın dövlətin tabeliyindən çıxarılması, digər tərəfdən isə onun iqtisadiyyata məhdud miqyasda müdaxilə etməsi halları da olmuşdur. Müasir dövrdə isə cəmiyyətdə gedən iqtisadi və sosial proseslərin tənzimlənməsində dövlətin rolunun artması meylləri müşahidə olunur.

Hazırda dövlət, təsərrüfat subyektləri arasındakı davranış qaydalarını müəyyən edir və ona riayət olunması üzərində nəzarəti həyata keçirir. **Başqa sözlə, dövlət, təsərrüfat fəaliyyətini tənzimləyən qanun, qərar və tövsiyələri** işləyib hazırlayır və qəbul edir, əsas ictimai nemətlərlə (təhsil, səhiyyə, infrastruktur, ölkənin və mülkiyyətin müdafiəsi, makroiqtisadi sabitlik və i.a.) təmin olunmasında başlıca rol oynayır, müasir iqtisadi inkişaf səviyyəsi üçün səciyyəvi olan bir sıra vəzifələri - antiinhisar siyasəti yeridilməsi, istehlakçıların hüquqlarının müdafiəsi, pensiya təminatı və sosial sığorta, maliyyə tənzimləməsi, bazarların (əmtəə, xidmət, investisiya bazarları və i.a.) stimullaşdırılması və i. a. yerinə yetirir. Bunlarla yanaşı, dövlət həm də investisiya qoyuluşu, kreditləşdirmə, əmtəə və xidmətlərin satın alınması yolu

ilə təsərrüfat fəaliyyətində iştirak edir, müqavilə bağlanması üzrə danışıqlar aparır və i.a.

**Beləliklə, XX əsrin son qərinəsində dünya** iqtisadiyyatında baş verən çox ciddi dəyişikliklər nəticəsində cəmiyyətin iqtisadi və sosial inkişafında dövlətin rolu dəyişmişdir. Bu, əsas etibarilə dünya iqtisadiyyatının qlobal xarakter daşıyan parametrlərinin dəyişməsi ilə əlaqədardır. Ona görə də hazırda dövlətin iqtisadi proseslərə müdaxilə etməsinin kəmiyyət tərəfinə deyil, bu müdaxilənin səmərəliliyi, əhalinin tələbatının ödənilməsi dərəcəsinə xüsusi diqqət yetirilir.

**Müasir dövrdə dünya iqtisadiyyatının inkişaf meyllərindən biri çox böyük qlobal problem olan yoxsulluğun azaldılması və gələcəkdə tamamilə aradan qaldırılmasıdır.** Çünki bu problemi həll etmədən ölkə iqtisadiyyatının sabit inkişaf etdirilməsinin təmin olunması mümkün deyildir. Buna nail alunması isə aşağıdakı şərtlərin həyata keçirilməsi əsasında mümkündür: 1) ölkənin bütün vətəndaşları – adi işçidən tumuş ən yüksək rütbəli məmuradək – hamı tərəfindən qanunlara hörmətlə yanaşılması və onlara ciddi əməl olunması; 2) makroiqtisadi sabitlik də daxil olmaqla ən əlverişli siyasi-iqtisadi mühitin formalaşdırılması; 3) əmək ehtiyatlarına, daha dəqiq desək ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və infrastrukturun yaradılmasına investisiya qoyulması; 4) əhalinin aztəminatlı hissəsinin qayğısına qalınması və müdafiə olunması; 5) ətraf mühitin mühafizəsi.

**Bu şərtlərin həyata keçirilməsi istər-istəməz iqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun artmasını obyektiv zərurətə çevirir.** Odur ki, müasir dövrdə dövlət, demək olar ki, təsərrüfat fəaliyyətinin bütün sahələrinə - qiymətlərin əmələ gəlməsinə, əmək münasibətlərinə, valyuta-maliyyə bazarlarına, infrastruktura, xarici iqtisadi əlaqələrə, sənayeyə, aqrar bölmə və istehsalın digər sahələrinə, təhsil, mədəniyyət, səhiyyə, ictimai nemətlərin istehsalına və i.a. – müdaxilə edir.

Lakin qeyd etmək lazımdır ki, bu müdaxilə birmənalı xarakter daşımır. Başqa sözlə, dövlət bəzi hallarda iqtisadi inkişafı sürətləndirir, digər hallarda isə əksinə, onu ləngidir.

Dövlətin iqtisadi və sosial proseslərə müdaxiləsinin səmərəliliyi bu müdaxilənin miqyası ilə deyil, onun faydalılığı ilə müəyyən edilir. Bunu 1997-ci ildə dünya iqtisadiyyatının inkişafı haqqında Dünya Bankının hesabatından da aydın görmək olar. Belə ki, hesabatda dövlətin rolunun genişlənməsi meyli aşağıdakı kimi səciyyələndirilir: «son yüzillik ərzində dövlətin – xüsusilə də sənayecə inkişaf etmiş ölkələrdə – funkisyaları xeyli genişlənmişdir. İnkişaf etməkdə olan ölkələrin çoxunda da dövlətin aparıcı rol oynadığı startegiyaya ümid edilir. Nəticədə... ümumi daxili məhsulda dövlət xərclərinin payı sənayecə inkşiaf etmiş ölkələrdə demək olar ki, 50%-ə, inkişaf etməkdə olan ölkələrdə isə təqribən 25%-ə çatmışdır».[1]

Tarixi təcrübə göstərir ki, dövlət, iqtisadi inkişafa müxtəlif yollarla təsir edə bilər. Bunlara hər şeydən əvvəl, səmərəli iqtisadi fəaliyyət üçün düzgün stimulların formalaşdırılmasına təsir göstərən əlverişli makro və mikromühitin yaradılması; uzunmüddətli dövrdə fayda verən investisiyalara maraq yaradan daimi ümumi xarakterli infrastrukturun – mülkiyyət hüququ, qanunçuluq, hüquq qaydaları və normaları – təmin edilməsi, iqtisadi fəaliyyət üçün zəruri olan təhsilin, səhiyyənin, infrastrukturun ən adi əsaslarının işlənib hazırlanması; ətraf mühitin mühafizəsi və s-lər aiddir.

Lakin bunlarla yanaşı, tarixi faktlara əsasən demək olar ki, **dövlət cəmiyyətə böyük məbləğdə ziyan da vura bilər və vurur.** Bunlar özünü onda göstərir ki, dövlət, qiymətlər vasitəsilə (məsələn, valyuta məzənnələrini yüksəltmək), yaxud da kənd təsərrüfatı məhsullarının marketinqi idarəsini yaradıb, fermerlərin

---

[1] Мировая экономика. Экономика зарубежных стран. Учебник. М., 1999, с. 173, 174 (mətnin rus dilindən tərcüməsi müəlliflərindir).

məhsullarını vergiyə cəlb etmək yolu ilə xüsusi təşəbbüsləri «boğur», müəyyən edilmiş qaydalar «bütün standartlara» cavab versə də, onlar dövlət orqanları və qulluqçuları tərəfindən şəxsi mənafelər baxımından qiymətləndirilir və tətbiq olunur. Məsələn, hər hansı bir şəxs yeni bir şirkət yaratmaq, yaxud da köhnə şirkətini yenidən qurmaq istədikdə səlahiyytəli orqanların adından danışan dövlət məmurları rüşvət almaq məqsədilə əlavə sənədlər tələb etmək, get-gələ salmaqla sahibkarları bezdirir və ruhdan salır, onlarda hakimiyyətə olan inamı qırırlar.

**Dövlətin vurduğu ziyan özünü həm də qeyri-müəyyənlikdə göstərir.** Dövlət, öz fəaliyyətində əsas götürdüyü normaları tez-tez dəyişdirdikdə, yaxud da onlar barədə kütləvi izahat işləri aparmadıqda işgüzar dairələr və vətəndaşlar arasında qeyri-müəyyənlik əmələ gəlir, gələcəyə inam azalır. Daha doğrusu, onlarda gələcəkdə mənfəət əldə edə biləcəkləri, yaxud da ziyan çəkəcəkləri, fəaliyyətinin qanuni və ya qeyri-qanuni hesab edilə biləcəyi haqqında qeyri-müəyyənlik meydana çıxır. Ona görə də onlar özlərini bu qeyri-müəyyənlikdən sığortalamaq üçün xəlvəti iqtisadiyyata keçməyə, yaxud da kapitalı xaricə aparmağa üstünlük verirlər. Bütün bunlar isə iqtisadi inkmşafı çətinləşdirir.

Dövlətin iqtisadi fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün hamı tərəfindən qəbul olunmuş ümumi qayda yoxdur. Bu sahədə dəyişikliklərin ümumi istiqaməti dövlət strukturlarında islahatların aparılması, bazar və dövlət mexanizmləri arasındakı nisbətə yanaşmada yeni metodların axtarışından ibarət ola bilər.

**İqtisadi və sosial inkişafla əlaqədar tələbata tez, çevik və adekvat reaksiya verən «yaxşı» dövlətin, başqa sözlə, dövlət strukturlarının formalaşdırılması həyati zərurətdir.** Lakin bu, onilliklər ərzində həyata keçirilə bilər. Və hətta bu istiqamətdə çox az da olsa yaxşılaşma hallarının baş verməsi insanların həyat şəraitinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb ola bilər.

**Bazar və dövlət mexanizmləri arasındakı nisbətə gəldikdə,** bazarın stimullaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlərdən aşağıdakıları qeyd etmək olar: 1) iqtisadiyyatın liberallaşdırılması; 2) dövlət mülkiyyətinin çox böyük hissəsinin özəlləşdirilməsi; 3) xüsusi biznesin tənzimlənməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi; 4) vergi sisteminin təkmilləşdirilməsi və dünya standartlarına uyğunlaşdırılması; 5) rəqabətin inkişaf etdirilməsi və təbii inhisarların məhdudlaşdırılması; 6) kiçik biznesin stimullaşdırılması; 7) bankların fəaliyyətinin tənzimlənməsi və bu sahədə böhranların aradan qaldırılması; 8) valyuta rejiminin işlənib hazırlanması və ona əməl edilməsi və i.a.

**Təcrübə göstərir ki, hökumətə etibar olan ölkələrdə bu tədbirlər müvəffəqiyyətlə həyata keçirilir.** Bəzi hallarda isə hətta hökumətə etimad iqtisadi siyasətin uğurla həyata keçirilməsi amilinə çevrilir. Lakin qeyd etmək lazımdır ki, göstərilən tədbirlər nisbidir. Çünki hər bir ölkənin prioritetləri vardır və onların özlərinin spesifik xüsusiyyətlərindən asılı olaraq bu tədbirlərdən seçim etməklə həm də iqtisadi inkişaf modellərini formalaşdırırlar.

## 24.2. İqtisadi inkişafın milli modelləri

**«Ölkə və ya milli model»** anlayışı elmi dövriyyəyə bu yaxınlarda, XX əsrin 70-ci illərinin ortalarında daxil olmuşdur və onun mahiyyəti hələlik hamı tərəfindən eyni mənada başa düşülmür.

**«Model» sözünü** isə iqtisadçılar bir neçə mənada işlədirlər. Bunlardan ikisi reallığı daha düzgün əks etdirir. **Birinci mənada** model dedikdə, cəmiyyətdə gedən hər hansı bir prosesin ümumi şəkildə təsviri başa düşülür. **İkinci anlamda** isə model dedikdə, təkrar istehsal üçün etalon sayılan nümunə nəzərdə tutulur.

Ölkə modeli anlayışından hər hansı bir dövlətin sosial-iqtisadi və siyasi inkişafında uzun müddət ərzində modelin əsasını təşkil edən aparıcı sahələrdə sabitlik hökm sürdüyü hallarda istifadə olunur. Təkrar istehsalın parametrləri pozulduqda model ya qismən, ya da tamamilə modernləşdirilir.

Ölkə modeli anlayışının ən mühüm komponentlərindən biri də onun spesifik xüsusiyyətləridir. Bu, dünyada mövcud olan milli modelləri müqayisəli şəkildə təhlil etməyə imkan verir.

**Müqayisəli təhlil isə bir və ya bir neçə meyar üzrə aparılır.** Bunun nəticələri milli modellərin tiplərə ayrılmasından ibarət ola bilər.

Beləliklə, ölkə (region, subregion) **inkişaf modeli dedikdə,** milli təsərrüfatın bütövlüyünü təşkil edən ünsür və mexanizmlər arasındakı qarşılıqlı əlaqə və asılılıqların toplusu nəzərdə tutulur. Bunlar özlərinin xarakterinə görə təbii, texnoloji, iqtisadi, sosial, siyasi, psixoloji, mədəni, tarixi şərtlər kimi qiymətləndirilə bilər.

Hər bir ölkənin iqtisadi inkişaf modeli onu əmələ gətirən ünsürlər arasındakı qarşılıqlı fəaliyyətin formalaşmasının uzun sürən tarixi prosesinin nəticəsidir. Ona görə də hər bir milli iqtisadi sistem özünə görə unikaldır və onun nailiyyətlərinin mexaniki surətdə başqaları ilə əvəz olunması mümkün deyildir.

**İqtisadi inkişaf modellərinin qiymətləndirilməsi və milli iqtisadi sistemlərin müqayisə edilməsi üçün istifadə olunan meyarlar olduqca müxtəlifdir. Bunlara aşağıdakılar aiddir:**

- mülkiyyət formaları arasındakı nisbət;
- bütövlükdə bazar mühitinin və onun ayrı-ayrı sahələrinin inkişaf səviyyəsi və təşkili formaları;
- iqtisadiyyata dövlət tərəfindən təsir göstərilməsinin hüdudları və metodları;
- aparılan iqtisadi siyasətin məqsədi və vasitələri;
- iqtisadiyyatın maliyyələşdirilməsi mənbələri, onun miqyası və innovasiya mexanizmi;

- şirkətlərin qoyduqları kapitalın strukturu;
- müəssisələrdə idarəetmə və əmək təşkili sistemi;
- iqtisadiyyatın açıq olması dərəcəsi;
- xarici iqtisadi əlaqələrin dinamikası, strukturu, idarə edilməsi və i.a.

**İqtisadi inkişaf modelinə qiymət verərkən aşağıdakı makroiqtisadi göstəricilərdən də istifadə edilə bilər:**
- ÜDM-in həcmi, strukturu və dinamikası;
- hər nəfərə düşünÜDM-in kəmiyyəti;
- istehlak qiymətləri indekslərinin dəyişməsi;
- əmək məhsuldarlığının səviyyəsi və i.a.

Bu və ya digər iqtisadi modelin səmərəliliyi, onun cəmiyyət həyatına uyğun gəlib-gəlməməsi, xarici və daxili uyğunsuzluqlara daim və adekvat reaksiya verməsi imkanları ilə müəyyən edilir. **İqtisadi inkişaf modelinin** səmərəliliyi son nəticədə ölkənin iqtisadi potensialının artması və əhalinin rifahının yüksəlməsi ilə qiymətləndirilir. Hər bir milli iqtisadi model müəyyən müddət sabit inkişaf edə bilər. Hər hansı bir ölkədə iqtisadiyyatın strukturunda mütərəqqi dəyişikliklərin getdiyi və əhalinin rifahının yüksəldiyi kifayət qədər uzun, adətən 10 ildən az olmayaraq davam edən dövrü bəzi hallarda **«iqtisadi möcüzə»** adlandırırlar. Keçən əsrin 50-ci illərinin birinci yarısından 70-ci illərinədək Almaniyanın, 60-cı illərinin birinci yarısından 70-ci illərinədək olan dövrdə isə Braziliya və Meksikanın iqtisadi inkişafında belə möcüzə baş vermişdir. 1970-1980-ci illərdə bu meyarla dünya təsərrüfatında Cənub-Şərqi Asiyada «**Yeni sənaye ölkələri**» qrupu meydana gəlmişdir. Hazırda bu termini Çin haqqında işlədirlər. Bu, onunla əlaqədardır ki, 1970-2000-ci illərdə **Çində ÜDM-in** orta illik artım sürəti təqribən 10% civarında, istehlak qiymətləri indeksi 3%, birbaşa xarici investisiyaların ümumi həcmi isə 200 mlrd. ABŞ dolları məbləğində olmuşdur.

Milli model anlayışına qiymətləndirmə funksiyası da daxil olduğuna görə ölkə iqtisadi modellərinin hər birinin özünə xas olan «bazar»ının meydana gəlməsi də qanunauyğun haldır. Ölkələr bu «bazar»larda özlərinin «nisbi üstünlükləri»nə görə iştirak edirlər. Bu «bazarlar»da tələb, elmi, işgüzar və siyasi dairələrin təsiri ilə formalaşır. Məsələn, hər il İsveçrənin Davos şəhərində keçirilən iqtisadi forumda xarici təcrübədən istifadə edilməsi imkanları haqqında müzakirələr aparılır. 1997-ci ildə keçirilən Davos forumunda inkişafın Amerika modelinə ümumi diqqət yetirilmişdir. Çünki ekspertlərin çoxu **Avropa və Asiya ölkələrinin məhz inkişafın Amerika modelindən** istifadə etmələrini məsləhət görürlər. Bununla yanaşı, **Hollandiya, Yeni Zelandiya, Sinqapur və Çili modelləri də müzakirə olunmuşdur.** Keçən əsrin 30-ci illərində əvvəlcə Almaniya, sonra isə Yaponiya modelləri nümunəvi hesab edilmişlər.

XX əsrin axırlarında ölkə modelləri «bazarlarının» fərqləndirici xüsusiyyəti ondan ibarət olmuşdur ki, onların hamısı (Şimali Koreya və Kuba modelləri istisna olmaqla) istehsal və mübadilə proseslərində bazar münasibətlərinin hökmran olduğu model olmuşlar. Lakin qeyd etmək lazımdır ki, təsərrüfat həyatının xalis bazar münasibətləri əsasında təşkili mümkün deyildir və buna görə də bütün milli iqtisadi sistemlərdə mövcud olan **müasir iqtisadi modellər «qarışıq iqtisadiyyatın» müxtəlif variantlarıdır.** Başqa sözlə, bu modellərin heç birini dövlətin müdaxilə etmədiyi nə xalis bazar iqtisadiyyatı, nə də xalis planlı iqtisadiyyat adlandırmaq düzgün deyildir.

**«Qarışıq iqtisadiyyat» termini iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin milli sistemləri haqqında işlədilir.** Bəzi tədqiqatçılar hesab edirlər ki, «qarışıq iqtisadiyyat» anlayışının mahiyyəti bu bir müəyyən edilərkən yalnız Qərbi Avropa dövlətlərinin milli modelləri əsas götürülür.

Qeyd etmək lazımdır ki, cəmiyyətin iqtisadi həyatında dövlətin iştirakının hüdudu və dərəcəsi (dövlət mülkiyyətinin miqyası, ÜDM-də dövlət büdcəsinin və onun məxaric hissəsinin xüsusi çəkisi, dövlət tərəfindən sosial sahənin maliyyələşdirilməsi, makroiqtisadi siyasət yeridilməsi və makroiqtisadi mühitin tənzimlənməsi) milli modellərin tiplərə ayrılmasında istifadə olunan ən mühüm meyardır.

**İnkişaf etmiş ölkələr bazar iqtisadiyyatının aşağıdakı üç qrup ölkə modelinə görə bir-birindən fərqlənir:** 1) liberal bazar iqtisadiyyatı modeli; 2) sosial yönümlü bazar iqtisadiyyatı modeli; 3) sosial-demokrat bazar iqtisadiyyatı modeli.

**Liberal (buna xüsusi-korporativ model də deyilir)** bazar iqtisadiyyatı modeli üçün aşağıdakı cəhətlər səciyyəvidir:

-bazar subyektlərinin azadlığının qanunvericiliklə təmin edilməsi;

-makroiqtisadi siyasət yeritməklə dövlət tərəfindən tənzimləmənin dairəsinin məhdudlaşdırılması;

-xüsusi mülkiyyətin mütləq üstünlüyə malik olması;

-ÜDM-də dövlət büdcəsinin və dövlət investisiyalarının, dövlət xərclərinin strukturunda isə sosial təminat xətti ilə ödənişlərin xüsusi çəkisinin nisbətən aşağı olması.

Bu model xalis şəkildə Böyük durğunluq dövrünə qədər ABŞ-ın iqtisadiyyatı üçün səciyyəvi olmuşdur. **Və hazırda ABŞ-ın iqtisadi sistemi liberal modelin etalonu hesab edilir.**

**Sosial yönümlü** bazar iqtisadiyyatı modeli aşağıdakı cəhətləri ilə fərqlənir:

- dövlət mülkiyyətinin xüsusi çəkisinin nisbətən böyük olduğu «qarışıq iqtisadiyyat» mövcuddur;

- makroiqtisadi tənzimləmə yalnız pul-kredit və vergi-büdcə siyasəti ilə həyata keçirilmir, həm də iqtisadiyyatın başqa sahələrini (struktur, investisiya siyasəti) və əmək münasibətlərini (məşğulluğun tənzimlənməsini) əhatə edir;

-iqtisadiyyatda rəqabət mühitinin qorunub saxlanması dövlət orqanları üçün xüsusi əhəmiyyət kəsb edir. Buna struktur siyasəti vasitəsilə, habelə kiçik və orta biznesin inkişaf etdirilməsinə təsir göstərilməsi yolu ilə nail olunur;

- ÜDM-də dövlət büdcəsinin xüsusi çəkisi yüksək olur («rifah dövləti»);
- dövlətin aparıcı rol oynaması şərti ilə əhalinin sosial müdafiəsi sistemi inkişaf etmiş olur. Dövlət bu məqsədlərə büdcədən xeyli vəsait ayırır;
- demokratik təsisatların fəaliyyət göstərməsi. Bütün bu keyfiyyətlər sosial bazar təsərrüfatının Almaniya və neoliberal modellərində öz təcəssümünü tapmışdır.

**Bazar iqtisadiyyatının sosial-demokrat modeli sosial yönümlü bazar iqtisadiyyatı modelinə yaxındır.** Lakin onun özünə məxsus xüsusiyyəti də vardır. Bu, öz əksini bazar iqtisadiyyatı şəraitində son dərəcə sosiallaşdırmada tapır və aşağıdakı cəhətlərdə göstərir:

- strukturunda sosial təyinatlı obyektlərin üstünlük təşkil etdiyi dövlət bölməsinin rolu böyükdür;
- ÜDM-də dövlət büdcəsinin payı 50%-dən çox, büdcənin məxaric hissəsində sosial sahələrin maliyyələşdirildiyi maddələr üstünlüyə malik olur;
- əmək münasibətləri müəssisə və sahələr səviyyəsində deyil, milli iqtisadiyyat səviyyəsində tənzimlənir;
- dövlətin sosial siyasətinə işsizliyin ən aşağı həddə endirilməsi və əhalinin gəlirlərinə görə fərqləndirilməsi vasitələri daxil edilir;
- demokratiya yüksək səviyyədə inkişaf etmişdir.

Bazar iqtisadiyyatının bu modeli Şimali Avropa, hər şeydən əvvəl Skandinaviya ölkələri üçün səciyyəvidir. **Bu iqtisadi sistem daha çox İsveç modeli kimi tanınır.**

Beləliklə, nəzərdən keçirilən üç bazar iqtisadiyyatı modeli bir-birindən aşağıdakı parametrlərinə görə fərqlənir:

**Birincisi**, mülkiyyətin strukturunda müxtəliflik vardır. Belə ki, birinci modeldə xüsusi mülkiyyət mütləq üstünlüyə malik olduğu halda, ikinci və üçüncü modellərdə qarışıq iqtisadiyyatın proporsiyalarına üstünlük verilir;

**İkincisi**, yeridilən sosial siyasətdə fərq vardır. Belə ki, birinci modeldə sosial siyasət əhalinin müəyyən hissəsinə, aztəminatlı təbəqəsinə yönəldildiyi halda, ikinci modeldə bütün əhaliyə yönəldilir, üçüncü modeldə isə mahiyyət etibarilə cəmiyyətin yüksək elitasının mənafeyini nəzərə alan sosial siyasət yeridilir.

**Üçüncüsü**, dövlətin yenidənbölgü proseslərində iştirakında fərq vardır. Bu, birinci modeldən üçüncü modelə qədər yüksələn xətt üzrə gedir;

**Dördüncüsü**, iqtisadiyyatda dövlətin iştirakının hüdudlarında fərq vardır. Bu da üçüncü bənddə göstərilən istiqamətdə genişlənir.

**Dünya təsərrüfatında elə ölkə modellərinə də rast gəlinir ki, onu üç əsas bazar modeli arasında keçici forma adlandırmaq olar.** Məsələn, Fransanın iqtisadi sistemi liberal və neoliberal bazar modelləri arasında aralıq mövqe tutur.

Yuxarıda göstərilən modellərdən hər hansı birinə aid edilməsini çətinləşdirən və bir sıra spesifik xüsusiyyətlərə malik olan **Yaponiyanın iqtisadi modelini xüsusi qeyd etmək lazımdır.** Bu xüsusiyytlərdən biri bütün sosial sahələrdə Yaponiya həyat tərzi ənənələrinə sədaqət, hörmət və etimad əsasında insanlar arasında meydana çıxan münasibətlərin həmahəngliyini nəzərdə tutan cəmiyyətin sosial təşkilidir. Cəmiyyətin iqtisadi həyatında sosial, mədəni və dini amillərin əhəmiyyətini məhz bu model nümayiş etdirir.

**İqtisadi modellərin müxtəlifliyi inkişaf etməkdə olan ölkələr üçün də səciyyəvidir.** Bu modelləri ixrac və idxal strategiyaların

əsas götürməklə şərti olaraq aşağıdakı iki qrupa bölmək olar: 1) ixrac yönümlü iqtisadiyyat; 2) idxala üstünlük verilən iqtisadiyyat. Birinci qrupa aid edilən modelə Cənubi Koreya modeli misal ola bilər. Latın Amerikası ölkələri isə keçən əsrin 80-ci illərinədək idxala üstünlük vermişlər.

**Cənubi Koreya modeli** hər şeydən əvvəl ölkə əhalisinin mənəvi keyfiyyətləri və psixoloji xüsusiyyətləri, onun əməksevərliyinə və üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşmasına əsaslanır. Bu model üçün həmçinin dövlət orqanlarının iqtisadiyyatın yenidən qurulmasında fəal iştirakı səciyyəvidir. Bazar münasibətlərinin inkişaf etmiş olduğu ölkələrlə müqayisədə bir qədər zəif inkişaf etməsinin nəticəsidir ki, Cənubi Koreya iri korporasiyaların timsalında (bunlar sonralar maliyyə-sənaye konqlomeratlarına çevrilmişlər) bazar iqtisadiyyatına geniş meydan verilməsinə məqsədyönlü təsir göstərmişdir. Bundan başqa, dövlət orqanları xırda və orta sahibkarlığı hərtərəfli müdafiə etmiş və bununla da çox qısa müddətdə cəmiyyətdə orta sinfin formalaşmasnıa şərait yaratmışdır. Nəhayət Cənubi Koreya modelinin maraq doğuran daha bir ünsürü ondan ibarətdir ki, vəzifələr mərkəzlə əyalətlər arasında tarazlaşdırılmış qaydada bölünmüşdür və bu, inkişaf etmiş bazar iqtisadiyyatının fomalaşmasında mühüm rol oynamışdır.

Keçən əsrin 60-cı illərinin axırları və 70-ci illərinin əvvəllərində gəlirləri orta səviyyədən aşağı olan (1990-cı illərin ortalarında bu ölkələrin sayı 47-ə bərabər olmuş və hər nəfərə düşən ÜDM 766-3035 ABŞ dolları təşkil etmişdir) ölkələr idxal etmək yolu ilə sənayeləşdirmə siyasəti yeritməyə başlamışlar. Bununla da ölkədə mövcud olan yeyinti və toxuculuq sənayesi, içki və tütün məmulatları istehsalı ilə yanaşı, metallurgiya və metal emalı sənayesi sahələri, maşınqayırma və elektrotexniki maşınların bəzi növləri (soyuducular, sərinkeşlər, yuyucu maşınlar) istehsal edilməyə başlanmışdır. İstehsalatların bir çoxu xarici kapitalın

iştirakı ilə yaradılmışdır. Bu ölkələrdə həmçinin istehsal və köməkçi infrastrukturun yaradılmasına xüsusi diqqət yetirilmiş, nəqliyyat və energetika şəbəkələri, rabitə sistemi inkişaf etdirilmişdir. Ölkələrin çoxunda özlərini milli sənayenin, ticarətin və kənd təsərrüfatının kreditorları kimi göstərən kommersiya bankları meydana gəlmişdir.

Hökumət vergi-büdcə və pul-kredit siyasətinin «alətlərindən» səmərəli istifadə etməyi, vətəndaşların gəlirlərindən, daşınmaz əmlak və torpaq sahələrinin sahiblərindən tutulan vergiləri yığmağı öyrənmişdir. **Son illərdə ölkələrin** çoxunda dövlət müəssisələrinin özəlləşdirilməsinə başlanmışdır ki, bu da iqtisadiyyatın bazar münasibətləri əsasında yenidən qurulmasının həlledici məsələlərindən biridir.

## 24.3. Milli iqtisadiyyatın açıq olmasının əhəmiyyəti və onu ifadə edən göstəricilər

Dövlətlə iqtisadiyyat arasında qarşılıqlı fəaliyyət sahəsində çox mühüm və dünya iqtisadiyyatına bilavasitə aidiyyatı olan əsas məsələlərdən biri də milli iqtisadiyyatın qloballaşan dünya iqtisadiyyatına daxil olmasının, başqa sözlə, milli iqtisadiyyatın açıq olması dərəcəsinin dövlət tərəfindən tənzimlənməsidir.

Qətiyyətlə demək olar ki, müasir dövrdə heç bir ölkə dünya birliyindən təcrid olunmuş halda təklikdə inkişaf edə bilməz və bunun perspektivi də yoxdur. Planetin ən ucqar nöqtələrində belə, iqtisadi həyat hər hansı bir formadasa dünya iqtisadiyyatı ilə qırılmaz tellərlə bağlıdır. Bu prosesin ən bariz nümunəsi əmtəə və xidmətlər axınının daim artması, kapitalın ölkələrarası miqrasiyası üçün liberallaşma rejiminin əhəmiyyətli dərəcədə genişlənməsidir. Ölkələri beynəlxalq mübadilədə fəal iştirak etməyə sövq edən başqa bir səbəb onların bir-biri ilə rəqabət aparması, bəhsləşməsidir. **Dünya bazarına yalnız yüksək key**

**fiyyətə malik, yeni tələbatları ödəyə bilən, aşağı qiymətlərlə təklif olunan və deməli, az xərclə istehsal edilən məhsullar yol tapa bilir.** Bu mübadilə prosesində iştirak etmək, yalnız istehsal amillərinin təzələnməsi hesabına rəqabətdə üstünlük qazanmaq və istehsal xərclərində üstünlüyə malik olmaq üçün daim axtarışda olduqda mümkündür. Aydın məsələdir ki, **beynəlxalq rəqabət texniki tərəqqinin güclü amilidir**. Çünki o, buraxılan məhsulların daim təzələnməsini, onların keyfiyyətinin yüksəldilməsini, ən müasir texnologiyalar əsasında istehsal xərclərinin aşağı salınmasını tələb edir. Bu cür rəqabətin mövcud olmasının zəruri şərtlərindən biri ümümdünya təsərrüfatına daxil olan bütün ölkələrin iqtisadiyyatlarının açıq olmasıdır.

**Açıq iqtisadiyyat dedikdə**, inkişaf istiqaməti dünya təsərrüfatında fəaliyyət göstərən meyllərlə müəyyən olunan iqtisadiyyat nəzərdə tutulur. Həm də bu zaman xarici ticarət dövriyyəsi elə bir səviyyəyə çatır ki, bu həmin ölkədə ümumi iqtisadi inkişafı stimullaşdırmağa başlayır.

Bir sıra ekspert qiymətləndirmələrinə görə müasir şəraitdə xarici iqtisadi əlaqələrin ölkə iqtisadiyyatının inkişafına stimullaşdırıcı təsiri özünü onun xarici ticarət dövriyyəsi ÜDM-in 25 %-ə bərabər olduqda daha qabarıq şəkildə göstərir.

İqtisadiyyatın açıq xarakterdə olmasının artması və ya azalması haqqında mühakimə yürütməyə imkan verən meyar kimi əksəriyyət hallarda xarici ticarət dövriyyəsinin ÜDM-ə nisbəti kimi müəyyən edilən **elastiklik əmsalından istifadə olunur.** İdxalın ÜDM-ə olan nisbəti kimi müəyyən edilən elastiklik əmsalı ölkənin ÜDM-i 1% artanda idxalın nə qədər arta biləcəyini göstərir. İxracın elastiklik əmsalı isə həmin məhsulu idxal edən ölkədə ÜDM 1% artdıqda ixracın nə qədər artacağını göstərir. Bu əmsalların qiymətinin vahiddən böyük olması onun iqtisadiyyatının açıq olmasının artdığını, vahiddən kiçik olması isə azaldığını göstərir.

**İqtisadiyyatın açıq olmasını ifadə edən daha geniş göstəricilər sistemindən istifadə olunur.** Belə ki, Rusiya Elmlər Akademiyasının Xarici İqtisadi Tədqiqatlar İnstitutunun tədqiqatlarının birində iqtisadiyyatın açıq olmasını ifadə edən aşağıdakı əlamətlərdən istifadə olunması tövsiyə edilir:

a) **Makrosəviyyədə**:

- ölkənin sabit xarici iqtisadi ixtisaslaşmaya nail olması. Bu zaman nəzərə almaq lazımdır ki, dünya təsərrüfatı ilə mübadilədə ölkənin iştirakı daxildə məhsul çatışmazlığı, yaxud da artıqlığı ilə əlaqədar deyildir. Bu, müqayisəli istehsal xərcləri ilə bağlıdır;
- əsas məhsulların daxili və dünya qiymətləri arasındakı nisbətin müqayisə oluna bilməsi;
- ölkənin valyuta-maliyyə vəziyyətinin sabitliyi.

b) **Mikrosəviyyədə**:

- bütün mülkiyyət formalarına mənsub olan müəssisələrin xarici əmtəə, xidmət və kapital bazarlarına sərbəst surətdə çıxa bilməsi;
- təsərrüfat əməliyyatları həyata keçirilərkən iqtisadi subyektlər tərəfindən ölkələrin, xarici tərəfdaşların, habelə bazarların sərbəst seçim imkanlarının olması.

İqtisadiyyatın açıq olması ilə əlaqədar təhlil apararkən çoxsaylı əlamətlərdən istifadə olunması heç də həmişə onun mahiyyətinin başa düşülməsini asanlaşdırmır, əksinə, onu bir qədər də çətinləşdirir. Odur ki, təhlil məqsədi ilə ÜDM-dən və xarici ticarət dövriyyəsindən (yəni müəyyən dövr, adətən bir il üzrə ölkənin idxal və ixracının məbləği) istifadə edilir.

Vətəndaşların, sahibkarların və dövlətin gəlirləri kimi ÜDM ümumi daxili tələbatın həcmini ifadə edir. Bu tələbin kəmiyyət və keyfiyyət parametrləri heç zaman bütövlükdə nə milli istehsalın həcmi, nə onun əmtəə strukturu ilə uyğun gəlmədiyi üçün daxili tələbin və ölkədə istehsal olunan məhsullara və xidmətlərə

görə təklifin bir hissəsi bir-birinə uyğun gəlmir. Digər tərəfdən, daxili təsərrüfat məkanı nə qədər geniş olarsa, məhsuldar qüvvələrin inkişafı eyni səviyyədə qalmaqla, istehsal olunan məhsul və xitmətlərin bir o qədər çox hissəsi öz ölkəsinin daxili bazarında qalır və özünün istehlakçılarını tapır.

**Milli iqtisadiyyat nə qədər böyük**, ölkənin təbii və istehsal imkanları nə qədər geniş olarsa, məhsul idxal etmədən daim artmaqda olan istehsal və şəxsi tələbatın ödənilməsi də bir o qədər yaxşı təşkil oluna bilər.

**Lakin ölkənin açıq olması dərəcəsi ilə onun iqtisadi potensialı arasında ciddi tərsmütənasiblik asılılığı yoxdur.** Məsələn, Belçika və Yaponiyanın ÜDM-i arasındakı nisbət 1:17,1-ə, onların xarici ticarət kvotaları arasındakı nisbət 7,5:1-ə, hər nəfərə görə xarici ticarət dövriyyəsinin kəmiyyəti arasındakı nisbət isə 5,5:1-ə nisbətinə bərabərdir. Hər iki ölkənin ümumi məhsulunun həcminə görə mühakimə yürütdükdə Yaponiya iqtisadiyyatının açıq olması göstəriciləri gözlənildiyindən yüksək olmalıdır. Bunu onunla izah etmək olar ki, milli iqtisadiyyatın açıq olması dərəcəsini müəyyən edərkən iki həlledici göstərici - ölkənin məhsuldar qüvvələrinin inkişaf səviyyəsi və iqtisadi potensialının miqyası ilə yanaşı, digər amillərdən də, məsələn, ölkənin təbii ehtiyatlarla nisbi mənada təmin edilməsindən istifadə olunur.

**Əraziyə görə təxminən eyni böyüklükdə olan iki ölkə - Yaponiya və Norveçi götürək.** Yaponiyanın ərazisi 372,3 min kv.km, Norveçin ərazisi isə 324,2 min kv.km-dir. Yaponiya təbii ehtiyatlara görə çox «kasıbdır». Onun alüminium, nikel və uran filizlərinə, fosforitə olan tələbatı 100%, neftə, təbii qaza və dəmir filizinə olan tələbatı 99%, misə olan tələbatı 97%, ağac materiallarına olan tələbatı isə 50% idxal hesabına ödənilir. Bu sahədə Norveç çox «dövlətlidir». Onun dəmir filizi, titan, neft, bir sıra əlvan metal ehtiyatı vardır. Yaponiya yun və pambığa olan tələbatını tamamilə idxal hesabına ödəyir, istehlak olunan taxılın

yarıya qədərini xaricdən alır. Yaponiyanın belə idxal asılılığı ticarət balansında tarazlıq yaratmaq üçün onu özünün ixrac məhsullarını genişləndirməyə məcbur etmişdir.

**Digər amillər içərisində milli istehsalın sahə strukturu xususi diqqət tələb edir.** İqtisadiyyatın strukturunda baza sahələrinin- metallurgiya, energetika və i.a. - xüsusi çəkisi nə qədər yüksək olarsa, onun beynəlxalq ixtisaslaşma səviyyəsi və ölkənin açıq olması dərəcəsi də bir o qədər aşağı olur, əksinə, emaledici sənaye, xüsusilə də onun maşınqayırma, elektronika, kimya, sintetik materiallar istehsal olunan sahələrinin olması, detal, əməliyyatlar və s. üzrə ixtisaşlaşmasının dərinləşməsini nəzərdə tutur. Bunun sayəsində ölkələrin qarşılıqlı texnoloji asılılıqlarının tərəqqi edən artımı baş verir.

**Beləliklə, milli iqtisadiyyatın açıq olması dərəcəsi nə qədər yüksək olarsa, onun məhsuldar qüvvələri də yüksək səviyyədə inkişaf etmiş olur.** Ölkə iqtisadiyyatının sahə strukturunda texnoloji əmək bölgüsünün xüsusi səkisi nə qədər yüksək olarsa, bu, onun ümumi iqtisadi potensialının və xüsusi təbii resuslarla özünü təmin etməsinin bir o qədər aşağı olduğunu göstərir.

Milli iqtisadiyyatın açıq olması ilə dünya iqtisadiyyatı arasındakı qarşılıqlı əlaqələrin mövcudluğu aydındır.Milli iqtisadiyyatın açıq olmasının yüksək səviyyəsi bir qayda olaraq onun dünya təsərrüfat əlaqələrinə, qlobal təsərrüfat sisteminin formalaşmasına cəlb edilməsi dərəcəsinin yüksək olduğunu deməyə əsas verir.

Bu sahədə milli dövlətlər də çox böyük rol oynayırlar. Sözün geniş mənasında hər bir ölkədə milli iqtisadiyyatın açıq olması və onun dünya təsərrüfatına cəlb edilməsi dərəcəsi yalnız milli istehsalçıların bazarda davranışlarının deyil, həm də dövlətin xarici ticarət ənənələrinin nəticəsidir. **Kiçik ölkələrin hökumətləri qapalı inkişafın məhdud və perspektivsiz, açıq tipli inkişafın isə səmərəli olduğunu hamıdan əvvəl dərk edirlər.** Böyük dövlətləri

də xarici iqtisadi strategiyaları milli mənafelərə tabe edilmişdir. Lakin qeyd etmək lazımdır ki, bütün dövrlərdə milli dövlətləri açıq iqtisadiyyatla əlaqədar müvafiq tədbirlər görməyə vadar edən səbəblər olmuşdur. Bu tədbirlərə yerli istehsalçıların bir hissəsinin mənafelərinin müdafiəsi və milli ənənələrə sadiqlik, xarici təsirin məhdudlaşdırılması, haqsız rəqabətə yol verilməməsi və s. aiddir. Lakin bunlara baxmayaraq dünyada belə bir meyl hökm sürür ki, milli ənənələrə sadiq qalmaqla, hər bir ölkə qloballaşan dünya təsərrüfatında fəal iştiraka üstünlük verməli və ondan faydalanmağa çalışmalıdır. Bunu həmin ölkələrin milli mənafeləri tələb edir.

## NƏTİCƏ

- tarixi təcrübəyə əsasən demək olar ki, dövlət və iqtisadiyyat bir-biri ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərirlər. Lakin bu qarşılıqlı əlaqələrdə ayrı-ayrı dövrlərdə müxtəliflik olmuşdur. Müasir dövrün səciyyəvi cəhəti ondan ibarətdir ki, iqtisadi və sosial proseslərin tənzimlənməsində dövlətin rolunun artması meylləri müşahidə olunur;
- hazırda dünya iqtisadiyyatının inkişaf meyllərindən biri yoxsulluğun azaldılması və gələcəkdə tamamilə aradan qaldırılmasıdır. Çünki ölkə iqtisadiyyatının sabit inkişaf etdirilməsinin təmin olunması bu problemi həll etmədən mümkün deyildir. Buna nail olunması isə bir sıra şərtlərin (qanunlara əməl olunması, əmək ehtiyatları və infrastruktura investisiya qoyulması, ətraf mühitin mühafizəsi və i.a.) həyata keçirilməsi əsasında mümkündür;
- «ölkə və ya milli model» anlayışı elmi dövriyyəyə XX əsrin 70-ci illərinin ortalarında daxil olmuşdur və onun mahiyyəti haqqında iqtisadçılar arasında fikir ayrılıqları vardır;

- iqtisadi inkişaf modelləri qiymətləndirildikdə və milli iqtisadi sistemləri müqayisə etdikdə müxtəlif meyarlardan istifadə olunur. Bu və ya digər iqtisadi modelin səmərəliliyi, onun cəmiyyət həyatına uyğun gəlib-gəlməməsi, xarici və daxili uyğunsuzluqlara daim və adekvat reaksiya verməsi imkanları ilə müəyyən edilir;

- qarışıq iqtisadiyyat termini adətən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin milli sistemləri ilə əlaqədar işlədilir. Bəzi iqtisadçılar hətta belə hesab edirlər ki, «qarışıq iqtisadiyyat» anlayışının mahiyyəti belə müəyyən edilərkən yalnız Qərbi Avropa ölkələrinin milli modelləri əsas götürülür;

- sənayecə inkişaf etmiş ölkələr bazar iqtisadiyyatının aşağıdakı modellərinə görə fərqlənir: 1) liberal bazar iqtisadiyyatı modeli; 2) sosial yönümlü bazar iqtisadiyyatı modeli; 3) sosial-demokrat bazar iqtisadiyyatı modeli;

- dünya təsərrüfatında elə ölkə modellərinə də rast gəlinir ki, onu üç əsas bazar modeli arasında keçici forma adlandırmaq olar. Məsələn, Fransanın iqtisadi sistemi liberal və neoliberal bazar modelləri arasında aralıq mövqe tutur;

- iqtisadi modellərin müxtəlifliyi inkişaf etməkdə olan ölkələr üçün də səciyyəvidir. Bu modelləri şərti olaraq aşağıdakı iki qrupa bölmək olar: 1) ixrac yönümlü iqtisadiyyat; 2) idxala üstünlük verilən iqtisadiyyat. Birinciyə Cənubi Koreya modeli, ikinciyə isə Latın Amerikası ölkələri misal ola bilər;

- milli iqtisadiyyatın açıq olması dərəcəsi nə qədər yüksək olarsa, onun məhsuldar qüvvələri də yüksək səviyyədə inkişaf etmiş olur. Lakin burada ehtiyatlı olmaq lazımdır. Başqa sözlə, elə «açıq qapı» siyasəti yeritmək lazımdır ki, ölkə inkişaf etmiş ölkələr üçün xammal bazasına çevrilməsin.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## *Azərbaycan dilində:*


1) Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1997.

2) Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiya qanunu. 25 may 1991.

3) «Mülkiyyət haqqında» Azərbaycan Respublikasının qanunu. Bakı, 1991.

4) «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının qanunu. 7 yanvar 1993 və 10 avqust 2000.

5) «İcarə haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 3 aprel 1992.

6) «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 15 dekabr 1992.

7) «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 13 yanvar 1995.

8) «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 12 iyul 1994.

9) «Lizinq xidməti haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 29 noyabr 1994.

10) «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 4 mart 1993.

11) «Haqsız rəqabət haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 2 iyun 1995.

12) «Maliyyə-sənaye qrupları haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 23 aprel 1996.

13) «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 15 dekabr 1998.

14) «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 4 iyul 1999.

15) «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 30 noyabr 1999.

16) «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının qanunu (dəyişiklik və əlavələrlə), 20 iyun 1995.

17) «Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının qanunu. 15 yanvar 1992.

18) «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının qanunu, 24 mart 1995.

19) «Dövlət borcu haqqında» Azərbaycan Respublikasının qanunu, 29 dekabr 1992.

20) «Statistika haqqında» Azərbaycan Respublikasının qanunu, 18 fevral 1994.

21) «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının qanunu, 24 oktyabr 1994.

22) Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2000

23) Barat Nuriyev, Bazar iqtisadiyyatı və Azərbaycan. Bakı, «Elm»; 1999.

24) Qiymətin əmələ gəlməsi. Prof. İ.Qarayevin ümumi redaktəsi ilə. Bakı, 2000.

25) Fazil İsmayılov. Azərbaycanda iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsinin bəzi problemləri. Gəncə-2006.

26) A.Əliyev, A.Şəkərəliyev. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti, Bakı, 2002.

27) İqtisadi nəzəriyyə. Dərslik. «Çaşıoğlu», 1999

28) İ.Kərimli. Milli iqtisadiyyat: yeni iqtisadi və sosial münasibətlər. Bakı, 1994

29) Kərimov C.N., Hüseynov C.A., Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1998.

30) Nəbiyev N. Təbii sərvətlər və istehsal. Bakı, «Elm» 1999.

31) Oqtay Məmmədli. İqtisadi nəzəriyyə. Ali məktəblər üçün dərs vəsaiti. Gəncə, 2004.

32) Şahbaz Muradov. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, «Elm» nəşriyyatı, 2004.

33) Vəliyev D. Beynəlxalq iqtisadiyyat. Bakı, 1997.

### *Rus dilində:*

34) Албегова И.М., Емцов Р.Г., Холопов А.В. Государственная экономическая политика: опыт перехода к рынку (под общей ред. А.Б.Сидоровича), М; Дело и сервис, 1998.

35) Бабашкина А.М., Государственное регулирование национальной экономики М; "Финансы и Статистика", 2004

36) Государственное регулирование рыночной экономики (Под общей ред. Б.И.Кушлина, Н.А.Волгина), М., Экономика, 2000

37) Государственное регулирование экономики в современных условиях. М., ИЭРАН, 1997.

38) Государственное регулирование рыночной экономики (Под ред. И.И.Столярова), М., изд-во «Дело», 2002.

39) Государственное регулирование рыночной экономики. Учебное пособие М., «Дело» 2002

40) Грицюк Т.Б. Государственное регулирование экономики. Теория и практика. М., 2005

41) Загороднева А.М. Государственное регулирование занятости и рынка труда. М., МГУ 1996.

42) Занятость и рынок труда: новые реалии, национальные приоритеты, перспективы. М.,Наука, 1998.

43) Индикативное планирование: теория и пути совершенствования. СПб, Знание, 2000.

44) Кемпбелл Р. Макконнелл, Стенли Л Брю экономикс. Принципы, проблемы и политика. В двух томах, Баку, изд-во «Азербайджан», 1992

45) Кондратьев Н.Д. Проблемы экономической динамики. М., Экономика, 1989.

46) Кузьбожев Э.Н, Самофалова Е.Б. Управление структурной динамикой экономики региона. Курск, изд-во КГТУ, 2003

47) Ламперт Х, Социальная рыночная экономика. Германский путь. М., Дело, 1993

48) Лексин Б.Н., Швецов А.Н. Государство и регионы. Теория и практика государственного регулирования территориального развития. М., УРСС, 2000

49) Мировая экономика (Под ред. А.С.Булатова) М., Юристь, 1999

50) Мировая экономика на рубеже XXI века. Сборник обзоров. М., 1994.

51) Национальное экономика. Учебник (Под общей ред. Б.А.Шульги), М., изд-во Российской экономической академии, 2002.

52) Национальное богатство в условиях формирования рыночных отношений М., Наука, 1994

53) Орешин В.П. Государственное регулирование национальной экономики. М.Юристь, 1999.

54) Политика доходов и заработной платы. Учебник. (Под ред. П.В.Савченко, Ю.П.Кокина). М.Юристь, 2000

55) Роль государства в становлении и регулировании рыночной экономики. М.ИЭРАН, 1997

56) Самедзаде З.А. Этапы большого пути. Экономика Азербайджана за полвека, ее реалии и перспективы. Баку, 2004

57) Система национальных счетов. Инструмент макроэкономического анализа. Учебное пособие (Под ред. Ю.Н.Иванова), М. Финстатинформ, 1996

58) Стиглиц Дж. Ю. Экономика государственного сектора. М. изд-во МГУ, 1997

59) Феликс Шамхалов. Государство и экономика. Основы взаимодействия. Учебник. М., Экономика, 2000

60) Экономическая безопасность. Производство, финансы, банки (Под ред. В.К.Сенчагова), М., Финстатинформ, 1998

61) Эклунд К. Эффективная экономика-шведская модель. Пер. со швед. М., Экономика, 1991

62) Экономика. Учебник (Под ред. А.С.Булатова), М., БЕК, 1997

63) Экономическая теория. Под ред. Проф. В.Д.Камаева. Учебник для вузов. М., ВЛАДОС, ИМПЕ, 1999

64) Якобсон Л.И.Экономика общественного сектора. Основы теории государственных финансов. М., Аспект пресс, 1998.

**O.Məmmədli, M.İsmayılov, F.İsmayılov**

# MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏMƏSİ


| | |
|---|---|
| Naşir: | Rafiq Xan Sayad oğlu |
| Məsul redaktor: | Kəmalə Günəşli |
| Texniki redaktor: | Kamran Əhmədli |
| Korektor: | İsmayıl Familoğlu |
| Operatorlar: | Gülmira İsmayılova |
| | Nərminə İsmayılova |
| Dizayner: | Ceyhun Əliyev |

Yığılmağa verilmişdir: 12.08.2008
Çapa imzalanmışdır: 08.10.2008
Kağız formatı: 60x84 1/16
Şərti çap vərəqi 35
Tirajı 3000
Sifariş № 217
Kitab ofset üsulu ilə «MBM» mətbəəsində
çap edilmişdir.
Nəşriyyatın ünvanı: Bakı, F.Ağayev küç, 14,
Tel.: (+994 12) 439-75-06, (+994 12) 511 54 36
(+994 50) 216 54 36